*Manya Səxavətqızı*

# VƏTƏN FƏDAİLƏRİ

# ŞƏKİ ŞƏHİDLƏRİ

## III hissə





Baş
BÖYÜK
Qafqaz
sıra
ZAQATALA
Salavat aşr.
2895
Bazardüzü d.
4466
4243
Şahdağ
4191
Tufan d.
Yan silsilə
QAFQAZ
dağları
2205
Dübrar dağı
Qusar
düzü
Samur
XAÇMAZ
QUBA
ŞABRAN
Qudyalçay
Qaraçay
Vəlvələçay
Samur-Abşeron kanalı
Xəzər
dənizi
Ceyrançöl
690
Çobandağ
QAZAX
TOVUZ
Kür
Qabırrı
Mingəçevir su anbarı
Acınohur düzü
Bozdağ c-d
Əyriçay
ŞƏKİ
Əlicançay
Türyançay
QƏBƏLƏ
İSMAYILLI
ŞAMAXI
Ləngəbiz s-d
Pirsaat
Ələt tirəsi
Qobustan
SUMQAYIT
Abşeron y-a
Böyük Şor g.
BAKI
Qum a.
Daş Zirə a.
Böyük Zirə a.
Çilov a.
Şah dili
Zənbil a.
Xərə Zirə a.
Zəyəmçay
ŞƏMKİR
Şəmkirçay
GƏNCƏ
GÖYGÖL
Gəncəçay
KİÇİK
Şahdağ silsiləsi
MİNGƏÇEVİR
YEVLAX
BƏRDƏ
İncəçay
Tərtər
Kəpəz d. 3066
Murovdağ
c-d
3724
Gamış d.
Sərsəng su anbarı
KƏLBƏCƏR
Xaçınçay
QAFQAZ
AĞDAM
XANKƏNDİ
ŞUŞA
3616
Dəlidağ
Qarabağ yaylası
Qarabağ s-d
Köndələnçay
FÜZULİ
Həkəri
QUBADLI
Gəyən düzü
Araz
Qarabağ düzü
Yuxarı Qarabağ kanalı
AĞCABƏDİ
BEYLƏQAN
Yuxarı Şirvan kanalı
Bas
GÖYÇAY
Kür
KÜRDƏMİR
Şirvan düzü
Şirvan
kollektoru
Araz
Mil düzü
İMİŞLİ
Sarısu gölü
SABİRABAD
Muğan düzü
ovalığı
BİLƏSUVAR
NEFTÇALA
Salyan düzü
Bolqarçay
MASALLI
Qızılağac körfəzi
Viləşçay
LƏNKƏRAN
Talış dağları
Kömürköy dağı
2493
ASTARA
Araz
2346
Biçənək aşr.
ŞAHBUZ
NAXÇIVAN
Araz (Naxçıvan) su anbarı
Gilançay
Qapıcıq d.
3904
İlandağ
2415
CULFA
ORDUBAD

MANYA SƏXAVƏTQIZI

# VƏTƏN FƏDAİLƏRİ: ŞƏKİ ŞƏHİDLƏRİ

*III hissə*

"APOSTROF–A"
BAKI–2023



MANYA SƏXAVƏTQIZI

# VƏTƏN FƏDAİLƏRİ: ŞƏKİ ŞƏHİDLƏRİ

*III hissə*

Azadlığa can verən vətəndaşlarının qanları ilə vətən torpağına yazdıqları əsəri sətirlərə həkk etdiyim, şəhidlərin ömürlərinin izi düşən bu kitab sizə əmanətimdir, vətənin vətəndaşı.

Manya Səxavətqızından vətən sevgisitək sonsuz sevgilərlə...

"APOSTROF–A"
BAKI–2023

Layihə rəhbəri və redaktor:
**Manya Səxavətqızı**

Maliyyə dəstəyi:
**Elçin Baba oğlu Calalov**

Layihənin dəstəkçisi:
**Şahin Əbdül oğlu Məmmədov**

**S35 Səxavətqızı Manya.** "VƏTƏN FƏDAİLƏRİ: ŞƏKİ ŞƏHİDLƏRİ". III hissə. Bakı, "Apostrof", 2023, 440 səh.

"VƏTƏN FƏDAİLƏRİ: ŞƏKİ ŞƏHİDLƏRİ" kitabı "VƏTƏN FƏDAİLƏRİ" layihəsinin üçüncü hissəsidir. Layihənin birinci hissəsi "VƏTƏN FƏDAİLƏRİ: NAXÇIVAN ŞƏHİDLƏRİ", ikinci hissəsi isə "VƏTƏN FƏDAİLƏRİ: İMİŞLİ ŞƏHİDLƏRİ" kitablarıdır. "VƏTƏN FƏDAİLƏRİ" layihəsində Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin şərəfli ömür və döyüş yolları tarixə həkk olunur. Kitabda yer alan bütün məqalələr ailələrdən alınan məlumatlar əsasında yazılıb.

**© Manya Səxavətqızı, 2023**

**ISBN: 978-9952-562-96-5**

# AZƏRBAYCANIN TARİXİNƏ BAXIŞ

*(Ön söz əvəzi)*

Azərbaycan xalqının qədimiliyi bu günlərimizə qədər gəlib çıxan neçə-neçə maddi-mənəvi abidələrimizin, yaşı min illərlə hesablanan yaşayış məskənlərimizin şahidliyi ilə sübuta yetirilmişdir. O tarixin gerçək üzünə kölgə salıb gerçəyi dəyişdirməyə çalışan düşmənlərimiz də çoxdur. Tariximizə şərik çıxan düşmənlər torpaqlarımıza da göz dikib, özününküləşdirməyə çalışıblar. Azərbaycan illərlə nankor qonşuların tamahının güdazına gedib. Heç bir tarixi keçmişi olmayan, hər qonşudan bir az torpaq mənimsəyib "Böyük Ermənistan" yaratmaq niyyətində olan bədnam qonşularımız azərbaycanlıların mərhəmətindən, sədaqətindən istifadə edərək dost kimi görünüb öz məqsədlərinə çatmaq üçün gündə bir sima dəyişiblər. Dəfələrlə Azərbaycan torpaqlarında vəhşiliklər, qətliamlar törədiblər. Hər cür cəhdlə rus imperiyasının müstəmləkəçilik siyasətini azərbaycanlılara qarşı yönəldiblər.

XX əsrdə azərbaycanlılar dörd dəfə – 1905–1907-ci, 1918–1920-ci, 1948–1953-cü və 1988–1993-cü illərdə erməni millətçiləri tərəfindən törədilən soyqırım və etnik təmizləmələrə məruz qalaraq ən böyük dəhşəti və vəhşəti yaşayıblar.

1905-ci ildə Rusiya hakimiyyəti daxili iğtişaşlarla sarsılan zaman, həmin etirazlar ermənilərin "Böyük Ermənistan" xülyasını artırmışdı. Onlar Cənubi Qafqazın müxtəlif yerlərində, xüsusən Bakıda misli görünməyən kütləvi qırğınlar törətmişdilər. "Hnçak", "Daşnaksütyun" partiyaları törədilən qırğınlara rəhbərlik etmişdilər.

Ermənilər 1905-ci il fevralın 6-da Bakıda – Sabunçuda günahsız dinc sakin Ağarza Babayevi qətlə yetirirlər. Günahsız vətəndaşımızın öldürülməsi xalqın çarmıxa çəkilmiş səbrini tükədir və etiraz səsləri yüksəlməyə başlayır. Azərbaycanlıların ayağa qalxdığını görən ermənilər Ağarza Babayevin ölümünün təsadüf nəticəsində baş verdiyini desələr də, gerçəyi gizlətmək olmur.

Bakının neftinə göz dikən hiyləgər ermənilər buradan gəlir əldə edib, Cənubi Qafqazda "Böyük Ermənistan" yaratmaq eşqinə düşmüşdülər. Onlar Bakıda dinc əhalini hədəf alır, yaşayış və iş yerlərini talan edirdilər. Bəzi mənbələrə görə,

1905-ci il fevralın 6-dan 9-na qədər davam edən iğtişaşlar zamanı 232 nəfər qətlə yetirilmişdir. Bakının general-qubernatoru knyaz M.Nakaşidze həmin dönəmlərdə iğtişaşların ermənilər tərəfindən törədildiyini aşkar şəkildə bəyan etmişdir. Elə buna görə də knyaz M. Nakaşidze ermənilərin silahlı hücumuna məruz qalmış və öldürülmüşdür.

1905-ci il avqustun 20-də ermənilər Bakıda növbəti dəfə qırğınlar törətmişdilər. Erməni kilsəsindən ucalan zəng səsi eşidilən anda ermənilər azərbaycanlıların üzərinə silahlı hücuma keçmişdilər. Avqustun 30-na qədər davam edən iğtişaşlar zamanı 500-dən çox insan həlak olmuşdur. Neft mədənlərinin yandırılması eyni zamanda insanlara ciddi ziyan vurmuşdur. Həmin il sentyabrın 14-də ermənilər və azərbaycanlılar arasında sülh sazişi imzalanmış, lakin bu saziş oktyabr 20-də pozulmuşdur. 5 gün davam edən iğtişaşlar zamanı 100-ə yaxın insan həlak olmuşdur.

1906-cı ilin payızında azərbaycanlıların təşkilatlanaraq "Difai" partiyasını yaratmaları nəticəsində ermənilərin terror aktlarına, müvəqqəti olsa da, son qoymuş və 1918-ci ilin mart ayınadək şəhərdə asayiş bərpa edilmişdir.

1918-ci ildə Müsəlman Şərqində ilk müstəqil dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Elə həmin il erməniləri dəstəkləyən güclərin köməyi ilə əzəli Azərbaycan torpaqlarında Ermənistan da yaradıldı. Azərbaycanın mədəniyyət mərkəzi, İrəvan xanlığının paytaxtı olan İrəvan emənilərə "bəxşiş" verildi və "Ermənistan Demokratik Respublikasının" paytaxtı elan edildi.

Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyətinin ilk yarandığı anlardan öz ərazi bütövlüyü, istiqlalı uğrunda mübarizəyə başlamışdı. Azərbaycan Respublikasının tarixi torpaqlarında yaranan Ermənistan Respublikası ərazisini genişləndirmək məqsədilə işğal siyasətini davam etdirirdi.

Ermənistan Azərbaycan xalqına qarşı zaman-zaman soyqırımlar törətmiş və etnik təmizləmə siyasətini reallaşdırmışdır. Azərbaycanın bir çox yerlərində Ermənistan hökuməti öz çirkin planını gerçəkləşdirmişdir. O planın əsas məqsədi isə Azərbaycanın göz bəbəyi olan Qarabağdan azərbaycanlıları təmizləmək və özününküləşdirmək olmuşdur. 1918-ci ilin iyulunda Dağlıq Qarabağın erməni icması öz müstəqilliyini elan etmişdi. Erməni quldur dəstələrinin başçısı Andranik Zəngəzuru işğal etdikdən sonra Şuşanın işğalına can atırdı. 19 dekabr 1918-ci ildə Azərbaycan parlamentinin üzvü Qarabəy Əliverdiyev Şuşadakı gərgin vəziyyətlə bağlı, Andranikin yerli əhaliyə qarşı etdikləri barəsində lazımi yerlərə xəbər göndərmişdi. Həmin zaman Azərbaycanın Lehvazçay, Əldərə, Nüvədi, Oxçu, Şəbədin, Meydan, Qaragöl, Qıraq Çimən, Şahidli, Burunlu, Əsgərlər, Tey, Vardanəzir və başqa əraziləri yerlə yeksan edilmiş, əhali qətlə yetirilmiş və dərgin salınmışdı. Sağ qalanlar canlarını qurtarmaq üçün İran tərəfə keçmişdilər. Ermənilər tək Qarabağda deyil, 1918-ci ilin yazında Gəncədə də Azərbaycan əhalisinə divan tutmuşdu. Erməni silahlı dəstələri səhərin alatoranında qəflətən Ərəş qəzasının müsəlmanlar yaşayan Kürd kəndini mühasirəyə alaraq günahsız insanları yuxuda qətlə yetirmişdilər. Azğın düşmən beşikdəki körpələrin qanına susamış, qoca-cavan, qız-gəlin demədən 68 nəfər insanı amansızcasına öldürmüşdü. Qəddarlıqlarını əməllərində göstərən azğın düşmən insanları süngüdən keçirmiş, uşaqların üz dərisini soymuş, körpələri göyə ataraq atəş açmışdılar. İnsanlığın ən utancverici əməllərini ermənilər törətmiş, azərbaycanlılar bu dəhşətlərdən keçmişdilər. Tarixin yaddaşına Mart Soyqırımı kimi həkk olunan 30 mart – 3 aprel tarixlərində soydaşlarımız əsrin faciəsini yaşamışdır. Həmin vaxt Bakı, Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və Daşnaksütunun erməni silahlı dəstələri azərbaycanlılara qarşı qırğınlar törətmiş, etnik təmizləmə siyasəti aparmışdır. Rəsmi mənbələrin məlumatına görə, həmin qırğınlarda 12 minə yaxın azərbaycanlı qətlə yetirilmiş, 10 mindən çox azərbaycanlı itkin düşmüşdür. Həmin tarix Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əliyevin 1998-ci ildə imzaladığı sərəncama əsasən Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur.



1918-ci ilin avqust ayında düşmənin Sərik kəndinə hücumu nəticəsində 11 kişi, 10 qadın, 14 uşaq qətlə yetirilmişdir. Avqustun sonunda Məzrə kəndində 6 kişi qətlə yetirilmiş və bənzər qətliamlar Doşullu, Düdükçü, Aşıq Məlikli, Tatar və Heybətli kəndlərində də törədilmişdir. Nəticədə neçə-neçə günahsız öldürülmüş, yaralanmış və yurd-yuvaları talanmışdır. Bəlaliklə, bir zamanlar Türkiyədən, İrandan Azərbaycana köçürülmüş ermənilərin niyyətləri günü-gündən daha açıq şəkildə sezilirdi. Onlar Zəngəzuru, Şuşanı və bütöv Qarabağı işğal etmək niyyətində idilər.

1918-ci il 20 dekabrda keçirilən iclasda Ermənistanın işğal siyasəti geniş müzakirə olunmuşdur. Həmin vaxt Cümhuriyyətin baş naziri Fətəli Xan Xoyski erməni silahlılarına rəhbərlik edən Andranikin Zəngəzur və Şuşaya yerləşmək arzusunu gözündə qoyduqlarını və Türk qoşunları ilə bərabər onları geri çəkilməyə məcbur etdiklərini Azərbaycanın İstanbuldakı nümayəndə heyətinin sədri Məhəmməd Əmin Rəsulzadəyə məruzə etmişdir. Ancaq düşmənin çirkin planı bəlli olduğu üçün tədbirlərin görülməsi diqqətdə saxlanılmışdır.

1919-cu ilin ilk ayında Qarabağ general-qubernatorluğu yaradıldı. Xosrov bəy Sultanov general-qubernator təyin edildi. 1919-cu ildə Azərbaycan ordusu Andranikin hərbi dəstələrini ölkə ərazisindən çıxarmağa müvəffəq oldu. 1919-cu il

noyabrın 23-də Tiflisdə Azərbaycanla Ermənistan arasında saziş imzalandı. Hər iki tərəf münaqişəni dayandırmaq barəsində öhdəliklər götürmələrinə baxmayaraq hər zaman olduğu kimi Ermənistan tərəfi yenə də atdığı imzanı qan ilə pozdu. Çox qısa zaman sonra on minlik erməni qoşunu Azərbaycan torpaqlarına hücum etdi, Zəngəzurda, Qarabağda dinc əhaliyə divan tutuldu, 40 kənd yerlə yeksan edildi. Həmin zaman Sovet Rusiyası Azərbaycanı işğal etmək planı üzərində işləyirdi, Azərbaycan hər tərəfdən düşmənin işğalına məruz qalmışdı. 1920-ci ilin martında ermənilər Qarabağa növbəti dəfə hücum etdilər. Həmin vaxt Azərbaycan hökuməti general-mayor Həbib bəy Səlimovun başçılığı ilə 20 minlik qoşun Qarabağa yeridildi və qiyam baş verdi. Azərbaycan ordusu Əsgəran və Xocalını azad etdikdən sonra 1920-ci ilin aprel ayında bütöv Qarabağ erməni silahlılarından azad olundu. 1920-ci il aprelin 27-də Səlimov Zəngəzurun da düşməndən azad olunması üçün hücuma keçməyə hazır olduqlarını bildirdi. Lakin həmin zaman Cümhuriyyət rəhbərliyi Sovet Rusiyasının Azərbaycana qarşı hərbi yürüşünün qarşısını almaq barəsində düşünürdü. O dönəmdə Azərbaycan ordusunun böyük hissəsinin Qarabağda olduğu səbəbindən Cümhuriyyət XI Qızıl Ordunun Bakıya yürüşünə əngəl ola bilmədi, ancaq Qarabağ muxtar vilayət kimi olsa da, Azərbaycanın tərkibində qaldı.

İllər ötsə də, ermənilərin niyyətləri dəyişmədi. 1948–1953-cü illərdə ermənilər sovet imperiyasının mənfur siyasətinin himayəsi altında azərbaycanlıları tarixi-etnik torpaqlarından kütləvi şəkildə deportasiya edərək, soydaşlarımızın qeyri-münbit ərazilərə köçürülməsinə səbəb olmuş, bu zaman minlərlə insan həyatını itirmişdi. Bu faciələr son 200 ildə azərbaycanlıların başına gətirilən müsibətlərin zəncirvari təşkili olmuşdur. Ermənistanın ən böyük məqsədi Azərbaycanın tarixi keçmişini silmək, azərbaycanlıları yurdsuzlaşdırmaq idi. Bu minvalla 1948–1950-ci illərdə 100 min; 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min, 1950-ci ildə isə 50 min nəfər "könüllülük prinsipinə əsasən" Azərbaycana köçürülməli idi. O zaman Ermənistan SSR-də 400 min nəfərdən artıq azərbaycanlı yaşayırdı. 1948-ci ildə Ermənistan SSR-dən mütəşəkkil surətdə Azərbaycan SSR-ə 1799 təsərrüfat, 7747 nəfər köçürülmüşdür. 429 ailə (2834 nəfər) müxtəlif təzyiqlərə məruz qaldığına görə pərakəndə halda Azərbaycana gəlməyə məcbur olmuşdur. 1948-ci ilin payızınadək deportasiyaya məruz qalanların sayı 10584 nəfər idi. Deportasiya tədbirləri Ermənistanın 22 rayonunu, əsasən Basarkeçər, Zəngibasar, Noyemberyan, Mikoyan, Dilican, Aştarxan, Kirovakan rayonlarını əhatə etmişdir. Bu rayonlar əsasən azərbaycanlıların yığcam şəkildə, yaxud ermənilərlə qarışıq halda yaşadıqları dağlıq və dağətəyi rayonlar idi. Erməni millətçiləri ilk növbədə azərbaycanlıları bu rayonlardan qovub çıxarmağa çalışırdılar.



1949-cu ildə Ermənistandan Azərbaycanın Saatlı, Göyçay, Mirbəşir (indiki Tərtər), İmişli, Əli Bayramlı (indiki Şirvan), Zərdab, Salyan, Kürdəmir, Xaldan, Sabirabad, Jdanov (indiki Beyləqan), Yevlax, Ucar, Gədəbəy və Bərdə rayonlarına 15276 adam köçürülmüşdür.

1948–1956-cı illərdə Ermənistan SSR-dən, öz tarixi etnik torpaqlarından deportasiya edilən azərbaycanlıların bu faciəsi hüquqi cəhətdən 1948-ci ildə BMT-nin İnsan Hüquqları Komissiyasının qəbul etdiyi qərarın II maddəsinə uyğun olaraq soyqırım və etnik təmizləmə kimi qiymətləndirilməlidir.

Zaqafqaziyada hökumətin yeritdiyi anti-Azərbaycan siyasətinin bir təzahürü də Ermənistan və Gürcüstandakı qədim Azərbaycan torpaqlarında toponimlərin özgələşdirilməsinə, azərbaycanlılara məxsus abidələrin məhv edilməsinə geniş rəvac verilməsi idi. Bütün bu cinayətlərə hələ də yetərincə hüquqi – siyasi qiymət verilməyib. Dünya hələ də susur.

1988-ci ildə Dağlıq Qarabağ Muxtar Vilayətini (DQMV) Ermənistana birləşdirmək arzusu SSRİ-nin süqutunun yaxınlaşması səbəbindən şiddətli münaqişəyə çevrilmişdi. Ermənistanın niyyəti növbəti dəfə azərbaycanlılara qarşı etnik təmizləmə aparmaq idi. Beləliklə, 1988-ci ildən etibarən Azərbaycan və Ermənistan arasında Dağlıq Qarabağda uzun və elan edilməmiş müharibə başladı. Ermənistan Azərbaycan torpaqlarını işğal edib, ermənisilli seçicilərin dəstəyi ilə Dağlıq Qarabağ Respublikasının müstəqilliyini elan etdi. Bu Azərbaycan torpaqlarına qarşı, Azərbaycanın suverenliyinə qarşı, azərbaycanlılara qarşı açıq şəkildə siyasi müstəvidə törədilmiş təcavüz və ilhaq demək idi. Bu məqsədlə ermənilər bəzi addımlar atır, azərbaycanlılara qarşı zor tətbiq edirdilər. Həmin zamanlarda Azərbaycanda ordu düzəninin olmaması, aparıcı qüvvələrin yalnış qərar verməlri ermənilərin lehinə idi. Zaman-zaman baş verən iğtişaşlar 1992-ci ilin ilk aylarından şiddətlənməyə başladı.

Ermənistan Respublikasının hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisi və onun ətrafındakı 7 inzibati rayon işğal olundu.

**1988–1993-cü illərdə işğal edilmiş Azərbaycan əraziləri:**

Dağlıq Qarabağ: işğal tarixi – 1988–1993-cü illər, ərazisi 4400 $km^2$. (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut);

Laçın rayonu: işğal tarixi – 18 may 1992-ci il, ərazisi – 1875 $km^2$;

Kəlbəcər rayonu: işğal tarixi – 2 aprel 1993-cü il, ərazisi – 1936 $km^2$;

Ağdam rayonu: işğal tarixi – 23 iyul 1993-cü il, ərazisi – 1154 $km^2$;

Cəbrayıl rayonu: işğal tarixi – 23 avqust 1993-cü il, ərazisi – 1050 $km^2$;

Füzuli rayonu: işğal tarixi – 23 avqust 1993-cü il, ərazisi – 1112 $km^2$;

Qubadlı rayonu: işğal tarixi – 31 avqust 1993-cü il, ərazisi – 826 km$^2$;
Zəngilan rayonu: işğal tarixi – 29 oktyabr 1993-cü il, ərazisi – 707 km$^2$.

Beləliklə, Ermənistan Respublikasının hərbi təcavüzləri nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal edilmiş, 20 mindən çox insan qətlə yetirilmiş, 50 mindən artıq insan yaralanmış və sağlamlığının bərpası mümkün olmamışdır. 4900-ə yaxın insan itkin düşmüşdür. Bir milyondan artıq insan qaçqın və məcburi köçkün şəraitində yaşayaraq Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırım siyasətinin qurbanı olmuşdur.

Hərbi təcavüzlər zamanı Azərbaycanın tarixi-mədəniyyəti məhv edilmiş, 900-dən artıq yaşayış məntəqəsi talan edilmişdir. Yerlə yeksan edilmiş kənd və şəhərlərdə 6 mindən çox sənaye və kənd təsərrüfatı müəssisələri, 150 mindən çox yaşayış yeri, 4366 sosial mədəni obyekt, 695 tibb ocağı, 927 kitabxana, 464 tarixi abidə və muzey, 100-dən artıq arxeoloji abidə, 6 dövlət teatrı və konsert zalı məhv edilmişdir. Ümumiyyətlə, işğal olunmuş ərazilərdə Azərbaycan Respublikasına 300 milyard dollardan artıq ziyan dəymişdi. Azərbaycanın tarixi-mədəni sərvətlərinə dəyən ziyanın isə maddi dəyərlə ölçülməsi mümkünsüzdür.

Ermənistan Respublikası uzun illər "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyasının və "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq Azərbaycanın mədəni sərvətlərini talamış, tarixi-mədəni abidələrimizə ölçüyəgəlməz dərəcədə ziyan vurmuşdur.

Hər bir vəhşiliyin, vandalizmin, ədalətsizliyin, işğalın sonu olduğu kimi erməni azğınlığı da 2020-ci ilin 27 sentyabrına qədər davam etdi. Tariximizə qızıl hərflərlə yazılacaq şanlı günün səhəri Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin əmri ilə Azərbaycan Ordusu işğal olunmuş ərazilərin azad olunması üçün əməliyyata başladı. Əzəli və əbədi Azərbaycan torpaqları düşmən tapdağından azad edildi. Xalqın 30 illik həsrətinə son qoyuldu.



## QƏDİM ŞƏKİNİN QƏHRƏMAN OĞULLARI

Azərbaycan keçmişi günümüzdə əks olunan, tarixi qədimiliyini qoruyub saxlayan bir ölkədir. Neçə-neçə şəhərimizdə, kəndimizdə qədim tariximizin izləri olduğu kimi qalmaqdadır. Dünənin yadigarlarını bu gün də qoruyub saxlayan bölgələrdən biri də Şəki rayonudur.

Şəkinin hər daşı, hər qayası sanki tarixin bir əmanətidir. Qoynuna qədəm qoyan hər bir kəsi torpaq mərhəmətlə ağuşuna alır. Şəki sakinlərinin gözlərindəki mərhəmət, qəlblərindəki izzət dillərinin şirinliyinə hopub.

Şəki ehtişamın, ehtiramın, sədaqətin çoşub-çağladığı bir məmləkətdir. Azərbaycan Respublikasının şimal-qərbində, Kiş çayının sol sahilində, dəniz səviyyəsindən 700 metr yüksəklikdə, paytaxt Bakı şəhərindən 370 km aralıda, Böyük Qafqaz sıra dağlarının cənub ətəklərində, mərkəzi regionlardan uzaqda – təcrid olunmuş bir məkanda yerləşir bu gözəlliklər diyarı. Sanki Azərbaycan adlı bir tacın bərq vuran bir qaşıdır. Şəhəri əhatə edən təbiət, meşələrlə örtülmüş dağlar öz gözəlliyi ilə insanı valeh edir. Qış fəslində başıqarlı dağları Şəkinin gözəlliyinə gözəllik qatır. Çaqqaldar və Ottal uçurumları şəhərə qeyri-adi bir görünüş verir. Şərqdən Qərbə axan Qurcanaçay çayı şəhəri iki hissəyə, daha yüksəkdə yerləşən cənub, digəri isə vadidə yerləşən şimal hissələrinə bölür.

Mənbələrin verdiyi məlumata görə, vaxtilə indiki Şəki şəhərindən 10–15 km cənubda olmuş köhnə Şəki şəhərini Sasani hökmdarı I Qubad (480–531) tikdirmişdir. Sonradan Şəki Qafqaz Albaniyasının ən iri şəhərlərindən birinə çevrilmişdir. Şərq kilsələrinin anası hesab olunan qədim Kiş Alban məbədi də məhz Şəki şəhəri yaxınlığında yerləşmişdi. Ərəb istilası ərəfəsində Qafqaz Albaniyasının 11 inzibati vilayətindən biri Şəki əyaləti idi. Ərəb işğalları nəticəsində Şəki əyaləti III əmirliyin tərkibinə daxil edildi. Xilafətin zəiflədiyi bir dövrdə Şəkidə müstəqil knyazlıq yarandı. XIV əsrin I yarısında Hülakülər dövləti iflasa uğradıqdan sonra Şirvanşahlar dövləti ilə yanaşı, Şəki də müstəqillik qazandı və Orlat sülaləsi hakimiyyətə gəldi. 1551-ci ildə şah Təhmasib Şəkinin müstəqilliyinə son qoydu. Şəki Səfəvilər dövlətinə birləşdirildi.

Şəkinin XVII əsr memarlığı da müəyyən əhəmiyyətə malik idi. Övliya Çələbinin verdiyi məlumata görə, daşdan tikilmiş gözəl Şəki qalası təpəlikdə yerləşirdi.

Qalanın "Şirvan" və "Gəncə" adlanan iki darvazası vardı. Şəhərdə 3000 ev, 7 məscid vardı ki, bu məscidlərdən bazar meydanında yerləşən Mirzə Əli məscidi və qaladakı iki məscid daha çox diqqət cəlb edirdi. Şəhərin karvansaraları, hamamları və kiçik bazarı var idi. XVII əsrdə Şəki şəhərində 20 min nəfərin yaşadığı ehtimal edilir.

1747-ci ildə yaranmış Şəki xanlığı Azərbaycan xanlıqları içərisində ən güclü feodal dövləti idi. 1805-ci il Kürəkçay müqaviləsinə əsasən Şəki xanlığı Rusiyadan vassal asılılığına düşdü. 1813-cü il Gülüstan sülh müqaviləsi ilə İran, başqa sözlə, Qacar dövləti, Şəki xanlığı ərazisinin Rusiya imperiyasına birləşdirilməsini rəsmən tanıdı. 1819-cu ildə Şəkidə xan üsul-idarəsi ləğv olundu. Xanlığın əvəzinə Şəki əyaləti yaradıldı. 1840-cı ildə Kaspi vilayətinin tərkibində Nuxa qəzası yaradıldı. Qəza 1846-cı ildən Şamaxı quberniyasının tərkibinə daxil oldu və Nuxa qəzası adlandırıldı.

Ruslar Şəki xanlığını 1819-cu ildə ləğv etdikdən 5 il sonra sonra – 1824-cü ildə, onun keçmiş ərazisində, yəni Şəki əyalətində, əhalinin ilk siyahıya alınmasını keçirdilər. Həmin siyahıyaalma nəticələrinə əsasən o vaxt Qışlaq və Çapağan kəndləri də inzibati cəhətdən Nuxa şəhərinin tərkibində idi və bu kəndlərlə birlikdə Nuxa şəhərinin əhalisi 13351 nəfər idi.

1920-ci il may ayının 5-də Şəkidə sovet hakimiyyəti quruldu. 1930-cu ildə Azərbaycan SSR-nın inzibati ərazi bölgüsündə dəyişiklik edildi və Nuxa rayonu təşkil edildi. 1963-cü il yanvar ayının 4-də Nuxa rayonu ləğv edilərək ərazisi Vartaşen (indiki Oğuz) rayonuna verildi və respublika tabeçiliyində Nuxa şəhəri yaradıldı. 1965-ci ildən yenidən müstəqil Nuxa rayonu təşkil edildi. 1968-ci ildən ərazi Şəki şəhəri adlanmağa başladı.

Azərbaycanın Şəki şəhərinin Dünyanın Tarixi Şəhərləri Liqasına üzv olması barədə 2008-ci il dekabrın 8-də təşkilatın prezidenti, Yaponiyanın Kyoto şəhər bələdiyyəsinin sədri Daisaku Kodokavadan gəlmiş təbrik məktubunda bildirilir ki, Dünyanın Tarixi Şəhərləri Liqasının İdarə Heyətinin 2008-ci ilin oktyabrında keçirilmiş iclasında Şəki təşkilata üzv qəbul edilmişdir.

Keçmişin izini özündə əks etdirən memarlıq abidələrindən Şəki xan sarayı, Şəkixanovların evi, Giləkli məscidinin minarəsi, məscid, qala divarları, Şəkinin dairəvi məbədi (XVII–XIX), Zəyzid məbədi (XI–XII), yaxınlıqdakı Kiş kəndinin Kiş alban məbədi, Şəki karvansarası qorunub saxlanılan tarixi abidələr sırasındadır.

Şəki sakinləri vətənə sədaqətlərini elə vətənin daşına, qayasına sahib çıxmaqla sübut ediblər. Ata-babalarımızın yolu ilə gedən qəhrəmanlar da vətən uğrunda canlarından keçib ölümsüzlük qazanmağa hər zaman hazır olublar. Elə ona görə də Şəki həm qədim şəhər, həm də qəhrəmanlar oylağıdır. Vətən dara düşən an Şəki torpağının yetirdiyi qəhrəman oğullar vətənin imdadına ilk yetişən qəhrəmanlar



olublar. Tarix boyu düşmənin işğal siyasətinə məruz qalan Azərbaycan torpaqlarının azadlığı uğrunda can verən qəhrəmanlar sırasında Şəkinin yetirdiyi qəhrəmanların da adı olub. Qanlı döyüşlərin qurbanı olan neçə-neçə şəhidin cismini köksünə sıxıb saxlayıb bu müqəddəs torpaq. Anaların köksündəki bala dağından daha dərindir torpağın şəhid dərdi. Çünki şəhid balalarının sayı saya gəlməyəcək qədər çoxdur.

Bir az tarix, bir az şəhid qoxur Şəki. Ermənilərin vətənə tuşlanan atəşinə öz canlarını sipər edən neçə-neçə qəhrəman uyuyur Şəki torpağında. Qarabağ savaşı başlayan ilk günlərdən Şəki camaatı da şəhid dərdini vətən dərdi ilə tən tutub. I Qarabağ müharibəsində Şəki torpağı tabutda dönən şəhidlərini bağrına basdı. Ancaq 69 qəhrəmanın gedişi olsa da, nə şəhid kimi, nə də şahid kimi geri dönüşü oldu. II Qarabağ savaşında da daha bir qəhrəmanımızın gedişi olan yollarda nə şəhid kimi, nə da şahid kimi dönüşündən iz düşdi. 70 itkinin doğmaları illərdi bir ümidlə yollara göz dikiblər. Bəlkə, bir gün geri dönərlər deyə...

Azərbaycan Ordusunun hərb tarixinə ilk qələbə qazandığı döyüş kimi yazılan 2016-cı ildə baş verən Aprel döyüşlərində, 2017-ci ildə baş verən Fevral döyüşlərində azadlıq uğrunda can verən qəhrəmanlar Şəki torpağına bayraqlı tabutda döndülər. Təqvimin hər gününə bir iz salan şəhidlərimizin yolu ilə gedən qəhrəmanlarımız bir gün Qarabağa çatmaq üçün hər gün şəhid olmağa hazır idilər. Elə o yolun yolçuları 2020-ci il 27 sentyabrda Qarabağa gedən yollardakı sədləri darmadağın etməyi bacardılar. Artıq bu yolun geri dönüşü ya şəhid kimi, ya qazi kimi, ya da zəfər qazanan qəhrəman kimi olmalı idi. Ömür yolu Zəfər yolu ilə kəsişən qəhrəmanların sayı çox oldu. Ömür yolu şəhid kimi tamamlanan qəhrəmanlar Şəkiyə müqəddəs bayrağa bükülərək döndülər.

Şəki torpağının şəhid oğulları kimi qazi oğulları da çoxdur. I Qarabağ müharibəsində, atəşkəs dövründə və II Qarabağ müharibəsində Şəkidən olan 196 qəhrəman şəhadətin bir addımlığından dönərək qazi olublar. Şəhidlərin şahidləri sayılan qazilər canlı şəhidlərdir. Vətənə əzasını qurban edən qazilərin haqlarını vətəndaşlar ödəyə bilməzlər.

Qanları ilə vətən torpağına qəhrəmanlıq əsərini yazanların ömür kitabını səhifələyən bu günkü nəsillər və gələcək nəsillərin həmin qəhrəmanları tanıması vacib şərtdir. Həmin o qəhrəmanların şərəfli ömür və döyüş yolundan bəhs olunan "VƏTƏN FƏDAİLƏRİ" layihəsinin III cildini Şəkidən olan qəhrəmanlarımıza həsr etdim. Şəkidən olan qəhrəmanlarımızın sayı bir kitaba sığmayacaq sayda olduğu üçün "VƏTƏN FƏDAİLƏRİ: ŞƏKİ ŞƏHİDLƏRİ" kitabında müxtəlif illərdə vətənə can fəda edən 100 fədainin ömür və döyüş yolundan ailələrindən və silahdaşlarından aldığım məlumatlar əsasında geniş və ətraflı məqalə yazdım. Hər qəhrəmanı sətirlərlə vəsf edərək ruhlarına ithafən şeirlər yazdım. Yazdım ki, izləri qalsın...

## MÜQƏDDƏS ŞƏKİ TORPAĞI

Buram-buram tarix qoxan müqəddəs Şəki torpağı,
İgidlərin, ərənlərin oylağı olub hər zaman.
Vətən, torpaq, bayraq üçün neçə vətən fədaisi,
Öz canını sipər edib, şəhid kimi veriblər can.

Anaların oğulları ana yurda sahib çıxıb,
Ana yurdun köksü üstə vətən daşına döndülər.
Allahın Şəhid adına layiq bildiyi qurbanlar,
Bu millətin ürəyində əbədilik döyündülər.

İgidlərin harayından dağlar, daşlar dilə gəlib,
Gözü yolda analartək sarıldılar oğullara.
Neçə ana, neçə ata öz oğlunu qurban etdi,
Şuşa, Laçın, Kəlbəcərə gedib çatan o yollara.

Dörd bir yanı düşmən olan bu vətənin sinəsinə,
İllər boyu haqq səsini susmayanın qanı axdı.
Ədalətə göz qapayıb insanlığı öldürənlər,
Gözü baxan kor olaraq haqsızlığa susub baxdı.

Bilirdik ki, gün gələcək tabut üstə gələn bayraq,
Qarabağın zirvəsini əsalətlə bəzəyəcək.
Azərbaycanın adını qürur ilə söyləyənlər,
Şəhid adın vətən ilə, torpaq ilə bir deyəcək.

*16.01.2022*



## ZƏFƏRİN 44 ANI

Öz qonşuları düşmən kəsilən bir ölkə olaraq tarix boyu vətənimizin bütövlüyü, azadlığı, suverenliyi uğrunda mübarizə aparmışıq. Azərbaycan adının son hecası da elə uğrunda gedən canların vətəni və vətənin adını bütövləşdirməsinin tərənnümüdür. Biz bu gün əldə olunan azadlığın hansı canların fəda olunaraq qazanıldığını gözəl bilirik. Bir yumruq kimi birləşib bir bütün olan ana vətən. Hər diyarı, hər kəndi, hər şəhəri vətənə layiq oğullar yetirdi. O qədim diyarlardan biri də Şəki oldu. Vətənin başı üzərinə qara buludların çökdüyü ilk an bu torpağın igid oğulları vətənə qahmar çıxdılar. Hələ I Qarabağ müharibəsi zamanı xüsusən polislərin Qarabağda asayişi qoruduğu zaman Şəkinin qəhrəman polisləri könüllü olaraq Qarabağa yollandılar. İstər əsgəri, istər polisi, istər zabiti bu torpağın azadlığı uğrunda can verəcək qədər çox sevdilər bu vətəni. Qəhrəman oğullar son nəfəslərinə qədər vuruşdular. Kimi şəhid oldu, kimi şahid oldu, kimi itkin düşdü, kimi də qazi oldu. Həmin qəhrəmanların yolunu davam edən qəhrəman oğullar tökülən qanların qisasını aldılar. I Qarabağ müharibəsində məcburiyyətdən tamamlanmayan Qarabağın azadlıq yolunu II Qarabağ müharibəsində qəhrəman oğullar müzəffər ordunun qalib əsgərləri kimi tamamladılar. Azərbaycan Respublikasının Prezidenti, Ümummili lider Əliyev Heydər Əlirza oğlunun yetirməsi, siyasi iradəsi ilə dünyanı məəttəl qoyan İlham Əliyevin "Dəmir Yumruq" adlandırdığı əməliyyat Qarabağın azadlığına kölgə salan bütün qüvvələri, maneələri məhv etdi. Uğurlu siyasətin göstəricisi olan güclü Azərbaycan Ordusu hələ 2016-cı ildə Aprel döyüşləri zamanı 4 gün davam edən müharibədə xalqımıza azadlıq sevincini yaşatmışdı. 27 sentyabr 2020-ci ildə başlayıb 44 gün davam edən döyüşlər zamanı düşmənin 30 il əsarətdə saxladığı əzəli və əbədi Azərbaycan torpaqları rəşadətli Azərbaycan Ordusu tərəfindən azad olunmuşdur.

27 sentyabrda Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri, Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri, Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklər Azərbaycan Ordusunun düşmən işğalından azad etdiyi ilk ərazilər oldu. Azərbaycan xalqı illərdən sonra vətənin azadlıq sevincinə qərq oldu. Eyni zamanda vətən qurbanı olan şəhidlərimizin gəlişi bütün xalqın ürəyin dağladı. Bir gözümüz güldü, bir gözümüz ağladı.

3 oktyabrda Tərtər rayonunun Suqovuşan və Talış kəndləri, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şaybəy, Quycaq kəndləri, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi azad olundu. Hər ötən gün azad olunan ərazilərin miqyası genişlənir, düşmən məğlubiyyətə uğrayırdı.

4 oktyabrda Cəbrayıl şəhəri və rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal, Mahmudlu, Cəfərabad kəndləri də azadlığa qovuşdu. Artıq hər ötən gün Azərbaycan Ordusu Qarabağ arzularına qovuşur və qovuşdururdu.

5 oktyabrda Cəbrayıl rayonunun Şıxalıağalı, Sarıcalı, Məzrə kəndlərindən gələn azadlıq müjdəsi ümidləri bir qədər də doğrultdu.

9 oktyabrda Xocavənd rayonunun Hadrut qəsəbəsi və Sur kəndi, Cəbrayıl rayonunun Qaracallı, Süleymanlı, Əfəndilər və Qışlaq kəndləri, Füzuli rayonunun Yuxarı Güzlək, Gorəzilli kəndləri, Tərtər rayonunun Çaylı kəndinin azad olunması ilə Azərbaycan ordusunun düşmən üzərindəki qalibiyyəti bir daha sübut olundu.

14 oktyabrda azadlıq sədası Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu kəndləri, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndlərindən gəldi.

15 oktyabrda Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri, Füzuli rayonunun Arış kəndi, Cəbrayıl rayonunun Doşulu kəndi də azadlığa qovuşdu.

16 oktyabrda Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndlərinə illərdən sonra azərbaycanlı igidlər qədəm basdılar.

17 oktyabrda Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri öz azadlığına qovuşdu. Demək olar hər gün Azərbaycan xalqı zəfər müjdəsi ilə sevinirdi.

İllərdi Qarabağ həsrəti ilə keçən "Müstəqillik Günü" 2020-ci ildə tarixi bir hadisə sayılan Xudafərin körpüsü üzərində Azərbaycan bayrağının ucaldılması ilə tarixdə qaldı.

19 oktyabrda Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndlərinin azad olunması bütöv Qarabağ arzularımıza doğru atılan daha bir addım oldu.

Addım-addım zəfərə doğru irəliləyən ordumuz 20 oktyabrda Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhərini, Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndlərini, Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndlərini, Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Noraşen), Çinarlı (Vəng) kəndlərini də azad etdi.

21 oktyabrda Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndləri, Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndləri, Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri də azad olunan ərazilər siyahısına əlavə olundu.

22 oktyabr Zəngilan rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndləri və Ağbənd qəsəbəsi, Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndləri, Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli kəndləri də əsarətdən qurtuldu.

23 oktyabrda Xocavənd rayonunun Dolanlar və Bünyadlı kəndləri, Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı və Veysəlli kəndləri, Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndləri, Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndləri də düşmən pəncəsindən xilas olundu.

25–26 oktyabr tarixlərində isə Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd kəndləri, Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər kəndləri, Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndləri və Qubadlı şəhəri illərdən sonra azadlığına qovuşdu və xalq sevinc göz yaşlarına qərq oldu.

28 oktyabr Zəngilan rayonunun Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli kəndləri, Füzuli rayonunun Mandılı kəndi, Cəbrayıl rayonunun Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac kəndləri, Qubadlı rayonunun Qiyaslı, Əbilcə, Qılıcan kəndlərinin azad olunduğu gün kimi tarixin yaddaşına həkk olundu.

30 oktyabrda Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı kəndləri, Zəngilan rayonunun Aladin, Vejnəli kəndləri, Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndləri ordumuz tərəfindən düşmən tapdağından azad olundu.

2 noyabr Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq kəndləri, Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ kəndləri, Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndləri öz azadlığına qovuşdu.

4 noyabr Cəbrayıl rayonunun Mirək, Kavdar kəndləri, Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli kəndləri, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndləri azad olunaraq vətən oğullarının qədəmləri ilə sevindi.

7 noyabrda Füzuli rayonunun Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar kəndləri, Cəbrayıl rayonunun Yuxarı

Məzrə, Yanarhac kəndləri, Qubadlı rayonunun Qəzyan, Balasoltanlı, Mərdanlı kəndləri, Zəngilan rayonunun Beşdəli kəndi, Xocavənd rayonunun Ataqut, Tsakuri kəndləri, Xocalının Qarabulaq, Xoşxmaat kəndlərinin işğaldan azad edilməsi düşmənin məğlubiyyətinin aşkarənə sübutu idi. Ancaq düşmən ən ağır məğlubiyyətə Şuşa döyüşlərində uğradı. Qarabağın açarı sayılan Şuşanı Azərbaycan ordusunun hərbi texnika olmadan əlbəyaxa döyüşlərlə azad etməsi nəinki Ermənistan ordusunu eləcə də bütün dünyanı riqqətə gətirdi. Azərbaycan Ordusunun qüdrətinə bütün dünya şahid oldu. Şuşanın azad olunmasından sonra düşmən kapitulyasiya aktını imzalamağa məcbur oldu. Noyabrın 9-dan 10-na keçən gecə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin imzaladıqları atəşkəs bəyannaməsində Ermənistanın işğal etdiyi digər Azərbaycan torpaqlarının da verilən zaman çərçivəsində qeyri-şərtsiz boşaldılması və Azərbaycan ordusunun nəzarətinə keçməsi qeyd olunmuşdur. Bununla da Ermənistan öz məğlubiyyətini açıq şəkildə etiraf etmiş, Azərbaycan qalibiyyət sevincini yaşamışdır. 44 günlük müharibənin hər anı Zəfərin qazanıldığı tarix kimi tarixə həkk olunmuşdur.

Qalib ölkə olaraq nəinki Ermənistana, eləcə də bütün dünya ölkələrinə öz sözümüzü demişik. Düşmən hər zaman olduğu kimi sülhə kölgə salmağa, regionda münaqişə və müharibə yaratmağa çalışır. Sülh tərəfdarı olan Azərbaycan Ordusu lazım gəldiyində düşmənin anladığı dillə danışır. Azərbaycanın əzəli və əbədi torpağı olan Zəngəzurdan keçən dəhlizin qeyri-şərtsiz açılacağını hər kəs bilməlidir. Naxçıvanın blokada şəraitindən çıxacağı günlərə lap az qalıb. "VƏTƏN FƏDAİLƏRİ" layihəsinin növbəti cildində həmin qələbə sevincimizdən yazmaq diləyi ilə...



## QALİB ORDUM

Düşmənlərin min hiyləsin,
Bir doğrumuz böldü keçdi.
Haqq sözündən dönməyənlər,
Azadlığı amal seçdi.

Dünənlərdən bu günlərə,
Yarğan oldu yanağımız.
İşgəncəylə kəsilmişdi,
Qarabağdan ayağımız.

Biz bilirdik o qədəmlər,
Basılacaq doğma yurda.
Bu millətin igidləri,
Qoymazdılar yurdu darda.

Haqq yoluna çilənən qan,
Sildi işğal ləkəsini.
Yolu dönməz qəhrəmanlar,
Kəsdi düşmən nəfəsini.

Azadlığın şəfəqinə,
Qərq oldu müqəddəs yurdum.
Zəfər sədasın ucaltdı,
Qarabağda qalib ordum.

*15.01.2022*



**ABDULLAYEV AQŞİN
İSMAYIL OĞLU**

MAYOR

*(2017-ci ildə Fevral döyüşlərində şəhid olmuşdur.)*

## ÖLÜMÜN ÜZƏRİNƏ YÜRÜYƏN MAYOR

*Azərbaycan igidlər diyarıdır. Hər qarışında bir qəhrəmanın izi olan bu diyarın keçdiyi çox keşməkeşli yollar olub. O yolları keçmək üçün çox qəhrəmanlar ömürlərini körpü ediblər.*

*Azərbaycan xalqı tarix boyu təkrarlanan soyqırımların izini ürəyində daşıyıb və daşımaqdadır. Keçmiş keçmişdə qalsa da, o ağrı-acının izi keçməyib. Necə keçsin axı? Unutmaq olarmı bəyaz qarlı dağları fevral ayında al laləni xatırladan qan rənginə boyanan Xocalını?*

*Xeyir, unutmayacağıq. Biz dünənimizi unutmamalıyıq ki, sabahımızda düşmən əsarətində yaşamayaq. Heç Aqşin də unutmamışdı beşiyinin başında Dursun ananın yana-yana söylədiyi ağıları, bayatıları. Həyatı dərk edəndən ürəyində Qarabağ adlı bir nisgil elə hey kaman kimi sızlayırdı. Azərbaycanı da gözlərindən bala dağı oxunan anasına bənzədirdi. Azərbaycan da Qarabağ adlı balasından ayrı düşmüşdü.*

Abdullayevlər ailəsi bala adlı sınaqla çox sınanır. İsmayıl kişi ilə Dursun xanım bir övladlarının qoxusuna doymadan övlad beşiyi yerinə məzar başında layla deyərək ürəkləri parçalanır. Sonra Allah onlara təsəlli olaraq Aqili bəxş edir. Aqildən sonra daha iki övladları torpağın payı olan ailə 3 sentyabr 1982-ci ildə digər övladlarını zamanından tez qucaqlarına alır. Yeddiaylıq dünyaya göz açan bu körpəyə ad qoymağa qorxan ailə 40 gün körpənin həyatda qalıb-qalmayacağını gözləyir. Həmin körpə ilk qalibiyyətini qazanır. Həyat mücadiləsindən qalib ayrılan körpəyə ata-anası oktyabrın 1-də Aqşin adını verirlər. Abdullayev Aqşin İsmayıl oğlu Şəki rayonunun Kiş kəndinin növbəti sakini olur. Aqşindən sonra ailə növbəti dəfə övlad itkisi yaşayır.



Aqşin elə körpəlikdən fərqlənməyi bacarıb. Doqquz aylıq olan zaman ilk addımını atmağı ilə tələskənliyini nümayiş etdirib. Hətta onun ilk addımı ailəsini bir qədər də qorxudub. Ailənin təlaşından büdrəyən Aqşin yıxılıb və başından yara alıb. Aqşinin ilk addımı beləcə yaddaşlara həkk olunub. Hər zaman fərqlənən Aqşinin gələcəkdə şəhid kimi fərqlənəcəyi isə heç kimin ağlına gəlməyib. Ana qucağını vətən torpağına dəyişən bu igidin "Vətən" hayqırtısından vətən sevgisi duyulub.

1988-ci il sentyabrın 1-də Aqşin yenə tələsirdi. Çiyninin daşıya biləcəyindən ağır yükü yığdığı çantasını götürüb Şəki rayon 4 saylı Kiş kənd tam orta məktəbinə doğru yol almışdı bu balaca qəhrəman. Ürəyinin vətən adlı yükü isə daha ağır gəlirdi. Elə məktəblilər sırasında da fərqlənirdi Aqşin. Duruşu ilə, zəkası ilə, bir az da şirinliyi ilə hər kəsin istəklisinə çevrilmişdi özü kiçik, addımı böyük qəhrəman.

Canlı aləmə bir başqa düşüncə ilə baxırdı. Həyatın şirinliyinin bütün canlılar üçün vacib olduğunu dərk edirdi. Elə biologiya fənninə olan sevgisi də oradan qaynaqlanırdı. Hər kəs onu gələcəyin həyat xilaskarı olaraq həkim peşəsinin icraçısı kimi görürdü. Aqşinin həkim peşəsinə marağı olsa da, ən çox hərb peşəsinə sevgisi olur. İki yerə sənəd vermək istəyir. Lakin bu mümkün olmur. Hərbi həkim olmaq istəyir. 1999-cu ildə məktəbi bitirdikdən sonra Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olur. II kursda ixtisas seçimində tibb ixtisasını seçmək istəsə də, həmin il o ixtisasa qəbul olmur. İnzibati idarəetmə mühəndisliyi ixtisası üzrə hərbi təhsil alan Aqşin 2003-cü il 28 iyulda leytenant hərbi rütbəsi alaraq AAHM-i bitirir. Elə həmin ilin sentyabr ayından 2004-cü ilin iyun ayına qədər Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində Xüsusi Təyinatlı Qoşunların taqım komandiri kursunu bitirir. Həmin vaxt 40 günlük məzuniyyətə çıxır. O 40 gün müddətində Aqşin şəxsi həyatında fərqli və önəmli addımlar atır.

Hər gəncin qəlbindəki sevgi adlı sarayının bir sakini olur. Aqşinin də sevgi sarayının əbədi sakini Xuraman xanım olur. Bir zamanlar biri-birini qohum kimi tanıyan iki gənc ailələrinin xeyir-duası ilə sevgi bağına addım atırlar. Aqşin Xuraman xanımın dünyaya göz açdığı 29 iyul tarixində ən dəyərli hədiyyəsi olan nişan üzüyünü sevdiyinə əmanət edir. Nişanlı cütlüyün toy tarixi isə

Aqşinin istəyi ilə seçilir. Azərbaycan tarixində əbədi olaraq sevgi məşəlini yandıran İlham və Fərizənin toy günü Aqşin və Xuramanın da toy günləri kimi tarixə düşür.

Hərbçi ilə ailə qurmaq rahat həyata vida etmək deməkdir. Daimi olmayan ev-eşik, uzandıqca uzanan tənha keçirdiyin gecələr... Aqşinin 40 günlük məzuniyyəti bitər-bitməz təyinatla Bakıda yerləşən N saylı hərbi hissəyə kəşfiyyat taqım komandiri təyin olunur. Ailəsi ilə bərabər Bakıya gəlir. Elə həmin dönəmlərdə Aqşinin hərbi xidmətləri dəyərləndirilərək baş leytenant hərbi rütbəsinə layiq görülür.

Bir ailənin sabaha olan ümididir övlad. Ata və ananın unuda bilməyəcəyi duyğulardır valideyn olduğu an yaşadığı duyğular. 1 aprel 2005-ci ildə Aqşin ilk övladını qucağına alanda sevinci gözlərinə, sözlərinə yansıdı. Dursun ananın ad günündə ilk oğul nəvəsinin dünyaya göz açması ailənin sevincinə sevinc qatdı. Oğluna qürurla baxan hərbçi ata davamçısının olduğu üçün daha əmin addımlar atdı.

Aqşin iki il Bakı şəhərində yerləşən N saylı hərbi hissədə xidmət etdikdən sonra 21 iyul 2006-cı ildə Təlim və Tədris Mərkəzində kəşfiyyat bölüyünün komandiri kursunu keçir. Səmti müəyyənetmə üzrə birinciliyində yüksək səviyyədə hakimlik etdiyinə görə Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin əmri ilə Diplomla təltif edilir. 2006-cı ildə təyinatla Gəncə şəhərində yerləşən N saylı hərbi hissəyə göndərilən Aqşin Abdullayev kəşfiyyat bölüyünün komandiri vəzifəsini icra edir. 6 il bölük komandiri işlədikdən sonra 2008-ci ildə Gəncə şəhərində kapitan hərbi rütbəsinə yüksəlir. Hələ sağlığında Gəncədə N saylı hərbi hissənin yanında yol qırağında şəkli vurulur. "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918–2008)" yubiley medalı ilə təltif edilir.

2009-cu il avqustun 18-də ailənin ikinci övladı Nərmin dünyaya gəlir. Nərmin böyüdükcə ata sevgisi də bərabərində böyüyür. Ata və qızın sevgiləri dillərə dastan olur. Nərmin bilməzdi ki, bu həyat insanı ən çox sevdiyi ilə imtahan edir. Bəlkə də, bilsəydi ki, atasızlıq onun imtahanı olacaq atasını o qədər çox sevməzdi.

Aqşin heç zaman rahat iş dalınca qaçmazdı. Elə ona görə də ön cəbhədə xidmətə can atırdı. 2012-ci ildə təyinatla Ağcəbədi rayonunda yerləşən N saylı hərbi hissədə xidmət edən Abdullayev 2013-cü ildə təyinatla Cəlilabad rayonunun Göytəpə şəhərində (keçmiş Prişib) yerləşən N saylı hərbi hissəyə göndərilir. 2013-cü ildə 30 yaşında yaşından böyük vəzifəyə, kəşfiyyat bölüyünün rəisi vəzifəsinə təyin olunur. 31 iyul 2013-cü ildə mayor hərbi rütbəsinə layiq görülür. Elə həmin il "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918–2013)" yubiley medalı ilə təltif edilir. 2013-cü il iyun ayının 24-də 10 illik "Qüsursuz xidmətə görə" III dərəcəli medalına layiq görülən Aqşin 26 iyun 2015-ci ildə "Qüsursuz xidmətə görə" II dərəcəli medalı ilə təltif edilir. 2013-cü ildən 2016-cı ilə qədər Cəlilabad, Masallı, Lənkəran rayonlarında bir çox hərbi hissələrdə xidmət edən qəhrəman 2016-cı ilin yanvar ayında Xocavənd rayonu istiqamətində yerləşən N saylı hərbi hissədə düşmənlə üz-üzə ön xətdə xidmət edir. İllərlə yiyələndiyi hərbi biliklər sayəsində Aqşin bir çox uğurlu əməliyyatlara imza atır. Erməni dilində səlist danışan Aqşin düşmən ordusuna dəfələrlə yaşatdığı məğlubiyyətlərə görə düşmən tərəfindən gündüz çıraqla axtarıldığını gözəl bilir. Ermənistan ordusunun yüksəkrütbəli zabitləri Aqşinin başına milyonlarla pul qoyur. Aqşin düşmənin istəyini bilir. Ancaq bu həqiqət Aqşini qorxutmur, əksinə o düşmənə gözdağı verməyə davam edir.



2016-cı il mart ayının sonlarında azğın düşmən cəbhə boyu daha tez-tez atəşkəsi pozur, təxribata əl atırdı. Azərbaycan Ordusu bu təxribatların cavabını layiqincə verirdi. Martın 27-də evdən çıxan Aqşin ailəsinə heç bir söz deməsə də, Xuraman xanım aprelin 1-də ilk göz nuru Aminin ad günündə Aqşinin gəlməməsinin yaxşı əlamət olmadığını hiss edir. Həmin gün Dursun ananın da ürəyində bir səksəkə yaranır. Ertəsi gün Dursun ana televiziyadan, Xuraman xanım isə Beyləqanda duyulan atəş səsindən müharibənin başladığını öyrənir. Aqşin döyüşdə olsa da, hər səhər ailəsinə zəng edərək ***"Hər şey yaxşıdı"*** deyərək onların nigarançılığına zəmin yaratmırmış. Aprel döyüşləri zamanı dəfələrlə ölümlə üz-üzə gələn Aqşin həmin döyüşdən cismi sağ, ruhu yaralı çıxır. Bir çox dost itkisi yaşayan Aqşin Samid İmanov və onun kimi qəhrəmanların qisasını alacağına söz verir. Müharibə bitsə də, Aqşin bir müddət evə gəlmir. Aprelin 20-də müharibənin qocaltdığı Aqşini görən ailəsi o dəhşəti daha dərindən anlayır. Dostlarını, silahdaşlarını videolarda görən Aqşin üçün yaşam öz rəngini dəyişir. Ancaq amalı azadlıq, qisas olur.

Aqşin Azərbaycan Ordusunun bir zabiti kimi hər an müharibə olacağını bilirdi. Elə o acı gerçəyi bildiyi üçün də hər övladı olduğunda həddindən ziyadə sevinirdi. Çünki özündən sonra izi ilə gedənlərin olması onun üçün önəmli idi. Elə 2016-cı il sentyabrın 21-də sonbeşik övladı Ömər dünyaya gələndə də Aqşin çox sevindi. Ömər sanki ailəyə təsəlli olmaq üçün Allahın bir bəxşişi idi.

Artıq çoxları düşmən tərəfin Aqşini izlədiyindən xəbərdar idi. Elə ona görə də həmin vaxtlar korpus rəisi Aqşinin Akademiyaya göndərilməsini təklif edir. Ancaq Aqşin müəyyən səbəblərdən Akademiyaya gedə bilmir.

Aqşin savadlı və dəyanətli bir zabit idi. 2017-ci ildə 80 nəfərlik taborda mayor hərbi rütbəsində ola-ola polkovnik-leytenant vəzifəsini icra etməsi əbəs deyildi.

Aqşin ordu üçün önəmli kadr idi. Son dönəmlərdə baş verənlər Aqşinin gözündən yayınmırdı. Aqşin başqa hərbi hissədə özünün də gizli saxladığı vəzifəyə təyin ediləcəkdi. Ancaq qismət olmadı.

Son dəfə fevralın 22-də Beyləqanda yerləşən ailəsinin yanına gəlir. 23-də sübh səhər yenə övladı qədər əziz bildiyi əsgərlərinin yanına, ev-eşik bildiyi səngərə tələsir. Elə həmin zaman Xuraman xanım qəribə bir yuxu görür. Ulu öndər Heydər Əliyevin gülərək göy üzünü bəzəyən şəkillərini yuxuda görən Xuraman xanım bu yuxunun nə demək olduğunu yozmağa çalışır. Şəkil olan yuxular ayrılığa yozulur...

Cəmi bir neçə saat öncə evdən ayrılan Aqşin yoldan xanımına zəng edərək cəbhədə vəziyyətin gərginləşdiyini və geri döndüyünü deyir. Son dəfə puşlatını götürmək üçün evə dönən Aqşin sanki vida üçün gəlir. Sonsuz sevgi ilə bağlandığı qızı Nərminə dediyi sözləri ilə onun körpə ürəyinə böyük bir məsuliyyəti əmanət edir.

***– Canım qızım, mən gedirəm, ağlama. Ananı da ağlamağa qoyma. Qardaşlarına da yaxşı bax. Sizi çox sevirəm, bunu heç bir zaman unutmayın.***

Daha sonra dolan gözlərini hər kəsdən gizlədərək heç kimə baxmadan qapıdan çıxır Aqşin. Hər dəfə yarının gedən yollarına su çiləyən Xuraman xanım bu dəfə donub yerində qalır. Aqşin qapıdan çıxandan sonra tez qaçıb onun ardınca tökməyə su gətirir. Lakin Aqşin bunu görmür. Həyətdə qonşu gizir Samirlə (indi o da şəhiddir) rastlaşan Aqşin dilə gətirdiyi sözlərlə sanki şəhid olmaq üçün yola çıxdığını deyir.

***– Mən gedirəm. Bilirəm şəhid olacam. Bu qardaşım Aqilin nömrəsidir. Mən şəhid olsam burda səs-küy olmasın.***

Aqşin fevralın 23-də dönməyəcəyi yola çıxdı. Dönməmək ehtimalı onu bu yoldan döndərmədi. 23-dən 24-nə keçən gecə ***"Yaxşıyam"*** yazaraq nigaran ürəklərə təsəlli olsa da, 24-də axşamüstü Xuraman xanımla danışanda qətiyyətlə daha ona zəng etməməyi tapşırır. Hər zaman olacaqlardan yuxuda agah olan Xuraman xanım fevralın 24-dən 25-nə keçən gecə yenə bir yuxu görür.

– Gördüm ki, qırmızı donumu geyinib Aqşinlə toya gedirəm. Bir anda Aqşin düzənlik bir yerdə yoxa çıxdı. Nə qədər Aqşini səsləsəm də, onu tapa bilmədim. Öz səsimə yuxudan oyandım. Tez Aqşinə zəng etdim. Ancaq zəng çatmadı. Sən demə, Aqşin həmin vaxt şəhid olubmuş.

Aqşin ölümün üzərinə bilərək yürüyür. Bunu düşmən tərəfin yaydığı görüntülərdən aydın görmək olur. Tabeliyində olan zabitlərinin və əsgərinin düşmən tərəfindən vurulduğunu bildiyi anda Aqşin bütün xəbərdarlıqlara baxmayaraq irəli addımlayır. ***"Kim gəlmək istəyir ardımca..."*** deyən Aqşinin ardınca Haşımlı Tural Əbdül oğlu da gedir. Aqşin və Tural yaralı olan Nəzərov Şahlar Yaşar oğluna, Qədimov Zülfü Rəhim oğluna və Cəfərov Zakir Nazim oğluna kömək etmək istədikləri an düşmən tərəfindən amansızca atəş açılır. Ard-arda 25 gülləyə sipər olur Aqşinin cismi. Son ana qədər ayaq üstə qalmaq üçün mücadilə edir. Sədaqət, etibar nümunəsi olan Aqşin və Tural qol-qola şəhadətə ucalırlar. Azərbaycan Ordusunun 5 hərbçisi 2017-ci il fevralın 24-dən 25-nə keçən gecə qanları ilə tarix yazırlar.



Aqşinin şəhid olduğu xəbərini nə atası İsmayıl kişiyə, nə anası Dursun xanıma, nə də həyat yoldaşı Xuraman xanıma deməyə heç kimin cəsarəti çatmır. Dörd övladının qoxusuna doymadan torpağa dəfn edən ata-anaya Aqşinin vətənə, torpağa qurban getdiyini demək asan deyildi. Axı övlad məzarının ürəkdə necə bir daş olduğunu o ata-ana yaxşı bilirdi. Bəs ümidlə yar yolunu gözləyən, hələ sonuncu övladının ata kəlməsini duymayan bir xanıma *"Yarın şəhid olub"* demək asandırmı?

Aqşin qanlı yollardan çox dönmüşdü. Elə ona görə də doğmaları onun dönəcəyinə inanırdı. Ard-arda gələn zənglər, qonaqlar acı gerçəyi bilsələr də, yenə bir ümidə sarılırdılar. Aqil qardaşının əmanətinə zəng edib Aqşinə görə narahat olduğunu və gələcəyini deyir. Sonra Aqşinin yaralandığı və Bakıya apardıqları xəbəri deyilir. Əlbəttə ki, bunların hamısı beş şəhidin nəşinin neytral zonadan götürülməsi üçün zaman qazanmağa çalışmaq idi. Fevralın 26-da Dursun anaya və Xuraman xanıma Aqşinin vəziyyətinin ağırlaşdığı və Türkiyəyə aparıldığı deyilir. Bu onların Bakıya gəlmələrini əngəlləmək üçün deyilən növbəti bəhanə idi. Fevralın 27-də Qırmızı Xaç Komitəsinin köməyi ilə neytral zonadan şəhidlərimizin nəşləri götürülür. Ondan sonra Aqşinin şəhid olduğu ailəyə deyilir. Bu xəbəri duyan atanın, ananın və yarın bütün ümidləri yerlə yeksan olur. Bu acı gerçəyə ürəklər tab gətirmir.

O gecənin zülməti qədər sonsuz olur acılar. Sübh səhər gözlər Aqşinin gələn yollarına dikilir. Aqşin canından çox sevdiyi bayrağa bürünüb çiyinlər üstə son dəfə ata ocağına gəlir. O gün tabut önünə qaçan Şəhid anası, tabut önündə beli bükülən Şəhid atası, həyatda tutunduğu tək qardaşını itirən Şəhid qardaşı və üç övladını ata tabutu önündə başına toplayan Şəhid yarı ərşin sinəsinə dağ çəkir.

28 fevral 2017-ci ildə Aqşin Abdullayev Şəki rayon Kiş kənd məzarlığında Şəhidlər uyuyan xiyabanda əbədiyyətə uğurlandı. Hər kəs o gün Azərbaycan Ordusunun layiqli zabitinə vida üçün cəm olundu. Şəki rayon ictimaiyyəti, şəhidin hərbçi yoldaşlarının iştirakı ilə yaylım atəşinin sədaları ilə Aqşin şəhidlər sırasında öz yerini aldı. Qisas andı içən qəhrəmanın qisasını alan qəhrəmanlar çox oldu.

Mayor Abdullayev Aqşin İsmayıl oğlu şəhadətindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2016-cı ildə təsis olunan "Şücaətə görə" medalına layiq görülən ilk şəhid oldu.

Qəhrəman şəhidimizin adı Şəki rayonunda küçələrdən birinə verilərək əbədiləşdirilib. Bundan başqa Xocavənd rayonunda Şəhidlər parkında Aqşinin də adı əbədiləşdirilib.

Bir də Aqşinə ürəklərdə abidə qoyulub. Varlığı ilə hər kəsin qəlbində bir iz qoyan qəhrəman gedişi ilə də hər kəsin qəlbində bir iz qoydu. Aqşin şəhid olduqdan sonra onun haqqında saysız-hesabsız insanlar fikir bildirdilər. İstər tabeliyində olan əsgərlər, istər silahdaşları, istər dostları, istərsə də sıravi vətəndaşlar Aqşindən əsl zabitə xas şəkildə danışdılar və danışırlar. Bu fikirlər Aqşinin ölümsüzlüyünün bariz nümunəsidir.

Ailəsi, doğmaları Aqşinin şəhid adı ilə hər zaman qürur duyur. Ancaq yoxluğu da hər addımda həyatın sərt sınağı kimi çırpılır. Bir zamanlar oğlu ilə hər sirrini bölüşən Dursun ananın göz yaşları içində dilə gətirdiyi "Onunla olmaq mənə xoş idi. Aqşin mənim dostum idi. Onunla günlərim gözəl idi. Sirdaşım idi." sözləri xəncər kimi ürəyimə saplandı. Aqşinsiz həyat əvvəlki kimi gözəl deyil.



## ŞƏHİD AQŞİN

Ölümün üzərinə bilərək addımlayıb,
Ölümsüzlük qazandın, qəhrəman şəhid mayor.
Adın qürur mənbəyi, fəxarətin özüdür,
Həsrətinsə qəlblərə salıb sönməz atəş, qor.

Sən tab edə bilmirdin elindən köçkün düşən,
Günahsız insanların naləsinə, ahına.
Ömrün on səkkiz ilin vətən üçün yaşayıb,
Gəncliyi fəda etdin vətənin sabahına.

Azadlığın toxumun torpağa dikən oğul,
O toxumu torpağa axan qanla suvardın.
Aprel döyüşlərində göz önündə can verən,
Neçə silahdaşının qisasını da aldın.

Bir şaxtalı qış günü gecənin ayazında,
Torpağın donan köksü qanın ilə isindi.
İllərdi atəşlərə tuş gələn Xocavəndin,
Yarası cismindəki yaralartək dərindi.

Sən məlhəm oldun Aqşin, qanın ilə vətənin,
İllərlə sağalmayan o işğal yarasına.
Ana, ata, qardaşın, bir də ki, dərdli yarın,
Çarəsizcə sarıldı sənin məzar daşına.

Üç körpə övladına sən miras qoyub getdin,
Vətən, bayraq, torpağı, Şəhid övladı adın.
Nə onlar səndən doydu, nə də sən övladlardan,
Sonbeşik Ömərindən "Ata" sözün duymadın.

*19.01.2023*



**MƏMMƏDOV XƏYAL AĞABƏY OĞLU**

MAYOR

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## İLK DƏRSİN İMTAHANI

*Sanmıram ki, elə bir azərbaycanlı ola onun ürəyində Qarabağ adlı yara qövr etməyə. Elə olmasaydı, körpəliyi, gəncliyi Qarabağın işğal dönəminə təsadüf edən qəhrəmanlar azadlıq amalları uğrunda can fəda etməzdilər.*

*Hər dəfə bir işğal tarixi matəm günü kimi qeyd olunanda məktəblilərin könül yükü bir qədər də artırdı. Həsrətdən ağır nə ola bilər ki? Bir də o həsrət vətən həsrətidirsə, o zaman daha ağrılı və ağır olur qəlb yükü. Xəyal qəlbinə ən böyük həsrəti ilk dəfə məktəbə qədəm qoyduğu gün yığmışdı. O gün müəllimlərin gözlərində dərin bir hüzn var idi. Çünki 1993-cü il avqustun 31-də düşmən Qubadlı rayonunu işğal etmişdi. Elə Xəyalın məktəbə qədəm qoyduğu 1 sentyabrda ilk öyrəndiyi dərs də vətən torpağının işğal olunması olmuşdu. İllər sonra Xəyal ilk dərsini unutmadı və illərlə çəkdiyi vətən həsrətini sona çatdırmaq üçün qəhrəmancasına vuruşdu. İlk dərs günü işğalını öyrəndiyi Qubadlı rayonunun azadlığı uğrunda tərəddüd etmədən can verdi Məmmədov Xəyal Ağabəy oğlu.*

Ağabəy və İlfat Məmmədovlar vətənə dayaq üç oğul böyüdürdülər. Vüsal, Xəyal və Taleh. Atanın və ananın xəyallarını övladlarının taleyinin gözəl olması vüsalı bəzəyirdi. Ailənin ikinci övladı olan Xəyalın isə bir gün şəhid olacağı heç xəyyallarda da yer almırdı.



Məmmədov Xəyal Ağabəy oğlu 1986-cı il 18 noyabrda payız günü Şəki şəhərində dünyaya göz açmışdır. Övlad həyatdan daha dəyərli varlıqdır. Hər valideyn adına layiq ata-ana övladının yolunda canından keçməyə hazır olar. Ağabəy kişi, İlfat xanım da övladlarını qayğısız yaşatmaq üçün hər vəchlə çalışırdılar. Min bir zəhmətlə qazanılan halal çörək dünyanın ən ləziz təamıdır. Zəhmətlə cadar tutan əllərin nəvazişi ən gözəl duyğudur. Valideynləri hər üç oğul övladına bu duyğuları bəxş edərək böyütmüşdülər. Uşaqlıqdan ciddiliyi ilə seçilən Xəyal isə sanki daha tez böyümüş və vətən dərdinə dərman olmağa çalışmışdı.

Xəyalın məktəbli həyatı 1993-cü il sentyabrın 1-də Şəki şəhər 5 N-li məktəbdən başlayıb. Təhsilə xüsusi önəm verən Xəyal riyaziyyat, tarix, coğrafiya fənlərini daha mükəmməl şəkildə öyrənib. Təhsil aldığı bütün illərdə şəkli şərəf lövhəsind yer alıb. Bilik və bacarığı ilə istənilən universitetə qəbul olmaq şansı olsa da, Xəyal hərbçi peşəsini seçməkdə qərarlı olub. Hətta VII sinfi bitirən zaman Cəmşid Naxçıvanski adına Hərbi Liseyə getmək üçün atasını səfərbər edib. Xəyalın ömür səhifəsini doğmaları ilə vərəqlədikcə xatirələr qəlbimi əsir aldı.

**Xəyalın atası Ağabəy kişi:**

– Xəyalın təhsil aldığı məktəbin direktoru İdris müəllim yaxın dostum idi. Xəyal vaxtından tez Hərbi Liseyə getmək istəyirdi. Hər zaman tələsən oğlum o addımı atmaq üçün də tələsirdi. Övladlarımla mənim aramda hər zaman pərdə olub. Çox şeyi onlar ilk mənə yox, analarına deyiblər. Xəyal o fikrini mənə deyəndə mən həm qürurlandım, həm də duyğulandım. Əslində bilirdim ki, qanunla bu mümkün deyil. Ancaq Xəyalın xətri qalmasın deyə mən İdris müəllimlə bu barədə danışdım. İdris müəllim Xəyalın bir il daha səbir etməsini dedi. Qonşu uşaq İlqarla bərabər çıxmaq istədiyi yola bir il sonra 2001-ci ildə çıxmaq qismət oldu. *(Xəyal haqqında danışmaq Ağabəy müəllim üçün asan deyildi.)*

**Xəyalın anası İlfat xanım:**

– Xəyal ciddiliyi ilə hər zaman seçilərdi. Əsl hərbçi görünüşü, hərbçi dəqiqliyi var idi. Oğlumun vətən sevgisini hiss edəndən bildim ki, oğlum vətənin oğludur. 2001-ci ildə ən böyük arzusuna çatdı Xəyalım. VIII sinfi bitirdikdən sonra Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olmaq üçün imtahan verdi. O imtahanın cavabı çıxana qədər ömründən ömür getdi Xəyalın. O zamanlar texnologiya bu qədər inkişaf etməmişdi. Liseyə qəbul olanların adları siyahı şəklində liseyin önünə vurulurdu. Növbə çox olduğundan o siyahını oxumaq zaman almışdı. Yaxın qohum zəng edib Xəyalın adının qəbul olanların sırasında olduğunu dedi. Bu xəbəri Xəyala deyəndə elə sevindi ki, sanki dünyanın ən xoşbəxt insanı oldu. Elə o zamandan Xəyal evimizin qonağı, vətənin oğlu oldu. C.Naxçıvanski adına Hərbi Liseydə də biliyi ilə seçilən Xəyalın şəkli şərəf lövhəsinə vuruldu.

2004-cü ildə Hərbi Liseyi yüksək qiymətlərlə başa vurduqdan sonra elə həmin il Azərbaycan Ali Hərbi Məktəbinə qəbul oldu. İnzibati idarəetmə mühəndisliyi ixtisası üzrə təhsil aldı. Xəyal eyni qaydada yüksək qiymətlərlə dörd il müddətində fərqlənməyi bacardı. Eyni qaydada şəkli şərəf lövhəsini bəzədi. AAHM-i Qırmızı Diplomla bitirməməsinin səbəbi isə bir dörd alması oldu. Xəyal təhsildə yüksək nəticə göstərdiyi üçün hətta həmin dönəmlərdə Albaniyaya göndərildi. Leytenant hərbi rütbəsi ilə Azərbaycan Ali Hərbi Məktəbini bitirən Xəyal daha sonra Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində birillik təkmilləşdirmə kursu keçdi.

Xəyal ilk olaraq 22 iyun 2009-cu ildə Cəlilabad rayonunda yerləşən N saylı hərbi hissədə motoatıcı taborun motoatıcı bölüyünün motoatıcı komandiri kimi xidmətə başladı. 8 iyun 2010-cu ildə motoatıcı taborun motoatıcı bölüyünün komandiri təyin olundu. 27 iyun 2011-ci ildə baş leytenant hərbi rütbəsinə layiq görülən Xəyal 8 avqust 2011-ci ildə təyinatla Haramı düzü adlanan yerdə motoatıcı taborun motoatıcı bölüyünün komandiri vəzifəsini icra etdi. 27 noyabr 2014-cü ildən 2020-ci il müharibə başlayana qədər Füzuli rayonunun Əhmədbəyli kəndində yerləşən N saylı hərbi hissədə müxtəlif vəzifələri icra etdi. 27 noyabr 2014-cü ildə tabor komandirinin maddi-texniki təminat üzrə müavini – maddi-texniki təminat bölməsinin rəisi vəzifəsini icra etdi. Xəyal 29 iyun 2015-ci ildə kapitan hərbi rütbəsinə layiq görüldü. 9 dekabr 2015-ci ildə Səyyar tibb qrupunun mobil hərbi hospitalın təminat bölməsinin rəisi təyin olundu. 6 aprel 2018-ci ildə isə eyni hərbi hissədə hospital rəisinin maddi-texniki təminat üzrə müavini – maddi texniki təminat bölməsinin rəisi vəzifəsinə təyin olundu. 29 iyun 2019-cu ildə mayor hərbi rütbəsinə yüksəldi. Bütün bu addımları ataraq ucalan Xəyal, sən demə, şəhadətə doğru addımlayırmış. Onun ömür yolu dəfələrlə döyüşlərdən keçdi. Xəyal bir gün işğal altında olan torpaqlarımızı azad etmək üçün hər gün çalışdı. Bütün istəklərinə nail olan qəhrəman o istəyinə də nail oldu. Uğruna fəda edilən ömür və arzular sayəsində.

Oğlumla bir ana olaraq hər zaman qürur duydum. Hər zaman Xəyalı başıma tac bilmişəm. Elə indi də başama tac bilirəm. Mən Xəyaldan doymadım. Onun nakam arzuları mənim bitməyən acımdır. Övladlarından doymadı övladım. Son dəfə Aylini məktəbdən götürəndə baxışlarında bir qəribəlik var idi. Sonuncu dəfə şəkil çəkdirmək istəyəndə elə bil ürəyimdən bir tel qopdu. O an Xəyala nəsə olacağı qəlbimə doldu. Elə ondan sonra mənə həyatda rahat olmadı. Müharibə başlanandan hər gün Allaha yalvarırdım ki, anaların ürəyi bala dağı ilə dağlanmasın. Ancaq çox anaların ürəyi dağlandı. Mənim ürəyim kimi. Mən Xəyalın gələn yollarına qurban demişdim. Xəyal özü vətən yollarına qurban oldu.



*Mən şəhid dərdi çəkən çox ürəyin acısından xəbərdaram. Şəhid qardaşlarının ürəyi biri-birinə bənzəyir. Elə sözləri də. Ürəklərinə axıtdıqları göz yaşlarını hər vəchlə gizlətməyə çalışırlar. Ancaq boğazda düyünlənən kəlmələr gizlənən göz yaşını izah edir. Elə həmin dərdli qardaşlardandır Vüsal və Taleh qardaşları.*

**Xəyalın qardaşı Vüsal Məmmədov:**

– Mən Xəyaldan heç doymadım. Aramızda üç yaş fərqimiz olsa da, çox pərdəli davranardıq. Mən atamla, Xəyal da mənimlə pərdəli davranardıq. Mən VI sinfi bitirdikdən sonra kollecə daxil oldum. Yalnız həftə sonları evə gəlirdim. Daha sonra Türkiyəyə getdim. Xəyal da Hərbi Liseyə qəbul oldu. Çox gec-gec görüşürdük. Heç tətil günlərimiz də üst-üstə düşmürdü. Həyatı dərk edəndən yaşadığımız illəri toplasaq, bəlkə də, ömrümüzün heç 6 ilini birlikdə yaşamamışıq. Ancaq Xəyalın uşaqlığı ilə bağlı unudulmaz xatirələrim onun böyüyəndə hərbçi olacağı arzusunu reallaşdırmaq istəyi və hərəkətləridir.

Xəyalla son danışığımızda hər ikimiz üçün bir ilk yaşandı. Xəyal ilk dəfə mənimlə səmimi danışdı. İllərdi mənə olan hörmətindən, mənim bir qardaş olaraq onunla hər zaman qürur duymağımı istədiyi üçün, yaddaşımda pis vərdişi olmayan bir Xəyal qalması üçün belə davrandığını dilə gətirdi. Füzulinin azad olunduğunun sevincini bölüşdük. Dedi ***"Torpaqlarımızı ala-ala gedirik."*** Heç vaxt işi ilə bağlı heç nə bölüşməzdi. Onun etdiklərini şəhid olduqdan sonra öyrəndik.

Oktyabrın 19-da dostlarla toplaşmışdıq. Söhbət əsnasında bu müharibənin hər kəsə toxunacağını dilə gətirdim. Heç bilməzdim ki, cəmi bir gün sonra müharibə həyatımızı alt-üst edəcək. Oktyabrın 21-də səhər saatlarında işdə rəhbərlikdən məni çağırdılar. Sən demə, bunlar mənə Xəyalın şəhid olduğunu demək istəyirlərmiş. Ancaq deyə bilmədikləri üçün məndən qardaşım Talehə zəng etməyimi istədilər. Zəngim cavabsız qaldı. Sonra Talehin telefonunu başqası açıb Talehin danışa bilmədiyini və cəbhədən xəbər olduğunu dedi. Artıq ürəyimə od düşdü. Yol boyu Xəyalın yaralı olması üçün dua etdim. Talehin iş yerinə çatanda izdihamı gördüyümdə vəziyyətin nə yerdə olduğunu anladım. O an ürəyim dözmədi.

Toparlanmalı idik. Çünki ata-anama, qardaşımın əmanətlərinə təsəlli olmaq lazım idi. Yola düzəldik. Nə bitməz yolmuş. Yolumuz bir morqda tamamlandı. Ümidlərimizin də sonu o morq oldu. Nə qədər ağrılı olsa da, Xəyalın xalını gördüyüm an Xəyalın şəhid olduğunu təsdiq etdim. Talehlə birlikdə qardaşımızın cansız cismini ata ocağına gətirdik. Heç unutmaram nə Xəyalın son gəlişini, nə də son gedişini. Üç qardaş son dəfə bir yola çıxdıq. Xəyalın solunda mən, sağında Taleh. Qardaş tabutu dünyanın ən ağır yüküdür. Həm ürəyə, həm çiyinə.

**Xəyalın qardaşı Taleh Məmmədov:**

– Xəyal dedikdə mənim ağlıma tək qardaş gəlmir. Dostum, sirdaşım, dayağım idi Xəyal. Onunla münasibətimiz fərqli idi. Həyatda çox ciddi olsa da, mənimlə tam fərqli idi. Bəzən bir qardaş, bəzən bir ata kimi qayğımı çəkirdi. Ailənin sonbeşik övladı mən olduğum üçün evin ən ərköyün uşağı mən idim. Dəli-dolu olmağım hər zaman başıma bəla olurdu. Başıma bəla gəldiyində əlimi ilk tutan Xəyal olurdu. Ucunda ölüm olsa, mənə *"Yox"* deməzdi. Özümü onunla çox güclü hiss edirdim. Qolumun qüvvəti, dizimin taqəti idi. Heç vaxt düşünməzdim ki, bir gün Xəyalsız nəfəs almağa məhkum olaram. İndi də sirdaşım Xəyaldır. Sadəcə bir fərq var. Əvvəllər mənə məsləhət verirdi. İndi sadəcə susub dinləyir. Buza dönən başdaşı ürəyimin üstə dikilib. Xəyalsız həyatın ağırlığından çox sıxılıram.

Xəyal və mənim bənzər cəhətlərimizdən biri də boğazımızdakı xalımız idi. Hər zaman bu bənzərlik bizi sevindirirdi. Heç ağlıma gəlməzdi ki, bir gün mən morqda qardaşımın o xalını oxşayacam. O qədər dua etdim ki, Xəyal olmasın deyə. Ancaq elə o xala qədər baxa bildim. Qardaşımın buza dönmüş cismini daha çox izləməyə ürəyim tab etmədi. Kaş ki görməz olaydım. Kaş ki 21 oktyabr 2020-ci il tarixində və o gündən sonra yaşadığım ömür yuxu olardı. Mənim xəyalımdan keçməzdi ki, Xəyalsız yaşayaram. Ancaq ağlıma gəlməyənləri həyatda yaşayıram.

Daha həyatda bir amalım var. Xəyalın adını yaşatmaq üçün yaşayıram. 3 yanvar 2021-ci il tarixində mən Xəyalın canı, qanı bahasına azad etdiyi torpaqları ziyarət etdim. Hər addım atdığımda sanki Xəyal o an hardansa çıxacaq və məni qucaqlayacaq deyə düşünürdüm. Füzulidən başlayan döyüş yolunun Hadrutdan, Zəngilandan, Cəbrayıldan keçən Xəyalın Qubadlı şəhərinə dörd kilometr qalmış tamamlanması çox acı bir gerçək idi. Mənim üçün Xəyalın şəhid olduğu yerlərə getmək və bayraq sancmaq diri-diri dərimin soyulması demək idi. Mən o anları yaşaya-yaşaya öldüm...

**Xəyalın həyat yoldaşı Röyalə xanım:**

– Bir zaman bizi qohumluq bağları birləşdirirdi. Sonra canıma can, mənə nəfəs oldu Xəyal. Qohum olsaq da, çox nadir hallarda görərdik biri-birimizi. Vüsalın toyunda Xəyalı gördüyümdə sanki tam fərqli bir insanı gördüm. Onu heç vaxt gülən görməzdim. İlk dəfə gülüşü qəlbimə toxundu. Həm ailəmizin, həm də özümüzün istəyimizlə ömür yollarını birlikdə addımlamağa qərar verdik. 2009-cu ilin sentyabr ayında nişanlandıq. Dörd il nişanlı qaldıq. Sanki alnımıza həsrət yazılmışdı. Mən bilməzdim ki, bitməyən həsrətim hələ qarşıdadır.

Hər dəfə Xəyalın düşmənlə üz-üzə olduğunu düşünmək mənə əzab verirdi. Bəzən telefon danışıqlarımızı atəş səsləri kəsirdi. Bir dəfə həmin snayper atəşinin biri düz qulağının dibindən keçmişdi. Həmin vaxt ani reflekslə yerə yıxılan Xəyal möcüzə nəticəsində sağ qalmışdı. Heç düşünməzdim ki, illər sonra Xəyal növbəti dəfə o atəşdən yayına bilməyəcək.



Dörd il həsrətlə yaşadıq. Dörd il müddətində mən universiteti bitirdim. Sonra bu həsrətə son vermək qərarına gəldik. Xəyal olduğu hər yeri özümə cənnət bilirdim. 19 avqust 2013-cü ildə Bakıdan Şəkiyə gəlin köçdüm. O qədər xoşbəxt idim ki. Bəyaz arzularım var idi. Bilməzdim arzularım al qana boyanacaq. Bir həftə sonra ailə həyatımızda ilk ayrılıq anımız çatdı. Xəyal işinin başına dönməli idi. O qədər çətin idi ki o ayrılıq. Mən Şəkidə qaldım Xəyal vətən keşiyini çəkməyə getdi. 20 gün sonra mən Xəyalın yanına getdim. Füzuli rayonunun Kürdmahmudlu kəndində çox şəraitsiz bir evdə kirayə yaşamağa başladıq. Günlərlə Xəyal evə gəlməsə də, ona yaxın olmaq mənə təsəlli idi. Bütün çətinliyin sonunda sevdiyimin üzünü görmək ən böyük mükafatım idi. Bizim daha bir mükafatımız isə 11 iyun 2014-cü ildə dünyaya göz açan Aylin oldu. Aylin doğulduqdan sonra Xəyal Füzuli rayonunun Əhmədbəyli kəndində xidmətə başladı. Bizi də həmin yerdə daha uyğun bir evə gətirdi. 17 dekabr 2015-ci ildə ikinci qızımız Selin dünyaya gəldi. Ailəmizin sevinci günbəgün böyüyürdü. Xəyalın ürəyində qalan arzularından biri də bir oğul övladına sahib olmaq və onu Eşqin adlandırmaq idi. Ancaq neçə arzular kimi o arzu da nakam arzular cərgəsinə qoşuldu.

Aprel döyüşləri zamanı Xəyal çox fərqli davranırdı. Heç unutmuram, bir dəfə evə gəldiyində dedi ***"Mənimlə qızlarımın videosunu çək. Qızlarım böyüyəndə məni xatırlasınlar".*** O zaman çox pis olmuşdum. Müharibəyə getməyə hazırlaşırdı. Ancaq qismətində Aprel döyüşlərində yox II Qarabağ müharibəsində şəhid olmaq var imiş.

Xəyal ailəsinə bağlı bir ailə başçısı idi. Ancaq ən çox sevdiyi isə vətən idi. Ailəsinin, övladlarının firavan yaşaması üçün hər zaman vətəni qorumağın vacibliyini dilə gətirərdi. Elə 2020-ci ilin sentyabrında Xəyalın verdiyi qərar da bunu sübut etdi. Həmin il Aylin məktəbə, Selin isə məktəbəqədər hazırlığa başlayacaqdı. Xəyal bizi Şəkiyə apardı. Yanvar ayına qədər uşaqların bir zaman özünün təhsil aldığı məktəbdə təhsil almasını istədi. Xəyal həmin vaxt məzuniyyətdə idi. Heç vaxt olmadığı qədər fikirli və narahat idi. Hər zəng gəldiyində narahatlığı baxışlarına yansıyırdı. Bizə bəlli etməməyə çalışırdı.

Heç bilməzdim ki, Xəyal Aylini ilk dəfə məktəbli formasında gördüyü o gün çəkdiyim şəklə gün gələcək yaşlı gözlərlə baxacağam. Heç Selinim atasının əlindən tutub məktəbə gedə bilmədi. O qədər ağırdı ki, uşaqların atasızlıq həsrətini

gözlərindən oxumaq. Bir qız övladı üçün ata hər şeydi. Mənim qızlarım hər şeylərini itirdi. Mən heç zaman Xəyalın yerini doldura bilmərəm.

Xəyal son dəfə evə gələndə biz bilməsək də, özü son gəlişi olduğunu hiss edib. Bərbərin "Qonaq ol" sözlərinə ***"Yox mən şəhid olacam,sənə borcum qalmasın"*** cavabı bunun bir sübutudur. ***"Bir gün ölmək üçün hər gün yaşayırıq"*** sözləri şüara çevrilən Xəyaldan bu sözləri duyanda "Sən şəhid olsan, mən neyləyərəm?" deyirdim. ***"Nə mən şəhid olan ilk insan olaram, nə sən tək qalan ilk Şəhid yarı olarsan. Nə olacaq, olacaq"*** deyirdi hər zaman.

Müharibə başlayanda Xəyal məzuniyyətdə idi. O öz istəyi ilə döyüşə getdi. O son gediş iliklərimə qədər işlədi. O vida son nəfəsimə qədər qəlbimi göynədəcək. Daha mənə rahatlıq yox idi. Hər an Xəyalın top-tüfəngin qarşısında olduğunu düşünmək məni öldürürdü. Gedərkən ona əmanət etdiyim balaca Qurani-Kərimi heç yanından ayırmamağı demişdim. Allah onu qoruyurdu. Qısa müddət öncə avtomobil qəzasından sağ çıxmışdı. Həmin vaxt ***"Allah məni sizə bağışladı"*** demişdi. Allahdan yenə Xəyalı bizə bağışlamağı diləyirdim. Ancaq bu dəfə dualarım qəbul olmadı.

Müharibədə olanda dedim ki, Xəyal, nə olar ad günündə yanımıza gəl. ***"Öz ad günümdə söz vermirəm, ancaq Selinin ad günündə mütləq gələcəyəm"*** dedi. İlk dəfə Xəyal sözünü tutmadı.

Selin sanki hər kəsdən öncə atasının şəhid olacağını hiss etmişdi. Bir dəfə atasının şəklini çəkirdi. Qəfildən "Ana, atam qurbandır" dedi. Dedim Selin, o nə sözdür? Təkrar yenə eyni sözləri dilə gətirdi. Donub yerimdə qaldım. Cəmi bir həftə sonra Selinin dediyi kimi atası vətənə qurban oldu.

Oktyabrın 20-də özümü çox narahat hiss edirdim. Həmin gecə səbəbsiz olaraq hönkürtü ilə ağlamağa başladım. O an ürəyim dayanacaq kimi hiss etdim. Sən demə, sevdiyimin ürəyi dayanıbmış. Sən demə, döyündüyüm qəlb əbədi susubmuş...

21 oktyabrda elə bil göyün üzü qan ağlayırdı. Başımı qaldırıb göyə baxdım. Üzümə çilənən damlalara qarışdı göz yaşlarım. Tanışımız Şahmarın bizə gəlməsi, qəribə halı narahatlığımı bir az da artırdı. Qəfildən İlfat ananın fəryadını duydum. Artıq İlfat ana da Şahmarın bir xəbər gətirdiyini, lakin deyə bilmədiyini hiss etmişdi. Həyətə qaçdım gördüyüm insan izdihamı az sonra nələr yaşayacağımızdan xəbər verdi. "Xəyal ölmə" – dedim. Otaqdan mənə sarı gələn Aylin və Selinin "Ana, atam ölüb?" sualı bir anda məni yuxudan oyatdı. Mən Xəyalın iki əmanətinə ümid olmalı idim. Həyat yüküm boyumu aşdı...

Mən Xəyalı tabutda qarşılamağı xəyal etməmişdim. Yandım, elə yandım... Cehizlik xalçamın üstünə Xəyalın tabutu qoyuldu. Biz nələr xəyal etdik, ancaq nələr yaşadıq. Əllərim əbədi Xəyaldan da, xəyallardan da üzüldü.



Xəyal şəhid olduqdan sonra Füzulidə qaldığımız evə getdim. O an çəkdiklərimi izah edə bilmirəm. Hər şey olduğu kimi idi. Xəyalın paltarları, əşyaları. Sanki bir anda Xəyal qapıdan girəcəkdi. *(Yazarkən sanki ürəyim çarmıxa çəkilir. Yazmağa güc ver, Allahım.)* Bir anda stolun üstündəki məktubu və siqaret kötükləri ilə dolu külqabını gördüm. Onda bildim ki, Xəyal bir daha o qapıdan girməyəcək. Bir kül qabı dolusu siqareti çəkə-çəkə vida olaraq bu sözləri yazmışdı:

***07 oktyabr 2020-ci il***

***Mən gedirəm vətəni qorumağa. Müqəddəs vəzifəmin icrasına. Ailəm və övladlarım Allaha əmanət olsun. Hər kəs haqqını halal etsin.***

***Vətən sağ olsun.***

Son vidamızda mən Xəyalı Allaha əmanət etmişdim. Xəyal da bizi Allaha əmanət edib. İndi Allahdan arzum əbədiyyətdə Xəyalla qovuşmaqdır. Xəyaldan sonra yaşamaq çətindir. Onun əşyalarından təsəlli almaq çətindir. Aylin və Selin üçün güclü görünməyə çalışıram. Hər dəfə videoya baxanda "Ana, o bayraqlı qutunun içində apardıqları nədir?" sualları mənim bu dünyada cavab tapa bilmədiyim sualdır.

*Xəyal Məmmədovun II Qarabağ müharibəsində göstərdiyi şücaətləri onun döyüş yoldaşları daha aydın izah edir. I Qarabağ və II Qarabağ döyüşçülərində böyük şücaətlər göstərən Pəsərək Fərzəli həmin şücaətlərdən danışdı. Qəhrəmanımızın qəhrəmanımız haqqında dediklərini olduğu kimi yazıram.*

**Xəyalın döyüş yoldaşı Pəsərək Fərzəli:**

– Döyüşdə min illərə bərabər anlar yaşadıq Xəyal Məmmədovla. Tabor komandirimiz İqbal Bayramov şəhid olduqdan sonra oktyabrın 7-də mayor Xəyal Məmmədov bizim tabor komandirimiz təyin edildi. Mən bölük komandiri idim. Cəbrayıl-Qubadlı istiqamətində bir çox döyüşlərdə çiyin-çiyinə vuruşduq. Mayis Bərxudarovun şəxsi göstərişi ilə Şükür Həmidov, Xəyal Məmmədov kimi qəhrəmanlarla birlikdə düşmən ordusunu darmadağın etdik. Dağtumas, Balasoltanlı kəndlərini düşməndən azad etdikdən sonra Yazı düzü istiqamətində 803 yüksəkliyini tutduq. Məqsəd Qubadlıya gedən yolu nəzarətə almaq idi. Dağtumas kəndi uğrunda döyüşlər gedən zaman mən bir video çəkdim. Həmin videoda Xəyalın da səsi düşüb. Heç düşünməzdim ki, o səs Xəyaldan xatirə qalacaq son səsi olar.

Oktyabrın 20-də saat 13:00-da Qubadlı şəhərinə təxmini 4-4,5 km məsafədə 803 yüksəkliyində Xəyal düşmənin açdığı snayper atəşinə tuş gəldi. Mən 300 m öndə idim. Bu xəbər məni çox sarsıtdı. Döyüşə davam etməli idim. Xəyalın intiqamını elə həmin an aldıq. Elə Xəyal özü də öz intiqamını alıb şəhid olmuşdu. Geri döndüyümdə Xəyalın cansız cismini gördüm. Gecə 23:00-da təxliyə

qrupunun üç üzvü və digər üç hərbçi ilə birlikdə Xəyalın nəşini yağış kimi yağan atəş altından götürdük. Xəyalın qanı üzərimə hopdu. O qanın intiqamını artıqlaması ilə alacağıma and içdim. Aldım da...

**Xəyalın döyüş yoldaşı Elmir İsgəndərov:**

– Xəyal fədai idi. Özünü fəda etdi. Biz anbaan irəliləyirdik. Mayis Bərxudarov özü şəxsən həmin döyüşləri idarə edir və döyüşürdü. Padar kəndinə çatdıq. Elə bir yerə çatdıq ki, deməl olar düz yer idi. Koordinat verməl lazım idi. Lakin ətrafda heç bir şey yox idi. Xəyal həmin an ayağa qalxdı və koordinatı ötürmək üçün aryentili əvəz etdi. 20 dəqiqədən çox atəş altında ayaq üstə qaldı. Koordinat götürüldü və ermənilərə artilleriya atəşi açıldı. Xeyli sayda düşmənin canlı qüvvəsi və hərbi texnikası zərərsizləşdirildi. 1 saat sonra dağın ətəyi ilə irəliləyən Pəsərək Fərzalının dəstəsinin getdiyi istiqamətdə irəliləyirdik. Aramızda beş metr məsafə var idi. Həmin an Xəyalın vurulduğunu gördüm. Gözəlovun "Komandir vuruldu" sözləri ilə Xəyalın yanına qaçdım. Xəyal Gözəlovun qucağında əbədi olaraq gözlərini yumdu. Həmin gün o istiqamətdə Xəyal ilə birlikdə 6 şəhid verdik. Çox çətin oldu bizə. Elə bir döyüş zamanı Xəyalı itirmək ağır itki idi.

*Xəyal ilə bağlı çox insanların unudulmaz xatirələri var. Onlardan biri də Dadaşov Elvindir.*

**Xəyalın ilk bölük komandiri Elvin Dadaşov:**

– 2009-cu ilin avqust ayında Cəlilabada gələn kursantlardan biri də Xəyal idi. Xəyalın bölük komandiri mən idim. Xəyal da taqım komandiri təyin edildi. Qısa müddətdə Xəyal bölük komandiri kursunu keçdi və bölük komandiri təyin olundu. Xəyalı ilk gördüyüm anda onun əzminə heyran oldum. Bəli, bizim ordumuza belə zabit lazım idi. 2012-ci ildə mən Müdafiə Nazirliyinin göstərişi ilə başqa işin icrasına başladım. Sonra uzun müddət Xəyal ilə görüşmədim. 2017-ci ildə TTM-də MTT kursunu keçən Xəyalı gördüm. Artıq o, bir kapitan rütbəli hərbçi idi. Özü isə heç dəyişməmişdi. Elə həmin dost kimi qəlbimə sıxdığım Xəyal idi.

Bir gün Xəyalın şəhid olacağını, onun məzarını ziyarət edəcəyimi düşünmürdüm. O xəbəri eşitmək mənim üçün ağır, Xəyalın məzarını ziyarət etmək isə ən böyük çarəsizlik idi. Sən bu qədər susqun deyildin, əziz dost...

Beləcə bu vətəndən bir qəhrəman Xəyal keçdi. Özündən sonra sözü, izi vətənə əmanət qaldı. Şəhadətindən öncə (26.06.2013) "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı, (26.06.2018) "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı, (26.06.2018) "Azərbaycan Ordusunun 100 illiyi " yubiley medalı ilə təltif olunan mayor Məmmədov Xəyal Ağabəy oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra da orden və medallarla təltif edilib. "Vətənə xidmətə görə" 3-cü dərəcəli ordeni, "Vətən uğrunda" medalı, "Cəbrayılın azad olunmasına görə" medalı, "Qubadlının azad olunmasına görə" medalı və "Füzulinin azad olunmasına görə" medalı Xəyalın qanı, canı bahasına qazandığı zəfərin əbədi nişanəsidir.



Bir zamanlar şəhidlərin adlarının əbədiləşdirilməsi üçün öz maaşından ayırıb Xocavənd rayonunda tikilən Şəhidlər abidəsinin tikilişinə maddi dəstək olan Xəyalın öz abidəsi bütün vətən sevdalı, şəhid həsrətli ürəklərdə ucaldılıb.

Xəyalın qardaşı Taleh müəllim hər il sentyabrın 27-də, Xəyalın şəhid olduğu 20 oktyabrda (1 gün qabaq və ya sonra) 8 noyabrda və 18 noyabr Xəyalın ad günündə Xəyalın maşını ilə təmənnasız taksi sürür. Şəhid qardaşının və şəhidlərimizin adlarını yaşatmaq üçün hər vəchlə çalışan Taleh müəllimin təşkilatçılığı ilə "Xəyal 2021" futbol turniri, "Şəki şəhidləri–2021" yunan-roma və sərbəst güləş turniri, "Şəki şəhidləri–2022" stolüstü tennis turniri və "Şəki şəhidləri – 2022" futbol turniri keçirilib. Elə "VƏTƏN FƏDAİLƏRİ: ŞƏKİ ŞƏHİDLƏRİ" kitabının da ərsəyə gəlməsində Şəhid qardaşı Taleh Məmmədov əlindən gələn dəstəyi əsirgəmədi. Gənc nəslin vətənpərvərlik ruhunun cilalanmasında bu kimi addımların rolu və önəmi böyükdür.

## ŞƏHİD XƏYAL

Unudulmaz dərs oldu Qubadlının işğalı,
Ürəyində böyüdü vətənin, dərd-məlalı,
Dedin "Qoymaram heç vaxt Qarabağı yaralı"
Amalını qanınla yazdın vətən, torpağa,
Ruhun ilə sarıldın Şəhid Xəyal, bayrağa.

İgid kimi iz saldın Hadrutda, Zəngilanda,
Vuruşdun qəhrəmantək Füzuli, Cəbrayılda,
Şəhid kimi can verdin qəhrəman, Qubadlıda,
Şəkiyə azadlığın müjdəsi ilə döndün,
Şəhid, cismin torpağa, özün tarixə döndün.

Ana, ata qəlbinin qanayan yarasısan,
Bir vaxt evin, indisə sən elin balasısan.
Keçsə də qərinələr tarixdə qalasısan,
Bu millət adın ilə qürur duyacaq hər vaxt,
Ürəklərdə qurmusan Şəhid Xəyal, sən bir taxt.

Qardaşların yaşadır adını ehtiramla,
Yanaqlara süzülür göz yaşı damla-damla.
Dünyadan köçüb getdin şəhidtək ehtişamla,
Adın qürurun özü, məzarın and yeridir,
Şəhid Allah qatında əbədilik diridir.

Sənsizliklə baş-başa qalıb sevdiyin qadın,
Ona tək təsəllidir müqəddəs Şəhid adın.
Aylin, Selin daddılar atasızlığın dadın,
Həyat sənsiz itirib rəngarən çalarları,
Xəyal, sənli o günlər bəzəyir xəyalları.

***25.01.2023***





**ƏHMƏDOV SÜLEYMAN MƏMMƏD OĞLU**

**KAPİTAN**

*(1992-ci ildə I Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## VƏTƏNDƏ ÇİN OLAN ŞƏHADƏT ARZUSU

*Bəzi insanlar yaşamağı, bəziləri isə yaşatmağı üstün tutar. Şəhidlər isə vətənin var olmasını, vətəndaşların rahat, azad yaşamaqları üçün öz canlarını fəda edərlər. Onlar bu yolun sonunun hara varacağını bilə-bilə bu yolda addımlayarlar. Nə məsafələr, nə də maneələr vətəni sevməyə, vətənə ümid olmağa, vətənə qurban olmağa əngəl ola bilər. Axı əsl sevgilər əngəl tanımır. Elə Süleymanın da vətən sevgisinə heç bir şey əngəl ola bilmədi. Ürəyi vətən sevgisinə ünvan olan Süleyman SSRİ-nin dövründə rus ordusunda xidmət edərək general rütbəsinə yüksəlməkdənsə, rus və erməni birləşmələrinin işğal etdiyi vətən torpaqları uğrunda şəhid olmağı üstün tutur. Vətənə gəlməyə ona əngəl olsalar da, o, bütün əngəlləri aşaraq vətənə gəlir. Süleyman Vətənə, Vətən Süleymana qovuşur.*

Şəki torpağının vətənə yetirdiyi Əhmədov Süleyman Məmməd oğlu 15 mart 1961-ci ildə Şəki rayonunun Böyük Dəhnə kəndində dünyaya göz açıb. 5 övladdan (4 oğlan, 1 qız) 2-ci olub. Hər bir valideyn kimi Məmməd kişi və Yahuzər xanım da min bir zəhmətlə övladlarını böyüdüblər.

Süleyman Əhmədov 1968-ci ildə Şəki rayon Böyük Dəhnə kənd 2 nömrəli orta məktəbdə təhsil alıb. Məktəbi bitirdikdən sonra Zaqatala Politexnik Texnikumuna qəbul olub. Lakin texnikumu bitirməmiş müddətli həqiqi hərbi xidmətə çağırılıb. SSRİ-nin tərkibində olan Ukraynada xidmətə başlayıb. Kazanda,

Dnepropetrovskdə xidmət edib. Sonra Ural bölgəsində 2 il hərbi məktəb oxuyub. Nümunəvi kursant olduğu üçün Saratova göndərilib. Orada Dzerjinski adına Ali Hərbi Məktəbdə 4 il hərbi təhsil alıb. Xidmətlərinin nəticəsi olaraq baş leytenant rütbəsinə layiq görülüb. Nümunəvi zabit olduğu üçün ona hərbi məktəbdə qalıb müəllim kimi fəaliyyət göstərməsi təklif olunub. Lakin o, bununla razılaşmayıb. Süleyman Sverdlovsk vilayətinin Nijniy Taqil şəhərində xidmətə göndərilib. Süleyman yüksək xidmətlərinə görə 1988-ci ildə kapitan hərbi rütbəsinə layiq görülüb. Süleymanın ordu üçün əvəzsiz bir zabit olduğu hər kəsə aşkar idi. Onu heç kim itirmək istəmirdi. Elə irəlidə baş verənlərin səbəbi də peşəkar zabitin rus ordusundan çıxmağına əngəl olmaq idi.

1990-cı ildə sovet ordusunun törətdiyi 20 Yanvar faciəsindən sonra Süleyman Əhmədov Qorbaçova məktub ünvanlayır. O, məktubda Rus ordusunda xidmət etməkdən imtina etməsi və Azərbaycana qayıdıb darda olan vətəndə xidmət etmək barəsində yazır. Lakin ona rədd cavabı gəlir. Ancaq gələn cavab ona əngəl olmur. Süleyman Gürcüstanda xidmət etmək istədiyini deyərək təyinatını Gürcüstana yazdırır. Gürcüstandan isə Azərbaycana keçir. 1991-ci ildən Azərbaycan ordu sıralarında xidmətə başlayır. Bir müddət sonra Biləcəridə yerləşən N saylı hərbi hissədə tabor komandiri olaraq xidmət edir.

Süleyman Əhmədov Qarabağa can atır. O gözəl bilirdi ki, Qarabağda ona daha çox ehtiyac var. Zəngilan istiqamətində, Qafanda, Ağdərədə, Ağdamda bir çox döyüşlərdə mübarizə aparır. Hər zaman ***"Ermənİ kimdir ki, mənə onun gülləsi dəysin? Onlar məni vursalar, ancaq arxadan vurarlar"*** – deyən qəhrəman saysız-hesabsız döyüşlərə imza atır.

Zəngilan rayonunda düşmənin mebel salonu adı altında qurduğu silah-sursat zavodunu partladır. Zavod partlayandan sonra çox həqiqətlər üzə çıxır. Süleymanın dəstəsi bir neçə kəndi düşməndən azad edir.

Süleymanın son döyüşü isə sentyabrın 30-da olur. Hər zamankı kimi Süleyman yenə öndə gedir. Ermənidən yalnız düşmən olacağını hər birimiz bilirik. Bu elə həmin döyüşdə bir daha sübut olunur. Düşmən tankı Süleymana tuşlayıb atəş açmaq istəyəndə Süleyman daha cəld tərpənir və düşmən tankını sıradan çıxarır. O tanka yaxınlaşdığında hərbçilərin tankın içində sağ olduğunu görür. Həmin hərbçilərdən birinin kursant yoldaşı olduğunu görür. Süleymanın ***"Sən mənim kim olduğumu bilə-bilə mənə atəş açacaqdın?"*** sualına həmin hərbçi "Bəli" cavabını verir. Süleyman axan qanların qisasını qanla alır və iki hərbçini əsir götürür. O döyüş Süleymanın son döyüşü olur. Süleyman və dəstəsi Çıldıran istiqamətində irəliləyən zaman partlayan minaya rast gəlirlər. Sən demə, minanın daxilində başqa mina da var imiş. Əsgərlərin "Komandir siz arxa ilə gəlin, öndə biz gedək" sözlərinə ***"Siz də ana övladısınız"*** deyib öndə gedir. Həmin an mina partlayır və üç əsgəri o an şəhid olur, Süleyman isə ağır yaralanır. O an həkim müdaxiləsi olmadığı üçün qanaxma səbəbindən şəhid olur.



"Süleyman şəhid olub" sözlərini duyan Məmməd kişi, Yahuzər xanım, İmarət xanım bu xəbərin gerçək ola biləcəyinə inanmayıblar. Şəhid ata-anası övladlarını vətən sevdalı, vətən qeyrətli böyütmüşdülər. O oğul da vətən yolunda fəda oldu. "Bütün şəhidlərin alın yazısı eynidir" deyən Şəhid atası oğlunu şəhidlərdən ayırmadı. 1985-ci ildən Süleyman ilə bərabər dünyanın çox yerlərində olan İmarət xanım həyat yoldaşının hərbi biliklərinə şahid idi. O, Süleymanın döyüş zamanı istənilən çətin vəziyyətdən çixacağına inanırdı. Ancaq bu dəfə heç nə düşünüldüyü kimi olmadı. 6 yaşlı Marina, 4 yaşlı Yelena və 1 yaşlı Venera ata adlı dayaqlarını əbədi itirdilər. Axı onlar atasızlığın nə demək olduğunu bilmirdilər. Həyatda ən böyük dayaqlarının tabutda gəldiyi 1 oktyabr 1992-ci il tarixi nə o körpələrin, nə də o körpələri tək-tənha böyütmək məcburiyyətində qalan İmarət xanımın yaddaşından silinmədi.

Süleyman döyüşə getməzdən öncə İmarət xanım "Üç qız övladın var. Bəlkə, döyüşə getməyəsən" deyəndə Süleyman bərk əsəbiləşir. ***"Mən evdə gizlənmək üçün işimdən imtina edib vətənə gəlməmişəm. Mənim qızlarım kimi körpələri düşmən süngüdən keçirdi. Mən bunlara göz yuma bilmərəm. Düşmən hədəfində olan qız-gəlinlərimiz var. Mən namusumu qan ilə yumağa hazıram. Vətən üçün öldürmək də, ölmək də şərəfdir"*** sözlərini deyir. Bu sözləri duyan İmarət xanım başını aşağı dikərək gözlərindən damlayan yaşı yarının yollarına çiləyir. Süleyman gedərkən necə dönəcəyini bilirdi. Getməzdən öncə dəfn olunacağı yeri yazıb qoyması bunun izahı idi.

1 oktyabr 1992-ci ildə Süleyman döyüşə getməzdən öncə yazıb qoyduğu vəsiyyətə görə Bakı şəhərindəki Şəhidlər xiyabanında deyil, ata-baba yurdu olan Böyük Dəhnə kənd məzarlığında torpağa tapşırılır.

***"İmarət, mayor rütbəsi almışam, döyüşdən qayıdan kimi çiynimdə mayor rütbəsi daşıyacağam"*** demişdi son danışığında. Ancaq o rütbəni daşımaq Süleymana qismət olmadı. Uzun müddət dərddən xəstə düşən Şəhid xanımı Süleymanı yuxuda görür. Süleyman hər an onların yanında olduğunu, hər əzasının üstündə olduğunu deyir. Qızlarını üzgün gördüyünü deyir. İmarət xanım üç qızını böyütmək üçün özündə güc toplayır. Həyatda cisminin daşıya bilməyəcəyi yükü ürəyinə yığır. Həm üç qızını, həm də qəhrəman yarının adını yaşatmağa çalışır.

Süleyman SSRİ ordusunda xidmət etdiyi zaman bir çox medal və diplomlarla təltif edilmişdi. İmarət xanım Süleymanın aldığı medal və diplomları aidiyyəti

yerlərə təqdim etmişdi. O zaman Süleyman Əhmədovun "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görüləcəyi bildirilsə də, bu günə qədər hələ də o ad təqdim olunmayıb.

Kapitan Əhmədov Süleyman Məmməd oğlu Azərbaycan Respublikasının Prezidenti, Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə 2002-ci ildə "Vətən uğrunda" medalı ilə təltif edilib.

Bir qız üçün atasız böyümək çətindir. Bir də o atanın adını övladında yaşatmaq isə böyük məsuliyyətdir. Atasını itirəndə cəmi 1 yaşı olan Venera övladına atasının adını əmanət edib.

Bakı şəhərində küçələrin birinə Süleyman Əhmədovun adı verilib.

Süleyman Əhmədovun qəhrəmanlıqlarını o dönəmdə demək olar ki, hər kəs eşidib, bilirdi. Bugünkü nəsil və gələcək nəsillərin də Süleyman Əhmədov kimi bir qəhrəmanı tanıması üçün bu gün addımlar atılmalıdır. Şəhidlərimizin gələcəkdə unudulmaması üçün ən böyük məsuliyyət də elə bizlərin üzərinə düşür. Yaşadaq ki, tarixdə əbədi yaşasınlar.



## ŞƏHİD SÜLEYMAN

İnsan vətənindən ayrı düşəndə,
Ürəyi yaralı bir quşa bənzər.
Vətəndə yaşanan xoş ömrü-günü,
Qürbətdə həsrətlə axtarar, gəzər.

Vətəni dar gündə olan Süleyman,
Həsrət böyüdürdü hey ürəyində.
Ağ günü qaraya dönən torpağın,
Can atdı durmaqçün o, keşiyində.

Neçə döyüşlərdən üzüağ çıxdı,
Düşməndən qisasın alan qəhrəman.
Deyirdi "Vətənin bir qarışın da,
Yağı əllərində heç vaxt qoymaram."

Bu xalq sanki illər boyu bəsləyib,
Erməni adında bir əfi ilan.
Düşmənin nəfsinin qurbanı oldu,
Ağdərə, Qubadlı, həm də Zəngilan.

O ellər uğrunda, torpaq uğrunda,
Canından can verdi Şəhid Süleyman.
Heç zaman yaddaşdan silinə bilməz,
Xalqının qəlbini eşqlə qazanan.

Üç körpə qızcığaz atasızlığı,
Çəkdilər bənizə, qəmli baxışa.
Həyatın gənc çağı tənha qalanın
Ağ ömrü həkk oldu bir qara daşa.

*27.04.2023*



**İSRAFİLOV KƏNAN FAİQ OĞLU**

KAPİTAN

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## TARİX YAZIB, TARİXƏ YAZILAN KAPİTAN

*(Murov Qartalı)*

*Övlad sabaha olan ümiddir. Oğul övladları dünyaya gələndə ailə ikiqat sevinir. Ona görə ki, vətəni qoruyan, səngərdə dayanan, düşmənə sinə gərən qəhrəman oğullardır. Torpaqlarının bir hissəsi işğal altında olan vətəndə doğulan hər oğul vətənə düşən bir şəfəq deməkdir. O vətənə ki illərdi uğrunda verilən canlardan can tapıb. O canlar azadlığa cahan boyda ümid verib. O ümidlər olmasa, 30 illik əsarətin qandalı sökülə bilməzdi. O ümidləri doğruldan vətənin işğal yaşı yaşından çox olan Kənan və onun kimi qəhrəmanlar oldu. Bir zaman dünyaya gəlişi ilə ailəsinin ümidi olan bu qəhrəman vətən sevgisi ilə döyünən ürəyini vətənə tuşlanan atəşlərə sipər etməyə bir an belə tərəddüd etmədi. Qalib ordunun qəhrəman kapitanı kimi Zəfər yolundan keçdi.*

1990-cı illərdə vətənin üzərinə qara buludlar çökən zaman dünyaya göz açan körpələrdən biri idi İsrafilov Kənan Faiq oğlu. 8 noyabrda Şəki şəhərinin Şirinbulaq kəndində bacısı Aydandan sonra dünyaya göz açmışdı. Ailəsinin ilk və tək oğul övladı olan Kənan varlığı ilə hər kəsə ümid olmuşdu. Elə körpəlikdən davranışı, mehribanlığı, özünəməxsusluğu ilə fərqlənmişdi. Hərbçi əmisi Nəsimi İsrafilovu uşaqlıqdan özünə örnək götürmüşdü. "Qəhrəmanlıq qandan gəlir"



deyimini bu iki qəhrəmana şamil etmək olar. Hər dəfə əmisini görəndə əmisinin qürurla daşıdığı hərbi formasını geyinər, içində itib-batardı. O davranışlarından Kənanın böyüyəndə hərbçi olacağı bəlli idi.

1997-ci ildə Şəki rayon Şirinbulaq kənd natamam kənd orta məktəbinin birinciləri sırasında Kənan da öz yerini almışdı. Məktəbdə oxuyanda da davranışlarından gələcəkdə bir hərbçi olacağı sezilmişdi. Ötən zaman Kənanı böyütdükcə insanlığı ilə də insanların gözlərində böyümüşdü.

İnsan həyatda heç də hər zaman sevinc duyğusunu yaşamır. Kədər yaşasan belə o duyğuya yenik düşməmək böyük dəyanətdir. Elə o dəyanətlə daha çox güclənərsən. Kənanın da məğlubedilməzliyi elə prinsipial olmağından bilinirdi. Qarşısına qoyduğu məqsədə hər zaman çatar, öhdəsinə götürdüyü hər işi yerinə yetirərdi. Anasının, bacısının dayağı olan Kənan bütün qohum-əqrəbanın istəklisi idi. Kənan sevincin özü, Kənan dillərin şirin sözü idi. Hər kəsi bir araya topladığı an sanki İsrafilovlar nəslində toy-bayram olardı. Ondan sonra o günlərin təkrarı yaşanmır. Onunla bərabər o xoş günlər də dönüşü olmayan yolda izini itirib.

Allah Kənanı vətənə azadlıq bəxş etməsi üçün yer üzünə müvəqqəti qonaq kimi göndərmişdi. Yoxsa onun körpə ürəyinə o boyda vətən sevgisi sığışmazdı. VIII sinfi bitirdikdən sonra Kənan hərbçi olmaq üçün lazımi addımları atdı. 2005-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olan Kənan üçillik təhsilini uğurla başa vurduqdan sonra Azərbaycan Ali Hərbi Məktəbinə qəbul oldu. Dörd il də AAHM-də təhsil alan qəhrəman daha sonra Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində birillik təkmilləşdirmə kursunu da uğurla başa vurdu. Ondan sonra Kənan Azərbaycan Ordusunun leytenantı olaraq vətən keşiyini çəkməyə başladı. 2013-cü ildə təyinatla şəhid qanlı, itkin ömürlü Murov istiqamətinə göndərilən qəhrəman düşmənlə üz-üzə yerləşən N saylı hərbi hissədə komandir vəzifəsini icra etdi. Çətin relyefi olan Murovda əsgərlərin rahatlığı üçün Kənan öz məvacibi ilə hərbi hissədə daha rahat şərait yaratmaq istəyirdi. Bu onun mərhəmətini daha aydın izah edirdi. Bu idi Azərbaycan oğlunun qorxmazlığı. 2013-cü ildə Kənanın layiq görüldüyü "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı ilk medalı oldu.

Uşaqlıqdan çəkdiyi çətinliklər onun daha mətin olmasına səbəb oldu. Anasının çəkdiyi hər çətinliyin haqqını vermək üçün böyüməyə can atırdı bu qeyrətli oğul. Elə Hərbi Liseyə daxil olduqdan sonra da ana və bacısını Bakı şəhərinə gətirdi. Bilirdi ki, anasının və bacısının ən böyük ümidi odur.

Kənan heç zaman yerində saymağı sevməzdi. Göstərdiyi şücaətlərin nəticəsi idi ki, 2015-ci ildə baş leytenant hərbi rütbəsinə layiq görüldü. 2018-ci ildə qərargah rəisi təyin olan Kənan daha sonra Azərbaycan Respublikası Silahlı

Qüvvələrinin Hərbi Akademiyasına qəbul oldu. Elə həmin il ona təqdim olunmuş "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı Kənanın zəhmətinin növbəti bəhrəsi idi. Bütün bu hərbi biliklərin nəticəsində Kənan 2019-cu ildə kapitan hərbi rütbəsinə layiq görüldü. 2020-ci ilin iyun ayından təyinatla Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində yerləşən N saylı hərbi hissəyə tabor komandiri kimi göndərilən Kənan həmin hərbi hissədə əsgərlərə hərbi biliklər verməklə yanaşı, qələbə əzmini də gücləndirirdi. Müharibə qaçılmaz idi. Gec, ya tez kağız üzərində olan atəşkəsin düşmən tərəfindən pozulması müharibəyə zəmin yaradırdı.

Kənan dəyərli bir zabit olmaqla yanaşı, dəyərli oğul, dəyərli qardaş, dəyərli ailə başçısı, dəyərli ata, dəyərli dost idi. Ən gözəl sözü ***"Ay can"*** olan Kənan hər kəsin zənginə bu sözlə cavab verərdi. Anası Kənanın xoşbəxt ailəsini gördükcə dünyanın ən xoşbəxt anası olurdu.

2017-ci ildə Kənan sevib-seçdiyi Fərqiyyə xanıma könül vermişdi. 2017-ci ildə nişanlanan cütlük 2018-ci il aprelin 28-də ailə həyatı qurmuşdular. Ailənin ilk və tək övladı olan Aysu 17 yanvar 2019-cu ildə dünyaya göz açmışdı. Aysu adını verdiyi bu körpə atasının sevinci olmuşdu. Kənan uşaqları bir başqa sevirdi. Onun atalıq qayğısı həddindən ziyadə idi. Bəzən yoldaşının da qayğısına elə ata kimi qalardı. Üç il belə doğru-dürüst sevgi yaşamayan bu cütlüyün 30 ilə sığdırıla biləcək xatirələri var. İndi o xatirələrə sığınan Fərqiyyə xanım balaca Aysuya atalı günlərini nəql edir. Elə onu ən çox kədərləndirən də Aysunun Kənan kimi bir qayğıkeş atanın qayğısından məhrum olmasıdır. Bu yoxluğun izahı yoxdur. Bu acının təsəllisi yoxdur. Daş məzarda ata gəzən körpənin hər gecə "Ana, atam gəlsin" deyib yuxuya getməsindən sonra sabah atanın niyə gəlmədiyinə hansı cavabı verəcəyini fikirləşərək gecəni səhər etmək dözülməzdir...

Kənan düşmənin gözlərində qorxu yaradan bir hərbçi idi. Düşmənin bir çox zabitini zərərləşdirən qəhrəmanı diri ələ keçirmək üçün düşmən illərlə çalışmış və külli miqdarda pul mükafatı təyin etmişdi. Lakin Kənan düşmənin o arzusunu əbədi gözlərində qoydu. ***"Biz tarix yazacağıq, tarix də bizdən yazacaq"*** – deyən Kənan dediyi kimi qanı ilə vətən torpağına elə bir tarix yazdı ki, min illər ötsə belə, o tarix Azərbaycan Ordusunun Zəfər qazandığı tarix kimi xatırlanacaq.

İllərlə Murovdağın düşmən atəşinə tuş gəlməsinə şahid olan "Murov qartalı" ləqəbli Kənan bu ləqəbin haqqını verən qəhrəmanlarımızdan daha biridir. İllərlə həsrətini çəkdiyimiz Füzulidə, Cəbrayılda, Suqovuşanda düşmən üzərinə şığıyan bu qəhrəmanın göstərdiyi şücaətlər dillərə dastan olub.

20 sentyabr 2020-ci ildə son dəfə evinə sevdiklərinin yanına gələn Kənan həmişəki kimi yenə də ümid dolu baxışlarla ona pənah gətirən ürəkləri isitdi.



Kənana yaxın olmaq üçün ailəsi Naftalanda kirayədə qalırdı. Kənan anasına və yoldaşına səhər Şəkiyə getmələrini dedi. Əlbəttə ki, heç kim onun sözünün üstə söz demədi və getməyə razılaşdılar. Ertəsi gün Kənan anası, yoldaşı və heç qoxusundan doymadığı qızı ilə vidalaşdı. O son vidanın əbədi olaraq ürəyin həsrət alovu olacağı bəlli deyildi.

Sentyabrın 27-də bütün Azərbaycan xalqı eyni həyəcanla günə başladı. Hər kəsin qəlbində təlaş, həyəcan var idi. Ancaq əsgər, hərbçi doğmaları bir başqa nigarançılıq keçirirdilər. Elə Məlahət ananın da ürəyi köksünə sığmırdı. Hər kəsin dediyi "Müharibə başlayıb" sözləri ananın ürəyini sıxırdı. Çünki o bilirdi ki, müharibə başlayıbsa, demək, Kənan ən öndə vuruşur. Axı Kənan illərdi o günü gözləyirdi. Zaman keçdikcə ananın həyəcanı daha da artırdı. Elə bu həyəcanlı günlərin birində gələn zəngdə ***"Ay can, ana"*** sözlərini duyan ana əl açıb Allaha şükür edir. Kənanın səsindən daha möhkəm eşidilən atəş səsləri ananın narahatlığını artırsa da, Kənan vəziyyətin yaxşı olduğunu deyir. Üç gündən bir doğmalarına zəng edən Kənan oktyabrın 3-də zəng etdiyi zaman ***"Suqovuşanı işğaldan azad etmişik"*** sözlərini sevinc və qürurla dilə gətirir. Kənan o sevincli xəbəri verəndə Məlahət ana bilməzdi ki, cəmi bir neçə gün sonra Suqovuşan oğlunun son nəfəsinə şahid olacaq.

Zaman ötdükcə ürəklərin narahatlığı daha da artırdı. Sən demə, bu narahatlıq əbəs deyilmiş. Kənanın varlığı ilə sevinən ürəklər sanki Kənanın bu dünyada olmadığını hiss edirdilər. Məlahət ananın ürəyi sanki alova qərq olurdu. Son dəfə oktyabrın 5-də can yoldaşı ilə danışan Fərqiyyə xanım Kənanın qızı Aysunun "Ata gəl" sözlərinə verdiyi ***"Canım qızım, sanki bütün dərdlərimi unutdum, mütləq gələcəm"*** cavabını gözlərinə ümid, ürəyinə təpər etməyə çalışırdı. Ancaq olmurdu ki, olmurdu. Sanki o, dünyada kəm qaldığını hiss edirdi. 5 oktyabrda ***"Gözlə, zəng edəcəm"*** sözlərini deyən Kənanın vətən sevgisi ilə döyünən ürəyi, sən demə, elə həmin gün düşmən atəşinə tuş gəlir.

Oktyabrın 6-da Kənanın gəlməyən zəngi anasını, bacısını, yoldaşını narahat edir. Məlahət ana Allahdan balasının nəfəsini diləyir. "Qolu, ayağı olmasın ancaq nəfəsi üstündə olsun". Ancaq...

Oktyabrın 6-da çox adam Kənanın şəhid olduğundan xəbərdar olsa da, heç kim Məlahət anaya bu acı gerçəyi etiraf edə bilmirdi. Yevlax rayonunda yerləşən xəstəxananın morqundan Kənanın cansız cismi evinə gətirilir. Son anda Məlahət ana insan izdihamını görür. Oğlu bayrağa bürünən tabutda üzərinə gələn ananın ürəyi də, ruhu da qor atəşə qərq olur. Sərvboylu oğlunu tabuta sığışan görmək bir ananın baxışları üçün ən dözülməz mənzərədir. O gün daha bir ana oğlundan doymadan vətən torpağına əmanət edir.

Fərqiyyə xanım heç vaxt xəyal etməzdi ki, bir zamanlar dünyaya göz açdığı 7 oktyabr günü sevdiyinə əbədi vida edər. Daha Fərqiyyə xanım üçün 7 oktyabr tarixi sevdiyini ondan alan gündür. Həmin gün həyatda heç zaman unutmayacağı ən ağrılı duyğuları yaşayıb Şəhid yarı. Sevdiyinin varlığı ən böyük hədiyyəsi olan bəxti kəm yazılan xanım heç düşünməzdi ki, ad günündə yar tabutuna sarılar. *(Yazdıqca o səhnə gözümün önündə canlanır. Sanki ürəyimin taqəti tükənir.)*

Bəs tək dayağı qardaşı olan, yeri gəldiyində ata qayğısını qardaşından görən bacı üçün bu acını, bu yoxluğu izah edə biləcək söz varmı? Duyduğum sözlər gözümdə yaşa döndü.

– Kənansız həyat varmı? Mən tək qardaşımı deyil, sanki hər kəsimi itirmişəm. Daha ***"Ay can bacı"*** deyərək zənglərimə cavab verənim yoxdur. Daha sirdaşım, yol göstərənim yoxdur. O getdi, sanki zülmət yolda qaldım. Nə irəli gedə bilirəm, nə geri dönə bilirəm. Həm qardaşım idi, həm atam. Çox ağırdı Kənanı həm var, həm də yox kimi hiss etmək. Yuxularımda hər zaman gülə-gülə ***"Ağlamayın mən ölməmişəm"*** deyir. Tək mənim yox yoldaşının yuxusunda da varlığını hiss etdirir. Aysu xəstə olanda yuxuda Fərqiyyəyə yanlarında olduğunu demişdi. İndi Kənanı görmək üçün tək yuxulara möhtac qalmışıq.

Hələ körpəlikdən hərb peşəsinə marağı olan Kənanın dünyaya göz açdığı tarix 30 il sonra Azərbaycan Ordusunun Zəfər qazandığı tarix kimi yaddaşlara həkk olundu. O Zəfər yolunu addımlayanlardan biri də elə Kənanın örnək götürdüyü əmisi Nəsimi İsrafilov oldu. I Qarabağ döyüşlərində, Aprel döyüşlərində və II Qarabağ döyüşlərində qəhrəmancasına vuruşan Nəsimi müəllimin davamçısı Kənan İsrafilov vətənin azadlığı uğrunda can verib əbədiyaşarlıq qazandı. Azərbaycan Ordusunun bir zabiti üçün bu həm kədərli, həm də qürurlu andır.

Kapitan İsrafilov Kənan Faiq oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Suqovuşanın azad olunmasına görə" medalı, "Hərbi xidmətdə fərqlənməyə görə" medalı və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

Şəhidimizin adının əbədiləşdirilməsi üçün bir çox addımlar atılıb. Şəki rayonunda küçələrin biri indi qəhrəman Kənan İsrafilovun adını daşıyır. Bir neçə məktəbdə sinif otaqlarına Kənanın adı verilərək, bu siniflərdə təhsil alan şagirdlərə qəhrəman şəhidimiz tanıdılır.

Oğul həsrəti ürəyində qübar bağlayan anasının istəyi və dəstəyi ilə Kənanın adına xiyaban salınıb və bulaq inşa edilib. Bütün atılan addımlar Kənanın bu gün olduğu kimi sabah da unudulmaması üçündür.



## ŞƏHİD KƏNAN

"Biz tarix yazacağıq, tarix bizdən yazacaq.  
Azərbaycan Ordusu mütləq qalib olacaq.  
Qarabağ tapdaq altda əbədi qalmayacaq".  
Söyləyirdin gözündə intiqam çaxa-çaxa  
İstəmirdin vətəni işğal kəlməsi sıxa.

Ömrün boyu əhdindən, amalından dönmədin,  
Vətəndən özgə yoxdu sanki qəlbində dərdin.  
Vətəni anan kimi əzizləyib, sevərdin,  
Vətənin qeyrətini çəkirdin oğul kimi,  
Allah elə vətənçün bəxş eləmişdi səni.

Düşmənə od qoyurdun göstərdiyin hünərlə,  
Al bayraqda qayıtdın qazandığın zəfərlə.  
Tabutuna sarıldı anan, bacın qəhərlə,  
Yarının könül bağı qərq oldu göz yaşına  
Qızın "Ata" söyləyib sarıldı baş daşına.

Adın xalqın dilinin əzbəri oldu, Kənan,  
Şəhid adı önündə təzim edir bu cahan.  
Verdiyin canın ilə can tapdı Azərbaycan,  
Sən vətəntək əzizsən, vətənimin qurbanı,  
Torpaq sağalda bildi qəlbindəki yaranı?

***22.01.2023***



**CƏBRAYILOV MİKAYIL ƏHMƏDİYYƏ OĞLU**

BAŞ LEYTENANT

*(1990-cı ildə I Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## QƏHRƏMAN ATANIN ŞƏHİD OĞLU

*Tarix heç zaman unudulmur. Hələ o tarix qəhrəmanların qanları ilə yazılarsa, o tarixi unutdurmağa qərinələrin, əsrlərin gücü yetməz. O tarix xalqın gələcəyinə düşən mayak kimidir. İstər qanlı tarix olsun, istərsə də şanlı tarix olsun. Hər ikisi də xalqın gələcəyində önəmli rol oynayır. Qanlı tarixləri unutmayanlar axan qanların intiqamını almaq üçün ya böyüdülər, ya da böyütdülər. Vətən Fədailəri olmaq üçün yaşadılar. Vətəni yaşatmaq üçün Vətən Fədailəri oldular. Nəfəs-nəfəs bitən ömürlərdən həm torpağa, həm də ürəklərə sevgi hopdu. Var etmək üçün yox olmağı seçdi igidlər, şəhidlər. **"Təki Vətən yaşasın"** deyib vətənləşdi qəhrəmanlar. Qəhrəman ata yolunun davamçısı Cəbrayılov Mikayıl Əhmədiyyə oğlu kimi.*

*Tarixdə silinməz iz qoyan qəhrəman ata və oğulun şücaətləri Azərbaycan xalqına bəllidir. Əminəm ki, çox analar övladlarının beşiyi başında o qəhrəmanların şücaətlərini nəql ediblər. Hansı ana oğlunun qəlbinin vətən sevgisi ilə döyünməsini istəməz ki? Mən qəhrəman ata və oğulun həyat və döyüş yolundan, qısa olsa da, yazaraq gələcək nəsillərin də bu qəhrəmanları tanımasına çalışacağam.*

Şəki torpağı Azərbaycanın digər bölgələri kimi hər zaman qəhrəmanları ilə tanınıb. Həmin qəhrəmanların adı dillər əzbəridir. O qəhrəmanlardan biri Cəbrayılov Əhmədiyyə Mikayıl oğludur. 1941–1945-ci illərdə Rusiya və keçmiş postsovet ölkələrinin bəzilərində baş verən Böyük Vətən müharibəsində böyük qəhrəmanlıq göstərənlərdən biri də Əhmədiyyə Cəbrayılov olmuşdur. 1941-ci ildə müharibəyə başlayan qəhrəmanın təyyarəsi almanlar tərəfindən vurulmuş, o, əsir götürülmüşdür. Fransadakı Daxau ölüm düşərgəsinə aparılan Əhmədiyyə işgəncələrə məruz qalmışdır. Madam Jannanın köməkliyi ilə həmin düşərgədən qaça bilmişdir. Daha sonra partizan dəstələrinə qoşulmuş və döyüşlərə davam etmişdir. 4 dəfə təkrar əsir düşmüş və xilas olmağı bacarmışdır. Müxtəlif ləqəbləri olmuşdur. "Rus Armed, Xarqo və Armed Mişel" ləqəbləri ilə tanınmışdır. Ən çox isə "Armed Mişel" ləqəbi ilə tanınmışdır. Müharibə bitdikdən sonra Fransa prezidenti Şarl de Qoll tərəfindən bir çox orden və medallarla təltif edilmişdir. Vətənə döndükdən sonra isə bəzi haqsızlıqlarla üzləşmişdir. Onun göstərdiyi qəhrəmanlıqlar 1966-cı ildə öz vətənində də bəlli olmuşdur.



1966-cı ildə Fransa prezidenti Şarl de Qoll məktub ünvanlayaraq Moskvaya rəsmi səfərə gedəcəyi zaman onu qarşılayanların sırasında Armed Mişelin də olmasını istəyir. Moskva hakimiyyəti 15 respublikaya teleqram vuraraq Armed Mişel adlı qəhrəmanın axtarıldığını bildirir. Armed Mişeli bir müddət tapmaq mümkün olmur. Səbəbi isə onun Azərbaycanda, Şəki rayonunun Oxud kəndində Əhmədiyyə Cəbrayılov kimi tanınması və "Armed Mişel" ləqəbi ilə tanınmaması olur. Sonda Şəkidə olduğu məlum olan Ə.Cəbrayılov Moskvaya aparılır. Fransa prezidenti Şarl de Qoll ilə görüşən Ə.Cəbrayılov geri döndüyü zaman Azərbaycanda bir qəhrəman kimi qarşılanır. İllərdən sonra qəhrəman Azərbaycanda da layiq olduğu dəyəri görür. Əhmədiyyə Cəbrayılov adı tarixə əbədi olaraq qəhrəman kimi həkk olunur.

Əhmədiyyə Cəbrayılovun ocağında dünyaya göz açmaq bir qəhrəmandan tərbiyə almaq, bir qəhrəmandan bəhrələnmək demək idi. Bu ocaqda 7 övlad (3 oğlan, 4 qız) dünyaya göz açıb. 27 aprel 1950-ci ildə Şəki rayonunun Oxud kəndində dünyaya göz açan ailənin 2-ci övladı Cəbrayılov Mikayıl Əhmədiyyə oğlu atasının yolunun layiqli davamçısı olub. Atası öz atasının adını Mikayıla əmanət edib. Vətənə xidməti, xalqa sədaqəti atasından öyrənmişdi Mikayıl.

Mikayıl Cəbrayılov təhsilini doğulduğu Oxud kənd məktəbində almağa başlayıb. VIII sinfə qədər Oxud kənd məktəbində oxuyan Mikayıl sonra təhsilini Şəki şəhər 5 saylı Fəhlə Gənclər Məktəbində davam etdirib. Təhsilini uğurla başa vurub.

Həmin dönəmlərdə Azərbaycan SSRİ-nin tərkibində olduğu üçün azərbaycanlılar da SSRİ-nin tərkibində olan digər ölkələrdə müddətli həqiqi hərbi xidmətə göndərilirdilər. Mikayıl Cəbrayılov da 1968-ci ildə Rusiya Federasiyasının Voronej vilayətində xidmətə başlayır. Həqiqi hərbi xidmətini başa vurub vətənə qayıt-

dıqdan sonra Şəki İpək Kombinatında usta köməkçisi işləyir. Lakin o özünü bu işdə görmür.

Mikayıl Cəbrayılov xalqın keşiyində durmaq üçün önəmli bir addım atır. O, 1971-ci ildə Şəki Şəhər Daxili İşlər Şöbəsində milis nəfəri kimi işə qəbul edilir. İki il işlədikdən sonra N.Rzayev adına Bakı Xüsusi Orta Milis Məktəbinə (indiki Polis Akademiyası) daxil olur. 1978-ci ildə leytenant rütbəsi alır və sahə müvəkkili vəzifəsinə təyin edilir. Daha sonra baş leytenant rütbəsinə layiq görülür.

Qəlbi vətənə sevdalı olan bir insanla ailə həyatı qurmaq böyük məsuliyyət tələb edir. Səmənnaz xanım 1975-ci ildə Mikayıl ilə izdivac bağlayanda yaşayacağı həyatın çətinliklərlə kəsişəcəyini bilirdi. Ancaq sevgiləri, sədaqətləri hər çətinliyə sinə gəlməyə yetirdi. Övladları Səadət, Müşviq, Aynur, Gülnarə elə valideynlərindən öyrənmişdilər vətənə duyulan ən böyük sevgini.

Qarabağın gününün də qara olmağa başladığı ilk zamanlarda vətənin keşiyini könüllü əsgərlərlə yanaşı, milislər də çəkirdi.1990-cı il dekabrın əvvəlində Mikayıl Cəbrayılov könüllü olaraq Qarabağda əhalinin təhlükəsizliyini qorumaq üçün oraya ezam olunması ilə bağlı müraciət ünvanlayır. O, bir neçə milis işçisi ilə birlikdə dekabrın 2-də ilk olaraq Ağdam rayonuna gedir. Sonra isə Şuşaya gedir. Həmin zaman Cəmilli kəndinin düşmən tərəfindən mühasirəyə alındığını və əhalinin çörək və ərzaq tədarükünün bitdiyi məlumatını alır. O, Əliyev Arzu Yaqub oğlu ilə birlikdə 15 dekabrda Cəmilli kəndinə taxıl aparmaq üçün Kosalar kəndi istiqamətindən irəliləyir. Yolda pusquya salınır. Hər iki qəhrəman düşmənlə son nəfəslərinə qədər mübarizə aparır. İlk olaraq Arzu Əliyev şəhid olur. Mikayıl bir neçə düşməni məhv edir. Düşmənə təslim olmaq niyyətində olmayan Mikayılın gülləsi bitir və düşmənin atdığı çoxsaylı güllə yarası ilə şəhid olur.

1990-cı ilin 15 dekabrında qışın şaxtalı günündə hər kəsin ürəyinə şəhid dərdi od salır. Böyük övladının 14, ən kiçiyinin isə 6 yaşı olan Mikayıl övladlarından, övladları da atalarından doymadan həyata vida edir.

Müharibə adlı cəhənnəmdə illərlə yaşayan, müharibənin ən sərt üzünü görən, neçə-neçə silahdaşı gözləri önündə şəhid olan qəhrəman Əhmədiyyə Cəbrayılovun ürəyi qan ağlasa da, 16 dekabrda ocağına gələn şəhid oğul tabutu qarşısında dik durur və bu sözləri söyləyir:

– Mikayıl vətən üçün, Qarabağ üçün, Şuşa üçün şəhid olub. Halal olsun ona. O torpaqlarda vuruşan hər bir döyüşçü, hər bir şəhid mənim qardaşımdır, mənim oğlumdur. Onların heç birindən mənim oğlum artıq deyil. Mənim oğlum da öz şərəf borcunu yerinə yetirdi.

Şəhid dərdi elin dərdidir. Şəki camaatı I Qarabağ müharibəsinin ilk şəhid xəbərini eşidən zaman sarsılıb. Hər kəs vətənin qəhrəmanı ilə vida üçün toplaşıb.



Bu vida hər kəsin qəlbində sağalmaz bir dağa dönüb. Dörd övlad atalı xoşbəxt günləri ata tabutu önündə xatırlayıb. Bir daha o günlərin yaşanılmayacağı gerçəyi onların atasızlığa açılan qolları olub. 16 dekabr 1990-cı ildə Şəki rayon Oxud kənd məzarlığında I Qarabağ müharibəsində Şəki torpağının yetirdiyi ilk şəhid torpağa tapşırılıb. O gündən sonra Şəki torpağı çox şəhidə məqbərə olub.

Baş leytenant Cəbrayılov Mikayıl Əhmədiyyə oğlu ilk "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülən şəhidlərdəndir. Azərbaycan Respublikası prezidenti Əbülfəz Elçibəyin 6 iyun 1992-ci il tarixli 831 saylı fərmanı ilə Cəbrayılov Mikayıl Əhmədiyyə oğlu şəhadətindən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Mikayıl Cəbrayılovun adı Şəki rayonunda küçələrdən birinə verilərək əbədiləşdirilib. Oğlu Müşviq atasının adını öz oğlunun timsalında yaşadır. O oğul ki, ata həsrəti ilə böyüdü. O oğul ki anasının hıçqırıqlarını duya-duya yaşa doldu. O oğul ki gənc yaşında yar itirib dörd övlada ana və ata olmaq məcburiyyətində qalan anasının dayağı oldu. O oğul ki üç bacısının ümid yeri oldu. O oğul ki atasını itirən gün böyüdü...

Şəhid atası Əhmədiyyə Cəbrayılov oğlu Mikayıl Cəbrayılov şəhid olduqdan dörd il sonra dünyasını dəyişib. Şəhid anası Sürəyya xanım isə 2013-cü ildə haqqın dərgahına qovuşub.

Otuz üç il sonra mən qəhrəman ata və oğulun ömür kitablarına həkk olunan döyüş izlərindən, qəhrəmanlıqlarından yazdım. Yazdım ki, otuz üç il sonra da həmin qəhrəmanların yazdıqları tarix unudulmasın və otuz üç il sonra da yazılsın.

## MİLLİ QƏHRƏMAN

Ermənilər çörək kəsib, qiymətini bilmədilər,
Yurdumuzda yurddaşlara onlar aman vermədilər.
Bu millətin ərənləri haqq yolundan dönmədilər,
Mikayıltək qəhrəmanlar yurd keşiyində dayandı,
Qarabağın qara bəxti şəhid qanına boyandı.

Bir qəhrəman ocağından ümid doğdu Qarabağa,
Əhmədiyyənin qəlbində müharibə döndü dağa.
O qəhrəman hazır idi gələcək həmin sorağa,
Neçə-neçə qəhrəmanın sonuncu döyüş yoldaşı,
Şəhid oğul tabutunun önündə dik tutdu başın.

Mikayılın cansız cismi büründü al bayrağıma,
Şəkinin ilk şəhiditək dəfn olundu torpağıma.
Övladları həsrət qaldı sönən ata çırağına,
Atasızlıq həsrətiylə dörd övladı yaşa doldu,
Şəhid Mikayılın adı onların qüruru oldu.

Azərbaycan xalqı tanır Mikayıltək qəhrəmanı,
Milli Qəhrəman adıyla yayılıb şöhrəti, şanı.
Onun yolun gedən mərdlər aldılar intiqamını,
Şuşanın uca dağları al qırmızıya boyandı,
Qəhrəmanlar pozmadılar içilən müqəddəs andı.

*24.04.2023*





**YƏHYAYEV ELŞAD**
**MƏMMƏDHƏNİFƏ OĞLU**

**BAŞ LEYTENANT**

*(1992-ci ildə I Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## QƏHRƏMANLAR UNUDULMUR

***"Bir kəlmə gəzir dillərdə. Bu kəlmə igidliyi, mərdliyi, əyilməzliyi tərənnüm edən qəhrəmanın nəğməsidir. Bu kəlməni vətəni dərin məhəbbətlə sevən, canını ona qurban verməyə hazır olan fədakar insanlar oxuyur.***

***Ana torpağımız müharibənin odlu-alovlu təması ilə nəfəs alanda vətənin igid övladları sinələrini irəli verdilər. Bir an belə tərəddüd etmədən. Onları buna sövq edən nə idi? Hər şeydən öncə ülvi vətən məhəbbəti, ana-bacı qeyrəti, köləliyə nifrət hissi. Biz onlardan Azərbaycanın qəhrəman oğlu Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadəni və başqalarını göstərə bilərik.***

***Bəli, biz onları heç vaxt unutmayacağıq. Çünki onlar insanların rahat yaşaması üçün can vermişlər. Nasirlər, şairlər onlara şeirlər, povestlər yazmış, heykəltəraşlar isə heykəllər qoymuşlar. Adları tarixə həkk olunan qəhrəmanlar bizim qəlbimizdədir".***

*Bu ixtisarla yazdığım inşanı oxuduğumda gözlərimin önündə o vətən boyda ürəyin sahibi olan Elşad Yəhyayev canlandı. Sanki öz ömrünü, arzularını, atacağı addımları məktəbli olduğu zaman qələmə alıb. O, ixtisarla yazdığım bu cümlələrdə yazdıqlarından daha çoxunu etdi. Vətən fədaisi olaraq unudulmaz qəhrəmanlar sırasında öz yerini aldı. Şəhid qoxan vətənim bir az da Elşad kimi qoxudu. Xalq igid oğlunun adını Azərbaycanın Milli Qəhrəmanı olaraq tanıdı. Elşadın*

*inşada yazdığı kimi **"Bəli, biz onları heç vaxt unutmayacağıq. Çünki onlar insanların rahat yaşaması, vətənin çiçəklənməsi üçün şəhid olublar".** Vətən bağının solmayan şəhid çiçəyi Şəhid Elşadın ömrü oxunaqlı və toxunaqlıdır.*

Yəhyayev Elşad Məmmədhənifə oğlu 5 may 1966-cı ildə Şəki şəhərində dünyaya göz açır. Məmmədhənifə kişi və Elmira xanımın 5 övladından (4 oğlan, 1 qız) 2-cisi olur. O evdə bir qəhrəman yetişir, böyüyür. Dərin düşüncəsi, dərrakəsi Elşadın ən üstün cəhətlərindən biri olur.

Elşad Yəhyayev 1973-cü ildə Şəki şəhər 12 nömrəli tam orta məktəbdə təhsil almağa başlayıb. Lakin o, V sinifdə oxuyan zaman ailəsi Bakı şəhərinə köçüb, Elşad da təhsilini Bakı şəhər Xətai rayon 56 nömrəli tam orta məktəbdə davam etdirib. Məktəbin əlaçı şagirdlərindən biri olub. Elə buna görə də müəllim kollektivinin xüsusi rəğbət bəslədiyi şagirdlərdən biri və birincisi olub. Hər kəs Elşadın bir hüquqşünas və ya hakim olacağını düşünsə də, o, hərbçi peşəsini seçib. Bir gün oxuduğu 56 nömrəli məktəbə Azərbaycanın Milli Qəhrəmanı Elşad Yəhyayev adına 56 nömrəli məktəb deyiləcəyindən xəbərsiz həmin məktəbdən məzun olub.

Elşad da o dövrün gənc oğlanları kimi hərbi xidmətə SSRİ-nin tərkibində olduğumuz üçün Rusiyanın Sankt-Peterburq şəhərinə gedir. Xidməti zamanı dayısı Akif müəllim onun yanına gedir. Komandiri ilə görüşən zaman Elşadla duyduğu qürur hissi birə-beş artır. Elşad hərbi xidməti zamanı da seçilməyi bacarır. O xidmətini uğurla başa vurduqdan sonra dayısının təkidi ilə Leninqrad şəhərində institutlardan birinə qəbul olmaq üçün imtahana girir. Bütün suallara cavab verdiyi halda müəllim onun qiymətini kəsəcəyini deyir. Müəllimə etiraz edərək bunun səbəbini öyrənən Elşad hiddətlənir. "Siz öz vətəninizdə oxumusunuz" sözləri Elşada sanki bir şillə kimi dəyir və o israrla özünə 2 yazdıraraq imtahan zalını tərk edir. Elə həmin imtahan Elşadın həyatının ən böyük imtahanı olur.

Aradan bir müddət keçdikdən sonra Elşad ailəsinə zəng edərək ***"Mən SSRİ DİN-nin F.E.Dzerjinski adına Saratov Qırmızıbayraqlı Komandirlər Ali Hərbi Məktəbinə (Саратовское высшее военное командное Краснознаменное училище им. Ф.Э.Дзержинского МВД СССР) qəbul oldum"*** deyir. Əlbəttə ki, bu xəbər ailəni sevindirir. Ancaq təəccübləndirmir. Çünki ailəsi Elşadın hansı biliyə və potensiala sahib olduğunu yaxşı bilirdi. 1987–1991-ci illər ərzində hərbi təhsil alan Elşad qardaşı Rahim Yəhyayevə də oxuduğu Ali Hərbi Məktəbə sənəd verməyi tövsiyə edir. Rahim də qardaşının məsləhətini nəzərə alır. Lakin 1990-cı il 20 Yanvar faciəsindən sonra ilk olaraq Rahim Yəhyayev vətənə dönür. 1991-ci ildə isə Ali Hərbi Məktəbi leytenant hərbi rütbəsi alaraq bitirən Elşad Rusiyada xidmət etməkdən imtina edərək vətənə dönür.



Elşad Yəhyayev yiyələndiyi hərbi bilikləri vətən üçün sərf edir. Bakı şəhərində yerləşən N saylı hərbi hissədə zabit olaraq xidmətə başlayan Elşad cəmi altı ay sonra batalyon komandiri seçilir. Bu seçimin səbəbi onun hərbi bilik və bacarıqlarının yüksək olması və təcrübəli bir zabit olması idi. Döyüşlər zamanı göstərdiyi şücaətlərə görə isə ona baş leytenant hərbi rütbəsi verilir.

Elşad həm də insani keyfiyyətləri yüksək olan bir komandir idi. Bu qənaətə onun əsgər və zabit heyətinin fikirlərini dinlədikdən sonra gəldim. O fikirlərin bir neçəsini dinlədiyim kimi yazıram.

**Elşadın tabeliyində olan əsgər Nofəl Zeynalov:**

– Elşad qorxu bilməz bir qəhrəman olub. Aradan 30 il keçməsinə baxmayaraq, Elşadla bağlı xatirələrim ilk günkü kimi təzə qalıb. Onun əsgərlərə bir komandir deyil, sanki bir valideyn kimi qayğı göstərməsini necə unutmaq olar ki? Torpağın, vətənin, xalqın və tabeliyində olan əsgərlərin yolunda özünü fəda etdi.

**Elşadın tabeliyində olan əsgər Nazir Orucov:**

– Mən 1992-ci ildə I Qarabağ Müharibəsində Daxili Qoşunların əfsanəvi komandiri Azərbaycanın Milli Qəhrəmanı Elşad Yəhyayevin tabeliyində olan bölükdə xidmət etmişəm. Hadisələr 30 il bundan əvvəl olsa da, bu gün o hadisələrdən danışarkən qəhərlənməmək, kövrəlməmək mümkün deyil.

Hərb yolunu keçənlər komandirin orduda rolunu, əhəmiyyətini yaxşı bilirlər. Xüsusilə də döyüşlər zamanı komandirlərin rolu böyük olur. Elşad Yəhyayevin tabeliyində olan, o cümlədən fiziki cəhətdən özünü zəif, qeyri vaxtı özünə gümanı, inamı olmayan əsgərlər də onun yanında özlərini cəsur, məğlubedilməz hesab edirdilər. Çünki onların cəsur, qorxmaz, fədakar Elşad Yəhyayev kimi komandirləri var idi. Fədakar sözünü hər mənada bu insana şamil etmək olar.

Əsgərlərlə yaş fərqi o qədər də çox olmasa da, bizə elə gəlirdi ki, o hər şeyi bilir. Sanki bu döyüşlərdə illərin təcrübəsi Elşad Yəhyayevdə var idi. Ali Hərbi Akademiyanı bitirmiş, çox tələbkar eyni zamanda bizim üçün qayğıkeş komandir və sanki bir ata idi. Tabeliyində olan əsgərlər az müddət xidmət göstərsələr də, döyüşlərdə peşəkar hərbçilər kimi vuruşurdular. Elşad Yəhyayev bizə döyüş zamanı əsgərin həm özünü, həm də başqasını necə müdafiə etməli olduğunu izah edirdi. O hər kəlməsində bizlərə sanki ruh verirdi. Həmin dövrdə Elşad Yəhyayevin başçılığı altında bir sıra əhəmiyyətli döyüşlərdə iştirak etdik və uğurlar qazandıq. Elə buna görədə həmin vaxtlarda harada qaynar nöqtələr olurdusa, bizi o istiqamətlərə göndərirdilər. Son döyüş Aranzəmin kəndinin üstündəki yüksəklikdə oldu. Həmin döyüşdə Elşadla bərabər bir neçə əsgərimiz də şəhid oldu. Cəsur komandirə dəyən bir atəş təkcə onu yox sanki bizi də öldürdü.

Elə bilirdik o gün dünyanın sonudur. Bunu əsgərlərin gözlərindən, baxışlarında hiss etmək olurdu. Heç nədən qorxmayan əsgərlər həmin an çarəsiz, ümidsiz görünürdülər. Çünki onların güvəndiyi, inandığı komandirləri artıq yox idi. O anları xatırlamaq belə o dəqiqələri yaşamaq qədər ağırdır. Biz bir neçə aydan sonra o əraziləri tərk etmək məcburiyyətində qaldıq. O ərazilər yenidən işğala məruz qaldı. Elşad Yəhyayev və başqa şəhidlərimizin qanı tökülən o torpaqların düşmən tapdağı altında qalmağı bizə əzab verirdi. Mən hərdən sağ qaldığım üçün heç də sevinmirdim. Əksinə xəcalət çəkirdim. Əslində bizim heç bir günahımız yox idi. Sahib olduğumuz bir canımız idi, bir də silahımız var idi. Vətən üçün əlimizdən gələni edirdik. Ancaq...

**Döyüş yoldaşı Canmirzə Əliyev:**

– Elşadgilin dəstəsi həmin gün mühasirəyə düşmüşdülər. Həmin vaxt mənə xəbər gəldi. Mən komandirimə bu barədə məlumat verib həmin istiqamətə getdim. Həmin yerə çatanda artıq dəstənin mühasirədən çıxdığını gördüm, Elşadı isə görmədim. Onun harada olduğunu soruşduğumda Elşadın təkbaşına mübarizə apararaq tabeliyində olan bütün döyüşçülərə atəş nöqtəsindən geri çəkilmək əmrini verdiyi cavabını aldım. Sən demə, Elşad həmin vaxt ona mane olmasın deyə puşlatını çıxarıb pulemyotla düşmənə saysız-hesabsız zərbə endirib. Mən PDM-lə yüksəkliyə doğru qalxan zaman artıq onun cansız cismini həmin yüksəklikdən düşürürdülər. Qurşaqdan yuxarı atəşə tuş gəlməyən nahiyəsi qalmamışdı. Onun pulemyotda durmadan atəş açması səbəbindən əli yanmış, barmağının bir hissəsi pulemyota yapışıb qalmışdı. Həmin gün Azərbaycan Ordusu böyük bir itki verdi. Hər birimiz üçün bu itki ağır oldu. Ondan sonra həmin yüksəkliyin işğalı da Qarabağın digər kənd və şəhərlərinin işğalı kimi qaçılmaz oldu.

Hər tarix yaddaqalan olmur. Tarixi tarixə həkk edən o tarixi qanı, canı, əməli ilə yazan insanlar olur. 1992-ci ilin 14–20 iyun tarixlərində düşmən Ağdam rayonunun Naxçıvanik, Papravənd, Sıxravənd kəndlərinə fasiləsiz hücum edirdi. Həmin ərazilərin müdafiəsi zamanı Elşad başından zərbə alır. Tibbi müdaxilə edildikdən sonra həkimlər ona 3-4 gün nəzarət altında qalmalı olduğunu deyirlər. Lakin Elşad bundan imtina edərək döyüşə qayıdır. Tarixə daha bir qəhrəmanlıq salnaməsi 20 iyun 1992-ci ildə qan ilə yazılır. Elşadın vətən üçün, silahdaşları üçün özünü necə fəda etməsi onun bir fədai olduğunu sübut edir.

Övladının barmağına tikan batsa, analar hiss edər. İyunun 19-dan 20-nə keçən gecə Elmira ananın ürəyinə elə bil atəş düşür. Hər əzası eyni anda sızıldayan ana bu ağrıya bir anlam verə bilmir. Xəyalında ancaq Elşadı düşünür. Düşüncələr ona aman vermir. Ertəsi gün bütün bu ağrı-acıların səbəbi bəlli olur. Sən demə, ana övladının ağrı-acısını öz cismində hiss edirmiş.



O gün həmin nəsil faciə üstə faciə yaşayır. Ailəyə Elşadın şəhid olduğu xəbəri deyilir. Elşadın xidmət etdiyi hərbi hissənin rəhbərliyi qəhrəmanın nəşini özlərinin ailəyə təhvil verəcəyi və qəhrəmanı son mənzilə özlərinin yola salacağını bildirir. Hərbçilər komandirlərini Şəhidlər xiyabanına hansısa maşında deyil çiyinləri üstündə aparacaqlarını deyirlər. İkinci faciə də elə həmin zaman yaşanılır. Sürətlə gələn bir maşın cənazənin ardınca gələn izdihama çırpılır. Həmin zaman Elşadın 13 yaşlı xalası oğlu Şirəli o qəzanın qurbanı olur. İki bacının ürəyinə eyni gündə bala dağı çəkilir. 20 iyun 1992-ci ildə ilk olaraq Elşad Şəhidlər xiyabanında dəfn olunur. Sonra Şirəli Yeni Əhmədlidə torpağa tapşırılır. Ailədə matəm matəmə qarışır.

Elşadın şəhid olması bütün dost-yoldaş, qohum-qardaşa təsir etmişdi. Ancaq bir nəfər var idi ki, Elşadın getdiyi üçün tək məyus deyil, həm də acıqlı idi. O, bu gedişlə barışa bilmirdi. Cəmi bircə dəfə gəlmişdi Elşadın yasına. "Məni evinizin bir üzvü bilin" demişdi Pələngov. Ancaq bir daha o gəlişin təkrarı olmamışdı. Elşadın doğmaları onun sözünə sadiq qalmadığından bir az da incimişdilər. Elşadın şəhadətindən təxminən iki ay sonra Şəhidlər xiyabanında dayısı Akif müəllimin gözü yeni bir şəhid məzarına sataşır. Şəkildəki sima ona çox doğma gəlir. Bu, həmin Pələngov idi. Sən demə, sədaqətli dost dostunun intiqamını alıb və şəhid olubmuş.

Baş leytenant Yəhyayev Elşad Məmmədhənifə oğlu 8 oktyabr 1992-ci ildə Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyin sərəncamı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Elşad anasına yazdığı məktubda dediyi bu sözləri həyata keçirdi:

***– Ürəyim sözlə doludur, yazmaq isə çətindir. Təkcə bu sözləri sənə çatdırmaq istəyirəm. Ana, çalışacağam ki, sən mənimlə fəxr edəsən. Mənə çəkdiyin əziyyətlər itməsin. Sənin qarşında, xalqımın və vətənimin qarşısında mən söz verirəm ki, həm xalqımın, həm anamın – o gözəl insanın yanında üzüm ağ, alnım açıq olsun.***

Bəli, Elşad ölümü ilə ölümsüzlük qazanan unudulmaz qəhrəmanlar sırasında yer aldı. Elə özünün dediyi kimi, bütün xalqın üzünü ağ elədi.

Bir zamanlar təhsil aldığı 56 nömrəli tam orta məktəb şəhidimizin adını daşıyır. Eləcə də məktəbdə qəhrəmanımızın büstü ucaldılıb. Bundan başqa Şəki şəhərində küçələrin birinə Elşad Yəhyayevin adı verilib. Qəhrəmanımızın şərəfli ömür və örnək götürüləcək döyüş yolundan bəhs olunmuş bir çox sənədli və bədii filmlər çəkilib.

*"Qəhrəmanlar unudulmur"* demişdi Elşad. Necə ki özü 1941–45-ci illərdə Böyük Vətən müharibəsində böyük şücaətlər göstərən babaları Mustafa Yəhyayevin və Fəxrəddin Əsədullayevin yollarını davam etdi. 1941–45-ci illərdə Elşadın ata babası Mustafa Yəhyayev Böyük Vətən müharibəsində itkin düşüb. Ana babası Fəxrəddin Əsədullayev isə həmin müharibəyə bir zabit kimi başlayıb və sona qədər mübarizə aparıb. Döyüşlərdə dəfələrlə yaralansa da, o yolundan dönməyib və "Qırmızı Ulduz" medalına layiq görülüb. Elşad müharibənin nə demək olduğunu babalarının sayəsində dərindən dərk edib. O,babalarının yolunu davam etdirdiyi kimi onun da yolunu davam edən qəhrəmanlar var. Qardaşı Rahim Yəhyayevin oğlu Rəhim Yəhyayev II Qarabağ müharibəsində səfərbərliyin çağırışı ilə müharibəyə gedib. Füzuli, Cəbrayıl, Xocavənd və Şuşa ətrafı ərazilərdə gedən döyüşlərdə mərdcəsinə vuruşub. Əmisinin arzusunu o, çin edib. Qəhrəmanın digər qardaşı Elçin Yəhyayevin oğlu isə Elşadın adını daşıyır. Elşad bir polis kimi xalqının keşiyindədir.



## MİLLİ QƏHRƏMAN

Unudulmaz qəhrəman, adın düşüb dillərə,
Axan qanın damıbdır o müqəddəs yerlərə.
Sonuncu nəfəsində sənin çəkdiyin nərə,
Otuz il bu millətin yuxuşunu qaçırdı
Elşad, igid oğullar intiqamını aldı.

Sən necə daşıyırdın köksündə o ürəyi?
Ağdam dad edən zaman oldun yurdun köməyi.
Vətənə dayaq etdin o cüssəli kürəyi,
Sonuncu nəfəsədək ümidlərin yanmadı
Elşad, verdiyin canla ana vətən yaşadı.

Bir ömürlük xatirə qaldı qəhrəmanlığın,
Vətənə qurban oldu sənin tər cavanlığın.
Sağalmadı şəhidim, qəlblərdə olan dağın,
O yara qövr elədi vətən həsrəti kimi,
Elşad, adın sızlatdı qəlbin sarı simini.

Şücaətini duyan "Min əhsən" dedi, sənə,
Vətən sənə qovuşdu, sən də ana vətənə.
Cənnət qapısın açır şəhadətə yetənə,
Şəhadətə əlində qanlı torpaqla çatdın
Elşad, şəhid adını vətənlə tən ucaltdın.

***06.05.2023***



**İSGƏNDƏROV ELNUR İSGƏNDƏR OĞLU**

**BAŞ LEYTENANT**

*(2016-cı ildə Aprel döyüşlərində şəhid olmuşdur.)*

## AZADLIQ AMALI OLAN ELNUR

*Hər insanın bu həyatda bir amalı olur. Şəhidlər vətən üçün yaşayıb, vətən üçün can verirlər. Tək amalları vətənin var olması, vətənin azad olması olan şəhidlər xalqın qəhrəmanlarıdırlar. Ən böyük qəhrəmanlıq bu deyilmi? Ömrünün ən gözəl çağında vətənlə əhd-peyman bağlayıb, gəncliyini vətən üçün yaşamaq və vətən naminə ömrünü fəda etmək ən böyük qəhrəmanlıqdır. Hər insanın gedə bilməyəcəyi vətən yolunu qürurla gedənlər xalqın iftixarına çevrildilər. Bir ömürdən min ömrə işıq düşdü, vətənə şəhid nuru çiləndi. Elnur və onun kimi şəhidlərin nuru.*

***"Mən torpaqlarımızı azad etmək üçün prezidentimə kömək edəcəyəm"*** *deyirdi hər zaman Elnur. Onu tanıyan hər kəs gözəl bilirdi ki, Elnur heç zaman söz demək xatirinə söz demir. Edəcəyindən əmin idi. Etdi də. İlk azadlıq nurunun saçıldığı Aprel döyüşlərində Talış kəndi uğrunda son nəfəsinə qədər mücadilə etdi İsgəndərov Elnur İsgəndər oğlu.*

1989-cu il 1 iyunda Şəki şəhərində dünyaya göz açdı vətən boyda ürəyin sahibi bu oğul. Ailəsinin Sevinc adlı qız övladı və Seymur adlı oğul övladından sonra sonbeşik övlad Elnur oldu. İsgəndər kişinin, Gülnar xanımın sevincinə sevinc qatdı. Ancaq onlar düşünməzdilər ki, bu sevinc cəmi 27 il çəkəcək.



Elnur fərqliliyi, dərrakəsi, savadı, tərbiyəsi ilə hər zaman seçilməyi bacarardı. O, 1995-ci ildə Şəki şəhər 11 saylı tam orta məktəbin birinciləri sırasında yer aldı. Məktəbin ən savadlı şagirdlərindən biri kimi adı hər zaman fəxrlə çəkilirdi. Valideynlərinin başını hər zaman uca edən Elnurun ibtidai sinif müəllimi və xalası Xuraman müəllimə ürək yanğısı ilə danışdı:

– Elnur məktəbə ilk qədəm basandan seçilməyi bacardı. Bütün müəllim və şagird kollektivi arasında sevgi qazanmağı bacaran Elnur gün gəldi şəhidlik zirvəsinə ucalması ilə də seçildi və xalqın sevgisini qazandı. Qəlbimdə əbədi yaşayan Elnuru heç zaman unutmaram. Dörd il hər günümü onunla başlamışam. Məktəb tədbirlərində ən aktiv şagirdlərdən biri idi. Vətən mövzusunda olan dərslərdə hər zaman qəlbindəki həsrətini gözlərindən oxuyardım. Körpə olsa da, zəkası dərin, düşüncəsi böyük idi. Əlifba bayramında M.Dilbazinin "Öz vətənimdir" şeirini elə yanğı ilə səsləndirmişdi ki, hər kəs onu ayaq üstə alqışlamışdı. Mənim üçün Elnurdan danışmaq həm ağrılıdır, həm də qürurvericidir. Hər an ehtiramla anıram, xalqımın şəhid oğlunu.

Orta məktəbdə əla qiymətlərlə oxuyan Elnur ingilis dilini, rus dilini yaxşı bilirdi. Tarixi xüsusi maraqla öyrənirdi. Onun üçün dünəni bilmək sabahı üçün vacib idi. Hər zaman qanlı faciələrlə yaddaşlara həkk olunan dünənlərimizi xatırlayanda intiqam hissi gözlərində şimşək kimi çaxırdı. Qəlbində bir alov vardı. X sinifdə oxuyan zaman Xocalı soyqırımına həsr olunmuş tədbirdə elə çıxış etmişdi ki, o zamankı icra başçısı durub Elnurun alnından öpmüşdü. Həmin vaxt Elnur ***"Mən də şəhid olacağam"*** demişdi. Elə dediyi kimi də oldu. Elnur doğulanda başlayan müharibə onun ömrünə son qoydu. XI sinfi ilin ən yaxşı şagirdi adını qazanaraq bitirdi. Savadı onun üzünə bütün universitet qapılarını açsa da, Elnur hərbçi olub, vətənə dayaq olmaqda qərarlı idi. O qərarından dönmədi və 2006-cı ildə 410 balla Azərbaycan Ali Hərbi Məktəbinə qəbul oldu. Dördillik hərbi təhsili zamanı da yüksək nəticə göstərən Elnur Motoatıcı ixtisası üzrə hərbi biliyə yiyələndi.

Elnur 2008-ci ildə "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı, 2009-cu ildə isə Fəxri fərmanla təltif edilir. 2010-cu ildə Azərbaycan Ali Hərbi Məktəbini bitirdikdən sonra Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində birillik kursu da uğurla tamamlayır. 2011-ci ilin avqust ayında Sumqayıt şəhərində yerləşən N saylı hərbi hissədə leytenant hərbi rütbəsi ilə taqım komandiri vəzifəsini icra edir. 2011-ci ilin dekabrından 2012-ci ilin iyununa kimi Xüsusi Təyinatlı Qüvvələrin kursunu keçir. İyul ayında 052-də XTQ qrup komandirinin müavini vəzifəsinə təyin edilir. 2013-cü ildə "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı ilə təltif edilir. Elə həmin ilin iyununda baş leytenant hərbi rütbəsinə layiq görülür.

Elnur 2014-cü ilin mart ayında müdafiə nazirinin müavininin, Silahlı Qüvvələrin baş qərargah rəisinin müvafiq əmrinə əsasən 052 Xüsusi Əməliyyat Briqadasının, Xüsusi Əməliyyat Taborunun Xüsusi Əməliyyat Komandirinin müavini təyin edilir. 2016-cı ilin aprel ayında baş verən dördgünlük müharibəyə qədər eyni hərbi hissədə xidmət edir.

Elnur hər zaman hərbi xidmətdə də seçilməyi bacarır. 2015-ci il fevral ayında xidməti vəzifəsini yerinə yetirərkən döyüş hazırlığının yüksəldilməsi və hərbi intizamın möhkəmləndirilməsində əldə etdiyi nailiyyətlərə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Fəxri fərmanı ilə təltif edilir. Həmin il Türkiyə Cümhuriyyətinin Ankara şəhərində Xüsusi Təyinatlı Qüvvələrin təlimlərində iştirak edir və "Özəl Kuvvetler Komutanlığı" medalına layiq görülür. Ən böyük arzusu general olmaq olan Elnur bunun üçün hər vəchlə çalışır.

Elnur haqqında danışmaq Gülnar anaya, dinləmək mənə çətin idi. Ancaq gələcək nəsillərin Elnur kimi bir qəhrəmanı tanıması üçün biz acımızı qəlbimizdə saxlayıb Elnurun şərəfli ömür və döyüş yolunun izinə düşdük. Gülnar ananın səsindəki o nisgil oğul həsrətinin izahı idi.

**Elnuru vətənə bəxş edən Gülnar xanım:**

– Valideynlər övladlarını heç zaman seçməzlər. Ancaq Elnur Allahın seçilmişi olduğu üçün bizim üçün tam fərqli bir övlad idi. Hər dəfə xoş sədasını eşitdik Elnurun. Hər dəfə üzümüzü ağ etdi. Ailəmizin təməlində vətənə sevgi var idi. İsgəndər müəllim hər zaman gənc oğlanlara vətən torpaqlarının işğalda olduğunu xatırladırdı. Bu dərs bizim evdə hər gün təkrar keçilən dərs idi. Elnur bu dərsdən nəticə çıxardı.

Elnur AAHM-ə qəbul olandan bizim həsrətimiz başladı. Hər dəfə bir ləziz təam hazırlayanda Elnurun payını saxlayırdım. Bəzən o qədər ağır gəlirdi ki, ondan uzaqda yaşamaq. Şəkiyə gələndə deyirdi: ***"Ay ana, gəl otur səni doyunca görüm".*** Elnur evimizə gələndə sanki evimizdə bayram olurdu. Çox əziyyət çəkərək o yerlərə gəlib çatmışdı igid oğlum. Əminliklə ***"Torpaqlarımız alınacaq"*** deyirdi hər dəfə.

2014-cü ilin avqust ayında ailəmizdə unuda bilməyəcəyimiz xoşbəxt gün yaşandı. Elnur könül verdiyi Məlakə xanımla ailə qurdu. Oğlumun xoşbəxt olduğunu gördükdə çox xoşbəxt olurdum. 2015-ci il avqustun 20-də Elnurun ilk və tək yadigarı Elman dünyaya göz açdı. Elnur çox sevindi. Övladına çox bağlı idi. O qədər arzuları var idi. Hamısı ömrü kimi yarımçıq qaldı.

Hər dəfə təlimə gedəndə mənə zəng edib ***"Ana, gəl, mən gedirəm"*** deyirdi. Son dəfə mən 2016-cı ilin martında gördüm oğlumu. 7 martdan 17 marta kimi oğlumun qonağı oldum. Birlikdə İlaxır çərşənbəni keçirdik. Mən bilməzdim ki, Elnurla birlikdə keçirdiyim son bayramdır.



Martın 28-də Elnur zəng edib mənə yenidən təlimə gedəcəyini dedi. Mən Bakıya gələndə Elnur artıq getmişdi. Son dəfə onu görə bilmədim. Bizə təlimə getdiyini deyən Elnur, sən demə, müharibəyə gedirmiş. Aprelin 1-də bizə zəng etdiyində də müharibədə olduğunu deməldi. Cəmi 7 aylıq olan Elmanı soruşdu.

Müharibənin başladığını öyrəndiyimdə cəbhədə olan əsgər və zabitlərimiz üçün dualar edirdim. Mən bilmirdim ki, o zabitlərdən biri də Elnurdu.

Elnurdan daha zəng gəlmirdi. Sən demə, Elnur aprelin 3-də Talış kəndi istiqamətində gedən ağır döyüşlərdə ağır qəlpə yaraları alıb. Həmin vaxt Mirsalam Cəfərov ona kömək etmək istəyib. Lakin düşmən Mirsalamı da vurub. Hər ikisi şəhid olublar.

Günlərlə Elnurun pozulmayan sükutu ürəyimi dağlayırdı. Ancaq onun döyüşdə olduğunu bilmədiyim üçün şəhid olmağı heç ağlıma gəlmirdi. Aprelin 7-də qardaşımın ili olduğu üçün Şəkiyə qayıtdım. Avtobusda insanların mənə dikilən baxışlarından narahat olmağa başladım. Çox adam Elnurun şəhid olduğunu bilirmiş, lakin onun nəşini neytral zonadan götürmək mümkün olmadığı üçün heç kim bu barədə heç nə demirmiş.

Aprelin 10-da oğlum Seymur Elnurun yaralandığını dedi. Elə bil ürəyim od düşdü. 11 apreldə sübh səhər Seymur gəldi. Niyə Elnuru yaralı qoyub gəldiyini soruşdum. Sən demə, 10 apreldə Qırmızı Xaç Komitəsinin köməyi ilə Elnur və digər şəhidlərimizin nəşləri neytral zonadan götürülüb və rayonlara göndərilib. 11 apreldə yol üstündə duran insanların dalğalandırdığı bayrağın kölgəsində bir şəhid tabutu Şəki torpağına üz tutdu. O tabutda uyuyan mənim Elnurum idi. O tabutu gördüyüm an dünyam viran oldu. Vətən üçün yaşayan Elnur vətən üçün can verdi. Cəmi bir saat evimin qonağı olan şəhid oğlum saat 12:00-da Şəki şəhər Şəhidlər xiyabanına üz tutdu. Minlərlə insanın iştirak etdiyi dəfn mərasimində yaylım atəşi açılaraq Elnur torpağa tapşırıldı. Şəkinin şəhid oğulları sırasında Elnur da öz yerini aldı. Elnur Şəkinin nə ilk, nə son şəhidi olmadı. Bir zamanlar Elnurun məzarı önündə intiqam andı içib, xatirə şəkli çəkdirən oğlumun adaşı Elnur da 2020-ci ildə oğlumun intiqamını aldı və şəhid oldu. Bu bir daha onu sübut etdi ki, Elnurların qanları damlayan torpaqlarda Elnurlar boy atır.

Baş leytenant İsgəndərov Elnur İsgəndər oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib. Bundan başqa bir zamanlar Elnurun böyüdüyü küçə indi Elnurun adını daşıyır. Oğuz yolunda zirvələrdən birinə də Elnur zirvəsi adı verilib. Bir çox muzeylərdə Elnurun əşyaları saxlanılan guşələr yaradılıb.

Elnurdan sonra çox şey dəyişdi. Atası İsgəndər müəllim xəstəliyə düçar oldu. Nitqi və ayaqları tutulan Şəhid atası 2019-cu il iyulun 19-da həyatla vidalaşdı.

Elnurdan sonra həyata tutunmaq hər kəs üçün çətin oldu. Atasını itirəndə cəmi 7 aylıq olan Elman yaşamaq üçün tək təsəlli oldu.

Cəmi iki il xoşbəxtliyin dadını bilib ömrünün sonuna qədər Elnursuzluğa qərq olan Mələkə xanım Elnurun əmanətini Elnurun adına layiq böyütmək üçün yaşamağa çalışdı. O həsrəti dilə gətirmək Mələkə xanım üçün çətin oldu.

**Elnurun həyat yoldaşı Mələkə xanım:**

– Elnuru itirmək mənim üçün çox çətindir. Elnur məni güclü bir qadın olaraq tanımışdı. Onu heç zaman yanıltmayacağıma söz vermişdim. Onun üçün də illərdi göz yaşımı ürəyimə axıdıb Elmanın güclü anası olaraq yaşayıram. Ağlı kəsəndən Elmana atasının onu gördüyünü demişəm. Atasından xatirə olaraq birlikdə çəkdirdikləri 4–5 şəkil qalan Elman bu yaxınlarda "Ana, mən artıq başa düşürəm ki, atam heç zaman gəlməyəcək" dediyi zaman elə bil ürəyimə xəncər dəydi. Ancaq mən o an yenə ona "Böyüyüb baba olduqdan sonra atanı görməyə gedərsən" dedim. Atasızlığın acısını çəkən Elman bir hərbçi olmağı çox istəsə də, onun qorxuları var. "Ana, mən istəmirəm mənim uşaqlarım da atasız qalsınlar..." Bu sözlər onun kiçik ürəyinin böyük həsrətinin izahıdır.

Daha həyatda tək amalım Elmanı Elnurun arzuladığı kimi böyütməkdir. Ruhunu şad etmək üçün yaşayıram, yaşadıram.



## ŞƏHİD ELNUR

Qəlbin qövr edirdi vətən dərdiylə,
Dərdi öz yaşıyla tən olan oğul.
Sən axan qanınla döyüşlər vaxtı,
Çəkdin Talış kənddən Qarabağa yol.

Ömrünün hər anı vətən eşqiylə,
Ucalıb yetişdin vətən dadına.
Ömrü vətənləşən qəhrəman oğul,
Sən layiq görüldün Şəhid adına.

Günlərlə ruhunla sən keşik çəkdin,
Qanının hopduğu vətən bağına.
Elinə, obana şəhidtək dönüb,
Elnur, sən də döndün ürək dağına.

Dünyadan bixəbər olan Elmanın,
Sənin həsrətinlə çatdı bu yaşa.
Hər dəfə qəlbində ümid aparır,
O ümid çırpılır buz kimi daşa.

Atan yoxluğuna dözə bilmədi,
Əbədi dünyaya o da tələsdi.
Ananın, bacının və qardaşının,
Qəlbində sən adlı fırtına əsdi.

Gecənin rənginə bükdü bəxtini,
Ürəyi kimsəsiz qalan bir qadın.
Sənli dünənlərin sorağındadır,
Qəlbinə əbədi yazıb yar adın.

*26.01.2023*



XASIYEV RÖYAL
ABUZƏR OĞLU

BAŞ LEYTENANT

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## VƏTƏN EŞQİ DÜŞƏN QƏLB

*Vətən eşqdir. İlahi bir eşq. O eşq dolan ürəyin qapısı ölümə taybatay açıq olur. O ürək eşqinin yolunda dayandığı zaman əslində ölümsüzlüyü qazanacağını bilərək döyünür. Hər ürəyin eşqi vətən olmaz. Allah seçdiyi bəndələrə bu eşqi əmanət edər. Xəyanətsiz eşq. Vətən eşqinin cilalandığı iki qəlb sahibi Xasiyevlər ailəsinin iki oğul övladı Röyal və Təmraz idi. O eşqlə döyünən ürəklər vətən naminə susmağa hər an hazır idi. Vətənə sipər olan iki ürək sahibi. Biri Şəhid, biri Şahid.*

Xasıyev Röyal Abuzər oğlu ailəsinin ilk övlad payı idi. O, 19 aprel 1993-cü ildə Şəki rayonunun İkinci Biləcik kəndində dünyaya göz açıb. Özündən sonra qardaşı Təmraz dünyaya gəlib. İki qardaş öncə ailəyə sonra vətənə ümid olublar.

Röyal 2000-ci ildə Şəki rayon İkinci Biləcik kənd tam orta məktəbinə qədəm qoyub. Savadı, dərrakəsi, bacarığı ilə seçilməyi bacaran Röyal demək olar ki, bütün fənlərdən əla qiymətlər alıb. Onun təkrar-təkrar oxuduğu dərs isə vətənin işğal dərsi olub. Hələ məktəbli olan vaxtlarında vətən sevgisi bəlli olan Röyal Xocalı soyqırımından bəhs etdiyi inşanı yazan zaman gözləri dola-dola bu sözləri dilə gətirib:

***– Mən böyüyüb hərbçi olacağam. Ana-bacılarımızın, qoca-cavanlarımızın, günahsız körpələrimizin intiqamını bir-bir alacağam. Yoxsa mənə bu vətənin havası, suyu halal olmaz.***



Röyal dediyi sözün üzərində durub. 2009-cu ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olub. Üç il təhsil aldığı müddətdə biliyi ilə yenə də seçilib. Hər dəfə valideyn iclaslarına çağırılan Abuzər kişi oğlu ilə qürur duyub. Belə oğulla kim qürur duymaz ki?

2012-ci ildə Azərbaycan Ali Hərbi Məktəbinə daxil olan Röyal daha bir arzusuna çatıb. Vətən səngərinə doğru əmin addımlarla irəliləyən qəhrəman Artilleriya ixtisası üzrə təhsil alıb. 2016-cı ildə AAHM-i leytenant hərbi rütbəsi alaraq başa vurub. Sonra Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində 6 aylıq kurs keçib. Kursu da müvəffəqiyyətlə başa vuran Röyal vətən səngərinə addım atıb.

Röyalın səngər həyatı Beyləqan rayonundan başlayıb. Ağcabədi rayonunda yerləşən N saylı hərbi hissədə, Haramı düzündə də xidmət edən qəhrəman hər zaman ön cəbhədə olub. Dəfələrlə düşmən təxribatının qarşısını alıb.

Röyal xidməti zamanı "Azərbaycan Ordusunun 100 illiyi (1918–2018)" yubiley medalı ilə təltif edilib. 2018-ci il iyunun 4-dən iyulun 18-nə qədər Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində Batareya komandiri kursunu keçib. Elə həmin il baş leytenant hərbi rütbəsinə layiq görülüb.

Röyal həsrətini çəkdiyi torpaqlara cismən günbəgün yaxınlaşsa da, sevdiklərindən uzaq düşüb. Həmin dönəmdə pandemiya şəraitinin olması ilə əlaqədar doğmalar ilə görüşə bilməyib. Müharibəyə gedəndə də ailəsi ilə vidalaşmayıb. Döyüşə getdiyini heç kimə bildirməyən Röyal müharibə başlamazdan günlər öncə ailəsi ilə danışıb. Ancaq müharibə ilə bağlı heç bir söz deməyib.

Röyalın döyüş yolu müharibə başlayan ilk andan Füzuli rayonu istiqamətindən başlayıb. 27 sentyabr 2020-ci il Azərbaycan Ordusunun Zəfər yoluna ilk qədəm qoyduğu gün o yolun ilk yolçularından biri də Röyal olub. Ancaq Röyal Xasıyevlər nəslinin müharibədə olan tək nümayəndəsi olmayıb. Onun kiçik qardaşı Təmraz da çağırışçı kimi oktyabrın 3-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəki Rayon İdarəsindən çağırışçı kimi döyüş bölgəsinə yollanıb. Oktyabrın 5-də Talış kənd və Suqovuşan uğrunda mübarizə aparıb. İki qardaş döyüşdə olsalar da, heç birinin biri-birindən xəbərləri olmayıb. Röyala, ümumiyyətlə, döyüşlər vaxtı zəng çatmayıb. Heç kim onun harada olduğunu bilməyib. Ta ki o günə qədər.

Füzuli rayonunda ən qızğın döyüşlərin iştirakçısı olan Röyal Xasıyev oktyabın 7-də elə Füzuli uğrunda gedən döyüşlərdə də yanlarına düşən minamyot atəşinə tuş gəlib və qəhrəmancasına şəhid olub. Həmin an o atəşi Ülkər ana ürəyində hiss edib. O an ananın hiss etdiklərini və yaşadıqlarını ananın öz sözləri ilə yazıram.

**Röyalı dünyaya gətirən Ülkər xanım:**

– 8 il idi Bakı şəhərində yaşayırdıq. Oktyabrın 6-da məni bir qüvvə Şəkiyə apardı. Artıq Bakıda nəfəs ala bilmirdim. İki oğlum eyni anda odun-alovun içində idi. Hər an nəsə xəbər alacağam kimi ürəyim səksəkədə idi. Çox keçmədən o xəbər gəldi.

Oktyabrın 8-də qaynımla qardaşımın narahatlığı, söhbətləri məni şübhələndirdi. Qardaşım Röyalın yaralı olduğunu dedi. Ancaq mən hiss edirdim ki, məndən gerçəyi gizlədir. Sonra qaynım xoşbəxtliyimin qatili olan o acı gerçəyi dedi. O an oğlumun tabutunu görmədən ölmək istədim. Ağlıma Təmraz gəldi. Axı Təmraz da müharibədədir. Toyuna hazırlaşdığım Təmraz. Hələ tikib başa çıxarmadığımız evimizdə toy çaldıracaqdıq. Röyal qardaşının toyuna gələcəkdi. Ancaq Röyal 8 oktyabrda evimizə tabutda gəldi.

Ciyərimin yandığı həmin gün həyətdə Röyalın nəşinin gəlməsini gözləyirdim. O an Təmraz zəng elədi. Həmin an Təmrazı düşündüm. Ürəyim "Qardaşın şəhid olub" deyə fəryad etsə də, hər şeyin yaxşı olduğunu dedim. Ana olmaq belə duyğudur. Ölsən belə övladın üçün ayaqda qalmalısan.

Oktyabrın 8-də evimizin ilki, sevincim, qürurum Röyalımın cansız cismini gətirdilər. Canından çox sevdiyi bayrağı Röyalın tabutunun üzərində görəndə varımdan yox oldum. Oğulumun tabutunun ardınca çarəsizcə baxdım. Röyalım evimizdən əbədi ayrıldı. Xalq onu övladı kimi bağrına basdı. İcra nümayəndələri, hərbçilər, rayon ictimaiyyəti Röyala vida etmək üçün toplaşdılar. O gün oğlumun xalq üçün əziz olduğuna şahid oldum. Röyal 8 oktyabrda İkinci Biləcik kənd məzarlığında yaylım atəşi altında əbədiyyətə uğurlandı.

Bir oğlumu itirdikdən sonra digər oğlum üçün daha çox qorxmağa başladım. Sən demə, Təmraz da düşmən atəşinə tuş gəlibmiş. Lakin o bunu bizdən gizlədib.

**Röyalın qardaşı Təmraz Xasıyev:**

– Mən müharibənin nə demək olduğunu bilirəm. Döyüşlərə qatıldığım gündən neçə-neçə şəhidin son nəfəsinə şahid oldum. Oktyabrın 19-da yanıma düşən minamyotun dalğası məni kənara çırpdı. Məni Tərtər rayonunda yerləşən xəstəxanaya apardılar. Xəsarət aldığımı ailəmdən gizlətdim, amma ailəm daha böyük bir yaranı məndən gizlədirmiş. Bir neçə gün sonra Tapqaraqoyunluya aparıldım. Həmin an ata-anam israrla məni görmək istədiklərini dedikləri üçün məcbur olub hospitalda olduğumu dedim. Sonra anamgil yanıma gəldilər. Komandirim tərxis olunduğumu dedi. Mən artıq yaxşı olduğumu və döyüşlərə davam edə biləcəyimi dedim. Ancaq onlar məni evə göndərməkdə israrlı idilər. Anamı görəndə həmişəkindən fərqli olduğunu hiss etmişdim. Lakin mənə yol yorğunu olduğunu bəhanə gətirmişdi. Şəkidəki evimizə çatmağa az qalmış anam göz yaşlarına hakim ola



bilmədi. Dilə gətirdiyi "Qardaşın şəhid olub" sözləri duymaq istəmədiyim etiraf oldu. İnanmaq istəmədim. Evə girmədən məzarlığa qaçdım. Qardaşımın məzarını gördüyüm an dizimin taqəti tükəndi. Belim büküldü. Mən dayağımı itirmək gerçəyilə üz-üzə qaldım. O gerçək gün keçdikcə daha dərin yaralayır. Nə qədər ağır olsa da, qardaşımın adını yaşatmağa çalışıram.

Baş leytenant Xasıyev Röyal Abuzər oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Füzulinin azad olunmasına görə" medalı və "Azərbaycan Bayrağı" ordeni ilə, şəhid qardaşı Təmraz Xasıyev isə "Cəsur döyüşçü" medalı ilə təltif edilib.

Şəhidimizin adına bir zamanlar yaşadığı kənddə ailəsi tərəfindən bulaq çəkilib. Bir zamanlar təhsil aldığı İkinci Biləcik kənd məktəbinə şəhidimizin adının verilməsi qüvvədədir.

## ŞƏHİD RÖYAL

Bu vətəndə doğular qəhrəmanlar, ərənlər,
Vətənimin uğrunda öz canını verənlər.
Röyal və Təmraz kimi qardaşlardır vətənin
Azadlığı uğrunda canı sipər edənlər.

İki qardaş vuruşdu Qarabağ savaşında,
Röyal şəhidə dönüb qaldı cavan yaşında.
Azadlıq yollarına qədəm qoyan qardaşlar,
Şəhid və şahid kimi qaldı xalq yaddaşında.

Füzuli torpağına qan axdı damla-damla,
Röyal hey addımladı irəliyə inamla.
İllər sonra azadlıq sözünü həkk etdilər,
Şəhid olan oğullar torpaq üstünə qanla.

Bu vətənin dağ-daşı sayılır bir məqbərə,
Qəhrəmanlar çevrilib dilimizdə əzbərə.
Nə qədər ki vətən var biz borcluyuq hər zaman,
Vətənə ömür biçən Röyaltək şəhidlərə.

***27.01.2023***





**İZZƏTLİ FƏRİD
AYDIN OĞLU**

**BAŞ LEYTENANT**

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## SON NƏFƏSİNDƏ ƏSGƏRLƏRİNİ DÜŞÜNƏN KOMANDİR

*Bahar fəsli arzuların, ümidlərin çiçəkləndiyi fəsildir. Gəlişi ilə ürəklərdə sevinc baş qaldırar. Arzular bahar çiçəkləri kimi al-əlvan rənglərə boyanar. Ümidlər boy atdıqca atar. Sanki həsrətlərin sonu çatacaqmış kimi yolu gözlənilər baharın. 1994-cü ildə hər kəs sevinclə gözlədiyi baharı Aydın kişi və Kəmalə xanım həyəcanla gözləyirdilər. Çünki onların üçillik övlad həsrətləri sona çatacaqdı. Onların da evlərini körpə ətri bürüyəcəkdi. Ah o xoşbəxt gün. Kim bilərdi ki, o səadət cəmi 26 il çəkəcək?*

Ən gözəl gündə, milli bayramımız olan Novruz bayramı günü, 21 mart 1994-cü ildə Şəki şəhərində dünyaya göz açmışdı İzzətli Fərid Aydın oğlu. Böyüyəndə özünün dediyi kimi, bütün xalq onun ad gününü bayram etmişdi. Babası İzzət kişinin adını soyad kimi adının önünə yazmışdı atası. Bilirdi ki, Fərid o adı qürurla, ləyaqətlə daşıyacaq. Heç təxminində yanılmadı.

Fərid özündən sonra dünyaya gələn qardaşı Vüqar ilə birlikdə ailəsinin ümid çırağını yandırmışdı. 2000-ci ildə Şəki şəhər 17 saylı tam orta məktəbə qədəm qoyanda ata-anası sevincə qərq olmuşdular. On birillik təhsilini uğurla başa vuran Fərid məktəbi bitirən kimi illərdi sevdalısı olduğu hərbi geyimi geyinmiş, vətən keşiyini çəkmək üçün addım atmışdı. 2011-ci ildə Azərbaycan Ali Hərbi Məktə-

binə qəbul olan Fərid kursantlar arasında boy göstərmişdi. Artilleriyaçı ixtisası üzrə təhsil alan hərbçi dördillik hərbi təhsili zamanı dəfələrlə Fəxri fərmanlara layiq görülmüşdü. Azərbaycan Ali Hərbi Məktəbində oxuyan zaman "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918–2013)" yubiley medalı ilə təltif edilmişdi. 2015-ci ildə leytenant hərbi rütbəsi ilə AAHM-i bitirmişdi. Sonra Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində komandir kursunu keçmişdi. Bakı şəhərində yerləşən N saylı hərbi hissədə taqım komandiri kimi xidmətə başlamışdı.

Fəridin az yaşı olsa da, döyüş səriştəsi çox olan qəhrəmanlarımızdandır. Hələ 2016-cı ildə baş verən Aprel döyüşlərinin də aktiv döyüşçülərdən biri olub. Artilleriya hücumu ilə düşmən ordusunu darmadağın edənlərdən biri olan Fərid İzzətli həmin döyüşlərdə Tərtər istiqamətində mübarizə aparmışdır. İlk qalibiyyət sevincini elə o döyüşlərdə yaşamışdı. Bir gün bütün vətən torpaqlarını azad etmək sevincini yaşamaqda qərarlı idi.

Fərid könlünü illər idi Nərmin xanıma vermişdi. Sevgilərinə sədaqətləri ilə seçilən iki gənc 2017-ci il sentyabrın 16-da sevgilərini nikahla ölümsüzləşdirmişdilər. 2019-cu il aprelin 12-də ailənin Səid adlı yeganə övladı dünyaya göz açmışdı. Fərid Səidə həsrət, Səid Fəridə həsrət günləri keçirmişlər. Fərid heç övladını görməyə doymamışdı. Heç övladının 1 yaşına da gələ bilməmişdi. Bilməzdi ki, növbəti illərdə oğlu Şəhid övladı olaraq yeni yaşlara qədəm qoyacaq.

İzzətli Fərid Aydın oğlu 2018-ci ildə təyinatla Qusar rayonunda yerləşən N saylı hərbi hissəyə göndərilmişdi. İlk öncə ailəsini də yanına aparmış, sonra təlimlərdən evə gələ bilmədiyi üçün ailəsini Şəki şəhərinə göndərmişdi. Ən böyük həsrətin təməli də elə o zaman başlamışdı. Nərmin xanımın yuxusuz gecələri bir-birinə calanmış, həsrəti cilalanmışdı. Ancaq hələ çəkiləcək sonsuz həsrətin qarşıda olduğundan xəbəri olmamışdı.

2020-ci il iyulun 12-də mənfur düşmənin Tovuz rayonu istiqamətində törətdiyi təxribat nəticəsində Azərbaycan Ordusunun generalı Polad Həşimovun və polkovnik İlqar Mirzəyevin şəhid olması Fərid üçün də qəbuledilməz idi. Fərid Aprel döyüşləri zamanı İlqar Mirzəyevin komandanlığı altında vuruşanlardan biri olmuşdu. Fərid "Artilleriya atası" ləqəbli İlqar Mirzəyevdən çox şeylər öyrənmişdi. Bu qanın yerdə qalmayacağına and içən Fərid qısa müddətdə o qanların intiqamını aldı.

Fərid son dəfə 2020-ci il avqustun sonunda birgünlük evinə getmişdi. Onun son vida olduğunu heç kim bilməmişdi. Sevdikləri ilə son dəfə zaman keçirən Fərid oğlu Səidin qoxusunu ciyərlərinə çəkmişdi. Kim bilir nələr düşünmüşdü...



Bir hərbçi olaraq xidməti bilik və bacarıqlarını günbəgün artıran Fəridin xidməti komandanlıq tərəfindən qiymətləndirilmiş, 2020-ci il sentyabrın əvvəlində baş leytenant hərbi rütbəsinə layiq görülmüşdü. Lakin onun ömrü kimi o sevinci də yarımçıq qalmışdı. Həmin il sentyabrın sonunda başlanan müharibənin ilk günlərindən döyüşə qatılanlardan biri də Fərid olmuşdu. 28 sentyabrda döyüşlərə Füzuli rayonundan başlayan qəhrəman Cəbrayıl, Hadrut, Xocavənd uğrunda mübarizə aparmışdı. Döyüşdə olduğunu öncə ailəsindən gizlətsə də, zaman keçdikcə bu gerçəyi saxlaya bilməmişdi. ***"Ay ata, torpaqlarımızı azad edəcəyik"*** deyən Fərid Füzuli rayonunun azad olduğu müjdəsini ailəsinə sevinclə vermişdi. ***"Füzulini təmizlədik. Növbə digər rayonlarımızdadır"*** deyən qəhrəman gerini düşünmədən irəliyə addımlamışdı. Cəbrayıl rayonu istiqamətində gedən döyüşlər zamanı Fəridin olduğu maşın düşmən tərəfindən vurulmuş və Fərid maşından dərəyə yuvarlanmışdı. Həmin vaxt xəsarət alsa da, o, müalicədən imtina edib döyüşə davam etmişdi. Şəkər xəstəsi olan Fərid üçün xəstəlik mübarizəyə əngəl olmamışdı. Onun tək amalı azadlıq olmuş və o, amalından dönməmişdi.

Oktyabrın 20-də Fərid bir çox qohumlarına zəng edib və hər kəslə halallaşıb. Ailəsi ilə danışanda ***"Mən yaxşıyam, siz özünüzü qoruyun"*** deyib. Səidin səsini telefonda dinləyib. 21 oktyabrda təkrar atasına zəng edib. O zəngdən iki saat sonra Xocavənd rayonunun Düdükçü kəndində yanlarına düşən snaryadın partlaması nəticəsində döyüş yoldaşları ilə birlikdə qəhrəmancasına şəhid olub. Döyüş yoldaşı Seymuru dəbilqəsini taxmağa göndərən Fərid özü də bilmədən onun həyatını xilas edib. Son nəfəsində su istəyən Fəridin ən sonuncu cümləsi ***"Əsgərlərim yaşayır? Onları xilas edin"*** olub.

Oktyabrın 21-də gecə Fəridin nəşini Şəki şəhərindəki xəstəxananın morquna aparıblar. Ailəsinə heç kim bu acı xəbəri verə bilməyib. Həmin döyüşlərdə Daxili Qoşunların texnixi taborunun baş çavuşu olan İzzətli Vüqar da tibb maşınının sürücüsü kimi yaralıların həyatını xilas etməyə çalışıb. Ancaq qardaşına çata bilməyib. Morqda qardaşının nəşini görən Vüqarın ürəyinin taqəti tükənib.

Oktyabrın 22-də Kəmalə ana ad günündə illərlə həsrətini çəkdiyi oğlunun şəhid xəbərini alıb. Heç bilirsiniz oğul tabutu nə deməkdir? Dünyanın ən ağır qəlb yükü. Bütün arzuların nidası...

Fərid son dəfə doyunca yaşamadığı evinə gətirilib. Çox qısa müddət sonra son mənzilə yola salınıb. Şəki şəhər Qışlaq məzarlığında torpağa tapşırılıb.

Bir hərbçi qardaş üçün qardaşının məzarı önündə bayraq təhvil almaq asan deyil. Vüqar qardaşının dəfnində Himn səslənən zaman və bayrağı təhvil alarkən ayaqda durmağa çalışsa da, daxilən yerlə yeksan olub.

Azərbaycan ordusunun baş leytenantı İzzətli Fərid Aydın oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin əmrinə əsasən şəhadətindən sonra "Vətən uğrunda" medalı, "İgidliyə görə" medalı, "Füzulinin azad olunmasına görə" medalı, "Cəbrayılın azad olunmasına görə" medalı və "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilib.

Şəhidin adının əbədiləşdirilməsi üçün ailəsi tərəfindən Qışlaq məzarlığının yaxınlığında məzarlıqda uyuyan şəhidlər Elşən və Fəridin adına bulaq inşa edilib. Fəridin həyatından bəhs olunan film çəkilib.

Mən bu məlumatları alarkən Kəmalə ananın göz yaşı bir an da dinmədi. O göz yaşları qəlbimə axdı. Ananın Fəriddən sonra çəkdiyi acıların heç bir təsəllisi yoxdur.

**Fərid İzzətlinin anası Kəmalə xanım:**

– Fərid getdikdən sonra həyatdan küsdüm. Onu məzarda görməmək üçün bir müddət məzarına getmədim. Mən oğlumun həyatda olmadığına inanmaq istəmirdim. Heç indi də inanmıram. Bəzən elə bilirəm ki, hardansa boy göstərəcək. Dəfələrlə ruhunun varlığını hiss etmişik. Ancaq görə bilməmək çox acı verir. Candan ötə candı bala. Bir ana balasız heç kimdi. Fəridin gedişi məni çökdürdü.

I Qarabağ müharibəsində şəhid olan oğullar sanki təkrar bu qəhrəmanlarla cana gəlmişdilər. Onlar təkrar doğuldular və təkrar vətənə qurban oldular. Mən hər dəfə oğlumun məzarı qarşısında baş əyirəm. Mən bütün şəhid məzarları, bütün şəhid ruhları qarşısında baş əyirəm.



## ŞƏHİD FƏRİD

Səninlə birlikdə ötən o günlər,
Geri gəlməyəcək Fərid, bir daha.
Bir vaxt xoşbəxtliyin özü sən idin,
İndisə dönmüsən qəlbdəki aha.

Vətənin qəhrəman bir oğlu kimi,
Tarix yazanların sırasındasan.
Vətənin həsrətin sona çatdırmaq,
Ola bilməzdir ki, heç zaman asan.

Sən çətin olanı bacardın, Şəhid,
Allahın verdiyi can sayəsində.
Füzuli, Cəbrayıl, Hadrutdan keçib,
İz qoydun Xocavənd dağ-dərəsində.

Övladın Səiddən doya bilmədin,
Onlu arzuların yarımçıq qaldı.
Arzu fəda olan zəfər yolunun,
Sonunda üçrəngli bayraq ucaldı.

Ucalan bayrağın kölgəsi düşdü,
Vətən daşı olan şəhid qəbrinə.
Bayraq kölgəsində uyuyan Şəhid,
Qanla məlhəm oldun vətən dərdinə.

*23.01.2023*



**İSMAYILOV RÜSTƏM SOLTAN OĞLU**

**LEYTENANT**

*(1992-ci ildə I Qarabağ müharibəsində itkin düşmüşdür.)*

## ANA HƏSRƏTLİ ŞƏHİD

*Cənnətin ən layiqli insanları analardır. Bir də şəhid oğul dünyaya gətirib sonra dünyadan köçən anaların məqamını düşünək. Şəhidlər seçilmiş olduqları kimi şəhid anaları da seçilmiş olurlar. Elə Anası ana da seçilmiş idi. Adının qəribəliyi diqqətimdən yayınmadı bu ananın. Sanki "Şəhid Rüstəmin anası" cümləsinin izahını verirmiş Anası adı. Heç övladlarına doymadan dünyadan köçmüşdü Anası ana. Rüstəm, iki qardaşı və iki bacısı ana qoxusundan doymamış yetimlik yazıldı alınlarına. Bilirəm ana qoxusundan heç zaman doymaq olmaz. İnsan neçə yaşında olursa olsun anasının körpə balası olaraq qalır. Analarını itirdikdən sonra həyatın ən böyük acısı sızlatdı onların körpə ürəklərini. Ana nəvazişi bənzərsiz olsa da, Tahirə xanım beş körpəni bala kimi basdı bağrına. Tahirə xanım o körpələrin əllərini buraxmadı. Bu qadının nə boyük ürəyi var imiş. Elə Rüstəmdən danışarkən də ürəyinin bir ana ürəyi kimi yandığını hiss etdim. Az sayda olan insanlardan biri ilə danışdığımı o an anladım. Daha bir həsrətli ürəyin qəmi düşdü qəlbimə...*

İsmayılov Rüstəm Soltan oğlu 20 aprel 1963-cü ildə Şəki rayonunun Kiçik Dəhnə kəndində dünyaya göz açmışdı. 5 qardaş, 4 bacı həyatın bütün çətinliklərinə sinə gəlməyə çalışmışdılar. Ancaq o bacı-qardaşlar üçün ən böyük çarəsizliyin qardaş dərdi olacağından xəbərsiz idilər. Analarını itirdikləri zaman həyatın ən böyük itkisi ilə sınandıqlarını düşünən bacı-qardaşlar yanıldıqlarını Rüstəm itkin düşəndə anladılar. Dərddən betər dərd varmış deməк. Bu dərdin ardınca gələn atasızlıq isə qanayan qəlblərə sanki duz basdı.



Rüstəm Şəki rayon Kiçik Dəhnə kənd 2 nömrəli orta məktəbdə təhsil almış və məktəbi uğurla başa vurmuşdur. 1980-ci ildə Çingiz İldırımov adına Politexnik İnstitutuna qəbul olmuşdur. İnstitutu Hərbi kafedrada təhsil alaraq leytenant hərbi rütbəsi ilə başa vurmuşdu. Sonra Mingəçevir şəhərində mühəndis kimi işləməyə başlamışdı.

Rüstəm yeni ailə qurmuşdu. Onun da arzuları var idi. İsti yuvasında isti körpə beşiyi olacaqdı. Lakin Rüstəmin Söhrab adlandırdığı övladı cəmi altı ay ömür yaşadı. Övladı ilə bağlı çox arzuları olsa da, onun bütün arzuları ürəyində qaldı. O, balasının həyata vida etdiyindən bu dünyada deyil, əbədiyyətdə xəbərdar olub.

Rüstəm İsmayılov 1992-ci ilin oktyabr ayında cəbhəyə yollanıb. Laçın rayonu istiqamətində gedən döyüşlərdə iştirak edib. Son döyüşü Laçın rayonunun Fingə kəndində olub. Elə həmkəndlisi də Rüstəmi son dəfə həmin döyüşdə görüb. Ailə də həmin şəxsin verdiyi məlumatdan sonra Rüstəmin itkin düşdüyünü öyrənib. Rüstəmin itkin xəbəri çıxan gün övladı dünyasını dəyişib. O gündən sonra Soltan müəllim oğlunun axtarışına çıxsa da, heç bir nəticəsi olmayıb. Atanın ürəyi bu sükuta cəmi üç il tab gətirib. Axı övlad dərdi çətindir. Bir də o dərdin adı itkin dərdidirsə, bax o dərd dözülməzdir. Elə Soltan müəllim də itkin oğul dərdinə dözə bilməyib və dünyadan oğlundan naguman köçüb.

Aylar illərə dönsə də, Rüstəm dönməz oldu. Kim bilir narahat ruhu harada dolaşır? Hər dəfə itkin həyatı yazanda sanki həmin itkinin gileyinə tuş gəlirəm. Sanki ***"Məni elimə-obama qovuşdurun"*** deyərcəsinə fəryadını duyuram. Axı hardasan Rüstəm? Bəlkə, Qarabağın ən gözəl yerində cismin xarıbülbülə can verib? Bəlkə, düşmənin min əzabına tuş gəldiyinə elə xarıbülbül şəhid olub? Ah Rüstəm, bu suallar illərdi ki, cavabsız qalıb. Ümid Qarabağın azad olunacağı zamana idi. Qarabağ azad olundu, ancaq səndən xəbər gəlmədi ki, gəlmədi. Vətəndə izi qalan, dodaqda sözü qalan sən gəlməz oldun.

## İTKİN RÜSTƏM

Aylar ötüb il oldu,
Bir xəbərin gəlmədi.
Anan bəxtəvər imiş,
Bu sükutu görmədi.

Kim bilir bəlkə anan,
Cənnətdə layla dedi?!
Əbədi dünya sizə,
Bəlkə, birgə gözəldi?!

Atan biçarə, naçar,
Yollarını gözlədi.
Pozulmayan sükuta,
Ata qəlbi dözmədi.

Bir vətən övladıtək,
Sözün vətəndə qaldı.
Ancaq bir daş məzara,
Həkk olunmadı adın.

Yolları boran aldı,
Ömür karvanın itdi.
Qarabağın həsrəti,
Nəhayət sona yetdi.

Ancaq sənin həsrətin,
Buram-buram qoxudu.
Analar həsrət ilə,
Sənə layla oxudu.

***03.05.2023***





## İSRAFİLOV ÇƏRKƏZ CƏMALƏDDİN OĞLU

**LEYTENANT**

*(1992-ci ildə I Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## HAQQ YOLUNDAN DÖNMƏYƏNLƏR

*"Şəhid" dedikdə vətən, "Vətən" dedikdə şəhid gəlir ağlımıza. Bu düşüncənin səbəbi şəhidlərin vətən uğrunda arzularından, ömürlərindən keçmələridir. Bu gün şəhidlərin sayəsində vətən bütünləşib, bütövləşib. Vətənin bütövlüyü uğrunda canından keçən qəhrəmanlarımız hər zaman olublar və olacaqlar. Elə İsrafilovlar nəslinin fərqli illərdə vətənə qurban olaraq vətənin şəhid oğluna dönən Çərkəz İsrafilov və Səxavət İsrafilov kimi. Vətən yolunu gedən şəhid, əmi yolunu gedən şəhid. Hər ikisi indi yan-yana uyuyurlar. Vətənin sinəsinə düzülən daş məzarlardan ikisi onlardır. Şəhadət zirvəsini ilk olaraq Çərkəz İsrafilov fəth edib. Qəhrəmanımızı tanıyaq.*

İsrafilov Çərkəz Cəmaləddin oğlu 7 aprel 1957-ci ildə Şəki rayonunun Bideyiz kəndində dünyaya göz açıb. Yeddi qardaş, iki bacı birlikdə böyüyüblər. Cəmaləddin kişi və Nazilə xanım övladlarını böyütmək üçün hər çətinliyə qatlanan valideynlərdən olublar. Hər bir valideynin ən böyük amalı layiqli övlad böyütmək olur. Elə Çərkəzin valideynlərinin də ən böyük amalları o idi. Onlar layiqli övlad böyütmək arzu-amallarına çatdılar. Başqa arzular isə ürək dağına döndü.

Çərkəz İsrafilov 1964-cü ildə Şəki rayon Bideyz kənd orta məktəbində təhsil almağa başlayıb. 1971-ci ildən isə Şəki Texniki Peşə Məktəbinə qəbul olub. 1974-cü ildə təhsilini başa vurduqdan sonra həqiqi hərbi xidmətə gedib. SSRİ-nin dövründə

Almaniya Demoktarik Respublikasında xidmət edib. İkiillik hərbi xidmətini başa vurduqdan sonra vətənə dönüb. 6 aylıq hərbi kurs keçib və leytenant hərbi rütbəsi alaraq kursu tamamlayıb.

Çərkəz 1983-cü ildə könül verdiyi Sevil xanımla ailə həyatı qurub. Sevənlərin Murad və Novruz adlı iki övlad payı olub. Ancaq bu ailənin qisməti əbədi həsrət olub. Muradın və Novruzun taleyinə atasız böyümək yazılıb. İnsanın həyatda dayağını itirməyi çox ağır imtahandır. O imtahandan üzüağ çıxmaq üçün şəhid övladları hər zaman çalışdılar.

Vətənin darda olduğu zamanlarda çox oğullar cəbhəyə yollanıblar. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəki Rayon İdarəsinin çağırışı ilə müharibəyə getməli olduğu xəbərini alan Çərkəz İsrafilov heç tərəddüd etmədən doğmaları ilə vidalaşıb və o önəmli addımı atıb. Öncə Seyfəli kəndində bir aylıq təlim keçib. Sonra Füzuli rayonu istiqamətində gedən ağır döyüşlərə qatılıb. Rota komandirinin müavini vəzifəsini icra edən Çərkəz İsrafilov hər zaman öndə vuruşub. 22 aprel 1994-cü ildə Füzuli rayonunun Bala Bəhmənli kəndində mühasirəyə düşüb. Həmin mühasirədən çıxmaq mümkün olmayıb. Son nəfəsinə qədər mübarizə aparan Çərkəz həmin döyüşdə şəhid olub.

22 apreldə İsrafilov Çərkəz Cəmaləddin oğlunun nəşi ata ocağına gətirilir. Bir ocağa şəhid tabutunun gəlməsi qədər ağrılı və ağır dərd yoxdur. Həyatın ən çətin sınağı İsrafilovlar nəsli üçün o gün başlayır. Çərkəz İsrafilov Bideyiz kənd məzarlığında şəhidlər sırasında dəfn olunur. Lakin bu dərd qəlblərin son dərdi olmur. Çərkəzin uyduğu sıraya 11 il sonra eyni fəslin eyni ayında şəhidin qardaşı oğlu Səxavət İsrafilov da qoşulur. Ailənin heç zaman qaysaq tutmayan şəhid yarasına sanki duz basılır. Tarix və dərd təzələnir.



## ŞƏHİD ÇƏRKƏZ

Haqq yolundan dönməyib,
İrəli getdi hər an,
İgidlər sayəsində,
Var olub Azərbaycan.

Canlarla bütövləşdi,
Parça-parça ümidlər.
Vətənin nəfəsidir,
Çərkəz kimi şəhidlər.

İki körpə balasın,
Doyunca sevməmişdi.
Hələ çox arzusunu,
Dilə gətirməmişdi.

Təkcə vətən arzusun,
Susmayaraq deyirdi.
Çərkəzi tanıyanlar,
Ruh səsini duyurdu.

O səs son an ucaldı,
Füzuli torpağında.
İgidlər addımladı,
O səsin sorağında.

***09.05.2023***



**QƏNİMƏTOV ƏTRAF OKTAY OĞLU**

LEYTENANT

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## İNTİQAM ALAN QƏHRƏMAN

*Hər insan həyatın müvəqqəti qonağıdır. Bir gün gəldiyimiz dünyadan, əlbəttə ki, bir gün gedəcəyik. Ona görə də bu dünyada yaşadığımız zaman elə yaşamalıyıq ki, dünyadan köçdükdən sonra da adımız yaşasın. Bir insan kimi və yaxud da... Bu üç nöqtənin yerinə insana məxsus çox fikir yazmaq olar. Ancaq Ətraf şəhid olub əbədiyaşarlıq qazandığı üçün onun ən çox bir qəhrəman kimi xatırlanacağı sirr deyil. Elə mən də onu bir qəhrəman olduğu üçün tanıdım. Rəşadəti dildən-dilə düşən qəhrəman.*

Elə gözəl sevdi ki, vətəni sevgim sevgisi ilə cilalandı. İlahi bir sevginin nuru düşən qəlbin sahibi idi Ətraf. O qəlbin ilk döyüntüsü 20 mart 1997-ci ildə duyulmuşdu. Bir yaz günü ümidlərin cücərdiyi vaxtda Oktay və Zəminə Qənimətovlar övlad adlı bəhəri dərmişdilər. Daha sonra Rahim və Teyyubə adlı övladları da dünyaya gələn ailə xoşbəxtliyi öz sevgi dolu ocaqlarında tapmışdılar. Bütün arzuların təməlində övladlarının xoşbəxtliyi dayanan valideynlər bu minvalla çalışmışdılar. Vətənə, dövlətə yararlı övlad böyütmək ən ümdə məqsədləri olmuşdur.

Ətraf 2003-cü ildə dünyaya göz açdığı Yeni Çələbixan köçkünlər qəsəbəsində eyniadlı tam orta məktəbə qədəm qoymuşdur. Tarix fənnini həddindən ziyadə sevən Ətraf gələcəkdə bir tarix müəllimi olaraq öz qəhrəmanlığı ilə də tarix yazmağı o zamanlar sadəcə arzu etmişdi. Ancaq o arzu gerçək oldu. IX sinifdə oxuyan zaman əlinin üstündən ciddi yanıq xəsarəti almış və o iz onun gələcəkdə yolunu çox kəsmişdi. O yanıq izi Ətrafa Azərbaycan Ali Hərbi Məktəbə qəbul ola bilməsinə əngəl olsa da, onun bir zabit və bir şəhid olmasına əngəl ola bilməmişdi.



Ətraf orta məktəbdə oxuyan zaman fərqlənməyi bacarmışdı. Onun musiqiyə böyük sevgisi olmuşdu. Üç il musiqi məktəbində tar ixtisası üzrə təhsil almış və sertifikatla qiymətləndirilmişdi. Eyni zamanda da rəqslə məşğul olmuşdu. Onun zəngin dünyası rəngarəng olmuşdu. 2014-cü ildə məktəbi bitirmiş, elə həmin il Sumqayıt Dövlət Universitetinin, Tarix-coğrafiya fakültəsinə qəbul olmuşdu. Universitetin ən fəal gənclərindən biri olaraq əhəmiyyətli yarışlarda könüllü olaraq iştirak etmişdi. 2015-ci ildə "Bakı-2015" ilk Avropa Oyunlarında iştirakına görə Sertifikat və Təşəkkürnamə almışdı. 2016-cı il iyunun 17-dən 19-na qədər keçirilən "Formula-1" Azerbaijan Grand Prix yarışında könüllü olaraq iştirak etmiş və Sertifikat almışdı. 2017-ci il mayın 12-dən 22-nə qədər keçirilən "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarında da könüllü olaraq iştirak etmiş və Sertifikata layiq görülmüşdü.

Ətraf 2018-ci ildə universiteti bitirdikdən sonra həqiqi hərbi xidmətə getmək istəyən zaman uşaq vaxtından nişanə qalan yanıq izi ona mane olub. Lakin o, qərarından dönməyib və 2019-cu ilin yanvar ayında müddətli həqiqi hərbi xidmətə yollanıb. Naxçıvan Muxtar Respublikasında xidmət edən Ətraf birillik xidmətini uğurla başa vurduqdan sonra evinə dönüb. Aldığı təhsil üzrə tarix müəllimi kimi işləmək imkanı olsa da, onun hərbi sənətinə olan sevgisi üstün gəlib. 2020-ci ilin mart ayında Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində Ehtiyat-Zabit kursunu uğurla keçib. İyunun 4-də kursu leytenant hərbi rütbəsi alaraq tamamlayıb. Təyinatla Qazax rayonunda yerləşən N saylı hərbi hissədə taqım komandiri kimi xidmətə başlayıb. Qismətində üç ay hərbçi ömrü yaşamaq var imiş.

Gözəl qəlblərdən gözəl sevgilər cücərir. Ətrafın da qəlbində cücərən Şəfəq xanımın sevgisi idi. Ancaq o sevgi heç boy atıb gün üzünə çıxa bilmədi. Nişanlanan gənclər toylarını xəyal etsələr də, o anın sevincini yaşaya bilmədilər. Oktyabrda Ətrafın toy tədarükü görülürdü. Ancaq oktyabrda evinə şəhid nəşi gəldi.

Avqustun 18-də bir həftəlik məzuniyyət götürüb evinə gələn zaman yenə gülüşü çöhrəsindən əksik olmur. Doğmaları ilə gözəl anları xatirələrə həkk edərək ***"Gələcəm"*** deyib işinə dönür.

Sentyabrın 27-də müharibə başlayan ilk andan döyüşə getməyə çalışır. Onun qəlbində əvəzsiz yeri olan Abdullayev İntiqam Allahverdi oğlunun şəhid olması ürəyində zəbt edilə bilməyəcək intiqama yol açır. Oktyabrın 11-də Füzuli rayonuna gedir. Oktyabrın 13-də səhər saatlarından Abdurəhmanlı kəndi istiqamətində

döyüşə başlayır. Füzulinin Alxanlı kəndi, Seyidəhmədli kəndi, Qorqan kəndi və Aşağı Əbdürrəhmanlı kəndi uğrunda mübarizə aparır. Döyüşlər zamanı yaralı döyüş yoldaşının yarasını bağlayır və özü irəli atılır. Düşmənə boyun əyməyən qəhrəman düşmən üzərini şığıyır. Döyüş yoldaşlarına ***"Kim İntiqamın intiqamını almaq istəyirsə irəli çıxsın"*** deyir. O nəinki İntiqamın, bütün şəhidlərin, hətta öz intiqamını da düşməndən alır. Ətraf yaralanan ayağını bağlayıb döyüşə davam edir. Kapitan Cəbrayılov Elnur gözləri önündə şəhid olur. Ətraf Elnurun nəşini çıxarmaq istəyərkən özü də düşmən atəşindən yayına bilmir. Həmin vaxt atası zəng edəndə çətinliklə ***"Heç vaxt bu nömrəyə zəng eləmə"*** deyir. *(O səsi dinlədiyim zaman sanki şəhidimin son nəfəsini duydum. Dözülməzdir...)* Boğazından snayperlə vurulan Ətraf 13 oktyabrda şəhadətə ucalır.

Oktyabrın 14-də Oktay kişi Ətrafın komandirindən oğlunun şəhid olduğunu və neytral zonada qaldığı xəbərini alır. Elə həmin gün ata oğlunun can verdiyi torpağa gedir. Şəhid atası o anları hüznə qərq ola-ola dilə gətirdi.

**Ətrafın atası Oktay Qənimətov:**

– Oğlumun ***"Heç vaxt bu nömrəyə zəng etmə"*** sözü mənə qarşıda yaşanılacaqlardan xəbər verirdi. Ciyərim yana-yana "Yaxşı" dedim. O an oğlumun son nəfəsini verdiyini sanki hiss etdim. Mən müharibənin saçdığı dəhşəti canlı yaşayanlardanam.

14 oktyabrda Füzuliyə yollandım. Oğlumun nəşinin neytralda qaldığını biləbilə yerimdə dura bilmirdim. Üç dəfə həmin əraziyə getməyə cəhd etsəm də, buna icazə verilmədi. Həmin döyüşlər məni təkrar 1992-ci ilə qaytardı. 1992-ci ildən 1994-cü ilə qədər mən Laçın istiqamətində, qardaşım İbad Vəliyev isə Ağdam istiqamətində mübarizə apardıq. O döyüşlərdə çox silahdaşlarımızı şəhid verdik. İbad gözünü vətənə qurban verib qazi oldu. Mən nə şəhid oldum, nə Qazi. Qismətimdə şəhid atası olmaq var imiş. Oğlumu vətən sevgisi ilə böyütmüşdüm. Xocalıda baş verən faciələri ona aşılamışdım. Bilirdim ki, o, xalqına qarşı törədilən faciənin qisasını alacaq. Heç də yanılmadım. Ətrafın komandiri "Başını dik tut, Ətraf kişi kimi vuruşdu" deyən zaman gözlərim qürurdan doldu. İnanmıram kişilərə ağlamağı yaraşdırmayanlar o anı yaşayalar. O anı yaşayan heç bir bəndə göz yaşlarına hakim ola bilməz.

Oktyabrın 29-da Ətrafın cansız cismini neytral ərazidən götürüb Füzuli hospitalına göndərdilər. 74 şəhid nəşi gəldi. Şəhidlərin təhvili gecikməsin deyə bir hissəsi Beyləqana göndərildi. Mən Füzulidə qaldım, qardaşım Beyləqana getdi. O şəhidlərin hamısını oğlum kimi qucaqladım. Hər biri ürəyimə bala dağı çəkdi. *(O anı təsəvvür etməyə dözmək bu qədər ağırdırsa, yaşamaq izah oluna bilməyəcək qədərdir.)* Eyni qaydada qardaşım da Beyləqanda Ətrafı axtarırdı. Qardaşım zəng edib Ətrafın Beyləqandakı şəhidlər arasında olduğunu dedi. Mən özümü Beyləqana çatdırdım. Nəfəsim kəsilə-kəsilə oğlumun yaralarına tək-tək baxdım. Nəfəssiz oğlumun yerində olmaq istədim.

Oktyabrın 29-dan 30-na keçən gecə Ətrafın nəşini Şəkiyə gətirdik. 30 oktyabrda oğlumun cənazəsi qısa müddət evimizdə qaldıqdan sonra Şəki şəhər II Şəhidlər xiyabanında torpağa tapşırıldı.

Oğlumun uğrunda canından keçdiyi torpaqları onun kimi əmisi oğlu Vəliyev Qənimət Allahverən oğlu da qorudu. Digər qardaşı da həmin vaxt Azərbaycan Ali Hərbi Məktəbində III kursda oxuyurdu. İndi qardaşı kimi leytenantdır. Ətrafın yarımçıq qalan arzularını həyata keçirmək üçün çalışır.

Leytenant Qənimətov Ətraf Oktay oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Füzulinin azad olunmasına görə" medalı, "Döyüşdə fərqlənməyə görə" medalı və 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif edilib.

Şəhid atası oğlunun adının əbədiləşdirilməsi üçün ilk addım olaraq bulaq inşa etdirib.

## ŞƏHİD ƏTRAF

Sən dost intiqamın düşməndən alıb,
Dostun cənnətinə müjdə apardın.
Düşmənin qan ilə yuyulan əlin,
Vətən torpağından Ətraf, qopardın.

Bilirdin getdiyin şərəfli yoldan,
Qazitək dönülür, ya da ki şəhid.
Arzun şəhadətə yetişmək idi,
Qazilər arzuna oldular şahid.

Tarix unutdurmur tarix yazanı,
Hələ çox oxunar ömür kitabın.
Bir vaxt müəllimtək dilə gəlirdi,
İndi şəhid kimi çəkilir adın.

Son dəfə səsini atan duyanda,
Avazın bağrını yandırıb yaxdı.
Soyuq əllərindən tuta bilmədi,
Göz yaşı süzülüb qəlbinə axdı.

Savaşın atəşi hər evə düşür,
Hər qəlbdə sönməyən ocaq qalanır.
Vətəni könüldən sevən vətəndaş,
Şəhidi ən əziz insanı sanır.

***08.02.2023***





**ALLAHVERDİYEV NAMAZ BAXIŞ OĞLU**

**LEYTENANT**

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## ATASININ GETDİYİ YOLU TAMAMLAYAN OĞUL

*Hər ata oğlu ilə, hər oğul atası ilə qürur duymaq istəyər. Ancaq hər zaman bu arzu gerçək olmaz. Xoş o insanın halına ki, həyatda o insan qürur duymaq hissini yaşayıb. O duyğunu yaşayanlar sırasında bir ata-oğul var ki, onların ömür yollarında həddindən ziyadə bənzərlik var. Doğum tarixindən, döyüş yollarının başlanğıcına kimi eynidir. Elə bil hər ikisi də vətən üçün dünyaya gəlmişdilər. Oğul uşaq vaxtı atasının qəhrəmanlığından fəxrlə danışardı, ata isə nurani vaxtı oğlundan fəxrlə danışır.*

13 iyun Allahverdiyevlər ailəsi üçün önəmli bir tarix idi. Ailənin başçısı Baxış Allahverdiyev həmin gün dünyaya göz açmışdı. İllər sonra isə o, ən böyük hədiyyəsini elə həmin gün almışdı.13 iyun 2000-ci ildə ailənin ilk övladı doğulmuşdu. Baxış körpəyə atasının adını verərək Namaz adlandırmışdı. Sonra ailənin ikinci övladı Şahrud dünyaya göz açmışdı. Nazilə ana iki oğul övladını gözlərinə çıraq bilmişdi. İsti nəfəsləri dünyanın ən dəyərli ləl-cavahiratı olan övladlarının böyüməsi ata-ananın işıqlı günlərə ümidini artırmışdı.

Allahverdiyev Namaz Baxış oğlu doğulub böyüdüyü Suçma kənd tam orta məktəbində təhsil almışdı. Məktəbin əlaçı şagirdləri sırasında yer alan Namaz məktəbi yüksək qiymətlərlə bitirmişdi.

Namaz uşaqlıqdan atasından Qarabağda baş verənləri dinləmişdi. Elə uşaqlıqdan da vətənə fəda olmaq sevgisinə könül vermişdi. Əksi olsa o, 2017-ci ildə məktəbi bitirdikdən sonra Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmaq istəməzdi. Hərbi geyimi müqəddəs sayan bu vətən oğlu yüksək balla Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdu. Hər ili yüksək nəticə ilə, Fəxri fərmanlar və diplomlarla başa vuran Namaz hərb peşəsinin Motoatıcı ixtisası üzrə təhsil almışdı. Onun arzuları var idi. Ən böyük arzusu isə Qarabağın azad olunması idi. O həmin arzuya çatdı.

2020-ci il 27 sentyabrda başlanan haqq savaşımız Azərbaycan Ordusunun bütün zabit və əsgərlərinin illərlə gözlədiyi anın çatması idi. Həmin vaxt Namaz IV kursda oxuyurdu. Onun da arzusu vətənin azadlığına töhfə vermək idi. Noyabrın 1-də leytenant hərbi rütbəsinə layiq görülən Namaz bir zamanlar atasının da uğrunda mübarizə apardığı Füzuli rayonunda təlimlərə qatıldı. Onun üçün sanki həmin yerlər tanış idi. Atasından dinlədiyi qədər gözəl və doğma idi o torpaqlar. Bir az həsrət, bir az da şəhid qoxurdu.

Namaz döyüşlərdə olduğunu ailəsinə açıq şəkildə deməsə də, Baxış kişi müharibəni gördüyü üçün hər şeyin fərqində idi. Namaz Füzulidən sonra Şuşa istiqamətində döyüşlərə qatılıb. Son dəfə doğmaları ilə noyabrın 5-də danışan Namaz irəliyə gedəcəyini və ona zəng çatmayacağını deyib. Noyabrın 6-dan 8-nə qədər qızğın döyüşlərdə iştirak edib. Şuşanın azadlıq sevincini yaşayıb və yaşadandan sonra elə həmin gün minamyot atəşinə tuş gəlib. 8 noyabr Şuşanın azad olunduğu və Namazın həyata şəhid kimi vida etdiyi gün kimi tarixə həkk olunub.

Artıq həyəcanla ötən saatlar günlərə dönürdü. Namazdan heç bir xəbər ala bilməyən doğmaları onun axtarışına çıxmışdılar. Susan zəng, sanki susan ürəyin carçısı idi. Baxış müəllim dörd bir yana xəbər salmışdı. Baxış müəllim duymaq istəmədiyi o xəbəri 13 noyabrda eşitmiş və bu barədə Nazilə anaya bir söz deməmişdi. Namazın yaralı olduğunu deyən şəhid atası oğlunu Füzulidə yerləşən hospitaldan götürmək üçün zaman qazanmağa çalışmışdı. Şəhid atası oğlunun olduğu batalyonun düşmən atəşinə tuş gəldiyini bildiyi üçün qarşılaşacağı mənzərədən xəbərdar idi. Axı o, düşməni illər öncədən tanıyırdı.

Bir zamanlar çıxdığı Füzuliyə oğul nəşini götürməyə gələn Baxış kişi o gün qəlbindən sanki dəfələrlə vurulmuşdu. Oğlunun cansız cismi ilə qarşılaşan ata oğlunun düşmən atəşinə tuş gələn ürəyini oxşamış və son dəfə oğlu ilə vidalaşmışdı.

Şuxqamətli, idmançı, qəhrəman oğlunu tabutda evinə gətirmək bir atanın ən böyük sınağıdır. Şəhid anasına şəhid oğul tabutu təhvil vermək dözülməzdir. 16 noyabr hər kəsin ürəyini zamansız əsən ayrılıq sazağı titrətdi. Ana, ata, qardaş üçün



Namaza əbədi vida etmək ağır oldu. Son dəfə ata ocağında qonaq olan Namaz 17 noyabrda Suçma kənd məzarlığında uyuyan dörd şəhiddən biri oldu.

Leytenant Allahverdiyev Namaz Baxış oğlu Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Cəsur döyüşçü" medalı və "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Vətən üçün ömrünün ən gənc yaşında Vətən adlı bağdan dərilən şəhid adlı çiçəklərdən biridir Namaz. Nə yaşamaqdan doydu, nə xəyal qurmaqdan. Qurduğu çox xəyallar elə xəyal olaraq qaldı. Sevgi bağından çiçək dərmədi. Vətən bağında son damla qanı ilə xarıbülbülə can verdi.

Oğlunun arzuları Nazilə ananın bir ömür daşıyacağı qəlb yüküdür. Hər "Vağzalı" çalınanda qaysaq tutmamış şəhid yarası qanayacaq. Hər zaman gözləri yollarda qalacaq.

Bir də qardaş həsrəti ilə sızlayan ürək sahibi Şahrud var. Öz dayağını itirsə də, özü dayaq olmaq məcburiyyətində qalan oğul. Atasının, anasının yanan ürəyini o, təsəlli etməyə məcburdur. Şahrudun isə təsəllisi yoxdur.

Şəhid ömrü nakam, şəhid doğmalarının bağrı qan olar.

## ŞƏHİD NAMAZ

İgidliyin dövr etdi, leytenant, damarında,
Vətən oldu könlünü verdiyin tək yarın da.
Vətənə həmdəm oldun ömrünün baharında,
Şahintək qanad çaldın Füzulidən Şuşaya,
Dağlar şücaətinə durdular tamaşaya.

Azadlığın sevincin yaşadın və yaşatdın,
Qaraca torpağıma axan qanını qatdın.
Üçrəngli bayrağıma sipər durub ucaltdın,
Ruhun ilə oxşadın torpaq, vətən, bayrağı,
Sayənizdə kəsildi yurddan yağı ayağı.

Hərbi forma geyindin kəfən kimi əyninə,
Heyran oldu hər duyan sənin vətən sevginə.
"Şəhid Namaz" deyildi igid, sənin şəninə,
Vətən "Oğul" deyəndə yetişdin imdadına
Sən vətənə nur saçdın, şəhid sözü adına.

Zəfərdən müjdə verdin bayraqlı tabut ilə,
Kədər yaşı süzüldü gözlərdən gilə-gilə.
Qəhrəman, adın düşüb o gündən dildən-dilə,
Qanınla nöqtə qoydun Şuşanın işğalına
Torpaq köksünü açdı şəhid olan oğluna.

*27.01.2023*



**MEHDİZADƏ MƏRDAN ƏHMƏD OĞLU**

**BAŞ MİÇMAN**

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*



## 41 İLLİK ÖMRÜN VƏTƏNÇÜN YAŞANILAN 23 İLİ

*Hərb peşəsi çətin, şərəfli, məsuliyyətli bir peşədir. Bu peşəni seçən biri sanki bütün xalqın, vətənin məsuliyyətini öz öhdəsinə götürür. Hərbçilər vətəndən başlanan ömür yolunun vətən üçün bitməsinə hər an hazır olur. Vətənin dağı, dərəsi, meşəsi, dənizi hərbçinin ev-eşiyi olur. Bəzilərinin isə elə son nəfəsinin şahidi, son mənzili olur. Miçmanlar isə vətənin torpağından çox suyunda addımlayırlar. Qışın soyuğu, qarı onları amallarından döndərmir. Yaşadıqları ömürdə hər şeyin vətən üçün gözəl olması üçün çalışırlar. Vətən azad olsa, firavanlıq bütün insanların ruhunu gözəlləşdirər. Azad ölkədə firavan olmağımız üçün çox qəhrəmanlar canlarından keçdilər. Həmin o qəhrəmanlardan biri də baş miçman Mehdizadə Mərdan Əhməd oğlu oldu.*

Ömrünü vətən üçün yaşayan Mehdizadə Mərdan Əhməd oğlu 25 mart 1979-cu ildə Şəki rayonunun Göybulaq kəndində dörd uşaqlı ailənin sonuncu övladı olaraq dünyaya gəlmişdir. Mehdi, Əhəd, Sevda və Mərdan Əhməd kişi və Solmaz xanımın qol-qanadları olmuşlar. Onlar böyüdükcə ümidlər, arzular da böyümüşdür. Hələ vətənin üzərinə ilk qara bulud çökən zaman ailənin ilk övladı Mehdi vətənin imdadına yetişmişdi. Ancaq o zamanlar ordu düzənsizliyi Qarabağın işğalı ilə nəticələnmişdi.

Mərdan Mehdizadə 1985-ci ildə Şəki rayon Göybulaq kənd natamam orta məktəbində təhsil almağa başlamış, 1991-ci ildən isə təhsilini Şəki rayon 11 nömrəli Dəmiryol stansiyasındakı məktəbdə davam etdirmişdir. 1996-cı ildə məktəbi bitirmişdi. 1997-ci ilin iyul ayında həqiqi hərbi xidmətə getmişdir. Sentyabr ayına qədər Bakı şəhərində yerləşən N saylı hərbi hissədə əsgər kimi xidmət etmişdir. 1997-ci ilin sentyabr ayından 1999-cu ilin aprel ayına qədər həmin hərbi hissədə dalğıc mütəxəssisi olmuşdur. 1999-cu ilin aprel ayından avqust ayına qədər Bakı Ali Hərbi Dənizçilik Məktəbində təhsil almışdır. 1999-cu ilin avqust ayından 2000-ci ilin iyun ayına qədər N saylı hərbi hissədə dəniz dalğıc gəmisinin dalğıc postunun rəisi işləmişdir. 2000-ci ilin yanvar ayından mart ayına qədər Türkiyə Cümhuriyyətinin İstanbul şəhərində kurs keçmiş və Sertifikat almışdır. 2000-ci ilin iyun ayından 2004-cü ilin yanvar ayına qədər N saylı hərbi hissədə Xüsusi Təyinatlı Dəstənin Xüsusi Təyinatlı Qrupunun dalğıc qrup komandirinin müavini vəzifəsini icra etmişdir. 2004-cü ilin yanvar ayından 2010-cu ilin may ayına qədər eyni hərbi hissədə qərargah və təchizat bölüyünün anbar rəisi olmuşdur. 2010-cu ilin may ayından 2017-ci ilin mart ayına qədər eyni hərbi hissədə Xüsusi Təyinatlı Dəstənin (sualtı müdafiə) Xüsusi Təyinatlı Qrupunun dalğıc kəşfiyyatçı vəzifəsində xidmət etmişdir. 2017-ci ilin mart ayından eyni hərbi hissədə Xüsusi Təyinatlı taborun (sualtı hücum) Xüsusi Təyinatlı Dəstənin Xüsusi Təyinatlı Qrupunun dalğıc kəşfiyyatçısı vəzifəsini icra etmişdir.

Mərdan Mehdizadənin bir hərbçi kimi qət etdiyi yolunu ömür yoldaşı Leyla xanım da onunla bərabər addımlayıb. 3 yanvar 2006-cı ildə sevgi bağlarını ailə quraraq daha da möhkəmləndirən Mərdan və Leyla həm sevinci, həm də həsrəti bərabər yaşayıblar. Onların dördillik övlad həsrətlərini onlarla bərabər bütün doğmaları çəkiblər. Çünki bu ailənin hər bir övladı övlad həsrəti çəkib. İllərlə o həsrətlə yaşayan ailənin mükafatı Mərdanın ocağını dörd il sonra isidən Əkrəmin nəfəsi olub. Gəlişinə neçə qurban kəsilib bu sevinc payının. Əkrəm doğulduqdan sonra digər qardaşın övladı olsa da, Əkrəm tək oğul nəvə olub. 12 fevral 2016-cı ildə isə Mərdan və Leyla cütlüyünün Əfşan adlı qızları dünyaya göz açıb.

Şəhid yarı Leyla xanım 15 illik evliliklərindən danışdıqca ötən illərin xoş xatirəsi və Mərdansızlıq gözlərimdə canlandı.

**Mərdanın həyat yoldaşı Leyla xanım:**

– O qədər xoşbəxt idik ki... Həyat üzümə Mərdanla gülürdü. Bizi xoşbəxt etmək üçün hər vəchlə çalışırdı. Övladlarına bağlı ata idi. Biz onsuz həyatı təsəvvür etmirdik. Ancaq həyatı onsuz yaşamağa məhkum olduq.

2020-ci ilin yayında yaşadığımız xoş günlər sanki Mərdanla xoş xatirələrin daha çox toplanması üçün imiş. Həmin vaxt biz Şəki, Oğuz, Zaqatala, Qax rayonlarının gəzməli-görməli yerlərinə getdik. O günlərin bir də yaşanılmayacağı gerçəyi indi ürəyimi yandırıb yaxır.

Sentyabrın 22-də mənim ad günüm olacaqdı. Mərdan sentyabrın 20-də bizi bir restorana apardı. Mən buna razı olmasam da, o, israrla o günümü gözəl və özəl keçirməyim üçün çalışdı. Elə mənim üçün son gözəl və özəl günüm o gün oldu.

Vidamızın təməli sentyabrın 25-də qoyuldu. Sübh səhər Mərdanı işə yola saldım. Sonra evə gələ bilmədi. Sentyabrın 27-də səs-küyə oyandım. Gedən hərbi maşınların ardınca baxdım...

Biz hərbçi ailələri ilə eyni binada yaşayırdıq. Binada yaşayanların hamısı cavan gəlinlər, körpə uşaqlar idi. Hamımızın dayağımız dönüşü olmayan yola çıxdılar. Dua etməkdən başqa əlimizdən heç nə gəlmirdi.

Mərdana zəng etdiyimdə ***"Uşaqlar sənə, sən Allaha əmanətimsən"*** sözləri ilə mənə çox şeydən xəbər verdi. O gündən sonra ümidlərin ətəyindən yapışdım. Ümid edirdim ki, gələcək. Gəldi ancaq istədiyim kimi gəlmədi.

Mərdan Füzulidən başlamışdı azadlıq yollarında addımlamağa. Aprel döyüşlərində şəhid olan dostu Rusif Ağayevin intiqamını aldığı üçün çox sevinirdi. Döyüşün təməlində düşmənin hördüyü sədləri dağıdaraq ömür haqqı ilə ümid hörmüşdü. Sonra Cəbrayılın işğal qandalını sökməyə çalışmışdı. Şəhid olan dostları düşmənə nifrətini daha da böyütmüşdü. 11 oktyabrda danışan zaman dostu Mirzə Axundovun şəhid olduğunu ürəyi yana-yana demişdi. Ertəsi gün özünün şəhid olacağını bilməzdik. Özü isə hər şeyi bilirdi. Son dəfə uşaqlarla danışanda sanki vida etdi.

Oktyabrın 12-də Cəbrayıl rayonunun Soltanlı kəndi uğrunda gedən şiddətli döyüşlərdə düşmənin snayper atəşi Mərdandan da yan keçməyib. Başından atəşə tuş gələn Mərdan azadlığa can verib.

Hər kəs sanki qəribə davranırdı. Mənə baxanda gözü dolan kim, məndən qaçan kim. Hamı nə isə deməyə çalışırdı. Ancaq dilə gələn yox idi. Gözü yolda qalan hərbçi yarları ilə bir xəbər gələr deyə oturub yol gözləyirdik. Telefonu əlimdən yerə qoymurdum. Qaynım, baldızım zəng edib Mərdanı soruşdular. Onlar da çox narahat idilər. Sən demə, Şəkidə də hər kəs Mərdanın şəhid olduğunu bilib, lakin ailəyə bu xəbəri deməyə heç kim cəsarət etməyib. Oktyabrın 12-də gecə qəfil anamın gəlişi ilə mən Mərdanın şəhid olduğu xəbərini öyrəndim.

Nə sonsuz yol imiş, İlahi. Sanki ilk dəfə gedirmişəm kimi Şəkinin yolları uzandıqca uzandı. Səhərə yaxın Şəkiyə çatdıq. O qədər ağır idi ki, Mərdanın elə gəlişini gözləmək. 13 oktyabrda Mərdanın cisminin bir tabuta sığdığına şahid olduq. İnana bilmirdim ki, qəhrəman yarım o tabuta sığmışdı. Ancaq o bir acı gerçək idi ki, Mərdan da şəhidlik zirvəsinə ucalmışdı.

Atasından doymayan, Mərdanın illərlə yolunu gözlədiyi 10 yaşlı Əkrəm Göybulaq kənd məzarlığında atasının məzarı önündə atasının uğrunda can verdiyi bayrağı təhvil alanda elə bil dünyanı zülmət bürüdü. Axı Əkrəmin arzusu bu deyildi...

Göybulaq kəndi üçüncü şəhidinə qucaq açdı. Daha bir qəhrəman ömrünə nida qoyuldu. O nida əbədi həyatın başlanğıcı oldu.

O gün oğul dərdindən beli bükülən yaşlı Şəhid atasının məzlum və biçarə baxışları hər kəsin ürəyini dağladı. Əhməd kişi heç düşünməzdi ki, sonbeşik oğlu cərgəni belə tez pozar.

Solmaz ana balasından doymayan balasını yana-yana ağılarla oxşadıqca ürəyi min parça oldu.

Qürbətdə yaşayan Əhəd üçün qardaş yerinə qardaşının üçü günü qardaş məzarı qucaqlamaq ən ağır dərd oldu.

Qardaşının məzarına "Dostumu, qardaşımı, övladımı itirmişəm" sözlərini həkk etdirən Mehdinin qardaş dərdi bir başqa idi. Allah 27 il övlad həsrəti ilə sızlayan şəhid qardaşının şəhid adlı yarasına məlhəm olması üçün 27 il sonra ona Mərcanı bəxş etdi.

Bir bacı üçün qardaş dağı acıların ən böyüyüdür. Sevda xanım Mərdanla birlikdə sevincini, gülüşünü itirdi. Bir zamanlar Mərdanın gülüşünə qərq olan ata ocağından daha həzin-həzin ağılar duyulur.

Ömrünün 23 ilini hərbçi kimi vətənə xidmət edən baş miçman Mehdizadə Mərdan Əhməd oğlu xidməti dövründə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı, (26.06.2001) – "Azərbaycan Silahlı Qüvvələrinin 10 illiyi" yubiley medalı, (26.06.2008) – "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı, (26.06.2010) – "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı, (26.06.2013) – "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı, (26.06.2015) – "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalı, (26.06.2018) – "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı və (26.06.2020) – "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli medalı ilə təltif edilib. Qəhrəman şəhidimiz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra (09.12.2020) – "Qarabağ" ordeni, (15.12.2020) – "Vətən uğrunda" medalı, (24.12.2020) – "Cəbrayılın azad olunmasına görə" medalı və "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilib.



## ŞƏHİD MƏRDAN

Vətənin dağında və dənizində,
Ömrünün, əzminin izi var, Mərdan.
Ömrün iyirmi üç ilin vətənçün
Yaşayıb vətənə qurban etdin can.

Alnından damlayan tərin qarışan,
Torpağa müqəddəs qanın qarışdı.
Füzuli, Cəbrayıl şəhid oğlunun,
Son nəfəsin duyub yandı, alışdı.

Can qurban etdiyin şanlı bayrağı,
Əkrəm qürur ilə qəlbinə sıxdı.
Kim bilir dərd ilə sızlayan qəlbi,
O an ata üçün necə darıxdı?

Hələ dərd çəkməyə yaşı çatmayan,
Əfşan atasızlıq dərdinə düşdü.
Yar əli əlindən üzülən qadın,
Həyatın sınağı ilə üzləşdi.

Ata, ana, bacı, bir də qardaşlar,
Yığdılar ürəyə şəhid həsrətin.
Heç kim bilməzdi ki, şəhidlik adı,
Zəfər yollarında olar qismətin.

***29.01.2023***



**QURBANƏLİYEV TAPDIQ DÖVLƏTXAN OĞLU**

**BAŞ GİZİR**

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## ŞƏHADƏT ARZUSUNA ÇATAN TAPDIQ

*Arzular fərqli olur. Hər kəsin öz düşüncəsinin bəhrəsidir arzular. Arzuların rəngi çox zaman rəngarəng olsa da, bəzən bəyaz olur. Bəyaz – paklıq rəmzidir. Hər kəsin xəyalını pak arzular bəzəməz, hər kəs də pak arzulara çatmaz. Allahın seçdiyi bəndələrin o arzuları çin olar. Bəs o bəyaz arzular hansı arzulardır? Əlbəttə ki, ən müqəddəs arzu olan şəhadət arzusu. Qara torpaqdan başlayıb nura qərq olan arzu. Tapdığın da arzusunun rəngi bəyaz rəngdə idi.* ***"Kaş ki mən də üçrəngli bayrağa bükülüb gəlim".*** *Bu arzudan başladı ölümsüzlük və bəyaz rəngli dünya.*

O müqəddəs şəhidin ömrünün başlanğıcı 21 dekabr 1978-ci ildə Şəki rayonunun Aydınbulaq kəndində başlamışdır. Dövlətxan və Telli Qurbanəliyevlərin 5 övladından (4 oğlan, 1 qız) sonuncusu Qurbanəliyev Tapdıq Dövlətxan oğlu olmuşdur. 1985–1996-cı illərdə Aydınbulaq kənd tam orta məktəbində təhsil almışdır. Məktəbi bitirdikdən sonra müddətli həqiqi hərbi xidmətə yollanmış və Gəncə şəhərində yerləşən N saylı hərbi hissədə xidmət etmişdir. Vətən sevgisi onu Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinə gətirmiş, burada Gizirlik kursunu oxumağa başlamışdır. 2000-ci ildə kursu bitirdikdən sonra Mingəçevir şəhərində yerləşən N saylı hərbi hissədə xidmətə başlamışdır. Azərbaycan



Respublikasının Müdafiə Nazirliyinin 13 may 2000-ci il tarixli əmrinə əsasən gizir rütbəsinə layiq görülmüşdür.

Tapdıq Qurbanəliyev hər zaman işindəki ciddiyyəti və hərbçi kimi fəaliyyəti ilə fərqlənməyi bacarıb. İlk olaraq motoatıcı taqım komandirinin müavini vəzifəsini icra edən qəhrəman qısa müddətdə döyüş maşınının komandiri, motoatıcı taqım döyüş maşınının komandiri-manqa komandiri, hərbi hissənin təlim döyüş maşını bölüyünün və təlim döyüş maşınının döyüş maşını komandiri sürücülük üzrə təlimatçısı vəzifələrinin icra etmişdir. Hərbçi kimi günbəgün daha da püxtələşən Tapdıq Azərbaycan Silahlı Qüvvələrinin baş qərargah rəisinin 14 iyul 2016-cı il tarixli əmrinə əsasən baş gizir hərbi rütbəsinə layiq görülmüşdür.

Tapdığın xidmətləri bununla bitməmişdir. O, mexanikləşdirilmiş taborun (PDM) təlim döyüş maşınlarının taqımının komandirinin müavini, sürücülük üzrə təlimatçı, mexanikləşdirilmiş taborun PDM 1 təlim bölüyünün mexanikləşdirilmiş döyüş maşını komandiri, mexanikləşdirilmiş təlim manqasının komandiri, motoatıcı taborun PDM 2 motoatıcı bölüyünün döyüş maşını komandiri, döyüş maşınının komandiri vəzifələrini icra etmişdir. Bütün bu xidmətlər isə diqqətdən kənarda qalmamış, Tapdıq xidməti dövründə yeddi medal ilə təltif edilmişdir. (1991–2001) – Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi" yubiley medalı, (26.06.2008) – "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı, (26.06.2008) – "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı, (26.06.2013) – "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı, (26.06.2013) – "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalı, (26.06.2018) – "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı, (26.06.2018) – "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli medalı Tapdığın Azərbaycan Ordusuna verdiyi töhfələrin bəhrəsi olmuşdur.

Bir hərbçi kimi vətən üçün yaşayan Tapdıq Qurbanəliyevin ömür yollarının yol yoldaşı, qəlbinin sirdaşı isə Natəvan xanım idi. Onlar həyat yollarında 30 noyabr 2008-ci ildən bərabər addımlamağa başlamışdılar. 20 iyun 2010-cu ildən Nəzrin adlı qız övladının, 17 iyun 2015-ci ildən isə Nurlan adlı oğul övladının valideynləri olmuşdular.

Tapdıq Mingəçevirdə xidmət etdiyi üçün kirayə ev tutub ailəsini də öz yanına gətirmişdi. Həm vətənin qayğısını çəkmiş, həm də ailəsinin qayğısını çəkmişdi. Çox mehriban ata, həyat yoldaşı olmuşdu.

2016-cı ilin aprel ayında baş verən Aprel döyüşləri 2020-ci ildə qazandığımız qələbənin təməli oldu. Hər iki döyüşün iştirakçısı olan Tapdıq Aprel döyüşlərindən şəhid kimi geri dönsə də, II Qarabağ müharibəsindən şəhid kimi döndü. Tapdıq Aprel döyüşləri zamanı məzuniyyətdə olsa da, döyüşlərin başladığını bilən kimi ailəsini ardında gözüyaşlı qoyub vətənə dayaq olmağa getdi. Həmin

vaxt maşınını Mingəçevirdə saxladığı yerdə açarını üstə unutduğu üçün polislər onun şəhid olduğunu düşünsələr də, hərbi hissədən "Yaşayır" cavabını aldılar. Həmin döyüşlərdə Tapdığın sinif yoldaşı Tağıyev Rahim Qara oğlu ağır yaralandı və qısa müddət sonra şəhid oldu. Bu itki Tapdıq üçün ağır oldu. Həmin döyüşlərdən ürəyi yaralı döndü Tapdıq. Bir gün yenidən o torpaqlara ümid verəcəyini bilirdi...

Tapdıq hər zaman övladlarının gələcəyini düşünüb. Elə onun üçün də Şəkidə ev tikdirmək qərarına gəlib. Lakin o evdə cəmi yarım saat qalmaq ona nəsib olub. Avqustun 16- da evinin ilk və son dəfə qonağı olub. Sanki bir neçə ay sonra şəhid kimi evinə gələcəyini hiss edib. Ailəsi ilə birlikdə Mingəçevirə gəlib.

Natəvan xanım Tapdıqla ötən son günlərini və şəhid xəbərini dilə gətirərkən nəfəsinin yetmədiyini hiss edirdim.

**Tapdığın həyat yoldaşı Natəvan xanım:**

– 20 sentyabrda Tapdıq evə gələndə yemək yedikdən sonra istirahət etmək əvəzinə bizimlə söhbət etmək istədiyini dedi. Günlər idi onun qəribə davranışları məni narahat etməyə başlamışdı. O narahatçılığım bu sözlərdən sonra daha da çoxaldı.

***– Hər şeyə hazır olun. İyuldan bu yana düşmən daha da azğınlaşıb. Qana susayan düşməni qanında boğacağıq. Nəsə olsa ən öndə gedənlərdən olacağam. Biz irəlidə getməliyik ki, daha gənc əsgərlər də bizə baxıb ürəklənsinlər. Hər zaman hər cür dönüşümə hazır olun. Ola bilər ki, gözümü, qolumu, ayağımı itirəm qazi kimi dönəm. Ola bilər ki, həyatımı itirəm cismimin bir parçası tapıla.*** *(Həmin an Nurlan əlində bayraq dalğalandırırmış.)* ***Bu şanlı bayrağa bükülüb gəlmək ən böyük arzumdur. Bayraqlı tabutda bircə barmağım belə gəlsə, qane olun. O tabutda gəlmək mənim üçün şərəf və qalibiyyətdir.*** *(Bu sözləri deyərkən bayaqdan nəfəsi boğazına dizilən Natəvan xanımın ürək çırpıntılarını ürəyimdə hiss etdim. Söhbəti saxlamaq məcburiyyətində qaldıq.)*

Tapdıqdan bu sözləri duyan qızım "Ana, atam nə danışır?" dedi. Artıq söhbətin ağırlığı uşaq dərrakəsini yerlə yeksan edəcək böyüklükdə idi. Etdi də. O gündən sonra Nəzrinin səhhətində problemlər yarandı. Hələ bu eşitdiklərimizi yaşayacağımız günlər isə qabaqda idi.

Tapdıq son dəfə 26 sentyabrda sübh səhər işə getməyə hazırlaşırdı. Qapıdan çıxanda uşaqları təkrar öpmək istədi. Uşaqların üz-gözündən, hətta ayaqlarından öpdü. O vida digər vidalara bənzəmirdi. Ardınca su tökəndə ***"Xalanın oğlu suda boğuldu. Səncə, bu su məni qurtarar?"*** dedi. Gedişinə çox üzülsəm də, bəlli etməməyə çalışdım. Son dəfə maşının aynasından həsrətlə baxdığını sezdim. Elə o gediş son gediş oldu. Həmin gün axşam mənə zəng edib bu sözləri dedi:



***– Məni gözləmə. Biz artıq lazım olan yerə gedirik. Dediklərimi unutma. Əgər üç gün məndən xəbər çıxmasa, məni axtararsan. Sən güclü qadınsan. Mənə bir şey olsa, uşaqlara sahib çıxacağına əminəm. Sənə ilk gün güvəndiyim kimi güvənirəm. Ağlama, hər zaman gül. Sənə gülmək yaraşır. Atan sizi aparmağa gəlir. İsrar etmə, uşaqları götür və Şəkiyə get.***

Mən Tapdığın dediyi ilə məcbur razılaşdım. İstəmədim fikri bizim yanımızda qalsın. Həmin gecə atamla Şəkiyə getdim. Sübh səhər yuxumda gördüm ki, Tapdıq dumanlı yerdə məni çağırır. ***"Natış, dur məni axtar. Sənə dediyim vaxtdır".*** Özüm öz "Tapdıq" deyə səsimə oyandım. Sən demə, elə həmin an Tərtər rayonunun Çaylı kəndi istiqamətində irəliləyərkən Tapdıq olan PDM minaya düşüb və alışıb. Həmin vaxt digərləri çıxa bilsə də, Tapdıq çıxa bilməyib. *(Bu olanları danışarkən də, dinləyərkən də, yazarkən də insan ölüb-ölüb dirilir.)*

Tapdıqdan üç gün xəbər çıxmadıqda Natəvan xanım artıq onu axtarmağa başlayır. Əslində tək Natəvan xanım deyil, hər kəs Tapdığın axtarışına çıxır. Ancaq Natəvan xanımdan gizlədirlər. Qardaşından DNT analizi götürüldükdən günlər sonra Tapdığın şəhid olduğu öz təsdiqini tapır.

Oktyabrın 16-da səhər Şəki Şəhər İcra Hakimiyyətinin nümayəndələri Tapdığın nəşinin gətiriləcəyini deyir. Bir gecə içində yata bilmədiyi yeni evinə gətirilən Tapdıq cəmi 10 dəqiqə həyətinin qonağı olur. Tapdıq arzusunda olduğu kimi bayrağa bükülüb gəlir. Şəhidin cansız cismi 16 oktyabrda Şəki rayon Şeyx Osman ziyarətgahında torpağa tapşırılır.

Hərbi xidmətinin 22 ili tamam olan gün torpağa tapşırılan baş gizir Qurbanəliyev Tapdıq Dövlətxan oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "İgiliyə görə" medalı və "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib. Adı "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunan qəhrəmanların sırasına yazılıb.

Tapdıq şəhid olmamışdan 7 il öncə anasını, 3 il öncə atasını itirmişdi. Cənnətdə ruhlarının qovuşmasını diləyirəm.

## ŞƏHİD TAPDIQ

"Bayrağa bürünüb şəhidtək dönmək,
Elə qələbənin özü deməkdir.
Mən canı verərəm vətən yolunda,
Vətən azadlığı vacib, gərəkdir".

Bu sözlər duyğunun izahı idi,
Vətən fədaisi, vətən əsiri.
Uşaqdan-böyüyə hər kəs oxuyur,
Qanınla yazdığın roman, əsəri.

Böyük insanların adı hər zaman,
Böyük ürəklərə həkk olub qalır.
Tapdıq, sənin kimi vətən sevənlər,
Torpaqdan cənnətə kimi ucalır.

Qəlbindən başlayan o sönməz alov,
Əbədi məşəltək daim yanacaq.
Əzminlə azadlıq qazanan yurdun,
Ruhun keşiyində hey dayanacaq.

İyirmi iki il sən keşik çəkdin,
Vətən torpağının daş-qayasına.
Qorxmaz qəhrəmantək, Tapdıq, yol aldın,
Şəhid oğulların o dünyasına.

***02.02.2023***





**SƏLİMLİ BAKIXAN
ALİM OĞLU**

**BAŞ GİZİR**

*(2020-ci ildə II Qarabağ müharibəsində
şəhid olmuşdur.)*

## CAN VƏ VƏTƏN XILASKARI

*Bu torpağın bəzəyi, bu xalqın mənəvi sərvətidir şəhidlər. Can verdikləri vətənin hər qarışı şəhidlərin əmanəti sayılan vətən bizim mənliyimizdir. İnsan ilk mənliyini qoruyar. Toxunulmaz olanların ən öndə durandır mənlik, şərəf, ləyaqət. Biz xalq olaraq illərdi bu amal uğrunda itirdiklərimizin fərqindəyik. O canlar biz bu vətəndə addım atanda başıaşağı gəzməyək deyə fəda oldular. Onların haqqı deyildimi bu vətəndə yaşamaq? Haqları idi. Ancaq onlar Allahın verdiyi ömrü bizlərin azad vətəndə yaşaması üçün fəda etdilər. Bəs biz o fədailər üçün nə etdik və nə edirik? Zənnimcə, bu sualı hər bir azərbaycanlı özünə verməlidir. Əgər vicdanının verəcək cavabı olmasa, dərin-dərin düşünməlidir. Bu vətəndə yaşamağa layiq biridir, ya yox? Hər bir azərbaycanlı vətənə layiq olması üçün ilk dəyərlərimizə sahib çıxmalıdır. Vətənə, torpağa, bayrağa və şəhidə. Bəli, bizə sahib çıxan şəhidə biz də sahib çıxmalıyıq. Unutdurmamaq üçün əməllərimizdə yaşatmalıyıq bizim azad vətəndə yaşamağımız üçün canından keçən Bakıxan və onun kimi qəhrəman oğulları.*

Səlimli Bakıxan Alim oğlu Şəki torpağının qəhrəman oğullarından biridir. Qısa ömrə iki Zəfər sığdıran bu qəhrəman 31 avqust 1993-cü ildə Şəki rayonunun Əliyar kəndində altıuşaqlı ailənin beşinci övladı olaraq dünyaya göz açıb. 2000-ci ildə Əliyar kənd natamam orta məktəbinə qədəm qoyan Bakıxan IX sinfi bitirdikdən

sonra Aydınbulaq kənd tam orta məktəbində X–XI sinifləri oxuyub və həmin məktəbdən məzun olub. Məktəbi əla qiymətlərlə oxuyan Bakıxanın ən böyük arzusu hərbçi olmaq olub. Başqa peşə sahibi olmağı düşünməyən Bakıxan 2011-ci ildə sənədlərini Azərbaycan Ali Hərbi Məktəbinə verib. Lakin boyu ona bu arzusuna çatmağa əngəl olub. AAHM-ə qəbul ola bilməyən Bakıxan 2011-ci ilin payızında həqiqi hərbi xidmətə yollanıb. Bakı şəhərində Fövqəladə Hallar Nazirliyinin N sayılı hərbi hissəsində xidmət edən vətən oğlu xidməti zamanı bir çox Fəxri fərman və diplomlarla təltif edilib.

Bakıxan bir xilaskar olub. Nə təbii fəlakətlər, nə yanğınlar gözünü qorxudub. "İmdad" deyənin imdadına yetişib. 2012-ci ildə Türkiyə Cümhuriyyətinin Van şəhərində baş verən zəlzələ zamanı xilasetmə işlərinə cəlb olunanlardan biri də Bakıxan olub. Bir həftə boyunca neçə-neçə ümidə töhfə verib qəhrəman oğul. Elə həmin il Zaqatala rayonunda baş verən zəlzələ zamanı da Bakıxan xilasetmə işlərində aktiv rol oynayıb. O bir can xilaskarı idi. Ötən zamanla isə bir vətən xilaskarına çevrilib.

2013-cü il aprel ayında Bakıxanın əsgərlik xidməti başa çatıb. Ancaq ürəyi Vətən eşqi ilə döyünən qəhrəman vətənə xidmət etmədən yaşamağın mümkünsüz olduğunu düşünüb və o önəmli qərarı verib. Bakıxan gizirlik kursunu oxuyub və uğurla başa vurub. Onun dəyanəti, qorxmazlığı diqqətlərdən yayınmayıb və Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) kurslarına cəlb olunub. Həmin kursları da uğurla, yüksək nəticə ilə başa vurduqdan sonra gizir hərbi rütbəsinə layiq görülüb. Xüsusi Təyinatlı Qüvvələrin N sayılı hərbi hissəsində xidmətə başlayan qəhrəman bir çox uğurlu əməliyyatlarda iştirak edib. Ən uğurlu əməliyyatlarından biri isə qəhrəmanlığın qanla yazıldığı Aprel döyüşləri olub. Həmin döyüşlərdə böyük şücaət göstərənlərdən biri də Bakıxan olub. O və dəstəsi Lələtəpəyə bayraq sancıb. Bu idi Azərbaycan oğlunun əzmkarlığı. O əzmkarlıq zamanla daha böyük qələbələrə yol açdı.

Hər zaman ən önəmli tapşırıqlar tapşırılanlardan biri də Bakıxan olub. Çünki o, heç zaman işini bitirmədən geri dönməyib. Xidmətinin mükafatlarından biri də "Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi"yubiley medalı olub.

Düşmənlərimiz azğın, amansızdır. Min hiylə ilə yoğrulublar. İnsanlığa zidd bütün hərəkətləri etmək onlara adidir. Nə sülhdən anlayarlar, nə də atəşkəsdən. Sülhü pozan qonşularımız atəşkəsi də hər zaman pozublar. 2020-ci il iyul ayında düşmən növbəti dəfə cəbhəboyu ərazilərdə genişmiqyaslı təxribatlar törətdi. Həmin zaman ən şiddətli döyüşlər Tovuz rayonu istiqamətində getdiyi bilinsə də, digər ərazilər də düşmən hücumuna məruz qalmışdı. Həmin ərazilərdən biri də Ağdam rayonu istiqaməti idi. O döyüşlərdə düşmən təxribatının qarşısını qətiyyətlə



alanlardan biri də Bakıxan olub. Qolundan güllə yarası almağına baxmayaraq, o geri çəkilməyib və döyüşlərə davam edib. Həmin döyüşlərdən sonra Bakıxan vaxtından əvvəl baş gizir hərbi rütbəsinə layiq görülüb.

Artıq müharibənin qaçılmaz olduğunu hər kəs bilirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev illərlə işğal altında olan torpaqlarımızı sülh yolu ilə azad etməyə çalışsa da, düşmən müharibəyə can atırdı. Güclənən Azərbaycan Ordusunun mütəmadi keçirdiyi təlimlərdən dərs çıxarmalı olan olan düşmən ordusu əksini etdi.

27 sentyabrda cəbhədə düşmənin törətdiyi təxribat Bakıxan kimi oğulların illərlə gözlədikləri qisas anının çatması ilə nəticələndi. Bu qəhrəman elə döyüşün ilk anından Qarabağa gedən yola addım atdı. O, Ağdam, Füzuli istiqamətində ilk döyüşlərdə boy göstərdi. 28 gün düşmənlə üzbəüz vuruşan qəhrəman ona əmanət olunan snayperlə düşmənin 40-a yaxın canlı qüvvəsini məhv etdi. Komandiri Bakıxanın düşmən hədəfində olduğunu bilirdi. Ona görə də tez-tez onun yerini dəyişirdi. Bakıxan isə bu yolun sonunun şəhadətə çatacağı amalı ilə addımlayırdı.

Hər an şiddəti bir qədər də artan döyüşlərdə Bakıxangilin dəstəsi Füzuli rayonunun Merdinli kəndi istiqamətində düşmənin təminat yolunu bağlayır. Həmin istiqamətdə düşmənin istehkam postu darmadağın edilir. Düşmən ordusu yerlə yeksan edilir. Bakıxan düşməndən intiqamını alır. Bu döyüş Bakıxanın son döyüşü olur. O, oktyabrın 24-də snayper atəşinə tuş gəlir və qəhrəmancasına şəhid olur. Ancaq neytralda olduqları üçün dörd gün şəhidlərimizin nəşini götürmək mümkün olmur. Həmin günlər ailə üçün illərə bərabər olur. O günlər yaşanılanları şəhid qardaşı Əfqan Səlimlidən dinlədiyim kimi də sətirlərə düzürəm.

**Bakıxanın qardaşı Əfqan:**

– Bakıxan son dəfə sentyabrın 3-dən 8-nə qədər məzuniyyət götürüb ata ocağımıza gəlmişdi. İyul döyüşlərindən sonra müharibənin küləkləri vətənimizə doğru əsirdi. Bunu hər kəs kimi mən də hiss edirdim. Açığı qardaşımdan bu barədə soruşmağa ürək etmirdim. Duyacağım cavabdan ehtiyat edirdim. Bir dəfə cəsarətimi toplayıb o sualı verdim. ***"İnanma..."*** cavabını aldım. Bakıxan istəməzdi ki, narahat olaq. O səbəbdən də bizdən həqiqəti gizlədi.

24 oktyabrda günorta mənə zəng etdi. ***"Məndən narahat olmayın, mən yaxşıyam"*** dedi. Axşam təkrar zəng etməsini dedim. Ancaq o bir daha zəng etmədi. Qardaşımdan heç bir xəbər almamaq günbəgün onun həyatda olduğu ümidlərimi öldürürdü. Nə olur olsun Bakıxan həyatda olsa, məni xəbərsiz qoymazdı. Artıq qardaş axtarışına çıxmışdım. Döydüyüm qapılar ürküdücü idi. Xəstəxanalar, morqlar...

28 oktyabrda Bakıxanın nəşi neytral ərazidən götürüldükdən sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəki Rayon İdarəsinə xəbər göndərilib. Mən günlər idi özümü hər cür xəbər ala biləcəyimə hazırlayırdım. Beyləqana getməli olduğumu dedilər. Bilirdim ki, bu gedişin dönüşü qardaş tabutu ilə olacaq. Nə qədər çətin olsa da, mən o yola çıxmalı idim. Yenə də ürəyimin ən dərinində "Bəlkə, Bakıxan deyil" deyə ümid edirdim. Morqda qardaşımın nəşini görəndə "Bəli, Bakıxandır" deyə təsdiq etdiyim zaman bütün ümidlərim nöqtələndi. Qardaş tabutu ilə bərabər yola çıxdım. Ana-atama, Elmana, Alimə, Səliməyə, Əsmayəyə nə deyəcəyimi bilmirdim. 29 oktyabrda Bakıxanın nəşini ata ocağımıza gətirdim. İnsan izdihamı ilə qarşılaşdığım zaman "Qardaşım, sən xalqın oğlusan" dedim. Şəki Rayon İcra Hakimiyyətinin nümayəndələri, rayon ictimaiyyəti, hərbçilər, vətəndaşlar vətəndaşlıq borclarını yerinə yetirdilər. Anam Surayya xanım məğrur duruşu ilə qardaşımın bayraqlı tabutu önündə dediyi sözlərlə bir daha Azərbaycan qadınının əsalətini dünyaya bəyan etdi. "Oğul, bayrağına qurban olum". Bəli, bu o bayraq idi. Zirvədən enməməsi üçün Bakıxanın uğrunda can verdiyi bayraq. Bu dəfə daha bir qardaşlıq borcumu yerinə yetirdim. Əliyar kənd məzarlığında qardaşımın məzarı önündə o şanlı bayrağı təhvil aldım. O bayraq Bakıxanın əmanəti idi. Bu vətən isə Bakıxanın tək sevdiyi oldu.

Baş gizir Səlimli Bakıxan Alim oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Füzulinin azad olunmasına görə" medalı, "Cəsur döyüşçü" medalı, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

Əliyar kəndində şəhidlərin xatirəsinə abidə ucaldılıb.



## ŞƏHİD BAKIXAN

Belə olur ürəyi vətənçün döyünənlər,
"Vətənim" deyə-deyə vətənə tən olurlar.
Ürəyinə vətənin eşqi dolan oğullar,
Torpağın ürəyinə şəhid kimi dolurlar.

İlahi, necə eşqdir şəhidlərin bu eşqi?
O eşqin yollarında candan keçdi Bakıxan.
Bu vətənin, torpağın fədaisi olaraq,
Şəkinin igid oğlu qazandı şəhidtək şan.

Öz qanının qisasın alıb yağı düşməndən,
Azadlıq sevinciylə köç elədi cənnətə.
Günəşin nuru ilə kəsişən şəhid nuru,
İllər sonra nur saçdı azad bir məmləkətə.

Füzuli torpağının köksündəki sədləri,
Bakıxantək igidlər düşmənə etdi məzar.
Vətən dərdin bitirib şəhadətə yetənlər,
Qan ilə tarix yazıb daim tarixdə qalar.

***30.01.2023***



**HÜMMƏTOV ORXAN KAZIM OĞLU**

**GİZİR**

*(2016-cı ildə Aprel döyüşlərində şəhid olmuşdur.)*

## ŞƏHADƏT ARZUSUNA ÇATAN ORXAN

*Bu həyatda insanı yaşadan ümiddir. Ümid bitdiyi anda insanın ürəyində fəlakət başlayar. Xalq olaraq bizim ümidimiz heç zaman bitmədi. Ümidi bitirsəydik, Qarabağın azadlıq sevincini yaşaya bilməzdik. O ümidi bərabərində böyüdən qəhrəmanlar heç zaman Qarabağın işğalı ilə barışmadılar. Bir gün mütləq o işğalın sona çatacağı ümidini verənlər fəda olmağa hər an hazır idilər.* ***"Yetər ki, vətən torpağı düşmən tapdağında qalmasın"*** *deyən qəhrəmanlardan biri idi Orxan Hümmətov.*

***– Mən izin verə bilmərəm ki, Xocalı faciəsini təkrar yaşayaq, Şəki və digər rayonlar düşmən tərəfindən işğal olunsun. Mən izin verə bilmərəm ki, qaniçən ermənilər yenidən ana-bacılarımıza toxunsunlar. Vətən üçün yaşayıb, vətən üçün öləcəm!***

Bu sözləri deyən bir qəhrəmanın ömür yollarının izndən iz salmaq çətin, məsuliyyətli və şərəflidir. Bu şərəfli ömrün başlanğıcı 4 noyabr 1992-ci ildə başlayır. Hümmətov Orxan Kazım oğlu Şəki rayonunun Kiş kəndində dünyaya göz açır. İki qardaş olurlar, Vüsal və Orxan. Ailənin ikinci övladı Orxan Hümmətov olur.

Orxan 1999-cu ildə Şəki rayon 4 saylı Kiş kənd tam orta məktəbində təhsil almağa başlayır. Müəllim kollektivinin və şagird yoldaşlarının sevgisini qazanmağı bacarır. Təhsil almaqla yanaşı, idmanla da məşğul olur. IV sinifdə oxuyan zaman idmanın karate növü ilə, VI sinifdən isə yunan-Roma güləşi ilə məşğul olur. İdman müəllimi Vüqar İsgəndərovun ümidlərini hər zaman doğruldan Orxan yarışlarda qalibiyyət qazanaraq Fəxri fərmanlarla təltif edilir.



Orxanın ən böyük arzusu hərbçi olmaq olur. Elə bu minvalla da VIII sinfi bitirən zaman sənədlərini Cəmşid Naxçıvanski adına Hərbi Liseyə verir. Qalibiyyət imtahanından keçməyi bacarsa da, test imtahanından keçmək üçün 2 balı çatmır. Orxan məyus olsa da, ruhdan düşmür və bir il sonra təkrar eyni addımları atır. Yenə də 2 bal ucbatından Orxan Cəmşid Naxçıvanski adına Hərbi Liseydə oxumaq arzusuna çata bilmir. X–XI sinifləri Şəki rayon Heydər Əliyev adına Kiş kənd tam orta məktəbində oxuyur. 2010-cu ildə məzun olur.

Bir insan vətənin keşiyini çəkmək üçün nə qədər səbirsiz olarmış. Orxanın səbirsizliklə gözlədiyi o gün 2 yanvar 2011-ci ildə çatır. Qusar rayonunda yerləşən N saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmət keçən qəhrəman 3 iyul 2013-cü ildə xidmətini başa vurur. Ancaq Orxan ən qısa zamanda yenidən hərbi forma geyinib vətən keşikçisi olmaqda qərarlı olur. Bu qərar Pərvanə ananı qorxudur. Çünki hələ Orxan hərbi xidmətdə olduğu zaman Pərvanə ana Orxanın şəhid olduğunu yuxuda görür. Həmin yuxunu və Pərvanə ananın duyğularını dinlədiyim kimi yazıram.

**Orxanı dünyaya bəxş edən Pərvanə ana:**

– Orxan hərbi xidmətdə olan zaman hər gecə onun necəliyini düşünərək yuxuya gedirdim. Bir gecə yuxuda gördüm ki, şiddətli müharibə gedir. Bir anda ortalıq toz-duman oldu. Böyük oğlum Vüsaldan Orxanın harda olduğunu soruşdum. Vüsal Orxanı qucağında gətirdi. Orxanın başı qardaşının qucağında düşmüşdü. Vüsalın qucağından Orxanı öz qucağıma götürmək istəyən an Orxan bir göyərçinə dönüb göyə uçdu. O an yuxudan sıçradım. O gündən sonra həmin yuxu mənə rahatlıq vermədi. Bilirdim ki, Orxanın qismətində şəhid olmaq var. Elə ona görə də hər dəfə Orxan hərbiyə getmək istədiyini deyəndə ona əngəl olmaq istəyirdim. Mən o zaman düşünmürdüm ki, bir şəhidin şəhadətə çatmasını Allah istəyirsə, bəndə ona əngəl ola bilməz.

Hər zaman Xocalı faciəsini mənə nümunə gətirərdi. O müsibətin təkrar yaşanmaması üçün mütləq hərbçi olacağını deyirdi. Mübariz İbrahimovun anasını örnək göstərirdi. Onun kimi dəyanətli olmağımı deyirdi. Hər dəfə o sözləri ilə məni susdururdu. Elə orduya yazılan zaman da mənə bənzər sözləri dedi. Xüsusi Təyinatlı Qüvvələrin zabiti olmaq istədiyi üçün gələcək zənglə mənim fikrimi öyrənəcək şəxsə razı olduğumu deməyimi qətiyyətlə dedi. O zəngin gəlməməsi üçün Allaha yalvardım. Bilə-bilə oğlumu o dönülməz yola göndərmək mənim üçün çox çətin idi. O zəng gəldi. Dərin bir köks ötürdüm və "Orxanın arzusu önündə acizəm"

dedim. Mən məcbur qalaraq oğlumun qərarı ilə razılaşdım. Çünki o, vətəni seçmişdi.

Orxan Hümmətov 2013-cü ilin noyabr ayında Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində 6 aylıq Gizirlik kursunu keçir. Xüsusi Təyinatlı Qüvvələrin giziri kimi Naftalan şəhərində yerləşən N saylı hərbi hissədə xidmətə başlayır. Qəlbindəki vətən sevgisi və düşmənə nifrəti onu mətin və dəyanətli bir hərbçi edir. Günü-gündən püxtələşən gizir komandirlərinin etibarını qazanır. Elə ona görə də hər zaman komandirləri ilə bərabər addımlayır. 2014-cü ilin avqust ayında düşmənin genişmiqyaslı təxribatlarının qarşısını alanlardan biri də Orxan olur. Həmin döyüşlər və Orxanın o döyüşlərdə göstərdiyi şücaətləri haqqında qəhrəmanımızın komandiri, şəhidlərin şahidi, canlı şəhidimiz, vətən oğlu Kamil Musəvi öz fikirlərini bölüşdü:

**Qazi, baş leytenant Kamil Musəvi:**

– Yüz illərə bərabər günlər keçirmişik Orxanla. Xidmət yollarımız kəsişdiyi gündən münasibətimiz yarandı. Tərtər rayonunda mən taqım komandiri idim. Orxan Hümmətov və Turan Məmmədov müavin idilər. Sonra Orxanla bərabər Xüsusi Təyinatlı Qüvvələrin kursuna getdik. O kursdan sonra yollarımız ayrıldı. Həmin vaxt Orxanın bəzi əşyaları məndə qaldı. Kursu bitirdikdən sonra mənə zəng edərək həmin əşyaları onun yerinə gələcək hərbçiyə verməyimi dedi. 2014-cü ilin Avqust döyüşləri baş verdi. Həmin döyüşlərdə bizim bölüklə bərabər Xüsusi Təyinatlı Qüvvələrin kəşfiyyat bölüyü də mübarizə aparırdı. O kəşfiyyatçılardan biri də Orxan idi. Həmin döyüşlərdə Raquf Orucov, Toğrul Məmmədov, Orxan Hümmətov kimi qəhrəmanlarla birlikdə düşmənə sinə gərdik. Hər şəhidimizin qanının qisası alındı. 2015-ci ildə mən şəhadətin bir addımlığından döndüm. Daha sonra Aprel döyüşləri baş verdi. Aprel döyüşlərində Raquf Orucov və Orxan Hümmətov eyni döyüşdə şəhid oldular. Toğrul Məmmədov isə Aprel döyüşlərinin canlı qəhrəmanı kimi döyüşü başa vursa da, həmin il iyulun 14-də canından çox sevdiyi Ağdam torpağında düşmən təxribatının qarşısını alarkən şəhid oldu. Bu vətən torpağının hər qarışından bir şəhidin nakam ömrü boylanır. Bu vətən bizə bütün şəhidlərimizin əmanətidir. Bu vətən bütün şəhidlərimizin tək arzusudur.

Orxan heç zaman yerində saymağı sevmir, hər zaman daha böyük addımlar atır. Bir hərbçi kimi vacib olan hər biliyə yiyələnməkdə qərarlı olur. Elə bu minvalla da Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində üç aylıq Komando kursunu keçir. XTQ-in Cəlilabad rayonunda yerləşən "Komandos" bölüyündə xidmət edir. Daha sonra Türkiyə Cümhuriyyətində də Kəşfiyyat və Dağçılıq təkmilləşdirmə kursunu keçir və Sertifikat alaraq başa vurur. Xidmətini Cəlilabad rayonunda davam etdirir.



Orxanın vətən sevgisi ətrafını da aydınladırdı. Qardaşı Vüsal Heydər Əliyev adına Aviasiya Akademiyasının Diplomatiya fakültəsini bitirdikdən sonra müəyyən səbəblərdən öz ixtisası üzrə işləyə bilmir. Orxan qardaşının da hərbçi olmağını çox istədiyi üçün Vüsal da müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kimi ordu sıralarına qoşulur. Ailənin hər iki övladı vətənin keşiyində dayanır.

Novruz bayramı ərəfəsində Pərvanə ana yenə bir yuxu görür. Yuxuda bir nurani qoca ona yaxınlaşaraq "Sizi böyük bir faciə gözləyir. Ağır zərbə alacaqsınız" deyir. Pərvanə ananın narahatlığı daha da artır.

2016-cı il martın 25-də Orxan evlərinə gəlir. Hər kəsin böyük, güclü gördüyü Orxan anası üçün elə illər öncəki körpə idi. Yenə də dizlərinin üstə oğlunu əzizləyir, oxşayır. Birdən Orxan anasını qucaqlayıb öpür. ***"Ana, boran olar, qar olar, yolumu azaram və ya nə isə olar. Sən mənim nişanələrimi bilirsən. Qolumda, sinəmdə, ayağımda nişanəm var. Məni o nişanələrdən tanıyarsan. İşdi o nişanələrimin izi qalmasa, sən məni qoxumdan tanıyarsan. Axı sən gözüyumulu da olsa, mənim qoxumu seçirsən".*** Bu sözləri duyan Pərvanə ana göz yaşlarına hakim ola bilmir. Anasının göz yaşlarını Orxan əli ilə silərək ***"Sənin göz yaşların üçün dünyanı dağıdaram. Sən ağlama heç vaxt. Qardaşımın toyunun da sevincini yaşa. İstəyirəm Vüsal xoşbəxt olsun"*** deyir. Üçgünlük məzuniyyəti bitən Orxan martın 27-də işinə dönür. Pərvanə ananın ürəyi bir an belə olsun rahatlıq tapmır.

Aprelin 1-də Vüsal atasının Orxana göndərdiyi pulu götürüb Orxana çatdırmalı idi. Ancaq o, atasına həyəcan siqnalının çalındığını və dərhal döyüşə getməli olduğu deyir. Atası Vüsalın döyüşdə olduğunu bilsə də, Orxanın döyüşdə olduğunu bilmir. Müharibənin başladığını eşidən atanın bir anda sanki beli bükülür. Evə gəlir və Orxana zəng edir. Orxan təlimdə olduğunu deyir. Ancaq həmin vaxt Orxan Talış kəndi istiqamətində mübarizə aparırmış. Aprelin 3-də axşam anası ilə danışanda Vüsalı soruşur. Vüsalın da döyüşdə olduğunu bilir. Anası ilə sağollaşdıqdan sonra Vüsala zəng edir. ***"Qardaş, özünü qoru. Elə et ata-anamız iki tabutun ortasında qalmasınlar. Haqqını halal et".*** Bu sözləri dedikdən sonra olanlar olur.

Erməni dilini bilən Orxan Aprel döyüşlərindən böyük şücaətlər göstərir. Son dəfə döyüşə girən zaman əl açıb Allahdan şəhid olmasını arzu edir. Allah sevgisi, dini inancları, imanı hər zamankı kimi yenə özünü bəlli edir. Döyüş vaxtı öz canını düşünmədən 30-dan çox yaralının və neçə-neçə şəhidin nəşinin düşmən əlinə düşməməsinin səbəbkarı olur. Bu gün həmin 30-dan çox yaralı Allahın və Orxanın sayəsində həyatdadırlar. Raquf Orucovun dəstəsində vuruşan Orxan üçün Raquf

Orucov kimi bir qəhrəmanın şəhid olması böyük bir itki idi. O, Raquf Orucovun nəşinin düşmən əlinə düşməməsi üçün bütün riskləri gözə alır. Bilir ki, o gediş son gedişi ola bilər. Ancaq bu onu qorxutmur. Sədaqəti ilə seçilən Orxan bir dəfə Elnur və başqa yaralıları çıxarıb gətirir və təkrar Raquf Orucovun nəşini götürməyə gedir. Lakin Raquf Orucovun nəşinə çatmadan düşmən atəşinə tuş gəlir. Elə həmin an qəhrəmancasına şəhid olur.

Aprelin 3-də xəbərlərdə üç hərbçimizin şəhid olduğu deyilir. Adlar çəkilən zaman televizorda problem olur. Ata-ana o şəhidlərin sırasında Orxanın da olduğunu bilmirlər. Artıq bu xəbər Şəkiyə yayılır. Heç kim də bu xəbəri ailəyə deyə bilmir. Pərvanə xanım darvazalarının önündə kəndin axundunu görür. Onsuz da narahat olan ürəyi daha çox narahat olur. Digər oğlu Vüsalın evini tikməklə məşğul olan həyat yoldaşına bu olanları deyir. Olanlar həm atanı, həm ananı narahat edir. Qonşuların şübhəli davranışları da gözlərindən yayınmır. Pərvanə ana məhəlləyə boylananda insan izdihamını görür. O an artıq canından can qopduğunu bilir. Ancaq kim? "Uşaqlar şəhid olub" cümləsini duyan ana "Vüsal" deyib fəğan edir. Axı ana Orxanın döyüşdə olduğunu bilmirdi. Az sonra isə Orxanın şəhid olduğunu öyrənir. Aprelin 4-ü gecə Orxanın nəşi el-obasına gətirilir. Pərvanə ana son dəfə oğlunu əzizləyir. Aprelin 24-də məzuniyyət götürüb qardaşı Vüsalın evini tikməyə gələcəyini deyən Orxanın tabutu üstə gəlir Vüsal. Neçə arzu ürəkdə qalır. Aprelin 5-də Orxan Şəki rayon Kiş kənd məzarlığında son mənzilə yola salınır. Pərvanə ananın illər öncə yuxuda gördüyü göyərçin kimi Orxanın ruhu göyə ucalır. Orxanın zəng musiqisi olan, ananın isə dinləyərkən göz yaşı tökdüyü "Göyərçin" mahnısında olduğu kimi...

Gizir Hümmətov Orxan Kazım oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Şücaətə görə" 3-cü dərəcəli medalı ilə təltif edilib.

Orxanın da valideynlərinin arzusu övladlarına toy etmək idi. Ancaq o arzu nakam qaldı. Anası Vüsalın toyunda Orxan üçün də xonça tutdu. Lakin... Bir zamanlar qardaşının toyunu etməyi arzu edən Orxanın adını Vüsal öz övladına əmanət edib. İndi Hümmətovlar ailəsində daha bir Orxan böyüyür. Əmisi kimi cəsur olacağına heç kim şübhə etmir. Çünki Orxan bir qəhrəmanın oğludur və bir qəhrəmanın adını daşıyır.



## ŞƏHİD ORXAN

Allah bu dünyadan alıb,
Səni arzuna yetirdi.
Nəfəs-nəfəs bitən ömrün,
Həzin-həzin qəm gətirdi.

Sevgin al rəngə boyadı,
Bu vətəni, bu torpağı.
Ümid-ümid qönçə açdı,
O baharda vətən bağı.

Sənin kimi cənnət qoxdu,
Açılan qönçə çiçəklər.
Yerdən göyə ucaldılar,
Şəhid doğulan mələklər.

Neçə şəhidin qanıyla,
Qüsl almışdı sənin cismin.
Qəlbində apardın, Orxan,
Sevdiyin gözəlin ismin.

Şəhidə və yaralıya,
Sipər etdin kürəyini.
Ömrünü də böldün, Şəhid,
Nəinki duz-çörəyini.

*16.02.2023*



**TAĞIYEV RAHİM
QARA OĞLU**

**GİZİR**

*(2016-cı il Aprel döyüşlərində yaralanmış, 10 iyulda şəhid olmuşdur.)*

## MƏZARINA ƏLİNİN CADARINDA TORPAQ APARAN RAHİM

*Ömür Allahın insana bəxşişidir. Hər insanın ömrü fərqli olur. O fərqliliyin təməli arzularla başlayır. Bəzi insanların arzuları o qədər ali olur ki, çatdıqları məqam da ali məqam olur. Hər insan ömrünü şərəfli yaşaya bilmir. Ancaq elə insanlar var ki, yaşadıqları ömürlə dərs verirlər. Heç bir çətinliyin kəsə bilmədiyi şərəf, qeyrət yolunun yolçularından biri də Rahim Tağıyevdir. Adı vətənlə qoşa çəkilən qəhrəman şəhid. Məzarına əlinin cadarında torpaq, məzarının üstünə isə bayraq götürən oğul.*

Həyatın hər çətinliyini görən Tağıyev Rahim Qara oğlu 10 noyabr 1979-cu ildə Şəki rayonunun Əliyar kəndində dünyaya göz açmışdır. Ailəsinin səkkiz övladından (beş qardaş, üç bacı) sonuncusu Rahim olmuşdu. 1985-ci ildə Şəki rayon Əliyar kənd natamam orta məktəbinə getmişdi. X–XI sinifləri isə Şəki rayon Aydınbulaq kənd tam orta məktəbində oxumuşdu. Bütün fənləri əla oxuyan Rahim ən çox tarix və riyaziyyatı sevmişdi. 1996-cı ildə məktəbi bitirmişdi.

Rahimin hərbçi ömrü 12 aprel 1998-ci ildə həqiqi hərbi xidmətə getməklə başlamışdı. 1999-cu ildə Zabit Heyətinin Təkmilləşdirmə kursu nəzdində Gizir hazırlama kursuna başlamış və tank komandiri hərbi ixtisasına yiyələnmişdi. 3 sentyabr 1999-cu ildə kursu uğurla başa vurmuşdu. Goranboy rayonunun Qızılhacılı kəndində yerləşən N saylı hərbi hissədə gizir kimi xidmətə başlamışdı.



Rahim Tağıyev 2000-ci ildə Vüsalə xanımla ailə qurur. Bir xanım üçün hərbçi ilə ailə qurmaq qərarını vermək çətin, məsuliyyətli və şərəflidir. Vüsalə xanım bu qərarı verərkən özü də bir hərbçi həyatı yaşayacağını bilirdi. 2001-ci ilin avqust ayında nikah masasına əyləşən Rahim və Vüsalə həyatın hər anında bir addımlayacaqlarına söz verirlər. Bu söz heç vaxt pozulmur.

Ailənin üç övladının ilki olan Ülkər 5 mart 2003-cü ildə Mingəçevir şəhərində dünyaya göz açır. Sonra Rahim ailəsini Gorana gətirir. Çətin həyat şərtləri ailənin daha da möhkəmlənməsinə səbəb olur. 24 yanvar 2005-ci ildə Nihat dünyaya göz açır. 8 oktyabr 2009-cu ildə isə ailənin sonbeşiyi Nicat dünyaya gəlir. Sevgi dolu ailə hər çətinliyin öhdəsindən birgə gəlir.

Rahim hər addımı düşünüb atardı. Onun hərbçi kimi göstərdiyi əzmkarlığı diqqətdən kənarda qalmırdı. Dəfələrlə Fəxri fərmanlara, diplomlara layiq görülən qəhrəman xidməti vəzifəsini icra edən zaman beş medalla təltif edilmişdi. (1991– 2001) – "Azərbaycan Silahlı Qüvvələrinin 10 illiyi" yubiley medalı, (1918– 2008) – "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı, (2009) – "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı, (1918–2013) – "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı, (2013) – "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalı Rahimin şəhadətindən öncə layiq görüldüyü medallardır.

Rahim Tağıyev haqqında danışmaq Vüsalə xanıma, dinləmək də mənə çətin idi. Dinlədiyim hər bir kəlmə bir həsrətin izahı idi.

**Rahim Tağıyevin həyat yoldaşı Vüsalə xanım:**

– Rahim dəfələrlə bizimlə vidalaşıb getmiş və geri dönmüşdü. 2014-cü il Avqust döyüşləri zamanı ikihəftəlik gedişinin dönüşü olmuşdu. Elə bilirdim hər dəfə dönəcək. Dəfələrlə müxtəlif xəsarətlər alsa da, o, işini sona qədər icra etməkdə qərarlı idi. Sanki tankı özü icad etmişdi. Sözün əsl mənasında bir tankçı idi.

2016-cı ildə Novruz bayramı Rahimlə keçən son bayramımız oldu. Martın 25-də evə gəldi. Birlikdə uşaqları gəzintiyə apardıq. O anları videoya çəkmək qərarına gəldim. Həmin vaxt Rahimə zəng gəldi. "Təcili gəl" sözlərini duyan Rahim ***"Getməliyəm"*** dedi. O anlar həmin son videoda öz əksini tapdı. İllər boyu Rahimi izləməyimiz və gözləməyimiz üçün...

26 apreldə zəng edib ***"Paltarlarımı hazırla, təlimə gedirəm"*** dedi. Son gedişi olduğunu sanki hiss edirdi. Hər dəfə Rahimi yola salanda cərgə ilə düzülürdük. Bu dəfə də eynisini etdik. Rahim ilk Nihatın boynunu qucaqladı. ***"Kişi, anan, bacın və qardaşın sənə əmanətdir"*** dedi. Bu sözləri eşidib çox pis olduq. Həmişə döndüyü kimi yenə də dönəcəyini dedim. Ancaq ürəyimdə qəribə bir hiss var idi. Son gediş olduğunu hiss edirdim.

Rahim hər zəngində bizi onsuz həyata hazırlayırdı. Son dəfə aprelin 1-də zəng edən zaman *"Evi idarə elə, bəlkə mən gəlmədim"* dedi. Nihat atasından gəlməyəcəyini öyrəndiyi zaman hönkür-hönkür ağladı. O gün atasına dərslərini yaxşı oxuyacağına söz verdi. O söz Nihatın andına çevrildi...

*"Mən bu günü gözləyirəm"* deyən Rahim Aprel döyüşlərində döyüşə ilk qatılanlardan biri olub. Döyüş yoldaşlarının "Sənin üç uşağın var, öndə getmə" sözlərinə məhəl qoymayan Rahim hər kəsdən öncə tanka atılıb. Talış kəndi istiqamətində mübarizlik simvoluna çevrilib. Düşmənin Ohanyan mifini darmadağın edib. Önündə gedən tank düşmən tərəfindən vurulsa da, yolundan dönməyib. Ölümün üzərinə şığıyıb. O ancaq irəli getməyi düşünüb. *"Müharibə olsa, məni gözləməyin"* deyən qəhrəman o döyüşlərdən dönüşünü şəhid kimi xəyal edirdi. Aprelin 2-də saat 15:00-da Talış kəndi istiqamətində Rahimin idarə etdiyi tankın yanına minamyot düşüb. Başından qəlpə yarası alaraq ağır yaralanan Rahimi silahdaşları dərhal həmin ərazidən uzaqlaşdırıblar. Tərtərdəki hospitala çatdırılan Rahimi sonra Gəncəyə aparırlar. Orada əməliyyat olunduqdan sonra təyyarə ilə Bakıya çatdırılır. Dəfələrlə əməliyyat olunan Rahim həyatda qalmaq üçün mücadilə edirdi.

Çox çabadan sonra həkimlərdən Rahimi görmək icazəsi aldım. Sevdiyimi elə gördüyümdə dünyam alt-üst oldu. Rahimin o durumda olduğuna inanmaq istəmədim. Çarəsizcə Rahimin sağalmasını gözləyirdim. Dəfələrlə Rahimi ziyarət etdim. Ziyarətlərin birində telefonda uşaqların şəklini görən Rahimin gözlərindən yaş gəldi və komaya düşdü. Ürəyim o an dayanacaq sandım. Son dəfə iyulun 5-də ziyarətində oldum. Əlimi ürəyinin üstə qoydum. Sanki ürəyi döyünməkdə çətinlik çəkirdi. Rahimi elə görmək çox ağır idi. Gözlərinə baxdım. Baxışları ilə sanki mənə vida etdi. Ürəyim yana-yana xəstəxanadan ayrıldım.

10 iyul 2016-cı ildə Rahim həyata əbədi gözlərini yumdu. 11-i səhər qonşu gəlinin qapımızda acizanə duruşu ilə dilə gətirdiyi "Rahim şəhid olub" sözləri ilə ikinci dəfə dünyam alt-üst oldu. Həmin gün Rahimi Mingəçevirdəki evimizə gətirdilər. Mən onun nəfəsi üstündə gəlişi üçün çox dua etdim. Ancaq Rahim nəfəsini vətənə verib gəldi. 11 iyulda Şəkidə doğulan, Talış kəndi uğrunda canını sipər edən Rahim Tağıyev Mingəçevir şəhər Şəhidlər xiyabanında torpağa tapşırıldı. Xoşbəxt həyatımın son nöqtəsi qoyuldu. Hər zaman həyatdan Rahimdən öncə köçmək istəyirdim. Onsuzluqla sınanmaq istəmirdim.

Rahimin tabutu üzərinə sərilən bayrağı atası Qara Tağıyevə təhvil verdiklərində Şəhid atasının beli büküldü. O, Rahimsiz dörd il ömür sürdü. Şəkər ana isə oğul tabutu görməyən analardandır. Rahimin ürəyi 2008-ci ildən anasızlığa tuş gəlmişdi.



Rahimdən sonra hər şeyin rəngi dəyişdi. Hər birimiz Rahimin arzuları gerçək olsun, ruhu şad olsun deyə çalışdıq. Ülkər atasına söz verdiyi kimi universitetə qəbul oldu. O gün də sevincimiz Rahimsiz sanki kəm qaldı. Hər dəfə göz yaşları ürəyinə axan Nihat da atasına verdiyi sözü tutdu. Nihat da universitetə qəbul oldu. Atası şəhid olduqdan sonra ilk dəfə o gün Nihat hönkürtü ilə ağladı. Nicat isə atasının həsrətini lap körpə yaşlarından çəkməyə başlayıb. (*Bu məlumatı alarkən anasının dediklərini dinləyən Nicatın göz yaşları ürəyimi kül etdi.*) Hər bayramda, hər özəl gündə yanağımızda iki damla göz yaşı, süfrəmizdə bir əlavə boşqab olur. Rahim hər zaman bizimlədir. Ruhunun varlığı, cisminin yoxluğu qədər gerçəkdir.

Gizir Tağıyev Rahim Qara oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin əmrinə əsasən şəhadətindən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif edilib.

## ŞƏHİD RAHİM

Sən min zəhmətlə dərdin azadlığın bəhrəsin,
Azadlığa qərq etdin vətənin dağ-dərəsin.
Rahim, illər uzunu xalq həsrətlə gözlədi,
Ürəkləri isidən o şanlı zəfər səsin.

Aprel döyüşlərində düşmən üstə yürüdün,
Həsrət çəkən torpağı sən bayrağa bürüdün.
İlk dəfə azad olan vətən torpaqlarına,
Qürurla nəzər salıb sonuncu dəfə gördün.

Sənin qismətin oldu hər zaman mücadilə,
Qazi kimi savaşdın düz üç ay ölüm ilə.
Qismətinə şəhadət yazılmışdı, qəhrəman,
Əbədi köç elədin cənnət adlanan yerə.

Şəhadət arzun idi, arzuna çatdın, Rahim,
Səni fərqləndirirdi qəlbdəki vətən sevgin.
Bir zaman bir ocağın övladı sayılırdın,
İndi şəhid oğlusan ulu xalqın, mərd elin.

***31.01.2023***





## CABBARZADƏ MƏMMƏDİYƏ MƏHƏMMƏD OĞLU

**GİZİR**

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## "ŞƏHİD OLUB QIZIMA QOVUŞACAĞAM"

*Bəzən insan ürəyi odsuz-ocaqsız alova qərq olmuş kimi yanar. Bir nakam arzunu dinləyən zaman, bir insanın çəkdiyi acıları duyan zaman, bir insanın alova qərq olan cisminin ağrısını hiss edən zaman sən də yanarsan. Bir insanın yaşayacağı ən böyük acını və ağrını yaşayan Məmmədiyənin yaşadıqlarını dinlədikcə ürəyim cayır-cayır yandı. Bəs Məmmədiyə nələr çəkdi? Bu sualın cavabı xəyallarımda durmadan canlanır. Cismi yanan körpə balasını öz əlləri ilə torpağa dəfn edən bir atanın cismi də ürəyi kimi yandı. Hər zaman* ***"Mən şəhid olub cənnətdə qızıma qovuşacağam"*** *deyən Məmmədiyənin arzusunu Allah eşitdi.*

Allah illər öncə Məhəmmədlə Zöhrə xanımın övlad arzusunu gerçək etmişdi. 10 dekabr 1986-cı ildə Şəki şəhərində yaşayan ailənin oğul övladı dünyaya gəlmişdi. Cabbarzadə Məmmədiyə Məhəmməd oğlundan sonra bacısı Tünzalə doğulmuşdu. Valideynləri iki övladı nəvazişlə böyütmüşdülər.

Məmmədiyənin dili bir qədər gec açıldığı üçün məktəbə də gec getmişdi. 1994-cü ildə Şəki şəhər 2 saylı tam orta məktəbə qədəm qoyan Məmmədiyə ailəsinin arzusunu çin etmişdi. Hər ata-ananın arzusudur ki, oğul övladını məktəbli kimi, məzun kimi, əsgər kimi görsün. Məmmədiyənin valideynləri də övladlarını şəhid kimi görmək istəməsələr də, oğullarını vətənə qurban etdilər.

Məmmədiyə IV sinfi bitirdikdən sonra ailəsi ilə Bakı şəhərinə köçüb və təhsilini Mərdəkan qəsəbəsi 18 nömrəli tam orta məktəbdə davam etdirib. 2005-ci ildə məktəbi bitirib. 2006-cı ilin iyul ayında müddətli həqiqi hərbi xidmətə yollanıb. Naxçıvan Muxtar Respublikasında xidmət edib. 2018-ci ilin yanvar ayında xidmətini başa vurub. Bir müddət mühafizəçi işləyib.

Məmmədiyə Cabbarzadənin ən böyük arzusu bir hərbçi kimi vətənə xidmət etmək olub. 2014-cü ilin mart ayında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Gizirlik kursunu uğurla başa vuran vətən oğlu həmin il mayın 14-də Qaradağ rayonu ərazisində yerləşən N saylı hərbi hissədə Döyüş Maşın Komandiri (DMK) manqa komandiri kimi xidmətə başlayıb. PDM 3 maşınının komandiri olub. 2014-cü ilin noyabr ayından xidmətinin Beyləqan rayonunun Bolsulu qəsəbəsində davam etdirib. Taqım komandirinin 1-ci müavini-döyüş maşın komandiri vəzifəsini icra edib. Aprel döyüşləri zamanı ön cəbhəyə atılmaq üçün hazır olub. Ancaq onun qismətində II Qarabağ müharibəsində iştirak etmək var imiş.

Məmmədiyə hərbi xidməti zamanı, 26 iyun 2018-ci ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi" yubiley medalı və fəxri fərmanlarla təltif edilib.

"Gözlər qəlbin aynasıdır" deyirlər. İlk baxışda qəlblərini duyan Məmmədiyə və Aytəkin sevgilərini tapdıqlarına əmin olur və bir həftə içində nişanlanırlar. 7 iyun 2015-ci ildə bu sevginin nəticəsi nikah olur. Ailə qurduqdan sonra Aytəkin xanım yarının yanında olmaq üçün Beyləqan rayonuna gedir. Xoşbəxt bir ailə xəyal edən sevənlər həyatın sərt sınağı ilə üzləşirlər. Ancaq xoş gündə və pis gündə əllərini buraxmayacaqlarına söz verən sevənlər bala dərdini də birlikdə ovudurlar.

18 mart 2016-cı ildə ailənin ilk övladı Zəhra gəlişi ilə bayram sevincinə sevinc qatmışdı. Kim biləydi ki, cəmi bir il sonra o sevinc yerini qəmlə dəyişəcək. Körpə Zəhranın cismi oyuncaq sandığı çaydandan tökülən qaynar su ilə yanmış, on dördüncü gün həyat mücadiləsi sona çatmışdır. Bir yaşı tamam olmağa cəmi səkkiz gün qalan körpə günahsız mələk kimi cənnətə üz tutmuşdur. Məmmədiyə körpə balasını torpağa əmanət edəndə ***"Səni tək qoymayacağam. Şəhid olub yanına gələcəyəm"*** demişdi.

2019-cu il iyunun 27-də ata-anasının həsrətlə gözlədikləri Əli dünyaya göz açır. Vaxtından öncə dünyaya gələn körpənin yaşaması üçün həkimlərin naümid olması növbəti dəfə Məmmədiyə və yoldaşını yıxır. Ancaq onlar Allahdan ümidlərini üzmürlər. Allah Əlini yaşadır. Ancaq...

**Məmmədiyə Cabbarzadənin həyat yoldaşı Aytəkin xanım:**

– Məmmədiyə sentyabrın 26-dan 27-nə keçən gecə evə gəldi. Formasını dəyişmədən Əlini yatdığı yerdə qucaqladı. Sanki oğlunun qoxusu üzərinə hopsun deyə bunu edirdi. ***"Sən Allaha, oğlum sənə əmanətimdir. Atana demişəm gəlib sizi aparacaq. Qətiyyən burada qalmayın. Şəkiyə gedin"*** deyib gecə ilə yola çıxdı. Cəmi bir neçə saat sonra atılan topun, mərminin səsi Beyləqanda eşidilməyə başladı. Düşmənin hədəf aldığı yerlərdən biri də Beyləqan rayonu idi. Neçə günahsız dinc sakin düşmənin hədəfinə çevrildi. Müharibə başlayan ilk andan Məmmədiyəyə zəng etdim. O sadəcə ***"Əlini götür çıx"*** deyə bildi və xətt kəsildi.



Müharibənin ilk qurbanlarından biri olur Məmmədiyə. 27 sentyabrda Füzuli rayonu istiqamətində ilk səddi yaran zaman içərisində olduğu BTR vurulur. Cismi alova qərq olan Məmmədiyə şəhadətə ucalır.

Məmmədiyə ***"Bu bayrağı Şuşaya sancacağam"*** deyib qürurla daşıyırdı üzərindəki bayrağı. Elə həmin bayraqla bərabər alova qərq olur. Bayrağın bir hissəsi yansa da, digər hissəsi yanmır.

Sentyabrın 27-də günorta saatlarında Beyləqan rayonuna ilk şəhid gəlir. Həmin an Aytəkin xanım elə bil oda atılıbmış kimi hiss edir. Bir anda gözlərinin önündə Məmmədiyənin tabutu canlanır. Məmmədiyənin toy karvanlarına vurmaq üçün aldığı bayrağı göstərib ***"Bu bayrağı balkondan asarsan"*** sözlərini xatırlayan Aytəkin xanım o addımı ata bilmir. Ürəyində yarının şəhid olduğunu hiss etsə də, düşüncəsindən uzaqlaşdırmağa çalışır.

Məmmədiyənin qaynı Anar Məhərrəmzadə də həmin döyüşlərdə iştirak edib və yaralanıb. Hər an şəhid xəbəri gələcəyini gözləyən Aytəkin xanım oktyabrın 16-da Məmmədiyənin komandirinə zəng edir. "Siz şəhidimizin yoldaşısınız?" sualını eşidən Aytəkin xanım danışan şəxsin ağlaması ilə inanmaq istəmədiyi gerçəklə üz-üzə qalır.

Müharibənin ilk günü şəhid olan Məmmədiyənin həm neytralda qalan nəşini götürmək, həm də DNT analizinin cavabını gözləmək zaman alıb. Oktyabrın 23-də Məhəmməd kişi ilə Zöhrə xanım da şəhid tabutu qarşılayan ata-analardan oldular. Son dəfə yarına vida deyən Aytəkin xanım körpə Əlini bağrına basıb dik durmağa çalışdı. Şəhidin müqəddəs nəşi 23 oktyabrda Şəki şəhər Çölyolu kənd məzarlığında arzuladığı kimi qızı Zəhranın yanında torpağa tapşırılır. Qızının cənnətinə tələsən şəhidi yəqin ki, qızı qarşılayıb.

Şəhidimizin yeganə əmanəti Əli bala körpə cismi ilə böyük bir mücadilə aparır. Serebral iflic olan Əlinin arzusu bir gün özü yeriyərək atasının məzarı üstə getməkdir. *(Bəzi arzular ürəyi alova qərq edir.)*

Gizir Cabbarzadə Məmmədiyə Məhəmməd oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Cəsur döyüşçü" medalı və "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilib.

Əliyar kəndində şəhidin adına bulaq inşa edilib.

## ŞƏHİD MƏMMƏDİYƏ

Qəlbini odladı bala həsrəti,
Onun cənnətinə yaman tələsdin.
Körpə Zəhraların qisasın alıb,
Düşmənin ayağın vətəndən kəsdin.

Yanan qəlbin kimi cismin də yandı,
Sənsizlik qor kimi qəlbi dağladı.
Cənnətə şəhidtək çatdığın zaman,
Məmmədiyə, Zəhra ilk qucaqladı?

Şəhidlik arzuna çatdın, qəhrəman,
Nakam arzuların daşa yazıldı.
Vətəndə atasız qalan Əlinin,
Atalı xəyalı yaman sozaldı.

Sən haqq savaşının ilk anlarında,
Azadlıq yolunda şam kimi yandın.
Səni qorxutmadı nə top, nə tüfəng,
Düşmənin önündə məğrur dayandın.

Şuşaya sancmaqçün aldığın bayraq,
Atəşə qərq oldu səninlə birgə.
Həmin o bayraqdan qalan parçatək,
Ümidlər oldular lap tikə-tikə.

***06.02.2023***





## MƏMMƏDOV İBRAHİM NAKAM OĞLU

**GİZİR**

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## "BURA VƏTƏNDİR!"

*Vətən oğulların ana kimi sevdiyi, bəzi anaların isə oğul kimi sevdiyi müqəddəs yerdir. Dünyaya göz açdığımız ilk ocaqdan, ilk qədəm qoyduğumuz torpaqdan başlayır vətən. Uşaq xəyallarımızda ucsuz-bucaqsız görünən vətənə sevgimiz də zaman keçdikcə qəlbimizdə böyüyür. "Bura Vətəndir!" deyən zaman vətənin bir hissəsinin düşmən tapdağı altında qalmasının acısı ilə yaşayan hər kəs bir gün o torpaqlara qədəm qoyub "Bura Vətəndir!" demək arzusu ilə yaşayır. Kimi o arzu ilə yaşlanır, kimi isə yaşayır. Yaşlanmadan şəhid olub ürəklərdə yaşayan İbrahim də Qarabağda **"Bura Vətəndir!"** deyən qəhrəmanlardan biridir.*

Məmmədov İbrahim Nakam oğlu 3 aprel 1985-ci ildə Şəki şəhərində dünyaya göz açır. Ailəsinin ilk övladı İbrahim olur. Nakam və Mətanət Məmmədovlar həm İbrahimi, həm də kiçik oğulları Fuadı sevgi ilə böyüdürlər.

Zamanın böyütdüyü İbrahim 1991-ci ildə Şəki şəhər 20 N-li tam orta məktəbə qədəm qoyur. Ən çox tarix fənninə marağı olan İbrahim böyüyüb özü tarix yazır. On birillik təhsilini uğurla başa vurduqdan sonra 2003-cü ildə həqiqi hərbi xidmətə yollanır. Xüsusi Təyinatlı Qüvvələrin Xızı rayonunda yerləşən N saylı hərbi hissəsində Yaşma dəstəsində xidmət edir. Adı düşmənin lərzəyə salan Yaşmanın tərkibində xidmət etməyi hər əsgər və zabit bacarmır. İbrahim isə qorxusuz biri olduğu üçün bütün çətinliyin öhdəsindən gəlir. 2004-cü ildə xidmətini başa vursa

da, o hərbçi kimi fəaliyyətini davam etdirməkdə qərarlı olur. Xüsusi Təyinatlı Qüvvələrin altıaylıq kursunu uğurla keçdikdən sonra həmin hərbi hissədə gizir kimi xidmət edir. "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı ilə təltif edilən hərbçilərdən biri də İbrahim olur.

İbrahim Məmmədov bir hərbçi kimi bir çox kursları uğurla başa vurur. 1 iyun 2010-cu ildə Xüsusi Təyinatlı Qüvvələrin Tədris Mərkəzində "Daş Təlimatçısı" kursuna daxil olur və biraylıq kursu sertifikat alaraq başa vurur. Həmin ilin 27 sentyabrından 3 oktyabrına qədər Türkiyə Cümhuriyyətinin Ankara şəhərində keçirilən "Kafkas Kartalı 2010" Birleşik Özel Kuvvet Egitimi və Tatbikatında iştirak edir. 2013-cü ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı ilə təltif edilir. 2015-ci il 26 iyunda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 97-ci ildönümü ilə əlaqədar döyüş hazırlığında yüksək nailiyyətlər əldə etdiyinə və nizam-intizamı ilə seçildiyinə görə Fəxri fərmanla təltif olunur. 2012-ci ildən 2016-cı ilə qədər 052-nin XTQ-in komandanlığının tabeçiliyində olan N sayılı hərbi hissəyə gələn döyüş tapşırıqlarının hamısında hücum qrupunda iştirak edir. Dəfələrlə beynəlxalq yarışların Fəxri fərman və diplomları ilə təltif edilir.

İbrahim 2016-cı ildə baş verən Aprel döyüşlərinin qəhrəmanlarından biridir. Həmin vaxt döyüşlərdə olduğunu ailəsindən gizlədir. O döyüşlərdə həm qalibiyyət qazanılır, həm də itkilər olur. Aprel döyüşləri zamanı Şəki torpağı da şəhid oğullarını bağrına basır. İbrahimlə eyni hərbi hissədə silahdaş, sirdaş olan Elnur İsgəndərovun şəhid olması İbrahimi sarsıdır. Dostunun dəfnində iştirak edən İbrahim o gün qisas andını təzələyir.

Vətənə bu qədər töhfə verən İbrahim yaxşı hərbçi olmaqla yanaşı, bir də yaxşı övlad, yaxşı ailə başçısı idi. 2008-ci ildə bir göz qırpımında Aynur xanıma sevdalanan İbrahim 26 martda yar evinə elçilərini göndərir. Həmin il dekabrın 7-də bu sevgi nikahla daha da möhkəmlənir. 2010-cu ildə ailənin Elvin adlı ilk övladı dünyaya gəlir.

İbrahim anasına çox bağlı övlad olub. İnsan çox sevdikləri ilə sınanar. 2012-ci ilin oktyabrında Mətanət xanımın ürəyi yaşamaq üçün mübarizəni dayandırır. İbrahim üçün anasını itirmək çox ağır olur. O anasının adını cəmi iki ay sonra doğulan qızına əmanət edir. Qızını həm ana kimi, həm də övlad kimi bağrına basır. Qızı Mətanət İbrahimin dünyasının fərqli və bənzərsiz nöqtəsi olur.

**Şəhid yarı Aynur xanım İbrahimin son vidasını dilə gətirdi:**

– Bəzən zaman bir göz qırpımında uçur, bəzən isə keçmək bilmir. 25 sentyabrda İbrahim son dəfə evinə gəldiyində bir gün sanki saniyə kimi ötdü. Heç vaxt İbrahimin boynunda görmədiyim qəribə bir əşya çəkdi diqqətimi. Təəccüblə nə olduğunu soruşduğumda İbrahim bilmədən *"Tapılmağımız üçün adımız var içində"* dedi. Bu sözlə elə bil gözlərimə zülmət çökdü. İbrahim pis olduğumu görüb tez sözünü dəyişdi. İbrahim şəhid olduqdan sonra gələn əşyalarının içində boynundan asdığı həmin adı da var idi.



26 sentyabrda bizi Allaha əmanət edib son yolçuluğuna çıxdı. Mən də yarımı Allaha əmanət etdim. Könül yarama çevrilməsin deyə dua etdim...

İbrahim Füzulidən başlamışdı döyüşlərə. Cəbrayıldan zəng edib ilk azadlıq sevincini bölüşdü. Mənə dedi: ***"Sənə kim mənim şəhid olduğumu desə inanma. Bircə televiziyada görsən inanarsan".*** Televiziyada Füzuli və Hadrutda bayraq ucaldılanda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə həmin xəbəri məruzə edənlər sırasında İbrahimi gördüyümdə göz yaşlarıma hakim ola bilmədim. Bilirdim ki, o azadlıq asan başa gəlməyib.

İbrahim Xüsusi Təyinatlı Qüvvələrin kəşfiyyatçısı olduğu üçün ən öndə gedənlərin birincilərindən olub. Xocavənd, Kəlbəcər və Şuşaya kəşfiyyatçı kimi gedib və lazım olan bütün məlumatları əldə edib. Silahdaşları ona "Canavar" ləqəbini vermişdilər. İbrahim həqiqətən də qorxu bilməz və yolundan dönməz idi. *"Xocalının qisasını almadan son nəfəsimi verməyəm"* deyən İbrahim 25 oktyabrda Qırmızı Bazar istiqamətində boynundan snayper atəşinə tuş gəlib. Şah damarından vurulduğu üçün elə o an da son nəfəsini verib. Ancaq Xocalının qisasını aldıqdan sonra son nəfəsini verib.

Oktyabrın 19-da son dəfə danışdığımız zaman *"Mən gələndə bayraqları asarsınız"* demişdi İbrahim. Altı gün idi ondan zəng gəlmirdi. Artıq nələrinsə olduğu düşüncəsi beynimi didib parçalayırdı. Oktyabrın 25-də axşam ilk olaraq İbrahimin yaralandığı xəbərini aldım. Sonra isə o xəbər...

Heç bilmirəm Sumqayıtdan Şəkiyə necə getdim. Sanki saatlar deyil günlərlə yol getdim. Həyətə çatanda asılan bayraqları gördüm. O an İbrahimin dediyi sözlər qulaqlarımda əks-səda saldı. Onun arzuladığı kimi bayraqlar asılmışdı. Bəs bizim arzular?

Oktyabrın 26-da son dəfə İbrahimi deyil tabutunu qarşıladıq. O an gözüm İbrahimin anası Mətanət ananı axtardı. Heç kim İbrahimə ana ola bilmirdi. Bəlkə də, Allah Mətanət anaya dözə bilməyəcəyi dərdi verməmək üçün daha tez əbədiyyətə aparmışdı. Cəmi 10 dəqiqə İbrahimin tabutunu oxşaya bildik. Qızım Mətanəti atasının hərbi formada əbədi yuxuya getdiyinə inandırmağa çalışdım. Elvin isə o gün o qədər ağır bir yük götürdü ki, sanki bir anda qocaldı. Axı Elvinin atasının məzarı önündə bayraq təhvil alan yaşı deyildi...

Əvvəllər Şəki şəhər Şəhidlər xiyabanının yanından keçərkən bir anlıq ayaq saxlayıb özümü o şəhid doğmalarının yerinə qoyardım. Bəzən məzar başında ağlayan körpələrin, yarların, anaların göz yaşlarına şahid olardım. İndi isə Şəki şəhər II Şəhidlər xiyabanına yarımın daş evinə gedirmiş kimi gedirəm. Daha ağlayanları izləmirəm, həmin o anları övladlarımla bərabər yaşayıram.

İbrahimin özü getdi, izi isə əbədi qalacaq. Ömrünün 18 ilini Xüsusi Təyinatlı Qüvvələrin kəşfiyyatçısı kimi yaşayan qəhrəman gələcək nəsillərə qorxmazlığı, şücaəti, dəyanəti və vətənə sədaqəti miras qoydu.

Gizir Məmmədov İbrahim Nakam oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda" medalı, "İgidliyə görə" medalı, "Füzulinin azad olunmasına görə" medalı, "Xocavəndin azad olunmasına görə" medalı, "Kəlbəcərin azad olunmasına görə" medalı, "Şuşanın azad olunmasına görə" medalı və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib.

Şəhidlərin adları əbədi olaraq yaşayacaq. O adları yaşatmaq üçün də bir çox addımlar atılır. Qışlaq kəndi ərazisində şəhidimizin xatirəsinə "İbrahim bulağı" tikilib.



## ŞƏHİD İBRAHİM

İllərlə dustaq oldu yurd düşmən qəfəsində,
Duyuldu İbrahimin həsrəti kəlməsindən.
"Bura Vətəndir" dedi sonuncu nəfəsində,
Doya-doya qoxladı azad yurdun qoxusun
Onun arzusu idi Zəfər marşın oxusun.

Arzusu gerçək oldu Hadrutda, Füzulidə,
Azadlıq müjdəsini İbrahim dedi dildə.
İllərlə həsrət, kədər hissi olan bir eldə,
Azadlığın sevinci toxundu hər ürəyə
İgid, ərən oğullar yetişdilər köməyə.

İbrahim sipər etdi cismini düşmənlərə,
Azadlıq nurun saçdı Şuşaya, Kəlbəcərə.
Xocavənddə can verdi, adı düşdü dillərə,
Azad olan torpaqdan şəhid ruhu ucaldı
Vətən olan oğulun adı tarixdə qaldı.

Onun qəhrəman adı fəxarətdi, qürurdu,
Elvin əmanət bilir atasından bu yurdu.
Mətanətin qəlbinə ata həsrəti doldu,
O həsrətə bir əlac tapmır Şəhidin yarı
Qəfil çovğuna düşdü onun yazı-baharı.

*31.01.2023*



KAMALLI KAMAL
VİLAYƏT OĞLU

GİZİR

*(2021-ci ildə sülh dövründə şəhid olmuşdur.)*

## ÖZÜNÜ QURBAN DEYƏN KAMAL

*Hər insan canını qurban edəcək qədər böyük ürək sahibi olmur. Doğmalarının canı yanmasın deyə cavan yaşda canından keçməyə hazır olmaq hər insana məxsus hisslər olmur. Elə hər insanın da qismətinə şəhid olmaq yazılmır. Ancaq Kamalın qismətində şəhid olmaq yazılmışdı. Vətən müharibəsində ən qanlı döyüşlərin getdiyi Kəlbəcərdən sağ qayıdan Kamal qısa müddət sonra şəhadətə ucalır. Ömrü 12 yanvar 1994-cü ildə Ağdərə istiqamətində şəhid olan dayısı Cəlilov İlyas Cəlal oğlunun ömrü kimi cəmi 25 il olur. Hər kəsin İlyasa bənzətdiyi Kamal İlyasın qisasını düşməndən alır. Heç kimin gözləmədiyi vaxtda o da cənnətə şəhid kimi üz tutur.*

16 noyabr 1995-ci ildə Kamallı Kamal Vilayət oğlu Şəki rayonunun Şəki kəndində dünyaya göz açanda ailəsi bir il idi ki, şəhid dərdi çəkirdi. Ağlı kəsən gündən şəhid həsrətini anasının gözlərindən oxuyan Kamalın baxışlarına yansımışdı o həsrət. Dörd övladlı ailədə Turaldan, Turanədən, Tubadan sonra dünyaya gələn Kamal ailənin ən istəklisi, ən mehribanı olmuşdur. Babasının adını daşıyan Kamal atasına həm övlad, həm də ata kimi əziz olmuşdur. Vətəni sevən dörd övlad valideynlərinin ən böyük sərvətləri idi. Onlar bilməzdilər ki, övlad adlı tacın ən dəyərli qaşını itirəcəklər.



Kamal 2001-ci ildə Şəki rayon Əyyub Namazov adına Şəki kənd tam orta məktəbdə təhsil almağa başlayır. Bir şəhidin adını daşıyan məktəbdə təhsil almaq onun şəhid adlı həsrətini, düşmənə nifrətini bir qədər də artırır. Uşaqlıqdan hərbçi olacağını deyən Kamal IX sinfi bitirdikdən sonra Cəmşid Naxçıvanski adına Hərbi Liseyə sənəd verir. Lakin üç balı çatmadığı üçün qəbul ola bilmir. Zabit olmasa da, onun alın yazısında şəhid olmaq varmış. 2012-ci ildə məktəbi bitirir.

Vətənini sevən hər bir gənc oğlan vətənə xidmət edəcəyi günü səbirsizliklə gözləyir. Kamal üçün həmin məqam 2013-cü ildə çatır. Cəlilabad rayonunda Sərhəd Qoşunlarının əsgəri kimi 1 il 6 ay xidmət edən Kamal xidmətini uğurla başa vurduqdan sonra hərbi sahədə qalmaq istəsə də, müəyyən səbəblərdən qala bilmir. Ürəyini vətən səngərində qoyub evinə dönür. Rusiyada, Dağıstanda, Bakıda, Gəncədə müxtəlif işlərdə işləsə də, rahatlıq tapmır. Çünki onun ürəyi ancaq vətən səngərində rahatlıq tapırdı. Elə ona görə də 2020-ci il avqust ayının sonlarında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kimi ordu sıralarına qoşulur. Bacısı Tubanın həyat yoldaşı 25 il hərbçi həyatı yaşayan Hüseynov Elməddin Xanəhməd oğlu ilə qardaşdan yaxın olan Kamal həm də silahdaş olur. Kamal çox qısa zaman öncə ordu sıralarına qoşulmağına baxmayaraq Vətən müharibəsi başlayan ilk gündən Daşkəsən, Kəlbəcər istiqamətində mübarizəyə başlayır. Döyüşlərdə idarəetdiyi maşınla döyüş yoldaşlarına silah və qida təminatı arxasınca gedən Kamal geri döndüyü zaman silahdaşlarının şəhid olduğunu görür. Kəlbəcər dağlarına daman hər damla şəhid qanının intiqam andını içir. ***"Bu dəfə öldü var, döndü yoxdur. Nə olur olsun, qarşımızdakı kim olur olsun, qalibiyyət bizim olacaq. Biz bu torpaqları azad edəcəyik"*** deyir. Həmin vaxt yeznəsi Elməddin Hüseynov da Kəlbəcər rayonu istiqamətində düşmənlə mübarizə aparır. Bir gün öncə görüşdükləri zaman qardaşı Eltonun və yarı Adilin tabutunu daşıyan Nargül xanımın dərdini dilə gətirirlər. ***"Biz şəhid olsaq, eynisini Banu da yaşayar"*** deyirlər. Kamal Elməddinə ***"Sənin ailən var, mən subayam. Mən özümü vətənə qurban dediyim kimi, sənə də qurban deyirəm. Nə olur mənə olsun. Sən ailənin yanına sağ-salamat qayıt"*** deyir. O görüşün ertəsi gün Elməddin olan post düşmən tərəfdən vurulur. Üç gün Elməddindən bir xəbər almaq mümkün olmur. Gecə-gündüz çətin relyef şəraitində düşmənlə mübarizə aparan Kamal çox qısa müddətlik istirahət zamanı bir anlıq yuxulayır. O an yuxuda Elməddinin şəhid olduğunu görür. Yuxudan sıçrayır və yenə özünü Elməddinə qurban deyir. Üç gün sonra Elməddinin sağ olduğu xəbəri gəlir. Həm Elməddin, həm də Kamal Vətən müharibəsində qazanılan qələbənin memarlarından biri kimi sağ-salamat dönürlər. Ürəklərindəki şəhid dərdi sağalmaz olur. Kamal silahdaş-

larının itkisi ilə barışa bilmir. Son ana qədər şəhid olan dostu Elgünün telefonuna zəng edir. İnanmır ki, o zəng əbədi olaraq cavabsız qalar.

Müharibə bitdikdən sonra Kamallı Kamal Vilayət oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilir. Döyüşdə göstərdiyi şücaətlərə görə ona gizir hərbi rütbəsi verilir. 2021-ci ilin yanvar ayında Sərhəd Qoşunlarının Laçın rayonundakı N saylı hərbi hissəsində xidmətini davam etdirir. İllər sonra düşmənin pəncəsindən alınan, ancaq düşmənin nəfsini hələ də çəkmədiyi Laçında xidmət etmək olduqca məsuliyyətli idi. Vətən torpağının həsrətinin bitdiyini görmək hər bir azərbaycanlı kimi Kamalın da ən böyük xoşbəxtliyi idi.

Kamal son dəfə 2021-ci ilin may ayında 20 günlük məzuniyyətə gəlir. Həmin vaxt arzularını dilə gətirir. Ailə quracağı qızı tapdığını deyir. Atasından payıza qədər evi təmir etdirməsini xahiş edir. Çünki payızda subaylığın daşını atmaq fikrində idi. Ancaq bütün bu arzuların cəmi 16 gün ömrü olur. Məzuniyyətdən döndükdən cəmi 16 gün sonra Kamal şəhadətə ucalır.

16 iyun 2021-ci ildə Laçın rayonunun Cicimli kəndi istiqamətində gizir Kamallı Kamal Vilayət oğlu və leytenant Nəsirov Elməddin Süleyman oğlu döyüş tapşırığını yerinə yetirərkən idarə etdikləri maşında sıldırım qayadan aşırlar. Həmin zaman Elməddin başı üstə suya düşür. Kamal isə özündə olur. Elməddini xilas etməyə çalışır. Daxilən zədə aldığından xəbərsiz olan Kamal dostunu çıxarmağa çalışdığı zaman güc sərf etdikcə daxili qanaxması bir qədər də artır. Uçurumda olduqları üçün telefon işləmədiyi səbəbindən kiməsə zəng edib xəbər deyə bilmir. Qəzanın olduğu yer də görünməz olur. Kamal artıq get-gedə gücünün tükəndiyini hiss edir. Telefonunu, şəxsi əşyalarını yanına qoyaraq çaya uzanır ki, soyuq su qanaxmasını ləngitsin. Bir kömək gələcəyinə ümid edərək yavaş-yavaş ölümünün yaxınlaşdığını hiss edir. *(Bir insanın son anlarını bilərək yaşamasını yazmaqda acizəm. Kim bilir gözlərinin önündə nələr canlandı? Kim bilir o dağlara, daşlara hansı arzunu dedin? Ah Kamal...)* Hadisədən xəbər tutan silahdaşları özlərini hadisə yerinə çatdırmağa çalışırlar. Yolda onlar da qəzaya uğrayırlar və yaralanırlar. Bu səbəbdən hadisə yerinə üç saat sonra çatmaq mümkün olur. Artıq gec olur. Kamalın cismi hələ soyumasa da, son nəfəsini verdiyini görürlər. Elməddin və Kamalın nəşini götürmək mümkün olsa da, hələ də o maşın hadisə yerində qalır. O qədər çətin bir şəraitdə son nəfəsini verib bu iki qəhrəman.

İyunun 16-da axşamüstü Vilayət kişiyə zəng gəlir. "Oğlunuz şəhid olub ağsaqqal, nəşini gətiririk" deyiblər. Tuba Turanəyə zəng edib "Kamal" deyib. Turanə "Kamal yaralanıb?" sualı ilə duymaq istəmədiyi xəbərdən uzaqlaşmaq istəyib. Ancaq...



Heç kim Kamalın şəhid olduğuna inana bilməyib. Heç komandiri olan general belə buna inanmayıb. Çünki Kamal onun üçün əvəzsiz, güvəndiyi bir insan olub. Ona görə də Kamalı son dəfə yola salmağa özü də gəlib. Qubadlı yolunda hər kəs Kamalın gəlişini gözləyib. Öncə Füzuli rayonuna aparılıb. Qardaşı Tural qardaşını son dəfə görüb. Eyni şəhid dayısı İlyasın gicgahındakı kimi onun da cüzi bir cızığı olub. Çöhrəsində gülüşü donan Kamalı sanki yuxuya gedibmiş kimi görən Tural onu qucaqlayıb. Bəlkə, oyana deyə köksünə sıxıb. Ancaq Kamalın əbədi yuxusunu bölə bilməyib. Həmin gecə Kamalın nəşini Şəki rayonuna gətiriblər. 17 iyunda səhər ata ocağına gətirilib. Qısa müddət sonra Şəki kənd məzarlığının 8-ci şəhidi olaraq torpağa tapşırılıb.

Gizir Kamallı Kamal Vilayət oğlu Ali Baş Komandan cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

Laçın rayonunda Elməddin və Kamalın şəhid olduğu istiqamətdə hərbçi yoldaşları hər iki şəhidin adına bulaq inşa etdiriblər. Bir zamanlar Kamalın yaşadığı küçə indi Kamalın adını daşıyır. Rəssam Tural Səlimzadə kəndin mərkəzində iki dünyanın ayrılmazı olan iki dostun rəsmini çəkib. Şəhidlərimizin adları yaşadıqca gələcək nəsillər vətəni ölümünə sevəcəklər. Çünki şəhid olduqda ölümsüz olduqlarını dərk edəcəklər.

## ŞƏHİD KAMAL

Sən qanlı savaşdan geri dönsən də,
Şəhidlik alnının yazısı oldu.
Ömrü ömrün kimi nakam arzular,
Bir qızmar yay günü əbədi soldu.

Kəlbəcər dağları sənin əzminin,
Şahidi sayılır, qəhrəman Kamal.
Qətiyyətlə dedin sən o savaşda,
"Bitəcək bu xalqın çəkdiyi məlal!"

Özün öz canını bir qurban dedin,
Sonunda qurbanı oldun vətənin.
Laçın torpağından qoxusu gəlir,
Laçın dağlarında ömrü bitənin.

Cənnətdə taparsan sən öz yarını,
Vağzalı sədası duymayan şəhid.
Qolunda can verən şəhid dostların,
Cənnətdə toyuna olarlar şahid.

*17.04.2023*



**SALAMOV ZAMAN ORUC OĞLU**

**BAŞ ÇAVUŞ**

*(1994-cü ildə I Qarabağ müharibəsində şəhid olmuşdur.)*



## QƏHRƏMAN İSTEHKAMÇI

*Tarix boyu qəhrəmanlarımız olub. Həmin qəhrəmanların şücaətləri hər zaman örnək göstərilib və örnək götürülüb. Zənnimcə, həmin o qəhrəmanlardan biri də Zaman Salamovdur. I Qarabağ müharibəsi zamanı könüllü olaraq döyüşlərə qatılan, böyük şücaətlər göstərən bu qəhrəmanın həyatından yazmaq mənim üçün olduqca məsuliyyətlidir. Çünki bugünkü gənclik və gələcək nəsillər bu kitabı oxuyarkən Zamanın necə bir qəhrəman olduğuna şahid olacaqlar. O Zaman ki düşmən cansız cismi ilə də mübarizə aparmışdı.*

Tarix unudulmur. Zamanın da yazdığı tarix unudulmadı. Azərbaycan xalqının qanlı tarixləri sırasında 16 mart 1994-cü il gecəsində qəhrəmancasına şəhid olan üç gəncin də şəhadət günü kimi həkk olunub. O tarixə nəzər salaq.

Qəhrəmanlıq salnaməsini qan ilə yazan Salamov Zaman Oruc oğlu 10 fevral 1970-ci ildə Şəki rayonunun Kiçik Dəhnə kəndində dünyaya göz açıb. O, ailəsinin 4 övladından (3 oğul, 1 qız) 2-cisi olub.

Hər ata-ana kimi Oruc dayı ilə Validə xanımın arzusu övladlarının vətənə layiq övlad olmaları idi. Onlar bir valideyn kimi övladlarına vətən sevgisini gözəl şəkildə aşılayırdılar. Zaman bu sevginin bariz nümunəsidir. Elə Zaman 1977-ci ildə Şəki rayon Kiçik Dəhnə kənd 2 nömrəli orta məktəbdə başlayan məktəbli həyatında da o sevgisi ilə fərqlənməyi bacarmışdı. Məktəbi bitirdikdən sonra o,

kişilik məktəbi hesab edilən hərbi xidmətə getmiş, xidmətini Rusiya Federasiyasının Xabarovsk Krain vilayətində etmişdir. Xidməti zamanı hərb sahəsində ən çətin ixtisas hesab olunan istehkamçı ixtisasına yiyələnmişdir. Yaxşı bir istehkamçı bəzən bir orduya bərabər olur, bəzən isə bir ordunu xilas edir. Çünki istehkamçılar hər zaman öndə gedirlər.

Zaman müddətli həqiqi hərbi xidməti başa vurduqdan sonra vətənə qayıdır. O, Şəki Peşə Məktəbinə qəbul olur. Ancaq cəmi 4 ay oxuyur. Sonra könüllü olaraq ailəsinə xəbər vermədən cəbhəyə gedir.

1992-ci ilin qızmar yayında Oruc dayı oğlunun sorağını cəbhədən alır. Xəbər gəlir ki, Zaman Tərtər rayonu istiqamətində gedən döyüşlərdədi. Oğlunun atasından xəbərsiz döyüşə getməsi atanı əsəbiləşdirir. Ancaq eyni zamanda da Zamanın bu addımının təməlinin onun aşıladığı vətən sevgisi olması atanı qürurlandırır. Bir müddət sonra ata Tərtərə oğlunu görməyə gedir. Zamanın komandirləri ona belə bir oğul yetişdirdiyi üçün təşəkkür edirlər. Oğlu ilə Tərtər küçələrində gəzən ata hər kəsin Zamana olan rəğbətini gördükcə qüruru boy-boy olur.

Zaman xidməti dövründə dəfələrlə mükafatlara layiq görülüb. Komandirləri onu Türkiyə Cümhuriyyətində xüsusi kurs keçərək hərbi biliyini artırmaq üçün göndərmək istəsələr də, Zaman bununla razılaşmayıb. Çünki ən çox elə həmin dönəm vətənin ona, onun da vətənə ehtiyacı var idi.

Zaman həm bir minaaxtaran, həm də güclü kəşfiyyatçı olub. Dəfələrlə kəşfiyyat zamanı düşməni sağ ələ keçirib. Zamanın ən böyük şücaətlərindən biri ermənilərin Sərsəng su anbarını partlatmaq arzularını ürəklərində qoymağı olub. Düşmənin həmin ərazidə yerləşdirdiyi partlayıcını zərərsizləşdirərək düşməni məəttəl qoyub.

Hələ o dövürdə dövlət televiziyasında Zamanın istehkam ixtisasının sirləri haqqında dediklərindən süjet də nümayiş etdirilib. Həmin çətin dönəmlərdə Zaman kimi təcrübəli bir əsgərə hər bir dəstədə ehtiyac olub. Lakin Zaman Bərdə batalyonunun üzvü kimi mübarizə aparıb.

Martın 6-da gecə Bərdə batalyonu Ağdərə istiqamətində tutduqları mövqedən geri çəkilmək məcburiyyətində qalır. Həmin vaxt Zaman və iki silahdaşı başqa əraziyə nəzarət məqsədilə getdikləri üçün bundan xəbərsiz olublar. Gecənin qaranlığında Zamangil batalyonun olduğu yerə gəldikdə gözlənilməz mənzərə ilə qarşılaşıblar. Düşmənlə üz-üzə qalan üç qəhrəman son nəfəslərinə qədər vuruşublar. Bir neçə ermənini məhv etdikdən sonra özləri də şəhid olublar. İlk olaraq itkin xəbəri gəlsə də, sonradan şəhid olduğu və nəşinin düşmən əlində olduğu təsdiq olunub. Düşmən 40 gün onların nəşini verməyib. Hər üç qəhrəmanı birlikdə basdırıblar. Nəşləri qaytarmaq üçün fərqli-fərqli tələblər irəli sürüblər. Sonda erməni generalın oğlunun nəşi ilə dəyişdirməklə razılaşıblar. Şəhadətlərinin 40-cı günü onların cansız bədənləri düşmənin basdırdığı yerdən çıxarılaraq vətənə gətirilib. Zamanın cibindən bir müddət öncə könüllülərin ordudan tərxis edilərək evə göndərildiyi zaman peşə məktəbinin verdiyi arayış və giliz içindən adının yazıldığı kağız çıxıb. Zaman geri göndərilsə də, rahat evdə cəmi 10 gün qala bilmişdi. 10 gün sonra o, təkrar cəbhəyə dönmüşdü.



Oruc dayı bir atanın görə biləcəyi ən dəhşətli mənzərəni gözləri ilə görüb. 16 aprel 1994-cü ildə min illərə bərabər olan 40-cı gün baş çavuş Salamov Zaman Oruc oğlunun nəşi Kiçik Dəhnə kənd məzarlığında torpağa tapşırılıb. Dəfn zamanı izdihamın içindən duyulan "Başını dik tut, Oruc dayı. Çünki sənin oğlun düşmənə divan tutub" sözləri dərdə qərq olan ataya ayaqda durmaq üçün güc verib.

Şəhid Zamanın adının unudulmaması üçün dostları və doğmaları Kiçik Dəhnə kəndində və Mingəçevir şəhərində bulaq inşa etdiriblər. Məktəbdəki sinif otaqlarından biri də Zamanın adını daşıyır.

## ŞƏHİD ZAMAN

Bir orduya bərabər bir qəhrəman ərəndin,
Vətən, bayraq, torpağı candan üstün biləndin.
Sən vətənin yolunda al qanına bələndin,
Ömrün də sevgin kimi vətənə qurban oldu,
Zaman, bir bahar günü səninçün zaman durdu.

Könüllü yollanmışdın Qarabağ savaşına,
Azadlığı bir məqsəd qoymuşdun öz qarşına.
Arzunu buraxmadın zamanın axışına,
Arzunun yollarına qan axdı damla-damla,
Sən hünərlə yeridin düşmən üstə inamla.

"Canımızı düşünmək bizə yaraşmaz" dedin,
Düşmənə divan tutub, unudulmaz dərs verdin.
Şəhidtək can verməyi özünə şərəf bildin,
Duydun yağı əlində vətənin fəryadını,
Şəhadət zirvəsinə sən də yazdın adını.

***30.04.2023***





**NADİROV ELÇİN**
**NADİR OĞLU**

**BAŞ ÇAVUŞ**

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## CANI CANDAN ƏZİZ BİLDİN

*Bir şəhidin son nəfəsi qədər sonsuz olan nə var? O son nəfəs əbədiyyətin başlanğıcı və bitməyən həsrətin sonsuzluğudur. O son nəfəslə vətənin ümidi gerçək olar. O son nəfəsin toxunduğu qəlblərdən iki duyğu sezilər, kədər və qürur. Fani olan dünyanın tək gerçəyi o son nəfəs olar. Bir şəhidin sonuncu nəfəsi ilə minlərlə ümid, arzu, sevinc qəlblərə vida edər. Elçinsevərlərin qəlbinə vida edən duyğular kimi...*

Son nəfəsi ilə vətənə ümid olan Nadirov Elçin Nadir oğlunun ilk nəfəsi 5 dekabr 1987-ci ildə Şəki şəhərində duyulur. O nəfəs hərarəti ilə dekabrın soyuğunu unutdurur. Ailənin ikinci övladı olan Elçinin özündən böyük Ülkər adında bir bacısı olur. Rəmziyyə xanım Elçini işıqlı sabahına ümid bilir. Min bir zəhmətlə böyüyən övladlarının bəhrəsini dərmək hər valideynin arzusu olduğu kimi Rəmziyyə xanım da bu arzu ilə yaşayır.

Elçin uşaqlıqdan istedadı ilə fərqlənir. Şəki rayon 2 saylı Musiqi məktəbində qarmon ixtisası üzrə təhsil alır.1994-cü ildə Şəki şəhər M.F Axundov adına 2 saylı məktəbdə təhsil almağa başlayan Elçin daha sonra təhsilini 5 saylı və 7 saylı məktəblərdə davam etdirir. 2001-ci ildə Şəki şəhər Fizika-Riyaziyyat və Humanitar Təmayüllü Liseyə qəbul olur və 2005-ci ildə təhsilini başa vurur.

Elçin həm də bir idmançı kimi nailiyyətlər qazanır. İdmanın karate növü ilə məşğul olan qəhrəman Azərbaycan Respublikası Karate-do Federasiyasaları

Assosiasiyasının Şəki regional şöbəsi tərəfindən keçirilən imtahanlarda seçilməyi bacarır. O, ağ, sarı və yaşıl kəmərlərə layiq görülür, eyni zamanda diplomla təltif edilir.

Hər insanın arzuları fərqli olur. Elçinin də ən böyük arzusu polis olub xalqın, vətənin keşiyini çəkmək idi. Onun vətən keşiyi çəkmək arzusu 3 yanvar 2006-cı ildə çin olur. Müddətli həqiqi hərbi xidmətə yollanan Elçin öncə Daxili Qoşunların Bakı şəhərində yerləşən N saylı hərbi hissəsində, sonra isə Gəncə şəhərində yerləşən N saylı hərbi hissəsində xidmət edir. 2007-ci ilin iyul ayında xidmətini bitirir.

Elçin 2007-ci ildə Şəki Dövlət Texnologiya Texnikumunun (indiki Şəki Dövlət Regional Kolleci) Mühasibat uçotu fakültəsinə qəbul olsa da, müəyyən səbəblərdən qiyabi təhsilini başa vura bilməyib.

Heç bir arzu Elçinin vətənlə bağlı arzularının önünə keçə bilmirdi. 2009-cu ilin aprel ayında arzularını həyata keçirmək üçün addım atan Elçin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) olaraq Daxili Qoşunların hərbçisi kimi N saylı hərbi hissədə xidmətə başlayır. Xüsusi Təyinatlı Dəstənin snayper, atıcı vəzifələrini icra edir. 2011-ci ilin mart ayından 2015-ci ilin yanvar ayına qədər əməliyyat taborunda taqım komandirinin müavini – manqa komandiri, həmin taborun xüsusi vasitələrin tətbiqi bölməsində baş atıcı, atıcı-sanitar, texnik vəzifələrində çalışır. 2015-ci ilin yanvar ayında N saylı hərbi hissədə xüsusi vasitələrin tətbiqi dəstəsində heyət rəisi vəzifəsində xidmət göstərir. Həmin ilin oktyabr ayında Xüsusi Təyinatlı Dəstədə atıcı-istehkamçı vəzifəsini icra edir.

Elçin Nadirov 2015-ci il fevralın 9-dan martın 7-nə qədər Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin təşkil etdiyi "Əsas minaaxtarma kursu"nu uğurla keçir və Sertifikata layiq görülür. Elçin xidməti zamanı dəfələrlə diplom və fəxri fərmanlara layiq görülməklə yanaşı, 26 iyun 2018-ci ildə 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalı ilə də təltif edilir.

25 sentyabr Elçinin də doğmaları ilə son vida tarixi kimi yaddaşlara həkk olunub. Yoldaşı Svetlana xanım ilə, 8 yaşlı qızı Arzu və 5 yaşlı oğlu Zaur ilə vidalaşıb. O heç sevdiyindən, övladlarından doymamışdı. Ancaq övladları azad vətəndə yaşasınlar deyə həmin addımı atmalı idi.

Bacısı Ülkər o gün Elçinin narahatlığını hiss etdi. Elə o narahatlıq çəkilən şəklə də yansıdı. Bacısı ilə vidalaşadıqdan sonra Rəmziyyə ananı bağrına basan Elçin ana qoxusunu ciyərlərinə çəkib sevdikləri ilə vidalaşdı. Oğlunun ardınca su tökən Rəmziyyə ananın gözləri doldu. Oğlunun qayıtması üçün dua etdi.

27 sentyabr 2020-ci il Ermənistan ordusunun Azərbaycan ərazilərinə qarşı törətdikləri genişmiqyaslı təxribatların nəticəsində Azərbaycan Ordusunun Ali Baş Komandanı İlham Əliyevin "İrəli" əmrini ilk icra edənlərdən biri də baş çavuş Nadirov Elçin Nadir oğlu olub. Murovdağ istiqamətindən başlayan döyüş yolu Füzuli, Cəbrayıla çatıb. Düşmən mövqelərinin darmadağın edilməsində rolu olan Elçin düşmənin xeyli sayda canlı qüvvəsini məhv edib.



Ermənilərin Gəncə şəhərində dinc sakinlərə qarşı törətdikləri faciə Xocalı faciəsi qədər ürəyində dərin iz buraxan Elçin o gecə günahsızca qətl edilən Narinin, Məryəmin, Mədinənin, Xocalıda qətl edilən Naməlum qızın qisasını alacağına and içir.

12 oktyabrda son dəfə doğmalarına zəng edən zaman ***"Çox yeri azad etmişik. Üç günə gələcəm"*** deyir. Hər kəs onun gələcəyini ümidlə gözləyir. Lakin həmin üç günün tamamında Elçin şəhid olur. Elçin həmişə olduğu kimi yenə də dediyi sözünü tutur. Gəlir, ancaq şəhid kimi gəlir.

Oktyabrın 15-də Füzuli rayonunun azadlığı uğrunda şiddətli döyüşlər gedir. Həmin vaxt Polad ağır yaralanır. Təxmini 1000 m uzaqlıqda olan Poladı xilas etmək üçün Elçin öz ölümünü gözə alır. Komandirinə ***"Mən könüllü olaraq Poladı xilas etməyə gedirəm"*** deyir. Lakin o, Polada çata bilmir. Polada çatmağa az qalmış yanına minamyot düşür. Qolundan və baldırından ağır yaralanan Elçinin son sözləri bunlar olur:

***– Məni ölməyə qoymayın. Uşaqlarım məni gözləyir.***

Bütün mücadilələrə baxmayaraq, Elçini xilas etmək mümkün olmayıb. Əbədi olaraq həyata gözlərini yuman Elçinin şəhid xəbərini ailəsi oktyabrın 16-da alıb.

Yenicə kreditlə telefon almışdı. Arzusu idi ki, o telefonla Şuşanın azad olunduğu xəbərini versin. Ancaq yaralandığı an telefonu da üstündə partlayıb. Ona görə də qohumu Rövşən Elçinin şəhid xəbərini yad nömrədən gələn zənglə alıb. Rövşən yoldaşı Ülkərdən qardaşının şəhid olduğunu gizlətməyə çalışsa da, bunu bacarmayıb.

Bir zamanlar gəlin maşını bəzənən yerə Elçinin tabutu qoyulub. 17 oktyabrda Elçin bir zamanlar örnək götürdüyü Aprel döyüşlərində şəhid olan Elnur İsgəndərovun dəfn olunduğu Şəki şəhər II Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Elçin çox çalışdı ki, vətəni və silahdaşını xilas etsin. Vətən düşməndən, Polad da ölümün pəncəsindən xilas olub. Elçin isə vətən və can xilaskarı kimi tarixdə iz qoyub.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Xüsusi Təyinatlı "Qartal" Dəstəsinin atıcı-istehkamçı baş çavuşu Nadirov Elçin Nadir oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı və "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilib.

## ŞƏHİD ELÇİN

Canı candan əziz bildin,
Bir də ki ana vətəni.
İstəyirdin bağlayasan,
Həyata sən bir bəndəni.

O ümidin yollarında,
Öz ömrünü ataş kəsdi.
Cismin vətən torpağına,
Ruhun cənnətə tələsdi.

Canın, qanın bahasına,
Azad etdin Füzulini.
"Üç günə gələcəm dedin"
Gəldin, ancaq şəhid kimi.

Şəhid adı çəkiləndə,
Qəlbində tufan qopurdu.
Arzundu xilas edəsən,
Şəhid qanı axan yurdu.

Elçin, sən arzuna çatdın,
Azadlığın carçısıtək.
O azadlıq yollarında,
Əbədi susdu çox ürək.

***04.02.2023***





**MƏMMƏDOV SALEH MUSTAFA OĞLU**

**BAŞ ÇAVUŞ**

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## ARZUSU QAZİLİK YOX, ŞƏHİDLİK OLAN SALEH

*Biz mərhəmətli xalqıq. İllər boyu bu mərhəmət duyğumuzdan istifadə edən qonşularımızın saysız-hesabsız zərbələrinə tuş gəlmişik. Qonşusunun göz dikdiyi Azərbaycan torpaqları çox işğallara məruz qalıb. Mərhəmətli, sevgi dolu Azərbaycan xalqı hər dəfə qonşu zərbəsindən sonra daha açıq gözlə baxmağı öyrənib. Körpəlikdən düşmənin xalqımıza qarşı törətdikləri soyqırımları eşidə-eşidə böyüyən uşaqlar düşmənlə üzbəüz gələndə mərhəmət hissini boğmağın, yeri gələndə amansız olmağın vacibliyini bilirdilər. Çünki amansız düşmənin körpələrin dərisini necə diri-diri soyduqlarını yaddaşlarına yazmışdılar. Düşməndən həmin körpələrin intiqamını alan "Amansız Saleh" ləqəbli qəhrəmanımız kimi qəhrəmanlar illərlə oxunulan "İşğal" adlı kitabın son səhifəsinə "Qələbə" yazdılar.*

"Qələbə" sözünü qanı ilə yazan qəhrəmanlardan biri Məmmədov Saleh Mustafa oğlu 9 fevral 1995-ci ildə Şəkinin Abbaskəndində dünyaya göz açmışdır. O, ilk nəfəs, ilk sevgi idi. Körpə əlləri ilə tutduğu ana-ata əlləri böyüdükdə vətəni qucacaqdı. Qardaşı Talehin, bacısı Aygülün dayağı olan Saleh bütün xalqın dayağına çevriləcəkdi. Nəslin tək hərbçisi, nəslin tək şəhidi olacaqdı. Salehin insan kimi böyüdüyü, şəhid kimi ucaldığı o illəri vərəqləyək.

Hər uşaq kimi Saleh də böyüməyə tələsirdi. Böyüyüb 2001-ci ildə Şəki rayon Aşağı Layski kənd tam orta məktəbinə qədəm qoyan zaman heç kim bu mək-

təblinin məktəbin şəhid şagirdi olacağını bilmirdi. Saleh 11 illik təhsilini 2012-ci ildə başa vurdu.

Məmmədov Saleh Mustafa oğlu 2013-cü ilin aprel ayında müddətli həqiqi hərbi xidmətə yollanıb. Milli Qvardiyanın Qarovul Dəstəsində xidmət edən Saleh nümunəvi xidmət edib. O, 2015-ci ildə paradda iştirak edib. "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı ilə təltif edilib. 2015-ci ilin oktyabr ayında xidmətini başa vurub. Lakin o, ordudan uzaq qala bilməyib. Vətən sevgisi onu yenidən orduya qaytarıb. 2015-ci ilin yanvar ayında müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kimi xidmət etmək üçün lazım olan kursu keçib və Dövlət Sərhəd Xidmətinin Çevik Hərəkət Taborunda xidmətə başlayıb.

Saleh Məmmədov 2016-cı ildə baş verən Aprel döyüşlərinin də iştirakçısı olub. Həmin döyüşlərdə Lələtəpə istiqamətində rəşadət göstərib və ilk dəfə vətən torpaqlarının azadlığına vəsilə olanlardan biri olub.

2018-ci ildə xidməti zamanı "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi" yubiley medalı ilə təltif olunub. Həmin il üçillik müqaviləsi bitib. Dörd ay sonra təkrar MAHHXHQ kimi xidmətə dönüb və Sülhməramlı Qüvvələrin hərbçisi kimi xidmət edib.

Salehin bir amalı var idi, vətənin azadlığı. Bütün həyatını bu amalla yaşayan qəhrəman vətənin azadlığı arzusuna gün işığı düşən gün irəli atıldı. 27 sentyabr II Qarabağ müharibəsinin başladığı ilk gün Füzuli rayonu istiqamətində döyüşə başladı. Həm vətənin azadlığı üçün mübarizə apardı, həm də yaralıları tibb personalına çatdırmaq üçün. Şəhidlərin, yaralıların düşmən əlinə keçməməsi üçün çalışdı. 100-dən çox yaralının təxliyə edilməsində bilavasitə rolu olan Saleh Qubadlı istiqamətində minalanmış ərazidən şəhidlərimizin nəşlərini çıxardı. Zirehli texnika idarə edən qəhrəman eyni zamanda da düşmənlə vuruşaraq irəlilədi. Bir gecə düşmənin üç kəşfiyyatçısının yaxınlaşdığını gördüyü zaman heç düşünmədən özünü riskə atan Saleh düşməni zərərsizləşdirərək silahdaşlarını xilas etdi. Cəbrayıl rayonu istiqamətində "Dostluq bulağı" adlanan ərazini azad etmək üçün komandiri ilə birlikdə sonadək mübarizə aparan Saleh öz məqsədinə çatdı. Laçın rayonunun Güləbird kəndi ərazisində düşmənin məhvinə səbəb oldu. ***"Mən Qazi yox, Şəhid olacağam"*** deyən qəhrəmanın dediyi kimi də oldu.

Vətən müharibəsi zamanı Məmmədovlar ailəsinin digər oğlu Taleh Məmmədov da həqiqi hərbi xidmətdə olub. Oktyabrın 14-də son dəfə zəng etdiyi zaman müharibədə olduğunu gizlədən Saleh Talehdən nigaran olduğunu deyib. Ata-anası ordan-burdan Salehin müharibədə olduğunu öyrənsələr də, Saleh onları döyüşdə olmadığına inandırmışdı. Füzuli, Cəbrayıl, Qubadlı, Laçın rayonları uğrunda



gedən döyüşlərdə şücaət göstərən Salehin son döyüşü 22 oktyabrda Laçın dəhlizi uğrunda olub.

24 oktyabrda Mustafa kişi mağazaya gedən zaman hərbçiləri, əllərində bayraqla dayanan insanları gördüyü zaman ürəyinə od düşür. Bilir ki, iki oğlundan biri şəhid olub. Qısa müddət sonra Salehin şəhid olduğu məlum olur. 24 oktyabrda elinə, obasına şəhid kimi dönən Salehin nəşi Abbaskənd məzarlığında torpağa tapşırılır.

Baş çavuş Məmmədov Saleh Mustafa oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Cəbrayılın azad olunmasına görə" medalı, "Qubadlının azad olunmasına görə" medalı və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

Abbaskənd camaatı şəhid Salehin adını əbədiləşdirmək üçün iki bulaq inşa edib.

## ŞƏHİD SALEH

Vətən həsrətini, xalqın qəmini,
Hələ körpəlikdən duymuşdun, Saleh.
Qəlbini fəth edən vətən sevgisi,
Ruhunu duyanı etmişdi valeh.

Müqəddəs vətənin torpağı ilə,
Müqəddəs eşq ilə bağladın peyman.
Dedin "Düşmənimi rəzil eləyib
Şəhidtək vətənə mən verəcəm can".

Arzun gözlərində qalmadı sənin,
Arzunun yolunda qanın çiləndi.
Füzuli, Cəbrayıl, Qubadlı, Laçın
O son nəfəsinlə sanki dilləndi.

Sən ümid olmuşdun müharibədə,
Yaşamdan ümidin üzən çoxuna.
Qazi yox, şəhidtək geri dönməkçün,
Sən addım atmışdın zəfər yoluna.

***06.02.2023***





**SADIQOV RUSLAN AMİRASLAN OĞLU**

**MAHHXHQ (Baş çavuş)**

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## VƏTƏNLİ ARZULARA ÇATAN ŞƏHİD

*Vətənli arzular arzuların ən gözəlidir. Vətənin azadlığı, vətənin suverenliyi, vətənin gözəlliyi və s. Bütün bunlar olduqdan sonra dünyanın cənnəti elə vətən olar. O cənnətdə yaşamaq üçünsə lazım gəldiyində canından da keçməyə hazır olarsan. Ruslan Sadıqov kimi. Ailəsinin onunla bağlı arzuları fərqli olsa da, Rusan vətənli arzulara çatmaq üçün çalışdı. Hərbçi olmaq üçün neçə sınaqdan keçdi. Heç bir əngəl onun vətənli arzulara çatmasına əngəl ola bilmədi. O, arzularına çatdı. Bir hərbçi kimi, igid kimi, şəhid kimi. Ondan geri qalan isə azad vətən və paramparça olmuş bir ailə oldu.*

Övlad yeni arzuların başlanğıcıdır. Sadıqov Ruslan Amiraslan oğlu 31 dekabr 1987-ci ildə Yeni ilin ilk sevinc duyğusunu özü ilə gətirmişdi. İlk övlad olan Ruslan Amiraslan və Qaragöz Sadıqovların çin olan arzuları idi. Ailənin ilk və tək oğul övladı olan Ruslan özündən sonra dünyaya gələn bacısı İlahə xanımın arxalandığı bir dağ idi. Fərqliliyi böyüdükcə aydın şəkildə sezilirdi. Onun özünəməxsusluğu var idi. Allahın seçilən bəndəsi idi.

Ruslan 1994-cü ildə Şəki rayon Təpəcənnət kənd natamam orta məktəbində təhsil almağa başlasa da, 1995–2003-cü illərdə təhsilini Cəfərabad kənd tam orta məktəbdə davam etdirmişdi. IX sinifdə hərb sənətinə olan sevgisi onu Cəmşid Naxçıvanski adına Hərbi Liseyə gətirmiş, lakin müəyyən səbəblərdən qəbul ola

bilməmişdi. X–XI sinifləri Şəki şəhər 5 saylı tam orta məktəbdə oxumuşdu. Fizika, riyaziyyat fənlərini daha çox sevən Ruslanın idmana da böyük marağı olmuşdu. Ona görə də məktəblə yanaşı, VI–IX siniflərdə idmanın karate növü ilə məşğul olmuşdu. Dəfələrlə qalibiyyət əldə etmiş, medallar və fəxri fərmanlara layiq görülmüşdü.

Ruslan 2005-ci ildə məktəbi bitirdikdən sonra unversitetə qəbul olur. Lakin istədiyi fakültə olmadığı üçün o öz istəyi ilə təhsildən imtina edib vətənə xidmətə tələsir. 2006-cı ilin yanvar ayının 5-də müddətli həqiqi hərbi xidmətə yollanır. Sumqayıt şəhərində yerləşən N saylı hərbi hissədə xidmətə başlayır. Üç ay rabitəçi kursunu keçir və müvəffəqiyyətlə başa vurur. Baş çavuş rütbəsinə qədər yüksələn Ruslan 26 iyun 2008-ci ildə "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı ilə təltif edilir. 2008-ci ilin iyul ayında xidmətini başa vurur.

Ruslan Sadıqov özünü hərbçi peşəsindən başqa bir peşədə görmürdü. Tək məqsədi hərbçi olmaq olan qəhrəman 2008-ci ilin sonlarında Daxili Qoşunların Zaqatala rayonunda yerləşən N saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kursunu uğurla keçir və xidmətə başlayır. İdmanda dərəcəsi və potensialı olduğu üçün Xüsusi Təyinatlı Qüvvələrin tərkibinə qoşulur. Həmin il "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı ilə təltif edilir. Türkiyə Cümhuriyyətində kursa getmək üçün dəfələrlə şans yaransa da, müəyyən səbəblərdən gedə bilmir. Atıcı-snayper ixtisasını mükəmməl şəkildə öyrənir. Snayper qrupunda yarımqrup komandiri olur. Dəfələrlə fəxri fərmanla təltif edilir. "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı ilə təltif edilir. 2020-ci ilin yanvar ayına qədər eyni hərbi hissədə xidmət edən Ruslan həmin tarixdən təyinatla Hacıqabul rayonunda yerləşən N saylı hərbi hissəyə göndərilir. Həmin hərbi hissədə də yarımqrup komandiri olur. 2020-ci ilin sentyabr ayında başlayan Vətən müharibəsinə də elə həmin hərbi hissədən qatılır.

Müharibə nələri yarımçıq qoymadı ki? Sevgiləri, ümidləri, atalı arzuları və nələri-nələri... Fidan xanım heç xəyal etməzdi ki, bir gün üç körpəsini atasız böyütmək məcburiyyətində qalacaq. Nuray, Aylin və Ehsan (Ruslan) da atasız böyüyəcəklərini nə xəyal, nə də arzu etmişdilər. Ancaq həyatın ən sərt sazağı ilə titrədi o körpələrin ürəyi. Atasızlıq...

Hər dəfə Ruslanın ad günü təmtəraqlı şəkildə qeyd edilirmiş. Elə son ad günündə də məzuniyyət götürüb evinə gedən Ruslan üçün doğmaları yadda qalan bir ad günü keçirirlər. O yaş Ruslanın bu dünyada son qarşıladığı ancaq başa vura bilmədiyi yaş olur.

27 sentyabrda gerçəkləşən vidalardan biri də Ruslanla atasının vidası olub. Oğlunun gücünə bələd olan atası onun bu döyüşdən də geri qayıdacağına inanmaq



istəyib. Bütün qaranlıq düşüncələri xəyalından uzaq tutmağa çalışıb. Füzuli rayonu istiqamətindən döyüşə başlayan Ruslan Cəbrayıl rayonu uğrunda da mübarizə aparıb. Sonra Daşaltı istiqamətində irəliləyib. İstiqlal snayper tüfəngi ilə düşmən ordusuna divan tutan Ruslan Daşaltıya qalxan zaman bütün əşyalarını atıb təkcə silahını götürüb. Hər döyüşdə azı beş düşmən məhv edən qəhrəmanı üç gün ərzində düşmən ordusu axtarışa verib. 7 noyabrda yeri dronla müəyyən edilən Ruslan düşmən atəşindən yayına bilməyib. Ruslan Şuşada qəhrəmancasına şəhid olub.

Xalq Şuşanın azad olunmasının sevincini yaşayan zaman Ruslanın yolunu gözləyənlər o müjdəli xəbəri onun verməsini gözləyirdilər. Noyabrın 8-də və 9-da Ruslandan zəng gəlməməsi ailəsini narahat edir. Həmin müddətdə Ruslanın şəhid olduğu xəbərini qohumları, kənd camaatı bilsə də, ailəyə deməyib. 10 noyabrda ata öz oğlunun cansız cismini morqda görür. Yeganə oğlu Ruslanı nəfəssiz görmək Şəhid atasının yaşadığı ən böyük acı olur. Həmin gün Ruslanın cansız cismi son dəfə onu gözləyən doğmalarına vida üçün evinə gətirilir. O vidanın ardından şəhidin nəşi Cəfərabad kənd məzarlığında torpağa tapşırılır. Şəkinin bir çox kəndləri kimi Cəfərabad kəndi də bir şəhidin müqəddəs məzarının ünvanı olur.

MAHHXHQ (Baş çavuş) Sadıqov Ruslan Amiraslan oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Şuşanın azad olunmasına görə" medalı və "Hərbi xidmətdə fərqlənməyə görə" medalı ilə təltif edilib.

## ŞƏHİD RUSLAN

Torpağıma "Can" deyib, canından keçən şəhid,
Bayrağımı zirvəyə qaldıran məğrur igid,
Torpaq sənin sevginə, sən qələbəyə şahid,
Sinəsi dağlı yurdun həsrəti sənlə bitdi
Vətənli arzulara bu xalq səninlə yetdi.

Son nəfəsin bitən yer bizlərə səcdəgahdır,
Ruslan, azadlıq hissi aydın olan sabahdır.
Şəhid adın unutmaq bağışlanmaz günahdır,
Üst-başı torpaq qoxan şəhidtək qoxur vətən
Azadlıq yolu ilə cənnət yolun oldu tən.

Füzuli və Cəbrayıl qüsl aldı qanın ilə,
"Şuşa azad olacaq" sözün gətirdin dilə.
Şuşadan şəhid kimi müjdə gətirdin elə,
Şəki eli qürurla səni bağrına basdı
Arzusu vətən olan arzuya çatıb susdu.

***13.02.2023***





**RƏHİMOV ASİF**
**HƏSRƏT OĞLU**

MAHHXHQ (Çavuş)

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## "MƏN VƏTƏNİMİ QORUYACAĞAM"

*Hər insanın bu həyatda bir amalı, qayəsi olur. Hər amala da çatmaq üçün insan mücadilə aparır. Həyat heç də hər zaman insanın üzünə gülmür. Sınandıqca sınanan insan övladı həyatın bir ucundan tutub yaşamağa çalışır. Həsrət və Könül Rəhimovların güvənərək ömür sürdükləri iki övladları Asif və Günel idi. Onların da bütün arzularının təməlində övladları dururdu. Onlar da bütün valideynlər kimi övladlarının xoş günlərini görmək xəyalı ilə yaşayırdılar. Ancaq ötən zaman o xəyalların sonunda görünən səadətin qatilinə çevrildi.*

17 aprel 1993-cü ildə Şəki rayonunun Çayqaraqoyunlu kəndində daha bir ocağı övlad nəfəsi isitdi. Rəhimov Asif Həsrət oğlu dünyaya gəlişi ilə hər ürəyə sevinc bəxş etdi. Bir oğul ata-anası olan valideynlərin ömrünə sevinc calandı.

Asif Rəhimov 1999-cu ildə Şəki rayon Çayqaraqoyunlu kənd tam orta məktəbində təhsil almağa başlayıb. 2010-cu ildə məktəbi bitirdikdən bir il sonra 20 aprel 2011-ci ildə vətənə olan vətəndaşlıq borcunu yerinə yetirmək üçün müddətli həqiqi hərbi xidmətə gedib. Lənkəran və Lerik rayonlarında xidmət edən Asif xidməti zamanı fəxri fərman və diplomlarla təltif edilib. PDM tuşlayıcısı olaraq xidmət edən Asif 7 oktyabr 2012-ci ildə xidmətini başa vurub.

Asif hələ məktəbdə oxuyarkən qəlbini Cəmilə xanıma vermişdi. Əhdindən dönməyən qəhrəman əsgərlikdən qayıdandan sonra sevənlər nişanlanırlar. Dörd il nişanlı qalan gənclərin 28 iyul 2016-cı ildə toyları olur. Valideynləri Asiflə bağlı daha bir arzuya çatır.

Valideyn olmaq bənzərsiz duyğudur. Asif o duyğunu 26 aprel 2017-ci ildə yaşadı. İlk övladı dünyaya gələn sevincli ata Kənan adını verdiyi oğlunu bağrına basdı. 13 yanvar 2019-cu ildə isə ailənin ikinci övladı Yağmur dünyaya gəldi. Ailəsinə həddindən ziyadə bağlı olan Asif övladlarını gözəl yaşatmaq üçün hər zaman çalışdı.

Asifin qəlbində vətənə sevgi, düşmənə nifrət var idi. O, hər zaman vətən keşiyini çəkmək arzusunda olub. Arzusunun yollarında addımlayan Asif 2019-cu ilin sonunda təlimlərə qoşulur. Təlimlərdə hər zaman öndə olmağı bacaran qəhrəman qardaş ölkə Türkiyə ordusunun hərbçilərinin də diqqətini çəkməyi bacarır. Ona Türkiyəyə getmək təklifi gəlsə də, ***"Mən vətənimi qoruyacağam"*** deyir. Kursları uğurla başa vuran Asif Quru Qoşunların hərbçisi kimi xidmətə başlayır.

Asif sentyabrın 20-də oğlu Kənanla bərabər ata-baba yurduna gedir. İşi ilə əlaqədar ailəsini Mingəçevirə apardığı üçün el-obasının həsrətini çəkir. Anasını, atasını gördükdən sonra kəndin seyrinə çıxır. Sanki bir daha görməyəcəkmiş kimi köks ötürür. Vidalaşıb yenidən işinə dönür.

Asif son dəfə 26 sentyabrda övladlarını Cəmilə xanıma əmanət edir. Cəmi yeddi aylıq olan Yağmurun ilk addımını görmədən, "ata" deməyinə şahid olmadan o körpə əllərdən əllərini üzür. Axşam yarının dönəcəyi ümidi ilə yar yolunu gözləyən Cəmilə xanım ***"Gələ bilməyəcəm"*** sözlərini duyanda qəribə bir narahatçılıq yaşayır. Asif sentyabrın 27-də Könül anaya zəng edib ***"Ürəyini buz kimi saxla, oğlun qəhrəman kimi gələcək"*** deyib. Asif artıq bir qəhrəman kimi dönməyin necəliyini gözəl bilirdi.

27 sentyabr 2020-ci il müharibə başlayan kimi döyüşə girənlərdən biri də Asif olub. Tərtər, Suqovuşan istiqamətində əsl qəhrəmanlıq göstərən Asif düşmənin postunu və canlı qüvvəsini məhv edib. 28 sentyabrda Suqovuşan uğrunda gedən döyüşlərdə aldığı qəlpə yaraları nəticəsində şəhid olub. Ancaq günlərlə bu barədə bir məlumat olmayıb. Torpaq uğrunda can verən qəhrəmanın nəşini 8 oktyabra qədər neytral ərazidən götürmək mümkün olmayıb. Həmin müddətdə atası Bərdə, Tərtər, Yevlax, Neftçala, Ağcəbədi rayonlarında oğlunu axtarıb. Oktyabrın 8-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəki Rayon İdarəsindən gələn zənglə ata o acı xəbəri alıb.

Oğlunun nəşini gətirmək üçün Bərdə hospitalına gedən ata ürəyi yana-yana onun cansız cismini oxşayıb. Bir oğul atası kimi sevinci cəmi 27 il çəkən Şəhid



atası oğlunun nəşini son dəfə evinə gətirib. 9 oktyabrda ata ocağının 20 dəqiqəlik qonağı olan Asif Çayqaraqoyunlu kənd məzarlığında torpağa tapşırılıb. Asif kəndin tək şəhidi olmayıb. Cəmi bir gün sonra Asifin dostu, birlikdə hərbi işə başladığı Mahmudov Murad Mahir oğlu da həmin məzarlıqda torpağa tapşırılıb. Heç zaman ayrılmayan dostlar əbədiyyətdə də ayrılmayıblar.

MAHHXHQ(Çavuş) Rəhimov Asif Həsrət oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Cəsur döyüşçü" medalı və "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

## ŞƏHİD ASİF

Sənlə gözəldi həyat,
Sən getdin adiləşdi.
Sənintək mərd oğullar,
Vətən ilə tənləşdi.

Çox arzunu apardın,
Özün ilə məzara.
Sənsizlik dönüb oldu,
Ürəklərdə bir yara.

Atan, anan səninlə,
Bağlanmışdı həyata.
Anan gözü yaşlıdı,
Dayaqsız qalıb ata...

Tək bacının ürəyi,
Sanki olub qəm bağı.
Sənintək igid qardaş,
Azad etdi torpağı.

Yarının həyatı da,
Gecə kimi qaradır.
Qəlbdəki şəhid dərdi,
Sağalmaz bir yaradır.

Kənan ata ocağın,
Sən olan məzar bilir.
Yağmur daş məzarına,
"Mənim atamdır" deyir.



Qövr eləyir ürəklər,
Şəhid adın gələndə.
Asif, son nəfəsin var,
Bu bayraqda, vətəndə...

O sonuncu nəfəsdən,
Cana gəldi torpaqlar.
Şan ilə dalğalandı,
Qarabağda bayraqlar.

Ruhunuz pərvaz etdi,
Bu vətənin başında.
Əzminlə qalib oldu,
Ordum haqq savaşında.

*31.01.2023*



MAHMUDOV MURAD
MAHİR OĞLU

MAHHXHQ (Çavuş)

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## ÜÇ QƏHRƏMAN QARDAŞ

*Vətənin qeyrətini vətəni sevənlər çəkər. Candan üstün olar vətən. Çünki vətən təkdir, əvəzsizdir. Bütün dünya vətənin bircə qarışını əvəz etməz. Çünki... Çünkiləri izah etməyə də sözün qüdrəti yetməz. Mənim izah edə bilmədiyimi isə Murad və qardaşları əməlləri ilə izah etdilər. Bir evin üç oğlu II Qarabağ müharibəsində vətənin azadlığı uğrunda mübarizə apardı. İkisi müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, biri isə əsgər kimi. Qəhrəman qardaşları tanıyaq.*

Mahmudovlar ailəsində vətənə layiq beş oğul övladı dünyaya göz açmışdır. İlk övlad isə Mahmudov Murad Mahir oğlu olmuşdu. Murad 12 aprel 1995-ci ildə Şəki rayonunun Çayqaraqoyunlu kəndində dünyaya göz açmışdı. Muraddan sonra Mayıl, Münasib, Taleh və Ramal dünyaya gəlmişdilər.

Murad 2002-ci ildə Şəki rayon Çayqaraqoyunlu kənd tam orta məktəbinə qədəm qoymuş, 2013-cü ildə məktəbi bitirmişdi. Elə həmin il vətən keşiyini çəkmək üçün müddətli həqiqi hərbi xidmətə yollanmışdı. Tovuz rayonunda xidmət etmişdi. 2015-ci ilin ilk günündə xidmətini başa vurub evinə dönmüşdü.

Həyat şərtləri çətin idi. Murad hər çətinliyə sinə gərmiş, ailəsinə dəstək olmağa çalışmışdı. Böyük övlad olduğu üçün ana-atasının həyat yükünə çiyin verib xəfiflətmək istəmişdi. O hər zaman alın təri ilə qazanılan halal çörək yemişdi.



Hər gənc kimi Muradın da eşq bağında sevdalandığı bir çiçək var idi. O, həmin Əsmər adlı çiçəklə 22 sentyabr 2016-cı ildə ailə qurmuşdu. Ailənin iki qız övladı olmuşdu. 25 iyul 2017-ci ildə Damla, 23 mart 2020-ci ildə isə Aysu dünyaya gəlişi ilə ailələrini sevincə qərq etmişdilər. Ancaq heç kim bilməzdi ki, Damlanın atalı ömrü cəmi üç il, Yağmurun isə cəmi altı ay çəkəcək. Onlar ata həsrəti ilə böyüyəcəklər.

Murad qərarlı idi. O, da vətənin keşiyində durmaq üçün addımlar atırdı. Bilirdi ki, ana vətənin mərd oğullara ehtiyacı var. Zaman o zaman idi. Elə o da tam zamanında lazım olan qərarı verdi. 2019-cu ilin dekabrında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) olmaq üçün lazımi addımları atdı. Həmkəndlisi Asif Rəhimovla bərabər hərbçi həyatına qədəm qoydular. Kursu müvəffəqiyyətlə bitirdikdən sonra yanvarın 15-də Mingəçevir şəhərində yerləşən N saylı hərbi hissədə xidmətə başladı.

2020-ci il sentyabrın 21-də Murad ailəsinin yanına gedib. Doğmaları ilə görüşüb. Övladları ilə zaman keçirib. Müharibə ilə bağlı bir kəlmə də deməyib. Ümumiyyətlə, hərbçi kimi həyatında baş verənlər onun sirri olub. Ailəsi ilə vidalaşıb yenidən işinin başına dönüb. O gediş Muradın son gedişi olub.

Sentyabrın 27-də müharibə başlayan andan mübarizəyə qoşulub. Ailəsi ilə danışanda təlimdə olduğunu deyib. Döyüşün ən qaynar nöqtəsində olduğunu bildirməyib. Suqovuşan uğrunda gedən döyüşlərdə Murad tək olmayıb. Qardaşı Mayıl ilə birlikdə mübarizə aparıb. Ailənin digər övladı Münasib də həmin zaman əsgər kimi vuruşub. 8 oktyabra qədər doğmaları ilə danışıb və yaxşı olduğunu bildirib. Son dəfə oktyabrın 8-də qardaşı Mayıl ilə birlikdə yemək yeyib. Həmin vaxt iki qardaş ana-atasına zəng ediblər. Bu qardaşların son görüşü olub. Hərəsi öz dəstəsində mübarizələrini davam etdiriblər. Murad hər kəslə danışıb və hər kəsə övladlarını əmanət edib. Elə həmin gün də Suqovuşanın azadlığı uğrunda can verib. Alnından snayper atəşi ilə vurulan qəhrəman şəhid olub.

Bütün şəhidlərin susan zəngləri kimi Muradın da susan zəngi ailəsini narahat etməyə başlayır. Oktyabrın 10-da Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəki Rayon İdarəsindən Mahir kişiyə gələn zənglə Bərdə hospitalına getməli olduğu deyilir. Biçarə ata oğlunun ardınca gedir. Xəstəxananın morquna girəndə sanki ayaqlarının taqəti tükənir. "Bəli, Muraddır" ikikəlməlik etirafla ən ağır yükü yığır ürəyinə. O gün Mahir kişinin də adı Şəhid atalarının sırasına yazılır. Həmin gün Şəhid atası evinə oğlunun tabutu ilə gəlir. İki körpənin gözlərindən gizlədir gözlərini. Çünki bilir ki, o körpələr üçün atalarını heç kim əvəz edə bilməyəcək. 10 oktyabrda Muradın evdən cənnətə doğru yol alıb gedişi ilə

qəlblərin cəhənnəm atəşi başlayır. Murad həsrəti düşən qəlblər qor atəşə qərq olur. Çayqaraqoyunlu kənd məzarlığında növbət şəhid torpağa tapşırılır.

Mayıl və Münasibə evə getməli olduqlarını deyəndə onlar şəhid qardaş məzarı ilə qarşılaşacaqlarını düşünməmişdilər. Muradın üçü günü evlərinə dönən qardaşlar ən acı xəbəri alırlar. Müharibədə neçə-neçə şəhidin son nəfəsinə şahid olan qardaşlar Muradın şəhid olması ilə barışa bilmirlər.

Belə olur vətənə ömür biçən oğullar – Murad kimi. Hər kəsi geridə buraxıb tək vətənə sarı gedir. Vətəndən də cənnətə sarı...

MAHHXHQ (Çavuş) Mahmudov Murad Mahir oğlu Ali Baş Komandan cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Cəsur döyüşçü" medalı və "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.



## ŞƏHİD MURAD

Vətən sevgisiylə döyünən qəlbin,
Vətənçün əbədi susdu, dayandı.
Azadlıq pozulmaz bir andın idi,
Murad, sən pozmadın müqəddəs andı.

Sanki göz yaşları cəm olunmuşdu,
İllərlə qəm çəkən Suqovuşana.
Qanın qarışdığı həmin torpaqlar,
Elə bil yenidən gəlmişdi cana.

Səndən böyük olan vətən dərdini,
Qüdrətli oğultək sən də bitirdin.
Yurdundan didərgin düşən kəslərin,
Gözünün yaşını əlinlə sildin.

O əllə oxşadın ana vətənin,
Heç qaysaq tutmayan işğal yarasın.
Vətən torpağı da bir ana kimi,
Köksündə uyutdu oğul balasın.

*01.01.2022*



## MƏMMƏDSALAHOV KAZIM SAHİB OĞLU

MAHHXHQ (Çavuş)

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## BALA DAĞLI ŞƏHİD KAZIM

Bəzi sualların cavabı olmur. Məsələn:
– Ata, anam səni çağırır niyə səs vermirsən?
– Ana, ölən əsgərlərə nə deyirlər?
– Şəhid deyirlər, qızım.
– Bəs onda niyə "Şəhidlər ölməz" deyirlər? Axı atalar ölürlər.
Kim verə bilər bu sualın cavabını?
– Ana, atam hara getdi?
– İşə getdi, qızım.
– Bəs niyə əsgər yoldaşlarının çiyinlərində getdi? Gərək oyadardın atam da özü gedərdi. Uzanıqlı getmək ayıbdı axı.

*Bilirəm oxuyarkən o suallar sizin də ürəyinizi parçaladı. Özünüzü həmin Şəhid yarının yerinə qoyub hansı cavabı verməyinizi düşündünüz. Ancaq bəzi sualların cavabı heç vaxt verilmir. Uşaqların ümidləri ölməsin deyə...*

*Bəzi insanları yaşları deyil, yaşadıqları qocaldır. Həyatın hər çətinliyi ilə sınanan Kazımın ürəyi 31 yaşında sanki 100 il yaşayan bir insanın ürəyi kimi yüklənmişdi. Onun qəlbində vətən dərdi, övlad dərdi yer almışdı.*

Məmmədsalahov Kazım Sahib oğlu 7 may 1989-cu ildə Sahib kişi və Nərminə xanımın ocağında dünyaya göz açıb. 4 övladlı ailənin (Nazim, Kazım, Hüsniyyə və Şirxan) ikinci övladı olub. Zəhmətkeş ailənin hər üzvü kimi Kazım da min bir zəhmətə qatlanıb. Uşaqlıqdan qorxmaz, qoçaq və iradəli olub.



Kazım 1995-ci ildə yaşadığı Qoxmuq kəndində yerləşən Şəki rayon Qoxmuq kənd tam orta məktəbində təhsil almağa başlayıb. Doqquzillik təhsilini bitirdikdən sonra ailəsinə kömək məqsədi ilə çalışıb. 2007-ci il iyul ayında həqiqi hərbi xidmətə yollanıb. Qəhrəmanlar oylağı olan Naxçıvan Muxtar Respublikasında xidmət edib. 2009-cu ilin yanvar ayında xidmətini başa vurub.

Kazım hər zaman öz zəhmətinin bəhrəsini dərib. Elə 2012-ci ilə qədər də o, alın təri tökərək fəhlə işləyib. Ancaq o özünü hər zaman bir hərbçi kimi görüb. Bu minvalla 2012-ci ilin yanvar ayından aprel ayına kimi Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində kurs keçib. Kursu uğurla başa vurduqdan sonra 2012-ci ildə Sumqayıt şəhərində yerləşən N saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kimi xidmətə başlayıb. Piyadanın döyüş maşını (PDM) sürücü mexanik kimi xidmət edib. 2013-cü ilin noyabr ayından 2015-ci ilin may ayına qədər təyinatla Mingəçevir şəhərində yerləşən N saylı hərbi hissəyə göndərilib və eyni ixtisas üzrə xidmət edib. 2015-ci ildə üçillik əmək müqaviləsi bitən zaman səhhətində olan problemlər səbəbindən ikinci müqaviləni imzalaya bilməyib.

Kazım xasiyyəti və davranışı ilə seçilən bir insan olub. Hər kəsin yerini bilən Kazım qayğıkeşliyi, mehribanlığı, dərin düşüncəsi və özünəməxsusluğu ilə Lalə xanımın könlünü fəth etməyi bacarıb. 17 avqust 2014-cü ildə ailə həyatı quran sevənlərin 30 may 2015-ci ildə Aylin adlı ilk körpələri dünyaya gəlib. 30 aprel 2016-cı ildə dünyaya gələn Ülviyyə isə gəlişi ilə valideynlərinə sevinc bəxş etsə də, o sevincin ömrü çox qısa olub. Onun körpə ürəyində böyük qüsurlar olub. Əməliyyat olunsa da, feldşer səhlənkarlığının qurbanı olub. 2017-ci il 22 iyulda Lalə xanım otağa girdiyində tərpənməməli olan körpəsinin feldşerin qucağında son nəfəsini verdiyini görüb. O an ananın dünyası qaralıb. Bir ümidlə səhər körpəsindən ayrılıb Şəkiyə gedən Kazım geri dönüb. Övladının cansız cismini öz qucağında son mənzilə aparan atanın ürəyinə bala dağı çəkilib.

Kazım 2020-ci ilin aprel ayında təkrar müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu olaraq Mingəçevirdə xidmətə başlayıb. İlk maaşını alan kimi yoldaşını və qızını da Mingəçevirə aparıb. Qızına həddindən artıq bağlı olan Kazım hər fürsətdə qızı ilə zaman keçirmək üçün evə gəlib. Müharibə başlamazdan bir həftə öncə evə gəldiyində sanki son sözlərini dilə gətirib:

***– Gedib Qarabağı azad edəcəyik. Ən öndə də mən gedəcəyəm. Vəzifəm elədir, bilirəm ki, 99 faiz şəhid olacağam. Mən şəhid olsam, bilirəm ki, sən hər gün yüz dəfə öləcəksən. Ancaq ağlama, mənim ömrüm şəhidlərin yaşamadıqları***

***ömürlərindən artıq deyil. Başını hər zaman dik tut. Qızım da hər zaman mənimlə qürur duysun. Elə səninlə də...***

**Kazım Məmmədsalahovun xanımı Lalə xanım:**

– Biz uzaqda olsaq da, hər dəfə yemək zamanı Kazım zəng edirdi. 25–26 sentyabrda yoxlama olduğunu və gələ bilməyəcəyini dedi. 27 sentyabrda saat 16:00-da danışdım. Aylinlə də danışdı. ***"Allaha əmanətimsiniz"*** dedi. Axşamüstü həyətə düşəndə bir nəfər mənə müharibənin başladığını dedi. Sən demə, Kazım mən narahat olmayım deyə döyüşdə olduğunu məndən gizlədib. Tez evə gəldim və ard-arda Kazıma zəng etdim. Sən demə, 27 sentyabr saat 18:00-da zəng etdiyim an Kazım snayperlə başından vurulub. Beyin ölümü gerçəkləşsə də, ürəyi döyünüb. Mənim zənglərimə cavab verilmədikcə nəfəsim kəsilir sanırdım. Gecə 02:00-da zəng etdiyimdə artıq zəng çatmadı. Sonradan döyüş yoldaşları həmin saatda Kazımın ürəyinin dayandığını və bu xəbəri deyə bilməyəcəkləri üçün telefonu söndürdüklərini dedilər.

Kazımın nəşinin bir həftədən artıq neytral zonada qaldığı üçün bizə heç bir xəbər verilməyib. Oktyabrın 1-də Aylin məktəbəqədər hazırlığa başlayan gün Kazımın zəng etməməsi artıq onun həyatda olmadığını deyirdi. Lakin inanmaq istəmirdim. Mən onu yaralıların içində axtarırdım. Hər dəfə qaynar xəttə zəng etdiyim zaman yaralıların içində Məmmədsalahov Kazım Sahib oğlu adlı yaralının olmadığını deyirdilər. 12 oktyabrda qan analizi almaq üçün Kazımın anası və qardaşı xəstəxanaya aparılanda ümidlərim üzüldü.

Bir ana üçün oğlunun şəhid olduğunun təsdiqlənməsinə vasitəçi olmaq nə deməkdir onu yaşayan bilər. O an Nərminə ana oğlunun şəhid xəbərini almamaq üçün Allaha yalvarır. Axı hələ Kazım çox gənc idi. Hələ dadmadığı çox sevinci var idi. Ancaq o sevincləri Kazım, Kazımın həyatda olduğu sevincini isə Nərminə ana yaşaya bilmədi.

12 oktyabrda əmisi Bərdə hospitalında göstərilən şəhidin Kazım olduğunu təsdiq edib. 16 oktyabrda Kazımın nəşi doğulub, böyüdüyü evə gətirilib. Elə həmin gün Qoxmuq kənd məzarlığında şəhidlər üçün ayrılan Şəhidlər xiyabanında torpağa tapşırılıb. Qoxmuq kəndinin 19 şəhidindən biri də Kazım olub.

MAHHXHQ (Çavus) Məmmədsalahov Kazım Sahib oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Cəsur döyüşçü" medalı və "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Şəhid atası Sahib kişi Qoxmuq kəndində oğlunun adına Şəhid bulağı inşa etdirib.



## ŞƏHİD KAZIM

Qarabağa azadlıq bəxş etdin dediyintək,
Ömrünü yaşamışdın vətən dərdin çəkərək.
Sənin kimi oğullar vətənə, xalqa gərək,
Çünki nə dostu bəlli, nə düşməni bu xalqın
Sən günahsız tökülən qanın qisasın aldın.

Həyatın çox kədəri yüklənmişdi qəlbinə,
Qəlbin məskən olmuşdu körpə bala dərdinə.
Sən vətənə qovuşdun, vətən torpağı sənə,
Məzarının üstündə ucaldı şanlı bayraq
Şəkiyə səda saldın Şəhid Kazım olaraq.

Körpə Aylin yoluna dikib yaşlı gözünü,
Həsrətlə xatırlayır söhbətini, sözünü.
O, bir məzar istəmir, o, istəyir özünü,
Cadarlı əllərinlə oxşayasan telini.
Çətin zaman qurutsun gözdən axan selini.

Şəhid qoxan torpaqdan, Kazım, qoxun duyulur,
Doğmaların səninlə hər zaman qürur duyur.
Dərdin düşən ürəklər günü-gündən oyulur,
Həsrətinlə həyatda nəfəs almaq çətindir
Cənnətdə ömür sürmək Allahdan qismətindir.

*01.02.2023*



İSMAYILOV SAKİT
İSMAYIL OĞLU

MAHHXHQ
*(Çavuş)*

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## GİLİZDƏ GİZLƏNƏN GERÇƏKLƏR

*İnsan olmaq Allahın ən ali varlıq olaraq yaratdığı "Sən" olmaq deməkdir. Allah bəndəsinə can verər, ağıl verər. Bəndə şükür edərək yaşamağı bacararsa, Allah dərgahında daha da ali məqama ucalar. Anaların bətnində can tapıb torpağın bətninə köçən zaman hər kəsin məqamı fərqli olur. Bəzi bəndələri əbədiyyətdə müqəddəslər təzim edərək qarşılayarlar. Həmin o bəndələr Allahın Şəhid adına layiq gördükləridir. Həmin o müqəddəs ada layiq görülən şəhidlərimizdən biri də Sakit İsmayılovdur.*

İsmayılov Sakit İsmayıl oğlu 7 yanvar 1985-ci ildə Şəki rayonunun Aran kəndində dünyaya gəlib. Ailənin üç övladından (2 oğlan, 1 qız) ikincisi Sakit olub.

Sakit 1991-ci ildə Şəki rayon Aran kənd məktəbində təhsil almağa başlayıb. IX sinfi bitirdikdən sonra 1999-cu ildə Şəki Peşə məktəbinə qəbul olub. Çilingər peşəsinin incəliklərini öyrənib. 2002-ci ildə təhsilini başa vurub.

Hər bir vətənini sevən gənc kimi Sakit də vətənə olan vətəndaşlıq borcunu yerinə yetirmək üçün 2003-cü ilin yanvar ayında müddətli həqiqi hərbi xidmətə yollanıb. Lənkəranda yerləşən N saylı hərbi hissədə xidmət edib. Əsgərlikdə olduğu zaman Sakit həyatının ən acı xəbərini eşidib. Ona nəfəs verən, onun üçün dünyada əvəzsiz olan, candan əziz bildiyi anası Güldərən ananın ölüm xəbəri ilə sarsılıb. Həyat onu anasızlıqla imtahan edib. Sakit 2004-cü ilin iyul ayında xidmətini başa vurub. Lakin ata ocağını isidən ana nəfəsi olmadığı üçün qürbətə yol alıb.



Sakitin ömür yollarının yol yoldaşı, qəlb sirdaşı onun dərdini öz dərdi bilən, onun ruhunu duyan Gülmira xanımdan başqası ola bilməzdi. 30 oktyabr 2006-cı ildə ailə quran sevənlərin 26 iyun 2008-ci ildə Xəyal adlı oğulları dünyaya gəlib. Yeddi il sonra 24 iyul 2015-ci ildə Mələk dünyaya gəlib. Sakit ailəcanlı, qayğıkeş bir ata olub. Həm də vətənpərvər bir hərbçi...

Sakitin zəfərə uzanan hərbçi həyatının başlanğıcı 21 yanvar 2010-cu ildə başlayıb. Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kursunu aprel ayında uğurla tamamlayıb. Mart ayında N saylı hərbi hissədə manqa komandiri kimi xidmətə başlayıb. 9 mart 2011-ci ildə təyinatla Ağdam rayonunda yerləşən N saylı hərbi hissəyə göndərilib. Raquf Orucov kimi bir komandirin tabeliyində xidmət edib. 2014-cü ilə qədər həmin hərbi hissədə xidmət edib. 17 mart 2014-cü ildə təyinatla Mingəçevir şəhərində yerləşən N saylı hərbi hissəyə göndərilib. Aprel döyüşləri zamanı Sakit də qəhrəmancasına vuruşub. Həmin döyüşlərdə Raquf Orucovun şəhid olması onun üçün böyük itki olub. O döyüşlərdə sona qədər getmək mümkün olmasa da, həmin döyüş Sakitin son döyüşü olmayıb.

Sakit 26 fevral 2018-ci ildə təyinatla Tərtər rayonunda yerləşən N saylı hərbi hissəyə göndərilib. Müharibəyə gedən günə qədər həmin hərbi hissədə xidmət edib.

Ömrünün 10 ilini vətənə xidmət edən Sakit İsmayılov 26 iyun 2019-cu ildə "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı ilə təltif edilib. Bundan öncə isə (1918–2013) – "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı ilə də təltif edilib.

2020-ci ilin iyul ayında düşmənin Tovuz rayonu istiqamətində növbəti genişmiqyaslı təxribatları ilə nəticələnən Tovuz döyüşləri zamanı da Sakit mübarizə aparan qəhrəmanlardan biri olub.

Çox vidaların yaşandığı aylar oldu 2020-ci ilin avqust və sentyabr ayları. Sakit avqustun 31-də evinə gələn zaman yenə həmişəki kimi təlimlərin daha çox keçirilməsinin səbəbini ***"Hərbi sirdir"*** deyib açıqlamadı. Gülmira xanıma ***"Mən şəhid olacağam"*** dediyində yarının "Nə olar sağ qayıt" deyə yalvarışı ürəyini dağlasa da, o, artıq qərarını vermişdi.

Beşgünlük məzuniyyəti bitən zaman Sakit ərköyün Mələyinə, evi əmanət etdiyi Xəyalına, bir də 15 illik sevgisinə vida edib gedir. Bir neçə addımdan sonra ardınca Mələyin "Ata, səni gözləyəcəyik" sözlərini duyduğunda göz yaşını qəlbinə axıdıb son dəfə gülümsəyən Sakit geri yox irəli addım atır. Yollar onu sevdiklərindən əbədi ayırır. Əsl səbəbkar isə müharibə olur.

Şəhid yarı Gülmira xanımın dilə gələn duyğuları gözümdə yaşa döndü.

**Sakit İsmayılovun həyat yoldaşı Gülmira xanım:**

– Mən 2016-cı ildə Aprel döyüşlərindən sonra Sakitin cibindən boş gilizin içində ailəsinin nömrəsini tapdığımda bir gün o acı xəbəri alacağımı düşünərək hər gün ölürdüm. Son vidamızda sanki üzərimə həsrətin nisgili çökdü. Sakitin son gedişi olduğunu hiss etdim. Daha onu görməyəcəyim ürəyimi sıxdı. Elə bil suda boğulurmuşam kimi hiss etdim. Bir anda bütün düşüncələri özümdən uzaqlaşdırmağa çalışdım. Ancaq o vidadan sonra o düşüncələr hər an xəyalımda canlandı.

26 sentyabrda zəng edən zaman ***"Gedirik, heçnə soruşma"*** dediyində hara getdiyini bildim. Səhər müharibə başladığını bildiyimdə zəng etdim. Özü od-alovun içində olsa da ***"Narahat olma"*** dedi. Atəş səsləri Sakitin səsindən daha şiddətli gəlirdi. Ancaq Sakit məni hər şeyin yaxşı olduğuna inandırmağa çalışırdı. 12 oktyabra qədər hər gün, bir neçə saniyə də olsa, zəng edirdi. Səsini eşitmək bizə dünya idi. Suqovuşanı azad etdikdən sonra sevinclə zəng etdi. Tərtər, Ağdərə, Suqovuşan uğrunda mübarizə apardı. Dörd dəfə ən şiddətli döyüşlərə girdiyini bilirəm. Silahdaşı Elməddin Əliyevin şəhid olmasına çox üzüldü. Mənə çantasının Elməddingildə olduğunu və o evə heç vaxt gedə bilməyəcəyini dedi. Ancaq Sakit özü də Elməddin gedən dönüşü olmayan yolu getdi.

Son dəfə oktyabrın 12-də axşam zəng etdiyində ***"Özünüzdən muğayat olun. Mənə zəng çatmayacaq"*** dedi. Səhəri gün həmlə bölüyü ilə Ağdərə istiqamətində irəliləyən zaman snayperlə boğazından vurulur. Həmin ərazi neytral zona olduğu üçün günlərlə nəşini götürmək mümkün olmayır. Oktyabrın 17-də Sakitin nəşi götürülür və Bərdəyə aparılır.

Daha ağrılı anlar ondan sonra başladı. Atasından DNT analizi götürüldü. Günlərlə o analizin cavabını gözləmək hər saniyəni ilə döndərdi. Analizin cavabı məlum olduqdan sonra Sakitin nəşi 22 oktyabrda gecə Şəki şəhərinə gətirildi. 23 oktyabrda xalq, vətən yolunda canını fəda edən qəhrəmana izdihamlı vida mərasimi keçirildikdən sonra Şəki şəhər II Şəhidlər xiyabanında torpağa tapşırıldı. Sakitin yolunun davamçısı, əmanəti Xəyalın yaşından böyük bir məsuliyyət çiyninə yığıldı. Atasından əmanət qalan Azərbaycan bayrağını təhvil alan zaman acısını ürəyinə gömüb qürurla bayrağı öpüb alnına qoydu. O gün bildim ki, Sakitin yeri heç zaman boş qalmayacaq. Çünki Xəyallar Sakitlərin qisasını qiyamətə saxlamazlar.

MAHHXHQ (Çavuş) İsmayılov Sakit İsmayıl oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin əmrinə əsasən şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Suqovuşanın azad olunmasına görə" medalı və "İgidliyə görə" medalı ilə təltif edilib.

Sakitin boya-başa çatdığı kənddə şəhidin adına bulaq inşa olunub, sonradan yaşadığı evə isə xatirə lövhəsi vurulub.



## ŞƏHİD SAKİT

Allah şəhid adını yaraşdırdı adına,
Sən bir müqəddəs kimi qayıtdın Yaradana.
Şəhid nurun çiləndi, Sakit, iki cahana,
Torpağın hər qarışı əmanətindir bizə
Cənnətin gözəl yeri bir məskən oldu sizə.

On il vətən səngəri sənə ev-eşik oldu,
Gözlərinin önündə çox gəncin ömrü soldu.
Neçə silahdaşının qisası qəlbə doldu,
O qanların qisasın qiyamətə qoymadın
Qəhrəman Sakit kimi tarixə düşdü adın.

Neçə döyüş yazıldı sənin alın yazına,
Tərtər, Suqovuşanda sən yetişdin arzuna.
O yerlər şahid oldu sənin son avazınla,
"Azadlığın mübarək" dediyin kəlmələrə.
Şəhidim, əzəmətin sığışmır cümlələrə.

***09.02.2023***



ƏSGƏRZADƏ XƏYAL
İSRAFİL OĞLU

MAHHXHQ
(*Kiçik çavuş*)

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## "QİSAS QİYAMƏTƏ QALMAYACAQ!"

*Vətənə azadlıq bəxş edən qəhrəmanların çoxları uğrunda can verdikləri yerlərin təkcə adlarını bilirdilər. Heç zaman həmin torpaqlara addım atmayan həmin qəhrəmanlar ruhları ilə o yerlərə sevdalanmışdılar. Hələ uşaqlıqdan hər zaman işğal altında olan torpaqların uğrunda neçə qəhrəmanın candan keçdiyini öyrənənlər özləri bir qəhrəman olmağı xəyallarda təsvir edirdilər. Bir gün şəhidlərin qisasını alacaqlarını dilə gətirən həmin böyükürəkli körpələr gün gəldi özləri böyük qəhrəmana çevrildilər. Mübariz İbrahimov şəhid olanda xatirə dəftərinə* ***"Qisas qiyamətə qalmayacaq!"*** *yazan Xəyal sözünün üstündə durdu və o qisası qiyamətə saxlamadı.*

Ən gözəl xəyalların təməlində dururdu Əsgərzadə Xəyal İsrafil oğlu. 25 dekabr 1995-ci ildə Şəki rayonunun Qayabaşı kəndində ailəsinin tək oğul övladı, bacısı Səbinənin istəkli qardaşı olaraq dünyaya gəlmişdi. Bu ailənin ən böyük zənginliyi mehribanlıq olmuşdu. Zaman ötmüş Xəyal böyümüşdü. 2002-ci ildə Şəki rayon Qayabaşı kənd tam orta məktəbinə qədəm qoymuş, 2013-cü ildə təhsilini başa vurmuşdu. 2014-cü ilin yanvar ayında müddətli həqiqi hərbi xidmətə yollanmışdı. Sərhəd Qoşunlarının Xudat rayonunda yerləşən N saylı hərbi hissəsində xidmət etmişdi. 2015-ci ilin iyul ayında xidmətini başa vurmuşdur. Bir



müddət fərdi işlərlə məşğul olmuşdu. 2017–2018-ci illərdə Şəki rayon Turan qəsəbəsində ictimai polis işləmişdi.

Hər dəfə şəhid xəbəri gələn zaman ***"Mən artıq bacarmıram, gedib qisas alacağam"*** deyən Xəyal daha VIII sinifdə oxuyanda C.Naxçıvanski adına Hərbi Liseyə getmək istəyərkən əngəl olunan Xəyal deyildi. Bu dəfə o israrlı idi. Nə olur olsun, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu olacaq. İsrafil kişi və Ruxsarə xanım tək oğul övladlarının bu seçimi ilə razılaşdılar. Çünki Xəyalın bu fikirdən dönməyəcəyini bilirdilər.

2019-cu ilin ilk ayında Mingəçevir şəhərində kursu uğurla keçən Xəyal Əsgərzadə Goranboy rayonunda yerləşən N saylı hərbi hissədə MAHHXHQ olaraq xidmətə başladı. Xidmətdə fərqləndiyinə görə diplomlarla, fəxri fərmanlarla təltif edildi. Kiçik çavuş hərbi rütbəsinə layiq görüldü.

**Xəyalın atası İsrafil Əsgərzadə:**

– Baladan doymaq olmur bilirəm. Ancaq Xəyal sentyabrın 20-də hərbçi yoldaşı Nihatla bərabər bizimlə görüşməyə gələndə bilsəm, onu daha çox bağrıma basardım. *(Şəhid atasının göz yaşı heç dinmədi.)*

Biz də hər kəs kimi müharibənin başladığını televiziyadan öyrəndik. Döyüşlər başlayan ilk andan Talış kəndi istiqamətində ən öndə irəliləyənlərdən biri də Xəyal olub. Son dəfə oktyabrın 9-da danışan zaman ***"3–4 gün məndən zəng gəlməsə narahat olmayın"*** dedi. İstəmirdi nigaran qalaq. Ondan sonra Xəyaldan xəbər gəlmədi.

Sonradan məlum oldu ki, Xəyalgilin dəstəsi 3 gün Suqovuşan istiqamətində mühasirədə qalıblar. Sonra çətinliklə çıxıblar. Hücuma keçən zaman Xəyal mərmiyə tuş gəlib. Birtəhər sürünərək digər tərəfə keçməyi bacaran Xəyalı xilas etməyə çalışıblar. Savaşın içində həyatla savaşan qəhrəmanın son sözləri ***"Atama deyin ağlamasın. Mən kişi kimi vuruşmuşam"*** olub.

Xəyaldan bir xəbər çıxmadığını görən ata və qohumları hər yerdə onu axtarmağa başlayırlar. Tərtərdə, Gəncədə, Beyləqanda, Yevlaxda xəstəxanalarda axtarılan Xəyalın xəstəxanaya girişi olduğunu lakin heç yerə çıxışı olmadığını deyirlər. Xəyal öncələr də bir dəfə yaralanıb və döyüşə geri qayıdıbmış. Oktyabrın 18-də əmisi Elçin müəllim Yevlaxdakı morqda Xəyalın nəşini tapır. 18 oktyabrda şəhidin nəşi doğulduğu kəndə gətirilir. Xəyalın müqəddəs nəşi izdihamlı dəfn mərasimi ilə Qayabaşı kənd məzarlığında dəfn olunur.

MAHHXHQ (kiçik çavuş) Əsgərzadə Xəyal İsrafil oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Laçının azad olunmasına görə" medalı və"Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Subay olan şəhidimizin yeganə əmanəti vətənin azadlığıdır.

## ŞƏHİD XƏYAL

Səndən nə qaldı, şəhid,
Bu vətəndən savayı?
Sən necə bağışladın,
Vətənə ömür payı?

Mübarizin qisasın,
Mübariz kimi aldın.
Onun pak dünyasına,
Sən özün də ucaldın.

Vətən andın pozmadın,
Ömrünün sonunadək.
Dizin-dizin süründün,
Sən torpağı öpərək.

Göz dikib göy üzünə,
Gülümsədin son dəfə.
Sən rahatlıq tapmışdın,
Çün çatmışdın hədəfə.

Şəhidlərtək qan ilə,
Suvardın vətən bağın.
Arzunun gövdəsiyçün,
Budadın qol-budağın...

***04.02.2023***





### ƏLƏSGƏRZADƏ SƏNAN MUXTAR OĞLU

**MAHHXHQ**

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## BƏY LİBASI ƏVƏZİNƏ KƏFƏN GEYİNƏN ŞƏHİD

*...Nişanlı cavanların səadəti üzüldü,*
*Gözdən xoşbəxtlik deyil, kədər yaşı süzüldü...*

*Hər evdə dünyaya övlad gəldiyi zaman valideynlər o övladın xoşbəxtliyini görməyi, layiqli övlad kimi böyüməyini arzu edirlər. Analar oğul toyunda qol qaldırıb oynamağın, atalar oğul ilə kama çatmağın xəyalını qururlar. Hər çətinliyə güc gəlmək üçün bir səbəb olur o xəyallar. "Bir gün övladımla ağ günə çıxacağam" deyib övladı böyütmək üçün ömrünü fəda edən bəzi valideynlər "Arzuma çatdım" deyəcəkləri zaman bir fırtınaya düşərlər. O fırtınada xoşbəxtliyə gedən yolu itirər, sonu olmayan qaranlıq bir yola çıxarlar. Muxtar kişi ilə Heyran xanım da Sənanla tam kama çatacaqdılar ki, arzuları gözlərində qaldı.*

Üç övladı (Gülnar, Elmas və Sənan) olan valideynlər heç düşünməzdilər ki, gün gələcək onların da oğulları Qarabağın xilaskarına çevriləcək. Hətta bir deyil, iki oğulları birdən.

II Qarabağ müharibəsində vətənin haqq savaşında mübarizə aparan qardaşlar çox oldu. O qardaşlar sırasında Elmas və Sənanın da adı yer aldı. O qardaşlar ki uşaqlıqdan əmiləri Qarayev Mikayıl Ələsgər oğlundan müharibənin necə bir dəhşət olduğunu dinləyirdilər. Axı I Qarabağ müharibəsində Mikayıl Qarayev

dörd ildən çox o müharibənin iştirakçısı olmuşdu. Əminin dilə gətirdiyi hər yaşanılmış hadisəni həm Elmas, həm də Sənan uşaq düşüncəsinə yazmış, zamanı gələndə isə o torpaqların azadlığı uğrunda candan keçməyə hazır olmuşdular. Elmas Kəlbəcərin azadlığından müjdə verən "Kəlbəcərin azad olunmasına görə" medalı ilə mükafatlandırılan veteran, Sənan isə şəhid olmuşdur.

"Şəhid Sənan" dedikdə xəyallarımızda bir qəhrəman canlanır. Bəs kim idi bu qəhrəman? Necə bir ömür yaşamışdı? Bu və digər sualların cavabını oxuduqca öyrənəcəksiniz.

Ələsgərzadə Sənan Muxtar oğlu 10 oktyabr 1995-ci ildə Şəki rayonunun Əliyar kəndində dünyaya göz açıb. Bir payız günü gəlişi ilə ailəsini sevindirən Sənan 25 il sonra bir payız günü zamansız gedişi ilə sevdiklərini kədərə qərq etdi.

Babasının adını soyadında qürurla daşıyırdı Sənan. O, 2002-ci ildə Şəki rayon Əliyar kənd natamam orta məktəbində birincilər sırasında Ələsgərzadə Sənan adı da yer aldıqda çox sevinmişdi. IX sinfi bitirdikdən sonra atasının ən böyük dəstəkçisi olmuş və atasının qayğılarına ortaq olmuşdu. Vətən keşiyini çəkməyin zamanı gəldiyində əsgərlər sırasında yer almışdı. 2013-cü ilin oktyabr ayında həqiqi hərbi xidmətə gedən Sənan ilk olaraq Hacıqabulda iki ay xidmət etmiş, daha sonra Xüsusi Təyinatlı Qüvvələrin Lənkəran rayonunda yerləşən N saylı hərbi hissəsində xidmətini davam etdirmişdi. Müddətli həqiqi hərbi xidməti bitirən zaman evlərinə getmədən Quba rayonuna getmiş müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kimi Daxili Qoşunların N saylı hərbi hissəsində xidmətə başlamışdı. Bir çox təlimlərdə iştirak etmiş və fəxri fərmanlara layiq görülmüşdü.

Sənan Ələsgərzadə yeddi il vətənə xidmət edib. Vətən müharibəsində Daxili Qoşunların 66 şəhidindən (1 hərbçimiz isə itkin düşüb) biri kimi tarixdə iz qoyan Sənan döyüşlər zamanı böyük şücaətlər göstərib. Əbəs yerə silahdaşları ona "Bəbir" ləqəbi verməmişdilər. O, düşmənin gözlərinə dik baxan qəhrəman idi. Kəskin baxışından və hədəfindən düşmən yayına bilməzdi.

Sənan üçün vətənin səngəri, dağı, daşı ev-eşik idi. Gecə-gündüz demədən günlərlə təlimlər keçir, hərbi bilik və bacarıqlarını daha da təkmilləşdirirdi. Elə son dəfə sentyabrın 20-də də evə təlimdən birbaşa gəlmişdi. Doğmalarının üzünü cəmi 1 saatlıq görən Sənanın heç ayaqqabısını çıxarmağa zamanı olmamışdı. ***"İşimiz düşməni məhv etməkdir"*** deyən Sənan müharibə ilə bağlı heç bir söz demədən doğmaları ilə vidalaşmışdı. Bu vida ailəyə edilən son vida olmamış, sentyabrın 21-də ailənin digər övladı Elmas da ailəsi ilə vidalaşıb çağırışçı kimi təlimlərə yollanmışdı. Hər iki qardaşın döyüş yolu müharibənin ilk günündən



başlamışdı. Elmaz mübarizəyə Murov istiqamətindən, Sənan isə Füzuli rayonu istiqamətindən başlamışdı.

Sənan döyüşlər zamanı onların dəstəsinə tərəf irəliləyən düşməni görüb. Həmin vaxt irəli atılaraq düşmənə tərəf atəş açan qəhrəman ***"Analarını ağlatdım"*** deyib. Füzuli, Cəbrayıl, Xocavənd, Hadrut, Qubadlının azad olunmasında danılmaz zəhməti olan Sənan Laçın dəhlizi uğrunda da mübarizə aparanlardan biri olub. 19 oktyabrda qol nahiyəsindən qəlpə yarası alıb. O, yarasını bağlayaraq bir qol ilə döyüşü davam etdirib. ***"Şəhidlərin qanlarının qisasını almışam"*** deyə-deyə son damla qanına qədər vuruşub. Döyüş yolu 19 oktyabrda şəhid kimi başa çatıb. Sənanın son şahidlərindən biri olan qazi Hüseynov Araz Namizəd oğlu Sənanla dostluğunun təməlindən və son döyüşə qədər yaşadıqlarından danışdı.

**Qazi Araz Hüseynov:**

– Mən Kürdəmir rayonununda Sənan isə Şəki rayonunda dünyaya gəlsək də, həyat yollarımız 2015-ci ildə kəsişdi. Hər ikimiz hərbi sahənin eyni ixtisasını seçdiyimiz üçün demək olar ki, günün 24 saatını birlikdə keçirirdik. Həm dost, həm qardaş, həm sirdaş, həm də silahdaş idik. Son döyüşdə isə döyüş yoldaşı olduq.

Biz Daxili Qoşunların Xüsusi Təyinatlı Qüvvələrində xidmət edirdik. Müharibə başlamazdan öncə 130 nəfərin arasından seçilib 052-nin tərkibinə qatılan 46 nəfərdən biri mən, biri də Sənan oldu. Müharibə başlayanda ilk olaraq Füzuli rayonunun Qaraxanbəyli kəndi istiqamətindən hücuma keçdik. Neytral xətti yardıqdan sonra minalanmış ərazini keçib ön xətdə çatdıq. Düşmənlə bir həftə vuruşduq. Növbəti hədəf Cəbrayılı azad etmək idi. Lələtəpə istiqamətindən irəliləyib beş gün boyunca əhəmiyyətli yerləri azad etdik. Sənanın qismətində 25 yaşını Hadrut qəsəbəsində keçirmək var imiş. Oktyabrın 10-da dedi ***"Bu gün mənim ad günümdür. Çox şükür, bu gün ən böyük arzuma çatdım. İşğal altında olan torpaqlarımızın azadlığı ən böyük hədiyyəmdir."*** Mən ona bir corab, bir şokolad verdim. Bilməzdim ki, dostuma verdiyim son hədiyyədir. Anbaan irəliləyərək vətənə daha çox ümid olmağa çalışırdıq. Çatdığımız növbəti məkan Xocavənd rayonu idi. Bizim dəstə Xocavənd rayonunun Qırmızı Bazar istiqamətində önəmli yüksəkliyi azad edib yolu nəzarətə götürməli idi. Bilirdik ki, çətin olacaq. Ancaq biz son nəfəsimizə qədər mücadilə etməkdə qərarlı idik. Oktyabrın 19-da həmin o döyüşdə son nəfəsini verən qəhrəmanlarımız çox oldu. Komandirimiz mayor Şixamir Qaflanov, Həmid Abbasbəyli, Camal İsmayılov, Sübhan Cəbrayılov, Şəhriyar Quliyev, Elton Qənbərli, Sahib Məmmədov, Surxay Mehdiyev (atası da I Qarabağ müharibəsində şəhid olub), Elyar Vəliyev, Tərzan Həşimov və Sənan Ələsgərzadə həmin yüksəklik uğrunda gedən döyüşlərdə şəhadətə ucaldılar. Elə mən də həmin döyüşdə yaralandım. Yaralanmamışdan öncə Sənanı yaralı gördüm.

Bir qolunu digər əlində tutub gülə-gülə ***"Görəsən mən bəy kostyumu geyinə biləcəm? Mənə toy qismət olacaq?"*** deyirdi. Ancaq Sənanın çatmadığı arzularından ən çox qəlb dağlayanı elə o arzusu oldu. Bəy libası yerinə kəfən geyindi.

Neçə döyüş yoldaşım gözlərimin önündə can verdi. Komandirimiz Şixamir Qaflanovun şəhid olması bütün dəstənin başsız qalması ilə nəticələndi. O döyüşlərdə göstərilən şücaətləri komandirimiz öz qəlbində cənnətə apardı. Çoxları o şücaətlərdən xəbərsizdir. Silahdaşlarımı itirsəm də, hər yerdə gözlərim onları axtarır. Varlıqlarını hiss edirəm.

Ailənin iki oğlu eyni anda döyüşdə olduğu üçün onların gecələri gündüzə dönür. 20 oktyabrda Muxtar kişi kəndin axundunu yolda gördüyü zaman ürəyinin döyüntüsü artır. O, iki oğlundan birinin şəhid olduğunu düşünür. Ancaq hansı? Elmas, yoxsa Sənan? Bu sual qısa müddət sonra cavabını tapır. Məlum olur ki, Sənanın nəşi artıq Şəkidədir. Ata və ana şəhid olan oğullarının gəlişi ilə param-parça olur. Axı onlar belə xəyallar qurmamışdılar. Nişanlı olan Sənanın toyuna hazırlaşan ata-ana üçün o anı yaşamaq ölümdən betər idi. Deməli ki, Sənanın qismətinə öz toyunda "Vağzalı" eşitmək yazılmamışdı. Əgər qismətində olsaydı, 2019-cu il aprelin 4-nə danışılan toyu pandemiya səbəbindən təxirə düşməzdi. "Vağzalı"sı ağılarla əvəz olunan Sənanın tabutu 20 oktyabrda cəmi 15 dəqiqə ata ocağında qaldıqdan sonra son mənzilə yola salındı. Şəki rayonunun müqəddəs yerlərindən hesab olunan Şeyx Osman ziyarətgahı daha bir şəhidin son mənzili oldu. Haqq savaşında 34 gün mübarizə aparan Elmas 3 gün sonra qardaşının məzarını həmin ziyarətgahda ziyarət etdi. O an qardaş ürəyi cayır-cayır yandı.

MAHHXHQ Ələsgərzadə Sənan Muxtar oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı və "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilib.

Əliyar kəndində xeyirxah insanların təşəbbüsü ilə Şəhidlər abidəsi inşa edilib.



## ŞƏHİD SƏNAN

Qanın qarışdığı o qanlı torpaq,
Ovcuna yaxılan toy xınan oldu.
Sonuncu mənzilə üz tutduğun gün,
Hər kəsin gözləri buludtək doldu.

Nə yaman tez bitdi ömür kitabın,
Boş qalan vərəqlər qəlbi dağladı?!
Məzarda həkk olan tarixi görən,
Məzarın önündə ayaq saxladı.

Axı bu deyildi sənlə bağlanan,
Ümidlər, xəyallar, arzular, Sənan.
Sən xalqçün, vətənçün şam kimi yandın,
İndi ürəklərdi səninçün yanan.

Qolunda şəhidlər can verən biri,
Bir də qardaş dərdin necə daşısın?
Döyüşdən nəfəsi üstündə dönən,
Qardaşsız həyatda necə yaşasın?

Yaman ağrılıdır bu şəhid dərdi,
Qəlbin bu dərdinə məlhəm tapılmaz.
Bir də qüruru var şəhid dərdinin,
O qürur olmasa, tab etmək olmaz.

***03.02.2023***



MƏMMƏDOV ELMƏDDİN
MİKAYIL OĞLU

MAHHXHQ

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## OYNADIĞI ROLU GETDİYİ YOLU OLAN ŞƏHİD

*Bəzən insan özü də bilmədən gələcəkdə olacaq hadisələri öncədən hiss edir və xəyalından keçirir. Bir zamanlar dilə gələn bir söz və ya oynanılan bir rol bir müddət sonra həyatda yaşanılır. Bir zamanlar ssenari əsasında şəhid rolu oynayan Elməddin o zaman öz həyatını səhnələşdirdiyindən xəbərsiz idi. O, bir gəncin vətən sevgisini, vətənin uğrunda canından keçməyini həmin rolu ilə nümayiş etdirmişdi. II Qarabağ müharibəsində isə oynadığı rolu həyatda yaşadı. Bir zamanlar şəhid rolu ilə izləyicilərin könlünü fəth edən qəhrəman şəhid adı ilə bütün xalqın qəlbini fəth etdi. Oynadığı rol gedəcəyi yol oldu.*

Məmmədov Elməddin Mikayıl oğlu Qurani-Kərimin işığı ilə aydınlanan bir ocaqda dünyaya gəlmişdi. 30 iyul 1995-ci ildə Şəki rayonunun Şəki kəndində yaşayan Mikayıl və Qaratel Məmmədovlar ilk övlad sevincini yaşamışdılar. Ailənin ən böyük arzusu Elməddinin imanlı, əməlisaleh bir bəndə olması idi. Elməddin 1 yaşında olarkən Mikayıl kişinin Turan qəsəbə məscidinin imamı və Dini İcmanın sədri seçildiyi üçün ailəsi ilə birlikdə Turan qəsəbəsinə köçmüşdü. Ailəsi həm Elməddini, həm də ikinci övladları Fəzaili Allah, vətən sevgisi ilə böyütmüşdü. Hər iki qardaş həyatı dərk edəndən atalarının şəhidlərin məqamı haqqında aydın fikirlərini dinləmiş və şəhadətə sevdalanmışdılar.



Körpələrin ilk arzuları sırasında məktəbə getmək arzuları yer alır. Məktəbə getməyi sanki böyüdüklərinin sübutu kimi görürlər körpələr. Elməddin o arzusuna 2001-ci ildə çatır. Şəki rayon Turan qəsəbə tam orta məktəbinə qədəm qoyur. Təhsil aldığı zamanlarda vətənpərvərlik duyğusu ilə seçilir. Hər zaman Qarabağ və ətraf rayonların işğal tarixini ürək yanğısı ilə dilə gətirir. Məktəbdə oxuduğu zaman Vaqif Mustafayevin ekranlaşdırdığı "Xoca" filmində rol alır. Ailəsinə demədən çəkilişlərə qatılır. Soyuq qış günü dağlarda çəkilən filmdə Elməddin şəhid rolunu oynayır. Hər zaman arzusunda olduğu şəhid rolunu elə içdən oynayır ki, sanki gerçək həyatdaymış kimi. Gecə evə gəldiyində suya, palçığa batmış üst-başını görən ailəsinə soyuqdan yox, şəhidlikdən danışır. Ürəyi köksünə sığmırmış kimi, sözlər yetmirmiş kimi, gözləri dola-dola oynadığı rolu izah edir.

***– Mən bu gün o rolu oynayarkən o duyğuları sanki yaşadım. Şəhidlər ən uca zirvədədir. Mən o zirvəyə ucala bilmərəm. Kaş ki şəhid olardım.***

Allah o an dilənən müqəddəs arzunu eşitdi. İllər sonra Elməddin arzusuna çatdı.

Elməddin 2013-cü il 30 iyulda ad günündə həqiqi hərbi xidmətə gedib. Füzuli rayonunun Horadiz qəsəbəsində düşmənlə üz-üzə mövqedə yerləşən N saylı hərbi hissədə xidmət edib. Düşmənin atəşkəsi pozduğu gecələrə çox şahid olub Elməddin. Xidmət etdiyi yerlərdə neçə günahsızın qanının axdığını düşünərək düşmənə daha çox nifrət edib. 2015-ci ilin ilk günü xidmətini başa vurub.

Elməddin hər zaman ailəsinə dəstək olmaq üçün çalışıb. Bu ailədə harama yer olmayıb. Ata-anası Elməddinin ailə quracağı günü səbirsizliklə gözləyiblər. Onlar sanki Elməddinin ömrünün qısa olacağından xəbərdar imişlər. 2018-ci ildə valideynlər arzularına çatıblar. Elməddin 20 avqust 2018-ci ildə könül verdiyi Gülsüm xanımla ailə qurub. Xoşbəxt, firavan ailənin ən şirin payı 20 aprel 2019-cu ildə dünyaya gəlib. Ay parçasına bənzəyən körpəyə Hilalə adı verilib. Elməddin Hilalə ilə sanki yenidən doğulub. Ata sözünün mənasını dərk etmədən atasını itirən Hilalə sanki atalı böyüyüb və sonradan kiçilib. Düşüncəsi hər kəsi heyrətə salır. Kim bilir yuxularında atası ilə nələr yaşayır...

2020-ci ilin iyul ayında baş verən Tovuz döyüşləri zamanı Polad Həşimov şəhid olduqdan sonra Elməddin qəti qərarla hərbçi olacağını deyib. Ailəsi Elməddinin fikrində qərarlı olduğunu görüb və onun fikrinə hörmətlə yanaşıb.

Elməddin Goranda kurs keçərək müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kimi xidmətə başlayıb. İllərlə şəhid olmaq arzusunda olan Elməddin bu arzuya bir addım da yaxınlaşıb. Son dəfə 20 sentyabrda evlərinə gələn zaman sanki hər kəslə halallaşıb və vidalaşıb. ***"Ana, narahat olma, qismətdə nə varsa, onu yaşayacağıq"*** deyib. Həyat yoldaşına ***"Əgər şəhid olsam, anaatamdan ayrılma. Hilaləmi onlarla birlikdə böyüt"*** deyib.

Elməddin də Vətən müharibəsinin ilk günlərində döyüşə başlayan qəhrəmanlarımızdan biridir. O, Tərtər, Suqovuşan uğrunda mübarizə apararıb. Oktyabrın 6-da doğmalarına zəng edən zaman hər kəslə danışıb. ***"Ana, söz ver ki, ağlamayacaqsan"*** deyib. Qaratel ana ***"Oğul, yolun uğurlu olsun"*** deyib. Ana elə bil Elməddini cənnətə yola salıb. Atasını, anasını, yoldaşı və qızını qardaşına əmanət edib. Döyüş yoldaşlarına ***"Biz dincəlməyə gəlməmişik, son nəfəsimizə qədər vuruşmalıyıq"*** deyən Elməddin 6 oktyabrda ailəsi ilə danışdıqdan cəmi iki saat sonra minamyot atəşinə tuş gəlib və qəhrəmancasına şəhid olub.

Elməddinin şəhid olduğunu ertəsi gün atasına deyiblər. Lakin Mikayıl kişi bu məlumata inanmaq istəməyib. Komandirinə zəng edən zaman "Başınız sağ olsun Elməddin Məmmədovu itirdik" sözləri ilə oğlunun şəhid xəbərini alıb. Lakin eşitdiyi o məlumatı tam təsdiq olunana qədər ailəsindən gizlədib. Oktyabrın 26-da Yevlax rayon xəstəxanasında DNT analizi verib. Ümidlərin qatili olan o cümlə dilə gəlib. "Allah sizə səbir versin. Allah Elməddinə rəhmət eləsin."

Noyabrın 1-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəki Rayon İdarəsindən şəhidin nəşinin gətirildiyi bildirilir. Elməddinin gələn yollarına göz yaşı çilənir. Şəki Rayon İcra Hakimiyyətinin başçısı və icra nümayəndələri, hərbçilər və rayon ictimaiyyətinin iştirakı ilə vida mərasimi keçirilir. Həmin vida mərasimində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəki Rayon İdarəsinin rəisi Elməddin Məmmədovun döyüşə getdiyi zaman dilə gətirdiyi vəsiyyətini açıqlayır.

***– Əgər mən şəhid kimi dönsəm, atam və anam tabutum üzərində gələn bayrağı şəhid olduğum yerdə ucaltsınlar.***

Arzuya bax, İlahi...

Turan qəsəbə məzarlığında dəfn olunan Elməddinin vəsiyyəti bir müddət sonra yerinə yetirilib. Mikayıl kişi və Qaratel xanım Suqovuşanın azadlığı uğrunda can verən övladlarının tabutu üzərində gələn bayrağı Suqovuşanda ucaldıblar. Daxilən şəhid oğul dərdi ilə yıxılsalar da, övladlarının müqəddəs adına sığınıblar.

MAHHXHQ Məmmədov Elməddin Mikayıl oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin əmrinə əsasən şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Cəsur döyüşçü" medalı və "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.



## ŞƏHİD ELMƏDDİN

Bir zamanlar şəhidlik rolunu oynayaraq,
O anın duyğusunu gözlər önünə sərdin.
Kim bilir ki, sən rolda son nəfəsini verən,
Hansı şəhid yerində o an özünü bildin?!

Şəhidlər məqamına həsrət ilə baxaraq,
Özünə şəhadəti diləyərdin Allahdan.
O müqəddəs məqama gedib yetişmək üçün,
Qəlbini yan tutardın pis əməldən, günahdan.

O qədər ali hisslə sevirdin ki, vətəni,
Sevgindən boylanırdı azadlığın duyğusu.
Sənin kimi igidlər sayəsində qovuldu,
Qarabağ torpağından rəzil torpaq oğrusu.

Şəhadət arzusuna çatan qəhrəman kimi,
Ürəklərdə əbədi yaşayırsan, Elməddin.
Ötsə də qərinələr, min illərə calansa,
Xalq qanında dövr edər sənin müqəddəs sevgin.

*13.02.2023*



**İSMAYILOV HÜSEYN FƏRMAN OĞLU**

MAHHXHQ

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## DÜŞMƏNİN TEXNİKASI İLƏ DÜŞMƏNİ MƏHV EDƏN QƏHRƏMAN

*Şuşa hər birimizin xəyallarımızda cənnətin yer üzünə düşən əksi kimi canlanırdı. Böyüklərimiz o yerləri elə vəsf edirdilər ki, ruhumuzla sevdalanırdıq o cənnət diyara. İllər idi əsrarəngiz şəhərin həsrətini biz, səfasını isə düşmən çəkirdi. Bundan böyük iztirab varmı? Daha Şuşanı arzularda istəməkdən yorulmuşduq. Biz o arzulara çatmaq istəyirdik. 2020-ci ilin payızında o arzularımız çiçək açdı. Azərbaycan ordusunun Hüseyn və onun kimi qəhrəman oğulları Şuşaya çatan qəhrəmanlar oldular. O yoldan şəhid kimi dönən həmin qəhrəmanlar sayəsində Azərbaycan xalqının Şuşa həsrəti bitdi. Vətən həsrətini bitirib Şuşaya yol açan qəhrəmanın ömür və döyüş yolundan hər kəs xəbərdar olmalıdır.*

29 iyun 1991-ci ildə Şəki rayonunun Qayabaşı kəndində dünyaya göz açıb qəhrəman İsmayılov Hüseyn Fərman oğlu. Özündən böyük bacısı Təhminə və Orxan kiçik qardaşları Hüseyni bacı-qardaş sevgisi ilə əhatələyiblər. Övlad valideynin gücüdür. Fərman kişi, Gülsurə xanım övladlarını firavan böyütmək üçün çalışıblar. Zəhmətlə keçən hər günün sonunda ailənin bir stol ətrafına cəm olunması qədər sevindirici nə ola bilər ki? Ən böyük xoşbəxtlik ailənin birliyidir.

Hüseyn 1998-ci ildə Şəki rayon Qayabaşı kənd tam orta məktəbinə qədəm qoyub. İdmana xüsusi marağı olub. 2009-cu ildə məktəbi bitirib.



Ürəyi vətən sevgisi ilə döyünənlərdən biri də Hüseyn İsmayılov olub. Ən böyük arzusu vətənə layiq bir vətəndaş olmaq olan Hüseyn 2010-cu ilin oktyabr ayında müddətli həqiqi hərbi xidmətə yollanıb. Astara rayonunda yerləşən N saylı hərbi hissədə xidmət edib. 2012-ci ilin aprel ayında xidmətini başa vurub. Ancaq Hüseyn bir hərbçi kimi vətənə xidmət etməkdə qərarlı olub. Ona görə də cəmi bir neçə gün sonra Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində MAHHXHQ kursunu oxumağa başlayıb. Üçaylıq kursu uğurla başa vurduqdan sonra Bakı şəhər Müşfiq qəsəbəsində yerləşən N saylı hərbi hissədə PDM-də mexaniki sürücü kimi xidmətə başlayıb. Üç il həmin hərbi hissədə xidmət etdikdən sonra təyinatla Beyləqan rayonunda yerləşən N saylı hərbi hissəyə göndərilib. Həmin vaxtdan müharibəyə gedənə qədər eyni hərbi hissədə xidmət edib.

Hüseyn müharibənin nə demək olduğunu yaşayaraq bilən qəhrəmanlardan biri idi. 2016-cı ildə Aprel döyüşlərinin iştirakçısı olan Hüseyn cəmi dörd gündə qocalmağın mümkünlüyünün sübutu idi. Lələtəpə istiqamətində döyüşən qəhrəman həmin döyüşlər bitdikdən uzun müddət sonra geri döndüyündə müharibənin dəhşətini gözlərində gətirir. O gözlər neçə şəhidin məzar yeri idi...

2018-ci ildə "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı ilə təltif olunanlardan biri də Hüseyn olub. Onun hərbçi kimi qazandığı biliklərin vətənin azadlığı uğrunda yararlı olması böyük amalı idi. O, 29-cu yaşında amalına çatdı.

Ailə kiçik bir dövlət hesab edilir. Ata-anasının ailə üçün fədakarlığını görən Hüseyn 2012-ci ilin oktyabr ayında Fərqanə xanımla ailə qurur. Ailənin iki övladı olur. 19 avqust 2013-cü ildə Yağmur, 28 mart 2015-ci ildə isə Arda dünyaya gəlir. Hüseynin ailəsi də onunla bərabər xidmət etdiyi Beyləqan rayonunda yaşayır.

Vətən müharibəsinin başladığı ilk andan önə doğru addımlayanlardan biri də Hüseyn olub. Füzuli rayonu istiqamətindən döyüşə başlayan qəhrəman alınan hər kənddə, hər şəhərdə iz qoyub. Cəbrayıldan keçib Qubadlıya getdiyi zaman Qubadlıya cəmi 6 km qalmış Hüseynin idarə etdiyi PDM düşmən tərəfindən vurulur. İlk atəş zamanı PDM-dən çıxmağı bacaran heyət sürünərək 50 metr uzaqlaşdıqdan sonra düşmən növbəti dəfə həmin texnikanı minamyotla vurur. Hüseyngilin az öncə içindən çıxdıqları PDM gözlərinin önündə yanıb külə dönür. Bundan hiddətlənən Hüseyn çox keçmədən oktyabın 18-də düşmənin canlı qüvvəsini məhv edib onların PDM-ni ələ keçirir. Yaralı olsa da o, xəstəxanaya getməkdən imtina edir. ***"Qisasa qisas"*** deyərək həmin texnikanı Beyləqandakı xidmət etdiyi hərbi hissəyə aparır.

Hüseyn artıq bilirdi ki, hər dəfə birinci dəfəki kimi şanslı olmaya bilər. Ona görə də oktyabrın 19-da ailəsini götürüb Şəkiyə aparır. Həmin vaxt nəşini əlləri ilə göndərdiyi İsmayılov Vüsal Nəbi oğlunun Oğuz rayonunun Xal-xal kəndindəki

məzarını ziyarət edib. İki saat sonra doğmaları ilə vidalaşdıqdan sonra yenidən Beyləqandakı hərbi hissəyə dönür. Düşməndən götürdüyü hərbi qənimətə əl gəzdirdikdən sonra düşməni öz texnikaları ilə məhv etmək üçün yenidən döyüş bölgəsinə gedir. Şuşaya qədər həmin hərbi texnika ilə saysız-hesabsız düşmən məhv edir. Şuşaya çatdıqdan sonra texnikanın irəliləyə bilməyəcəyi yerdə əlbəyaxa döyüşlərə qoşulur. Tarixin ən böyük qələbəsinə imza atan qəhrəman Şuşanın azad olunduğu sevincini yaşayır. Uşaqlıqdan qəlbini əsir alan ən böyük arzuya çatan Hüseyn noyabrın 9-da 8 nəfərlik dəstə ilə mühasirəyə düşür. Qeyri-bərabər döyüşdə son nəfəsinə qədər mübarizə aparan qəhrəmanı üzbəüz vura bilməyəcəyini bilən düşmən snayperlə kürəyindən vurur. Arxadan vurulan zərbə ilə Hüseyn şəhadətə ucalır.

Düşmən özünə yaraşan rəzil davranışlarından əl çəkmir. Onlar Azərbaycan hərbçisinin cansız cismindən də qorxduqlarını hələ illər öncə Mübariz İbrahimovun nəşinin qollarını bağlayan zaman sübut etmişdilər. Bu dəfə də rəzil düşmən eyniylə şəhidlərimizin nəşləri ilə savaşır. Hüseynin nəşini çəkib öz səhifələrində yerləşdirirlər. Telefonu ilə zəng edərək qardaşı Orxanla danışırlar. Bir qardaşın yaşaya biləcəyi ən dözülməz anları yaşayır Orxan. Qardaşının şəhid xəbərini düşməndən alan qardaşın sözləri iliyimə qədər işlədi.

**İsmayılov Hüseynin qardaşı Orxan:**

– Son dəfə qardaşımla noyabrın 10-da səhər danışmışdım. Şuşada olduqlarını və döyüşün şiddətli olduğunu dedi. ***"Danışa bilmirəm"*** deyib telefonu söndürdü. O sönən telefona bir daha cavab vermədi. Ta ki o gün bilmədiyim dildə biriləri o telefona cavab verənə qədər. Biriləri bir şey deyirdi. Erməni olduqlarını bilirdim. Qardaşımın telefonunun düşməndə olması və onların rus dilində Hüseyni öldürdüklərini deməkləri mənim diri-diri can verməyim idi. Günlər idi qardaşımı axtarırdım. Bəlkə, düşmən Hüseynin telefonun tapıb bizə yalan məlumat verir fikrinə inanmaq istəyirdim. Ancaq tanışların göndərdiyi o video o acı gerçəyin sübutu idi. Düşmənin çəkib yaydığı videoda Hüseynin nəşi aydın sezilirdi. O gündən aldığım nəfəslə boğulurdum. Füzuli hospitalına getdiyim gündən qardaşımı axtardım. Rəzil düşmən əməllərindən əl çəkməmişdi. Noyabrın 14-də atamı DNT analizinin götürülməsi üçün Füzuliyə apardım. Atama o xəbərin təsdiqlənməsi üçün vasitəçi olması çox ağır gəlirdi. 30 noyabrda ömrümüzü qaraya bürüyən "Verilən analizin nəticəsində Hüseynin şəhid olduğu təsdiq olundu" cavabını aldıq. Qardaşımın cansız cismini təhvil alıb Füzuli rayonunun Əhmədbəyli kəndindəki məscidə apardım. Orada Hüseynin cismi öncə kəfənə büküldü sonra bayraqlı tabuta qoyuldu. Nə qədər çətin olsa da, mən qardaşlıq borcumu yerinə yetirməli idim. Qardaşımın nəşini 30 noyabrda Şəkiyə gətirdik. Gecəni morqa



yerləşdirildi. Ertəsi gün səhər 11:00-da Hüseynin tabutunu son dəfə evimizə gətirdim. İki körpəsinin, gənc yaşda qaraya bürünən yarının çarəsizliyi qarşısında belim büküldü. Anamın oğul fəryadı ilə ürəyimdə alov çatıldı. 1 dekabr 2020-ci ildə Hüseynin cismi Qayabaşı kənd məzarlığında canından keçdiyi torpağa qovuşdu. İllər boyu qoynunda şəhidləri uyuyan kəndin azadlıqdan müjdə verən dörd şəhidinin sonuncusu Hüseyn oldu.

MAHHXHQ İsmayılov Hüseyn Fərman oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Cəbrayılın azad olunmasına görə" medalı, "Xocavəndin azad olunmasına görə" medalı, "Füzulinin azad olunmasına görə" medalı, "Cəsur döyüşçü" medalı, "Şuşanın azad olunmasına görə" medalı və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

## ŞƏHİD HÜSEYN

Dünyanın acısın dərk edən gündən,
Bilirdin Qarabağ eli dardadı.
Sən iki döyüşdə izini qoydun,
Şahidtək, şəhidtək, vətən övladı.

Aprel döyüşündə Lələtəpədə,
Düşmənin arzusun gözündə qoydun.
Gözlərin önündə canını verən,
Neçə qəhrəmanın son sözün duydun.

Sonuncu döyüşdə ölümdən dönüb,
Düşmənə intiqam dərsini keçdin.
Düşmən texnikasın əldə eləyib,
Erməni əsgərin zəmitək biçdin.

Vətənçün tökülən hər damla qanın,
Qisasın alaraq cənnətə getdin.
Dilə gətirdiyin şəhid arzuna,
Şuşanın zəfərin yaşayıb yetdin.

***13.02.2023***



## LƏTİFOV FƏRİD QİYAS OĞLU

MAHHXHQ

*(2022-ci il 12-14 sentyabrda Azərbaycan–Ermənistan sərhəd toqquşması zamanı şəhid olmuşdur.)*



## QISA ÖMÜRDƏN OXUNAN BİTMƏYƏN SALNAMƏ

*Bəzi insanların yaşadıqları ömür yoluna nəzər saldıqda düşünürük: necə ola bilər ki, bu qədər qısa ömrə bu qədər yaşanılmışlar sığsın? Fəridin ömür yoluna nəzər saldıqda isə bu qədər qısa ömrə bu qədər döyüşün izi necə düşə bilər? – deyirsən. Uşaq vaxtı yalnız adını eşitdiyi torpaqların hər birinin azad olunması üçün mübarizə aparmışdı Fərid. Kəlbəcərdən Füzuliyə, Cəbrayıla, Xocavəndə, Şuşaya alın təri ilə, ömür haqqı ilə yol açmışdı bu qəhrəman. Bəzən ölümlə üz-üzə gəldiyi anlar da olmuşdu. Ancaq həyatda yaşamaq üçün mücadilənin də qalibi olmuşdu. Qəlbi qalibiyyətin ən gözəl ritmi ilə döyünmüşdü. Onun dünyaya gəldiyi gün doğmalarının qəlbinin döyündüyü kimi.*

Lətifov Fərid Qiyas oğlu bir evin tək oğul övladı idi. O, 10 oktyabr 2001-ci ildə Şəki şəhərində dünyaya göz açmışdı. Qiyas və Anjelika Lətifovlar ilk övladları Elnarədən sonra Fəridi qucaqlarına almışdılar. Onlar üçün övladları dünyanın ən böyük xoşbəxtliyi idi. Bütün valideynlər üçün övlad ən böyük dəyər, ən böyük sevgi və sevincdir. Övladın xoş gün yaşaması üçün valideynlər çalışırlar. Fəridin valideynləri də həmin valideynlərdən idi.

Sevgi ilə əhatələnən insan ətrafını da sevməyi bacarır. Fəridin sevgi dolu qəlbi var idi. O, 2007-ci ildə Şəki şəhər 20 nömrəli tam orta məktəbə qədəm qoyan ilk gündən hər kəs tərəfindən sevildi.

Fəridin idmana böyük marağı olub. Elə bu marağı VI sinifdə onu idman məktəbinə gətirib. Məktəbi bitirənə qədər idmanın karate növü ilə məşğul olub. 2018-ci ildə məktəbi bitirib. İdman Akademiyasına sənəd versə də, qəbul olmaq üçün topladığı bal yetərli olmayıb.

Fərid 18 yaşı tamam olduqdan 4 gün sonra müddətli həqiqi hərbi xidmətə yollanıb. Gəncə şəhərində yerləşən N saylı hərbi hissədə xidmətə başlayıb. Andiçmədən sonra Cəlilabad rayonunda 052-də xidmətini davam etdirib. Fərid Xüsusi Təyinatlı Dəstənin kəşfiyyat bölüyünə könüllü olaraq qatılıb. Hər an döyüşə hazır olub. Bunu Vətən müharibəsi başlayan ilk andan büruzə verib. Döyüşlər başlayanda Kəlbəcər istiqamətində mübarizəyə başlayıb. Füzuli, Cəbrayıl, Xocavənd, son olaraq isə Şuşada döyüşüb. Noyabrın 8-də Şuşadan anasına zəng edib. O sevincli xəbəri bölüşüb. Telefon danışığından qısa müddət sonra yanına minamyot düşüb. Həmin vaxt güclü kontuziya alıb. Öncə Saatlı rayonunda, sonra Şəmkir rayonunda yerləşən xəstəxanalarda müalicə alıb. Səhhətindəki problem aradan götürüləndə Cəlilabad rayonundakı xidmət etdiyi hərbi hissəyə gedib.

Fərid döyüşlərdə göstərdiyi şücaətlərə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin əmrinə əsasən "Kəlbəcərin azad olunmasına görə" medalı, "Füzulinin azad olunmasına görə" medalı, "Cəbrayılın azad olunmasına görə" medalı, "Xocavəndin azad olunmasına görə" medalı və "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif edilib.

Vətən müharibəsi zamanı Fəridin komandiri Mehdi Şıxəliyev şəhid olur. Bir çox əsgərlər komandirlərinin intiqamını almaq üçün and içirlər. Fərid də 2021-ci ildə müddətli həqiqi hərbi xidməti başa vursa da müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kimi qalıb xidmət etməkdə qərarlı olur. Üç ay kurs keçdikdən sonra MAHHXHQ kimi xidmətə başlayır. 2021-ci ilin noyabr ayında Fərid Bakı şəhərindəki N saylı hərbi hissəyə göndərilir. İyul ayının sonlarında Daşkəsən-Kəlbəcər istiqamətində təlimlərə başlayır.

Anjelika ana hər zaman Kəlbəcərin adından bir nisgil, bir həsrət duyarmış. Fərid Kəlbəcərdə təlimlərə qatıldığını dediyi zaman ananın ürəyi səksənib. Sanki oğlunun o dağlarda, qayalarda can qoyub cansız cisminin gələcəyini hiss edib.

Fərid sentyabrın 12-də səhər anasına zəng edir. Hal-əhval tutur. Atasını, bacısını soruşur. ***"Özünüzə yaxşı baxın"*** deyib vidalaşır. Həmin gecə Anjelika ana yuxuda oğlunu görür. Fəridin ***"Ana, yatma oyan. Ana, ana, oyan"*** deməsi ilə yuxudan dik atılır. Tez telefonu götürür. Sosial şəbəkələrə baxdığı an yuxusunun səbəbi məlum olur. Hər yerdə "Düşmən Kəlbəcər istiqamətində növbəti dəfə genişmiqyaslı təxribat törədir. Şəhidlərimiz və yaralılarımız var" sözləri yazıldığını görür. Artıq ananın ürəyinə od düşür. Gecəni həyətdə oturub əl açıb əsgərləri Allaha



əmanət edir. Səhər açılar-açılmaz Fəridə zəng edir. Fəridin cavab verməməsi ananın narahatlığını daha da artırır. Sonra Fəridin silahdaşlarına zəng edir. Lakin heç kim zənglərə cavab vermir. Sentyabrın 15-nə qədər Fəriddən heç bir xəbər çıxmır. Sentyabrın 15-də Qiyas kişi səhər işə gedir. İş yerində qudası o dəhşətli xəbəri ataya çatdırır. Qısa müddət sonra Qiyasın evə döndüyünü görən Anjelika xanım "Qiyas, Fəridə nə olub?" deyir. Artıq sükutdan sonra o, sualın cavabının nə olacağını bilir. Həyətə qaçan ana küçədəki izdihamı, bayraqları görür və o an işıqlı dünyası zülmətə qərq olur. 15 sentyabr 2022-ci ildə Fəridin cansız cismi qəhrəmanlar oylağı olan Şəki rayonuna gətirilir. Şəki şəhərində ata ocağında bir neçə dəqiqə qonaq olduqdan sonra Şəki şəhər II Şəhidlər xiyabanında sonuncu şəhid kimi dəfn edilir.

Hələ şəhadətindən öncə 5 medal ilə təltif edilən MAHHXHQ Lətifov Fərid Qiyas oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra isə "Vətən uğrunda" medalı və "Azərbaycan bayrağı" ordeni ilə təltif edilib.

Bir zamanlar Fəridin varlığı ilə şənlənən küçədə daha Fəridin adına inşa edilmiş bulaq var. Onun ömür izi nə vətəndən, nə də xatirələrdən silinməz.

## ŞƏHİD FƏRİD

Sınıq aynalara əksini salıb,
Əlini qoynunda büküb adamlar.
Hansı təsəlliyə meylini salsın,
Həsrətin qəlbini məskən alanlar?!

Dünyadan getməni yaraşdırmırdı,
Dünyanı əbədi məskən bilənlər.
Fərid, azadlığın müjdəçisidir,
Varlığın vətənə qurban verənlər.

Az yaşda hünərin dillərə düşdü,
Bizlərə yaşatdın şanlı Zəfəri.
Düşmən pəncəsindən xilas elədin,
Şəhid əmanəti o Kəlbəcəri.

Döyüşdən geriyə sağ qayıtsan da,
Hərbçi andını pozmadın bir an.
Şəhidlər şahidi qəhrəman Fərid,
Kəlbəcər uğrunda sən də verdin can.

Şəkinin sonuncu şəhidi kimi,
Torpaq sinəsində yerini aldın.
Zirvədə bərq vuran bayrağımıztək,
Şəhid adın ilə Fərid, ucaldın.

*17.04.2023*





**KƏRİMOV ELTUN ZAUR OĞLU**

**KİÇİK ÇAVUŞ**

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## VƏTƏN HƏSRƏTLİ OĞUL

*Ayrılıq – kəlmələrin ən ağrılarından biridir. Dilə gələndə ürək yanıb külə dönər. Hər insan ayrılıq adlı imtahana bir cür çəkilər. Kimi doğmasından ayrı düşməklə, kimi isə vətənindən ayrı düşməklə. Eltun o imtahana vətəndən ayrı düşməklə çəkildi. Vətən həsrəti ilə yaşa dolan uşaqların ürəyində vətənə olan sevgi tam ayrı olur. Sanki uzaqlarda isti bir ana qucağı səni gözləyirmiş kimi. Eltun da o ana vətənin qucağına sığındı. Şəhid kimi...*

Eltunun qismətində qürbətdə dünyaya göz açmaq var imiş. 1 fevral 2001-ci ildə Rusiya Federasiyasının Sverdlovsk vilayətinin Krasnaturinsk şəhərində dünyaya göz açan Kərimov Eltun Zaur oğlu ailəsinin ilk övladı olmuşdur. Özündən sonra Banu adlı bacısı və Pərviz adlı qardaşı dünyaya gəlmişdir.

Eltun ilk dəfə məktəbə də vətəndən uzaq qürbət ellərdə gedir. Karpinski şəhərində 5 nömrəli məktəbdə təhsil almağa başlayır. Eltun vətəndən uzaqda yaşamaq, ana dilində deyil, rus dilində təhsil almaq istəməsə də, həyat onu bunlara məcbur edir. Lakin Eltunun istəyi ilə ailəsi 2015-ci ildə vətənə qayıdır. Eltun IX sinfi Şəki şəhər 9 nömrəli tam orta məktəbdə başa vurur. Müəyyən səbəblərdən X–XI sinifləri oxuya bilmir.

Eltunun zəhmətini valideynləri qədər çəkən daha bir insan var idi. Babası Ramiz kişi Eltun Azərbaycana qayıdandan sonra onun qayğısını bir valideyn kimi

çəkirdi. Babasıgildə qalan Eltun elə həqiqi hərbi xidmətə də baba evindən yola düşür. Nəvəsi hərbi xidmətə gedən baba ona ziyafət təşkil edir. Qohum-tanış Eltunun başına toplaşır. Hər kəslə vidalaşan Eltun 3 aprel 2019-cu ildə müddətli həqiqi hərbi xidmətə yollanır. Goranboy rayonunun Ballıqaya kəndində yerləşən N saylı hərbi hissədə xidmətə başlayır. Üç ay sonra xidmətini Tərtər rayonunda davam etdirir. Qumbaraatan vəzifəsini icra edir. 2019-cu ilin noyabr ayında 10 günlük məzuniyyətə gəlir.

2020-ci il fevralın 1-də Eltunun 19 yaşı tamam olurdu. Həmin gün valideynləri Eltunu tək qoymamışdılar. Övladlarının yeni yaşını hərbi hissədə qeyd edən valideynlər onun yeni yaşında arzularının çin olmasını diləmişdilər. Heç bilməzdilər ki, Eltunun şəhid olmaq arzusu çin olar. Həmin görüş Eltunun ailəsi ilə son görüşü olmuşdu. Çünki qısa müddət sonra yaranan pandemiya səbəbindən əsgərlərin ailələri ilə görüşünə icazə verilməmişdi.

Eltun Kərimov xidməti dövründə nizam-intizamı, bacarığı ilə seçilirdi. Elə onun nəticəsi idi ki, o, həqiqi hərbi xidmətini kiçik çavuş rütbəsi ilə başa vurmuşdu. Bəli, başa vurmuşdu. Eltun hərbi biletini alınış və ailəsinə üç gün sonra gələcəyini demişdi. Ancaq qismət olmadı.

Sentyabrın 26-da Eltun qardaşı Pərvizə zəng edəndə ***"Gəlməsəm anam, atam, bacım sənə əmanətdir"*** deyib. Müəllimlərinə zəng edib halallıq alıb. Deməк ki, Eltun getdiyi ünvanın hara olduğunu yaxşı bilirmiş. Sentyabrın 27-də Aybəniz xanım oğlu ilə danışan zaman telefonda "Eltun, hazırlaş gedirik" sözlərini eşidib. Anası oğlundan hara getdiyini soruşanda Eltunun cavabı ***"Ana, təlimə gedirik. Məndən zəng gəlməsə, nigaran qalmayın"*** olub.

Sentyabrın 27-də Eltun Goranboy rayonunun Tapqaraqoyunlu kəndi istiqamətindən azadlıq yollarını qədəmi ilə nurlandırıb. Talış kəndi istiqamətində vuruşub. 28 sentyabrda Suqovuşan istiqamətində gedən döyüşlər zamanı onun da içində olduğu PDM-in vurulması nəticəsində ağır yanıq xəsarətləri alaraq şəhadətə ucalıb. Lakin onun şəhid olduğunu ailəsi uzun müddət bilməyib.

Artıq günlər ötdükcə Eltunun səssizliyi daha çox qorxudurdu. Hər kəs Eltunu axtarırdı. Doğmaları Bərdə, Yevlax, Gəncə xəstəxanalarında, morqlarda Eltunun axtarışına çıxmışdılar. Ən böyük yük isə Eltunun dayısı Elnurun boynuna düşmüşdü. Çünki saysız-hesabsız ağır yaralı və şəhidlərə "Eltun olar" ümidi ilə baxıb. Artıq Eltunun şəhid olğunu dayısı dəqiq bilirdi. Ancaq prosedur gərəyi DNT testi verilməli idi. O ağır yükü də dayı öz çiyinlərinə götürür. O, 18 oktyabrda Eltunun atasını bir yaralıya qan verməyin vacib olduğu bəhanəsi ilə xəstəxanaya aparır. Oktyabrın 25-də Eltunun şəhid olduğu analizin cavabı ilə təsdiq olunur.



Aybəniz ana illər idi xəstəliklə mübarizə aparırdı. Elə bələdiyyə nümayəndələrinin həmin günə qədər Eltunun şəhid olduğunu deyə bilməmək səbəbi də ananın xəstəliyi olub. Ancaq 25 oktyabrda "Başınız sağ olsun" sözlərini duyan valideynlər artıq övladlarının sağ olmadığı gerçəyini anlayıblar. Həmin gecə Eltunun nəşi Şəki şəhərinə gətirilib.

Bir evə şəhid tabutu gələn zaman hər kəs o tabutun öz evinə gəldiyini hesab edər. Oktyabrın 26-da Eltunun tabutu gələndə də hər kəs canından bir can ayrılmış kimi hiss etdi. Çünki o can xalqın, vətənin, torpağın, bayrağın yolunda fəda olmuşdu. Həmin gün xalq qəhrəman oğlunu Şəki şəhər II Şəhidlər xiyabanında əbədiyyətə uğurladı.

Kiçik çavuş Kərimov Eltun Zaur oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin əmrinə əsasən şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Suqovuşanın azad olunmasına görə" medalı və "Laçının azad olunmasına görə" medalı ilə təltif edilib.

Dodu qəsəbəsində şəhid Eltunun adına bulaq inşa edilib. Hər kəs qəhrəmanını qəlbində yaşadır. Əməlində yaşadanlar da az deyil.

## ŞƏHİD ELTUN

Sənin bəxt payına ayrılıq düşdü,
Vətən ayrılığı, yurd ayrılığı.
Körpə yaşlarında dərk eləmişdin,
Düşmən fitnəsini, riyakarlığı.

Qürbətdə yaşayıb yaşa dolsan da,
Vətənçün, torpaqçün geri dönmüşdün.
Qürbət eldə vətən sızıltısının,
Məlhəmsiz olduğun hiss eləmişdin.

Bütün yoxluqlara sinə gərirdin,
Var olan vətənin bütövlüyüçün.
Eltun, sənin kimi igid oğullar,
Göstərdi düşmənə ordumun gücün.

Son dəfə şəhidtək döndün elinə,
Əbədi torpağın balası oldun.
Səni doğma bilən neçə insanın,
Qəlbinə sağalmaz bir yara vurdun.

***16.03.2023***





**VƏLİCANOV SÜLEYMAN MABUD OĞLU**

**ƏSGƏR (Könüllü)**

*(1992-ci ildə I Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## DAŞALTIDA BİTƏN ÖMÜR

*Azərbaycanın hərb tarixinə bir çox soyqırımların, faciələrin izi düşdüyü kimi bir çox uğurlu və uğursuz döyüş əməliyyatlarının da izi düşüb. Təssüf hissi ilə qeyd edirəm ki, Daşaltı əməliyyatı ən uğursuz əməliyyatlardan biri olub. Şuşanın taleyinin həll olunacağı həmin əməliyyat bilinən və bilinməyən səbəblərdən məğlubiyyətlə nəticələnib.*

*1992-ci il yanvarın 25-də axşam saat 20:00-da Azərbaycan Ordusu Daşaltı kəndini azad etmək məqsədilə hücuma keçir. O hücum qərarı uzun müddət düşünülərək verilən bir qərar olsa da, nəticə gözlənilən kimi olmur. Əməliyyatda yenicə yaranmış Azərbaycan Ordusunun könüllülərdən ibarət 3 bölüyü və Şuşa şəhərinin müdafiə taborunun döyüşçüləri iştirak edir. Taktiki səhvlər, qruplar arasında rabitə əlaqəsinin olmaması, əməliyyat sirrinin yayılması və başqa naməlum səbəblərdən Nəbilər kəndi istiqamətindən Daşaltıya daxil olan Azərbaycan taqımları düşmənin pusqusuna düşərək tamamilə məhv edilir. Kəndə daxil olmuş bir neçə taqım isə xeyli itki verərək geri çəkilir. Yanvarın 26-da axşam saatlarında Daşaltı əməliyyatı uğursuzluqla başa çatır. Rəsmi məlumatlara görə, Daşaltı əməliyyatında Azərbaycan ordusu 90 nəfərdən artıq itki verib, onlarla əsgərdən isə hələ də bir xəbər yoxdur. Döyüşdə ermənilər də bir neçə texnika və 80-ə yaxın canlı qüvvə itirir. Həmin döyüşlərdə böyük rəşadət göstərən və düşmən əlinə*

*keçməyi özünə təhqir bildiyi üçün qumbara ilə özünü partladan bir qəhrəman həyatının izinə düşdüm.*

Vəlicanov Süleyman Mabud oğlu 13 sentyabr 1964-cü ildə Şəki rayonunun Baş Göynük kəndində dünyaya gəlib. Ailənin 6 qız, 4 oğul övladından 5-ci Süleyman olub.

Süleyman 1971-ci ildə Şəki rayon Baş Göynük kənd 2 nömrəli tam orta məktəbə qədəm qoyub. 10 illik təhsilini başa vurduqdan sonra o da hər bir gənc oğlan kimi hərbi xidmətə yollanıb.

Süleyman Vəlicanov SSRİ dövründə Rusiya Federasiyasının Perm şəhərində müddətli həqiqi hərbi xidmət keçib. İki ilik xidmətini başa vurduqdan sonra vətənə dönüb. Sonra işlədiyi yerin göndərişi ilə komsomol bileti ilə təcrübə toplamaq üçün Tenza şəhərinə gedib. Bir il də vətəndən uzaq qaldıqdan sonra təkrar vətənə dönüb. Sonra Mətanət xanımla ailə həyatı qurub və Bakı şəhərinə köçüb. Ruziyə adlı bir qız övladı olub. Hər kəsin ona ehtiyacı olduğunu bilə-bilə vətənin də ona ehtiyacı olduğunu düşünərək vətənin uzana qalan əllərini tutub.

Vətən o illərdə sinədə daşa, gözlərdə yaşa dönmüşdü. Qeyrətli oğullar vətənin o halına göz yuma bilmirdilər. Həmin o oğullardan biri də Süleyman oldu. 1991-ci ilin soyuq qış aylarında ürəyini isidən vətən sevgisi ilə könüllü olaraq cəbhəyə yollandı. Şuşanın başıqarlı dağlarının ətəyində canı ilə sipər oldu o qeyrət qalası, mədəniyyət incimizə. 1992-ci il yanvarın əvvəlində evə gələn zaman ailəsi ona "Getmə" desə də, o, qərarından dönməyəcəyini, gərəkirsə vətən üçün öləcəyini dedi. Körpəsini doya-doya öpüb-qoxladıqdan sonra cəbhəyə getdi. O gediş son gediş oldu.

Olduqca önəmli bir tapşırıq idi. Artıq hər kəs kimi Süleyman da ***"Öldü var, döndü yoxdur"*** deyərək irəli getməyə tam qərarlı idi.1992-ci il yanvarın 25-i axşam saatlarında verilən bu qərarın Şuşanın taleyinin həll olunacağı bir qərar olduğunu hər kəs yaxşı bilirdi. 150-dən çox döyüşçünün iştirakı ilə Daşaltını azad etmək üçün hücuma keçilir. Ancaq Süleymangilin dəstəsi mühasirəyə düşür. Arxadan kömək gələcəyi deyilsə də, heç bir kömək gəlmir. Əsl gerçəyi həmin an anlayan dəstənin bütün üzvülərinə atəş açılır. Möcüzə nəticəsində cəmi iki nəfər sağ qalır. Bütün bu olanlar da həmin o sağ qalan iki nəfərin sayəsində gün işığına çıxır.

Düşmən əlinə yaralı və ya sağ düşmək bu dünyada cəhənnəm əzabını yaşamaq deməkdir. Elə o səbəbdən də Süleyman düşmən əlinə düşməmək üçün sonuncu qumbara ilə özünü partladır. Budur cəsarət, budur şücaət, budur qeyrət.

Süleymanın ailəsi onun Daşaltı istiqamətində olduğunu bilirdi. Daşaltıda baş verən hadisələri eşidən zaman ailəsi onunla əlaqə yaratmağa çalışsa da, bu mümkün olmur. Bu səssizliyin isə təkcə bir səbəbi ola bilərdi – Süleymanın artıq



həyatda olmaması. O səssizlik 20 gün sonra şəhid xəbəri ilə pozulur. Süleymanın neytralda qalan nəşini götürmək mümkün olur. Fevralın 16-da atası Bakı şəhərindəki xəstəxanada oğlunun nəşini əlində olan döymədən tanıyır. Həmin gecə Süleymanın nəşi ata ocağına aparılır. Son gecə evində qonaq olan Süleyman 17 fevralda Şəki rayon Baş Göynük kənd məzarlığında torpağa tapşırılır.

Süleymanın adını daşımaq, o ada layiq olmaq böyük məsuliyyətdir. O məsuliyyəti Süleymanın qardaşı Rasimin övladı daşıyır. Bir şəhid adına layiq olmaq üçün Süleyman hər zaman çalışır.

Şəhid anası Zərifə xanım 2011-ci ildə, Şəhid atası Mabud dayı 2012-ci ildə bu dünyadan əbədiyyətə ürəyində şəhid dərdi aparıblar. Əbədiyyətdə ruhları övladlarından heç ayrılmasın.

## ŞƏHİD SÜLEYMAN

Şuşa sənin qəlbinin sağalmaz yarasıydı,
Şuşa bu ulu xalqın ən ali duasıydı,
Şuşa neçə şəhidin kəsilən sədasıydı,
İstəmirdin şəhidlər əmanəti o torpaq,
Yağı düşmən ayağı altında olsun tapdaq.

Daşaltı torpağına ümid olmaq istədin,
Düşmənlərə qəlbində kin-küdurət bəslədin,
Döyüşlərdə bir hünər, qəhrəmanlıq göstərdin,
Əsir düşəcəyini anladığın həmin an,
Şirin canına qıyıb, şəhid oldun, Süleyman.

Vətən üçün qoyuldu ömrünün son nidası,
Ağır olur şəhidin etdiyi əlvidası,
Düz otuz il bitmədi Daşaltının cəfası,
Qanın axan torpağı ordumuz azad etdi,
Qarabağ, Şuşa dərdi nəhayət sona yetdi.

***09.05.2023***





**RƏSULOV NAMAZ MÜSƏBBƏT OĞLU**

ƏSGƏR

*(1992-ci ildə I Qarabağ müharibəsində itkin düşmüşdür.)*

## NAMƏLUM HƏYAT HEKAYƏSİ

*Bəzən şəhid ömürlərinin izinə düşdükdə qarşılaşdığım acı gerçəklər məni həm çox üzür, həm də çox təəccübləndirir. Bu dəfə təəccübüm sətirlərə sıçrayacaq qədər böyükdür. Necə ola bilər ki, bir itkinin itkin düşdüyü yer belə bəlli olmasın? O qədər qısa ömür ki, sanki Namaz bir göz qırpımında dünyaya gəlib və dünyadan köçüb. Ondan qalan tək bircə şəklini çətinliklə əldə etdikdən sonra təəccübüm və təssüfüm daha da çoxaldı. Axı bu uşaqdır? Həm də gözlərindəki qüsur aydın şəkildə sezilir. Bəs o dövürdə necə olub ki, Namazı hərbi xidmətə aparıblar? Bütün bu suallar ürəyimi didib-parçaladı.*

*Bir insanın həyatından qısa məqalə yazmaq məni çox incidir. Toxunulmaz hesab etdiyim şəhid həyatında sadəcə bir neçə məlumat ala bilmək də çox üzücüdür. Ancaq ən üzücü olanı isə onun naməlum taleyidir.*

Rəsulov Namaz Müsəbbət oğlu 17 avqust 1974-cü ildə Şəki rayonunun Kiçik Dəhnə kəndində dünyaya göz açmışdı. Valideynləri 12 dəfə valideyn olmaq sevincini yaşasalar da, cəmi 6 övladı böyütmək qismətləri olmuşdu. Onların da birinin itkin düşəcəyindən xəbərsiz qalan övlad payları üçün valideynlər Allaha şükür edərək yaşamışdılar.

Namaz 1981-ci ildə Şəki rayon Kiçik Dəhnə kənd 1 nömrəli məktəbdə təhsil almağa başlamış, IX–X sinifləri isə Kiçik Dəhnə 2 nömrəli tam orta məktəbdə oxumuşdu.

Rəsulov Namaz Müsəbbət oğlu 1992-ci ilin aprel ayında müddətli həqiqi hərbi xidmətə yola düşüb. Hər bir əsgər anası kimi Zərifə ana da oğlunun sağ-salamat qayıtması üçün dua edib. Ancaq o dualar qəbul olunmayıb. Namazın doğmaları son dəfə elə həmin gün görüblər Namazı. O gündən sonra Namazdan bir səs-səda gəlməyib. Nə hansı döyüşdə itkin düşdüyü bəlli deyil, nə varlığı, nə də yoxluğu.

Övladlarının naməlum taleyi ata-anasının çəkə bilmədiyi könül yükünə çevrildi. İllərlə övlad yolu gözləsələr də, Namaz geri dönmədi. Ata 2005-ci ildə, ana isə 2010-cu ildə "Namaz" deyə-deyə dünyadan köçdülər.

Namazın bacısı oğlu Rəsulov Nurlan Vasif oğlu dayısının qisasını 44 günlük Vətən müharibəsində alan qəhrəmanlardan biridir. Namaz kimi neçə-neçə qəhrəmanın gedib dönmədiyi yollara Nurlan kimi qəhrəmanlar iz saldılar.



## İTKİN NAMAZ

Naməlum ömrünün izinə düşmək,
Qəlbimin sağalmaz yarası oldu.
İlahi, görəsən düşmən gülləsi,
Namazı harada, bəs necə vurdu?

Bilinmir vətənin hansı guşəsi,
Onun son anının son şahididir.
İgidlər oylağı olan Şəkinin,
Namaz da itkini, bir şəhididir.

Allahın seçdiyi müqəddəs bəndə,
Vətənin dar günü dadına yetib.
Hər kəs onu doğma bilir özünə,
Kəm qalan həyatı vətənçün bitib.

Bu millət unutmaz vətən yolunda,
Can fəda eləyən qəhrəmanları.
Tanımaq, tanıtmaq bir borcumuzdur,
Vətən torpağına qarışanları.

*04.05.2023*



**MƏMMƏDOV VÜQAR İSMAYIL OĞLU**

ƏSGƏR

*(1992-ci ildə I Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## VƏTƏN DAŞI

*Qəlbin vətən sevgisinin ünvanına döndükdən sonra cisminin harada olmağının bir önəmi yoxdur. Lap dünyanın o başına getsən də, yenə vətən sevgisi, vətən həsrəti səni doğma məmləkətinə gətirəcək. Vətənin yaşamağa da, ölməyə də ən gözəl yer olduğunu hər birimiz bilirik. Qürbətdə yaşayanlar isə bunu daha gözəl bilirlər. Vüqar da qürbətdə yaşamağın, vətən həsrəti çəkməyin nə demək olduğunu yaxşı bilirdi. O, vətənin işğalına tab gətirə bilməyərək qürbətdən vətənə dönüb və vətənə əsl vətəndaş olub. Sonra isə Vətən daşı olub.*

Məmmədov Vüqar İsmayıl oğlu 17 avqust 1972-ci ildə Şəki şəhərində dünyaya göz açmışdır. 6 övladlı (3 oğlan, 3 qız) ailənin sonuncusu olan Vüqar İsmayıl kişinin və Polyus xanımın ən ərköyün övladı olmuşdur.

Vüqar 1979-ci ildə Şəki şəhər 10 nömrəli tam orta məktəbə getmiş və həmin məktəbin məzunu olmuşdur. Məktəbi bitirdikdən sonra Rusiya Federasiyasının İrkutsk şəhərinə getmişdir və bir müddət orada yaşamışdır.

1988-ci ildən sonra Ermənistanın Azərbaycan torpaqlarını işğal siyasəti daha da aydın şəkildə görülürdü. 1990-cı ildən bu siyasət soyqırımlarla nəticələnirdi. Bu soyqırımları, törədilən vəhşilikləri eşidən Vüqar Rusiya vətəndaşlığından imtina edərək vətənə dönür. 1991-ci ilin sonunda müddətli həqiqi hərbi xidmətə getmək üçün müraciət edir. 1992-ci ilin aprel ayında Vüqar xidmətə çağırılır. Bakı



şəhərində Daxili Qoşunların N saylı hərbi hissəsində xidmətə başlayan qəhrəman komandirlərin "Kim Qarabağda döyüşmək istəyir?" sualına ***"Mən"*** deyərək önə çıxır. O, Qarabağın müdafiəsinə yollanır.

Vüqar Məmmədov bir çox döyüşlərdə iştirak edir. Milli Qəhrəman Çingiz Mustafayevlə çiyin-çiyinə vuruşur. Xocalı rayonunun Naxçıvanik (indiki Naxçıvanlı) kəndi uğrunda gedən döyüşlərdə mübarizə aparır. Həmin o döyüşləri Milli Qəhrəman Çingiz Mustafayev lentə aldığı kadrlarla bütün dünyaya çatdırır. Çingiz Mustafayev 1992-ci ilin iyun ayının 15-də Naxçıvanik kəndində gedən döyüş zamanı çəkiliş apararkən aldığı mərmi qəlpəsindən şəhid olur. Vüqar həmin anların şahidi olur. Çingiz Mustafayevi itirmək hər kəs kimi Vüqarın da düşmənə nifrətini artırır. Qisas andını yenə təkrar deyən Vüqar 13 gün sonra Naxçıvanik kəndində düşmən atəşinə tuş gəlir. Aldığı güllə yarasından qaraciyəri dağılır və şəhadətə ucalır.

Vüqar şəhid olduğu gün axşamüstü onun şəhid xəbəri gəlir. Şəki 28 iyun 1992-ci ildə 3-cü şəhidini qarşılayır.

Vüqarın tabutu qapının kandarından içəri girəndə çox qısa müddət öncə o qapıdan çıxarkən yaşananları qardaşının yoldaşı Esmira xanım dilə gətirdi:

– Vüqar Bakıya getmək üçün bilet almışdı. Ancaq özünə yer tapa bilmirdi. Sanki tələsirdi. Gedib bacıları ilə vidalaşdı. Sonra getmək vaxtı çatdı. Mən Vüqara müharibəyə getməməsini dedim. Onun isə cavabı belə oldu:

***– Mən mütləq getməliyəm. Vətənin bu günlərində evdə otura bilmərəm. Həm mən subayam qardaşlarım ailəlidirlər. Onlar getsələr, şəhid olduqları təqdirdə siz dul qalacaqsınız. İstəmirəm qardaşlarımın ailələri başsız qalsın. Nə olur mənə olsun. Nə vətənimin, nə sevdiklərimin acısına dözə bilmərəm.***

Vüqar gedəndə şəhid kimi dönəcəyini dilə gətirib. O müharibənin nə demək olduğunu bilirdi. Axı müharibə qurbansız olmur. Vüqar da o qurbanlardan biri olur. 29 iyun 1992-ci ildə Çölyolu kənd məzarlığında torpağa tapşırılır.

Vüqar şəhid olduqdan sonra atası İsmayıl kişi özünə yer tapa bilmir. Gününün çox hissəsini oğlunun məzarı başında keçirən ata "Oğul, gözlə tez bir zamanda yanına gələcəm" deyir. Şəhid atası oğul həsrətinə cəmi 2 il dözür. 3 sentyabr 1994-cü ildə qəfil ürək tutmasından dünyasını dəyişir. Şəhid anası isə 8 noyabr 2008-ci ildə oğluna qovuşur.

Əsgər Məmmədov Vüqar İsmayıl oğlunun adı Şəki şəhərində küçələrin birinə verilib. Bacısı yenicə dünyaya gələn nəvəsinə Vüqarın adını qoyub. Vüqarlar bir ölüb, min dirilər.

Məlumatı alıb bitirən zaman Esmira xanım "Manya xanım, bu gecə Vüqarı yuxumda görmüşdüm. Əsgərlikdən gəlib yatmışdı." dedi. Yenə də təəccübümü gizlədə bilmədim. Şəhidlərim mənimlə birlikdədilər. Onlar bunu hiss etdirirlər və hiss edirəm.

## ŞƏHİD VÜQAR

Vətən, neçə ananın gözündən su içmisən,
Nə qədər soyqırımdan, faciədən keçmisən.
Şəhid adıyla birgə ürəklərə köçmüsən,
Uğrunda candan keçər bu xalqın vətəndaşı,
Elə Şəhid Vüqar da oldu vətənin daşı.

Döyüşlərdə vuruşdu Çingiz ilə yanbayan,
Onların igidliyin duydu xalq, Azərbaycan.
Hər ikisi vətənin uğrunda verdilər can,
Duz basıldı elə bil Xocalı yarasına,
Şəhidlərin adları daha dönüb dastana.

Şəki neçə şəhidin cismin bağrına basıb,
Vüqartək qəhrəmanlar gənc yaşlarında susub.
Çox arzular özünü şəhid qəbrindən asıb,
Ana və bacıların yolduğu telləriylə,
Atalar oğulların dəfn edib əlləriylə.

Candan ayrılan canın yarası hey qanayır,
Şəhid dərdi ürəyi çalın-çarpaz dağlayır.
Atalar var oğlunun qəbrini soraqlayır,
Atalar var can verir oğluna çatsın deyə,
Şəhid dərdi çəkən qəlb bənzər kamana, neyə.

***20.04.2023***



**NƏZİROV AZƏR**
**ORUC OĞLU**

**ƏSGƏR**
***(Könüllü)***

*(1992-ci ildə I Qarabağ müharibəsində şəhid olmuşdur.)*



## DOSTUNUN VƏ VƏTƏNİN DADINA ÇATAN AZƏR

*Bəzən bir səs nəfəsini kəsər. Boğazına dikilərcəsinə, sanki qatilinmiş kimi hiss edərsən. Azərin duyduğu o atəş həmkəndlisi, dostu Afiqi həyatdan ayıran atəşin səsi idi. O atəşlə bir ömrün sonu qoyuldu. O atəş dosta olan sədaqətin rəmzi oldu. Hər şey o an baş verdi. "Afiq şəhid olub" sözləri Azərin düz düşmən üzərinə getməsinin səbəbi oldu. Bilirdi ki, dönməyəcək. Ancaq* ***"Bəlkə, Afiq hələ son nəfəsini verməyib məni gözləyir"*** *düşüncəsi ilə idarə etdiyi tankı düz düşmənin üzərinə sürdü. Elə olanlar da həmin an baş verdi. Bəs kim idi bu qorxu bilməz qəhrəman?*

1973-cü il 25 yanvar günü dünyaya gəlmişdi illər sonra vətənə ümid olacaq Nəzirov Azər Oruc oğlu. Üç qardaş, bir bacı həyatın ağuşuna atılmış və böyümüşdülər. Ömrün şirinliyindən kam alan Azər məktəbli həyatının məsuliyyətini 1973-cü ildən daşımağa başlamış və dünyaya göz açdığı Kiçik Dəhnə kəndindəki məktəbə qədəm qoymuşdu. Alman dilinə xüsusi marağı olan Azərin arzularından biri böyüyəndə tərcüməçi olmaq idi. Daha sonra Şəki Peşə Məktəbinə qəbul olmuşdu. Təhsilini başa vurduqdan sonra müddətli həqiqi hərbi xidmətə yollanmışdı.

Azər Nəzirov Lənkəran rayonunda yerləşən N saylı hərbi hissədə xidmət edib. Azərbaycan torpaqlarına düşmənin nəfs saldığı bir zamanlarda torpaqları müdafiə

etmək vacib idi. Sabah hər şey gec ola bilərdi. Həmin vaxt atası Oruc kişi Azərin yanına gedib. Bu dönəm Azərin başqa bir istiqamətə getməyə hazırlaşdığı dönəmə tuş gəlib. Lakin Azər atasına döyüşə aparıldığını deməyib. O, arxa cəbhəyə aparıldığını deyib. Üç ay sonra evinə dönəcəyini deyən Azər dediyi müddətdən öncə ata ocağına dönüb. Ancaq şəhid kimi.

İnsan arzularının yolunda addımlayır ki, onlara çatsın. Azər də uşaqlıq arzusunu reallaşdırdı. Hələ körpəlikdən kibrit qutularından tank düzəldərək torpaq üzərində düzəltdiyi səngərdə müharibə oyunu oynayan Azər gün gəldi tank üstündə Füzuli torpağında düşmən üzərinə hücuma keçdi. Həmin döyüşlərin şahidləri olan əsgərlərin dediyinə görə, Afiqin şəhid olduğu an Azərin gözləri qan çanağına dönüb. Komandirləri düşmənin daha böyük qüvvə ilə onların üzərinə hücuma gələcəklərini desə də, Azərin gözlərində tək bir amal canlanıb. Afiqin nəşini düşmənə verməmək.

O döyüşlərin şahidlərinin dediklərinə görə, həmin vaxt tankla düşmənə tərəf irəliləyən Azərin tankı vurulur. Həmin an tankdan çıxan Azər piyada düşmən üzərinə addımlayır. Düşmən növbəti dəfə onu ayaqlarından nişan alır. Lakin ayaqlarından aldığı yara da Azərin Afiqə çatmaq amalına əngəl ola bilmir. Sürünərək Afiqə tərəf irəliləyən Azər ona çatmağa az qalmış növbəti dəfə düşmənin açdığı atəşə tuş gəlir. Afiqin nəşini görən Azər dost nəşinə çatmadan özü də şəhid olur. Afiqin nəşinin düşmən əlinə düşməməsi üçün çalışan Azərin də nəşi düşmən tərəfindən götürülür. Bu hadisə hər iki ailəni sarsıdır. Azər və Afiqin nəşi eyni anda düşmən əlinə keçsə də, düşmən onları eyni anda geri verməkdən imtina edir. Çox çətinliklə bir həftə sonra Azərin nəşini almaq mümkün olur. 18 sentyabr 1992-ci ildə şəhid olan Azərin nəşi bir həftə sonra doğma el-obasına gətirilir. Cismi Kiçik Dəhnə Şəhidlər xiyabanında torpağa tapşırılan Azərin ruhunun nigaran olmağı heç kimə sirr deyildi. Çünki onun uğrunda canından keçdiyi dostu Afiqin nəşi də, vətən də düşmən əlində idi. Bir neçə gün sonra Afiqin də nəşi düşməndən alınaraq eyni xiyabanda dəfn olunur. Lakin Qarabağın düşməndən azad olunması uzun illər sonra mümkün olur.

Bəsti (Sevil) ana üçün Azərin bütün xatirələri unudulmaz olsa da, ən unudulmazı onun Xocalı soyqırımının təsirindən heç zaman çıxa bilməməsidir. Hər bir azərbaycanlı kimi qız-gəlinlərimizin başına gətirilən o müsibətlər Azərin də ürəyinə toxunurdu. Onun dediyi sözlər yazacağı əsərin izahı idi. Dedi və etdi.



## ŞƏHİD AZƏR

Sən həsrətin özü oldun,
İki heca bitməz hicran...
Cihad edən insanlartək,
Vətən üçün sən verdin can.

Sən həsrətin özü oldun,
Gözdən axdı qəm yağışı.
Daşdan-daşa çırpılırdı,
Bu vətənin dərdli başı.

Sən həsrətin özü oldun,
Dildən-dilə düşdü adın.
Məzarından imdad umdu,
Sənə həyat verən qadın.

Sən həsrətin özü oldun,
Dosta sədaqətli Azər.
Ruhuna müjdə verirəm,
Qazanmışıq daha zəfər.

Sən həsrətin özü oldun,
Həsrətimiz bitsin deyə.
Sənin kimi qəhrəmanlar,
Qoymadı xalq qəddin əyə.

*04.05.2023*



QURBANOV AFİQ
BƏHLUL OĞLU

ƏSGƏR

*(1992-ci ildə I Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## İKİ DOSTUN SON DÖYÜŞÜ

*Bu vətən parça-parça olmasın deyə oğulların ümidləri, arzuları, cisimləri parça-parça oldu. Vətən naümid qalmasın deyə bütün onlarla bağlı olan ümidlər puç oldu. Vətənin bütövlüyü, suverenliyi, azadlığı uğrunda çox oğullar candan keçdilər. İllərlə sızım-sızım sızlayan işğal yarası kimi şəhid adlı yaramız da sızladı və sızlayır. Şəhidləşən vətənin şəhid olan bir oğlu da Afiq oldu. Düşmənin vətənə çəkdiyi dağdan pay alan Afiq Qurbanov. Vətən dağına məlhəm olmaq üçün ürəklərə vətən boyda dağı düşdü.*

Qurbanov Afiq Bəhlul oğlu 15 aprel 1974-cü ildə Şəki rayonunun Kiçik Dəhnə kəndində Bəhlul və Gülşən Qurbanovların ocağında dünyaya göz açmışdır. Üç qardaş, iki bacı birlikdə yaşa dolmuşdular. 1981-ci ildə Kiçik Dəhnə kənd 1 nömrəli orta məktəbə qədəm qoymuşdu. IV–VIII siniflərdə isə təhsilini Bakı şəhərindəki məktəblərin birində rus sektorunda oxumuşdu. Daha sonra yenidən Kiçik Dəhnəyə qayıtmış və təhsilini Dəmiryol qəsəbəsindəki məktəbdə davam etdirmişdi. Məktəbdən məzun olduqdan sonra müddətli həqiqi hərbi xidmətə getmişdi.

Füzuli rayonunun müdafiəsinə qalxan əsgərlərdən biri də Afiq olur. Afiq həmkəndlisi Azər Nəzirovla eyni istiqamətdə düşmənə müqavimət göstərir. Onlar həm vətəni, həm də biri-birini qorumağa çalışırlar. Ancaq düşmən amansız idi. O amansız düşmənin ilk hədəfi Afiq olur. Afiq düşmənin atəşindən yayına bilmir. Bunu eşidən Azərin qəzəbi birə-min artır. O, Afiqi düşmən əlindən qurtarmaq üçün idarə etdiyi tankla şahin kimi düşmən üzərinə şığıyır. Əslində o bilirdi ki, düşmənin hədəfindədir. Ancaq dostunu sağ və ya cansız düşmən əlində qoya bilməzdi. Lakin Azər də düşmən hədəfindən yayına bilmir. Hər iki həmkəndli 18 sentyabr 1992-ci ildə eyni yerdə şəhid olur. Düşmən onların nəşlərini götürür. Onlar birlikdə can versələr də, düşmən onların nəşlərini eyni vaxtda verməkdən imtina edir. Bir həftə ara ilə hər iki qəhrəmanın, dostun nəşi el-obasına gətirilir və Afiq 3 oktyabr 1992-ci ildə Kiçik Dəhnə kənd məzarlığında torpağa tapşırılır.

Şəki camaatı cəmi bir həftə öncə bir şəhid oğulun ağısını demiş, ağrısını çəkmişdi. Hələ o yara heç sayalanmamış yenidən duz basılmışdı.

Bəhlul kişinin, Gülşən xanımın arzuları cərgəsində övladlarının şan-şöhrətli, adlı-sanlı bir insan olması yer almışdı. Ancaq onlar bu arzunu diləyəndə Afiqin şəhid olmasını nəzərdə tutmamışdılar. Ürəklərində Afiqə qovuşmaq arzusu ilə də dünyadan köçdülər.

## ŞƏHİD AFİQ

Yazan belə yazmış idi,
Taleyini, qismətini.
Doğmaların hey çəkirlər,
Afiq, sənin həsrətini.

Səndən qalan qanlı torpaq,
Bir də nakam arzulardı.
Sənin ömür kitabının,
Çox səhifəsi boş qaldı.

Dostun duydu harayını,
İstədi yetişə sənə.
Onun da cismi tuş gəldi,
Yağı düşmən gülləsinə.

Bir obanın iki oğlu,
Bir obada can verdiniz.
Bayraqlı tabut içində,
Şəki yurduna gəldiniz.

Belə olur bu torpağın,
Havasını duyan insan.
Şəhid, sənlə qürur duyur,
Ulu yurdum Azərbaycan.

***04.05.2023***





**ŞİRİNOV ARAZ
ŞAHİD OĞLU**

**ƏSGƏR**

*(1992-ci ildə I Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## HƏSRƏTİ BÖYÜYƏN ŞƏHİD

*Hər şəhidin ardında gözü yaşlı doğmaları qalır. İllər ötsə də, onlar hər "Şəhid" adı duyduqları zaman yaraları ilk gün qanadığı kimi qanayır. Şəhid dərdinin heç bir zaman unudulmayacağının daha bir sübutu oldu Bəhiyyə ana ilə baş tutan bu söhbətimiz. Şəhid anası oğlunun xatirələrini elə dəqiqliklə və qəlb yanğısı ilə dilə gətirdi ki, o gündən 31 il müddətin ötməsinə özüm tərəddüd etdim. Deməк ki, həqiqətən də, şəhid dərdi hər zaman təzə qalır və heç qapanmır.*

*Bir ananın ürəyinə övlad dərdi düşdüsə, o ananın ürəyindən sevinc gen düşər. Digər övladlarının xoş günlərində belə bir gözü gülər, bir gözü ağlayar. Heç kimsə ana ürəyində balasının boş qalan yerini doldura bilməz. Heç bir söz Bəhiyyə ana kimi bala həsrətli anaların dərdini ovutmaz. Bəhiyyə ananın Araz həsrətini dinləmək ağır gəldiyi kimi yazmağın da ağır olacağını bilirdim. Ancaq nakam şəhid ömürlərinin tarixdə qalması üçün sətirlərə həkk etmək vacib və önəmlidir. Hər kəs qəhrəmanını tanısın. Hər kəs qəhrəmanını yaşatsın.*

Şirinov Araz Şahid oğlu 12 sentyabr 1973-cü ildə Şəki rayonunun Babaratma kəndində dünyaya göz açıb. Ailənin üç oğul, bir qız övladından üçüncüsü olub. Ötən zaman Arazı da böyüdüb. Məktəbli yaşı çatan Araz 1980-ci ildə Şəki rayon Babaratma kənd natamam orta məktəbinə qədəm qoyub. IX–X sinifləri isə Şəki rayon Şorsu kənd tam orta məktəbində oxuyub. Həmin məktəbdə Arazla bərabər

İsmayılov Hacı Qurban oğlu da oxuyub. Bir partada əyləşən dostlar o zaman düşünməzdilər ki, zaman gələcək onların adları Şəhid kimi tanınacaq. Ancaq onların hər ikisinin qisməti I Qarabağ müharibəsinin şəhidi olmaq imiş.

Araz Şirinov 1992-ci il aprel ayının əvvəlində müddətli həqiqi hərbi xidmətə gedib. O, Hacıqabulda xidmətə başlayıb. Sonra Bakı şəhərində Daxili Qoşunların N saylı hərbi hissəsinə göndərilib və xidmətini davam etdirib. Üç ay sonra Qarabağ və ətraf ərazilərdə baş verən döyüşlərə qatılmaq üçün döyüş bölgəsinə gedib. Füzuli rayonu istiqamətində gedən döyüşlərin iştirakçısı olub. Daha sonra Ağdam rayonunun Qazançı kəndi uğrunda gedən döyüşlərə qatılıb. 27 oktyabr 1992-ci ildə Qazançı kəndində güclü döyüşlər gedib. Həmin zaman Arazgilin dəstəsi düşməni susdurmağa nail olub. Döyüş səngiyib. Bir qədər sonra isə 6 nəfərlik dəstənin olduğu yerə top mərmisi atılıb. Həmin zaman 5 nəfər şəhid olub. 1 nəfər isə ağır yaralanıb. Şəhidlərin sırasında Araz da olub.

Arazın şəhid xəbəri oktyabrın 28-də ailəsinə deyilir. Elə həmin gecə də nəşi evinə gətirilir. Bəhiyyə ana son dəfə oğlunu evində qonaq edir. Oğlunun heç bir nişanəsi qalmayan çarəsiz ana oğlunun uzun tellərindən bir parça kəsib saxlamaq istəsə də, ancaq kəsməyə qıymayıb. Ancaq düşmən Arazın ömrünə qıymışdı.

29 oktyabr 1992-ci ildə Arazın cismi izdihamlı dəfn mərasimi ilə Babaratma ziyarətgahında torpağa tapşırılıb. O gündən sonra Bəhiyyə ana ondan oğlunu alan torpaqdan oğlunun qoxusunu alır. Çox dözülməzdir anaların torpağı oğul kimi oxşaması, qoxlaması.

Əsgər Şirinov Araz Şahid oğlu şəhid olduqdan sonra onun şücaətlərini dəyərləndirən komandirləri tərəfindən ailəyə təşəkkürnamələr göndərilib.

Oğul dəfninə şahid olan Şəhid atası Şahid kişi 16 mart 2002-ci ildə əbədiyyətə köçüb.

İllər sonra Araz və onun kimi qəhrəmanların ömrünün bitdiyi yerdə Azərbaycan Ordusunun azadlıq sədası ucaldı. O gün bütün şəhidlər kimi Arazın da ruhu şad oldu. Araz çayı sanki dilə gəlib Xudafərinə zəfər müjdəsin verdi. Azərbaycanlıların məcbur çıxarıldıqları torpaqlara igidlər geri döndülər.



## ŞƏHİD ARAZ

Analar övladı böyüdən kimi,
Övlad həsrətin də hey böyüdürlər.
Balası məzarda yatan analar,
Məzarı balaya beşik bilirlər.

İllər ötüb keçdi ancaq həsrətin,
Ötmədi bir an da, qəhrəman Araz.
Aylar ilə dönüb zaman ötsə də,
Şəhid dərdi qəlbdə heç vaxt sağalmaz.

Ağdamın ağ bəxti qaralan zaman,
Bir atəş ömrünün yolunu kəsdi.
Şəkiyə şəhidtək döndüyün payız,
Sanki qış fəslinin sazağı əsdi.

Dərdin təzə qaldı, dərdin tər qaldı,
Əbədi gənc qalan o ömrün kimi.
İllərdi süzülən göz yaşı yuyur,
Torpağın köksündə olan qəbrini.

***25.04.2023***



MƏMMƏDHÜSEYNOV İLQAR YAVƏR OĞLU

ƏSGƏR

*(1992-ci ildə I Qarabağ müharibəsində itkin düşmüşdür.)*

## ƏSİR DÜŞMƏMƏK ÜÇÜN PARTLADILAN QUMBARA

*Bu həyatda yaşanılan heç bir hadisə təsadüf deyil. Necə ki heç bir insanın yaradılışının təsadüf olmadığı kimi. Biz hər zaman yaşadığımız ömrümüzdə yaşanılan ömürlərə nəzər salırıq. Əbəs deyil şəhid ömürlərinin örnək götürüləcək ömürlər olması. Biz şəhidlərimizin ömürlərinə, atdıqları addımlara nəzər salanda cəsarəti, qeyrəti, şücaəti açıq-aşkar görür və dərk edirik. Düşmənə yenik düşməmək, düşmənə əsir düşməmək, düşmənə vətən verməmək üçün İlqar və onun kimi qəhrəmanlar nələr etmədilər ki?*

*Bu günə qədər düşmən əlinə düşməmək üçün özü-özünə atəş açan, partladan çox qəhrəmanların adlarını eşidib, qəhrəmanlıqlarından yazmışam. İlqar da əsir düşməmək üçün özü-özünü qumbara ilə partladan bir qəhrəmandır. Qəhrəmanımızı tanıyaq.*

Məmmədhüseynov İlqar Yavər oğlu 30 dekabr 1973-cü ildə Şəki şəhərində dünyaya göz açmışdır. Yavər kişinin, Mövlayə xanımın beş övlad, dörd oğul payından biri olmuşdur.

İlqar Məmmədhüseynov 1980-ci ildə Şəki şəhər 5 nömrəli tam orta məktəbdə təhsil almağa başlamış və həmin məktəbdən məzun olmuşdur. 1992-ci il yanvarın 20-də müddətli həqiqi hərbi xidmətə yollanmışdır. Gəncə şəhərində yerləşən N saylı hərbi hissədə xidmətə başlamışdır. Bir müddət sonra şiddətli döyüşlərin getdiyi



Ağdərə rayonuna getmiş və vətən torpaqlarının azadlıq savaşına qatılmışdır. Elə həmin döyüşlərin birində mühasirəyə düşmüşdür. Mühasirədən çıxmağın mümkün olmadığını və düşmən tərəfindən əsir götürüləcəyini anlayan İlqar verə biləcəyi ən çətin qərarı vermişdir. Bir insanın bütün arzularını nöqtələyəcəyi həmin qərarı verməsi çox çətindir. Bir anda yaşadığı bütün ömrü xəyalından keçirmiş və 19 noyabr 1992-ci il tarixində o qumbaranı partlatmışdır. Sonrası isə yoxdur. Nə bir tabut, nə bir məzar, nə bir nişanə. Bir ömrün yeganə izi vətəndir.

İlqarın itkin düşdüyü xəbərini ailəsi bir həftə sonra öyrənib. Onu nə qədər axtarsalar da, heç bir yerdə cisminin bir parçasını belə tapa bilməyiblər. Oğul soraqlayan ata bu həsrət və dərdə tab etməyərək 22 fevral 1993-cü ildə dünyadan köçüb. Oğlunun itkin xəbərini aldıqdan bir ay sonra xəstəliyə tutulan Şəhid anası isə 16 iyul 2011-ci ildə dünyasını dəyişib.

Torpağın dili olsaydı, itkin yolu gözləyənlərin həsrətini sona çatdırardı. İtkinlərin həyatlarının son aqibətini torpaq bilir. Hər dəfə bir itkin yaxınının ucalan naləsini duyan torpağın sinəsi kim bilir neçə parçadır. Bir də itkin həsrətini ürəyinə yığıb əbədiyyətə gedən şəhid valideynlərinin torpağa qovuşduqları an... Yəqin ki, ilk sual övladları ilə bağlı olur. Ya da ki elə övladları valideynlərini qarşılayır. O qədər suallar var ki. Elə itkin doğmalarının cavabsız suallarına bənzəyir mənim də o suallarım.

## İTKİN İLQAR

Məzarsız şəhidlər sırasındasan,
Vətəndir sənin də məzarın, İlqar.
İllərdi yoxluğun neçə ürəkdə,
Sağalmaz dərd kimi olub bir qübar.

Sənin qeyrətindən, şücaətindən,
Neçə mərd oğullar örnək götürüb.
Son damla qanının axdığı yerdə,
Neçə qəhrəmanın qanı tökülüb.

Düşmənin əlində yaşamaqdansa,
Canına qıymağı sən üstün bildin.
Vətən qaranlığa məhkum olanda,
Ağ günə çatmaqçün canını verdin.

İllər həsrət ilə dövr eləsə də,
Həsrətin sonunda çatdı azadlıq.
Bu vətən məzarı olan şəhidim,
Adını hər zaman yaşadacağıq.

***11.05.2023***





**YUNUSOV ZAMAN TELMAN OĞLU**

**ƏSGƏR**
***(Könüllü)***

*(1993-cü ildə I Qarabağ müharibəsində itkin düşmüşdür.)*

## BƏLKƏ SAĞDIR...

*Vətənin keşiyində dayanmaq üçün əsgər və zabit olmaq şərt deyil. Əsas olan qəlbindəki vətənə sevgi və sədaqətdir. Əgər bunlar varsa, vətəni qorumaq üçün sənə heç bir şey əngəl ola bilməz. Yetər ki, vətəni sev. O sevgi ən müqəddəs, ən ali sevgidir. Allah hər ürəyə o sevginin nurunu salmaz. O sevginin düşdüyü ürək də hər ürəyə bənzəməz. Elə Zamanın ürəyi kimi.*

*İlahi, bu necə sevgi idi? Bir insan parlaq gələcəyi olacağını bilə-bilə necə oldu ki, cəbhəyə getdi? Əsgər idi desəm – deyildi. Bəs Zaman sonsuz və dönüşü olmayan yola necə qədəm qoydu?*

Yunusov Zaman Telman oğlu 29 sentyabr 1975-ci ildə Şəki rayonunun Kiçik Dəhnə kəndində dünyaya gəlmişdi. Valideynləri ilk qız övladlarını itirdikdən sonra onlara övlad sevincini Zaman bəxş etmişdi. Daha sonra Zamanın bir qardaşı, iki bacısı olmuşdu. Ancaq Güldanə ana Zamanı hər kəsdən çox sevmişdi. Sanki bir ömür boyu onun həsrətini çəkəcəyini bilirmiş kimi...

Zaman çox dərrakəli uşaq olub. O, 1982-ci ildə Şəki rayon Kiçik Dəhnə kənd 1 nömrəli orta məktəbdə təhsil almağa başlayıb. Məktəbin ən savadlı şagirdlərindən biri olub. Riyaziyyat və kimya fənlərini mükəmməl bilib. Elə ona görə də məktəbi bitirdikdən sonra öz biliyi ilə Azərbaycan Dövlət Neft və Sənaye

Universitetinə (ADNSU) qəbul olub. Elə unversitetdə oxuduğu zamanlar da seçilib. 3-cü kursda oxuyan zaman isə atdığı addımla hər kəsdən fərqlənib.

Vətənə sevdalı olan hər bir vətəndaşın ürəyi vətən darda olduğu üçün narahat idi. Zaman gələcəkdə vətən üçün savadlı bir kadr olacağını bilirdi. Ancaq öz gələcəyindən daha çox vətənin gələcəyini düşünürdü. Çünki ötən zaman vətənin əleyhinə işləyir, düşmən daha da azğınlaşırdı. Elə ona görə də Zaman həmin o qərarı verdi. ***"Mənim oxumağımdan çox, mənim vətənin bu dar günündə vətənə sahib çıxmağıma ehtiyac var"*** deyib cəbhəyə yollandı.

1993-cü ilin ilk günü Zaman gələcək deyə hər kəsin gözü yolda olur. Ancaq Zaman o gün evlərinə getmir. Bu ailəni çox narahat edir. Ertəsi gün atası Telman kişi Bakıya gələrək oğlunu axtarmağa başlayır. Zamanın könüllü olaraq cəbhəyə getdiyini öyrənir. Kor-peşman geri dönən ata yanvarın 4-də Ağdərəyə gedir və oğlunu orada soraqlayır. Lakin bir atanın ala biləcəyi ən acı xəbəri alır. "Bu gün Ağdərə uğrunda gedən döyüşlərdə Zaman itkin düşüb. Ondan heç bir xəbər ala bilmirik" sözlərini duyan Telman kişinin dünyası o an qaralır. Oğlunun sağ və ya şəhid olaraq hər iki halda düşmən əlində olması ata üçün bir dəhşətə çevrilir. O gündən sonra çarəsiz ata oğlunu tapmaq üçün atmadığı addım qalmır. Bütün malını-mülkünü bu yolda satır. Atanın çarəsizliyindən istifadə edənlər də az olmur. Ancaq axtarışlar heç bir nəticə vermir. Verilən vədlərin də bir nəticəsi olmur. Həmin zamanlarda Azərbaycan Respublikasının Prezidenti Ulu öndər Heydər Əliyev şəxsən Telman Yunusovu qəbul edir və onun dərdini dinləyir. Bir müddət sonra Zamana şəhidlik statusu verilir.

İllər ötür ancaq Zamanın doğmalarının gözləri yollardan yığılmır. O yollara göz dikən Telman ata yollara baxa-baxa gözlərinin nurunu itirir. "Oğul" deyə-deyə dili tutulur. Oğul axtara-axtara ayaqları tutulur. Bu dünyada oğul həsrəti ilə sanki qor atəşdə yanan ata bu dünyadan "Zaman" deyə-deyə köçür.

Görəsən, Zaman atasını əbədi dünyada qarşıladımı? Bu cavabsız sual illərdi hər kəsin qəlbinə dağ çəkir. Çünki illərdi Zamanın həyatda olub-olmadığını bilmək mümkün olmayıb.

Vətən torpaqlarının həsrəti bitsə də, hələ Zamanın həsrəti bitməyib. Hələ ürəklərdə bir ümid var. Bəlkə, sağdır...



## ŞƏHİD ZAMAN

Dünyanın ən böyük dərd-kədəridir,
Qəlbi məskən tutan bir itkin dərdi.
Zaman, yoxluğunla barışa bilmir,
Sənin doğmaların neçə illərdi.

Nə "Sağdır" sözünü duyan olmayıb,
Nə də "Şəhid olub" dilə gəlməyib.
Döyüş zamanında səni son dəfə,
Döyüş yoldaşların görə bilməyib.

O andan başlayıb bu çarəsizlik,
Cavabsız suallar..., kaş ki..., bəlkələr...
Atanın ən böyük arzusu idi,
Alsın son nəfəsdə səndən bir xəbər.

Nakam taleyinin qəm yükü sıxır,
Yolunu gözləyən qohum, qardaşı.
Səndən bir xatirə izi qalmadı,
Nə bir övlad payın, nə məzar daşın.

***01.05.2023***



## QƏDİROV NATİQ ƏLFİDAYƏ OĞLU

ƏSGƏR

*(1993-cü ildə I Qarabağ müharibəsində itkin düşmüşdür.)*

## BƏYAZ QAR ALTINDA İTƏN ÜMİDLƏR

*...O qış sanki təbiət də qəzəblənmişdi. Anaların oğul dərdindən, ataların vətən dərdindən bir anda ağaran saçlarını gizlətmək üçün durmadan qar yağırdı. Ancaq o bəyaz saçları gizlətməyə qarın, göz yaşlarını gizlətməyə yağışın, o yanan ürəkləri soyutmağa buzun gücü yetməzdi.*

*Bəyaz qar hər zaman gözəl görünməz. Həmin qışda da qar sevilməz olmuşdu. Çünki bəyaz qar altında itən ümidlər, bitən ömürlər var idi. Ağ bəxti də, bəyaz qarı da al qırmızı boyanan Ağdərənin sinəsinə sıxıb illərdi gizlətdiyi oğullar çox oldu. Şəhid doğmaları illərlə o torpaqda övladlarını axtara bilmədi. Çünki Ağdərə düşmən əsarətinə düşdü. Köksündə gizlətdiyi Natiq və onun kimi şəhid nəşləri ilə birlikdə...*

24 iyul 1974-cü ildə Şəki rayonunun Böyük Dəhnə kəndində bir oğul dünyaya gəlir. Valideynləri ona Natiq adını verirlər. Elə özü də natiq olur. Qayğıkeş, zəhmətkeş, istiqanlı olan bu uşaq böyüdükcə hər kəsin onunla bağlı olan ümidləri də böyüyür. Ən çox isə vətənin ümidləri böyüyür. Beləcə qəlbi vətən boyda olan oğul 1981-ci ildə Böyük Dəhnə kənd 2 nömrəli orta məktəbdə təhsil alır. Ailənin 2 qız, 4 oğul övladından 5-ci olan Natiq təhsilini uğurla başa vurur.

Hər bir gəncin arzuları olur. Natiqin də qəlbində arzuları var idi. Ancaq o arzulara gedən yolu Qarabağda sərt əsən müharibə adlı fırtına kəsdi. 1992-ci ildə Şəmkir Rayon Hərbi Komissarlığından müddətli həqiqi hərbi xidmətə gedən Natiqin qismətində geri dönməmək var imiş.



Natiqin xidmətinin bir ayı tamam olanda ata-anası onun yanına gedirlər. Övladlarının sevdiyi yeməklərdən pay tutan Əlfidayə kişi və Həmayə xanım sevinclə övladlarını görməyə getsələr də, kor-peşiman getdikləri yolu geri qayıdırlar. Çünki onlara Natiqin Ağdərəyə təlimə göndərildiyi deyilir. Həmin zaman Ağdərəyə gedən səkkiz avtobus dolusu əsgərdən biri də Natiq olub. O əsgərlərin çoxunun alın yazısı elə Natiqin alın yazısı ilə eyni yazılıb. Həmin gedişin dönüşü olmayıb.

Natiq Ağdərə rayonunun Drambon kəndi uğrunda gedən şiddətli döyüşlərə qatılır. Son döyüşü 13 fevral 1993-cü ildə olur. Həmin döyüş neçə-neçə qəhrəmanın sonuncu döyüşü olur. Döyüşdən təsadüf nəticəsində sağ qalıb geri dönənlərin dediklərinə görə, Natiq o döyüşdə şəhid olur. Lakin nə Natiqin, nə də digər şəhidlərin nəşlərini götürmək mümkün olur. Cəmi bir neçə gün sonra Ağdərə rayonu düşmən tərəfindən işğal olunur. Hər qarışı ağ qara bürünən Ağdərənin qara günləri həmin vaxtdan başlayır. Elə doğması itkin düşənlərin də qara günü başlayır. Həmin vaxtdan sonra Natiqin doğmaları nə qədər soraqlasalar da, ondan bir xəbər ala, bir iz tapa bilmirlər. Bir ömrün naməlum bitişi sonsuz həsrətin başlanğıcı olur. Şəhid atası 2016-cı ildə oğul həsrəti ilə dünyadan köçür. Şəhid anası isə illər keçsə də, balasının yolunu gözləyir. Axı hələ də onun ümidinin son nidası olan məzar yoxdur.

Natiqin doğmaları onun adı ilə ovunurlar. Qardaşı Laçın övladına Natiqin adını əmanət edib. Natiqin arzusu əmisinin kəm qalan arzularını həyata keçirməkdir. Aradan uzun illər keçsə də, hələ də ümidlər yaşayır. Ən böyük çarəsizlik də elə budur. Olmayana ümid etmək, gəlməyəcək olanın yolunu gözləmək.

## İTKİN NATİQ

Cismini gizlətdi yağan bəyaz qar,
Ağ bəxti al qana boyanan eldə.
Natiq, sənin adın o gündən bəri,
"İtkin Şəhid" kimi dolanır dildə.

Həyatın nə qədər qəm yükü varsa,
O gündən yükləndi ana qəlbinə.
Bütün yaralara çarə olsa da,
Bir məlhəm tapılmaz itkin dərdinə.

Ağdərə – ümidin bitən nöqtəsi,
Həsrət yollarının başlanğıcıdır.
İşğalda illərlə ah-nalə çəkən,
O yurdun azadlıq tək əlacıdır.

Qələbə sədası duyulan zaman,
Həsrətli qəlblərdə ümid boy atdı.
Cismi bu torpağa qarışanların,
Ruhuna azadlıq müjdəsi çatdı.

***08.05.2023***





**QAFAROV ŞAHİN**
**NƏSİR OĞLU**

**ƏSGƏR**

*(1993-cü ildə I Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## QAZİLİKDƏN ŞƏHİDLİYƏ

*Qazilik və şəhidlik məqamı ali məqamdır. Qazi olmaq şəhadətin bir addımlığından dönmək deməkdir. Bəzən isə öncə qazilik məqamına ucalan seçilmişlər daha sonra şəhidlik məqamına ucalırlar. Şahin Qafarov öncə qazi, sonra şəhid olub. Onun qazi kimi yaşadığı ömür cəmi iki gün çəkib. Deməli, Allah hər iki məqamın mənəvi duyğusunu Şahinə yaşatmaq istəyib.Allahın seçilmişi cənnətin əbədi şəhid sakinləri sırasındadır.*

Qafarov Şahin Nəsir oğlu 19 yanvar 1972-ci ildə Şəki şəhərində dünyaya gəlib. Ailənin 5 övladından (4 oğlan, 1 qız) biri olub. Adına "Şahin" deyilən bu qoçaq gələcəkdə adının haqqını əməlləri ilə verib.

Şahin 1978-ci ildə Şəki şəhər 19 nömrəli məktəbə qədəm qoyub. VIII sinfi bitirdikdən sonra Şəki Peşə Məktəbində oxuyub. Bir sənəd sahibi olaraq vətənə layiq vətəndaş olmağa hər zaman çalışıb. Zəhməti boşa çıxmayıb. O, vətənin ən layiqli vətəndaşı kimi ad-san qazanıb.

Şahin Qafarov müddətli həqiqi hərbi xidmətə Rusiya Federasiyasında gedib. Bir neçə şəhərdə xidmət edən Şahin son olaraq Novosibirsk şəhərində xidmət edib. Xidmətinin bir ili tamam olduqdan sonra öz istəyi ilə vətənə dönüb. Vətəndə xidmət etməyi vacib bilib və o addımı atıb. Bakıda hərbi hissələrin birində çavuş kimi xidmət edib. Lakin Qarabağın qara günlərini Bakıdan seyr edə bilməyib.

Könüllü əsgər olaraq döyüşlərə qatılıb. Ağdərə rayonunun müdafiəsinə qalxan dəstədə yer alıb. 25 yanvar 1993-cü ildə qəlpə yarası alıb və ağır yaralı kimi Bakıdakı xəstəxanalardan birinə yerləşdirilib. Həmin gün Şahinin həyat mücadiləsi başlayıb. Onun qismətində şəhid olmaq olub. Yaşam uğrunda mücadilə edən Şahin iki gün sonra əbədi olaraq həyata gözlərini yumub. Vətənə könüldən sevdalı olan Qafarov Şahin Nəsir oğlunun cansız cismi 27 yanvarda ata ocağına gətirilib. Son gecə ana-atası övladlarını evlərində qonaq ediblər. Cahan boyda könül yükü deməkdir şəhid tabutu. Bitməyən həsrətin təməli, biçarə dərdin özüdür. Şəhid dərdi düşdüyü qəlbin qəlibinə sığışmaz.

Son dəfə bir yola çıxdı Şahin Qafarov. Xalqının yolunda can verən qəhrəmanın yol yoldaşı xalqı oldu. Hər kəs şəhidi oğlu, qardaşı, doğması bildi. Son mənzili Dağdibi məzarlığında oldu. Sədaqət ananın oğul evinə döndü həmin məzarlıq. İllər boyu hər dəfə oğlu üçün darıxanda məzarlığa gedən ana oğlunu daş məzarda gördükcə ürəyindən bir tel qopdu. İllər boyu oğul həsrəti ilə döyünən ananın ürəyi 2020-ci ildə dayandı.



## ŞƏHİD ŞAHİN

Doğması dünyadan şəhid köçənin,
Qəlbi neyə dönər, kamana dönər.
Vətəni nuruna qərq edən şəhid,
Xalqın ürəyində hər vaxt döyünər.

Çünki xalq yolunda canından keçir,
Şahintək fədai adın qazanan.
Vətəni, torpağı müqəddəs edib,
Şəhid damarından damlayan pak qan.

Neçə gənc ömürün son vidasının,
Şahidi sayılır qanlı Ağdərə.
O dilsiz torpağın köksü məskəndir,
Bitib-tükənməyən sonsuz dərd-sərə.

Qanlarla ucalan şanlı vətənin,
Şəhidi, qazisi saya gəlməzdir.
Qazilər şəhadət yolundan dönən,
Şəhidlər əbədi yaşar, ölməzdir.

*11.05.2023*



**CƏLİLOV RÖVŞƏN ƏLİEHSAN OĞLU**

**ƏSGƏR**

*(1993-cü ildə I Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## QƏFİL GƏLƏN ŞƏHİD TABUTU

*Düşünün, bir səhər oyanırsınız. Günə həmişə olduğu kimi başlayırsınız. Ancaq o günün yaddaşınızda qara bir gün kimi qalacağından xəbərsiz olursunuz. Cəlilovlar ailəsi də 1993-cü ilin 7 mart tarixində olacaqlardan xəbərsiz idilər. Qəfil tabut gələnə qədər. Bir evə qəfil şəhid tabutunun gəlməsi qədər ürpədici nə ola bilər ki? O ailənin həmin an yaşadığı duyğuları düşündükcə insan aciz qalır. Həmin an Mərmər ananın oğul fəryadını sanki duymuş kimi oldum. Bir ana üçün bundan böyük acı varmı? O gün yaşadığı acının böyüklüyünə ananın cismi tab edə bilmədi. O dəhşətli gündən sonra ana xəstə düşdü. Şəhid Rövşənin dərdi Mərmər ananın qəlbində və ömründə dərin bir iz buraxdı. Oğul dərdi ilə ağlaya-ağlaya ana gözlərindən oldu. Daha ana dünyanı bircə rəngdə görür. Qara...*

Cəlilov Rövşən Əliehsan oğlu 9 yanvar 1974-cü ildə Şəki rayonunun Kiçik Dəhnə kəndində dünyaya göz açmışdır. Ailədə üç uşaqdan (bir bacı, iki qardaş) ikincisi olmuşdur.

Rövşənin məktəb həyatı 1981-ci ildə başlamışdır. O, Şəki rayon Kiçik Dəhnə kənd 2 nömrəli orta məktəbdə təhsil almışdır. VIII sinfi bitirdikdən sonra Şəki Texniki Peşə Məktəbində oxumuşdur.

1992-ci ildə vətən keşiyini çəkməyə gedənlərin çoxunun bəxt yazısı Rövşənin bəxt yazısına bənzədi. O oğulların çoxu şəhid, itkin və ya qazi kimi döndülər. O oğulların hər birinin ömrünə müharibə iz saldı. Rövşən həmin döyüşlərin şəhid qəhrəmanlarından biri oldu.



Rövşən Cəlilov hərbi xidmətə 1992-ci il sentyabr ayının əvvəlində başlamışdır. İlk olaraq Bakı şəhəri Qala qəsəbəsində yerləşən N saylı hərbi hissədə xidmətə başlasa da, sonradan döyüş bölgəsinə getmişdir. Neçə-neçə qəhrəmanın uğrunda can fəda etdikləri Ağdərə uğrunda Rövşən də vuruşmuşdu. 6 mart 1993-cü ildə elə həmin qanlı Ağdərədə alnından aldığı snayper atəşi nəticəsində ömür və döyüş yolu nöqtələnmişdir.

Şəhid xəbəri vermək də almaq da çətindir. O xəbəri ailəyə heç kim deyə bilmir. Rövşənin tabutu gələndə ailəsi onun şəhid olduğunu bilir. Ailə yaşanılanların bir yuxu olmasını arzulayır. Ancaq o yaşanılanlar həqiqətin özü və ən sərt üzü olur. 7 mart o ailənin xatirəsində faciəli bir gün kimi iz buraxır. Rövşənin son gəlişi və əbədi gedişi ürəkləri dağlayır.

Əsgər Cəlilov Rövşən Əliehsan oğlu 7 mart 1993-cü ildə Kiçik Dəhnə Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Rövşən şəhid olduqdan 27 il sonra Azərbaycanın Şanlı Ordusu Ağdərə və işğal altında olan digər əraziləri azadlığına qovuşdurdu. O azadlıq yenə də qanlar, canlar bahasına əldə olundu. Bütün yaşanılan acıların bir təsəllisi vətənimizin azadlığı oldu.

## ŞƏHİD RÖVŞƏN

Sənin də müqəddəs qanın damladı,
Neçə şəhid qanı axan torpağa.
Şəhidlər yolunda can verdikləri,
Ağdərə köksündə dönmüsən dağa.

Qəfil ayrılığın elə yandırdı,
Ürəyin həsrəti günbəgün artdı.
Tabutun evinə gələn həmin gün,
Elə bil günəş də əbədi batdı.

Ananın dünyası qaraldı o gün,
Sevincin dəfn etdi sənin qəbrində.
Ah Rövşən, şəkillər göz dağı oldu,
Həsrətli kəlmədir adın dilində...

Ötsə də neçə il, dəyişsə fəsil,
Şəhid dərdi hər vaxt təzə-tər qalır.
Hər "Şəhid" kəlməsi duyulan zaman,
Yanaqda göz yaşı izini salır.

***30.04.2023***





**CABBAROV FAİQ**
**MƏMMƏDƏLİ OĞLU**

**ƏSGƏR (Könüllü)**

*(1993-cü ildə I Qarabağ müharibəsində itkin düşmüşdür.)*

## TELLƏRİNİ KÜLƏKLƏR OXŞADI ONUN

*Onun telləri ana nəvazişinə, ana sığalına həsrət qalmışdı. "Ana" kəlməsi altı yaşında olanda ürəyinin nisgilinə çevrilmişdi. Gözlərinin dərinliyində sanki qaranlıqdan qorxan uşağın təlatümlü baxışı sezilirdi. Onun qorxduğu isə qaranlıq gecələr yox, uşaq ağlı ilə anasının qaranlıq gecədə məzarlıqda tək uyuması idi. Axı ölüm adlı gerçəyin nə demək olduğunu bilmirdi. Axı anaların ölümsüz olduğunu düşünürdü. Anası Zərniyar xanımı itirən zaman Faiqin qayğısız uşaqlıq illəri sona çatdı. O gündən sonra ana qoxusunu gətirən yağışı sevməyə başladı. O yağışı həm də göz yaşlarını gizlətdiyi üçün sevirdi. Kimsə göz yaşlarını görməsin deyə...*

Cabbarov Faiq Məmmədəli oğlu 6 fevral 1966-cı ildə Şəki rayonunun Kiçik Dəhnə kəndində həyata qədəm qoymuşdu. Ailədə iki oğul, iki qız övladından sonuncu olanı Faiq olmuşdu. O, da böyümək arzusunda idi. Böyüdükcə həyatın sınaqları da böyüdü. Ən gözəl günlərinin ömrü isə cəmi altı ilə sığışdı. Ondan sonrakı ömrü bir az həsrət, bir az nisgil oldu.

Faiq Cabbarov 1973-cü ildə Şəki rayon Kiçik Dəhnə kənd 1 nömrəli tam orta məktəbində təhsil almağa başlayıb. Onillik təhsilini bitirdikdən sonra Bakı Dəmiryolu Nəqliyyatı Texnikumuna qəbul olub. Texnikumu bitirdikdən sonra bir müddət Nasosnu (indiki H.Z.Tağıyev) qəsəbəsində çalışıb. Ailə həyatı qursa da, ona ata olmaq qismət olmayıb.

Faiq Cabbarov 1993-cü ildə könüllü olaraq Tərtər və Ağdərə istiqamətində gedən döyüşlərə qatılıb. Ailə may ayında Faiqlə görüşmək üçün həmin əraziyə gedib. Lakin Faiqin döyüşdə olduğunu deyiblər. Doğmaları Şəkiyə döndükdən bir müddət sonra Faiqdən bir xəbər çıxmadığını görüb təkrar döyüş bölgəsinə gediblər. Mayın 11-də Faiqin Marquşavan kəndində itkin düşdüyü bildirilib. Onu nə qədər axtarsalar da, heç bir yerdə nə dirisini, nə də nəşini tapmaq mümkün olmayıb. O gün bu gündür ki, hələ də Cabbarov Faiq Məmmədəli oğlunu "Gördüm" deyən olmayıb.

Faiqin tellərini Qarabağın sərin mehi oxşadı. Əgər həmin zaman şəhid oldusa, yəqin ki, Zərniyar xanımın ruhu uca dağlarla birlikdə oğlunun torpaq üstündə olan cisminin keşiyini çəkdi. Bəlkə, Faiq düşmənin əlinə sağ keçdi? Bəs onda nələr çəkdiyinin düşüncəsi insanı məhv edir. Şəhid dərdi böyük dərddir, itkin dərdi isə dözülməzdir. Şəhid atası Məmmədəli ata da bu dözülməz dərd ilə dünyadan köç edib.



## İTKİN FAİQ

Sənin tellərini oxşadı, Faiq,
Vətən torpağını oxşayan yellər.
Ömrünün baharı bir qışa döndü,
Bəhrəli olmadı gələn fəsillər.

Sən hansı çiçəyə ömrünü verdin,
Ay ömrü çiçəktək qısa olanım?!
Bilmirəm vətənin hansı daşının,
Başına başdaşın bilib dolanım.

Sızlayan qəlbimin şəhid dərdinə,
İtkin dərdi sanki duz kimi dəyir.
Getdiyin o gündən illər keçsə də,
Doğmalar yolunu hələ gözləyir.

Səni Qarabağa aparan yollar,
Əbədi ayırdı doğma elindən.
Dərdinlə dünyadan köçən atanın,
Bir an da düşmədi adın dilindən.

*04.05.2023*



**BALOĞLANOV ƏSƏDULLAH ŞAHİD OĞLU**

ƏSGƏR

*(1993-cü ildə I Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## SON GÜLLƏ

*...O güllə göz dağıdır. Bəlkə, kimlərsə o gülləyə sadəcə bir şəhidin xatirəsi kimi baxır. Ancaq o güllə o şəhidin ömrünün sonuna qoyulan nöqtə idi. Pasportun ən son səhifəsinə ilişib qalan güllə. Düşünmək, xəyalında o görüntünü canlandırmaq insanın sanki nəfəsini kəsir. Bir şəhiddən geri qalan qanlı və parçalanmış pasportda qan ilə pasporta yapışan son güllə. Əgər o pasport güllənin qarşısını almaq gücünə malik olacaq qədər qalın olsaydı, bəlkə də...*

*Bu fikirlər illərdi ki, Əsədullahın doğmalarını yeyib, bitirir. Axı Əsədullahın həyat eşqi böyük idi. Nə qədər arzuları, nə qədər xəyalları var idi. Ancaq o dövrün bir çox gəncləri kimi onun da arzularını müharibə puç etdi.*

Müharibə – dörd hecalıq sözün vahiməsi insanın ürəyini lərzəyə salır. Bir də o müharibənin od saldığı ocaqlar var. Həmin ocaqlardan biri də Şahid kişi ilə Ətirnaz xanımın ocağı oldu. 10 oktyabr 1969-cu ildə ilk övlad sevinci Baloğlanov Əsədullah Şahid oğlu ilə duyulan ocağın işığı elə onun zamansız gedişi ilə söndü. Əsədullahın özündən kiçik 2 bacısı, 4 qardaşı olsa da, ailənin ilki olduğu üçün ailəsinin ona sevgisi tam başqa idi.

Əsədullah Baloğlanov 1976-cı ildə Böyük Dəhnə kənd 2 nömrəli tam orta məktəbdə təhsil alıb. 1986-cı ildə təhsilini başa vurub. Elə həmin il Bakı şəhərində Maliyyə-Kredit Kollecinə qəbul olub. Kolleci bitirdikdən sonra səhhətində olan



problem səbəbindən müddətli həqiqi hərbi xidmətə getməyib. Mingəçevir şəhərində işə başlayıb. Həmin zamanlar vətənin ağır günləri olub. Əsədullahın bir çox iş yoldaşları cəbhəyə yollanıb. Həmin vaxt Əsədullah xəstəxanada müalicə alsa da, yarımçıq çıxıb evə gəlib. Doğmaları ilə görüşdükdən sonra o da könüllü olaraq cəbhəyə yollanıb. Onun son gedişi hələ də xəyallarda ilk günkü kimi canlanır. 3 may 1993-cü ildə qapıdan çıxarkən dönüb həsrətli baxışlarla son dəfə əzizlərinə baxır və gedir.

Əsədullah Ağdam rayonu istiqamətində gedən döyüşlərə qatılıb. İyunun 12-dən 13-nə keçən gecə Mərzili kəndində gedən döyüşlərdə sinəsini vətənə atılan gülləyə sipər edib. O güllə onun ömrünü yarıda kəsib.

İyunun 13-də ailəyə Əsədullahın yaralandığı deyilir. Cəmi beş dəqiqə sonra onun tabutu gətirilir. Eyni vaxtda iki oğlu müharibədə olan ailə Əsədullahın tabutu gələn gün Natiqin sağ-salamat dönməsi üçün Allaha yalvarır. Əsədullahın cismi Böyük Dəhnə Şəhidlər xiyabanında torpağa tapşırılır. Bir gün sonra Natiq ordudan tərxis olunub evə göndərilir.

Şəhidin qardaşı Laçın övladına Əsədullahın adını verib. Bacısı Firdovsi xanımın övladı İsfəndiyar Səfərəliyev isə II Qarabağ müharibəsindən dayısının və bütün şəhidlərimizin intiqamını alıb.

## ŞƏHİD ƏSƏDULLAH

Bir qaranlıq gecə kimi,
Bir bitməyən heca kimi,
Bir ocaqsız baca kimi,
Həyatın da natamamdır,
Şəhidim, dərdin yamandır.

Çoşub-çağlayır ürəklər,
Səni oxşadı mələklər.
Ardınca hey deyəcəklər,
"Əsədullah qəhrəmandır,
Vətənə qurban olandır".

Yurda sarıldın sevginlə,
Ömrünü kəsdi bir güllə.
Sığışmayır ötən ilə,
Qalaq-qalaq həsrət yükü,
Titrədir qəlbi bu öykü.

Qanın gözlərə bir dağdır,
Torpaq sənə bir qucaqdır,
Şəhidlər cənnətdə sağdır,
Cisminsə itib gözlərdən,
Pay aldın qəmli sözlərdən.

***09.05.2023***





**MƏMMƏDOV RƏFAİL
İSMƏT OĞLU**

**ƏSGƏR**
**(*Könüllü*)**

*(1993-cü ildə I Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## İKİ MƏZARLI ŞƏHİD

*Bir gün hər bir insan dünyanı tərk edir. Ancaq hər insanın da əbədi evi torpağın qoynu olmur. Əslində bir məzar yerinin olması da dünyadan köçən birinin izinin qalması üçün böyük amildir. Bəzi insanların isə bir deyil, bəzən iki məzar yeri olur. Həmin o insanlardan biridir Rəfail. "Bəs bu necə olur?" – sualına bu məqaləni oxuduğunuz zaman cavab tapacaqsınız. Mənim üçün bir bacının qardaş fəryadını, qardaş həsrətini dinləmək çox ağır oldu. Elə yazmaq da. İradə xanım oğul həsrəti ilə dünyadan köçən atası İsmət kişinin nisgilini, oğul həsrəti ilə beli bükülən Qənirə ananın həsrətini dilə gətirdikcə ürəyinin artan döyüntüsünü hiss edirdim. İllərdən sonra Şəhid bacısı üçün danışmaq çətin oldu. Ancaq illərdən sonra qardaşının adının xatırlanması onu eyni zamanda qürurlandırdı.*

Məmmədov Rəfail İsmət oğlu 21 dekabr 1969-cu ildə Şəki şəhərində dünyaya göz açıb. Ailədə 10 övlad (7 bacı, 3 qardaş) olublar. On uşaq anası Qənirə ana sözün əsl mənasında "Qəhrəman ana" olub. İsmət kişi və Qənirə xanım min bir zəhmətlə övladlarını böyütməyə çalışıblar. Bütün çətinliyə rəğmən onlar övladlarını sevgi ilə böyüdüblər. Rəfailin vətən sevgisi əbəs olmayıb. Ailəsinin güzgüsü hesab olunan Rəfail sanki vətən üçün dünyaya müvəqqəti gəlibmiş.

Ortancıl oğul olan Rəfail Şəki şəhər 10 nömrəli məktəbə gedib. VIII sinfi bitirdikdən sonra Şəki Texniki Peşə məktəbinə qəbul olub. Oranı da uğurla başa vurub.

Gəncliyi Sovetlər Birliyi dövrünə təsadüf edən Rəfail müddətli həqiqi hərbi xidmətə getmək zamanı çatanda Rusiya Federasiyasının Krasnoyarsk vilayətində xidmətə göndərilmişdir. Həmin zamanlarda erməni-rus qoşunlarının azərbaycanlılara tutduqları divan dünyaya səda salmışdı. Çoxlarının fəryad səsimizə kar-kor olduğu dünyanın başqa bir nöqtəsində Rəfail düşmənin etdiklərini duymuş və düşmən ordusunda xidmət etməkdən imtina edərək vətənə dönmüşdür. Elə əsl mübarizə də həmin vaxtdan başlamışdır.

Rəfail I Qarabağ müharibəsinə könüllü olaraq qatılan döyüşçülərdən biridir. O, Füzuli, Cəbrayıl, Ağdam istiqamətində gedən döyüşlərdə əzmkarlıq göstərərək düşməni məhv edir. Neçə-neçə döyüşdə iz qoyur. Vətən torpağına göz dikən düşmənin gözlərini dağlayır. Qan gölünə dönən torpaqlara tuşlanan atəşlərə canını sipər edir. Son nəfəsini vətən üçün verməkdə qərarlı olan vətən oğlunun son döyüşü 23 iyulda Ağdam rayonunun Gülablı kəndində olur. Rəfail hər döyüşdə öndə gedir. Hər zaman uzun müddət müdafiədə qalmaqdansa hücuma keçməyi üstün bilən Rəfail o döyüşdə ağır yaralanır. Rəfaili xəstəxanaya aparırlar. Xəstəxanada Şəkidən olan başqa bir hərbçi Rəfaili tanıyır və onun şəklinin çəkilib ona verilməsini xahiş edir. Həmin xəstəxanada Rəfail həyata gözlərini yumur. O dönəmlərdə çox ağır şərait olduğu üçün və Rəfailin ailəsini tapmadıqları üçün Rəfail Bərdə rayonundakı Şəhidlər xiyabanında 2-ci cərgə 21-ci məzarda dəfn edilir. İki gün sonra Rəfailin şəklini götürən şəxs onun ailəsini tapır və həmin şəkli göstərir. 26 iyulda ailə Bərdə Şəhidlər xiyabanına gedir və həmin məzar açılır. Rəfailin nəşi olduğu kimi qaldığı üçün ailə təəccübünü gizlədə bilmir. Şəhidlərin paklığı bir daha bəlli olur. Şəhidlərin Allahın seçdiyi bəndələr olduğu hər kəsə bəyandır. Şəhidlər müşk qoxarlar. İyulun 26-da Rəfailin nəşi ata ocağına gətirilir və öz el-obasındakı məzarlıqda dəfn olunur. Lakin Rəfail bu məzarlığın nə ilk, nə də son şəhidi olur.

Rəfail kimi bir qəhrəman qardaşın adını Qüdrət öz övladına əmanət edərək yaşadır. İnsanın həyatında adının önəmli rol oynadığını bilirik. Elə Rəfail də adını daşıdığı əmisi kimi böyük şücaətlər göstərdi. Bir zamanlar şəhid Rəfailin düşməndən müdafiə etdiyi torpaqları illərdən sonra Rəfail və onun kimi qəhrəmanlar azad etdilər. Füzuli, Cəbrayıl, Xocavənd, Laçın uğrunda mübarizə aparan Rəfail qazanılan qələbəni Zəfər günü əmisinin və bütün şəhidlərimizin ruhlarına ithaf edir. I Qarabağ müharibəsində şəhid olan bir qəhrəmanın adını daşıyan Rəfail II Qarabağ müharibəsində göstərdiyi şücaətlərə görə “, Vətən uğrunda” medalı, “Cəsur döyüşçü” medalı, “Füzulinin azad olunmasına görə” medalı, “Cəbrayılın azad olunmasına görə” medalı, “Laçının azad olunmasına görə” medalı, “Xocavəndin azad olunmasına görə” medalı və “Şuşanın azad olunmasına görə” medalı ilə təltif edilib.



## ŞƏHİD RƏFAİL

Bir də görürsən ki, daş olur adam,
Ümidlər məzardan baxır gözünə.
Torpaq üzərində sürünürsən ki,
“Bəlkə, rast gələrəm onun izinə...”

Hər əsən küləkdən qoxusun duyub,
Küləyi sevməyə başlayır adam.
Hər kəsin balası, qardaşı olur,
Elə Rəfailtək köçən dünyadan.

Sevincli sabahlar qəlbdən gen düşür,
Şəhidi evindən gen düşənlərin.
Qənirə anatək analar oldu
Anası, vətənə can verənlərin.

Könlü vətən üçün çırpınan zaman,
Rəfail könüllü getdi döyüşə.
İki məzar düşdü onun bəxtinə,
Ürək tab etmədi o son gəlişə.

*19.04.2023*



**ABBASOV TEYMUR RAUF OĞLU**

ƏSGƏR

*(1993-cü ildə I Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## BİR XATİRƏ QALDI SƏNDƏN

*İnsan yaşadığı ömrün demək olar ki, hər anını yaddaşına yazır. Bəzi insanlar isə o anların xatirəsinin heç zaman unudulmaması üçün qeyd dəftəri tuturlar və yaşanılanları həkk edirlər. Teymur da həmin insanlardan biridir. Lakin o qeyd dəftərinə xoş anlarını deyil, müharibə zamanı bir ilə bərabər olan anları və son nəfəsini aldığını düşündüyü anları həkk etmişdi. Sanki ondan qalan tək xatirənin həmin qeydləri olacağını bilirmiş kimi.*

*Bir xatirə qaldı səndən. Hər toxunanın qəlbinə köz kimi yapışan xatirə. Səndən sonra hər hərfinin göz yaşı ilə islandığı xatirə. Telli ananın göz dağına çevrilən xatirə. Bir şəhidin öz əlləri ilə həkk etdiyi qeydlərini oxumaq çox çətindir. Neçə arzular yer almışdı o qeydlərdə. Ancaq olmadı. O arzular elə arzu olaraq qaldı.*

Abbasov Teymur Rauf oğlu 28 noyabr 1973-cü ildə Şəki şəhərində dünyaya göz açmışdı. İki qardaş, bir bacı olmuşdular. Ailənin ilk bala bəhəri, ilk övlad sevinci, ilk körpə qoxusu Teymur olmuşdur. Daha sonra Sevda və Tural dünyaya gəlmişdi.

Teymur elə körpə ikən vətən sevgisini ətrafa yansıtmış, sanki böyüyüb bir qəhrəman olacağını əməlləri ilə büruzə vermişdi. Xeyirxah, qayğıkeş, hər kəsə can yandıran bu övlad kiçik yaşlarından böyük kimi davranışları ilə ürəkləri fəth etmişdi.



Zaman geri qaytarıla bilinməyən ən böyük sərvətdir. Su kimi axan zamanla böyüyən Teymur 1979-cu ildə Şəki şəhər 7 nömrəli məktəbə qədəm qoyub. Ən çox tarix fənninə marağı olub. Böyüyüb tarixçi olmaq ən böyük arzusu olub. Lakin o tarixi araşdıran bir tarixçi kimi yox, tarix yazan bir şəhid kimi tarixdə iz qoyub.

Teymur Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna qəbul olmaq arzusunda olub. Lakin o dönəmlərin çətin həyat şəraitinə görə instituta qəbul ola bilməyib. Altı ay Şəki İpək Kombinatında işlədikdən sonra 1992-ci ilin may ayında müddətli həqiqi hərbi xidmətə yollanıb. Müharibə adlı dəhşətin hər anını yaşayıb. Şəhidlərin, yaralıların şahidi olub. Bəzən vətəni düşmənin pəncəsindən qurtarmağa gücü yetmədiyi üçün özünü qınayıb. Laçın, Ağdərə, Tərtər, Murov, Füzuli rayonları istiqamətində son nəfəsinə qədər mübarizə aparıb.

Teymur şəhid olmazdan bir ay öncə evinə gəlir. Ancaq vətənin çətin zamanında o rahat evdə dincələ bilmir. ***"Mən getməliyəm. Vətəni qorumalı, ana-bacılarımızın qeyrətini çəkməliyəm"*** deyir və yenidən cəbhəyə yollanır.

Teymur Abbasovun son döyüşü Füzuli rayonu uğrunda gedən döyüşlər olur. 15 oktyabr 1993-cü ildə baş verən döyüşdə Teymur alnından snayperlə vurulur və həmin an şəhid olur. Valideynlərinə ilk olaraq Teymurun ağır yaralandığı deyilir. Ata və ana övladlarını görmək üçün yola düzəlirlər. Ancaq çatdıqları ünvanda bir yaralı ilə deyil, bir şəhid nəşi ilə qarşılaşırlar. Ürəklərinə övlad adlı dağ çəkilən valideynlər Teymurun cansız cismini Şəkiyə gətirirlər.16 oktyabr 1993-cü ildə əsgər Abbasov Teymur Rauf oğluna əbədi vida edilir. Onun cismi Şəki şəhər Şəhidlər xiyabanında torpağa tapşırılır.

Bir ürəyə övlad adlı dərd düşdüsə, o ürək bir daha sevinci tam dada bilməz. Teymur şəhid olduqdan sonra ata-anasının həsrəti günbəgün böyüdü. Rauf müəllim 2003-cü ildə haqqın dərgahına qovuşdu. Qəlbində sağalmaz bala dağı olan Telli ananın ümidi yuxularadır. Bəlkə, Teymuru yenə yuxuda görər deyə zülmət gecələrə mehrini salıb. Budur çarəsizlik. Övladın həyatda deyil, yuxularda yolunu gözləmək ən böyük çarəsizlikdir. Elə ona görə də övlad itirən anaların baxışları o qədər hüznlü olur.

## ŞƏHİD TEYMUR

Yazdığın son sətirlər,
Səndən xatirə qaldı.
Sözlərini oxuyan,
Hər kəs xəyala daldı.

Döyüşdə min illərə,
Bərabər olar hər an.
Sənə agah olmuşdu,
Verəcəksən yurda can.

Bilə-bilə getmişdin,
Sən o qanlı yollara.
Vətən ümid bəslədi,
Qəhrəman oğullara.

Həmin qəhrəmanlardan,
Biri də sənsən, Teymur.
Adını duyan hər kəs,
Səninlə qürur duyur.

Qəlbə düşən həsrətin,
Kül eləsə də qəlbi.
Bu vətənin yolunda,
Şəhid olmaq gözəldi.

O müqəddəs məqama,
Hər kəs ucala bilməz.
Hər insan öz ömrünü,
Vətəni ilə bölməz.

***29.04.2023***





**MƏMMƏDOV NATİQ ƏHMƏD OĞLU**

ƏSGƏR
***(Çağırışçı)***

*(1993-cü ildə I Qarabağ müharibəsində itkin düşmüşdür.)*

## ÖVLADININ MƏZARINA ŞƏKLİ HƏKK OLAN ATA

*İlahi, bu necə təzaddır? Bir məzarda həkk olunmuş iki şəkil. Türanə ata həsrətini özü ilə bərabər məzara apardı. Körpəlikdən ata həsrəti ilə qəlbi sızlayan Şəhid övladı heç düşünməzdi ki, bir məzarda şəkli belə olmayan atasının şəklini öz məzar daşında yaşadacaq. Körpəlikdən ürəyinə düşən həsrətinin daha betərinin övladının ürəyinə düşəcəyindən xəbərsiz idi bu bəxtsiz qadın. O ata qoxusunu heç olmasa körpəliyində duya bilsə də, onun övladının ana qoxusunu duymadan anasız qalacağını bilmirdi. Bu həyat hekayəsinin hər anı ürəyimə xəncər kimi saplandı. Şəlalə xanımın yar dərdindən başqa övlad dərdi də çəkdiyindən xəbərdar olduğumda göz yaşlarıma hakim ola bilmədim. Bu dərd iliklərimi sızlatdı. Bu qəm yüklü könül qapısını döyməyimin səbəbkarı Natiq Məmmədov oldu.*

Məmmədov Natiq Əhməd oğlu 4 sentyabr 1966-cı ildə Şəki rayonunun Baş Göynük kəndində Əhməd kişi və Mənzurə xanımın ailəsində dünyaya gəlib. Ailədə doqquz uşaq olublar. 1973-cü ildə Şəki rayon Baş Göynük kənd orta məktəbində təhsil almağa başlayıb. VIII sinfi bitirdikdən sonra Şəki Peşə Məktəbində oxuyub. Məktəbi bitirdikdən sonra müddətli həqiqi hərbi xidmətə yollanıb. Rusiyada xidmət edib. Xidmətini başa vurduqdan sonra vətənə qayıdıb.

Natiq Məmmədov Şəki Texnologiya Texnikumunun İnşaat-keramika fakültəsində təhsil alıb. Həmin fakültədə oxuyan Şəlalə xanımla da elə həmin vaxt tanış olub. Biri-birinə könül verən gənclər texnikumu bitirdikdən sonra əhd-peyman bağlayıblar. Ailə qurduqdan sonra Rusiyaya gediblər. Ailənin ilk övladı 1990-cı il yanvarın 19-dan 20- nə keçən gecə Qanlı Yanvar faciəsi zamanı dünyaya gəlib. Elə o körpənin ömrü də faciəli olub. Türanə ilk analıq sevincini yaşayan gün övladına can versə də, özü həyatını itirib.

Ailənin ikinci övladı olan Rəşadə isə 27 iyul 1991-ci ildə dünyaya gəlib. Övladlarının dünyaya gəlməsi üçün vətənə dönən gənc ailə bir daha Rusiyaya qayıtmayıb.

Natiq ailəsini dolandırmaq üçün Şəki İpək Kombinatının 3 nömrəli filialında işə başlayır. Lakin o dönəmlərdə vətənin gənclərə olan ehtiyacı Natiqdən də yan ötmür. 1993-cü ilin oktyabr ayında Natiq cəbhəyə yollanır. Son dəfə onu həmin ilin son ayında Ağdam rayonunun Güllücə kəndi istiqamətində görürlər. Natiq gecə altı nəfərlə birlikdə postda keşik çəkir. Ertəsi gün növbəti altı nəfər postda gəldiyində ərazidə Natiqin səsgücləndirici aparatından başqa bir iz tapa bilməyiblər. Həmin gecə altı əsgərin izi eyni anda itir və onlardan heç bir məlumat almaq mümkün olmur.

***– Biz Tərtərə getdik. Tərtər döyüşlərində iştirak etdikdən sonra Ağdama qayıtmışıq.***

Bu sözlər yazılan məktub Natiqin itkin xəbərini alan xanımına 1994-cü ilin yanvar ayında çatıb. O məktubu yazan Natiqin müharibədən qalan tək xatirəsi elə o məktub olub.

Şəlalə xanım ata həsrətini dərk etməyən iki körpəsini təkbaşına böyüdür. Gecələr əşyalar toxuyub gündüzlər o əşyaları sataraq övladlarını yarıac, yarıtox böyüdür. Tam da üzünün güləcəyi zaman ən böyük kədərə məhkum olur. Yar yaralı qəlbinə övlad yarası da dəyir. Qızı Türanənin məzar daşına məzarsız itkin şəhidimiz Məmmədov Natiq Əhməd oğlunun da şəkli həkk olunur.



## İTKİN NATİQ

Məzarı hər kəsin qəlbində olan,
Ömrü müəmmalı bitən qəhrəman.
Rəsmini rəsminlə eyni məzarda,
Əbədi yaşadır Türanə balan.

Həyatın min sınaq, imtahanı var.
Qəlblərdə yer edib həsrət, intizar.
Bir şəhid dərdindən daha ağır dərd,
İtkin düşənlərin həsrəti olar.

Zülmət bir gecənin sükutu kimi,
İllər də pozmadı bu gizəmini.
Natiq, illərdi ki, gözlərdən uzaq,
Saxlayıb təbiət sənin cismini.

Yarının gözündən axan göz yaşı,
Cəm olsa çıxardı dəryaya qarşı.
Vətənin savaşı bitib amma ki,
Sonsuzdur qəlblərin həsrət savaşı.

***07.05.2023***



**HƏBİLOV MUXTAR İSGƏNDƏR OĞLU**

ƏSGƏR

*(1993-cü ildə I Qarabağ müharibəsində itkin düşmüşdür.)*

## MƏNİ UNUTMAYIN...

*Məni unutmayın, ay eloğlular.*
*Ömrüm tuş gəlibdir dumana-çənə.*
*Ruhum nigarandı çünki hələ də,*
*Cismim qovuşmayıb ana vətənə...*

Bilirəm çoxlarınız məndən xəbərsizsiniz. Sonrakı naməlum taleyimi, bəlkə də, unutmusunuz. Bilmirəm, bəlkə də, xatırlayanlar var. Axı deyirlər vətən üçün canından keçənləri xalq öz qəlbində dəfn edir. Mənim heç cismim torpağa tapşırılmadı. Canımı fəda etdiyim vətən torpağında bir məzar yerim belə yoxdur. Yəqin məzarım xalqın qəlbindədir. İtkin şəhid kimi xalqım qəlbinə, yaddaşına Həbilov Muxtar İsgəndər oğlu yazıb.

Ömrünün başlanğıcı 9 mart 1974-cü ildə başlayan, lakin 30 noyabr 1993-cü ildən sonrakı taleyi naməlum olan bir itkinəm mən. O dönəmlərdə çətin şəraitdə torpaqlarımızı müdafiə edirdik. Bəzən silah çatışmazlığı yaransa da, biz geri dönmürdük. Bütün səylərimizə baxmayaraq, Laçın və Kəlbəcər düşmən tərəfindən işğal olundu. Mənim gələcəyim, arzularım, ümidlərim də həmin gün



qətl edildi. Mən tək varlığımı deyil, arzularımı, gəncliyimi də itirdim. Heç olmasa, sizlər mənim adımı yazaraq izimi itirməyin. Bu gün sizlərin var olduğunuz həyatda bir zamanlar mən də var idim. İndi də varam. Ruhumla varam.

Məni unutmayanlar Laçın və Kəlbəcər rayonları işğaldan azad olunanda bir izimə rast gələrlər deyə düşünürdülər. Axı mənim son döyüşüm 30 noyabr 1993-cü ildə həmin istiqamətlərdə olmuşdu. Ancaq...

İtkin dərdinin necəliyini çəkənlər bilər. Dərdimi çəkənlər, naməlum şəhid məzarlarını mənim məzarım kimi oxşayın. Kim bilir o naməlum şəhid məzarlarında mənim kimi hansı itkinlər uyuyur? Bizdən vətəndə vətəndən başqa bir iz qalmadı.

Mən vətənin hər qarışındayam. Yetər ki, siz xatırlayın...

## İTKİN MUXTAR

Məni unutmayın, unudularsam,
Tarixdən silinər bir itkin izi.
Düşmən vətənimə göz dikən zaman,
Candan üstün tutdum vətənimizi.

Uzanan yollarda izim olmadı,
Tabutda qayıdan bir şəhid kimi.
Hər bir qarışını məzarım bilin,
Ruhum qanadlanan bu vətənimin.

Buludlar ağlasın itən izimə,
Küləklər bir ağı söyləsin mənə.
Məzarsız bir şəhid olmaq yazıldı,
Mənim nakam olan bu qismətimə.

Cənnətdə əbədi yaşayıram mən,
Siz də əməllərdə yaşadın məni.
Vətəndən qeyri bir sevgim olmadı,
Məndən də əmanət bilin vətəni.

***29.04.2023***





**YUSİFOV ELMAN**
**CAHANGİR OĞLU**

**ƏSGƏR**
***(Könüllü)***

*(1994-cü ildə I Qarabağ müharibəsində itkin düşmüşdür.)*

## 22 HƏYATIN SON NİDASI

*Deyirlər "Şəhidlər can verəndə acı çəkmirlər." Görəsən, Elman və onunla birlikdə can verən 22 nəfər silahdaşının üzərindən tank keçəndə çox acı çəkdilərmi? Yoxsa Allah onları o acıdan məhrum etdi. (Gözlərimin önündə o an canlandıqca sanki nəfəsim kəsiləcək kimi hiss edirəm.)*

*Bu hadisəyə bənzər çox hadisələr duymuşam və yazmışam. Ancaq bu duyduqlarım ən dəhşətlilərindən oldu. Həmin hadisə zamanı 23 nəfərdən cəmi 1-i sağ qalıb. 22 canın eyni anda fəda oluşu. 22 nalənin eyni anda ucalması və susması. 22 ömrün eyni anda bitişi. 22 adın itkin adı ilə əvəzlənməsi. 22 gözü yaşlı ailə.*

Yusifov Elman Cahangir oğlu 1 fevral 1964-cü ildə Şəki rayonunun Kiçik Dəhnə kəndində 6 övladı (3 qız, 3 oğul) olan ailədə dünyaya gəlib. 1971–81-ci illərdə Şəki rayon Kiçik Dəhnə kənd 1 nömrəli orta məktəbdə təhsil alıb. Məktəbi bitirdikdən sonra Elman da Rusiyaya müddətli həqiqi hərbi xidmətə yollanıb. Xidmətini başa vurduqdan sonra vətənə dönən Elman Mingəçevir şəhərində bir şirkətdə fəhlə kimi işə başlayıb.

Elman Yusifov 6 oktyabr 1990-cı ildə Tahirə xanımla ailə həyatı qurub. İlk atalıq sevincini 7 avqust 1991-ci ildə oğlu Elvin dünyaya gələndə dadıb.12 dekabr 1992-ci ildə qızı Sara dünyaya gəlib.

Elman vətənin dar günündə vətənə biganə qalmayıb. O, 1993-cü il noyabrın 29-da könüllü olaraq döyüşlərə yollanıb. Ailəsi o gedişin son gediş olduğundan xəbərsiz olub. Elman iki körpəsini sevdiyinə, sevdiyini və doğmalarını Allaha əmanət edib və cəbhəyə yola düşüb. İlk olaraq Ağcəbədi rayonuna gedib. 1994-cü il yanvarın 3-dən 4-nə keçən gecə Xocavənd rayonunun Qarakənd kəndi uğrunda qızğın döyüşlərə qatılıb. O Qarakənd kəndi ki, düşmən böyük bir faciə törədərək 22 nəfərin şəhid olmasına səbəb olmuşdur. 1991-ci il 20 noyabrda Xocavənd rayonunun Qarakənd kəndinin yaxınlığında, Ağdam rayonunun Mərzili kəndi ərazisində erməni hərbi dəstələri tərəfindən Azərbaycanın Mİ-8 N72 hərbi helikopteri vurulmuşdur. Şəhid olanlar arasında Azərbaycan Respublikasının Dövlət katibi Tofiq İsmayılov, baş prokuror İsmət Qayıbov, dövlət müşaviri, sabiq daxili işlər naziri Məhəmməd Əsədov, millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov, baş nazirin müavini Zülfü Hacıyev, Prezident Aparatının şöbə müdiri və jurnalist Osman Mirzəyev, Qazaxıstan Respublikası daxili işlər nazirinin müavini Saylau Serikov, Azərbaycan Dövlət Televiziyasının jurnalisti Alı Mustafayev var idi. Ümumilikdə qəza nəticəsində 22 nəfər həlak olub. İki faciə və hər iki faciə qurbanlarının sayının eyniliyi. Bəzi təsadüflər insanı təəccübləndirir.

1994-cü il yanvarın 3-dən 4-nə keçən gecə vətənin müdafiəsinə qalxan qəhrəman oğullar düşmənlə mübarizə aparıb. O zamanlar silah-sursatın az olması döyüşçülərimizin ən böyük sınağı idi. Elmangil səngərdə olan zaman düşmənin tankı səngərin üzərindən keçib. 23 nəfərin 22-i həmin an həyatla vidalaşıb. Vətən torpağı o qanlarla qarışıb. 1 nəfər isə möcüzə nəticəsində sağ qalıb. Elə bu olanları da həmin şəxs danışıb. O şəxsin dediyinə görə, düşmən 22 nəfəri eyni yerdə quyuda basdırıb. Həmin ərazi 2020-ci ildə azad olunsa da, hələ ki, basdırılan minalar səbəbindən o əraziyə gedib həmin nəşləri müəyyən etmək mümkün olmayıb.

Elmanın itkin olduğu xəbərini alan ailəsi uzun müddət onun nəşinin tapılması üçün mücadilə etsə də, zəhmətləri heç bir nəticə verməyib. O xəbəri alan gündən cəmi iki il sevdiyi ilə xoşbəxt ömür yaşayan Tahirə xanım bədbəxtliyə yelkən açıb. Ömrünün ən gənc yaşında iki körpə ilə tənha qalan Şəhid yarının yaşamaq üçün tək amalı övladlarını layiqli şəkildə böyütmək olub. Elə amalından da dönməyib. Hər iki övladı Şəhid övladı adına layiq olmağı bacarıb.

Şəhid atası 1994-cü ildə dünyasını dəyişib. Eyzangül ana isə oğul həsrəti ilə 2019-cu ildə dünyadan köçüb.



## İTKİN ELMAN

Canını verdiyin o son nəfəsdə,
Canın çox yandımı, vətən övladı?
Allahın duyduğu o son fəryadın,
Bəşər aləminin qəlbin dağladı.

Səngərdə keşikdə durduğun zaman,
Vətən torpağına qarışdı qanın.
Dünyadan şəhidtək köçüb gedənlər,
Əziz bəndəsidir tək Yaradanın.

İki körpə balan "Ata" kəlməsin,
Həsrətlə, nisgillə dilə gətirdi.
Atalı uşaqlar ötüb keçəndə,
Onlar "Ata" deyib bir köks ötürdü.

İllərlə tapdaqda qalan torpaqda,
Nigaran dolaşdı sənin də ruhun.
Elman, işğal dərdi məlhəmin tapdı,
Səni öz qoynunda gizlədən yurdun.

*04.05.2023*



SADIQOV ASİM
NAZİM OĞLU

ƏSGƏR

*(1994-cü ildə I Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## BÖYÜK QƏLBİN BÖYÜK SEVGİSİ

*Qürur, fəxr bir valideynin övladına əmanət edə biləcəyi ən böyük və dəyərli mirasdır. Hər övlad valideyninin adı ilə ömrü boyu öyünə bilmir. Ancaq Şəhid övladları atdıqları hər addımda atalarının adı onların yollarına işıq olur. Nə qədər ata həsrətləri böyük olsa da, qürurları da böyük olur. Həmin o həsrəti və qüruru tən olan Şəhid övladlarından biri də Nicatdır. Atası şəhid olanda beş ayı tamam olmayan Nicat.* ***"Oğlum, sən böyüyəndə Şəhid övladı olduğun üçün fəxr edəcəksən"*** *sözlərini beşiyində duyan Nicat. Atasının adını qürurla yaşadan Nicat.*

Sadıqov Asim Nazim oğlu 12 iyun 1969-cu ildə Şəki rayonunun Orta Zəyzid kəndində anadan olmuşdur. Ailənin dörd övladı olsa da, onların ikisi körpə yaşlarında rəhmətə getmişdi. İki qardaş yaşa dolmaq onların qisməti olmuşdur. Nərgiz ana həyatın min bir cəfasını çəkə-çəkə övladlarını böyütmüşdür.

Asim Sadıqov ilk dəfə təhsil almağa Şəki rayon Orta Zəyzid kənd məktəbində başlasa da, sonra Şəki şəhər 7 nömrəli tam orta məktəbdə davam etmişdir. Məktəbi bitirdikdən sonra müddətli həqiqi hərbi xidmətə getmiş və Rusiya Federasiyasında xidmət etmişdir. Xidmətini başa vurduqdan sonra el-obasına dönmüşdür.

Asim hər zaman halal zəhmətinin bəhrəsini dərmək üçün çalışan gənc olub. O, Şəki İpək Kombinatında işə başlayıb. Elə ömür-gün yoldaşı Şəlalə xanımla da



iş yerində tanış olub. Hər iki gənc xoşbəxtliyi biri-birində tapdıqlarını düşünüblər. O sevgi 1992-ci ilin aprel ayında nişan mərasimi ilə nəticələnib. Asim Şəlalə xanımı çox sevib. Vətəni isə uğrunda öləcək qədər çox sevib. Nişanlı olan zaman dəfələrlə könüllü olaraq cəbhəyə üz tutub və döyüşlərdə iştirak edib. Hətta bir dəfə Tərtər rayonu istiqamətində gedən döyüşlər zamanı düşmən tərəfindən əsir götürülüb. Həmin zaman onun şəhid olduğu xəbəri yayılıb. Nərgiz ana oğluna bir həftə yas verib. Səkkizinci gün Asim evə döndüyündə hər kəs təəccüb və sevinc hissi ilə onu qarşılayıb. Düşmənin nə qədər amansız olduğunu Asim əsirlik həyatında daha da yaxşı görüb. Ancaq o bir an olsun fikrindən dönməyib və fürsət düşən zaman cəbhəyə yollanıb.

Asim və Şəlalə xanım 19 oktyabr 1992-ci ildə ailə həyatı qurublar. 15 avqust 1993-cü ildə Nicat adlı ilk və tək övladlarının sevincini yaşayıblar. Övladı dünyaya gəldikdən sonra da Asim cəbhəyə yollanıb. Son dəfə dekabrın 31-dən yanvarın 2-nə qədər evinin qonağı olub. 2 yanvar 1994-cü ildə Şəlalə xanımın ad gününü keçirib. Sonra beşikdə olan Nicatını bağrına basaraq onu öpüb. Sanki bir daha sevdiklərini görməyəcək kimi onlara vida edib.

Ağdam rayonun Güllücə kəndi uğrunda şiddətli döyüşlər gedirdi. Yanvarın 4-də Asim də o döyüşlərə qatılıb. Yanvarın 4-dən 5-nə keçən gecə başından aldığı ağır zərbə nəticəsində şəhid olub. Yanvarın 5-də axşam evinə gətirilib. 6 yanvarda Şəki şəhər Şəhidlər xiyabanında torpağa tapşırılıb. Elə o gündən sonra Şəlalə xanımın ən böyük imtahanı başlayıb. Hər dəfə övladının verdiyi "Ana dostlarımın atası gəlir, bəs mənim atam nə zaman gələcək?" cavabsız sualları önündə aciz qalıb. Min bir zülümlə böyüyən Nicat anasının tək dayağı, tək təsəllisi olub. Şəhid oğlu Şəhid atasının adını tək övladının adında yaşadır.

## ŞƏHİD ASİM

Bala qoxusundan doya bilmədin,
Çox arzun yas tutdu ardınca, Asim.
Sənsiz yaşa dolan yeganə oğlun,
Özüylə bərabər böyütdü dərdin.

Qaniçən düşmənin amansızlığın,
Görmüşdün əsirlik ağrısın, dağın.
Vətənin ümidi sönməsin deyə,
Söndürdün evinin yanan çırağın.

Bu eldən neçə mərd oğullar keçib,
Onlar haqqın yolun bilərək seçib.
Asim, sənin kimi yurda sevdalı
Şəhidlər şəhadət şərbətin içib.

Hər şəhid ömrünə nəzər salanda,
Ruhum yaralanır sanki o anda.
Yaşamın nöqtəsi şəhadət olur,
Ürəkdə ən ali sevgi olanda.

*10.05.2023*





**MƏMMƏDOV ADİL
AYDIN OĞLU**

**ƏSGƏR**

*(1994-cü ildə I Qarabağ müharibəsində
şəhid olmuşdur.)*

## ATASININ GÖRƏN GÖZÜ

*Övlad valideynin gözünün nurudur. Valideyn övladının varlığı ilə dünyanı gözəl, aydın görər. Bütün çətinliklərin sonunda evə dönən valideynin övladının gülən üzünü görməsi ən böyük xoşbəxtlikdir. Aydın müəllim üçün də 5 övladının (1 qız, 4 oğul) gülən üzlərini görmək ən böyük xoşbəxtlik idi. Min bir zəhmətlə, zillətlə böyüyən uşaqların bir ağ günə çıxacağı günü görmək arzusu ilə yaşayırdılar Aydın kişi və Həqiqət xanım. Ancaq olmadı, onların övladları ilə bağlı arzularının bəziləri nakam qaldı. Sevincləri uzun olmadı. Əbədi olaraq qəmə qərq oldular. Övladlarını gözlərinə nur bilən Aydın kişi övladı ilə birlikdə gözlərinin nurunu da itirdi. Şəhid Adilin cansız cismini görən andan atanın dünyası zülmətə qərq oldu. Oğlunun dünyadan doymadan köçməsi Şəhid atasının ən böyük sınağı oldu. O, uzun illər dünya işığından məhrum qaldı. Oğlunun nur üzünə həsrət qalan Şəhid atası oğul həsrəti ilə günü-gündən saralıb soldu. O, 30 noyabr 2010-cu ildə Şəhid Adilinə qovuşdu.*

Məmmədov Adil Aydın oğlu bir şaxtalı qış günü, 18 fevral 1974-cü ildə Şəki rayonunun Kiçik Dəhnə kəndində Aydın kişinin və Həqiqət xanımın bir qız və bir oğul övladından sonra dünyaya gəlmişdi. Daha sonra bu ailədə yeni körpələr dünyaya göz açmışdı. Valideynlər övladlarını layiqli böyütmək üçün hər çətinliyə sinə gəlmişlər. Digər bacı və qardaşları kimi Adil də valideynlərinin zəhmətini hələ körpə yaşlarından dərk etmişdi.

Adil 1981-ci ildə Şəki rayon Kiçik Dəhnə 2 nömrəli tam orta məktəbdə təhsil almağa başlayıb. Adil nəinki sinifdə, ümumi məktəbdə ən savadlı və bacarıqlı şagirdlərdən biri olub. Elə bu xüsusiyyətləri ilə də məktəb kollektivi arasında rəğbət qazanıb. Müəllimləri Adilin istənilən universiteti oxuya biləcəyinə yetəcək savadının olmasına əmin idilər. Lakin Adilin savadının yetəcəyi universitetə maddi gücü yetməyib. O, məktəbi bitirdikdən sonra universitet yollarında addımlaya bilməyib. Ailəsinə kömək olmaq üçün usta yanında fəhlə kimi işləyib. Elə vətən keşiyinə də üstü-başı toz-torpaq içində addım atıb.

Adil Məmmədovun gəncliyi vətənin ən ağır və ağrılı günlərinə təsadüf edib. Anaların göz yaşlarına, fəryadlarına şahid olub. Cəbhədən gələn qara xəbərləri çox eşidib. Elə özü də vətənə keşik çəkməyin vacibliyini dərindən dərk edərək 1992-ci ildə həqiqi hərbi xidmətə yollanıb. İlk olaraq Bakı şəhərində yerləşən N saylı hərbi hissədə xidmətə başlayıb. Daha sonra onun da yolu cəbhəyə çatıb. Ağdam rayonunda döyüşlərə qatılıb. Xındırıstan, Sırxavənd kəndlərində mübarizə aparıb. 16 yanvar 1994-cü ildə Sırxavənd kəndində başından snayperlə vurularaq şəhadətə ucalıb.

Həqiqət ana halal çörək qazanmaq üçün Şəki İpək Kombinatında işləyirdi. Həmin gün işə gedərkən ağlına gəlməzdi ki, iş yerində oğlunun şəhid xəbərini alacaq. O xəbəri eşidən ana duyduqlarına inanmaq istəməyib. Ancaq evinə dönən zaman o acı həqiqətlə üz-üzə qalıb.

Aydın kişi oğlunun nəşini evinə gətirmək üçün yola çıxıb. Yolboyu Allaha yalvararaq bir möcüzə olmasını, Adili şəhid yox yaralı kimi görməyi istəyib. Ancaq o mələfəni çəkən zaman başından vurulan oğlunun əbədi uyuduğuna şahid olub. Heç bir ata o anı yaşamaq istəməz. O ana şahid olmaqdansa dünya işığından məhrum olmağı üstün tutardı Aydın kişi.

17 yanvar 1994-cü ildə əsgər Məmmədov Adil Aydın oğlunun nəşi Şəki rayon Kiçik Dəhnə kəndindəki ata evinə gətirilib. Elə həmin gün Kiçik Dəhnə kənd Şəhidlər xiyabanında torpağa tapşırılıb. Adil eyni yolun yolçusu olduğu, eyni döyüşün iştirakçısı olduğu, eyni məqama birlikdə ucaldığı Tərlan Rüstəmovla birlikdə torpağa tapşırılıb. Neçə-neçə şəhidin son mənzilinə çevrilən Kiçik Dəhnə Şəhidlər xiyabanı hər kəsin ziyarətgahına çevrilib. Kənd camaatı xiyabanı hər zaman diqqətdə saxlayır. Kiçik Dəhnə kənd sakini iş adamı Elçin Calalovun təşəbbüsü ilə kənd sakinləri Şəhidlər xiyabanında yenidənqurma işləri apararaq müqəddəslərin uyuduqları müqəddəs məkanı abadlaşdırıblar.

Azad vətəndə yaşadığımız firavan günlərimizi şəhidlərimizə, qazilərimizə və şəhid ailələrinə borcluyuq. Şəhid qanının axdığı torpağa şəhid doğmalarının göz yaşları süzülür. Biz bu torpağa addım atanda ilk özümüz özümüzdən soruşmalıyıq: **"Biz bu torpağa qədəm qoymağa layiqik?"**



## ŞƏHİD ADİL

Çöhrəndən nur düşürdü sənə baxan gözlərə,
Şücaətin iz salıb şeirlərə, sözlərə.
Şəhid adın mirasdır Şəhid Adil, bizlərə,
Sənin kimi ərənlər yurda sahib çıxdılar,
Düşmənin üzərinə şimşək kimi çaxdılar.

Ağdamın hər qarışı bir şəhidə məzardı,
O torpaqdan başladı cənnətdə ömrün ardı.
Sənin də ürəyində çox arzu nakam qaldı,
Yoxluğun od ələdi ata-ana qəlbinə,
Bir əlac tapılmadı şəhid oğul dərdinə.

Qanının qisasını aldı yenilməz ordu,
İşğaldan azad etdi sinəsi dağlı yurdu.
Səninţək oğulların ruhu o gün şad oldu,
Cənnətə yol açdılar oğullar karvan-karvan,
Şəhidlər sayəsində hürr oldu Azərbaycan.

*28.04.2023*



**RÜSTƏMOV TƏRLAN TAPDIQ OĞLU**

ƏSGƏR

*(1994-cü ildə I Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## TORPAĞIN BƏTNİNƏ KÖÇƏN ŞƏHİD

*Vətən – hər kəsin özünün hesab etdiyi sevgisi cahandan böyük, lakin yumruq boyda ürəyə sığacaq, ancaq sözlə ifadə edilə bilməyəcək bir məfhumdur.* ***"Mənim Vətənim"*** *deyən birinin baxışlarının dərinliyindəki o məna vətənin hər şeydən üstün olduğunun bir sübutudur. Bəzi insanların vətən sevgisi uğrunda ölə biləcək qədər böyük olur. Vətən üçün ölməkdən şərəfli ölüm varmı? Bəs hər kəs vətən uğrunda can verəcək qədər alidirmi?*

*Ana bətnində yarandığımız gün alın yazımız yazılır. Şəhidlərin alın yazılarında torpağın bətninə köçmək elə ana bətnində yazılır. Torpağın bətninə köçür şəhidlər...*

17 iyul 1973-cü ildə Şəki rayonunun Kiçik Dəhnə kəndində bir oğul doğuldu. Sanki vətənin dağında-dərəsində tərlan kimi süzmək üçün gəlmişdi bu dünyaya. Elə Tapdıq kişi və Mükafat xanım səkkiz övladlarından altıncısı olan bu qəhrəmana Tərlan adını verdilər. Bir zaman sevinclə dilə gələn bu adın 21 il sonra həsrət və nisgil ilə dilə gələcəyi heç kimə məlum deyildi.

Rüstəmov Tərlan Tapdıq oğlu 1980-ci ildə Şəki rayon Kiçik Dəhnə kənd orta məktəbində təhsil almağa başlayıb. Məktəbi bitirdikdən sonra o da vətənin keşiyini çəkmək üçün müddətli həqiqi hərbi xidmətə yollanıb. Tərlanın döyüş yolu 1992-ci ildə vətənin qanlı-qadalı günlərində başlayıb. Düşmənin atəşindən sinəsi cadar-cadar olan Ağdamın neçə-neçə kəndində gedən döyüşlərdə mübarizə aparıb.



Son döyüşü isə 16 yanvar 1994-cü ildə Ağdam rayonunun Sırxavənd kəndi uğrunda olub. Həmkəndlisi, həmdərdlisi Məmmədov Adil Aydın oğlu ilə eyni kəndin müdafiəsi uğrunda şəhid olublar. Elə eyni gündə, eyni yerdə də dəfn olunublar.

Mükafat ana müharibənin necə bir müsibət olduğunu hələ lap körpə yaşlarında dərk etmişdi. 1941–45-ci illərdə atasının qara kağızını almışdı. Atasının bir məzar yeri belə olmayan qızcığaz ata yolu gözləyə-gözləyə yaşa dolmuşdu. Müharibə onun qorxulu yuxusu olmuşdu. Ömrü boyu görməyə məcbur qaldığı o yuxuda bir gün atası ilə yanaşı oğlunun da yer alacağını düşünməzdi. Uşaqlıqdan ən böyük acını çəkdiyini düşünən Mükafat ananın ən böyük acısı hələ qarşıda imiş.

Tərlan döyüşlərdə həm avtomobil idarə edirmiş, həm də vuruşurmuş. Onun maşınında neçə şəhid son nəfəsini verib, neçə qazi kəm qalan əzasının yoxluğu ilə qıvranıb. Tərlan çox böyük acıların şahidi olub və o acıları yaşayıb. Tərlanın doğmaları da eyni acıları Tərlanı itirən zaman yaşayıblar. İlk olaraq ailəsinə yaralı olduğu xəbəri verilsə də, atası Tapdıq kişi və qardaşı Məhəbbət daha acı gerçəklə üzləşiblər. Ata 17 yanvarda – ad günündə oğlunun cansız cismini bağrına basıb. Bir atanın ad günündə "hədiyyəsi" heç oğul tabutu olarmı? O gündən sonra Tapdıq ata üçün həmin günün adı ad günü yox, oğlunun dəfn günü olub. 17 yanvar Tərlanın cansız cismi Kiçik Dəhnə kənd məzarlığında torpağa tapşırılıb. O gün Şəki torpağının bətninə bir deyil, iki oğul köçüb. Tərlan və Adilin əbədi vidası hər kəsi göz yaşlarına qərq edib.

Tərlansızlıq hər kəsə ağır gəlir. Onun boş qalan yeri göz dağına çevrilir. Adını yaşatmaq üçün qardaşı Sərvan öz övladına Tərlanın adını qoyur. Lakin körpə Tərlanın ömrü cəmi üç il olur. Şəhid Tərlan dərdi ilə sızlayan ürəklər bir də körpə Tərlanın dərdinə məskən olur. Tərlan adı bu ailənin qaysaq tutmayan könül yarasına çevrilir.

Bu gün hər bir azərbaycanlı kimi Rüstəmovlar ailəsinin də tək təsəllisi Qarabağın, Tərlan və onun kimi qəhrəmanların qanı daman Ağdamın işğaldan azad olunmasıdır. O azadlığa töhfə verən qəhrəmanlardan biri elə Rüstəmovlar ailəsinin daha bir nümayəndəsi baş leytenant Rüstəmov Əsgər Elman oğludur. Əsgər Rüstəmov əmisinin yolunu davam etdirərək, əmisinin və bütün şəhidlərimizin intiqamını dəfələrlə döyüşlərdə alıb. O, 2022-ci ildə isə Azərbaycan – Ermənistan sərhədində baş verən döyüşlər zamanı Kəlbəcər istiqamətində yaralanıb. Hazırda cismində beş qəlpə yarası olan qəhrəman vətənin keşiyində durur. Bu vətənin qəhrəmanları hər zaman var olub və var olacaq. Düşmən yaxşı bilməlidir ki, azərbaycanlılar vətən bayrağına bürünüb vətən torpağına dönməyi bir şərəf bilir.

## ŞƏHİD TƏRLAN

Tərlan kimi süzürdü vətənin dağ-daşında,
Tərlanın izi qaldı Qarabağ savaşında.
Şücaəti həkk olub mərd xalqın yaddaşında,
Xalq unutmur heç zaman yolunda can verəni,
Haqq yolun dönməyənlər məhv etdilər düşməni.

Tərlanın ömür haqqı ödənilməz heç zaman,
Son nəfəsinə qədər düşmənə tutdu divan.
Neçə-neçə şəhid və neçə yaralı olan,
Tərlanın sayəsində yad əllərə keçmədi,
O qəhrəman bu yolu əbəs yerə seçmədi.

Bu yol haqqın yoludur, bu səs haqqın səsidir,
Vətənimin varlığı şəhidlər nəfəsidir.
Ürəkləri oxşayan zəfərin nəğməsidir,
Sözlərini şəhidlər qanla yazıb torpağa,
Musiqisi yaraşır dalğalanan bayrağa.

***29.04.2023***



**RƏFİYEV ASİM RƏCƏB OĞLU**

**ƏSGƏR**

*(1994-cü ildə I Qarabağ müharibəsində şəhid olmuşdur.)*



## İKİ QARDAŞIN ZAMANSIZ VİDASI

*Həyat çətinlik və sınaqlarla cürbəcür rənglərdə görünür. 1990-cı illərdə Azərbaycanın üzərinə qara buludların çökməsi səbəbindən demək olar ki, bütün xalqın güzəranı qaraya bürünmüşdü. Uşaq-böyük hər kəsin çöhrəsinə eyni baxış yansımışdı. Bir az nifrət, bir az təlatüm, bir az da həsrət. Kəndlərə, qəsəbələrə doluşan əlisilahlı dəstələrin vahiməsi uşaqları, böyükləri qorxuya salırdı. O silahlıların yaşatdığı həyəcanın qurbanlarından biri də Oktay oldu. Onun zamansız ölümü ailəsini sarsıtdı. Ancaq bu son olmadı. Düşmənin növbəti hədəfi isə Asim Rəfiyev oldu.*

Rəfiyev Asim Rəcəb oğlu 5 dekabr 1975-ci ildə Şəki şəhərində həyata qədəm qoyub. Ailənin üç oğul, iki qız övladından biri olub. 1982-ci ildə Şəki şəhər 20 nömrəli orta məktəbdə təhsil almağa başlayıb. Maşınlara marağının olması onun yollarını 43 nömrəli Şəki Texniki Peşə Məktəbindən salıb. Avtomobil təmiri, çilingər ixtisasına yiyələnən Asim elə öz ixtisası üzrə də işləməyə başlayıb.

Hər vətən qeyrətli oğulun arzusu vətənə keşik çəkməkdir. Həmin o oğullardan biri də Asim olur. Asim 1993-cü ildə müharibənin ən şiddətli vaxtlarında müddətli həqiqi hərbi xidmətə yola düşür. Vətən üçün doğulub, vətən üçün ölməyə hazır olan qəhrəman Füzuli döyüşlərinə qatılır. Hər ötən an ölümün yaxınlaşdığını döyüşdə olan hər kəs kimi Asim də yaxşı bilirdi. Artıq gözlərinin önündə silahdaşlarının can verməsi onun üçün ölümü adiləşdirmişdi. Və o an...

Düz dörd il öncə həmin gecə Azərbaycan xalqı əsrin faciəsini yaşamışdı. 20 Yanvar tarixin ən qanlı səhifələrindən biri kimi tarixə həkk olunmuşdu. O qanlı tarixin dördüncü il dönümündə Rəfiyev Asim Rəcəb oğlu Füzuli rayonu istiqamətində gedən döyüşlərdə ürəyindən snayperlə vurulmuş və şəhadətə ucalmışdı. Həsrətlə ötən yeddi günün tamamında Asimin nəşi ata ocağına gətirilmiş və özü kimi zamansız dünyadan köçən qardaşı Oktayın yanında torpağa tapşırılmışdı.

İki övlad dərdini çəkmək valideyn üçün ağır olur. Rəcəb kişi və Limonət xanım üçün övlad dərdi ən böyük sınaq idi. Onlar bu həyatdan ürəklərində iki oğul dərdi ilə köçüblər.



## ŞƏHİD ASİM

Böyük ürəklərdə yer ala bilir,
Dünyanın özütək böyük sevgilər.
Ürəyi dünyadan böyük olanlar,
Asim, sənin kimi yurda can verər.

Azadlıq eşqinin yanan alovu,
Səni də pərvanə elədi, igid.
Vətənin başına dönüb həmin gün,
Oldun bu torpağın qurbanı, şəhid.

Ayrılıq kəlməsi ürəyə düşüb,
Oldu çəkilməyən ağır bir sınaq.
Ananın, atanın, qardaş, bacının,
Könül dərdi oldu lap qalaq-qalaq.

Vətən həsrətiylə bir çəkilirdi,
İllərlə həsrətin sənin də, Asim.
Azadlıq duyğusun duyan torpaqdan,
Elə bil duyulur sənin nəfəsin.

***10.05.2023***



**SEYİDOV ELDAR
BİDON OĞLU**

ƏSGƏR

*(1994-cü ildə I Qarabağ müharibəsində itkin düşmüşdür.)*

## PARÇA-PARÇA OLAN ÜMİDLƏR

*Anaların övlad dərdi heç qaysaq tutmaz. İllər ötər ancaq həsrət bitməz. Ömür də həsrət çəkə-çəkə bitər. Ömür dediyin hər anından bir nisgilin boylandığı yaşamdır. Ən ağır imtahanla yaşamaq... Hər dəfə qəlbindəki yaraya duz basılar. Kimsə zəng edib "Eldar" dediyində sanki ilk günkü kimi qanayar illərin bitməyən itkin dərdi.*

*Təsadüf nəticəsində Eldarın ailəsinə may ayında zəng etdim. Sən demə, may ayının gəlişi qapanmayan qəlb yarasına sanki duz kimi basılırmış.* "Ah qızım, qaysaq tutmayan bala adlı yaram bu günlər daha çox qanayır" *dedi Tahirə ana.*

**Eldar Seyidovun anası Tahirə xanım:**

– Mən Eldarı 11 may 1975-ci ildə qucağıma almışdım. Dörd balam var idi. Mən nə bilərdim ki, sinəmə bir yox, iki bala dağı çəkiləcək. Dərdim dünyaya sığmaz, qızım. Bala dərdi anaların imtahanıdır. Heç bir anaya bu imtahandan keçməyi arzu etmirəm. Mən yandım, daha heç bir ana ürəyi yanmasın. *(Tahirə ananın ürəyinin yanğısını ürəyimdə hiss etdim.)*

Eldar Seyidov Şəki rayonunun Böyük Dəhnə kəndində dünyaya göz açıb. Sanki dünya boyda qəlbi olub. Hər kəsə məhəbbəti, mərhəməti olub. Elə hər qəlbdə də yer almağı bacarıb. Anasına həddindən ziyadə bağlı bir övlad olub. Vətənə olan bağlılığı da əbəs deyil. Ana sevgisi, vətən sevgisi ürəyinin zəbt olunmaz duyğusu olub.



Eldar 1982-ci ildə Böyük Dəhnə kənd tam orta məktəbində təhsil almağa başlayıb. Məktəbin seçilən şagirdlərindən olan Eldar gücü və qüvvəti ilə də seçilib. Zaman ötdükcə həm dəyanəti, həm də cəsarəti artıb. Məktəbi bitirdikdən sonra müddətli həqiqi hərbi xidmətə yollanıb. Bakı şəhərində Xüsusi Təyinatlı Qüvvələrin bir əsgəri kimi xidmətə başlayıb. Eldarın uca boyu və əzmkarlığını görən komandirləri Qarabağda ona ehtiyac olduğu üçün yeddi ay sonra döyüş bölgəsinə göndəriblər. Həmin əsgərlərin yola salınma mərasimində Ulu Öndər Heydər Əliyev şəxsən özü iştirak edib.

Eldargilin dəstəsi dekabrın 18-də Füzuliyə çatıb. 6 gün həmin istiqamətdə qaldıqdan sonra Tərtərə gediblər. 3 gün sonra şiddətli döyüşə girənlərdən biri də Eldar olub. Döyüş yoldaşı Elşənin dediyinə görə, yanvarın 29-da döyüş vaxtı Zəbi adlı bir əsgər şəhid olur. Eldar Zəbinin nəşini həmin ərazidən çıxarıb uzaqlaşdırır. Sonra Elşən özü yaralanır. Eldar Elşəni də həmin ərazidən çıxarır. Elşən qan itkisi səbəbindən huşunu itirən ana qədər Eldarın sağ olduğunun şahidi olur. Eldarı ondan sonra heç kim görmür.

Fevralın 1-də Eldarın ailəsinə onun itkin düşdüyü xəbəri verilir. Ailənin dəhşətli günləri o xəbərlə başlayır. Ailə əllərində nə varsa, hamısını satıb Eldarı tapmaq üçün çalışır. Tahirə ana qızıl dişlərini də satır. Altı ay gecə-gündüz Eldarı axtaran ailənin ümidi günbəgün üzülür. Bu ümidsizliyə şahidin bacısı Əsli xanım cəmi yeddi ay tab gətirə bilir. 15 yaşlı qızcığaz qardaş həsrəti ilə dünyadan köçür. Ailənin bala dağı təzələnir.

İki balanın dərdini ürəyinə yığan valideynlər bəzən bir kamaza yığılan şəhid nəşləri arasında övladlarını axtarıblar. "Parça-parça olan qolların, ayaqların biri balamın olar" deyə ümidlər də daşa dəyib. Xəstəxanalarda "Ana, su" deyə zarıyan əsgərlərdən biri, bəlkə, balası olar deyə hər yaralıya yaxınlaşıb Tahirə ana. Ancaq Eldarını tapmayıb.

Eldar bir vaxtlar tarixçi olmaq arzusunda olub. Ancaq o həmin arzusuna çatmasa da tarixin yaddaşında İtkin Şəhid olaraq qalıb.

## İTKİN ELDAR

Qəlbinin ram olmaz sevgisi idi,
Bir ana, bir də ki, vətən sevgisi.
Vətənin uğrunda canından keçib,
Olmusan vətənin şəhid incisi.

Sozalan rəsminin özü kimidir,
Ümidlər, xəyallar, bir də arzular.
Ananın qəlbinin dərinliyində,
"Bəlkə, oğlum sağdır" ümidləri var...

Sənin sükutunda boğuldu, Eldar,
Yeganə bacının dərdli ürəyi.
Qardaş həsrətiylə gözün yumanda,
Olmadı bir loğman onun köməyi.

Böyük arzuların sırasındaydı,
Toz tutan tarixin tozunu silmək.
Sənin taleyinin yazısı oldu,
Vətənin uğrunda canını vermək.

***08.05.2023***





## KƏRİMOV KƏRİM ƏVVƏL OĞLU

ƏSGƏR
(*Könüllü*)

*(1994-cü ildə I Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## VƏTƏNİN DƏRDİNİN MƏLHƏMİ OĞUL

*Hələ neçə fədaini tanıyacağıq. Hər dəfə təəccübüm bir qədər də artır. Hər dəfə şəhid sevgim daha da çoxalır. Vətəni daha çox sevir və sahiblənirəm. Hər şəhid kimi. Hər qazi kimi. Şəhid Kərim kimi.*

*Ürəyin ən toxunulmaz hissi sevgidir. O hiss ruhu, cismi büsbütün ovsunlayır. Bir də o sevginin ünvanı vətəndirsə, bax o sevgi ölümə belə meydan oxuyur. Heç kim və heç bir şey o sevginin önünə keçə bilmir. Bütün varlığından bir amal uğrunda keçirsən. O amalın adı Vətən olur. Elə Kərim də bütün varlığını vətənin azadlığı üçün qurban etdi. O azadlıq amalından bir an belə olsun dönmədi.*

Kərimov Kərim Əvvəl oğlu 21 fevral 1964-cü ildə Şəki rayonunun Kiçik Dəhnə kəndində dünyaya gəlmişdir. Ailənin səkkiz övladından beşinci övlad olmuşdur. 1971-ci ildə Şəki rayon Kiçik Dəhnə kənd 1 nömrəli orta məktəbdə təhsil almış və təhsilini uğurla başa vurmuşdur.

Kərim Kərimov da müddətli həqiqi hərbi xidmətini SSRİ-nin dövründə Rusiyada keçən qəhrəmanlarımızdan biridir. O, xidmətini başa vurub vətənə döndükdən sonra könül verdiyi Mehriban xanımla ailə qurub. Bu izdivacdan onların Sevda, Əfsanə və Türkanə adlı üç qız övladı olub. Üç qız övladının xoş günlərini görmək Kərimin də arzusu idi. Ancaq 1990-cı illərdə vətənə tamah salan erməni qəsbkarlarının ilk hədəfi qız-gəlinlər idi. Öz övladlarını əzizləyən zaman

xəyalında canlanan Qarabağda düşmən hədəfində olan körpələrin fəryadları onu rahat buraxmırdı. O, vətənin, vətəndaşların iztirabına daha tab gətirə bilmirdi. Və həmin qərarı verdi.

– ***Ata, mən könüllü olaraq Qarabağın haqq savaşına qoşulmağa gedirəm. Vicdanımın səsi məni Qarabağa getməyə səsləyir.***

– Oğul, mən sənə getmə deyə bilmərəm. Vətənin bu dar günündə vətənə sahib çıxmaq gərək. Yolun açıq olsun.

Kərim Olya ananın, həyat yoldaşının, üç körpə övladının və doğmalarının gözlərindəki hüznü ürəyinə gömərək cəbhəyə yollanır. Ağdam rayonunun Papravənd kəndi uğrunda gedən döyüşlərə qatılır. Döyüşlər zamanı sərrast atəş nəticəsində bir neçə düşməni məhv edir və bu şücaəti komandirlərinin nəzərindən yayınmır. Heç düşmənin də gözündən yayınmır. Düşmən dəfələrlə Kərimi nişan alsa da, o, hədəfdən yayına bilir. Artıq hər kəs Kərimin düşmən hədəfində olduğunu açıq-aydın bilirdi. Elə Kərim özü də bundan xəbərdar idi. Ancaq bu onu qorxutmurdu. Çünki cəbhəyə gedən biri ölüm qorxusunu özlüyündə yenib cəbhəyə yollanır.

Bir müddət doğmaları Kərimdən xəbər ala bilməyiblər. Onun itkin düşdüyü xəbəri yayılıb. Atası oğlunun döyüşdüyü əraziyə gedib. Günlərlə axtarış sevinclə nəticələnib. Ata oğlunu sağ-salamat tapa bilib. Ancaq bu sevincin ömrü çox da uzun olmayıb. 3 fevral 1994-cü ildə Papravənd kəndi uğrunda gedən növbəti döyüş zamanı Kərim düşmən hədəfindən yayına bilməyib. Başından aldığı snayper atəşi nəticəsində ağır yaralanıb. Döyüş yoldaşları onu dərhal Ağdam rayonundakı xəstəxanaya çatdırıblar. Beyninin çox hissəsinin fəaliyyətini itirdiyini elə ilk anda həkimlər dilə gətiriblər. Həmin gün Kərimin yaralandığı xəbəri ailəsinə çatıb. Xəstəxanaya gələn doğmalarına həyatda qalmaq ehtimalının olmadığı deyilib. Həkimlər Kərimin aparatdan ayrılan anda ürəyi duracağını deyiblər. Atası həyatının ən çətin qərarını verib və oğlu həyata əbədi vida edib. Oğlunun nəşini evinə gətirən ata ən böyük çarəsizliklə qarşı-qarşıya qalıb. 5 fevral 1994-cü ildə əsgər Kərimov Kərim Əvvəl oğlu Kiçik Dəhnə Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Kərimin üç körpə qızı atasızlığın acısı ilə böyüyüb. İndi hərəsi bir ocağı nəfəsləri ilə isidir.

Şəhid atası Əvvəl kişi və şəhid anası Olya xanım dünyadan köçüblər. Fani dünyada doya bilmədikləri övladlarından əbədiyyətdə heç ayrılmasınlar.



## ŞƏHİD KƏRİM

Hər nakam həyata nəzər salanda,
Qəlbimdə bir nalə-fəğan ucalır.
Hər şəhid ömrünün dərin həsrəti,
Mənim ürəyimdə izini salır.

Necə sevgi idi bu sevgi, Allah?
Kərim bu sevginin qurbanı oldu.
Bir tabut ardınca üç körpə qızın,
Gözləri buludtək boşaldı, doldu.

Düşməndən qisasın alan Kərimin,
Hədəfi heç zaman boşa çıxmazdı.
Düşmənin önündə məğrur dayanan,
Qəhrəman ölümdən heç vaxt qorxmazdı.

Vətənin uğrunda candan keçməyi,
Özünə ən böyük şərəf bilirdi.
Vətənə tuşlanan hər atəş ilə,
Hər dəfə Kərim də ruhən ölürdü.

Vətən yollarına addımın atıb,
Cənnət yollarına çatdı şəhidtək.
Ağdamın sinəsi dağlanan zaman,
Ağdamın uğrunda dayandı ürək.

***03.05.2023***



**HÜSEYNOV ELŞƏN BAXIŞ OĞLU**

ƏSGƏR

*(1994-cü ildə I Qarabağ müharibəsində itkin düşmüşdür.)*

## ÜÇ NÖQTƏ İLƏ BİTƏN HƏYAT HEKAYƏSİ

"Bəlkə, bir gün gələr deyib" *yaşamaq nə qədər də dözülməzdir. Bir işıq ucu olmayan yolda kor-koranə addımlamaq kimidir o ümidlə yaşamaq. Əgər yaşamaq demək olarsa. Ümidsizlik içində neçə insan ömrü nöqtələndi. Ata, ana, bacı və qardaşlar gözlərini yollara dikib Elşənin həsrəti ilə həyatla vidalaşdılar. Bir məzar yeri olsa, şəhid olduğunu görən olsa, "Yəqin cənnətdə doğmalarım Elşən qarşılayıb" deyərdim. Ancaq hər kəs kimi mən də bunu əminliklə deyə bilmirəm. Çünki 29 ildir ki, Elşənin şəhid olub-olmadığı naməlum olaraq qalır. Elə ən dözülməzi də budur. Üç nöqtə ilə bitən naməlum ömrün başlanğıcına nəzər salaq.*

Hüseynov Elşən Baxış oğlunun ömrünün başlanğıcı Qərbi Azərbaycanın dilbər guşəsi olan Göyçə mahalının Vardenis rayonunda başlamışdır. 24 noyabr 1974-cü ildə anadan olan Elşən 8 uşaqlı ailənin (5 oğlan, 3 qız) sonuncusu olmuşdur. Hələ o zamanlardan ermənilər azərbaycanlıları sıxışdırmağa başlamışdılar. Bu nəslin nümayəndələrinin çoxu Şəki rayonunun Şəki kəndinə köçmüşdülər. 1978-ci ildə Elşən də ailəsi ilə birlikdə Şəki rayonunun Şəki kəndinə köçmüşdü. Baxış kişi, Gilas xanım yeni bir məkanda yeni həyat qurmağa çalışmışdılar. Yurd-yuva həsrəti çəkə-çəkə birtəhər yaşadıqları həyatla barışmışdılar.



Elşən 1981-ci ildə Şəki rayonunun Şəki kənd orta məktəbində təhsil almağa başlamış və 10 illik təhsilini başa vurduqdan sonra hər bir gənc oğlan kimi o da vətənə xidmət borcunu ödəmək üçün addım atmışdı.

1990-cı illərdən sonra demək olar ki, vətənin hər gecəsinin sükutunu silah səsləri pozurdu. Elə vətən keşiyində dayanan əsgərlərin də dincliyi yox idi. Onlar vətənin hər gün yaralanmasına, parçalanmasına dözə bilmirdilər. 1994-cü ilin yanvar ayında Bakı şəhərində yerləşən N saylı hərbi hissədə xidmətə başlayan Elşənin də ürəyində vətən dərdi qövr edirdi. O, ailəsinə heç bir xəbər vermədən 1994-cü ilin aprel ayında Qarabağın azadlığı uğrunda mübarizəyə qoşuldu.

Aprelin 16-da Baxış kişi Bakıya oğlunun yanına gəlir. Ancaq Elşənin hərbi hissədə olmadığı, digər əsgərlərlə birlikdə Tərtər rayonu istiqamətində gedən döyüşlərə aparıldığı deyilir. Həmin gün kor-peşman evinə qayıdan ata ertəsi gün Tərtərə yollanır. Oğul axtarışına çıxan ataya "Elşəni gördüm deyən" olmur. Elə hər kəs Elşənin döyüşdə olduğunu deyir. 24 aprelə qədər oğlunu sağ axtaran ata daha sonra onu morqlarda axtarmağa başlayır. Bunun səbəbi isə Elşənin döyüş yoldaşının son dəfə onu döyüşdə yaralı gördüyünü deməsi olur. Məlum olur ki, aprelin 16-da Elşəngilin dəstəsi döyüşdə olan zaman komandirləri şəhid olur. Həmin vaxt Elşən də çiynindən yaralanır. Hava qaralan zaman hər kəs pərən-pərən düşür. Elə ondan sonra da Elşən gözdən itir. Bir daha onun izinə rast gələn olmur.

Hər dəfə Tərtərdə şəhid nəşi tapılan zaman ailə Elşənin nəşi olar deyə ümidlənir. *(Bunun adı çarəsizlikdir...)* Baxış kişi hər şəhid nəşinə baxdıqdan sonra həm məyus olur, həm də oğlu, bəlkə, sağdır deyə ümidlənir. Beləcə illər ötür, ürək xəstəlik tapır və ömür bitir.

10 il axtarış bir nəticə vermədiyi üçün 2004-cü ildə Elşənə şəhid statusu verilir. İtkin şəhid...

2010-cu il iyulun 7-də Şəhid atası, 2014-cü il iyunun 3-də Şəhid anası oğul həsrəti ilə dünyadan köçüblər. Ancaq bu itkilər də son olmayıb. Şəhidin iki qardaşı və bir bacısı da dünyadan zamansız köç edib.

Elşəndən bu həyatda heç bir nişanə qalmayıb. Təkcə adı qalıb. O adı da yaşatmaq üçün bacısı öz nəvəsinə əmanət edib.

İtkinlərin ömür kitablarının sonunda üç nöqtə olur. Yazılacaq çox şey olsa da, yazmağın mümkün olmadığı boş səhifələr...

## İTKİN ELŞƏN

Ömür kitabının səhifəsində,
İtən ömür izin həkk olub, Elşən.
Neçə illərdir ki, sənin dərdindir,
Qəlblərə mərmitək sancılıb, deşən.

Dərdlərin ən ağır, dözülməzidir,
Qəlbi viran edən bir itkin dərdi.
Dərdinlə dünyadan köçən doğmalar,
Kaş ki səndən xəbər alıb, ölərdi.

Hər şəhid nəşinə baxdığı zaman,
Atanın canından sanki can getdi.
Oğul həsrətini hey çəkə-çəkə,
Atanın, ananın həyatı bitdi.

Səndən tək xatirə şəkillərindir,
Baxışın həkk olan dilsiz şəkillər.
Hər dəfə həsrətlə dolan gözləri,
Həmin o şəkillər sükutla izlər.

***23.04.2023***





**NAMAZOV ƏYYUB ŞÜKÜR OĞLU**

**ƏSGƏR**

*(1994-cü ildə I Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## ÜÇ QƏHRƏMAN QARDAŞ

*I Qarabağ müharibəsi zamanı çox qəhrəmanlıqlar duymuşuq və çox qəhrəmanlar tanımışıq. Vətən üçün hər şeydən imtina edib vətənə sahib çıxan həmin o qəhrəmanlar sayəsində Azərbaycan adlı diyarın qalan 80 faizi düşmənin işğal siyasətinin qurbanı olmadı. Bəli, o zamanlarda Azərbaycanın nə güclü dövlət başçısı, nə də güclü ordusu var idi. Ancaq vətən qeyrətli oğullar könüllü olaraq dəstə-dəstə cəbhəyə yol alır və torpaqlarımızı müdafiə edirdilər. Həmin o qəhrəmanların üçü Namazov qardaşları idi. Bu qardaşların etdiklərini eşitdikcə təəccüb və təəssüfümü gizlədə bilmədim. Mən və mənim kimi çox vətəndaş bu qəhrəmanlardan xəbərsizdir. Üç qəhrəmanın biri şəhid olub, ikisi şahid. Şəhid Əyyub Namazovun həyatına nəzər salaq.*

Namazov Əyyub Şükür oğlu 27 avqust 1975-ci ildə Bərdə rayonunun Əmirli kəndində dünyaya göz açıb. Ailədə 5 qardaş olublar. Əyyubun 5 yaşı olanda ailəsi Şəki rayonunun Şəki kəndinə köçüb. Ondan sonra Əyyubun ömrü elə həmin kənddə keçib. Ömür deyəndə ki, nə ömür yaşayıb ki? Cəmi 19 il. Nə bir sevgi dastanı olub, nə bir övlad murazı. Təkcə vətəndir izi də, sözü də...

Əyyub ilk dəfə məktəbə Şəki rayonu Şəki kənd tam orta məktəbində qədəm qoyub. O heç düşünməyib ki, illər sonra həmin məktəbə qədəm qoyan şagirdlər “Mən Şəki rayonu Əyyub Namazov adına Şəki kənd məktəbində təhsil alıram”

deyəcəklər. IX sinfə qədər həmin məktəbdə oxuyan Əyyub sonra Şəki Peşə Məktəbinə gedib. Oranı da bitirdikdən sonra bir müddət kənd təsərrüfatında işləyib. Sonra vətən torpaqlarının düşmən tərəfindən zəbt olunmasına dözə bilmədiyi üçün Tərtər rayonunda hərbi dəstəyə qoşulmaq istəyib. Lakin onun hələ əsgərlik yaşının çatmadığı əsas gətirilərək geri göndərilib. Nəhayət ki, Əyyubun gözlədiyi həmin vaxt 1993-cü ildə çatıb. O, müddətli həqiqi hərbi xidmətə yollanıb. Üç ay Bakı şəhərində yerləşən N saylı hərbi hissədə xidmət etdikdən sonra Tərtər rayonu istiqamətində gedən döyüşlərə qatılıb. Sonra Ağdam, Ağdərə istiqamətində gedən döyüşlərdə də mübarizə aparıb. Əyyub səngərdə Ulu Öndər Heydər Əliyevlə şəxsən görüşüb. Həmin zaman Əyyubun şücaətlərinə görə Ulu Öndər ona Məhəmməd Əmin Rəsulzadənin rəsmi olan qol saatı bağışlayıb. Bu diqqət Əyyuba daha çox stimul olub.

Əyyubgilin dəstəsi Tərtər rayonu istiqamətində mühasirəyə düşürlər. 9 gün həmin mühasirədən çıxmaq üçün çalışırlar. Həmin vaxt 2 əsgər şəhid olur. Əyyubgil həmin şəhidləri gizlin dəfn edirlər. Bir gün o şəhidlərin məzarlarını ailələrinə göstərəcəklərinə söz verirlər. Bir dəfə möhkəm tufan qopur. Ermənilər canlarının hayına düşüb isti yerlərə çəkilirlər. Həmin vaxt Əyyubgil Kəlbəcər istiqamətinə gedərək xilas olurlar. Ayaqlarını don atır. Elə bu səbəbdən də bir müddət xəstəxanada müalicə alır. Ancaq 2 şəhidin məzar yerinin düşmən tapdağında olması ilə barışa bilmir. Qardaşı Eldənizə hey bu barədə danışır. *(İndi Eldənizin ən böyük arzusu həmin döyüşlərdə iştirak edən "Malış" ləqəbli döyüşçünü taparaq həmin məzarların yerini öyrənməkdir.)* Bir müddət sonra Əyyub təkrar döyüşlərə qatılır. Komandiri Milli Qəhrəman Eldar Ağayev o zaman Əyyubu Türkiyə Cümhuriyyətində kurs keçmək üçün göndərmək istəyir. Lakin Əyyub bununla razılaşmır və vətənin ən çətin anında Qarabağda olmağın vacibliyini bildirir. O, döyüşlərə davam edir.

Əyyub Namazovlar ailəsinin vətənin müdafiəsinə qalxan tək nümayəndəsi olmayıb. Onun qardaşları Yasin Namazov və Mənsur Namazov da könüllü olaraq cəbhəyə gediblər.

Namazov Yasin Şükür oğlu 1993-cü ildə könüllü olaraq Ağdam rayonunda, Tərtər rayonunda mübarizə aparıb. Bir çox döyüşlərdə düşmənə qan uddurub.

Mənsur Namazov da 1993-cü ildə könüllü olaraq cəbhəyə gedib. O da Ağdam rayonunda düşmənin qorxulu yuxusuna çevrilib. Düşmən ordusuna Suriyadan köməyə gələn generalı maşını ilə birlikdə əsir götürüb. Lakin bu onun nə ilk, nə də son götürdüyü əsir olub. Düşmən tərəfi Mənsurun başını gətirənə külli miqdarda pul mükafatı verəcəyini bildirib. Elə olub ki, döyüşlərin birində Mənsur düşmən əlinə düşüb. Ancaq o, rus dilində sərbəst danışdığı üçün



ermənilər onun rus olduğunu zənn ediblər. Ancaq yenə də öz işgəncələrindən qalmayıblar. 9 ay boyunca Mənsur və onunla bərabər əsir götürülən 3 nəfərə zülm ediblər. Ancaq həmin 4 nəfər məğlub olmayıb. Bir dəfə benzin daşıyan maşının gəldiyini görüblər və çətinliklə həmin maşına minib oradan uzaqlaşıblar. O maşın Mənsurgili Gürcüstana gətirib. O maşın dörd həyatın xilaskarına çevrilib.

Bir ana düşünün: qanlı döyüşlərdə üç oğlu eyni anda vuruşur. Hər gün gələn şəhid tabutları, itkin xəbərləri Gülnaz ananın ürəyini lap taqətdən salır. Bir gün onun qapısını da kimsə döyüb şəhid, itkin, əsir xəbəri verəcəyini düşünən ananın düşündüyü başına gəlir. Həm şəhid xəbəri alır, həm də əsir.

25 aprel 1994-cü ildə düşmənlər Ağdərədə daha da azğınlaşır. Həmin vaxt Əyyub kimi qəhrəmanlar önə atılır. Əyyub PK silahını kənara qoyub döyüş yoldaşının qumbaraatanını götürür. Onları atəş nöqtəsində saxlayan tankı dəqiq atəşlə yararsız hala salır. Daha sonra PDM-i məhv edir. Həmin vaxt düşmən tərəfi ona snayperdən atəş açır. Lakin o, atəşdən yayınmağı bacarır. Komandiri Əyyuba snayper nişanında olduğunu deyir. Əyyub hər an vurulacağını bilsə də, döyüşə davam edir. Düşmənin canlı qüvvə ilə dolu yük maşınını da vurub sıradan çıxardan zaman düşmən onu sol gicgah nahiyəsindən vurur. Əyyub komandirinin qucağına düşür. Həmin an gözləri baxır, lakin dili söz tutmur. Komandiri və digər silahdaşları Əyyubu təcili tibbi yardım maşınının yanına çatdırıb maşına mindirmək istədiklərində düz maşının yanına snaryad atılır. Həmin an Əyyub və digər iki əsgər şəhid olur. Komandir və sürücü ağır yaralanır.

O döyüşlər zamanı da bütün bölgələrdən Qarabağa kömək üçün tibb personalı gedirdi. Həmin vaxt Şəkidən gedən tibb bacısı Əyyubun nəşini ailəsinə təhvil verə biləcəyini deyir. Əyyubun nəşi Şəkiyə gətirilir.

Cəmi 1 gün öncə aprelin 24- də Şükür kişi oğlunun görüşünə gedib. Həmin vaxt Əyyub atasına qardaşı Eldəniz üçün darıxdığını deyib. Aprelin 26-da Eldəniz qardaşının görüşünə gedəcəkdi. Ancaq Əyyub özü qardaşı ilə son görüşə gəlib. Ancaq şəhid kimi gəlib.

Əyyub öz qanı ilə 25 aprel 1994-cü ildə sanki imza atıb. O, şəhid olan vaxt tərəflər arasında atəşkəs imzalanıb. İllərlə yalnız kağız üzərində qalan, düşmənin məhəl qoymadığı atəşkəs...

25 aprel günortadan sonra Əyyubun nəşi ata ocağına gətirilir. Elə həmin gün Şəki kənd məzarlığında əbədiyyətə uğurlanır.

Əyyub şəhid olduqdan sonra Ulu Öndər Heydər Əliyev onun Milli Qəhrəman adı ilə təltif olunması barəsində tapşırıq verib. Lakin bəzi səbəblərdən bu qərar hələ də təsdiq olunmayıb. Elə həmin zamandan Əyyubun bir zamanlar təhsil

aldığı Şəki kənd tam orta məktəbi Əyyub Namazovun adını daşıması barədə qərar qəbul edilib.

Əsgər Namazov Əyyub Şükür oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24 iyun 2005-ci ildəki sərəncamına əsasən şəhadətindən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib. Şəhidimizin adını daşıyan məktəbdə büstü qoyulub.

Əyyubun qardaşı İsmayıl övladına qəhrəman qardaşının adını əmanət edib. Elə Əyyub da şəhid əmisinin davamçısı kimi Aprel döyüşlərinə qatılaraq Azərbaycan Ordusunun ilk qələbəsinin səbəbkarlarından biri olub. Hazırda da müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kimi xidmətini davam etdirir.



## ŞƏHİD ƏYYUB

Bu xalqın qəlbinə kösöv basılıb,
Ötən illər boyu, illər uzunu.
Vətənin azadlıq arzularına,
Əyyub, qurban etdin sən çox arzunu.

Üç qardaş atılıb ər meydanına,
Vətənə, torpağa oldunuz sipər.
Vətəni hürr görmək istəyənlərin,
Gərək ki, var olsun qəlbində təpər.

Ümidlə qoynunu açmışdı sənə,
Neçə şəhid ömrü bitən Ağdərə.
Hər anı sonuncu an kimi bilib,
Vətəni dar etdin yad düşmənlərə.

Cəmi on doqquz il ömür yaşayıb,
Bir bahar dərildin vətən bağından.
Yolunun yolçusu olan igidlər,
Adını andılar Qarabağımda.

*19.04.2023*



## HACƏLİYEV QALİB SALAM OĞLU

ƏSGƏR

*(1997-ci ildə atəşkəs zamanı şəhid olmuşdur.)*

## ZAMANSIZ VİDA

*Ən ağrılısı da bilirsiniz nədir? Bir şəhidin ömrünün izinə düşərkən onu daha dərindən izah edə biləcək bir atasının, anasının artıq həyatda olmamasıdır. Axı bir övladı valideyn qədər tanıyan heç kim olmaz. Axı bir övladı valideyn qədər sevən olmaz. O sevginin böyüklüyü Qalib şəhid olduqdan sonra cəmi üç il yaşaya bilən Nayma xanımın, 5 il yaşaya bilən Salam kişinin həyata zamansız vidasından bəllidir. Bir övlad itirmək valideynlərin tab edəcəyi bir dərd olmadı. Onlar övladlarının əbədi dünyasına köçdülər.*

*Şəhid qardaşı İlham qardaşını tanıda bildiyi qədər tanıtmağa çalışdı. Onun üçün o günlərə təkrar qayıtmaq, o anları dilə gətirməyin nə qədər ağır olduğunu hiss edirdim. Bu çətinliyin öhdəsindən gəlməyə məcbur idik. Elə Qalibin adını yaşatmaq və ruhunu şad etmək üçün.*

Hacəliyev Qalib Salam oğlu 27 iyul 1976-cı ildə Şəki rayonunun Qaradağlı kəndində anadan olmuşdur. Valideynlərinin altı oğul, iki qız övladından sonuncusu olmuşdur. Hər kəsdən axırda dünyaya gəlsə də, hər kəsdən birinci dünyadan köçmüşdür. Ailədə heç kim təsəvvür etməzdi ki, Qalibin tabutu onların çiyinlərində əbədiyyətə gedəcək. Ancaq həyat təzadlarla doludur. Qalib dünyadan köçəndən sonra anası, atası və dörd qardaşı dünyadan köçmüşdür.



Qalib 1983-cü ildə Şəki rayon Qaradağlı kənd natamam orta məktəbində təhsil almağa başlayıb. VIII sinfə qədər oxuyub.

Onun hərbi xidmətə getdiyi zaman vətənin ən ağır günlərinə təsadüf edir. 1993-cü il sentyabrın 15-də müddətli həqiqi hərbi xidmətə gedən Qalib bir çox döyüş bölgələrində xidmət edir. Goranboy rayonunun Tapqaraqoyunlu kəndi, Füzuli rayonunun Əhmədbəyli kəndində uzun müddət düşmənə qarşı mübarizə aparır. Düşmən amansızdır. İllərlə qana susayan düşmənin növbəti hədəfi Qalib olur. Qalibin ən böyük arzusu həmin döyüşlərdə qalib olmaq olsa da, o bu arzuya çata bilmir.

20 aprel 1997-ci ildə yenə ermənilər hiyləyə əl atır. Sözdə iki ölkə arasında atəşkəs imzalansa da, düşmən atdığı imzaya məhəl qoymurdu. Axı sözünə sadiq qalmaq əsl kişi işidir. Ermənilər isə mənəviyyatdan kasıb olanlardır. Onlar həmin gün yenə də atılan imzanı qan ilə pozurlar. Postda duran əsgərlərimizə qarşı təxribat törədirlər. Qalib Hacəliyevə tuşlanan snayper atəşi onu həyatdan qoparır. Əhmədbəyli kəndi daha bir gəncin ömrünün bitməsinə şahid olur. Həmin gecə şəhidin nəşi doğulduğu Şəki rayonuna gətirilir. Aprelin 21-də şəhidin nəşi ailəsinə təhvil verilir. Elə həmin gün əsgər Hacəliyev Qalib Salam oğlunun müqəddəs nəşi Babaratma ziyarətgahında torpağa tapşırılır.

Şəhidin qardaşı nəvəsi şəhidin adını daşıyır.

## ŞƏHİD QALİB

Zamansız vidanla qəlbə toxundun,
Həsrətdən titrədi ürək kamantək.
Vətəni yaşadır bu günə qədər,
Oğullar vətənə canın verərək.

Vətənin gözləri qan-yaş tökəndə,
Vətənə sığındın bir bala kimi.
Vətənə tuşlanan bir kor atəşə,
Qalib, sipər etdin sən öz cismini.

Yaralı quş kimi çırpındı anan,
Bayrağa bürünən tabut önündə.
Atanın qisməti olmadı, şəhid,
Arzular diləsin toy-düyünündə.

Qanının hopduğu Füzuli yurdu,
Daha azadlıqla müjdələnibdir.
Müqəddəs sayılan o torpaqlara,
İllərdi müqəddəs qan çilənibdir.

***26.04.2023***





**MİKAYILOV SADIX (SADIQ)
CAVAN OĞLU**

ƏSGƏR

*(1999-cu ildə atəşkəs zamanı
şəhid olmuşdur.)*

## HƏYATIN TEZ BÖYÜTDÜYÜ ŞƏHİD

*Bəzi uşaqlar yaşlarından daha tez böyüyürlər. Həyatın ağır sınaqları, həyat yükü onların ürəyinə də kürəyinə də ağır gəlir. Həmyaşıdlarından fərqli olaraq həmin uşaqlar daha təmkinli olurlar. Çünki həyatda ən böyük sınaqla sınanırlar. O sınaqdan sonra həyatda heç bir yoxluq onları qorxutmur. Valideyni torpaq olan biri nədən qorxacaq ki? Dünya malı insan canını əvəz etməz. Bir valideyni isə heç kim əvəz edə bilməz. Sadıx (Sadıq) 12 yaşında atasını itirdikdən sonra ilk övlad olduğu üçün anası Sərfinaz xanım ilə birlikdə özündən kiçik 2 qardaşının və iki bacısının qayğısını çəkir, bəzən isə onlara ata nəvazişi göstərməyə çalışırdı.*

Mikayılov Sadıq Cavan oğlu 6 fevral 1974-cü ildə Şəki rayonunun Kiçik Dəhnə kəndində dünyaya göz açıb. Atası oğluna öz atasının adını qoyub. 1981-ci ildə Şəki rayon Kiçik Dəhnə kənd 1 nömrəli orta məktəbdə təhsil almağa başlayıb. 12 yaşında olarkən atasının xəstəliyə yenilməsi onu dərindən sarsıdıb. Anasına dayaq olmaq üçün ayaqda durmağa məcbur qalan Sadıq hər işdə anasının əlindən tutub. VIII sinfi bitirdikdən sonra məktəbdən uzaqlaşmaq məcburiyyətində qalıb. Kənd təsərrüfatı ilə məşğul olub. Halal çörək qazanaraq anasına bacı-qardaşlarını böyütməkdə dəstək olub. Uşaq vaxtında atasızlıq onu böyüdüb.

Sadıq Mikayılov 7 iyul 1997-ci ildə müddətli həqiqi hərbi xidmətə yollanıb. Beyləqan rayonunda yerləşən N saylı hərbi hissədə xidmətə başlayan Sadıq sonra Füzuli rayonunda yerləşən N saylı hərbi hissədə xidmət edib. Daha sonra isə xidmətini Qazax rayonunda davam etdirib.

Qarabağ müharibəsi vaxtı cəbhə bölgəsində atəşkəsi nəzərdə tutan sənəd olan "Bişkek protokolu" 1994-cü il mayın 12-də imzalanmışdır. Lakin düşmən hər zaman olduğu kimi atdığı imzaya məhəl qoymur, atəşkəsi pozurdu. 6 mart 1999-cu ildə düşmən yenə də öz çirkin niyyətindən daşınmır. Bu dəfəki qurban isə Sadıq olur. Düşmən onun vətən sevgisi ilə döyünən ürəyini nişan alır. Açılan snayper atəşi ilə Sadıq şəhid olur. Onun şəhid xəbəri elə həmin gün ailəsinə deyilir. Sərfinaz ana ikinci dəfə ən böyük dayağını itirir. Yar yaralı ürəyi oğul dərdi ilə yenidən yaralanır. Martın 7-də Sadıqın nəşi el-obasına gətirilir. Atəşkəs dönəminin növbəti qurbanı olan Sadıq Kiçik Dəhnə Şəhidlər xiyabanında əbədiyyətə uğurlanır. O gün ümidlər ilgəyindən sökülür. Sərfinaz ana oğlunun üç ay sonrakı gəlişini elə gözləmirdi. Bu ananın bəxtinə ancaq kədər meyil salır.

Çox anaların övladları vətənə can qurban edərək şəhid adı qazanıblar. O ad bəzən qürurla dilə gəlir, bəzən həsrətlə. Nə adları unudular, nə də zəhmətləri. Vətən şəhid ömürləri ilə ucalan uçmaz bir saraydır. Hər dəfə "Vətən" dedikdə şəhid, "Şəhid" dedikdə vətən xatırlanır.

Əsgər Mikayılov Sadıq Cavan oğlunun adının unudulmaması üçün bibisi oğlu Oktay ehsan bulağı inşa etdirib.



## ŞƏHİD SADIQ

Həyatın ən ağır könül yükünü,
On iki yaşında qəlbinə yığdın.
Özündən balaca bacı-qardaşa,
Qardaş ola-ola atatək baxdın.

Qayğıkeş, zəhmətkeş bir oğul idin,
Böyüdün vətənə sevdalı oldun.
Əsgərlik çağına çatdığın zaman,
Vətən keşiyində igidtək durdun.

Düşmən hiyləsindən ödünc vermədi,
Sevgiylə döyünən qəlbi tuş aldı.
Qəlbindən damlayan son damla qanın,
Qazax torpağında izini saldı.

Şəhid xəbərini alan ananın,
Naləsi ucaldı göyün üzünə.
Sadıq, məzar daşın əksini salır,
Gör neçə illərdi ana gözünə.

***02.05.2023***



İSRAFİLOV SƏXAVƏT
ÇİNGİZ OĞLU

ƏSGƏR

*(2005-ci ildə atəşkəs zamanı şəhid olmuşdur.)*

## ŞƏHİD ƏMİSİNİN DAVAMÇISI

*Bir ürəyə şəhid həsrəti düşdüsə, o ürəkdə həsrət günbəgün kök atar və insanın cismini, ruhunu ağuşuna alar. Səxavət o həsrətli ürəklərdən birini daşıyırdı köksündə. Cəmi səkkiz yaşı olanda o, şəhid sözünün mənasını, şəhid tabutunun nə demək olduğunu öyrənmişdi. Elə həmin vaxtlardan da qəlbində düşmənə duyduğu nifrət kök atmağa başlamışdı. Hər dəfə şəhid əmisinin məzarını ziyarət edəndə bir gün mütləq qisasını alacağını dilə gətirmişdi. Bəli, o, sözündən dönmədi.*

İsrafilov Səxavət Çingiz oğlu 5 sentyabr 1986-cı ildə Şəki rayonunun Bideyiz kəndində dünyaya göz açıb. O, ailəsinin ilk övlad, tək oğul və bacıları Nurانə və Əfsanənin dayağı olub.

İlk övlad qoxusunu Səxavətdən alan Reyhan xanım oğlunun məktəbə ilk qədəm qoyduğu gün özünü ən xoşbəxt analardan hesab edib. Səxavət 1992-ci ilin sentyabr ayında Şəki rayon Bideyiz kənd tam orta məktəbinə qədəm qoyub. 2003-cü ildə məktəbi bitirib. 2004-cü ilin oktyabr ayında müddətli həqiqi hərbi xidmətə yollanıb. Tovuz rayonunda yerləşən N saylı hərbi hissədə xidmət edib.

Son dəfə ailəsi ilə 2005-ci il Novruz bayramı günü görüşüb. Həmin zaman atasına hər şeyin yaxşı olduğunu deyib.

Ermənilər hər zaman atəşkəsi pozurdu. Azərbaycan ordusu atəşkəs dövründə bir çox şəhidlər verib. Tovuz rayonunda düşmənlə həmsərhəd olan postda duran



Dilqəm adlı əsgər başından vurularaq şəhid olandan qısa müddət sonra Səxavət həmin postda göndərilib. Elə həmin postda da şəhid Dilqəmin adı verilib. Səxavətin alın yazısı Dilqəmlə bənzər yazılıb. 21 aprel 2005-ci ildə Səxavət postda durduğu zaman düşmən tərəfindən açılan snayper atəşi ilə başından vurulub və həmin an şəhid olub.

Həmin gün Səxavətin şəhid olduğu xəbərini ailəyə deməyə kimsənin cəsarəti çatmır. Qohumlardan biri Çingiz kişiyə Səxavətin yaralandığını və evə gətiriləcəyini deyir. Ancaq Çingiz kişi o xəbərin necəliyini illər öncə yaşamışdı. Başına nələrin gələcəyini bilirdi. Tam on bir il öncə qardaşı Çərkəzin şəhid xəbərini alan ata bu dəfə oğlunun şəhid tabutunu qarşılayır. 21 aprel 2005-ci ildə Səxavətin nəşi Bideyiz kənd məzarlığında torpağa tapşırılır. O gün ürəklərin şəhid adlı yarasına sanki duz basılır. Qardaş dərdi ilə sızlayan ürəyə aman zaman oğul övladının da dərdi yüklənir. Oğlunun gəlişini səbirsizliklə gözləyən ana üçün o gəliş göz dağı olur. O gün qardaşsızlıq həsrətinin qucaq açdığı iki qəlb sahibi isə Nurانə və Əfsanə idi.

## ŞƏHİD SƏXAVƏT

Adından iz düşmüşdü,
Şəhid, sənin ömrünə.
Sən tab edə bilmirdin,
Düşmənlərin zülmünə.

Hələ körpəliyindən,
Duydun "Şəhid" sözünü.
Şəhidlər cərgəsində,
Sən görürdün özünü.

Sanki hiss eləmişdin,
Çatacağın məqamı.
Yerdə qalmadı, şəhid,
Əminin intiqamı.

Viran qalan ellərtək,
Talandı çox ürəklər.
Peyğəmbər övladıdır,
Şəhid olan mələklər.

Sən də əbədiyyətin,
Solmayan tər gülüsən.
Şəhid olanlar ölmür,
Səxavət, sən dirisən.

*09.05.2023*



**MƏMMƏDOV SAHİL NOVRUZ OĞLU**

ƏSGƏR

*(2010-cu ildə atəşkəs zamanı şəhid olmuşdur.)*



## DÜŞMƏNİN GÖZÜNƏ DİK BAXAN SAHİL

*Ömür – hər kəsə fərqli yazılan, heç bir insanın başqası ilə eyni yaşaya bilməyəcəyi və heç bir şeylə əvəz olunmayan bir məfhumdur. Ömrün ötən anı bir daha geri dönməz. Ona görə də ömür dəyərlidir. Allahın insanlara bəxş etdiyi ömrün necə yaşanılması isə insanların özündən asılı olur. Bəzi insanlar varlıq içində mənəvi cəhətdən səfalət içində yaşayarlar. Bəzi insanlar isə yoxluq içində mənəvi zənginliyə qərq olarlar. Sahilin ömrünə nəzər saldığımda onun mənəvi dünyasının zənginliyinin şahid oldum. Vətən sevgisi ilə cilalanan bir ürək sahibi, əlbəttə ki, zəngin olar. O zəngin qəlb sahibini siz də tanıyın.*

Vətən ömürlü şəhid Məmmədov Sahil Novruz oğlu 10 aprel 1991-ci ildə Şəki rayonunun Kiçik Dəhnə kəndində dünyaya gəlib. O, cəmi 19 bahar yaşamaq üçün yaranmışdı. Ancaq 19 baharın ötüb keçdiyi ömür sanki uzun illərə sığıb. Sahil, sözün əsil mənasında, bir igidin ömrünü yaşayıb.

Novruz və Surət Məmmədovlar öz ocaqlarında üç oğul böyüdürdülər. Asif, Sahil və Coşqun. Üç oğuldan ikincisi olan Sahil o ailənin şəhid üzvü imiş.

Sahil 1998-ci ildə Şəki rayon Kiçik Dəhnə kənd 1 nömrəli tam orta məktəbə qədəm qoyub. Dərslərinə xüsusi yanaşıb və yaxşı oxuyub. Arzusu polis olmaq imiş. Məktəbi bitirdikdən sonra vətənə olan vətəndaşlıq borcunu yerinə yetirmək üçün 11 aprel 2009-cu ildə müddətli həqiqi hərbi xidmətə gedib. Naftalan

şəhərində yerləşən N saylı hərbi hissədə xidmətə başlayıb. Daha sonra Goranboy rayonunun Tapqaraqoyunlu kəndində xidmətini davam etdirib. Düşmənin hər dəfə hədəf aldığı, atəşkəsin hər gün pozulduğu Tapqaraqoyunluda düşmənlə üz-üzə dayanıb vətən keşiyini çəkmək həm ürək, həm məsuliyyət tələb edirdi. Açdığı dəqiq və sərrast snayper atəşi ilə düşmənin bir çox canlı qüvvəsini məhv edən Sahil düşmən tərəfindən axtarılıb və onun başına külli miqdarda pul qoyulub. Bunu bilən komandiri Sahili Naftalandakı hərbi hissəyə göndərib. Dekabrın 28-də məzuniyyətə çıxıb evinə gedən qəhrəman məzuniyyətini bitirib yenidən hərbi hissəyə qayıdıb. Lakin Sahil xidmət edəcəyi yerin həmin hərbi hissə deyil, düşmənlə üzbəüz mövqe olduğunu bildirərək təkrar Tapqaraqoyunluya qayıdıb.

Fevralın 14-də doğmalarına zəng edən zaman onun səsindəki məyusluq özünü büruzə verib. Bu məyusluğun səbəbi onun təlim keçmiş iki itinin düşmən tərəfindən vurulması idi. Bunu duyan valideynlərin narahatlığı daha da artıb. Onların narahat olmalarına səbəb övladlarının düşmən hədəfində olduğunu bilməkləri idi. Sahil də bunu bilirdi. Ancaq o bilə-bilə düşmənin gözlərinə dik baxdı. O, düşməndən gizlənib qorxaq kimi yaşamaqdansa, düşmənin gözlərinə baxaraq qəhrəman kimi ölməyi seçdi.

18 fevral 2010-cu ildə düşmən yenə azğınlaşır. Bir çox istiqamətlərdə atəşkəs pozulur, sərhədboyu ərazilər atəşə tutulur. Həmin ərazilərdən biri də Tapqaraqoyunlu kəndi olur. Dörd saat qızğın döyüş gedir və Sahil son damla qanına qədər mücadilə aparır. Özü öz intiqamını sağlığında alan qəhrəman həmin döyüş zamanı günorta saatlarında düşmənin açdığı snayper atəşinə tuş gəlir və ağır yaralanır. Komandiri onu maşınına qoyub xəstəxanaya çatdırmağa çalışsa da, ona nail ola bilmir. Son sözləri ***"Məni anama çatdırın"*** olan Sahil əbədi olaraq gözlərini yumur.

Hər kəs Surət ananın övladları ilə nəfəs aldığını bilirdi. Ona görə də Sahilin artıq nəfəs almadığını anaya deməyə heç kimin cəsarəti çatmır. Hətta ananın mütəmadi olaraq xəbərləri izləməsindən xəbərdar olan qonşular ananın səhərə qədər oğlunun şəhid olduğunu öyrənməməsi üçün evin işığını kəsiblər. Həmin zamanlar Novruz müəllim Moskvada işləyirmiş. Elə xəbəri də ilk olaraq ata alıb. Qürbətdə oğlunun şəhid xəbərini alan ata o gəlmədən oğlunun dəfn edilməməsini istəyib. Surət xanıma zəng edib Sahilin yaralı olduğunu və evə gətirəcəklərini deyib. Həmin an ana oğlunun şəhid olduğunu bilib. Son arzusu ***"Məni anama çatdırın"*** olan şəhidin nəşini komandiri evinə gətirib ki, anası son dəfə oğlunu oxşasın, əzizləsin. Ana oğluna toxunmayacağına, oğlunun ruhunu incitməyəcəyinə söz verir. Başını oğlunun tabutuna söykəyib səhərə qədər tabutdan ayrılmayıb. Sahil hərbi xidmətdə olduğu zaman yazdığı



*"Əsgərəm ana, ürəyimi dağlama,*
*Şəhid olsam qəbrim üstə ağlama.*
*18 ay nədir ki, gəlib keçəcək,*
*Yolumu gözləyin, gələcəm ana".*

şeirini sanki ananı təsəlli etmək üçün yazıbmış. Ancaq o, anasının gözlədiyi kimi gəlmədi.

Şəhid atası gecə ilə vətənə yola düşüb. Uzaq məsafələri acı ilə qət edib vətənə dönmək atanın ömründən ömür alıb. 19 fevralda evinə çatan Novruz kişi oğlunun tabutu ilə qarşılaşıb. Bir müddət idi qürbətdə olduğu üçün oğluna həsrət qalan ata oğlunun tabutuna sarılıb. Son vida edildikdən sonra əsgər Məmmədov Sahil Novruz oğlu 19 fevral 2010-cu ildə Kiçik Dəhnə Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Kiçik qardaşı Coşqun şəhid qardaşının adını övladına əmanət edərək o adı yaşadır.

Sahil bu nəslin tək şəhidi olmadı. 2020-ci ildə Azərbaycan Ordusunun qələbə qazandığı Vətən müharibəsində Sahilin bibisi nəvəsi Abışov Ülvi Bayram oğlu da qəhrəmancasına şəhid oldu.

Vətən qeyrəti, vətən sevgisi qandan gəlir. Elə Sahilin də, Ülvinin də sevgisi babalarından keçmişdi. Onlar 1941–45-ci illərdə ayağını itirən babaları qazi Məmməd Məmmədovun davamçıları oldular.

## ŞƏHİD SAHİL

Bir ömrə sığdırdın ölümsüzlüyü,
Qeyrəti qanında dövr edən oğul.
Vətənçün, torpaqçün canını verən,
Doğul, sən körpələr ruhunda doğul.

Düşmənin gözünə dik baxa-baxa,
Sübuta yetirdin dəyanətini.
Hər zaman düşmənə bəlli elədin,
Düşmənə duyduğun o nifrətini.

Bütün arzuların önündə durdu,
Şəhidtək şəhadət yolunu tutmaq.
Şəkiyə şəhidtək dönən qəhrəman,
Bizə haram olsun səni unutmaq.

Sənin qanın axan həmin torpaqlar,
Daha azadlığa qucağın açıb,
Sahil, sənin kimi neçə Sahillər,
Vətəndən cənnətə öz nurun saçıb.

***29.04.2023***





**SÜLEYMANOV VÜQAR
NATİQ OĞLU**

ƏSGƏR

*(2016-cı ildə Aprel döyüşlərində
şəhid olmuşdur.)*

## QANLI YANVARDAN
## ŞANLI APRELƏ ÇATAN ÖMÜR

*Qəhrəmanlar bir ölüb min dirilər. Azərbaycanın tarixinə nəzər saldıqdı demək olar ki, hər günə bir qəhrəmanın izi düşüb. Tarix boyu yaşanılan faciələrin tarixə qan ilə həkk olunduğu günlərdə bəzi qəhrəmanlar dünyaya göz açıb. Həmin o qəhrəmanlar həyatı dərk etdiklərində dünyaya göz açdıqları günün onlar üçün bir faciənin ildönümündən başqa anlamı olmur. Elə Vüqar üçün də dünyaya gəldiyi günün mahiyyəti elə idi. Çünki onun dünyaya göz açdığı gün bir xalqın yaşaya biləcəyi ən dəhşətli faciə yaşanmışdı. "Qanlı Yanvar" faciəsinin yaşandığı 20 Yanvar tarixi 1990-cı ildən sonra azərbaycanlı olan hər kəs üçün hüzn günüdür. Ona görə də Vüqar heç zaman ad gününü qeyd etmirdi. Çünki ürəyində vətən həsrəti, şəhid dərdi var idi özü şəhid olanın.*

Süleymanov Vüqar Natiq oğlu 20 yanvar 1993-cü ildə Şəki rayonunun Böyük Dəhnə kəndində dünyaya gəlir. 1990-cı ildən sonra həmin günün hüznünə sanki doğulan körpələr məlhəm olurdular. Natiq və Zenfira Süleymanovların Arzu və Aysel adlı qız övladlarından sonra bir oğul övladları dünyaya göz açır. Adını Vüqar qoyurlar. Elə Vüqar adı kimi özü də vüqarlı olur.

Vüqar məktəbli yaşına çatan zaman ailəsi ilə birlikdə Bakı şəhərinə köçür. Elə məktəbli həyatı da Bakı şəhəri, Xətai rayonu Ayaz Məhərrəmov adına 95 saylı

tam orta məktəbdən başlayır. Dərslərinə diqqətlə yanaşır. Onun da arzuları, hədəfləri olur. Heç bir çətinlikdən çəkinmir. 2010-cu ildə məktəbi bitirir. Universitetə qəbul olur. Lakin istədiyi ixtisas olmadığı və pullu təhsil almağa məcbur olduğu üçün könüllü olaraq sənədlərini geri götürür. Hədəfinə çatmaq üçün daha çox çalışır. Növbəti il Bakı Slavyan Unversitetinin regionşünaslıq fakültəsinə qəbul olur. Dördillik təhsilini başa vurduqdan sonra növbəti hədəfinə çatmaq üçün addım atır. Müddətli həqiqi hərbi xidmətə getmək üçün iki il müddətində möhlət hüququ olsa da, Vüqar bundan istifadə etmir. O, könüllü olaraq müraciət edir və diplomunu almadan 27 iyul 2015-ci ildə müddətli həqiqi hərbi xidmətə gedir.

Vüqar dünyaya göz açdığı il Füzuli rayonu erməni separatçıları tərəfindən işğal edilmişdi. 1994-cü ildə Horadiz əməliyyatı zamanı rayonun bir hissəsi işğaldan azad edilsə də, qalan hissə illərlə düşmən tapdağında qalmışdı. Vüqar dünyaya gələndə heç kimin ağlına gəlməzdi ki, bu körpə bir gün o torpaqlarda qəhrəman kimi iz qoyacaq. Vüqar hərbi xidmətə Lənkəran rayonunda başlasa da, iki ay sonra Füzuli rayonunda düşmənlə üz-üzə yerləşən N saylı hərbi hissədə xidmətini davam etmişdir.

Vüqar hərbi xidmətdə olan zaman ailəsi onunla görüşə getdiyində o, sanki olacaqları dilinə gətirib:

***– O ucalan təpə Lələtəpədir. Hər dəfə o yerlərin düşmən tapdağında olduğunu düşündüyümdə ürəyim qisas hissi ilə döyünür. O yüksəklikdən düşmən bizim mövqeyimizi görür və hədəf alır. Bu bizi qorxudurmu? Əsla. Çünki biz bilirik ki, az qalıb o əraziləri azad etməyimizə. Qorxacaq tərəf düşmən tərəfi olmalıdır. Çünki Azərbaycan Ordusunun gücü günbəgün artır. O gücü düşmən görəcək.***

Bu sözləri deyən Vüqar, bəlkə də, elə həmin yüksəklikdə şəhid olacağını hiss etmişdi. Axı şəhidlər öncədən hiss edirlər.

Vüqar 2016-cı ilin fevral ayında evlərinə gəldiyində son gəlişi olduğu heç kimə məlum deyildi. O gəlişdə nələr yaşanmadı ki? Zenfira ana pərvanə kimi oğlunun başına fırlanırdı. Aylar idi oğluna həsrət qalan ana oğlundan bir an belə ayrılmaq istəmirdi. Bilməzdi ki, əbədi ayrılacaq. On gün bir anda ötüb keçdi və Vüqar xidmətinə geri döndü.

Vüqar komandirlərinin etibarını qazanmışdı. O, kəşfiyyat bölüyünün manqa komandiri olmuş və hər zaman işində ciddiyyəti ilə seçilmişdi.

2016-cı il Novruz bayramı neçə-neçə şəhidin keçirdiyi son bayram oldu. Onlardan biri də Vüqar idi. Bayramı evindən uzaqda keçirsə də, ata-anası onun bayram sovqatını göndərmişdi. Həmin bayramda çox arzular diləndi. Ancaq o arzular ürəklərdə qaldı.



Martın 31-də Natiq kişi oğlundan gələn zəngi görcək sevincə qərq olur. Ata nə bilərdi ki, bu oğlunun son vida zəngidir. Bir daha ata gələn zənglərə o gün sevindiyi qədər sevinmədi. Çünki bir daha oğlundan zəng gəlmədi.

O günlərin xatirəsi hər kəs üçün eyni məna kəsb edir. İlk qalibiyyət. Bəs o ilk qalibiyyət üçün qət edilən yolun, aşılan sədlərin çətinliyini hər kəs dərk edirmi? İllərlə düşmənin möhkəmləndirdiyi o sədlərin yarılması illərlə mümkünsüz göründü. Ancaq Azərbaycanın Vüqar kimi qəhrəmanları mümkünsüzü mümkün etdi. Bir zaman Vüqarın ata-anasına dediyi ***"O Lələtəpə yüksəkliyində Azərbaycan bayrağını dalğalandıracağıq"*** sözləri gerçək oldu. Azərbaycan Ordusunun mayoru da, əsgəri də bir amal uğrunda vuruşdu, eyni yerdə can verdi. 4 aprel 2016-cı ildə Lələtəpənin azadlığı uğrunda Vüqarla yanaşı mayor Məmmədov Rasim Əbdül oğlu da şəhid oldu. Aprel döyüşlərində Lələtəpədə 19 şəhid verdik. Həmin 19 şəhidin adına inşa edilən abidə Lələtəpənin qeyrət simvoluna çevrilib.

Aprelin 4-də Natiq müəllimə gələn zəngin heç də xeyrə əlamət olmadığı qarşı tərəfin dediyi fikirlərdən bəlli olur. Şəkidəki yaşayış ünvanları soruşulduğunda ata vəziyyətdən hali olur. Ancaq Vüqarın şəhid olduğuna inanmaq istəmir. Qaynı Müdafiə Nazirliyinə zəng etdiyində məlumat dəqiqləşir. "Hazırlaşın rayona çıxırıq. Vüqar yaralanıb Şəki şəhər xəstəxanasına gətiriblər", ancaq bu nağıl heç inandırıcı gəlməyib.

Ailə evlərinə çatanda həyətlərində qurulan çadır sanki onları yuxudan oyadır. O gecəni bütün Şəki camaatı oyaq keçirir. Aprelin 5-də səhər saatlarında Orxan Hümmətovun və Vüqar Süleymanovun nəşi Şəkiyə gətirilir. Öncə Orxan dəfn olunur. 15:00-da isə Vüqara əbədi vida edilir. Böyük Dəhnə kəndindəki Şəhidlər xiyabanında Vüqar da sonsuzluğa uğurlanır. Həmin xiyabanda 18 şəhid uyuyur.

Əsgər Süleymanov Vüqar Natiq oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif edilib

## ŞƏHİD VÜQAR

Vətənin qara günü həyata qədəm qoyub,
Ümid oldun vətənin işıqlı sabahına.
Dünyaya göz açdığın 20 Yanvar günü,
Vüqar, şəhid olurdun neçə qəlbin ahına.

Yaş üstə yaş gəldikcə böyüyürdü qəlbində,
Bir az vətən sevgisi, bir az azadlıq eşqi.
Bəlkə də, ürəyində Allahdan diləyirdin,
"Vətənimin uğrunda şəhid olardım kaş ki".

Yaman ağrılı olub vətənin dünənləri,
Neçə işğal yarası, neçə bitən ümid var.
Qarabağın dərdinə qan ilə məlhəm oldu,
Vətən dərdi qəlbində boy-boy olan oğullar.

Bir bahar Lələtəpə azadlığa qərq oldu,
Ona doğru yürüyən igidlər sayəsində.
Vüqar, cənnətə köçüb əbədilik yer aldın,
Azadlıq günəşinin şəfəqi sırasında.

***17.02.2023***





**İBRAHİMOV ELŞƏN CAHANGİR OĞLU**

**ƏSGƏR**

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## ŞƏKİNİN II QARABAĞ MÜHARİBƏSİNDƏ İLK ŞƏHİDİ

*Nəfəs-nəfəs ömürlər bitir, qatar-qatar şəhid tabutları gəlirdi. Azərbaycanın hər kəndinə, şəhərinə al bayrağa bürünmüş tabutlar yollanırdı. Bir evdən çıxan şəhidləri bütün xalq öz balası, doğması kimi qarşılayırdı. Çünki o tabutda ailəsinin üstə gələn şəhidlər xalqı arzularına çatdırmaq üçün ömürləri ilə bərabər öz arzularını fəda etmişdilər. 18 yaşdan başlayır o fədailərin ömürləri. Körpə qoxusu hələ anasının burnundan getməyən 18 yaşlı əsgər. Anası Elşəni hərbi formada görmək arzusu ilə yaşayırdı, şəhid tabutunda görmək arzusu ilə deyil. Ancaq o arzusuna çatmadı. Xatirə ana Elşəni bir dəfə də olsa, hərbi formada görə bilmədi. Ananın Elşənlə bağlı olan bütün arzuları qəlbində qaldı. Xatirə ana bir ah çəkdi ki, o an ruhum titrədi. Həmin an ana şəhid oğlunun məzarı başında idi. Söhbətimizə Elşənin ruhu şahid oldu. Daşa dönən oğuldan danışmaq olduqca çətin idi. Məzardan uzaqda insan bir şeylərə tutunub təsəlli alsa da, məzar başında acı həqiqət sərt şillə kimi dəyir. "Onsuz yaşaya bilmərəm" dediyin insansız yaşadığın həyatın ağırlığı altında cismin, ruhun əzilir. Ölə-ölə yaşayırsan.*

Valideyn üçün ən dəyərli varlıq övladdır. Bütün arzuların başlanğıcı, sabaha olan ümiddir övlad. Cahangir və Xatirə İbrahimovların ilk övlad adlı dəyərli varlıqları Elşən idi. İbrahimov Elşən Cahangir oğlu 27 mart 2002-ci ildə Şəki

şəhərində dünyaya göz açmışdı. Üç il sonra ailə daha bir övlad sevincini Ruslanın gəlişi ilə yaşamışdı.

Elşən İbrahimov 2008-ci ildə Şəki şəhər 11 nömrəli tam orta məktəbə qədəm qoyan şagirdlərdən biri olub. 2019-cu ildə orta məktəbi bitirdikdən sonra Maliyyə-İqtisad Kollecinə qəbul olub. II semestrdən isə Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kollecində təhsilini davam etdirib. Lakin pandemiya səbəbindən təhsilini yarımçıq saxlayıb, Şəkiyə qayıtmalı olub. Pandemiya çox arzuların qatili oldu.

Elşən İbrahimov vətənə olan xidmət borcunu zamanında yerinə yetirməyi labüd sayır. Ona görə də təhsilini hərbi xidmətdən qayıtdıqdan sonra davam etmək qərarına gəlir. Aprelin 4-də çağırış vərəqi gəlsə də, karantin səbəbindən bir ay gec mayın 4-də müddətli həqiqi hərbi xidmətə yollanır. Hər bir bölgənin öz adət-ənənəsi var. Şəki camaatının isə adətlərindən biri də əsgər gedən gəncin dişlədiyi çörəyi qurudub saxlayaraq xidmətini bitirib döndüyündə o çörəyi isladıb yeməsidir. Elşən çörəyi dişləyən zaman ***"Ana, mən onsuzda dönməyəcəm, şəhid olacam"*** deyir. Elşən hər zaman şəhid olacağını dilə gətirirmiş. Hərbi xidmətə getdiyi gün təkrar o fikri səsləndirəndə anasının ürəyi sızlayır. "Oğul elə demə, mən sənsiz yaşaya bilmərəm" deyir. Son dəfə vidalaşırlar.

Elşən Tərtər rayonunda yerləşən N saylı hərbi hissədə xidmətə başlayır. Həmin vaxt düşmənin məkrli hiylələrini daha yaxından görür. Demək olar ki, hər gecə atəş səsləri ilə oyanır. Bəzən isə gecələrin zülmətini yaran ulduzlara və həmin atəşlərə şahid olur. Xidməti zamanı səhhətində bir problem yaranır. Müayinə üçün Bakı şəhərinə göndərilir və müayinələrin cavabı ürəkaçan çıxır. Lakin Xatirə ananın ürəyi rahat olmur. Aylardı övladına həsrət qalan ana oğlu hərbi hissəyə dönən kimi onunla görüşməyə tələsir. Sentyabrın 26-da səhər Elşən anasına zəng edərək gəldiyi zaman çoxlu su gətirməyini istəyir. Ana və oğul səbirsizliklə sentyabrın 27-də baş tutacaq görüş anlarını gözləyirlər. Lakin həmin görüş ana və oğula qismət olmur. Xatirə ana oğlunun sevdiyi tortları, şirniyyatları, yeməkləri və suları hazırlasa da, axşam gələn zənglə bütün ümidləri daşa dəyir. Elşən 26-sı axşam zəng edib anasına gəlməməsini deyir. Səngər qazmağa gedəcəyini bəhanə gətirir. ***"Əgər qayıtsam, gələrsən"*** deyir. Qayıtmamaq ehtimalının çox olduğunu bilirdi. Ana isə oğlunun hansı yola addım atacağını bilmirdi.

27 sentyabrda Azərbaycan xalqı çox fərqli bir səhərlə oyandı. O səhər hər kəsin ürəyi Qarabağda döyündü. İllərdən sonra arzular gerçək oldu. İllərdən sonra azadlıq müjdəsi eşitdik. Xatirə ana da hər kəs kimi azadlıq sevincinə sevindi, şəhid xəbərlərinə üzüldü. Oğlu üçün hazırladığı azuqələri xəstələrə aparan ana dualara sarıldı. "Hər dildə bir dua var. Təki edilən dualar ordumuzu, Elşənimi qorusun" deyən ana anbaan taqətdən düşdüyünü hiss etdi. Hər kəs onun xəstə olduğunu düşündü. Ancaq ana sanki öncədən yaşayacağı fəlakəti hiss etdi və cismi sızladı.



Sentyabrın 29-da Elşən anasına zəng edir. Oğlundan ***"Ana, mənə halallıq ver. Tələsirəm getməliyəm"*** sözlərini duyan zaman ananın gözləri dolur. "Haqqım halalın olsun, oğul" deyən ana göz yaşlarına hakim ola bilmir. Ertəsi gün Elşən təkrar anasına zəng edir ***"Zəng etdim ki, səsini eşidim. Ana, o qədər planlarım var"*** deyir. O planları, arzuları ürəyində qaldı. Həmin vaxt ana silah səslərini açıq-aydın eşidir.

Oktyabrın 2-dən 3-nə keçən gecə Xatirə ananın gözləri önündə şəhid tabutu, əllərində bayraq tutan insan izdihamı canlanır. Ana evin içində var-gəl edir. Səhərə yaxın bacısına zəng edib Elşəndən çox narahat olduğunu deyir. Sanki ananın ürəyi olanları öncədən hiss edir. Səhər açıldıqda ana özünə yer tapa bilmir.

Oktyabrın 3-də Suqovuşan uğrunda gedən döyüşlərdə Elşən başından aldığı zərbə nəticəsində şəhadətə ucalır. Çox sevdiyi saçlarını torpaq oxşayır. Həyatda hər zaman gülən Elşənin son gülüşü çöhrəsində donub qalır. Oğlundan nigaran ana ürəyi köksünə sığmadığı an Elşənin şəhid xəbəri Şəkiyə çatır. Anadan xəbərsiz Qışlaq kənd məzarlığında oğlunun məzarı qazılır. Qısa müddət sonra həyət insan izdihamına qərq olur. Camaat Şəkinin II Qarabağ müharibəsindəki ilk şəhidini qarşılayır. 4 oktyabrda Elşənin tabutu ata ocağına gətirilir. Lakin qürbətdə yaşayan atası oğlu ilə son vidaya çata bilmir. Xatirə ana 6 ay həsrət qaldığı oğlunu son dəfə öpüb-qoxlamaq istəyir. Ancaq o mümkün olmur. Oğul tabutu ilə vidalaşan ananın köksündən ayrılan şəhid balası torpağın köksünə köçür.

Əsgər İbrahimov Elşən Cahangir oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin əmrinə əsasən şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Suqovuşanın azad olunmasına görə" medalı və "Laçının azad olunmasına görə" medalı ilə təltif edilib.

Şəhidlər cənnətdə əbədiyaşar olduqlarını çox zaman yuxularda aşkar edirlər. Elşən də dəfələrlə yuxularda varlığını bəlli etdirib. Xatirə ananın yuxusuna girərək ***"Ana, dostumla başımızı bağlayıb yatmışıq, mən ölməmişəm"*** deyib. Ad günündə bir qohumunun üç yaşında ölən uşağı ilə birlikdə yuxusuna girərək həmin qadına övladı Ömürün onun yanında olduğunu və Xatirə anadan ad günündə şokoladlı tort gözlədiyini deyir. Bu sadəcə görülən yuxuların bir neçəsidir. Elşən varlığını hər zaman hiss etdirir.

## ŞƏHİD ELŞƏN

Vətən müharibəsi başladığı ilk andan,
Qəhrəmanlar atıldı o qanlı meydanlara.
İllərlə torpağıma tuşlanan kor qurşunlar,
Sanki bir qatil oldu Elşəntək cavanlara.

Qarış-qarış birləşib bütöv bir vətən olan,
Azərbaycan sınaqdan o gün çıxdı üzüağ.
O döyüşdə Şəkiyə ilk şəhid kimi dönən,
Elşən çox ürəklərdə qoydu sağalmayan dağ.

Şəhid olacağını hər vaxt dilə gətirib,
Çatacağı məqamı agah etdi hər kəsə.
Bu vətən var olacaq nə qədər ki, Elşənlər,
Vətəni sözdə deyil əməlində sevərsə.

Bu vətənin səfasın çəkən hər bir vətəndaş,
Şəhidlərin adını gərək ki, unutmasın.
Heç bir ana istəməz oğlunun yaşadığı,
On səkkiz illik tarix daş məzara yazılsın.

***18.02.2023***



**BABAZADƏ YOLÇU**
**BƏHRUZ OĞLU**

ƏSGƏR

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*



## ÖVLADSIZ QALAN AİLƏ

*Heç bu qədər aciz qalmamışdım. Bu səsdə nə yanğılar var, İlahi – dedim. Həyatdan küsmüş ata və ana. Bəs nədir bu qədər küskünlüyün səbəbi? Bu bir şəhid dərdi ilə yanan qəlb sızıltısı deyildi. Hər zaman bir acı çəkəndə, əzizlərimizi itirəndə "Allah unutduracaq dərd verməsin" deyirik. Ancaq Bəhruz kişi və Xatirə xanım şəhid oğullarının dərdini unudacaq qədər böyük bir itki yaşayıblar. 2020-ci ildə kiçik oğulları Yolçu şəhid olduqdan iki il sonra polis olan böyük oğulları Rəsul da dünyasını dəyişib. Min bir zillətlə böyütdükləri övladlarını yan-yana torpaqda dəfn edən valideynlər əslində ürəklərini, sevinclərini, ümidlərini də övladları ilə birlikdə dəfn ediblər. O gündən sonra həyata küsüblər. Necə küsməsinlər ki? Sabahlar onlara nə vəd edir? Hansı xəyallara dalsınlar? Yolçu şəhid olduğu zaman Rəsulun varlığına sığınmışdılar. Bəs indi nə etsinlər? Nə ürəkləri, nə də kürəkləri götürə bilir bu yükü.*

Ailəsinin iki övladından ikincisi idi Babazadə Yolçu Bəhruz oğlu. Yaşından böyük bir faciənin 12-ci il dönümündə dünyaya göz açmışdır. 20 yanvar 2002-ci ildə həyata qədəm qoyduğu zaman həyatda cəmi 18 il yolçu olacağı naməlum idi. Böyüdükcə atasının baxışlarının dərinliyində bir gizəm duyurdu. Onun uşaq ağlının dərk etməyə yetməyəcəyi böyüklükdə olan vətən dərdi gizlənirdi o baxışların ardında. O dərdə çarə olmağa çalışmışdı Bəhruz kişi. 1992-ci ildə 1 ildən

çox Laçın rayonunu düşməndən müdafiə etməyə çalışmışdı. Ancaq sonra olanlar hər birimizə məlumdur. Böyüdükcə Yolçuya da məlum oldu.

Yolçu Babazadə 2009-cu ildə doğulduğu Qozlubulaq kəndində eyni adlı məktəbə qədəm qoyub. Ailəsi min bir cəfaya, zəhmətə qatlaşaraq övladlarını böyüdüb. Qara gün sanki bu ailənin alnına əzəl gündən yazılıb. Hər zəhmətə qatlaşan valideynlər övladlarını böyüdüb bir ağ günə çıxacaqlarını düşünüblər. Ancaq hər iki oğul böyüdükdən sonra yer payı olub. Yolçu həyatın çətin şərtləri ucbatından IX sinfə qədər oxuyub. Daha sonra ailəsinə dəstək olmaq üçün çalışıb.

27 yanvar 2020-ci ildə Yolçu da vətən xidmətini çəkməyə gedən əsgərlər sırasında yer alıb. Beyləqan rayonunda yerləşən N saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətə başlayıb. Fevralın 10-da ailəsi əsgər balalarının andiçmə mərasiminə qatılıb. Son görüş o olub. Ondan sonrası həsrət, kədər, qəm...

27 sentyabr Vətən müharibəsi başlayan zaman döyüşə başlayan əsgər-lərdən biri də Yolçu olub. Ailəsi ilə vidalaşmadan, arzularını demədən döyüşə gedib. Füzuli, Horadiz uğrunda vuruşub. Kitablarda adını oxuduğu Cəbrayıl torpağına qədəm basıb. Oktyabrın 2-nə qədər ailəsi Yolçunun müharibədə olduğundan xəbərsiz olub. Həmin gün atasına zəng etdiyində müharibədə olğunu deyib. Dua etməkdən başqa əlindən bir şey gəlməyən valideynlər Yolçunun dönüşünə qurbanlar deyiblər. Ancaq o qurbanlar kəsilməyib. Çünki Yolçu vətənə qurban olub.

Yolçu döyüşlərdə böyük şücaətlər göstərir. Sanki illərlə hərbçi olubmuş kimi vuruşur. Oktyabrın 6-da Cəbrayıl rayonu istiqamətində 2 nəfər döyüş yoldaşı ilə birlikdə olduqları maşın vurulur. Elə həmin an hər üç silahdaş şəhid olur.

Oktyabrın 7-də səhər saatlarında Bəhruz kişi o biri oğlu Rəsuldan eşidir Yolçunun şəhid olduğu xəbərini. Eşitdiyi xəbərə inanmayan ata tələsik evə gəlir. Sonra oğlunun tabutu gətirilir. Ata oğlunu son dəfə görmək istəyir. Ancaq o istəyinə çata bilmir. Oğlunun cansız cismini görməyən ata hələ də oğlunun şəhid olduğuna inana bilmir. Ata bu dünyanın çarəsizliyinə qərq olur.

Qozlubulaq kənd məzarlığında I Qarabağ müharibəsində 4 şəhid dəfn olunub. II Qarabağ müharibəsində isə 5-ci şəhid kimi Yolçu dəfn olunub.

Əsgər Babazadə Yolçu Bəhruz oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Füzulinin azad olunmasına görə" medalı, "Cəbrayılın azad olunmasına görə" medalı və "Vətənə xidmətə görə" 3-cü dərəcəli ordeni ilə təltif edilib.



Yolçu şəhid olduqdan sonra ailəsi üçün həyata davam etmək asan olmur. Canlarının bir parçasını torpağa dəfn edən ata, ana və bir qardaş. Hər kəs acısını dilə gətirir. Lakin Rəsul o acını içinə atır. Oğul dərdi çəkən ata-anadan qardaş həsrətini gizlətməyə çalışır. O acı Rəsulu içdən-içə yeyir. Polis olduğu üçün, çox vaxt işdə olduğu üçün xəstəliyini gizlədə bilir. 2022-ci il noyabrın əvvəllərində vəziyyəti ağırlaşır. Ailəsi onu Bakıya həkimə gətirir. Həkimin dediyi "Artıq çox gecdir, Rəsul qan xərçəngidir" sözləri ilə ailə yerlə yeksan olur. "Yox, biz tək təsəllimizi də itirə bilmərik" deyən ailənin çarəsizliyi ürəkləri dağlayır. "Ölsəm, məni qardaşımın yanında dəfn edin" deyən Rəsul 11 noyabr 2022-ci ildə 23 yaşında həyata vida edir. O gün Bəhruz kişi və Xatirə xanım üçün həyat durur. Xoşbəxtlik sözünün yan keçdiyi insan göstər desələr, mən bu ata-ananı göstərərəm.

## ŞƏHİD YOLÇU

Sənin həyat sınağın,
Yaşından böyük oldu.
Körpəlikdən qəlbinə,
Vətən həsrəti doldu.

Atandan dinləyərdin,
Müharibə dəhşətin.
Bilirdin erməninin,
Törətdiyi vəhşəti.

20 Yanvar tarixi,
Qəlbini dağlayırdı.
Dünyaya gəldiyin gün,
Gözlərin ağlayırdı.

Elə bil ki, vətənə,
Ümid doğulmuşdun sən.
Ümidlərlə ayaqda,
Qalıb bu dərdli vətən.

Səndən sonra qardaşın,
Vida etdi həyata.
Kimsəsiz qaldı sanki,
Ata-anan dünyada.

Onların ürəyini,
Oğul dərdi dağlayır.
İki məzar önündə,
Zülüm-zülüm ağlayır.

*18.02.2023*





## ƏHMƏDLİ AYDIN MUSTAFA OĞLU

ƏSGƏR

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## DAŞA DƏYƏN ÜMİDLƏR

*Neçə ümidlərlə böyüyür uşaqlar. Neçə arzulara yelkən açır. Uşaq vaxtı böyüməyə tələsir, böyüyəndə uşaqlığın həsrətini çəkir. Bəzi uşaqlar zamanından daha tez böyüyür. Həyat böyüdür o uşaqları. Qayğılar, çətinliklər, əziyyətlər yoğurur o uşaqları. Ananın çəkdiyi çətinliyi gördükcə bir qədər də tez böyüməyə çalışır qayğıkeş uşaqlar. Tez böyüyüb anasının həyat yükünü azaltmağa çalışan uşaqlardan biri idi Aydın. Bir zamanlar ailəsinin ömrünü aydınlatdığı kimi vaxt gəldi vətəni aydınlığa qərq etdi Şəhid nuru ilə.*

Əhmədli Aydın Mustafa oğlu 12 mart 2002-ci ildə Şəki rayonunun Orta Zəyzid kəndində dünyaya göz açıb. Bacıları Rəqsanə və Əfsanədən sonra ailəyə oğul övladı sevincini bəxş edib. Özündən sonra ailənin sonbeşiyi İlkin doğulub. Dörd övlad sabaha ümid olublar.

Aydın ilk olaraq 2008-ci ildə Şəki rayon Orta Zəyzid kənd 2 nömrəli tam orta məktəbdə təhsil almağa başlayıb. 2012-ci ildə ailəsi ilə birlikdə Bakı şəhərinə köçən Aydın təhsilini Binəqədi rayon Qorxmaz Baxşıyev adına 179 nömrəli tam orta məktəbdə davam edib. 2017-ci ildə IX sinfi bitirdikdən sonra anası və bacı-qardaşı ilə birlikdə Zaqatala rayonunun Qandax kəndinə gedib. Anasına hər zaman dayaq olmağa çalışan Aydın sonra təkrar Bakı şəhərinə qayıdıb və işləməyə başlayıb. Alın təri ilə qazandığı halal pulunu yığıb özünə və ailəsinə

bir şərait qurmağa çalışıb. Heç kim xəyal etməzdi ki, o pullar Aydının məzar daşına, yasına xərclənər. Ağ günə çıxmaq arzusunda olan Aydının evi qara mərmər oldu.

Hər bir qeyrətli oğul vətənə olan borcunu ödəməyin vacibliyini bilir. Aydın da hər zaman vətənə xidmət edəcəyi günün çatacağını səbirsizliklə gözləyir. Nəhayət ki, o gün çatır. Aprelin 3-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəki Rayon İdarəsindən çağırış vərəqi alan Aydın aprelin 4-də hərbi xidmətə yollanır. Ağcabədi rayonunun Minəxorlu kəndində yerləşən N saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətə başlayan Aydın qumbaraatan işini icra edir.

Bahar ana hər bir ana kimi oğlunu əsgər formasında görmək arzusunda idi. Avqustun 4-də ana arzusuna çatır. Onun körpə Aydını bir anda gözlərində əsl kişi kimi görünür. Kişilik məktəbi sayılan hərbi xidmət Aydının cisminə və daxili dünyasına təsirsiz ötüşmür. Aydın yaxşı mənada həddindən ziyadə dəyişik görünür. Oğlunu bağrına basan ana Allaha şükür edir. Aydın həmin görüş zamanı əsgərliyi bitəndən sonra da müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kimi orduda qalıb vətənə xidmət etmək istəyini dilə gətirir. Ancaq bir çox arzuları kimi Aydının o arzusu da ürəyində qalır. Aydının nakam arzularından biri də məzuniyyətə gəlib bacısı Əfsanə xanımı gəlin köçürmək olur. Lakin Əfsanənin qismətində yar evinə vağzalı sədası altında deyil, ürəyində qardaş dağı ilə köçmək var imiş.

Sentyabrın 27-də Aydın anası ilə danışıb. Lakin müharibə barəsində heç bir söz deməyib. ***"Ana, məndən narahat olmayın"*** deyərək Bahar xanımla vidalaşıb.

Aydın uşaq yaşlarından adını işğal kəlməsi ilə qoşa duyduğu Füzuli rayonunun azadlıq müjdəçisi olacağından xəbərsiz idi. Kim bilir o torpağa qədəm qoyanda onun ürəyindən hansı duyğular keçdi? Neçə ömrün, neçə arzunun məzarı idi o torpaqlar. Sinəsidağlı, dağ boyda sədlərin ucaldığı Füzulinin yükünü həfifləmək, dərdini sağaltmaq yaşı vətənin işğal yaşından kiçik olan Aydınların öhdəsinə düşdü. Ən çox şəhidin can verdiyi, Şuşaya çatan Zəfər yolunun təməli sayılan Füzulidə can verən oğullardan biri də Aydın oldu. Oktyabrın 8-də saat 16:00 radələrində dörd silahdaşı ilə birlikdə yaralı kombatını atəş nöqtəsindən uzaqlaşdırmağa çalışarkən düşmənin snayper atəşinə tuş gəlir. Ürəyi paramparça olan Aydın həmin an şəhid olur.

Oktyabrın 8-də axşam Aydının nəşi Zaqatala rayonuna aparılır. Bakıda yaşayan ana və bacısına o ağır xəbəri vermək İlkinin öhdəsinə düşür. "Aydın şəhid olub" sözləri ilə bütün ümidlər puç olur. Gecə ilə yola düşən Bahar xanım sanki ən uzun yola çıxır. O sonu gəlməz yolun sonunda oğlunun tabutu ilə qarşılaşacağı



gerçəyi ananın ürəyinə dağ çəkir. Oktyabrın 9-da ümman boyda arzuları ilə birlikdə bir tabuta sığışan Aydın əbədiyyətə yol alır. Zaqatala rayonunun Qandax kənd məzarlığında uğrunda can verdiyi torpağa tapşırılır.

Hər addımı atmağa tələsən Aydın həyata vida etməyə də tələsdi. Əsgərliyi bitirdikdən sonra tez ailə qurub Bahar ananı arzusuna çatdıracağına söz versə də, o bu sözünü tutmadı. Vağzalı Bahar ananın ağısı oldu.

Əsgər Əhmədli Aydın Mustafa oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin əmrinə əsasən şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Füzulinin azad olunmasına görə" medalı və "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilib.

Aydının adının unudulmaması üçün ilk addımı ailəsi atıb. Şəki rayonunda "Aydın və Asim bulağı", Zaqatala rayonunda isə "Aydın bulağı" inşa edilib. Bakı şəhərində sinif otaqlarına Aydının adı verilib. Xalq öz şəhidini yaşatmaq üçün yaşamalıdır.

## ŞƏHİD AYDIN

Neçə-neçə arzulara, ümidlərə ünvan idin,
Vətənlə bağlı arzunu hər arzudan üstün bildin.
Füzulinin sinəsində dərdi xəfifləsin deyə,
Gənc ömrünü bu vətənin sabahına fəda etdin.

Səndən sonra bəslədiyin ümidlərin daşa dəydi,
Sənsizliyin ağır yükü ananın qəddini əydi.
Aydın, səni arzuların ünvanı bilən doğmalar,
Kaş ki həmin arzulara səninlə çata bilərdi.

Bu vətəndə neçə ömür ömrün kimi nöqtələnib,
Vətənin hər qarışına şəhid qanları çilənib.
Oğul evin məzar bilən anaların tellərinə,
Kədərin izahı olan bəyaz rəngli qar ələnib.

Aydın, şəhid adın olub ürəklərin təsəllisi,
Sayənizdə səda saldı bu xalqın Zəfər nəğməsi.
İllərlə kimsəsiz kimi qəlbi donan yurd-yuvaya,
Elə bil ki, nəfəs verdi şəhidlərin son nəfəsi.

***28.02.2023***



**MƏMMƏDOV ƏLİHÜSEYN ELŞAD OĞLU**

**ƏSGƏR**

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*



## DİPLOMU MƏZARINA HƏKK OLUNAN ŞƏHİD

***"Xəyalını qurduğum xoşbəxtliyə bir gün bu kəpənək kimi qonaram inşallah"***

*Bu sözləri deyərkən kim bilir xəyalında hansı xoşbəxtliyi canlandırmışdı Əlihüseyn. Onun xoşbəxtlik anlamı nə idi? Daxili dünyasının zənginliyi onun xoşbəxt ömür yaşamasının ilk səbəbkarı idi. Çünki mənəvi zənginlik heç zaman bitmir, tükənmir.*

*O insanlığı ilə sevilirdi, seçilirdi. Kiçikdən-böyüyə hər ürəyə yol tapırdı. Sanki sonsuzluğun astanasında hər bir könüldə özünə yer edirdi. Bir gün onun olmadığı dünya onsuz qalmasın deyə. Bəli, dünya Əlihüseynsiz qalmadı. Çünki o hər ürəkdə yaşayır. Ən önəmlisi isə tarix yazanlar heç zaman unudulmur.*

Bir zamanlar kəpənək kimi uçmağı arzu edən Əlihüseyn arzusuna çatdı. O vətən səmasında qanadlanıb şəhid kimi pərvaz edir. Sanki ömrü də kəpənək ömrü kimi qısa oldu. Onun həyat hekayəsinin başlanğıcı 24 yanvar 1998-ci ildə Bakı şəhəri Sabunçu rayonunda başlamışdır. Özündən böyük qardaşı Əlibəy və özündən kiçik bacısı Ruhəngizlə birlikdə uşaqlığın qayğısız çağlarını yaşamışdılar.

Əlihüseyn babasının və nənəsinin ən istəkli nəvəsi idi. Tez-tez Şəkidə yaşayan baba və nənəsinin yanında qalan Əlihüseyn elə ilk təhsilini də Şəki şəhər 18 saylı

tam orta məktəbdə almağa başlayır. IV–V sinifləri Bakı şəhər Suraxanı rayon S.Bəhlulzadə adına Xarici Dillər Təmayüllü Gimnaziyada oxuyur. Sonra təkrar Şəkiyə qayıdır və XI sinfi ilk qədəm qoyduğu 18 saylı məktəbin məzunu olaraq başa vurur. 2016-cı ildə Azərbaycan Dövlət Neft Sənaye Universitetinin (ADNSU) "İstilik Energetikası Mühəndisliyi" fakültəsinə qəbul olur. 2020-ci ildə universiteti bitirir. Universiteti bitirdikdən sonra ilk işi vətən xidmətini çəkməyə getmək üçün addım atmaq olur. Heç diplomunu almadan Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəki Rayon İdarəsinə müraciət edir və ən qısa müddətdə çağırışçı kimi xidmətə getməyə hazır olduğunu bildirir.

***– Ana, mən adımı yazdırdım. İyul ayında xidmətə gedənlər sırasında mən də olacağam. Vətənə olan borcumu yerinə yetirmək üçün tələsirəm.***

Arzu ana bu sözləri eşidib həm qürurlanır, həm də kədərlənir. Oğlunun ürəyindəki vətən sevgisi ananı çox duyğulandırır. Oğlunun qərarına hörmətlə yanaşan ana onun hər addımının uğura çatmasını diləyir.

Əlihüseyn səbirsizliklə gözlədiyi o anları 7 iyul 2020-ci ildə yaşayır. Nəhayət ki, o da hərbçi formasını geyinib vətən keşiyini çəkməyə gedir. Beyləqan rayonunda yerləşən N saylı hərbi hissədə xidmətə başlayır. Həmin dönəmlərdə pandemiya səbəbindən ailələr övladlarının andiçmə mərasimində iştirak edə bilmirdilər. O ana şahid ola bilməyən valideynlər üzülür. Əlihüseyn Haramı düzündə yerləşən N saylı hərbi hissədə xidmətə göndərilir. Ailə xidmətdə olan övladları ilə çətinliklə də olsa, görüşməyə nail olur. Əlihüseyni hərbi formada görən valideynləri və doğmaları bir anda təəccüblərini gizlədə bilmirlər. Əlihüseyni qısa müddətdə hərbi xidmət çox dəyişir. Hərbi xidməti zamanı ilk və son dəfə 6 sentyabrda ailəsi ilə görüşən vətən oğlu qısa müddət sonra başlayan Vətən müharibəsi zamanı önə atılan qəhrəmanlardan biri olur. Füzuli rayonu istiqamətində döyüşə başlayan qəhrəman daha sonra Cəbrayıl və Xocavənd uğrunda mübarizə aparır. Oktyabrın 6-da valideynləri ilə danışanda hər şeyin yaxşı olduğunu deyir. Atasından kontur istəyir. Həmin gün hər kəsə zəng edir. Hər kəslə vidalaşır və halallaşır.

Oktyabrın 9-da səhərə yaxın Füzuli rayonu istiqamətində şiddətli döyüşlərdə qəhrəmancasına vuruşaraq düşməni məhv edənlərdən biri də Əlihüseyn olur. Daha sonra təkrar həyəcan siqnalı verilir. Saat 09:22-də sığınacağın girişində Əlihüseynin ürəyi qəlpəyə tuş gəlir. Vətən sevgisi ilə döyünən ürəyi həmin an durur. Elə həmin gün ailəsinə "Oğlunuz yaralıdır" xəbəri deyilir. Atası tələsik deyilən ünvana gedir. Oğlunu yaralı görəcəyini düşünən ata onun cansız cismi ilə qarşılaşır. "Mən axı belə oğulu necə dəfn edim?" sualı atanın ürəyini, ruhunu parçalayır. Oğlunun cibindən çıxan 35 manat qanlı pulu görən atanın ürəyinin üstə sanki tonlarla yük yığılır. Atanın verdiyi pulları heç xərcləməyə də vaxtı olmamışdı oğulun. Anaya oğlunun yaralı deyil, şəhid olduğu xəbərini vermək ata üçün olduqca ağır olur. Ata oğlunun nəşi ilə, ana isə oğlunun xatirələri ilə Şəkiyə yola düşür. Oktyabrın 9-da gecə saatlarında nəşi Şəkiyə gətirilən Əlihüseyn son dəfə evinin qonağı olur. 10 oktyabrda izdihamlı dəfn mərasimi ilə şəhid Şəki şəhər II Şəhidlər xiyabanında torpağa tapşırılır.



Əlihüseyn xidmətə gedən zaman ala bilmədiyi diplomunu atasının alması üçün etibarnamə vermişdi. Hər kəsin arzusu idi ki, Əlihüseyn məzuniyyətə gələndə diplomunu özü alıb o sevinci yaşasın. Ancaq olmadı. O sevinci nə Əlihüseyn, nə də ailəsi yaşaya bildi. Anası oğlunun diplomunu alan gün oğlunun məzarı üstə gedir. Diplomu oğlunun məzarına qoyan ana Əlihüseynin ruhunun o anı görüb sevinməsi üçün dua edir. Diplomunu əlinə götürmək qismət olmayan şəhidin məzar daşına diplomun da şəkli həkk olunur. Çox arzular qana boyandı. Əlihüseynin də saysız-hesabsız arzuları indi onunla bərabər bir məzarda uyuyur.

Əsgər Məmmədov Əlihüseyn Elşad oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Füzulinin azad olunmasına görə" medalı və "Cəsur döyüşçü" medalı ilə təltif edilib. Bundan başqa Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) 100 illik yubileyi ilə əlaqədar təsis edilən medalla da təltif edilib.

Əlihüseynin adının əbədiləşdirilməsi üçün bir çox addımlar atılır. Şəhidin bir zamanlar yaşadığı binanın önündə xatirə lövhəsi vurulub və yaşadığı ömür yolundan bəhs olunan kitab yazılıb.

## ŞƏHİD ƏLİHÜSEYN

Kəpənək ömürlü arzularının,
Nisgili gözlərin yaşına döndü.
Arzunla ümidin isidənlərin,
Elə bil ömrünün çırağı söndü.

Bu fani dünyanı gözəlləşdirdin,
Ümidlə baxdığın gözlərin ilə.
Neçə arzuların gözündə qaldı,
Gənc yaşda köç etdin sən son mənzilə.

Zəhmətlə oxuyub aldığın diplom,
Əbədi həkk oldu məzar daşına.
Zamansız gedişin, Əlihüseyn,
Axı heç yaraşmır cavan yaşına.

Xoşbəxtlik arzusu ilə bürünən,
Xəyalın qatili bir qəlpə oldu.
Vətən eşqi ilə döyünən qəlbin,
Füzuli yurdunda əbədi durdu.

***20.02.2023***





**NAĞIYEV TOĞRUL
HƏSƏNBALA OĞLU**

**ƏSGƏR**
**(*Könüllü*)**

*(2020-ci ildə II Qarabağ müharibəsində
şəhid olmuşdur.)*

## KÖNÜLLÜLƏRİN KOMANDİRİ

*"İnsan ömründən dəyərli bir məhfum yoxdur" fikri ilə hər zaman rastlaşırıq. Ancaq bəzi qəhrəmanlar atdıqları addımları ilə bu fikri kökündən dəyişir. Onlar insan ömründən daha dəyərli bir məfhumun vətən olduğunu sübut edirlər. Allahın onlara verdiyi canı vətənin yolunda qurban etməklə vətənin onlar üçün nə qədər dəyərli olduğunu gözlər önünə sərirlər. Hər sevgidən üstün bilirlər vətən sevgisini. Onları vətənə bəxş edən ana və vətən arasında seçim etmək məcburiyyətində qaldıqlarında vətəni seçirlər. Çünki vətənin qeyrətini çəkməklə ilk öncə analarının qeyrətini çəkmiş olurlar. Vətənin toxunulmazlığı ən öndə amalları olur o qəhrəmanların. O amalla könüllü olaraq Vətən müharibəsinə yollanan Toğrul Nağıyev ondan başqa bir dayağı olmayan tənha anasını vətənə əmanət edib getdi. Dönməyəcəyini bilə-bilə getdi...*

Hər kəs onu "Möcüzə uşaq" adlandırırdı. O möcüzə 8 iyun 2000-ci ildə Şəki şəhərində dünyaya gəldi. Ailəsinin ilki olan Nağıyev Toğrul Həsənbala oğlu elə ailəsinin təki oldu. Həyat Həsənbala və Əntiqə Nağıyevlərin üzünə bir dəfə güldü. Elə gözəl sevinc yaşadılar ki, özlərindən xoşbəxti yoxdur sandılar. O xoşbəxtlik günbəgün böyüdü. Toğrul yaşından böyük davranışlar sərgiləməyə başladı. Dili açılar açılmaz ***"Azərbaycan"*** dedi. Heydər babaya olan sevgisi bir başqa idi. Hər dəfə Ulu Öndəri televiziyada görəndə əzizini görürmüş kimi sevinərdi. Üç yaşında "Heydər baba" şeiri ilə səs-səda salan bu uşaq 2005-ci ildə (beş yaşında) Şəki şəhər 2 saylı tam orta məktəbə qədəm qoydu.

Toğrul çox istedadlı bir uşaq idi. Musiqiyə həddindən ziyadə marağı olduğu üçün IV sinifdə oxuyan zaman valideynləri onu Şəki şəhər 2 saylı Musiqi Kollecinə göndərirlər. Qarmon ixtisası üzrə təhsil alan Toğrul IX sinfi bitirdikdən sonra Şəki Musiqi Kollecinə daxil olur. Dördillik təhsilini uğurla başa vurur. Qarmonda mükəmməl ifa edən Toğrul nağara və piano alətlərində də ifa edir və çox gözəl rəqs etmək bacarığı ilə də seçilir.

Sevgi zəbt oluna bilməyəcək bir duyğudur. Şərt deyil ki, o duyğunu dilə gətirsən. Bəzən bir baxış belə ürəyində ümman olan o duyğunu izah edər. Elə Toğrul 11 iyul 2018-ci ilə müddətli həqiqi hərbi xidmətə getdiyi zaman da sevinci gözlərindən oxunurdu. Çünki o, vətənə daha çox gərək olan addımı atırdı. Allah onun qəlbindəki duyğulardan agah idi. O, düşmənin işğal zülmünə məruz qalan Füzuli rayonunun Şükürbəyli kəndində yerləşən N saylı hərbi hissədə vətənin keşiyində dayanır. Xidmətinin doqquzuncu ayında məzuniyyətə gələn zaman atasının səhhəti onu çox narahat edir. Ata və anası övladları narahat olmasın deyə vəziyyətin ciddiliyini Toğruldan gizlədirlər. Martın 24-də Toğrul ata-anası ilə görüşüb təkrar xidmətə yola düşən zaman Həsənbala kişi "Ay oğul, bəlkə, səni bir də görə bilmədim" deyir. Toğrul atasının bu sözlərindən şübhələnsə də, onun xərçəng xəstəliyinə tutulduğundan xəbəri olmur. Toğrul getdikdən bir neçə gün sonra aprelin 12-də Həsənbala kişi haqqın dərgahına qovuşur. Anası oğlunu düşündüyü üçün bu xəbəri bir müddət gizli saxlayır. İki həftə sonra Toğrulun yanına gedən ana övladının ***"Ana, dədəm (atasına ata yox, dədə deyirmiş) niyə gəlməyib?"*** sualını duyarkən göz yaşlarını saxlaya bilmir və acı gerçəyi deyir. Toğrul həyatın ən acı xəbərini eşitsə də, anası üçün ayaqda qalmağa çalışır. Ata ölümü oğul üçün çox ağır yük olur. Ancaq Toğrul bu yükü daşımağa məcbur idi. Çünki Əntiqa xanımın ondan başqa bir kimsəsi yox idi.

Toğrul xidmətdə olan zaman nümunəvi əsgər olduğu üçün komandirləri onun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi orduda qalıb xidmət etməyini istəyirlər. Lakin Əntiqa xanım buna razı olmur. Toğrul 11 yanvar 2020-ci ildə həqiqi hərbi xidmətini başa vurduqdan sonra ürəyini vətən səngərində qoyub dönmək ümidi ilə evinə yollanır.

Azərbaycan xalqının milli iradəsinin dünyaya bəyan olduğu Tovuz döyüşləri zamanı Toğrul da səssizliyi pozanlardan biri olur. General Polad Həşimovun şəhid olduğu xəbəri ilə sanki vətən yarasına duz basılır. O gün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəki Rayon İdarəsinə müraciət edərək könüllü olaraq döyüşlərə getmək istədiyini bildirir. Ehtiyac olduğu təqdirdə çağırılacağı cavabını alan Toğrul o günü səbirsizliklə gözləyir. Həmin vaxtdan düşmən odla oynamağa başlayır. Bəs Azərbaycan ordusu buna susardımı? Düşmən alovlandırdığı oda özü qərq olmalı idi.



Sentyabrın 23-də Toğrul müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Sərhəd Qoşunlarında xidmət etmək üçün sənədlərini toplayıb. Bircə arayışı götürüb təqdim etmək qalıb. Anası dəfələrlə oğlunun bu istəyinə qarşı çıxsa da, bu dəfə razılaşmaq qərarına gəlib. Lakin Toğrul sənədlərini təqdim etmədən müharibə başlayıb. Könüllü müraciət etdiyi üçün sentyabrın 28-də ona Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəki Rayon İdarəsindən çağırışçı kimi müharibəyə gedəcəyi barəsində məlumat gəlib. 29-da sevincək Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəki Rayon İdarəsinə gedib, ancaq həmin gün geri göndərilib. Sentyabrın 30-da təkrar anası ilə görüşüb yola düşüb. Bir neçə addım atdıqdan sonra təkrar geri dönüb və anasının boynunu qucaqlayaraq bunları deyib:

***– Ana, əgər şəhid olaramsa, hər zaman başı dik gəz. Heç kimin qarşısında əyilmə. Sən gələndə qoy desinlər "Qəhrəman Toğrulun anası gəlir". Sən mənim qürurumsan. Mən də sənin qürurun olacağam. Haqqını halal et.***

– Qeyrətinə qurban olum, ay oğul. Sən ananı yox, ana vətəni seçirsən. Sən tək öz ananın qeyrətini deyil, bütün ana-bacıların qeyrətini çəkməyə gedirsən. Allaha əmanət ol, ay oğul.

Toğrul bütün israrlara baxmayaraq döyüşə gedir. Tək övlad olduğu üçün üç dəfə avtobusdan endirirlər. Lakin o, qərarından dönmür. Oktyabrın 1-də Tərtər rayonu istiqamətindən döyüşlərə başlayıb. Son dəfə oktyabrın 11-də anası ilə danışıb. ***"Ana, yaxşıyam. Telefonun enerjisi azdır. Fürsət düşsə, zəng edəcəm"*** deyir. O zəng Əntiqa ananın duyduğu sonuncu oğul zəngi olur. Oktyabrın 13-də Suqovuşan uğrunda gedən döyüşlər zamanı Toğrul yanına düşən minamyotun partlaması nəticəsində sinəsindən qəlpə yarası alır. Elə həmin an gözlərini əbədi olaraq yumur.

Əntiqa ana müharibənin başladığını eşidən an həyəcandan yıxılıb ayağını zədələmişdi. Müharibəyə gedənə qədər Toğrul anasını özü həkimə aparırdı. Toğrul getdikdən sonra Əntiqa ana özü gedib gəlirdi. Elə oktyabrın 13-də də həkimə gedir. Evinə döndüyündə yol boyu düzələn insanları gördükcə ürəyi əsməyə başlayır. "Yox mənim Toğruluma bir şey olmaz" deyib özünə təskinlik verir. Tək-tək gələn qohum-tanışı görən ana təəccübünü gizlədə bilmir. Bir anda pəncərəyə tərəf gedən ana gördüyü mənzərədən şoka düşür. "Bu qədər insan niyə gəlib? Yoxsa..." Hərə bir sözlə ananı ovutmağa çalışır. Ancaq ana ürəyi nə "Yaralıdı" yalanına inanmır, nə də ovunmur. Oktyabrın 14-də Toğrulun nəşini görən ananın fəryadı önündə sanki kainat aciz qalır. Tək balasını itirən bir ananın gözlərində dünya bir ovuc torpaq boyda görünür. Sona məzarlığında dəfn olunan oğlunu dünyadan ayıran torpaq qədər...

Könüllərdə taxt quran "Könüllülərin komandiri" əsgər Nağıyev Toğrul Həsənbala oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin əmrinə əsasən şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Cəsur döyüşçü" medalı və "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

## ŞƏHİD TOĞRUL

Sənin xəyalların da paklanmışdı elə bil,
Şəhid olmaq arzunu aşkar eləyirdi dil.
Uzaqlarda əlini qoynunda bükən o el,
Yuxunun ən gerçəyi, arzunun ən hasıydı,
Vətən dərdi qəlbinin sağalmaz yarasıydı.

"Ana Vətən" deyəndə qisas kəsirdi səni,
Laçını, Cəbrayılı talayırdı erməni.
İnamla dilə gələn hər sözünü, kəlməni,
Əməlinlə həyata keçirdin, igid Toğrul,
Sən də dərdli vətənə oldun bir şəhid oğul.

Ananın tək dayağı sən idin bu dünyada,
O, səninlə çatmışdı övlad adlı murada.
Kaş ki Allah hər kəsi sənin kimi yarada,
Ürəyi dünya boyda, arzuları müqəddəs,
Sənin vətən sevgini örnək bilir hər bir kəs.

Könül verdiyin yurdun haray səsini duydun,
Könüllü yollanaraq döyüşlərdə iz qoydun.
Tərtər, Suqovuşanda düşmənin gözün oydun,
Əbədiyyət dünyasın aydınlatdın nurunla,
İndi birgə yatırsan torpaq altda atanla.

*19.02.2023*





**ƏLİYEV ZAUR**
**ELDAR OĞLU**

ƏSGƏR
*(Könüllü)*

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## VƏTƏNƏ ÜMİD ŞƏHİD

*"II Qarabağ müharibəsi" dedikdə xəyalımızda şanlı qələbənin yaşanıldığı o günlər canlanır. Kiçikdən-böyüyə hər kəsin bir amal uğrunda birləşdiyi günlər. Xalqın və ordunun birliyi, əzmin və şücaətin yenilməzliyi...*

*Hər kəsdə bir inam var idi. "Biz mütləq qalib gələcəyik!" Bəli, artıq qalibiyyət qazanmaq vacib şərt idi. Çünki daha işğal duyğusu boğazımıza qədər gəlib bizi boğurdu. Nə olur olsun qalib olmalıyıq! Qalib olduq. Bəs nələr oldu? Biz hansı qurbanları verdik bu qalibiyyət yolunda? Zaur kimi oğullar, yarlar, atalar, qardaşlar, nəvələr və böyük-böyük arzuları qurban verdik. Qazandığımız isə Qələbə oldu. Elə gözəl yaraşdı ki, bu qələbə Azərbaycana. Həsrət çəkənlərə qovuşmaq yaraşan kimi. Zaur da həsrətini çəkdiyi vətənə qovuşdu. Ancaq Zaurun həsrətini çəkənlər ona heç zaman qovuşmayacaq.*

Vətənə ruhən sevdalı olan Əliyev Zaur Eldar oğlu Şəki şəhərində dünyaya göz açıb Qarabağa yol açan qəhrəmanlarımızdan biridir. 24 iyul 1989-cu ildə Eldar kişinin və İsmiyyə xanımın üç övladından (Sərxan, Zaur, Pərvanə) ikincisi olmuşdur. İbtidai məktəbə 1995-ci ildə qədəm qoymuş və IX sinfə qədər oxumuşdu. 2005-ci ildə Avtomobil məktəbində "Sürücülük" ixtisası üzrə təhsil almışdı.

Zaur 2007-ci ildə vətənə xidmət borcunu ödəməyin zamanı çatdığında müddətli həqiqi hərbi xidmətə yollanmış və Tovuz rayonunda yerləşən N saylı hərbi

hissədə xidmət etmişdi. 5 aprel 2009-cu ildə xidmətini başa vurmuşdu. Bir neçə il Şəki Hava Bürosunda sürücü kimi işləmişdi.

Hansı işdə işləsə də, Zaurun ürəyində vətən keşikçisi olmaq arzusu var idi. O, bu arzuya 2012-ci ildə çatıb. Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində kursu uğurla keçən Zaur müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kimi xidmətə başlayıb. Beyləqan rayonunda yerləşən N saylı hərbi hissədə xidmət edib. Üçillik müqaviləsi bitdikdən sonra müəyyən səbəblərdən yenidən müqavilə bağlaya bilməyib və hərb sahəsindən uzaqlaşmaq məcburiyyətində qalıb. Ondan sonra qürbətə üz tutub. Uzun illər Rusiyaya tez-tez gedib qayıdan Zaur 2018-ci ildə təməlli olaraq vətənə dönüb.

Zaur da sevgi bağı zamansız talan olan şəhidlərimizdəndir. Onun sevgi dolu ailə həyatının cəmi iki il ömrü oldu. 14 avqust 2018-ci ildə qəlbinə yol tapan Səma xanımla böyüklərin xeyir-duası ilə ailə qurdu. 6 iyun 2019-cu ildə sabaha ümidləri olan Ümüd dünyaya gəldi. Zaur övladına Ümüd adı qoydu. Sabaha ümid olsun deyə...

Hər şey 2020-ci ilin iyul ayında baş verən Tovuz döyüşləri zamanı başlayır. Həmin döyüşlər zamanı bir çox azərbaycanlı kimi Zaur da könüllü olaraq döyüşlərdə iştirak etmək üçün müraciət edir. O zamanlar Zaurun atdığı bu addımdan ailəsinin xəbəri olmur. II Qarabağ müharibəsi başlayan zaman ilk olaraq sürücü işlədiyi firmanın işçisi kimi döyüş bölgələrinə yardım edir. Sonra bir müddət öncə könüllü olaraq müraciət etdiyi üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəki Rayon İdarəsi çağırışçılar sırasında Zauru da çağırır. 30 sentyabrda Zaur da könüllü olaraq döyüşlərə qatılır. İlk olaraq Tərtər istiqamətində döyüşə atılır. Ağdərədə gedən ağır döyüşlərin iştirakçısı olur. Elə qismətində də illər boyu neçə-neçə qəhrəmanın qanı sinəsinə axan Ağdərədə şəhid olmaq yazılır.

Müharibə vaxtı zəng etmək çətin idi. Zaur imkan yaranan kimi ailəsinə salamat olduğu barəsində məlumat verirdi. Həmin vaxtlar gələn hər zəng bəzən ümid verirdi, bəzən isə ümidin qatilinə çevrilirdi. Son dəfə oktyabrın 13-də ailəsinə zəng edən Zaur ümid verir. Hələ dil açmayan körpəsinin qığıltısını dinləyir. Nə qədər darıxdığı səsindən bəlli olur. ***"Yaxşıyam"*** deyir. Öndə olmadığını bildirir. Ancaq müharibədə yaxşı olmaq mümkün deyildi. Bəlli ki, sevdikləri nigaran olmasın deyə yaxşı olduğunu və öndə olmadığını deyirdi.

Sentyabrın 27-dən hər gün şəhid xəbəri gəlirdi. Azad olunan torpaqların miqyası genişləndikcə şəhidlərin sayı da çoxalırdı. Oktyabrın 14-də Ağdərədə yanına düşən minamyotun qəlpəsi kürəyinə dəyən Zaur da şəhidlər cərgəsinə qoşulur. Kənd camaatı Zaurun şəhid olduğundan xəbər tutur. Ancaq ailə məlumatsız olur. Axşam ailəsinə Zaurun yaralı olduğu xəbəri deyilir. Oktyabrın 15-də səhər Zaurun şəhid xəbərini alan ailə bir anda Zaurun tabutda gəlişinə şahid olur. "Bu bir gerçək ola bilməz, olmamalıdır..." Ancaq yaşanılanlar həyatın ən acı gerçəyi olur. Zaur 15 oktyabrda torpağa tapşırılır. Zaur da Şəki şəhər II Şəhidlər xiyabanında çiyin-çiyinə düzülən qəhrəmanlar sırasındadır.



Könüllü əsgər Əliyev Zaur Eldar oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "İgidliyə görə" medalı və "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Zaur şəhid olduqdan sonra onu sevənlər üçün yaşamaq çox çətin oldu. Ancaq ailənin bütün üzvləri Zaurun yeganə övladı Ümüdü bir ümid bilərək əl-ələ tutub, birlikdə yaşayırlar. Şəhidin əmanətləri, sözün əsl mənasında, biri-birinə sahib çıxıblar.

Şəhid Zaur adının unudulmaması üçün şəhidlərin şahidləri qazilər və şəhidin ailəsi birlikdə bulaq inşa ediblər. Şəhidə sədaqət budur!

## ŞƏHİD ZAUR

Bu vətənin torpağına canını sipər edənlər,
Bu vətənin səmasında sönməyən ulduz kimidir.
Vətən üçün candan keçib şəhid adı qazananlar,
Ölümsüzlük qazanaraq iki dünyada diridir.

Vətən dərdi ürəyində qövr eləyən oğulların,
Vətən sinəsi üstündə ucaldıldı məqbərəsi.
Dözülməzdir "Ata" sözün daşa söyləyən Ümüdün,
Ömrünün sonuna qədər ata yolu gözləməsi.

Sən dözmədin vətən köksün düşmən nişangah alanda,
Könüllü bir əsgər kimi atıldın ər meydanına.
Ağdərənin geyindiyi şəhid qanlı o köynəyi,
Şəhid Zaur, illər sonra boyandı sənin qanına.

***23.02.2023***





## İMAMVERDİYEV NİCAT MƏHƏRRƏM OĞLU

**ƏSGƏR**

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## QURBANLA TAPILIB VƏTƏNƏ QURBAN OLAN NİCAT

*Bir ailənin ən böyük sevincidir övlad. Hər evin gözlənilir sakini və ən gözəl ümididir. Allah bəzən ailələrin dəyanətini, sədaqətini övladla imtahan edər. Bəzən evin o sakininin gəlişi illər çəkər. Nicatın gəlişi kimi.*

Ailəsi övlad adlı nicatı beş il gözlədikdən sonra Nicatı tapmışdı. O gün bir ailə olaraq əsl xoşbəxtliyi yaşamışdı Məhərrəm kişi və Çimnaz xanım. Gəlişinə qurbanlar kəsilmişdi. Hər kəsin ürəyində sevinc baş qaldırmışdı. Hər kəsin yaddaşında 19 fevral 1995-ci il İmamverdiyevlər ailəsinin övlad həsrətinin bitdiyi gün kimi qalmışdı. Ailəsinin ilk övladı olan İmamverdiyev Nicat Məhərrəm oğlu elə ailəsinin yeganə övladı olmuşdu.

Yeganə övladı şəhid olan valideynlərdən övladları haqqında soruşmaq çox çətindir. Hansı cümlə ilə sözə başlayasan bilmirsən. Axı onların itkisi heç bir sözlə izah edilə bilməyəcək qədər böyükdür.

**Nicat İmamverdiyevi vətənə bəxş edən Çimnaz xanım:**

– Həyat Nicatla üzümüzə gülmüşdü. Nicat gəlişi ilə necə böyük xoşbəxtlik gətirmişdisə, gedişi ilə də elə böyük kədər yaşayırıq. Əslində heç yaşamırıq. Onsuz yaşamaq mümkündürmü?

Nicatla bağlı o qədər arzularımız var idi. O, 2001-ci ildə Şəki şəhər B. Vahabzadə adına 1 nömrəli tam orta məktəbə qədəm qoyanda arzularım qanadlandı. Evdə ərköyün, çöldə isə hər kəsin sevdiyi bir uşaq idi. Müəllimlərinin ən sevimli şagirdlərindən biri idi. Körpəlikdən maşına böyük həvəsi yaranmışdı. IX sinfi bitirən zaman da Texniki Peşə Kollecində "Elektrik qaz qaynaqçısı" ixtisası üzrə təhsil almağa başladı. 2013-cü ildə kolleci bitirdi və həmin il aprelin 3-də həqiqi hərbi xidmətə yollandı.

Nicatın hər önəmli gününü yaddaqalan və təmtəraqlı etdiyimiz kimi onun hərbi xidmətə yola salınmasını da fərqli qeyd etməyi düşünürdük. Lakin o dönəmdə babası dünyasını dəyişdiyi üçün bütün planlarımızı Nicatın dönüşünə saxladıq. Nicat Naftalanda yerləşən N saylı hərbi hissədə xidmətə başladı. Hər zaman olduğu kimi müddətli həqiqi hərbi xidməti zamanı da hörmət qazanmağı bacaran Nicat dəfələrlə fəxri fərmanlarla təltif edildi.

Biz heç Nicatdan ayrı qalmamışdıq. Ona görə də ayrı qalmaq bizim üçün çox çətin idi. Ayda üç dəfə yanına gedirdik. Görüşüb evə yola düşəndə elə bil ki, illərdi Nicatıma həsrətəm kimi hiss edirdim. Demək olar ki, 18 ay mənim üçün illərə bərabər idi. O həsrətli günlər 10 oktyabr 2014-cü ildə bitdi. Nicat hərbi xidmətini başa vurub döndüyündə üç gün balam üçün qonaqlıq verdik. Birinci gün qurbanı kəsildi, ikinci gün mövlud oxutdurduq, üçüncü gün isə şənlik etdik. İndi o günləri xatırlayıb göz yaşı tökürəm. Bircə təsəllim odur ki, toysuz gedən oğlum üçün, heç olmasa, o zaman çalğılı qonaqlıq etmişəm.

Nicat hər zaman valideynlərini düşünən bir uşaq olub. Hərbi xidməti bitirib döndüyü zaman da öz ayaqları üzərində durmaq üçün işə başladı. Marketlərin birində inzibatçı işlədi.

2020-ci ilin oktyabr ayının 21-nə gözəl xəyallarımız var idi. Həmin gün bizim evliliyimizin 30-cu ili tamam olurdu. Qərara aldıq ki, Nicatın könül verdiyi xanıma həmin gün nişan üzüyü aparaq. Bizim həyatımızın xoşbəxtliyi olan övladımızın xoşbəxtliyini görmək bizə ən dəyərli hədiyyə idi. Bütün hazırlıqlara başladıq. Ancaq o gün xəyal etdiyimizin tam əksi olaraq ən acı xəbəri aldıq. Bizim üçün "Nicat şəhid olub" xəbəri ilə həyat dayandı. Biz o gün ruhumuzu əcələ təslim etdik.

Sentyabrın 27-də müharibə başladıqdan bir gün sonra Nicata çağırışçı olduğu barədə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəki Rayon İdarəsidən xəbər gəldi. O xəbər ürəyimə od saldı. Ancaq bütün valideynlər kimi biz də övladımızı vətənə layiq böyütməyə çalışmışdıq. Hər qeyrətli oğul kimi Nicat da vətənin dar günü vətənə laqeyd qalmadı. Sentyabrın 29-da və 30-da Səfərbərlik İdarəsi "Ehtiyac olduğu zaman çağıracağıq" deyib Nicatı geri qaytardı.



Oktyabrın 5-də Nicat müharibəyə yollandı. Ona vida etmək çox ağır idi.

Nicat Tərtər, Ağdərə istiqamətində döyüşlərə başlayıb. Lakin yerini bizdən gizlədirdi. On bir gün müddətində hər gün danışırdıq. Atəş səslərini soruşduğumuzda Mingəçevir şəhərində təlimdə olduğunu deyirdi. Sonradan atası Nicatın döyüşdə olduğunu internetdə yayılan şəkillərdən öyrənib. Ancaq mənə bildirməyib. O, məni düşünüb. Oktyabrın 15-də mənimlə danışanda ***"Ana, atam əmanəti. Atama yaxşı bax"*** dedi. Atası ilə də danışanda məni əmanət edib, döyüşə getdiklərini deyib. Suqovuşanın azadlığı uğrunda döyüşlərdə qəhrəmancasına vuruşub. Oktyabrın 16-da elə Suqovuşanda da şəhid olub. Nicatın nəşini neytral ərazidən götürmək mümkün olmayıb. Ona görə də bizə onun şəhid olduğunu bildirməyiblər. Günlərlə Nicatdan zəng gəlməyəndə onun ya yaralı, ya şəhid olduğunu düşündük. Qurbanlarla tapılan Nicata özümü qurban dedim. Ancaq Allah onu öz dərgahına tez apardı.

Min bir xəyalını qurduğumuz 21 oktyabr. Həmin gün süfrədə oturmuşduq. Kaş ki Nicat bu gün yanımızda olardı dedik. Həmin vaxt dayım gəldi. Ağlamaqdan qızaran gözlərini gizlətməyə çalışsa da, bacarmadı. Gözündən düşən damla övlad adlı ümidimizin son nöqtəsi oldu. Nicatın şəhid xəbərini dilə gətirmək də, eşitmək də dözülməz idi. O an biz artıq həyatdan əlimizi üzdük. Daha sonra olanları xatırlamaq çətindir. Ard-arda vurulan iynələr sanki beynimizi qurutmuşdu. 22 oktyabrda Nicatı çiyinlər üstə gətirdilər. Bir valideyn üçün yeganə övladının tabutunu qucaqlamaq qədər çətin an varmı? O gün ürəyimizdə bir atəş çatıldı. Son nəfəsimizə qədər ata və ana olaraq bizi yandırıb kül edəcək o atəş.

Oktyabrın 22-də Şəki şəhər II Şəhidlər xiyabanında Nicat torpağa tapşırıldı. Nicatın canını qurban etdiyi bayrağı isə atasına əmanət etdilər. Şəhid atası "Oğlumun əvəzinə bu bayrağı mənə verdilər. Oğlumun əmanətidir. O an çarəsiz baxışlarımız çarəsizlik önündə aciz qaldı. Biz o gündən çarəsizik" dedi.

Əsgər İmamverdiyev Nicat Məhərrəm oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Cəsur döyüşçü" medalı və "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Ata və anası yeganə övladlarının adına "Nicat bulağı" inşa etdiriblər. Bir neçə sinif otağı şəhid Nicatın adını daşıyır.

## ŞƏHİD NİCAT

Beş ilin həsrəti səninlə bitdi,
Ümid qönçələdi könül bağında.
Heç kim xəyalına gətirməzdi ki,
Sən şəhid olarsan Qarabağımda.

Atanın-ananın dayağı idin,
Sənsiz ömürləri yaman laxladı.
Beşiyin başında keşik çəkənlər,
Məzarın başında dərddən ağladı.

Neçə qurban ilə tapıldın, Nicat,
Adına deyildi "Vətən qurbanı".
Düşmən tapdağından xilas elədin,
Sonuncu nəfəsdə Suqovuşanı.

Belə olmamışdı sənli arzular,
Xonçan məzarının üstə düzüldü.
Rəsmindən təsəlli alan hər kəsin,
Qəlbi sənsizlikdən yaman üzüldü.

İyirmi beş illik ömür yaşadın,
Kəm qaldı məhəbbət, sevgi, səadət...
Natamam arzular könül dağıdır,
Nicat, səndən qalıb vətən və həsrət.

*21.02.2023*



**MUSAYEV RÜFƏT
ÜLFƏT OĞLU**

**ƏSGƏR**

*(2020-ci ildə II Qarabağ müharibəsində
şəhid olmuşdur.)*



## QƏLBİN QƏM YÜKÜ

*Bəzi ürəklər dünya boyda qəm yükü daşıyırlar. Hər kədərdən bir iz düşən ürəyə bəzən elə zərbə dəyir ki, sanki bütün kədərlərin izi silinir. Ürək tək o dərdi daşıyırmış kimi döyünür. Hər döyüntüdə çarəsizliyin ağuşuna atılan ürək acizanə yaşatmağa davam edir. Hər anı son an kimi yaşayan bir insanın köksündə döyünən ürəyin həsrətinin adı Şəhid oğul həsrətidir. Bir zamanlar sevincin ünvanı olan oğul daha kədərin ünvanıdır. Bütün xəyallar onunla başlamışdı, bütün xəyallar onunla bitdi. Onun adı Rüfət idi. Sanki adı gələcəkdəki məqamının izahı idi. Ən yüksək zirvə sayılan şəhidlik zirvəsinə ucalan Rüfət bir hərbçi kimi yüksək rütbə daşımasa da, əsgər kimi şəhadətə ucaldı.*

Ailəsinin ilki olmasa da, tək oğul övladı idi Musayev Rüfət Ülfət oğlu. Atasının dayağı, anasının sabaha ümidi, bacısı Afətin isə dostu, sirdaşı idi. 8 oktyabr 2001-ci ildə Şəki rayonunun Suçma kəndində dünyaya göz açır ailəsinin istəklisi. 2004-cü ildə ailəsi ilə bərabər Sumqayıt şəhərinə köçür. 2008-ci ildə Bakı şəhər Corat qəsəbəsi 7 nömrəli tam orta məktəbə qədəm qoyur. Üç il həmin məktəbdə oxuduqdan sonra atasının ürəyində yaranan problemlər səbəbindən doğma yurd-yuvalarına, Suçma kəndinə qayıdırlar. Təhsilini Şəki rayon Suçma kənd tam orta məktəbində davam etdirir və həmin məktəbin məzunları sırasında yer alır. 2019-cu ildə Mingəçevir Turizm Kollecinə daxil olur. Təhsilini donduran Rüfət 24 oktyabr 2019-cu ildə müddətli həqiqi hərbi xidmətə yollanır. Yevlax rayonunda yerləşən N saylı hərbi hissədə xidmət edir.

Rüfət doğulduğu gün valideynləri belə bir oğul olmasını arzulamışdı. "Vətənə layiq övlad ol" deyən valideynlər o zaman "Vətənə şəhid ol" deməmişdilər. Ancaq ləyaqətin, şərafətin, sədaqətin təməli elə vətənlə bağlı olur. Bu sadalananlar uğrunda candan keçənlər isə şəhadətə ucalır.

Sentyabrın 13-də ailəsi görüşünə gəldiyində Fərqanə ana əsgər balasını izlədikcə gözləri iki çeşməyə dönür. Oğlunun böyüdüyünün, kişilər sırasında yer aldığının fərqinə o gün varır. Atası oğlunun boynunu qucaqlayıb onu bağrına basan zaman sanki xəstə ürəyi məlhəm tapır. Yeganə qardaşının qoxusunu doya-doya qoxlayan Afət sanki son dəfə qardaşına sarıldığını hiss edir. Ailə o anları kadrlarla əbədiləşdirir.

Sentyabrın 25-də Rüfət də bir çox əsgər və zabitlər kimi ailəsinə zəng edir. Həmin dönəmlərdə hər gün təlimlərdə olan Rüfət yenidən təlimə gedəcəyini deyir. Müharibə barəsində bir kəlmə də demir. İki gün sonra ailə müharibənin başladığını və bir neçə kəndin azad olunduğunu televiziyadan öyrənir. Elə o gündən Musayevlər ailəsinin yuxusuz gecələri başlayır. Rüfət bildirməsə də, ailəsi onun harada olduğunu hiss edir.

Rüfət döyüşlərə Goranboy rayonunun Tapqaraqoyunlu kəndindən başlayır. 27 sentyabrda Ermənistan ordusunun sərhəd ərazilərdə atəşkəsi pozmasına Azərbaycan ordusu layiqincə cavab verir. Talış kəndi, Suqovuşanı azad edən qəhrəmanlardan biri də Rüfət olur.

Rüfət girdiyi döyüşün nə ilə nəticələnəciyini yaxşı bilir. Elə ona görə də oktyabrın 12-də zəng etdiyi zaman ***"Məni düşünməyin"*** deyir. İki gün öncə 530 nömrəli yüksəklikdə ac-susuz vuruşan Rüfət oktyabrın 14-də saat 11:00-da minamyot qəlpəsinin sinəsinə dəyməsi nəticəsində şəhid olur.

Artıq bir neçə gün idi Rüfətin zəngi gəlmirdi. Ailə yetərincə narahat idi. Hər an bir xəbər gəlməsini intizarla gözləyən ailə o dəhşətli xəbəri oktyabrın 17-də alır. Ülfət kişi Rüfətin komandirinə zəng etdiyi zaman "Dayı, oğlun şəhid olub" cavabı verilir. O xəbərlə atanın xəstə ürəyi daha böyük dərdə düçar olur. O gün atanın çəkdiyi bütün acılar o acının önündə aciz qalır. Rüfətin əmisi Cabbar Yevlax rayonuna üz tutur. Qardaşının yeganə oğul övladının cansız cismini morqdan təhvil alan əmi üçün Ülfətin nəşini Şəkiyə gətirmək olduqca çətin olur. Oktyabrın 17-də gecə Rüfətin nəşi Şəkiyə çatsa da, 18-də doğulub böyüdüyü evə gətirilir. Sübh səhər oğlunun gəlişi ilə sızlayan ata-ana ürəyi Rüfətin əbədi gedişi ilə göyüm-göyüm göynəyir. Suçma kənd məzarlığındakı Şəhidlər xiyabanında dəfn olunan Rüfət kəndin dörd şəhidindən biri olur.

Əsgər Musayev Rüfət Ülfət oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Cəsur döyüşçü" medalı və "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Bir zamanlar Rüfətin gəzdiyi küçə indi onun adını daşıyır. Vətən yaşasın deyə candan keçən qəhrəmanın adı ürəklərdə əbədi yaşayır.



## ŞƏHİD RÜFƏT

Vətən bağlarından dərilən şəhid,
Cənnətdə heç zaman solmayacaqsan.
Nə qədər vətəni sevən ürək var,
Həmin ürəklərdə yaşayacaqsan.

Nəfəsi kəsilən son ümidlərin,
Loğmanı sayırıq biz səni, Rüfət.
Bütün sevgiləri gözardı edib,
Vətənə könüldən bağladın ülfət.

Bir evin yeganə oğul övladı,
Bir elin övladı olmusan daha.
Gəncliyi məzara dəfn olanların,
Əzmiylə çıxmışıq nurlu sabaha.

Sızlayır durmadan ata qəlbində,
Məlhəmi olmayan oğul yarası.
Oğlunu sevinci bilən ananın,
Daha daşa dönüb oğul balası.

Qardaşlı günləri hey xatırlayıb,
Bir bacı kədəri gözündən süzür.
Yarına gül-çiçək verməyən şəhid,
Hər kəs məzarına gül-çiçək düzür.

***01.03.2023***



**MƏMMƏDOV RAMİN AYDIN OĞLU**

ƏSGƏR
*(Çağırışçı)*

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## NAKAM ÖMRÜN NAKAM ARZULARI

*Kaş ki heç bir ananın qəlbinə övlad dağı vurulmayardı. O qədər çətindir ki, ürəyində övlad dərdi daşıyan bir ananın könül qapısını döymək. O qəlbin həsrətini nə dindirə bilər ki? Ürəyindəki həsrəti dilə gətirdikcə göz yaşları yanağına düzülən Samirə ananın hıçqırıqları ürəyimi çalınçarpaz dağladı. Ən çox övladının çəkdiyi zəhməti, uşaqlıqdan həyatın çətinliyinə sinə gərməsini dilə gətirdikdə səsindəki yanğısı sanki fəryad edirdi. Axı Ramin körpəlikdə böyüyüb xoş gün görəcəyi günü gözləyirdi. Ancaq o tam ürəkdən sevinə bilmədi. Çəkdiyi çətinliklər səbəbindən sevgisi də nakam qaldı ömrü nakam qalan şəhidin.*

Məmmədov Ramin Aydın oğlu 14 noyabr 1997-ci ildə Şəki rayonunun Babaratma kəndində dünyaya göz açmışdır. Ailənin üç oğul övladından birincisi Ramin olmuşdur. Kiçik qardaşları Elmin və Əlinin dayağı olmuşdur. Körpəlikdə qardaşlarını qorumağa çalışan Raminin böyüdükcə qorumaq duyğusu daha da çoxalmışdır.

Ramin Məmmədov 2004-cü ildə Babaratma kənd natamam orta məktəbində təhsil almağa başlamışdır. IX sinfi bitirdikdən sonra təhsilini Şəki rayon Kiş kənd tam orta məktəbində davam etdirmişdir. 2015-ci ildə məktəbi bitirdikdən sonra Sürücülük məktəbini oxumuşdur.



Bir evdə oğul dünyaya gələn zaman vətənə, elə, xalqa bir dayaq gəldiyi düşünülür. Heç kim Raminin də vətənə dayaq olacağına şübhə etmirdi. Ramin 14 yanvar 2016-cı ildə vətənə dayaq olmaq üçün müddətli həqiqi hərbi xidmətə yollanıb. Goranboy rayonunda yerləşən N saylı hərbi hissədə xidmətə başlayan Ramin xidmətini bitirməyə iki ay qalmış Tərtər rayonunda yerləşən N saylı hərbi hissədə xidmətini davam etdirir. 2017-ci ilin iyul ayında xidmətini başa vurduqdan sonra evinə dönür.

Ramin hər zaman çalışqanlığı ilə seçilib. Ailəsinə kömək məqsədi ilə hər zaman çalışıb. Uzun müddət usta köməkçisi kimi çalışıb. Hər zaman ev tikdiyində özü üçün də elə ev tikməyi xəyal edib. Valideynləri, qardaşları üçün gözəl güzəran yaratmaq ən böyük arzusu olub. Ali təhsil ala bilməyən Ramin kiçik qardaşı Əlini universitetdə oxutmaq arzusunda olub. Ancaq onun ömrü arzularına çatmağa vəfa etməyib.

2020-ci ilin iyul ayında baş verən döyüşlərdən sonra düşmən daha da azğınlaşmışdı. Hər dəfə Azərbaycan Ordusunun daha sərt müqaviməti ilə qarşılaşan düşmən ordusu yenə də dərs alırdı. İllərlə düşmən tapdağında qalan torpaqlarımız bir an öncə azad olunmalı idi. Daha gözləyəcək zaman qalmamışdı. Sentyabrın 27-də düşmən qığılcımı Azərbaycan Ordusunun alov yandırmasına səbəb oldu. Ürəkləri azadlıq isitdi.

Sentyabrın 28-də Ramin Məmmədova da Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəki Rayon İdarəsindən çağırışçı olduğu haqqında bildiriş gəlib. Gecə çağırış məntəqəsindən Ramini müharibəyə aparmaq üçün nümayəndələrin gəldiyini yuxuda görən Samirə ana həyatda eyni anı yaşayıb. Göz yaşı tökə-tökə sənədi imzalayan ana əslində atdığı imzanın mənasını dərk edib. Ona görə də ana üçün o qədər çətin olub.

Sentyabrın 29-da Ramin döyüşə gedənlər sırasında yer alır. Ramin elə bir yola qədəm qoyur ki, gedişi də, dönüşü də şərəfli olur. İgid kimi gedir, şəhid kimi dönür.

Tərtər rayonu istiqamətindən başlayaraq addım-addım zəfərə doğru irəliləyən Ramin Suqovuşanın azadlığına töhfə verib. Döyüşlər zamanı üç dəfə qardaşı Elmin ilə danışıb. Son dəfə oktyabrın 12-də zəng edən zaman ***"Bizə dua edin"*** deyib. Daha zəng edə bilməyəcəyini deyən Ramin dediyi kimi bir daha zəng edə bilməyib. Oktyabrın 15-də Suqovuşan uğrunda gedən döyüşlər zamanı başından snayper ilə vurulan qəhrəman həmin an şəhid olub.

Raminin şəhid olduğu xəbəri Şəki rayonuna çatır. Çox adam hadisədən xəbərdar olsa da, heç kim Məmmədovlar ailəsinə bir söz demir. Oktyabrın 17-də gəlib-gedənlərin sayının çoxalması Aydın kişi ilə Samirə xanımı şübhələndirib.

Gələnlər sanki nə isə demək istəyirlər ancaq deyə bilmirlər. Anbaan nigaranlığı artan ata və ana duyduqları "Möhkəm olun" sözü ilə bütün güclərini itirirlər. 28 il şəhid Araz Şirinovun dərdini çəkən Bəhiyyə ana Samirə anaya təsəlli verməyə çalışır. Ancaq Bəhiyyə ana gözəl bilir ki, bu dərdin bir təsəllisi yoxdur.

Oktyabrın 18-də günortadan sonra Raminin nəşi bir zaman gülüşü ilə sevincə qərq etdiyi evinə gətirilir. Vida mərasimindən sonra şəhidin müqəddəs nəşi Babaratma ziyarətgahında dəfn olunur.

Əsgər (Çağırışçı) Məmmədov Ramin Aydın oğlu Ali Baş Komandan cənab İlham Əliyevin əmrinə əsasən şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Cəsur döyüşçü" medalı və "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.



## ŞƏHİD RAMİN

Min illərin dərinindən zillət baxır gözümüzə,
İşğal sözü kölgə saldı bizim "Vətən" sözümüzə.
Dünya susdu hər bir zaman doğrumuza, düzümüzə,
Vətən adlı yara ilə böyüdü uşaq, cavanlar,
Qarabağı azad etdi Ramin kimi qəhrəmanlar.

O, vətənin qan gölünə dönən bağrına qısıldı,
Suqovuşan, Tərtərimdə üçrəngli bayraq asıldı.
Neçə-neçə ürəklərə şəhid yarası basıldı,
Raminin də həsrətinə ünvan oldu neçə ürək,
Fədai olan şəhidi unutmayaq heç vaxt gərək.

Daha "Azad Vətən" sözü dilimizin əzbəridir,
Qazanılan qalibiyyət bütün xalqın zəfəridir.
Azərbaycan Raminlərin, Rasimlərin vətənidir,
Hər dağında, qayasında həkk olub bir ömür izi,
Heç zaman tükənməyəcək igid, ərənlərin sözü.

***01.03.2023***



**HACI-İSMAYILOV RAHİB MƏMMƏDEMİN OĞLU**

ƏSGƏR
(*Könüllü*)

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## HƏR ANI VƏTƏN ŞƏHİD

***– Ən şərəfli ölüm torpaq üçün, vətən üçün, dövlət üçün olandır. İnşallah Qarabağı o şərəfsiz ermənilərdən alarıq, xilas edərik. Şəhidlərimizin qanı yerdə qalmaz.***

*Bir insanın daxilində tüğyan edən duyğularını hiss etmək üçün bu fikirlər kifayət edir. Rahibin sosial şəbəkə hesabına nəzər saldığımda onun illər öncə yazdığı bu və digər fikirləri vətənə olan sevgisini, düşmənə olan nifrətini bəyan etdi. İllərlə vətən həsrəti çəkən qəhrəmanın yarasına hər şəhid xəbəri ilə sanki duz basılıb. Hər paylaşımında şəhidlərin ölməzliyini vurğulayan Rahib sanki özü şəhid olduqdan sonra unudulmamasını dilə gətirib.*

***– Şəhidlərimiz unudulmasın, unutmağa qoymayaq. Şəhidi düşmənin gülləsi yox öz milləti tərəfindən unudulmağı öldürər. Yeni dünyaya gəlmiş körpə övladlarımıza vətənpərvər olmağı, düşmənə nifrəti öyrədək.***

Özü körpəliyindən vətən sevgisinin aliliyini dərk edən Rahib sanki hər kəsi vətəni sevməyə sövq edib. Ömrünün hər anına vətən sevgisi iz salan Hacı-İsmayılov Rahib Məmmədemin oğlu 17 sentyabr 1991-ci ildə Şəki şəhərində dünyaya göz açıb. İki qardaşdan ikincisi olan Rahibin düşüncəsi yaşından böyük olub. O, hər addımını düşünüb atıb. Qardaşı Rəvanla birlikdə hər zaman ailəsinə dəstək olmağa çalışıb.



Böyümək hər uşağın ən məsum arzusu, ən böyük haqqıdır. Rahib də böyüdü. Məktəbli yaşına çatan zaman Şəki şəhər 19 saylı tam orta məktəbə qədəm qoydu. IX sinfi bitirdi. Sonra... Onun arzusu bu üç nöqtələrin yerində hansısa bir universitetin adının yazılması idi. Ancaq çətin həyat şərtləri ona mane oldu.

Vətən həsrəti tikanlı məftil kimi ürəyini qanadırdı Rahibin. Bir an öncə vətən keşiyini çəkməyə tələsirdi. 2009-cu ilin oktyabr ayında müddətli həqiqi hərbi xidmətə getdiyi zaman ən böyük arzusuna çatmış kimi sevinirdi. 052-nin Xızı rayonunda yerləşən N saylı hərbi hissəsində xidmət edən Rahib müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kimi qalıb orduda xidmət etmək arzusunda olub. Lakin Tangis ana oğlunun bu istəyinə qarşı çıxıb. Rahib ana duası olmadan o addımı atmayıb. 2011-ci ilin aprel ayında hərbi xidmətini başa vurub. Qəlbini səngərdə buraxaraq evinə dönüb.

2016-cı ildə Aprel döyüşləri zamanı Rahibin ürəyi sanki çarmıxa çəkilir. O döyüşlərdə can verən qəhrəmanların hər birinin intiqamını alacağına and içir. Bir şəhid anasının şəklini paylaşaraq bu sözləri yazır:

***– Bu ananı gözü yaşlı qoyan şərəfsiz, murdar ermənilərə Allah lənət eləsin. Allahım, şəhidlərimizin tökülən qanlarının qisasını almadan canımızı alma. Qisas, savaş hələ bitməyib. Allahın yardımıyla qanımızı yerdə qoymayacağıq!***

Rahib sanki öz intiqamını alacağını da dilə gətirib. Qoluna "Победа и рай написани нам" (Qələbə və cənnət bizim üçün yazılıb) cümləsini həkk etdirən qəhrəman elə yazıda deyildiyini həyatda yaşayıb. İllərdən sonra qazanılan qələbənin şahidi kimi cənnəti məskən tutub.

Rahib 2012-ci ildən bir firmada işləməyə başlayıb. Həmin vaxtdan ailə üzvləri də Bakıya köçüblər. Ta ki, sentyabrın 28-nə kimi. 2020-ci ildə Tovuz rayonu istiqamətində baş verən döyüş zamanı könüllü döyüşçü kimi adını yazdıran Rahibə 28 sentyabrda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəki Rayon İdarəsindən xəbərdarlıq mesajı gəlib. Həmin gün qaçaraq evə gəlib ailəsi ilə görüşdükdən sonra ***"Gözlədiyim gün gəldi"*** deyərək sevincək Şəki rayonuna yola düşüb. Sentyabrın 30-da döyüşə gedən könüllü və çağırışçılarla bərabər cəbhəyə yollanıb. Ağdam, Tərtər, Ağdərə və Suqovuşan uğrunda gedən döyüşlərdə vuruşub. Döyüşdə olarkən zəng etdiyi zaman anasından döyüşdə olduğunu gizlətməyi bacarıb. Hər kəsə onun döyüşdə olduğu barəsində anasına bir kəlmə də deməməyi tapşırıb. Hər dəfə anası ilə danışanda müharibəyə görə narahat olan anasına ***"Ana, ürəyini buz kimi saxla, ordumuz qalib olacaq"*** deyib. Son dəfə oktyabrın 19-da ailə üzvləri ilə danışıb. Ertəsi gün Tərtər–Ağdərə istiqamətində gedən ağır döyüşlər zamanı qəhrəmancasına vuruşaraq şəhadətə ucalıb.

Rahibin şəhid olduğu xəbərini ilk olaraq Şəkidə yaşayan əmisi Elçin müəllim alır. Rəvana zəng edərək "Rahib yaralıdır, Şəkiyə gətirirlər" deyir. Ailə yola düşür. Onlar evlərinə çatan zaman cəm olan insanları gördükdə əsl həqiqətin nə olduğunu anlayırlar.

Oktyabrın 20-də gecənin sükutu şüarlarla pozulur. Şəki öz şəhidini qarşılayır. 21 oktyabrda ata ocağında Rahibə əbədi vida edilir. Hər zaman vətənə can verməyə hazır olan Rahibin cismi Şəki şəhər II Şəhidlər xiyabanında torpağa tapşırılır.

Əsgər (Könüllü) Hacı-İsmayılov Rahib Məmmədemin oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Cəsur döyüşçü" medalı və "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Şəhidlərin qanı, canı bahasına azadlığa qovuşan Suqovuşan hər kəsin müqəddəs ziyarətgahına çevrilib. Bir çox şəhid ailələri ilə birlikdə Məmmədemin kişi və Tangis xanım övladlarından əmanət qalan o müqəddəs torpağı ziyarət ediblər. O an yaşanılan duyğuları ifadə etməyə sözlər yetərsiz qalır.

Rahibin ailəsi yaşadıqları küçədə Rahibin adına bulaq inşa etdirib. Bir zamanlar Rahibin dilə gətirdiyi kimi şəhid adı unudulmur və Azərbaycan bayrağı Qarabağda, Şuşada dalğalanır.

***– Şəhidlər ölməzdir. Allah bütün şəhidlərimizə qəni-qəni rəhmət eləsin. Qarabağ bizim yaralı yerimizdi. O gün olsun ki, Azərbaycan bayrağını Qarabağda, Şuşada dalğalandıraq. Allah vətənimizin keşiyində duran hər bir zabitimizə, gizirimizə, əsgərimizə səbr, iradə, dözüm versin. Namaz qılan mömin qardaşlardan, möminə bacılardan rica edirəm ki, namazlarınızda ibadətlərinizdə vətənin keşiyində duran əsgərlərimiz üçün dua edin. Onların bizim dualarımıza ehtiyacları var.***

Hər sözü vətənlə bağlı olan bir vətən oğlu kimi Rahib adı vətən var olduqca yaşayacaq. Heç bir addım qan ilə yazılan tarixi silə bilməz.



## ŞƏHİD RAHİB

Şəhadəti şərəfli ölüm hesab elədin,
Qarabağ həsrətini hər kəlmədə söylədin.
İşğalı yaşın ilə tən olan Qarabağa,
Dönəcəyin o günü həsrət ilə gözlədin.

Bilirdin ki, azadlıq qazanılacaq çətin,
Qara bulud almışdı illərdi məmləkəti.
Şəhid qardaşlarının qisasını alaraq,
Şəhidlərə tay olmaq oldu sənin qismətin.

Həm qələbə, həm cənnət bəxt yazın oldu, Rahib,
Dünyaya hər gələn kəs bu ünə olmaz sahib.
Uşaqlıqdan bir arzu yer almışdı qəlbində,
İstəyirdin zəfərə olasan sən də şəhid.

Tək şahid olmadın sən, zəfərdən müjdə verdin,
Toz tutan səhifənin tozunu qanla sildin.
Ömrünün hər anına vətənin əksi düşdü,
Vətən, bayraq, torpağı canından üstün bildin.

*01.03.2023*



## ƏHMƏDOV QALİB RƏŞİD OĞLU

ƏSGƏR

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## QALİB ORDUNUN QALİB ƏSGƏRİ

*İnsanın daşıdığı ad həyatında böyük rol oynayır. Çox insanın yaşadığı ömür daşıdığı adı yansıdır. Bir zamanlar bir körpəyə ad olaraq qoyulan Qalib adı illər sonra qalib bir əsgər kimi yaddaşlarda iz qoyan Şəhid Qalib olaraq tanındı. Qalibiyyətin memarı olan qəhrəman adını şərəflə daşıdı. O, dünyaya gələn zaman valideynlərinin ürəyi vətən həsrətini daşımaqdan yorulmuşdu. Bəlkə də, bir ümid ilə o ad qoyulmuşdu. Qalib bütün ümidləri doğrultdu.*

Əhmədov Qalib Rəşid oğlu 10 sentyabr 2001-ci ildə Şəki rayonunun Əliyar kəndində anadan olub. Rəşid və Validə Əhmədovlar iki oğul övladı böyüdüblər. İlkin və Qalib hər zaman biri-birinə dəstək olublar. Böyüyüb məktəbli yaşına çatan Qalib 2008-ci ildə Şəki rayon Əliyar kənd natamam orta məktəbinə qədəm qoyub. IX sinfi bitirdikdən sonra Şəki rayon 2 nömrəli Peşə Məktəbinə gedib. Peşə Məktəbini bitirmədən hərbi xidmətə getmək zamanı çatdığı üçün təhsilini yarıda qoyub.

Qalib 2019-cu il oktyabrın 8-də vətəndaşlıq borcunu ödəmək üçün müddətli həqiqi hərbi xidmətə yollanıb. Goranboy rayonunun Ballıqaya kəndində yerləşən N saylı hərbi hissədə üç ay xidmət etdikdən sonra Tərtər rayonunun Sarov kəndində yerləşən N saylı hərbi hissədə xidmətini davam etdirib. Xidmətinin bir ilinin bitməyinə az qalmış müharibə başlayıb.



Qalib bir neçə ay öncə ailə üzvləri ilə görüşüb. Məzuniyyətə getmək ona qismət olmayıb. Hərbi xidməti bitirmək qismət olmadığı kimi...

Əhmədovlar ailəsinin müharibə başlayan dövürdə yaşadıqları acını, narahatlığı düşünmək ürəyə əzab verir. Həmin dönəmlərdə ailəsi, ümumiyyətlə, Qaliblə əlaqə saxlaya bilməyib. Ailənin Qalibin harada olduğundan məlumatı olmayıb. Günlərlə naümid bir zəng yolu gözləyən ailə xəstəxanalara, morqlara üz tutub. Qalibin səssizliyinin səbəbinin onun şəhid olması ehtimalını düşünən Rəşid müəllim DNT analizi verib. Yenə də Qalibdən gələcək xəbəri gözləyib. Günlərlə pozulmayan sükut ilk olaraq oktyabrın 21-də axşam İcra nümayəndələrinə verilən xəbərlə pozulub. Lakin onlar xəbəri ailəyə ertəsi gün səhər deyiblər. Qalibin şəhid olduğunu eşidən ailə çox keçmədən Qalibin bayrağa bürünmüş tabutda gəlişinə şahid olub.

Validə ana oğlunun yollarına göz yaşını çiləyib. Böyük-böyük arzular kiçik-kiçik parçalara ayrılıb. Hər parça ürəyi yaralayıb. Sızım-sızım sızlayan ana ürəyinə məlhəm olacaq bir təsəlli tapılmayıb. El yolunda can verən şəhid el oğluna çevrilib. Qalib ordunun Qalib əsgəri ruhən əbədi vida etdiyi dünyaya cismən də vida edib. Qalib oktyabrın 22-də Əliyar kənd məzarlığında torpağa tapşırılıb.

Ailəsi Qalibin döyüş yolu haqqında o, şəhid olduqdan sonra məlumat alıb. Məlum olub ki, Qalib Tərtər, Ağdərə, Talış kəndi, Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak edib. Lakin onun şəhid olduğu barədə bir-birinə uyğun gəlməyən məlumatlar da var. Bəzi sənədlərdə sentyabrın 29-da şəhid olduğu yazılsa da, bəzi sənədlərdə oktyabrın 10-da Suqovuşanda PDM-in vurulması nəticəsində şəhid olduğu bildirilir. Neçə-neçə qəhrəman kimi Qalib də vətənin azadlığı uğrunda öz canını qurban edib.

Əsgər Əhmədov Qalib Rəşid oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Suqovuşanın azad olunmasına görə" medalı və "Laçının azad olunmasına görə" medalı ilə təltif edilib.

Əliyar kənd camaatı şəhidlərin adını uca tutaraq "Şəhidlər bulağı" inşa ediblər.

*Bu dünya hər bir insanın müvəqqəti məskunlaşdığı bir yerdir. Bu dünyada kim əbədi yaşayacaq? Bu sualın ilk cavabı Şəhidlərdir. Nə qədər ömür yaşamaqlarından asılı olmayaraq onların var oluşları sonsuz olacaq. Bir xalqın tarixini yazmaq və o tarix kimi əbədi olaraq xatırlanmaqdan önəmli nə ola bilər ki?*

## ŞƏHİD QALİB

Sən qalib ordunun qalib əsgəri,
Bu xalqın, millətin aman yerisən.
Ölüm yox şəhadət dadan şəhidtək,
İki cahanda da daim dirisən.

Adını əməlin sübut elədi,
Qalib, qalib oldun savaş zamanı.
Gör neçə il idi həmin günəydi,
Ürəyi qan olan xalqın gümanı.

Nə gözəl yaşadın, nə şanlı getdin,
Tanrı dərgahının şəhid bəndəsi?!
Allah hər bəndəyə əta eləməz,
Şəhidə verdiyi nurun zərrəsin.

Ömürlük xatirə olaraq qalıb,
Sən olan o günlər, sənli xəyallar.
Qalib, bir millətin qəlbin fəth edər,
Sevgisi sevgintək ali olanlar.

***03.03.2023***





**İSMAYILOV ELNUR**
**ARİF OĞLU**

**ƏSGƏR**

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## ARZULANDIĞI KİMİ GƏLMƏYƏN ŞƏHİD

*Həyat insan övladına Allahın bəxşişidir. Gəlirik, yaşayırıq və gedirik. Heç kim bu dünyada əbədi olaraq ömür sürmür. Ancaq bəzi insanlar əbədiyaşarlıqla mükafatlanırlar. Cismani olaraq dünyanı tərk etsələr də, ruhən bu dünyada əbədi var olurlar. O insanlar şəhidlərdir. Allah, din, vətən, xalq yolunda canını qurban edənlər. Əbəs yerə müqəddəs kitabımız Qurani-Kərimdə "Şəhidlərə ölü deməyin, onlar diridirlər" deyilməyib. Bəli, şəhid olmaq hər insana qismət olmur. Şəhid olaraq ölümsüzlüklə mükafatlanan qəhrəmanlardan biri də Elnur İsmayılovdur. O Elnur ki hər zaman şəhid olmaq arzusunda olub və şəhid olduğu təqdirdə dəfn olunacağı yeri də sağlığında seçib.*

İsmayılov Elnur Arif oğlu 24 fevral 2001-ci ildə Şəki şəhərində dünyaya gəlib. O ailəsinin ilk və tək oğul övladı olub. Özündən kiçik bacıları Gülxatun və Gülnur hər zaman qardaş qayğısı, nəvazişi ilə əhatələniblər.

Ariflə Elnarə xanımın sevincləri 2007-ci ildə daha da şaxələnir. Çünki onların ilk övladları Şəki rayon Baş Küngüt kənd tam orta məktəbinə qədəm qoyur.

O, bir qəhrəman oğlu idi. 1993-cü ildə vətən keşiyini çəkən, Ağdərəyə can sipər edən, sağlamlığını vətənin yolunda fəda edən II qrup əlil Arif İsmayılovun oğlu idi. Atdığı hər addımda bu bəlli olurdu.

Elnur II sinfə Şəki şəhər 19 nömrəli tam orta məktəbdə gedib. İbtidai sinfi bitirdikdən sonra təhsilini Şəki şəhər 8 nömrəli tam orta məktəbdə davam etdirib. Elnur eyni zamanda IV sinifdən IX sinfə qədər Şəki şəhər 3 nömrəli Musiqi məktəbində qarmon ixtisası üzrə təhsil alıb. IX sinfi bitirdikdən sonra müəyyən səbəblərdən təhsilini davam etdirə bilməyib.

Onun gözəl ürəyi var idi. Elə dünyaya da könül gözü ilə baxırdı. Bir gün hər şeyin çox gözəl olacağına olan ümidini heç vaxt itirmirdi. Bir gün vətən azadlıq sözü ilə bəzənib daha da gözəlləşdi. O gözəlliyi bəxş edən şəhid nurlarından biri də Elnur oldu.

Elnur İsmayılov 5 aprel 2019-cu ildə müddətli həqiqi hərbi xidmətə gedib. İlk olaraq Cəlilabad rayonu Göytəpə şəhərində yerləşən N saylı hərbi hissədə xidmətə başlayan Elnur sonra Ağcabədi rayonunda yerləşən N saylı hərbi hissəyə göndərilib. Daha sonra isə xidmətini Haramı düzündə yerləşən N saylı hərbi hissədə davam etdirib.

Elnurun xidmətinin ilk altı ayında ailəsi üç dəfə yanına gedib. Son dəfə 2019-cu ilin oktyabr ayında məzuniyyətə gedən Elnur daha sonra pandemiya səbəbindən ailəsi ilə görüşə bilməyib. Xidmətini uğurla başa vuran Elnur oktyabrın 1-də evinə dönəcəkmiş. Valideynləri onun dönüşü üçün təzə geyimlər alıb göndərib və tədarük görüblər. Lakin vəziyyət dəyişib. Sentyabrın 25-də Elnur valideynləri ilə danışan zaman ***"Atam gedən yolu gedəcəm"*** deyib. Sentyabrın 27-də müharibə başlayan zaman Elnur dediyi kimi, atası Arif müəllimin getdiyi yolu gedib. Füzuli rayonu istiqamətində gedən döyüşlərdə iştirak edib. Son zəngi zamanı ***"10 gün mənə zəng çatmasa, axtararsınız"*** deyib.

Elnur döyüşlər zamanı böyük şücaətlər göstərib. Bu barədə məlumatı Elnur şəhid olduqdan sonra döyüş yoldaşları deyib. Silahdaşlarının "Rembo" ləqəbi ilə çağırdıqları Elnur sentyabrın 29-da dəstəsinin mühasirədən çıxmağının bilavasitə səbəbkarı olub. Silah-sursatları qurtardığını görən Elnur öz canını heçə sayaraq gizlin yolla düşmənə tərəf irəliləyir. Düşmənin silahlarını əldə etməyi bacaran qəhrəman düşmənin bir neçə canlı qüvvəsini məhv edir və əldə etdiyi silahları dəstəsinə çatdırır. Onun sayəsində 60 nəfərlik heyət xilas olmağı bacarır. O şücaətinə görə Fəxri fərmanla təltif olunacağı deyilir. Lakin o anı yaşamaq Elnura qismət olmur. Oktyabrın 12-də günorta saatlarında Füzuli rayonunun Alxanlı kəndi istiqamətində başından zərbə alaraq qəhrəmancasına şəhid olur.

Günlərlə Elnurdan zəng gəlmədiyini görən ailəsi onu axtarmağa başlayır. Xəstəxanalarda, morqlarda onun izinə rast gəlinmir. Oktyabrın 19-da atası Elnurdan son dəfə zəng gələn nömrəyə zəng edir. Əvvəlcə Elnuru tanımadıqları cavabı verilsə də, az sonra Elnurun günlər öncə Füzulidə şəhid olduğu deyilir. Ata və qohumları Füzuli rayonundakı morqdan Elnurun nəşini tapırlar. 21 oktyabrda Elnurun nəşi doğma diyarına gətirilir. Səhəri gün evinin müvəqqəti qonağı olan Elnur son dəfə çiyinlər üstə bir yola çıxır.



Bir zamanlar Aprel döyüşlərində şəhid olan adaşı İsgəndərov Elnur İsgəndər oğlunun Şəki şəhər II Şəhidlər xiyabanındakı məzarı önündə dediyi vəsiyyəti yerinə yetirilir.

***– Hər kəsə şəhid olmaq qismət olmur. Bir gün mənə də şəhid olmaq qismət olsa, məni burada dəfn edin.***

Elnur arzusuna çatdı. Şəhid kimi...

Əsgər İsmayılov Elnur Arif oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Cəsur döyüşçü" medalı və "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilib.

Elnurun adının əbədiləşdirilməsi üçün onun adına üç bulaq inşa edilib.

## ŞƏHİD ELNUR

Bir gün bu dünyadan köçəcək hamı,
Allah alacaqdır verdiyi canı.
Əbədi var olmaq mükafatıdır,
Şəhidtək tərk etsə hər kim dünyanı.

Dünyanın həm əyri, həm düzü vardır,
Hər zülmət gecənin gündüzü vardır.
Elnur, sənin nakam ömür qismətin,
Ürəkdə nisgildir, qəmdir, qübardır.

Gəlişin arzuda belə deyildi,
Bütün arzuları o gəliş sildi.
On bir ay yoluna göz dikənlərin,
Tabutda gəlişin qəddini əydi.

Canı heçə sayıb can xilas etdin,
Qəhrəman oğultək imdada yetdin.
Bu fani dünyaya vida eləyib,
Füzuli yurdundan cənnətə getdin.

***02.03.2023***





**MƏMMƏDOV RÖVŞƏN MÜŞFİQ OĞLU**

**ƏSGƏR**

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## DÖNÜŞÜ OLMAYAN DÖYÜŞ

*Hər insanın çətinliyi, kədəri, acısı olur. Bəzi insanlar acıya belə gülürlər. Onların gülüşlərindən həyat eşqi, səmimiyyət və sevgi duyulur. Ürəklərində nə qədər kədər olsa da, o insanlar ətrafa gülüş saçarlar. Sanki bir günəş kimi könülləri isidərlər. Varlıqları ən böyük xoşbəxtlik olar həmin insanların. Bəs yoxluqları? Onların olmadığı həyatda yaşamaq bu dünyanın ən böyük sınağı olar geridə qalanlara. Kim əvəz edə bilər o insanları? Hansı sevinc əvəz edə bilər Rövşənin gülüşündən cilalanan gülüşlərin bəxş etdiyi sevincləri?*

Ailəsinin sevinc payı olan Məmmədov Rövşən Müşfiq oğlu 29 oktyabr 1995-ci ildə Mingəçevir şəhərində dünyaya göz açıb. Özündən böyük İlkin adlı qardaşı olub. Rövşən dörd yaşında olarkən ailəsi ilə birlikdə Rusiyanın Volqoqrad şəhərinə köçüb. Elə məktəbə də qürbət ölkədə gedib. 2002-ci ildə Volqoqrad şəhər 37 nömrəli tam orta məktəbə gedib. 2007-ci ildə ailəsi ilə birlikdə vətənə dönüb. Sumqayıt şəhər 4 nömrəli tam orta məktəbdə təhsilini davam etdirən Rövşən 2013-cü ildə məktəbi bitirib. VII sinifdə oxuyan zaman "Sumqayıt Dəniz" KVN komandasında iştirak edən Rövşən izləyicilərin ürəyinə yol tapıb.

Rövşən təhsilə önəm verən gənclərdən biri olub. 2013-cü ildə Azərbaycan Dövlət Neft Sənaye Universitetinin (ADNSU) "Geofizika mühəndisliyi" fakültəsinə daxil olub. 2017-ci ildə universiteti bitirib. Elə həmin ilin iyul ayında

müddətli həqiqi hərbi xidmətə gedib. Qeyrət qalası hesab olunan Naxçıvanın Culfa və Şahbuz rayonlarında yerləşən N saylı hərbi hissələrdə xidmət edib. Qumbaraatan işini icra edib. Xidmətinin altıncı ayında məzuniyyətə gedib. İllərlə zəhmət çəkdiyi diplomunu da həmin vaxt alıb. 2018-ci ilin iyul ayında birillik xidmətini başa vurub.

Rövşən müasir gəncliyin gələcəyə töhfə verən bir nümayəndəsi idi. Sumqayıt Texnologiya Data Mərkəzində (STDC) "Mühəndis operator" kimi fəaliyyətə başlayan Rövşən qısa müddətdə özünü sübut edir. Müharibəyə gedən günə qədər həmin işdə işləyir.

Rövşən və qardaşı İlkin müharibənin nə demək olduğunu əmiləri Qədirov Abdulla Hacıalı oğlundan öyrənmişdilər. 1994-cü ildə Ağdərədə, Tülkü dərəsi adlanan yerdə Abdulla Qədirov ağır yaralanır. Həmin vaxt onun şəhid olduğunu düşünürlər və şəhid nəşlərinin yanına qoyurlar. Bir müddət sonra onun həyatda olduğu məlum olur. Hər dəfə Rövşən bu əhvalatı dinləyən zaman gülən gözləri qəmə qərq olur. Rövşən əmisinin yaralandığı eyni yerdə şəhid olacağını bilmir. Həyat çox qəribədir.

27 sentyabrda hər bir azərbaycanlının o günə qədər heç vaxt yaşamadığı gün oldu. Müharibə başlayan günün səhəri Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Mingəçevir Şəhər İdarəsindən İlkinə və Rövşənə müharibəyə gedəcək çağırışçılar sırasında olduqları barədə məlumat verilir. Elə həmin gecə hər iki qardaş Mingəçevir şəhərinə gedirlər. 29 sentyabrda qardaşlar cəbhənin ayrı-ayrı istiqamətlərinə yola düşürlər. İlkin Goranboy rayonunun Ağcakənd kəndindən, Rövşən isə Tərtər rayonu istiqamətindən döyüşə qatılır. Qardaşlar ata-analarından döyüşdə olduqlarını gizlədirlər. Rövşən oktyabrın 10-da zəng etdiyi zaman Mənzərə ana İlkin ilə iki gündür danışa bilmədiklərini və narahat olduqlarını deyir. Anasının fikrini yayındırmaq məqsədi ilə Rövşən yenə zarafatlarından qalmır. ***"Ana, get maaşımı al"*** deyəndə Mənzərə ana kövrələrək "Ay oğul, siz yoxsunuzsa nəyimə gərəkdir pul?" deyib. Sən demə, həmin gün Rövşən vida üçün anasına zəng edibmiş. Çünki onlara çox çətin bir döyüşə girəcəkləri barəsində tapşırıq verilibmiş. O döyüşün adı **"Dönüşü olmayan döyüş"** imiş. Ona görə də o döyüşə getmək istəyənlərə "Kim o döyüşə girmək istəyirsə, irəli çıxsın" deyilib və könüllü getmək istəyənlər seçilib. Həmin o könüllü seçilən 16 nəfərdən biri də Rövşən olub. Oktyabrın 12-də döyüşə girməzdən öncə xatirə videosu çəkən dəstədən geriyə bir o video qalıb. Oktyabrın 13-də dan yeri sökülmədən həmin o döyüş başlayıb. Şəhid, qazi qanları ilə yuyulan Ağdərənin Tülkü dərəsi adlanan yerdə Rövşən həm öz qisasını, həm bütün şəhidlərin qisasını, həm də əmisinin qisasını alıb. Həmin döyüş zamanı düşmən tərəfin atdığı qrantamyotun partlaması



nəticəsində 16 nəfər aldıqları qəlpə yaralarından şəhid olublar. Neytralda qaldıqları üçün onların nəşlərini aram-aram götürmək mümkün olub. Rövşənin nəşini digər yoldaşlarının nəşləri ilə birlikdə oktyabrın 17-də götürə biliblər. Oktyabrın 19-da şəhidin Sumqayıtda yaşayan ata-anasına Goranboydakı xəstəxanaya getmələri deyilib. Eyni zamanda ailənin digər övladı İlkinin döyüşdən uzaqlaşdırılması qərara alınıb. İlkinə bu barədə dedikləri zaman baş verənlərdən xəbərsiz olduğu üçün ata-anasının onu uzaqlaşdıra biləcəyini düşünüb. Bu ona pis təsir edib. Anasına zəng edən zaman Rövşənin yaralandığını öyrənib. Dərhal o da xəstəxanaya üz tutub. Müşfiq müəllim şəhid oğlunun nəşini görən an onun Rövşən olduğunu təsdiqləsə də, prosedur qaydalarına əsasən analiz verməli olub. Bu bir ata üçün çox çətin bir sınaq olub. Xəstəxananın həyətində duyduqlarının şokunu yaşayan Mənzərə ana döyüşdən sağ gələn İlkinə sarılacaq gücdə olmayıb. Bu yaşananlar bir ana üçün böyük imtahan olub.

Analizin cavabı çıxana qədər ailə gözləmək məcburiyyətində qalır. Kiçik də olsa, bir ümid düşüncələrin dərinində yer alır. Ancaq oktyabrın 23-də o ümid doğulmadan ölür. O gecə Şəki camaatı Rövşənin şəhid xəbəri ilə sarsılır. Oktyabrın 24-də səhər Mingəçevir şəhərində doğulan, Sumqayıt şəhərində böyüyən, lakin ata-baba yurdu Şəki olan şəhidin cismi valideynlərinin istəyi ilə Şəki rayonunun Böyük Dəhnə kəndində torpağa tapşırılır.

Əsgər (Çağırışçı) Məmmədov Rövşən Müşfiq oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin əmrinə əsasən şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Cəsur döyüşçü" medalı və "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Rövşən və qardaşı müharibəyə gedən gün onlara "Sizə bir şey olsa, ölərəm" deyən əmiləri Qazi Abdulla Qədirov oğul kimi sevdiyi Rövşənin itkisi ilə öncə sağlamlığını, sonra həyatını itirdi.

Rövşənin gedişindən sonra onun gülüşü xatirələrdə qalıb. O xatirələr bəzən güldürür, bəzən ağladır.

## ŞƏHİD RÖVŞƏN

Gülüşün qısılıb xatirələrdə,
Yetim uşaq kimi göz yaşı tökür.
Hər dəfə məzarın önündən keçən,
Buz olan məzarı cismiylə bükür.

Bu necə həsrətdir, bu necə məlal,
Elə bil ağlayır göylərin gözü?!
Bir zaman varlığın təsəlli idi,
Donub şəkillərdə gülüşün, gözün.

Sən gözəl bilirdin qanlı savaşın,
Ömürdən əbədi silinmir izi.
Əminin qanının hopduğu torpaq,
İllər sonra duydu nəfəsinizi.

Alıb qisasını axan qanların,
Bərqərar elədin haqq-ədaləti.
Rövşən, sən şəhidtək obana döndün,
Sağ dönmək İlkinin oldu qisməti.

***02.03.2023***





**İBRAHİMLİ MƏHƏRRƏM
ŞƏRİF OĞLU**

**ƏSGƏR**

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## VƏTƏN ÜÇÜN BİTƏN ÖMÜR

*Bir gün ölüm şərbətini hər insan dadacaq. Bəzi insanlar üçün o şərbət acı olacaq. Şəhidlər üçünsə ölüm şərbəti şirin olur. Çünki onlar canlarını tapşırdıqları zaman acı çəkmirlər. Allahın verdiyi canı ağrısız-acısız təslim etmək elə Allahın ən böyük mükafatıdır. O seçilmişlərin Allah yanındakı məqamlarını düşündükcə insan o məqam sahiblərinə təkrar-təkrar sevdalanır. O məqama ucalan müqəddəs şəhidlərin vətənə sevdalandıqları kimi. Bütün çətinliklərə rəğmən şəhidlərin qəlbindəki o sevgi heç vaxt azalmır. Elə Məhərrəmin qəlbindəki vətən sevgisi kimi. Bəs bu sevginin sahibi necə bir insan idi? Necə bir ömür yaşamışdı? Mən də bu suallara cavab tapmaq üçün Məhərrəmin ömrünün izinə düşdüm. Qısa, ancaq şərəfli ömrünün izinə.*

İbrahimli Məhərrəm Şərif oğlu 9 aprel 2001-ci ildə Şəki rayonunun Oxud kəndində dünyaya göz açmışdı. Ailənin ilk övladı Məhərrəm idi. Özündən sonra Ramil, Elşən və Elnur dünyaya gəlmişdi. Dörd qardaş əl-ələ verib ata-ananı sevinclə əhatələmişdilər.

Məhərrəm 2008-ci ildə Şəki rayon Oxud kənd tam orta məktəbinə qədəm qoymuşdu. 2019-cu ildə məktəbi bitirmişdi. Məktəbi bitirdikdən bir müddət sonra vətəndaşlıq borcunu yerinə yetirmək üçün müddətli həqiqi hərbi xidmətə yollanmışdı. Goranboy rayonunda yerləşən N saylı hərbi hissədə xidmət etmişdi.

Pulemyotçu idi. Xidmətinin altıncı ayında səhhətində problem yarandığı üçün iyirmi beş gün hərbi hospitalda müalicə almış, sonra evlərinə göndərilmişdi. Sağaldıqdan sonra xidmətini davam etdirmək üçün hərbi hissəyə qayıtmışdı.

Oğlu əsgər olan bütün analar kimi Zümrüd ana da oğlunun əsgərlikdən dönəcəyi günü səbirsizliklə gözləyirdi. Artıq həmin günə sayılı günlər qalırdı. Zümrüd ana oğlunun gəlişinə tədarük görürdü. Cəmi dörd gün sonra oktyabrın 1-də Məhərrəm xidmətini başa vurub evə qayıdacaqdı. Ancaq heç nə düşünüldüyü kimi olmadı. Çünki sentyabrın 27-də müharibə başladı. Məhərrəm də müharibə başlayan ilk andan döyüşə qatılan əsgərlərdən biri oldu.

Məhərrəm oktyabrın 1-dən 6-na qədər demək olar ki, hər gün atasına zəng edib. ***"Narahat olmayın, qabağa gedirik"*** deyərək atasına həm ümid, həm də sevinc bəxş edib. Oktyabrın 6-da olan zəng Məhərrəmdən gələn sonuncu zəng olub. Tərtər, Ağdərə, Suqovuşan istiqamətində hərbi əməliyyatlarda iştirak edən Məhərrəmin sonuncu döyüşü oktyabrın 7-də Suqovuşanda olub. Həmin döyüşdə Məhərrəm minamyot atəşinə tuş gəlib.

Artıq günlər idi Məhərrəmdən zəng gəlmirdi. On gün Məhərrəmdən xəbər ala bilməyən ailəsi hər yerdə onun axtarışına çıxır. Bir həkim şəhidin şəkilin paylaşsa da, doğulduğu kəndin adını səhv yazdığı üçün o şəhidin Məhərrəm olduğuna tərəddüd edilir. Ancaq Şərif müəllimdən götürülən analiz acı gerçəyi gün üzünə çıxarır. Oktyabrın 25-də Məhərrəmin şəhid olduğu təsdiq olunur.

Bəzi insanların qismətləri bənzər və bərabər yazılır. Ömürlərini bir yaşayıb bir bitirən, bir zamanlar toyları bərabər şənləndirən, dost olan, eyni gündə Oxud kəndinə şəhid kimi gələn və eyni vaxtda dəfn edilən Məhərrəm İbrahimli və Asif Əhmədov kimi. Onlar heç ayrılmadılar. Nə bu həyatda, nə də əbədiyyətdə.

Ailəsi, doğmaları əsgər kimi dönəcəyini gözləyən Məhərrəm 25 oktyabrda şəhid kimi evinə döndü. Elə həmin gün Oxud kənd məzarlığında (ziyarətgah sayılır) torpağa tapşırıldı.

Əsgər İbrahimli Məhərrəm Şərif oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Cəsur döyüşçü" medalı və "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Şəhidin ailəsi yaşadıqları Oxud kəndində "Şəhid Məhərrəm bulağı" inşa etdirib.

Şəhid Məhərrəm bu dünyada iz qoyan bir qəhrəman kimi xatırlanır və xatırlanacaq. Çünki şəhidlərin cismi torpağa köçür, adları qəlblərə yazılır.



## ŞƏHİD MƏHƏRRƏM

Sən şəhadəti daddın,
Ömrünün gənc çağında.
Şəhid qoxun duyulur,
Cənnət, vətən bağında.

Arzuların süd qoxan,
Körpə ikən boğuldu.
Axan pak qanın ilə,
Qara torpaq yoğruldu.

O torpağa dikildi,
Qeyrət adlı bir fidan.
O fidanın bəhrəsi,
Olacaq güvən, inam.

Hər kəs əmanət etməz,
Azadlığı millətə.
Məhərrəm, Şəhid olub,
Üz tutmusan cənnətə.

Dostunla eyni gündə,
Şəkiyə şəhid döndün.
Uğrunda can verdiyin,
Bayrağıma büründün.

***03.03.2023***



ƏHMƏDOV ASİF
VASİF OĞLU

ƏSGƏR

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## AZADƏ SEVGİNİN CARÇISI

***Mənə yaqin belə qismət rəva bilməzdi Xuda,***
***Alın yazım silinib alnımı sildiyimə görə.***
***Dərdimi söyləsəm insana deyər qeyrisinə,***
***Qoymaram kimsə üzülsün mən üzüldüyümə görə.***
***Asim, mən bir ömür verdim hədər, öləndəsə,***
***Vətən uğrunda ölüm, yanmayım öldüyümə görə.***

*Elə insanlar var ki, düşüncələri insanı valeh edir. Ürəklərindəki azadə vətən sevgisini dilə gətirdiklərində gözlərindəki ifadəni ifadə edəcək kəlmə tapılmır. Yaşamağı da vətən naminə arzu edirlər, ölməyi də. Asifin son zəngində dilə gətirdiyi bu qəzəldən onun vətənə olan məhəbbəti duyulur. O vətən üçün doğulmuşdu. Cəmi 19 il yaşadı. Sonra cənnətdə doğuldu. Sonsuz ömür yaşamaq üçün.*

Əhmədov Asif Vasif oğlu 4 aprel 2001-ci ildə Şəki rayonunun Oxud kəndində dünyaya göz açmışdır. Ailədə dörd övlad (Allahverdi, Asif, Mədinə və Ağasif) olmuşdurlar.

Asif aktiv uşaq olub. Elə ona görə də məktəbə bir il tez, 2006-cı ildə gedib. Şəki rayon Nurpaşa Hümmətov adına Oxud kənd tam orta məktəbində təhsil almağa başlayıb. 2017-ci ildə məktəbi bitirib.



Asif daxili dünyası zəngin olan bir gənc idi. Ruhundan qanadlanan sətirlər ürəklərə qonurdu. Bir zamanlar könüllüləri fəth edən həmin şeirləri, meyxanaları dinləyənlər indi göz yaşı tökür. Onun sözü, onun səsi, onun izi indi daha ürəklərdədir.

Hər zaman ***"Vətən uğrunda ölüm"*** deyən Asif 2019-cu il aprelin 11-də müddətli həqiqi hərbi xidmətə gedir. Sumqayıt şəhərində yerləşən N saylı hərbi hissədə üç ay xidmət etdikdən sonra Pirəkəşkül qəsəbəsində yerləşən N saylı hərbi hissədə xidmətini davam etdirir.

Asifin ürəyində dünya boyda həsrət yer almışdı. Amansız xəstəliyin qurbanı olan atasının itkisi onu dərindən sarsıtmışdı. Hərbi xidmətdən atasının ilinə gəlmək onun üçün çox ağrılı idi. Bu dünyada atanın özünü yox məzar daşını qucaqlamaq bir övladın ən böyük sınağıdır.

Mahirə ana oktyabrın gəlişini səbirsizliklə gözləyirdi. Evi təmir etdirmişdi ki, oğlunun gəlişinə cəm olan qonaqları rahat şəraitdə qarşılasın. Oktyabrın 1-də Asif hərbi xidmətini başa vurub dönəcəkdi. Anası onun gəlişi üçün Mövlud oxutduracaqdı. Ancaq Mahirə ananın qismətində oğlunun ruhuna Quran oxutdurmaq var imiş.

Sentyabrın 26-da Asif zəng etdiyi zaman təlimlərdə iştirak etdiyini və edəcəyini deyib. Müharibə barəsində bir kəlmə də dilə gətirməyib. Sentyabrın 27-də müharibə başlayan zaman Mahirə ananın narahatlığı başlayıb. Zəng etdiyi zaman gah Goranboyda, gah da başqa bir yerdə olduğunu deyən Asif müharibədə olduğunu doğmalarından gizlədib. Bir gecə qardaşı Allahverdiyə zəng etdiyində ***"Mən də müharibədəyəm"*** deyib. Qardaşının sözlərindən sonra Allahverdi özünə yer tapa bilməyib. Son dəfə oktyabrın 21-də səhər zəng edib.

Xocavənd, Füzuli istiqamətində mübarizə aparan Asif oktyabrın 24-də Füzuli rayonunun Gecəgözlü kəndində boğazından aldığı qəlpə yarası nəticəsində şəhadətə ucalıb.

Üç gün Asifdən xəbər ala bilməyən doğmalarının nigaranlığı anbaan artır. Oktyabrın 24-də axşam Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəki Rayon İdarəsinə, icra nümayəndələrinə Asifin şəhid olduğu xəbəri verilir. Lakin onlar ailənin gecəni narahat olmamaqları üçün xəbəri səhər deməyi düşünürlər. Lakin get-gedə yolboyu artan insan izdihamı, gəlib-gedənlərin sayının artması ailəni şübhələndirir. Mahirə ana kimdən soruşursa, heç kim ona həqiqəti deyə bilmir. İcra nümayəndəsinin "Ana, Allah səbrinizi versin" deməyi ilə ananın fəryadı gecənin səssizliyini pozur.

Oktyabrın 25-də Oxud kəndi iki şəhidini eyni anda qarşılayır. Ayrılmaz dostlar olan Asif və Məhərrəm Oxud kənd məzarlığında ziyarətgah sayılan yerdə torpağa tapşırılır.

Əsgər Əhmədov Asif Vasif oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı və "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilib.

Oxud kəndində Asifin etibarlı sinif yoldaşlarının və ailəsinin dəstəyi ilə bulaq inşa edilib.

## ŞƏHİD ASİF

"Vətən uğrunda ölüm"
Söyləyirdin hər zaman.
Ordunun zəfərinə,
Vardı qəlbində güman.

Vəsf edirdin vətəni,
Şeirinlə, sözünlə.
Arzundu Qarabağı,
Seyr edəsən gözünlə.

Arzuna çatdın, Asif,
Süzdün vətən bağında.
Azadə sevgi duyduq,
Şəhadət sorağından.

"Yaşamaq" kəlməsini,
Doya-doya demədin.
Vətəni sevdiyintək,
Sən bir yarı sevmədin.

Tək vətəni görürdün,
Asif, könül gözünlə.
Bir dadımlıq yaşadın,
Bu dünyanın özündə.

***04.03.2023***





**MUSAYEV RƏŞADƏT VÜQAR OĞLU**

**ƏSGƏR**

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## RƏŞADƏTLİ ORDUNUN RƏŞADƏTİ

*Vətənin qeydinə qalmaq, keşiyini çəkmək, dar günündə imdadına yetişmək Musayevlərin ən ümdə mətləbləri idi. Hələ 1993-cü ildə müddətli həqiqi hərbi xidməti vətənin işğal dövrünə düşən Vüqar Musayev dörd il Murov istiqamətində düşmənə qarşı mübarizə aparıb. O zaman vətənin işğalı qaçılmaz olub. Elə dərd ilə ömür sürüb Vüqar. Bir zamanlar işğal olunan torpaqların azadlığı uğrunda bu nəslin üç nümayəndəsi, Elşən Musayev, Oruc Kərimov və Rəşadət Musayev eyni zamanda mübarizə apardılar. Rəşadətin qismətinə şəhidlik, digər iki qəhrəmanın qidmətinə isə şahidlik yazıldı.*

Qəhrəman atanın qəhrəman oğlu Musayev Rəşadət Vüqar oğlu 2002-ci ildə Şəki rayonunun Baş Göynük kəndində anadan olmuşdur. Ailədə üç övlad (Münəvvər, Rəşadət, Musa) olmuşlar. Babası hərbi xidməti zamanı dünyasını dəyişən silahdaşı Rəşadətin adını ona əmanət etmişdi. Rəşadət böyüdükcə adının tam haqqını vermişdi. Cəsurluğu da, ömrü də adını daşıdığı əsgərlə eyni olmuşdu.

Vüqar və Samirə xanım övladlarına körpəlikdən vətən sevgisini aşılamış, bu sevgi isə Rəşadətin hər addımına yansımışdı. 2008-ci ildə Şəki rayon Baş Göynük kənd 1 saylı tam orta məktəbinə qədəm qoyan Rəşadət məktəbdə oxuduğu zaman da vətənpərvərliyi ilə seçilmişdir. Üçrəngli şanlı bayrağı çiynində qürurla daşıyan

məktəbli VI sinifdə oxuyarkən Şəhidlər xiyabanında durub ***"Qarabağı mütləq azad edəcəyik"*** demişdi.

Rəşadət hər zaman yaşından böyük kimi davranıb. Məktəbi bitirən zaman onun düşüncələri sanki 18 yaşı yox, 30 yaşı varmış kimi hiss etdirib.

Bizim adətlərimizdən biri də bir evdən əsgər çıxanda onu şadyanalıqla yola salıb, şadyanalıqla da qarşılamaqdır. Rəşadət müddətli həqiqi hərbi xidmətə gedən zaman pandemiya səbəbindən ata-anası onu ürəkləri istəyən kimi yola sala bilmirlər. Bir neçə dostlarını başına yığan Rəşadət ***"Şənlənin, bəlkə də, son görüşümüzdür, bəlkə, qayıtmadım"*** deyib.

2020-ci il iyulun 3-də müddətli həqiqi hərbi xidmətə yollanan Rəşadət ilk olaraq Ağcabədi rayonunda yerləşən N saylı hərbi hissədə xidmət edir. İki ay sonra Füzuli rayonunda yerləşən N saylı hərbi hissəyə göndərilir. Orada cəmi on gün xidmət edə bilir. Sonra məlum məsələ olur.

26 sentyabrda atası ilə danışır. Həmkəndlisi ilə eyni yerdə olduğunu deyir. Atası buna sevinir. Lakin o sevinc çox çəkmir. Səhəri gün televiziyada düşmənin təxribatının qarşısını alan Azərbaycan Ordusunun işğal altında olan torpaqlarımızı azad etmək üçün irəlilədiyi xəbəri verilir. Atası müharibədə iştirak etdiyi və Rəşadətin qorxusuz biri olduğunu bildiyi üçün olacaqların hara varacağını təxmin edir. Bir həftə Rəşadətlə əlaqə saxlamaq mümkün olmur. Sonra birtəhər Rəşadətin komandiri ilə danışmaq mümkün olur. Komandir "Xocavənd istiqamətində irəliləyirik. Rəşadət mənimlədir narahat olmayın" deyir. Vüqar oğlunun döyüşdə olduğundan tam əmin olur. Oktyabrın 23-də səhər 09:00-da Rəşadət özü zəng edir. ***"Qorxmuram, mənə görə narahat olmayın"*** deyir. "Oğul, elə sən qorxusuzsan deyə mən qorxuram. Bilirəm ki, sən özünü irəli atacaqsan" deyən ata oğlunu Allaha əmanət edir.

Oktyabrın 24-də Xocavənd rayonunun Köndələnçay adlanan ərazisində Rəşadətgilin yanına minamyot düşür. O anda minamyotun qəlpəsi onun ürəyinə sancılır. Həmin an Rəşadətin ürəyi əbədi dayanır.

Nəslin üç nümayəndəsinin müharibədə olması sanki hər an şəhid xəbəri gələcəyini hiss etdirirdi. O xəbər 24 oktyabrda gəldi. Bacısı oğlundan bir xəbər olub-olmadığını öyrənməyə gedən ataya icra nümayəndəsi zəng edir. Vüqar müəllim zəngi aça bilmir. Zəngi açmadan veriləcək xəbəri təxmin edir. Növbəti zəngə birtəhər cavab verir. "Hardasınız?" sualına "Gəlirəm" deyən ata evinin yolunu tutur. Artıq kəndin girişində izdihamı görən atanın düşüncəsində "Axı mənim oğlumun cəmi 18 yaşı var idi. Axı mən hələ onun zəhmətini çəkməmişdim. Axı mən onun gəlişini başqa cür gözləyirdim. Kaş ki oğlumun yerinə mən döyüşərdim. Mən qanlı savaşın nə demək olduğunu yaxşı bilirəm" fikirləri uğuldayırdı.



Həmin gecə Rəşadətin nəşi Şəkiyə gətirilir. Ertəsi gün Şəhid bacısının qardaşı ilə son dəfə vidalaşmağı üçün onun gəlişini gözləyirlər. Qəlblərə dağ çəkən son vidadan sonra şəhidin nəşi 25 oktyabrda Şəki rayon Baş Göynük kənd məzarlığında dəfn edilir.

Əsgər Musayev Rəşadət Vüqar oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin əmrinə əsasən şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Cəsur döyüşçü' medalı, "Xocavəndin azad olunmasına görə" medalı, "Füzulinin azad olunmasına görə" medalı və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

Rəşadətin və doğmalarının çata bilmədikləri arzular çoxdur. Hər zaman övladlarını hərbi formada görməyi xəyal edən valideynləri Rəşadəti hərbi formada görə bilmədi. Onların qəlb nisgilindən biri də budur.

Bir zamanlar xeyirxahlığı, insanlığı ilə qəlblərə yol tapan Rəşadət şəhid kimi də hər kəsin qəlbinə yol tapdı. Şəhidin adını yaşatmağa çalışanlar çoxdur. Rəşadətin bir zamanlar yaşadığı küçəyə adı verilib və adına bulaq inşa edilib.

## ŞƏHİD RƏŞADƏT

Gözlərin aynatək hey yansıdırdı,
Qəlbində var olan vətən sevgisin.
Çox zaman ömrünün izahı olar,
İnsan daşıdığı ömürlük isim.

Rəşadət, adında qürur var idi,
Bir də ki əzminin dönülməzliyi.
Sən qəbul etmədin körpə yaşından,
Qarabağ dərdini, vətənsizliyi...

Bir zaman atanın sipər olduğu,
Vətənə canını sipər elədin.
Bəlkə də, Allahdan ömrün boyunca,
Şəhadət zirvəsin qəlbdən dilədin.

Dönüşü olmayan həmin zirvəyə,
Ucalmaq hər kəsin qisməti olmaz.
Rəşadət göstərən qəhrəmanları,
Bu vətən, bu millət əsla unutmaz.

***11.03.2023***





**HƏMİDOV VASİF
NATİQ OĞLU**

**ƏSGƏR
(*Könüllü*)**

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## KÖNÜLLÜ QƏHRƏMAN

*Vətənə sahib çıxmaq, vətəni qorumaq bu vətənin havasını, suyunu udan hər bir vətəndaşın vətəndaşlıq borcudur. Vətəni tək hərb peşəsini icra edənlər qorumamalıdır. Əslində hər birimiz bir hərbçi olmalıyıq. Yeri gəldiyi an vətənə sipər olmağı bacarmalıyıq. "Can hər şeydən şirindir" fikrini "Vətən candan şirindir" fikri ilə tamamlamalıyıq. Bu fikri şəhidlərimizin vətəni candan üstün tutmaqları aydın şəkildə izah edir. O şəhidlərdən biri də Həmidov Vasif Natiq oğludur. Hərbçi olmadığı halda könüllü olaraq canını vətənə sipər edən Vasif.*

Könlünün sevgili məhbubu vətən olan Həmidov Vasif Natiq oğlu 4 iyun 1987-ci ildə Şəki şəhərində dünyaya göz açmışdı. Natiq kişi və Nailə xanımın ümidləri ilk övlad payları Vasiflə cücərməyə başlamışdır. Daha sonra ailənin digər üzvü Elvin dünyaya gəlmişdi. Bu ailənin xoşbəxtliyi iki oğul övladının varlığı olmuşdur. Zaman ötmüş hər iki övlad böyümüşdü.

Vasif 1993-cü ildə məktəbli yaşına çatan zaman Şəki şəhər 19 saylı tam orta məktəbə gedib. Onun uşaqlıqdan ən böyük arzusu hərbçi olmaq olub. IX sinfi bitirdikdən sonra Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olmaq istəyib. Lakin bu arzusuna çata bilməyib.

Vasif üçün vətənə xidmət etmək vacib şərt idi. O 2005-ci ilin iyul ayında müddətli həqiqi hərbi xidmətə getdiyi zaman böyük bir arzusuna çatıb. Gəncə

şəhərində yerləşən N saylı hərbi hissədə xidmət edib. 2007-ci ildə xidmətini başa vurub.

Vasif zəhmətkeş insan olub. Hər zaman çalışıb və halal zəhmətinin bəhrəsini dərib. Bir müddət fərqli-fərqli işlərdə işləyib. Kanal S-də operator vəzifəsində işləyən zaman bir gün efirlərdə onun haqqında danışılmasını arzu edib. Onun arzuladığı kimi bu gün efirlərdə Vasif **"KÖNÜLLÜ QƏHRƏMAN"** kimi tanıdılır.

Vasif 2015-ci il sentyabrın 7-də Fatma xanımla əhd-peyman bağlayıb. Bir ömür xoşbəxt olmağı diləyən sevənlərin ailə səadəti cəmi beş il çəkib. Müharibə onların da sevgisinin qatili olub.

Vasif ilk atalıq sevincini 22 may 2016-cı ildə Ayxan dünyaya gəldiyində yaşayıb. Oğlu ilə ötən hər an Vasifin ömrünün ən gözəl anları olub. 2020-ci il 14 martda Vasif qız atası olub. Nailənin dünyaya gəlişi ilə Vasifin sevincinə sevinc qatılıb. Lakin Nailə ata nəvazişinin şirin dadını cəmi altı ay dada bilib. Onun qismətinə atasını "Ata" kəlməsi ilə sevindirmək yazılmayıb. Böyüdükcə ən çox o duyğunun həsrətini çəkəcək Nailə.

2020-ci ildə Ermənistan ordusunun cəbhədə gərginliyin şiddətini artırması, iyul ayında Tovuz rayonu istiqamətində baş verənlər Vasifin önəmli bir addım atmasına səbəb olur. Həmin vaxt könüllü olaraq döyüşlərə qatılmaq istəyənlər sırasına o da öz adını yazdırır. Lakin hələ könüllülərə ehtiyac olmadığı, ehtiyac olduğu an çağırılacağı deyilir. Həmin çağırış sentyabrın 29-da gəlir. Vasif arzusuna çatır.

Vasif son dəfə övladları ilə birlikdə zaman keçirir. Gecəni səhərə qədər yatmayaraq övladlarını doya-doya qoxlayır. Sentyabrın 30-da sübh səhər oğlu Ayxanın əlindən tutub son dəfə evdən çıxır. Bağça yolunu yarıya qədər getdikdən sonra oğlu ilə, sevdikləri ilə vidalaşıb Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəki Rayon İdarəsinə gedir. Həmin gün Vasifin döyüş yolu Tərtər rayonu istiqamətindən başlayır.

Vasif ailəsi nigaran qalmasın deyə tez-tez zəng edib. Oktyabrın 19-da isə bir neçə dəfə zəng edib. Ailəsi narahat olmasın deyə *"Bizi geri göndərəcəklər"* deyib. Lakin əksi yaşanılıb. Onlar daha da irəli gedib. Tərtər, Ağdərə və Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak edən Vasif oktyabrın 20-də günəş şəfəqləri ilə cahanı aydınlatmamış yanlarına düşən minamyotun partlaması nəticəsində ağır yaralanıb. Həmin vaxt döyüş yoldaşları Vasifi atəş nöqtəsindən çıxararaq Bərdə xəstəxanasına göndəriblər. Daha sonra Ağcabədi rayonuna göndərilən Vasifin komadan ayılması üçün hər vəchlə çalışılıb. İki adda eyni xəstənin olması çaşqınlıq yaradıb. Lakin sonra aydın olub ki, bu Vasifin vəziyyəti daha kritikdir. Həkimlər məlhəmlərə, doğmaları dualara ümid ediblər. Lakin Vasifə nə məlhəm, nə dua əlac ola bilib. Allahın şəhadətə layiq bildiyi qəhrəman oktyabrın 26-da ruhunu Allaha təslim edib.



Oktyabrın 26-da Vasifin cismi Şəkiyə aparılıb. Oğlunun sağalıb qapıdan girəcəyi günü gözləyən Nailə ana oğlunun tabutda gəlişinə şahid olub. O gün daha bir ananın ürəyində ömrünün sonuna qədər sağalmayan yara açılıb.

Hələ "Ata" kəlməsini deyə bilməyən Nailə atasızlığın ağuşuna atılıb. Şəhid yarı bir ömür boyu övladlarına ana olmaqla yanaşı ata olmaq məcburiyyətində qalmağın ağırlığı altında əzildikcə əzilib. "Vasif, axı mən o qədər güclü deyiləm" deyən Fatma xanım xoşbəxtliyini o gün yar məzarında dəfn edib.

Hər zaman öpüb alnına qoyduğu bayrağı atasının məzarı önündə öpən Ayxan o an böyüyüb. Artıq onun uşaq xəyallarının rəngi dəyişib. Çünki qarşıda ömür boyu bitməyən atasızlıq imtahanından keçəcək...

Şəki şəhər II Şəhidlər xiyabanı Vasifin də son mənzilidir. Daha şəhidini sevənlər həmin xiyabanı ziyarətgah bilirlər.

Könüllü əsgər Həmidov Vasif Natiq oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Cəsur döyüşçü" medalı və "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Atasız böyüməyə məhkum olan Ayxan və Nailə üçün həsrət bitməyən duyğudur. Həyatı dərk etmədən atasını itirən Nailə atasının şəkilləri ilə danışır. "Ata, mən sənə həsrət qaldım" deyən qızcığaz ürəkləri dağlayır. Atasının şəkilləri qarşısına, məzarı önünə məktub yazıb qoyan Ayxan ata həsrətini məktublarla ovutmağa çalışır.

## ŞƏHİD VASİF

Vətən sinəsinə düşən addımın,
İzini küləklər, yağışlar öpür.
Elə bil göylər də sənə anadır,
Göylər anan kimi göz yaşı tökür.

Vasif, atasızlıq imtahanında,
Ayxanın, Nailənin kəsiri qalır.
Hər "Ata" kəlməsin duyduqlarında,
Körpə qəlblərindən nalə ucalır.

Bilirdin sənsizlik ağır olacaq,
Səni bir təsəlli bilən hər kəsə.
Vicdanın rahatlıq tapa bilməzdi,
Vətən dar günündə səni gözləsə.

Qanın çiləndiyi torpaq köksünə,
Yarının göz yaşı çilənir daha.
Elə lal sükuta qərq olan torpaq,
Şahiddir qəlbdəki naləyə, aha.

***09.03.2023***





## İSGƏNDƏRLİ SƏBUHİ YAŞAR OĞLU

ƏSGƏR

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## SƏRHƏDSİZ VƏTƏN SEVGİSİ

*Hər bir ölkənin sərhədlərinin olması və həmin sərhədlərin qorunması ən vacib şərtdir. Müharibə şəraitində olan və qonşuları hiyləgər olan Azərbaycanın sərhədlərinin mühafizəsinin təmin edilməsi üçün Dövlət Sərhəd Xidmətinin (DSX) zabit və əsgər heyəti hər zaman çalışır. Bütün qoşun növlərində olduğu kimi Dövlət Sərhəd Xidmətinin heyəti də hər an döyüşə hazırdır. Dəfələrlə sərhəddə baş verən təxribatların qarşısını alan qoşun növü Vətən müharibəsində də əzmkarlıq nümayiş etdirdi. Həmin döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhid olan əsgərlərdən biri də İsgəndərli Səbuhi Yaşar oğlu oldu.*

II Qarabağ müharibəsində I Qarabağ müharibəsinin iştirakçılarının yetirmələri qalibiyyət qazandılar. O qalib əsgərlərdən biri də Səbuhi oldu. O Səbuhi ki 1992-ci ildən 1997-ci ilə qədər Suqovuşan, Ağdərə, Kəlbəcər istiqamətində və ümumiyyətlə, vətənin düşmən atəşinə tuş gələn istiqamətlərində mübarizə aparan Yaşar Mustafayevin (Səbuhi babasının adını soyadı kimi daşıyıb) ocağında böyümüşdür.

Səbuhinin atası Şəkidən, anası isə Tərtərdəndir. Səbuhi 25 iyun 2001-ci ildə Tərtər rayonunda dünyaya göz açıb. Ailənin ikinci övladı olan Səbuhi ata-anasının və bacısı Lalənin istəklisi olub.

Səbuhi 2007-ci ildə Şəki şəhər 11 nömrəli tam orta məktəbə qədəm qoyur. Çox vətənpərvər, istiqanlı, tərbiyəli şagird olur. Ən çox vətənpərvərliyi ilə qəlblərə yol tapır. Hələ VI sinifdə oxuyarkən ata-anası ilə Tərtər rayonuna gedən zaman atasından onu döyüşdüyü yerləri gəzdirməsini xahiş edir. Yaşar düşmən tapdağına düşməmək üçün mücadilə etdiyi yerlərdə oğlunu gəzdirir və işğalına əngəl ola bilmədiyi yerləri uzaqdan-uzağa göstərə bilir. O zaman Səbuhinin ürəyi intiqamla döyünür. ***"Ata, sizin işğalına əngəl ola bilmədiyiniz torpaqları mən azad edəcəm"*** deyir. Həmin zaman Səbuhinin sözlərini duyanlar tərəddüd edirlər. Ancaq onlar əslində bir qəhrəmanın edəcəyini dilə gətirdiyinin fərqinə varmırlar. X–XI sinfi Şəki şəhər 12 nömrəli tam orta məktəbdə oxuyan Səbuhi 2018-ci ildə məktəbi bitirir. Həyəcanla və səbirsizliklə həqiqi hərbi xidmətə gedəcəyi günü gözləyir.

Gülnarə ana Səbuhi ilə hər zaman fəxr edib. Hər zaman bir oğul kimi vətəni uca tutan övladın anası necə qürur duymaya bilərdi ki? Elə oğlunu vətənə olan borcunu ödəməyə yola salanda da qürurlu idi ana. Bir az da həsrətli. Axı gözünün ağı-qarası bircə oğul payından ayrılırdı. Qohum-əqrəbanı başına yığıb Səbuhini əsgərliyə yola salan Gülnarə ana elə həmin gündən oğlunun dönüşünü xəyal edib özünə təskinlik verirdi. O həsrətin başlanğıcı 3 iyul 2019-cu ildə oldu. Ancaq o həsrətin sonu olmadı.

Səbuhi İsgəndərli Dövlət Sərhəd Xidmətinin Yevlax rayonunda yerləşən Çevik Hərəkət Dəstəsində müddətli həqiqi hərbi xidmətə başlayır. O, cəsarəti ilə komandirlərinin rəğbətini qazanır.

Qardaşlar üçün bacını bəyaz gəlinlikdə görmək izahsız duyğudur. Birlikdə böyüdüyün bacının başqa bir ocağa köçməsi çox duyğulu andır. Səbuhi noyabrda Lalənin ən xoş günündə iştirak etmək üçün iki günlük evə buraxılıb. Həmin vaxt Səbuhi zarafatla bacısına dediyi ***"Daha bir də bu evə gəlməyəcəksən"*** sözlərini sanki özünə şamil edirmiş. Lalə o evə gələ bilsə də, Səbuhi dediyi kimi bir daha o evə gələ bilmədi.

Ailəsi son dəfə Səbuhi ilə 29 dekabr 2019-cu ildə görüşə bilib. Sonra məlum pandemiya səbəbindən nə ailəsi onun yanına gələ bilib, nə də o, məzuniyyətə gedə bilib.

Səbuhigilin dəstəsi 2020-ci ildə Tovuz istiqamətində vəziyyət gərginləşən zaman həmin istiqamətə göndərilib. Səbuhi hələ həmin vaxt düşməndən qisas almaq üçün tələsirdi. Həmin vaxt döyüş qismən sakitləşsə də, ürəklərdə çatılan intiqam alovu get-gedə daha da şiddətlənirdi. Düşmən o alova 27 sentyabrda qərq oldu. Səbuhi döyüşə getdiyini gizli saxlayıb. Hətta 16 oktyabrda Ağdamda olan zaman silahdaşları "Anana zəng edib halallaş" dediyi zaman ***"Anam xəstədi, ona zəng edə bilmərəm, atamla danışacağam"*** deyib. Yenə özünü yox, sevdiklərini düşünüb. Atası ilə gülə-gülə danışıb. Döyüşdə olduğunu bəlli etməyib. Sonradan məlum olub ki, Səbuhi Ağdamdan Zəngilana qədər olan bütün döyüşlərdə mübarizə aparıb.



Vətən müharibəsində Qarabağ və ətraf rayonların hər qarışının azad olunması fərqli bir qəhrəmanlığı gözlər önünə sərdi. Zəngilan rayonu uğrunda gedən döyüşlər də həmin döyüşlər sırasında idi. Böyük əhəmiyyət kəsb edən Vejnəli qızıl yatağının azad olunması ən ümdə məsələlərdən biri idi. Düşmən üçün də həmin yatağı əldən verməmək vacib idi. Hər iki tərəfin vacib bildiyi ərazi uğrunda gedən döyüşlərin şiddəti məlum məsələdir. Həmin döyüşlərdə düşmənin mühasirəyə saldığı 80-nə yaxın hərbçimizin mühasirədən çıxmasına 7 hərbçi (2 əsgər, 5 gizir) səbəb olmuşdu. Oktyabrın 22-də həmin döyüşlər zamanı Səbuhi sol gözünün altından snayperlə vurulur. 7 hərbçidən sona qalan Zamin Rüstəmov düşmənin onu əsir götürəcəyini hiss etdiyi an sonuncu gülləsi ilə öz ürəyinə atəş açır. 7 oğul vətənin ləl-cəvahiri sayılan Zəngilanın azadlığı uğrunda öz canlarından keçirlər. Yeddi gün onların nəşlərini götürmək mümkün olmur. Oktyabrın 28-də Səbuhinin və digər şəhidlərimizin nəşləri götürülüb Füzuli rayonundakı hospitala aparılır.

Oktyabrın 28-də bələdiyyədən Yaşar kişiyə zəng gəlir. O an Gülnarə ananın ürəyi sancır. Bir anda ana nə olduğunu özü də anlaya bilmir. Evdən çıxan ata bir saat sonra geri gəldiyində Gülnarə xanımdan gözlərini gizlətməyə çalışsa da, bacara bilmir. Ananın and-amanı qarşısında "Səbuhi yaralıdı, gedirəm gətirəm" deyən Şəhid atası ürəyi yana-yana oğlunun ardınca gedir.

Heç bir ata oğlunun nəşini yumağı xəyal etməz. Əksinə hər atanın arzusu oğlunun onun nəşini yuması və daşımasıdır. Ancaq Şəhid atası tək oğlunu göz yaşları ilə yudu. Oktyabrın 29-da oğlunu son dəfə evinə gətirdi. Gülnarə ana son dəfə oğlunu görmək, qoxlamaq istədi. Həyat yoldaşının dediyi "İncitmə balam yatıb" sözləri ilə ürəyinə daş basan ana həyətlərindəki təzə-tər çiçəkləri dərib oğlunun tabutunu bəzədi. Oğlunun bəy otağını bəzəmək arzusunda olan ana Səbuhinin tabutunu son mənzilə çiyinlərində apardı.

Həmin gündən sonra hər gecə Şəki şəhər II Şəhidlər xiyabanında bir ananın layla sədası eşidilir. O gecə olmaz ki, Gülnarə ana Səbuhiyə layla demədən günü başa vursun. Gülnarə ananın dediyi fikirlər qəlbinin həsrətini aydın şəkildə izah etməyə yetirdi.

**Səbuhiyə ömür bəxş edən Gülnarə xanım:**

– Səbuhi mənim xəyal dünyamdır. Mən əslində bu dünyada yaşamıram. Ruhən Səbuhinin olduğu dünyadayam. Bir gün cismim də oğlumun dünyasına köçəcək. O gün üçün tələsirəm. Həm də Səbuhinin adını daha çox tanıtmaq üçün,

yaşatmaq üçün tələsirəm. Mən nə etsəm də, Səbuhinin mənə qoyub getdiyi Şəhid anası adının yanında azdır. Son nəfəsimə qədər oğlumun adını yaşadacağam.

Səbuhi şəhid olduqdan bir ay sonra bacısı Lalə xanımın oğul övladı dünyaya gəlib. Elə körpəyə Səbuhinin adını əmanət ediblər. Bu körpənin böyüyüb Səbuhi kimi vətən qeyrətli, sədaqətli və hörmətli biri olması doğmalarının ən böyük arzusudur.

Əsgər İsgəndərli Səbuhi Yaşar oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "İgidliyə görə" medalı və "Zəngilanın azad olunmasına görə medalı" ilə təltif edilib.

Səbuhinin adı ürəklərdə əbədi olaraq yaşayacaq. Hər kəs onun qəhrəmanlığından xəbərdardır və xəbərdar olacaq. Səbuhinin adına inşa edilmiş bulaq və onun adını daşıyan küçə gələcəkdə onun kimi bir qəhrəmanın hamı tərəfindən tanınması üçün atılan addımdır.

Səbuhinin yaşadığı evdə onun xatirələri var. Ata-anası həmin evi bir xatirə muzeyinə çevirib. Oğlunu çinar ağacına bənzədən ana vətən adlı ağacdan Zəngilanda yarpaq kimi torpağa düşən Səbuhini bənzətdiyi çinar yarpağının bir gün Zəngilanın simvolu olacağını heç zaman düşünməzdi.

Dövlət Sərhəd Xidmətinin şəhid olan hərbçilərinin adının əbədiləşdirilməsi üçün Cəbrayıl rayonunda, Xızı rayonunda və s. yerlərdə abidələr inşa edilib. Bir neçə kitablarda bu qəhrəmanların igidliyindən geniş şəkildə bəhs olunub.



## ŞƏHİD SƏBUHİ

Torpağın dəyərli cəvahiratı,
Xalqının sədaqət rəmzisən, igid.
Haqq səsi özünü boğan millətin,
Dünyanı titrədən sözüsən, şəhid.

Düşmən taladığı Vejnəlimizə,
Azadlıq toxumun qanınla əkdin.
İllərlə düşmənin viran etdiyi,
Zəngilan yurduna canlı sədd çəkdin.

Azadlıq duyğusu qəhrəmanların,
Xalqa bəxş etdiyi bir ehtişamdır.
Səbuhi, bu xalqın sayqı duruşu,
Şəhidə duyulan bir ehtiramdır.

Haqqınız ödənə bilməz, şəhidim,
Axı can borcunu ödəmək olmur.
Şəhidlər cismani köçür dünyadan,
Əbədi dünyada heç zaman solmur.

*15.03.2023*



**UMUDLU ELMİR**
**PƏRVİZ OĞLU**

ƏSGƏR

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## DƏMİR YUMRUĞUN GÜCÜ

*İnsanın baxışı onun daxili dünyasını tərənnüm edir. Bəzən bir baxışla insanı tanımaq mümkün olur. O baxış sözlərlə təsdiqini tapdığında isə ürəklərdə bir qəhrəman doğulur. Elmir sözünün imzasını qanı ilə çəkən bir qəhrəman kimi qəlbimizdə doğuldu. Canı bahasına xilas etdiyi 25 silahdaşının yaşamasının səbəbkarı olan o qəhrəmandan yazdıqca 19 yaşlı bir gəncin necə bu qədər qorxmaz, dəyanətli ola biləcəyi sualı məni düşündürdükcə düşündürdü. İnsan heçmi atəşdən qorxmaz? İnsan heçmi ölümdən qorxmaz? Allah bu boyda ürəyi bir insana verdiyində onu seçilmişlər cərgəsinə ayırıb. Bu dünyadakı insanlar isə Elmirin seçilmiş olduğunu o, şəhid olduqdan sonra dərk edib. Aman-zaman balası Emini vətənə qurban edən Gülşad ana demişkən "Biz əslində bir mələklə yaşamışıq, ancaq bunun fərqinə o mələklər dünyamızdan uçub cənnətə getdikdən sonra vardıq".*

Umudlu Elmir Pərviz oğlu baharda ümidlər boy atan zaman dünyaya göz açmışdı. 25 mart 2001-ci ildə Şəki rayonunun İnçə kəndində daha bir ailə Elmirin gəlişi ilə övlad sevincini yaşamışdı. Özündən sonra dünyaya gələn Elnarla bərabər həyat sınaqlarını aşa-aşa, ailəsinin ümidini doğrultmuşdu.

Elmir atası Pərvizin, anası Sənurə xanımın istəkli övladı olduğu kimi Nəriman babasının və Böyükxanım nənəsinin də istəkli nəvəsi olmuşdu. Çünki Elmir



onların ilk nəvələri idi. Elə Elmir məktəbə də baba-nənəsinin yanında getmişdi. Ailəsi Bakı şəhərində yaşayan Elmir 2007-ci ildə Şəki rayon İnçə-Zunud kənd tam orta məktəbinə qədəm qoymuş, II sinfdən VII sinfə qədər isə Bakı şəhəri Tahir Bağırov adına 59 nömrəli tam orta məktəbdə təhsil almışdı. IV sinifdə oxuyanda idmanın cüdo növünə VI sinifdə oxuyanda isə üzgüçülüyə getmişdir. 2014-cü ildə təkrar Şəki rayonuna qayıtmış və ilk qədəm qoyduğu məktəbdə təhsilini davam etdirmişdi. 2018-ci ildə həmin məktəbi bitirmişdi. Həmin il Sumqayıt Dövlət Universitetinin nəznində fəaliyyət göstərən Texniki Kollecə qəbul olmuş və "Nəqliyyatda daşınmaların təşkili" fakültəsində oxumuşdur. Ancaq kolleci bitirmədən müddətli həqiqi hərbi xidmətə çağırılmışdı.

Elmirin arzuları çox idi. Hələ neçə-neçə xəyalları canlanırdı düşüncələrində. O xəyallardan biri də Qarabağı azad etmək, azad görmək idi. Birlikdə böyüdüyü vətən həsrətinin daha bərabərində yaşa dolmasını istəmirdi. Təhəmmül edə bilməyəcəyə qədər ağır gəlirdi "İşğal" kəlməsi. Elə ona görə də hərbi xidmətə gedərkən sevincli idi. Çünki azadlıq arzularının təməli idi vətənə keşik çəkmək.

24 aprel 2019-cu ildə müddətli həqiqi hərbi xidmətə yollanan Elmir Bakı şəhərində yerləşən N saylı hərbi hissədə (həmlə taboru) xidmətə başlayıb. Peşəkar atıcı olmaq üçün hər vəchlə çalışıb. Xidmətdə olduğu zaman nizam-intizam qaydalarına riayət etməsinə və bacarığına görə Təşəkkürnamə və Tərifnamə ilə təltif edilib. 2019-cu il noyabrın 8-də 10 günlük məzuniyyətə gedib. Elə evlərinə son gedişi də o olub. Daha sonra yanvar ayında virusa yoluxub. Hospitalda müalicə alan zaman qardaşı Elnarla son dəfə görüşüb. Dünyanı bürüyən təhlükəli virus (COVID-19) səbəbindən Elmir bir daha ailə üzvləri ilə görüşə bilməyib.

Övladı hərbi xidmətdə olan valideynlər də sanki bir əsgər olurlar. Elmirin valideynlərinin günləri həyəcanla ötürdü. Çünki övladları bir neçə gün sonra, oktyabrın əvvələrində xidmətini başa vurub evinə qayıdacaqdı. Ailəsi Elmirin gəlişinə tədarük görürdü. Ancaq Elmir evinin yox, cəbhənin yolunu tutdu.

Sentyabrın 25-də atası ilə danışanda atasını görmək istədiyini deyir. Atası oğlunun xidməti bitirib evə gələcəyi vaxt istədiklərindən təəccüblənir. Elmir atasına olacaqlar barəsində heç bir söz demir. Övladının gəlişini gözləyən valideynlər sentyabrın 27-də Elmirin zəngi ilə onun Beyləqanda olduğunu və döyüşə gedəcəyini öyrənirlər. Beləcə bir qəhrəmanın qəhrəmanlıq salnaməsi başlayır. O qəhrəman həm vətəni, həm də bir taboru xilas edir. Uzun sözün qisası Umudlu bir ümid olur.

Elmir Umudlu sentyabrın 30-da axşam Cəbrayılın azadlığı uğrunda döyüşə başlayır. Komandirlərini və silahdaşlarını sözün yaxşı mənasında məəttəl qoyur. Bir əsgərin etdikləri, fədakarlığı əlbəttə ki, sıradan bir iş deyildi. Allahın şəhadətə

sevdalı yaratdığı bu bəndə mühasirəyə düşən dəstənin həyatda qalmasının səbəbkarı olur. Yaşamdan ümidi üzülən həmin dəstə Elmirin sayəsində mühasirədən qurtulur. Bunu Elmirin komandiri hələ Elmir şəhid olmamışdan öncə atasına zəng etdiyi zaman deyir.

"Ağsaqqal, bilirsiniz Elmir nə edib?" Bu söz ilk öncə Pərviz kişiyə müəmmalı gəlib. Çünki dörd gün imiş oğlu ilə danışa bilmirmiş. Söhbətin davamında komandir öz ömrünü və digər döyüşçülərin həyatda qalmasını Elmirə borclu olduqlarını deyir. Elmir həmin döyüşdə pulemyotla düşmənə divan tutubmuş.

4 oktyabrda Cəbrayılın azad olunması sevincini yaşadanlarda biri olan Elmir 5 oktyabrdan Füzuli rayonu istiqamətində mübarizəyə başlayır. Lakin həmin gün ayağından zədələnir. Atası ilə danışanda zədələndiyi üçün komandirinin onu geriyə göndərdiyini deyir. Hər zaman öndə gedən həmlə taborunun bir əsgəri üçün arxada olmaq əlbəttə ki, qəbuledilməz idi. Ayağı sağalmadan Elmir təkrar döyüşə qayıdır. Oktyabrın 26-da son dəfə ailə üzvləri ilə qrup halında danışıb, hər kəsdən halallıq alır. Oktyabrın 27-də müharibənin bir ayı tamam olan gün Elmir də açılan cənnət qapısından şəhid kimi keçir. Xocavənd rayonu istiqamətində gedən ağır döyüşdə top mərmisi kürəyinə düşən vətən oğlu şəhadətə ucalır.

Ailəsi oktyabrın 29-da Elmirin şəhid olduğu xəbərini alır. Bir ata üçün əzaları vətən torpağına qarışan şəhidlər sırasından oğlunu tapmaq olduqca çətin olur. Elmirin bir nişanəsi var idi. O, sol əlinin orta barmağına canı, nəfəsi bildiyi qardaşının adını döymə şəklində yazdırmışdı. Elə Şəhid atası da övladını o döymə ilə müəyyən etmişdir. Oktyabrın 30-da Elmirin nəşi Şəki rayonuna aparılaraq morqa qoyulmuş, səhəri günü son vida üçün ata ocağına aparılmışdır.

Vətəni ana bilən şəhidin tabutunu bütün atalar və analar bir övlad kimi bağrına basdı. Çünki şəhidlərin anası vətəndir. Hələ I Qarabağ müharibəsi zamanı vətənə 5 şəhid və 1 itkin qurban verən kənd növbəti şəhidini Zunud kənd məzarlığında torpağa tapşırdı.

Hər insan üçün ən dəyərli nemət öz canıdır. İnsan ən çox canını sevər və canının ağrısına tab etməz. Təkcə şəhidlər vətənin acısını öz acılarından üstün tutarlar və heç bir şey düşünmədən vətən yolunda canlarını fəda edərlər. Əbəs yerə şəhidlərə "Vətən Fədailəri" deyilmir.

Əsgər Umudlu Elmir Pərviz oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda", medalı "Füzulinin azad olunmasına görə" medalı, "Cəbrayılın azad olunmasına görə" medalı, "Xocavəndin azad olunmasına görə" medalı, "Cəsur döyüşçü" medalı, "İgidliyə görə" medalı və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.



Şəhidlər sədaqət andını pozmayaraq vətənin şəhidi oldular. Biz vətəndaşlar da sədaqətli olmalı və şəhidlərimizin adlarını yaşatmağa çalışmalıyıq. Milli Qəhrəman Tahir Bağırovun adını daşıyan 59 nömrəli məktəbin kollektivi o sədaqət və vəfa borcunu hər zaman yerinə yetirir. Məktəbin şəhid məzunları Tahir Bağırov, Vüqar Yarəhmədov, Babək Ramaldanov, Denis Əliyev, Orxan İsmayılov, Toğrul Ağalarlı və Elmir Umudlunun adları "Xatirə" lövhəsinə vurularaq əbədiləşdirilib. O məktəbdə təhsil alan hər şagird vətənə oğul olmağı bacaran qəhrəmanları tanıyır və örnək götürür. Bundan başqa ailəsi Elmirin dünyaya göz açdığı İnçə kəndinin girişində və İnçə-Zunud kənd tam orta məktəbində "Şəhidlər bulağı" inşa etdirib.

Söhbətimizin sonunda Şəhid atasının dilə gətirdiyi iki arzu əminəm ki, bütün Azərbaycan xalqının ürəyindəki arzudur. O arzunun birinə həm şəhid atası, həm də xalq olaraq hər birimiz çatmışıq. Bu arzu bir zamanlar Paşinyanın Cıdır düzündə getdiyi "Yallı" rəqsinin qarşılığının verilməsidir. Digər arzu isə Azərbaycanın bütün sərhədboyu ərazilərində düşməni məhv edən "Dəmir Yumruq" abidəsinin ucaldılması və həmin abidələrin üzərində illər boyu vətən uğrunda şəhid olan qəhrəmanlarımızın adlarının yazılmasıdır. Hər dəfə düşmən başını qaldırmaq istəyəndə başının üzərindəki "Dəmir Yumruq" ona həddini bildirsin. Bu abidə tək ermənilərin yox, Azərbaycana düşmən olan hər kəsin alacağı dərsin izahı olsun.

## ŞƏHİD ELMİR

Titrətdi qəlbini vətən həsrəti,
Yayın istisində, bahar günündə.
Qəbul olunmayan bir təzad idi,
Vətəndə vətənsiz olmaq ömründə.

Qəlbini ram edən müqəddəs sevgin,
Gün gəldi bir anda təzahür etdi.
Elmir, sənin kimi vətənsevərlər,
Vətənə bir ümid olmağa yetdi.

Cəbrayıl, Füzuli və Xocavəndi,
Qədəmin elə bil cana gətirdi.
Vətənə azadlıq bəxş edən mərdlər,
Elə vətən üçün ömrün bitirdi.

Candan keçən şəhid, sənin sayəndə,
Vətən azadlığın ağuşundadır.
Hara şəhid qanı naxış salıbsa,
Bizim and yerimiz elə oradır.

***21.03.2023***





**HƏMİDZADƏ HÜSEYN AKİF OĞLU**

**ƏSGƏR**
***(Könüllü)***

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## VƏTƏN BOYDA SEVGİYƏ ÜNVAN OLAN QƏLB

*Vətənə könül verdikdən sonra vətənə çatacaq olan yolda heç bir manea sənə əngəl ola bilməz. Əgər qismətində şəhadət varsa, bir gün mütləq o yolda can fəda edərək şəhidlik məqamına yüksələcəksən. Vətən boyda vətən sevgisi ürəyində cəm olan Hüseyn də şəhidlik arzusunda idi. Ancaq o arzuya Qarabağın, Şuşanın azad olduğunu gözləri ilə gördükdən sonra çatmağı arzu edirdi. Allah onu arzularına çatdırdı. Həm Qarabağın azadlığına şəhid oldu, həm də şəhidlik məqamına çatdı. Özünün də dediyi kimi:*

***– Ata, biz Füzulini azad etdik. Xocalının intiqamını aldıq. Poladın, Azadın və bütün şəhidlərimizin intiqamını aldıq.***

O intiqam toxumunu illər öncə Hüseynin ürəyinə düşmən öz əlləri ilə əkmişdi. Şəhidlərin, günahsızların illərlə axan qanları o toxumu ürəyə sığmayacaq qədər böyütmüşdü. Özünü məğlubedilməz sayan düşməni bir anda məhv edəcək qədər böyük idi Hüseynin intiqam duyğusu.

Vətənə sevdalı olan Həmidzadə Hüseyn Akif oğlu 15 oktyabr 1995-ci ildə Bakı şəhərində dünyaya göz açmışdı. Üç övladlı ailənin sonuncusu olmuşdur. Qardaşı Məmmədbağır və bacısı Nargilə ilə böyüdükcə atası Akif kişinin, anası Rəhilə xanımın ümidləri, sevincləri də böyümüşdür.

2002-ci ildə Bakı şəhər Hövsan qəsəbəsində təhsil almağa başlayan Hüseyn VII sinifdən təhsilini Xırdalan şəhər 1 nömrəli tam orta məktəbdə davam etdirmişdir.

2013-cü ildə məktəbi bitirdikdən sonra Azərbaycan Kooperasiya Universitetinin İqtisadiyyat fakültəsinə daxil olmuşdu. Dördillik təhsilini uğurla başa vurmuşdur. 2018-ci ilin iyul ayında müddətli həqiqi hərbi xidmətə yollanmışdır. Strateji baxımdan əhəmiyyətli sayılan, düşmənlə üz-üzə olan Murovdağ istiqamətində xidmət etmişdi. Birillik xidmətini layiqli şəkildə tamamlamışdır. Ancaq vətənə olan borcunu tam ödəmədiyini düşünmüşdü. Elə o səbəbdən də Vətən müharibəsi başlayan zaman könüllü olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Cəbrayıl Rayon İdarəsinə müraciət etmiş və döyüşlərdə iştirak etmək istəyini bildirmişdir. Oktyabrın 9-da onun müraciətinə cavab gəlmiş və müharibəyə çağırıldığı bildirilmişdir. Hüseyn döyüşə sevinərək getmişdi. Ən böyük arzusuna çatmaq üçün Allahın ona qapı açdığını düşünmüşdü.

Hüseyn bir həftə təlim keçdikdən sonra oktyabrın 16-da Füzuli rayonu istiqamətində döyüşlərə qatılır. Oktyabrın 17-də atasına zəng edən zaman Füzuli rayonunun azadlığa qovuşduğunun müjdəsini verir. İllərlə düşmənin qurub, möhkəmləndirdiyi sədləri yarmağın, vətən torpağına qədəm basmağın qürurunu yaşadığını bildirir. Daha sonra isə Cəbrayılın azadlığı uğrunda mübarizəyə başlayır. Dəstəsi ilə birlikdə Cəbrayılın 26 kəndini azad etdikdən sonra 23 oktyabrda Xocavənd rayonu istiqamətində döyüşlərə qatılır. 27 oktyabra qədər mübarizə aparan Hüseynlə bərabər 11 silahdaşının döyüş yolu Qırmızı Bazar uğrunda gedən döyüşlər zamanı düşmənin ağır artilleriya hücumu ilə sona çatır. Elə həmin zaman onların ömür yolları da sona çatır. Dörd gün düşmənin fasiləsiz açdığı atəşlər səbəbindən şəhidlərin nəşlərini götürmək mümkün olmur. Noyabrın 1-də şəhidlərin nəşlərini götürdükdən sonra ailələrinə xəbər verilir. Hüseynin ailəsi Beyləqan rayonundan onun cansız cismini götürüb Şəkiyə yola düşür. O yolçuluq ailə üçün ən uzun yolçuluq olur. Övladının cansız cismini dəfn etmək üçün evinə getmək qədər çətin, ağrılı nə ola bilər ki? Bilirsən ki, sondur. Daha bir də övladının üzünü görməyəcəksən, səsini duymayacaqsan. Ancaq məcbursan. Öz əlinlə övladını torpağa qoymağa məcbursan...

2 noyabrda Şəkinin Oxud kənd məzarlığında Hüseyn torpağa tapşırılır. O gün Rahilə ananın köksündən övladı ayrılır. O gün Akif kişinin beli bükülür. O gün Məmmədbağır dayaqsız qalır. O gün Nargilənin ürəyinə qardaş dağı dəyir. O gün daha bir ailənin ocağı şəhid dərdinə qərq olur.

Əsgər Həmidzadə Hüseyn Akif oğlu Ali Baş Komandan cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Füzulinin azad olunmasına görə" medalı, "Cəbrayılın azad olunmasına görə" medalı və "Xocavəndin azad olunmasına görə medalı ilə təltif edilib.

Abşeron rayonunun Masazır qəsəbəsində və Şəki rayonunun Oxud kəndində şəhidin ailəsi tərəfindən Hüseynin adına bulaq inşa edilib.



## ŞƏHİD HÜSEYN

Füzulidən ucaldı,
Sənin azadlıq səsin.
Torpağa ümid oldu,
Hüseyn, son nəfəsin.

Mübarək qədəminlə,
Cəbrayıl ümidləndi.
Sanki dilsiz o torpaq,
Dilə gəldi, dilləndi.

Xocavəndin qolundan,
İşğal qandalın sökdün.
O müqəddəs torpaqda,
Solmayan ümid dikdin.

Qanın ilə suvardın,
Azadlıq ümidlərin.
İntiqamını aldın,
Şəhidim, şəhidlərin.

Qəhrəman kimi döndün,
Öz elinə, obana.
Bu xalq çətin ki, sənin,
Ömür haqqını dana.

Sən vətən xilaskarı,
Qəlblərin fatehisən.
Xocavənddən Şəkiyə,
Əsən səhər mehisən.

***10.04.2023***



**ƏZİZOV ƏZİZ MƏMMƏDVƏLİ OĞLU**

ƏSGƏR
(*Çağırışçı*)

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## TABUTA SIĞMAYAN ŞƏHİD

*Müharibə – həyatın ən sərt sınağıdır. Bilə-bilə ölümün üzərinə yeriyəcək qədər iradəli dəyanətli olmalısan. Ən yaxşı halda əzalarını qurban edib Qazi olacağın düşüncəsini düşünəcək qədər ürəkli, hətta nəşinin belə tapılmadığı halda itkin olaraq tanınacaq qədər qətiyyətli olmalısan müharibəyə gedərkən. Əks halda sən mübariz ola bilməzsən. Əziz o düşüncələri özündə cəm edərək qətiyyətlə döyüşə atılmışdı. Bir itkin qəhrəmanın adını daşıyarkən ömrü boyu o sızıltının nə demək olduğunu hiss etmişdi.*

1941–45-ci illərdə Əzizin atasının əmisi Əziz Əzizov Qaradəniz sularına qərq olub. Ailəsinə bir parça kağız gəlib. Həmin kağızda onun itkin olduğu yazılıb. O gündən sonra Əziz adı ürəklərin həsrətinə dönüb. Məmmədvəli kişi və Hədiyyə xanım qəhrəman Əzizin adını ilk övladlarına əmanət edib yaşatmağa başlayırlar. Lakin o körpə cəmi bir il ömür yaşayır. Daha sonra ailənin iki oğul övladı olur. Taleh və Salehdən sonra 1 mart 2000-ci ildə doğulan körpəyə Əziz adı qoyulur. Elə o körpənin adını daşıdığı qəhrəmanın alın yazısı da alnına yazılır. Körpə Əziz də gəncliyində vətən üçün canını fəda edir. İtkin Əzizin adını daşıyan qəhrəman Şəhid Əziz kimi yenidən Şəkiyə səda salır.

Əzizin körpəliyindən qəlbindəki vətənpərvərlik duyğuları özünü büruzə verir. 2006-cı ildə Şəki rayon Qayabaşı kənd tam orta məktəbinə qədəm qoyan Əziz 11 illik təhsili dövründə də vətənə olan sevgisi ilə seçilməyi və sevilməyi bacarır. 2017-ci ildə məktəbi bitirir. Milli Qəhrəman Mübariz İbrahimovun adı dilinin əzbəri olan



Əziz özü də mübariz bir əsgər olur. 2018-ci ildə vətənə oğul olan qəhrəman müddətli həqiqi hərbi xidmətə yollanır. Ağcabədi rayonunda yerləşən N saylı hərbi hissədə üç ay xidmət etdikdən sonra xidmətini Beyləqan rayonunda yerləşən N saylı hərbi hissədə davam etdirir. Haramı Düzü adlanan yerdə düşmənlə üz-üzə vətən keşiyində dayanır. Hər dəfə düşmən atəşkəsi pozanda intiqam andını təkrar-təkrar dilinə gətirir. 2020-ci il yanvarın əvvəlində xidmətini başa vurub evinə dönür. Ancaq o qısa zamanda vətəni düşmənin əllərindən almaq üçün geri dönəcəyini düşünür.

Əziz vətənini, xalqını sevirdi. Elə xalqın keşiyində durmaq üçün də polis olmaq niyyətində idi. Ancaq o polis olmaq arzusuna çata bilmədi. Sentyabrın 29-da Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəki Rayon İdarəsinin çağırışı ilə Əziz də düşməndən qisas almağa yollandı. Öncə Gəncə şəhərində yerləşən N saylı hərbi hissəyə gedən vətən oğlu döyüşə Füzuli rayonu istiqamətindən başladı. Döyüş yolu Cəbrayıl, Qubadlı, Laçından keçən Əziz 5 noyabrda Şuşanın azadlıq yollarında qəhrəmancasına şəhid oldu.

Əziz son dəfə oktyabrın 25-də ata-anası ilə danışır. Əvvəlcə ailəsindən öndə olduğunu gizlətsə də, son danışığında ***"Ana, mən Laçındayam"*** deyir. Döyüşlər zamanı üç gün mühasirədə qalsa da, yenə də mübarizəsini qətiyyətlə davam etdirərək mühasirədən çıxmağı bacarır. Neçə-neçə yaralı və şəhidin düşmən əlinə keçməməsi üçün öz canını heçə sayır. Azərbaycan əsgəri bu idi. Şəhidinə də, yaralısına da sahib çıxırdı. Qorxubilməz Əziz bunun bariz nümunəsi idi.

Əziz ailənin müharibədə iştirak edən tək nümayəndəsi deyildi. Onun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu olan böyük qardaşı Taleh də Vətən müharibəsində ən öndə vuruşanlardan biri idi. Ən ağır döyüşlərin getdiyi Suqovuşanda mübarizə aparan Taleh Əzizin şəhid xəbərini də elə döyüşdə olarkən alır. Döyüşlər zamanı bir çox dostunun, silahdaşının şəhid olduğuna şahid olan hərbçinin qismətində öz qardaşının çöhrəsinə yansıyan şəhid nurunu da görmək var imiş. Noyabrın 5-də Əzizin şəhid xəbərini alan Taleh Füzuli rayonuna gedir. Sakitsusqun yatan qardaşının ürəyindən aldığı yarasını oxşayır. Son dəfə qardaşını bağrına basır. Əzizi tabuta yerləşdirmək olduqca çətin olur. 1 m 85 sm qaməti ilə göz oxşayan şəhidə xüsusi tabut hazırlanır. Noyabrın 6-da son dəfə qardaş qardaşı ilə ata evinə gəlir. Qardaşının tabutunu ata-anasına təhvil vermək Talehin həyatda ən çətin sınağı olur. Noyabrın 6-da Əziz Qayabaşı kənd məzarlığında torpağa tapşırılır.

Əsgər Əzizov Əziz Məmmədvəli oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "İgidliyə görə" medalı, "Füzulinin azad olunmasına görə" medalı, "Cəbrayılın azad olunmasına görə" medalı, "Qubadlının azad olunmasına görə" medalı və "Laçının azad olunmasına görə" medalı ilə təltif edilib.

Əzizin adını əbədiləşdirmək üçün ailəsi bulaq inşa etdirib. Əziz adı qəhrəmanlığın bir sübutudur.

## ŞƏHİD ƏZİZ

Bir qəhrəman adını daşıdın, igid oğul,
Adın ilə hər zaman duydun fəxarət, qürur.
Vətən, xalq, yurd uğrunda canından keçənlərin,
Keçdiyi ömür yolu silinməz tarix olur.

O silinməz tarixi yazdın öz qanın ilə,
Əziz, adın bir Şəhid olaraq gəlir dilə.
Qəhrəmanlıq qanında dövr edirdi, şəhidim,
O qan Şuşa yolunda sanki döndü bir gölə.

İki qardaş vətənə can sipər elədiniz,
Qan axıdan düşməni qanına bələdiniz.
Həyatı dərk edəndən Qarabağ torpağının,
Azad olunacağı o günü gözlədiniz.

O azadlıq müjdəsin yetirdiniz millətə,
Əziz, nida qoydunuz otuzillik həsrətə.
Uşaqlıqdan hər yerdə daima eşidərdik,
Kaş ki vətən həsrəti sona çata və bitə.

***09.04.2023***



**HACIYUSİFOV ƏHMƏD TEYMUR OĞLU**

**ƏSGƏR**

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*



## KİŞİLİK MƏKTƏBİNİN ŞƏHİD ŞAGİRDİ

*"İnsan ən çox sevdiyi ilə sınağa çəkilir" deyirlər. Bu dünyanın ən böyük sınağı övlad ilə sınanmaqdır. Bəzən o boyda acıya valideyn ürəyinin necə tab etdiyini düşünürəm. Tək bir gerçək var. Şəhid valideynləri vətənin varlığı ilə övlad dərdinə təsəlli tapırlar. Yanan ürəklərinə vətən torpağında uyuyan oğul məzarını sıxırlar. Vətən torpağının qoxusunu oğul qoxusu kimi qoxlayırlar. Vətənə tutunmaqdan qeyri bir əlacı yoxdur bu dərdin. İlk övlad payını, tək oğul murazını zamansız itirən Teymur müəllimin, Təranə xanımın sözlərindən boylanan oğul həsrəti kəlmələrə sığmayacaq böyüklükdədir.*

Hələ I Qarabağ müharibəsində vətənin köksünə düşmən xəncər saplayanda cismini vətənə sipər edən gənclərdən biri idi Teymur. 1992-ci ildən 1994-cü ilə qədər Daşkəsən, Kəlbəcər, Horadiz, Füzuli istiqamətlərində vətən torpağının müdafiəsi uğrunda mübarizə aparsa da həmin vaxtlarda ordu düzənsizliyi səbəbindən işğal qaçılmaz oldu. O günlərdən sonra Teymur qəlbində vətən nisgili ilə ömür sürdü. Qəlbindəki vətən yarası elə hey qanadı. Bir gün o yaraya oğlu Əhmədin qanı məlhəm olacağını bilməzdi.

Hacıyusifov Əhməd Teymur oğlu 23 iyun 2001-ci ildə Şəki rayonunun Baş Göynük kəndində dünyaya göz açıb. O, ailəsinin ilk övlad, tək oğul payı olub. Bacıları Arzu və Nərminə qardaşlarını bir dayaq biliblər. Elə körpəlikdən qardaşın

bir bacı üçün nə qədər əvəzsiz olduğunu dərk edən bacıların sanki qoruyucu mələyi Əhməd olub.

Əhməd 2007-ci ildə Şəki rayonu Baş Göynük kənd 2 nömrəli tam orta məktəbinə qədəm qoyub. 11 illik təhsilini uğurla başa vurub. Sakittəbiətli olduğu üçün hər kəsin qəlbini fəth edib.

***"Mən əsgər gedəcəyəm. Kişi kimi gedib, kişi kimi də dönəcəyəm"*** bu sözləri deyən Əhməd əsgərliyin "Kişilik məktəbi" olduğunun fərqində idi. Elə dediyi sözlərə də əməl etdi. O məktəbin qeyrətli, şəhid şagirdi oldu.

Təranə ana üçün tək oğul övladını hərbi xidmətə göndərmək asan deyildi. Teymur kişi isə məcburən yarıdan qayıtdığı yolu oğlunun gedəcəyinə ümid bəsləyirdi. O, bir ata olaraq yanılmadı. Əhməd vətən yolunu qürurla addımladı. O yol zəfərlə bitdi.

Əhmədin zəfərə çatan yolu 8 iyul 2019-cu ildə Ağcəbədi rayonundan başlamışdı. Valideynləri Əhmədi əsgərliyə yola salanda bir toya bərabər qonaqlıq vermişdilər. Sanki övladlarına toy çalınmayacağı onlara ayan olubmuş.

Andiçmədən sonra Əhməd xidmətini Füzuli rayonunda yerləşən N saylı hərbi hissədə davam etdirib. Xidmətinin yeddinci ayında məzuniyyətə göndərilib.

Bir bacı ən xoş günündə qardaşının yanında olmasını arzu edər. Arzu da arzusuna çatır. Nişan günündə tək qardaşı Əhməd onun sevincinə şahid olur. Fevralın 3-də məzuniyyətə gələn Əhməd fevralın 13-də xidmətinə geri dönür. O gediş Əhmədin son gedişi və ailəsi ilə son görüşü olur.

Əhməd snayper atıcısı idi. O, gözəl bilirdi ki, nə zaman müharibə olsa, öndə gedənlərdən biri olacaq. Elə II Qarabağ müharibəsi başlayan ilk gündən də o, önə atılır. Ancaq döyüşlərdə olduğunu heç kim bilmir. Sentyabrın 25-də ailəsi ilə danışanda cəbhədə artan gərginliyi bəlli etmir. Müharibə başlayır və on gün Əhməddən xəbər almaq mümkün olmur. Teymur kişi müharibənin nə demək olduğunu bildiyi üçün çağırış məntəqəsinə yaxınlaşır. Oradan Əhmədin komandiri ilə əlaqə saxlanılır və qısa müddət sonra Əhməd atasına zəng edir. Atasına hər şeyin yaxşı olduğunu, zəng etmədiyi təqdirdə ona zəng etməməsini deyən Əhməd bir də atasından döyüşdə olduğunu anasına bildirməməsini xahiş edir.

Əhməd Füzuli, Cəbrayıl, Xocavənd uğrunda mübarizə aparıb. Şuşaya açılan yolda qanı ilə cığır açıb. Hələ döyüşdə olduğu zaman şücaətlərinə görə aldığı Fəxri fərman ailəsinə təqdim olunub. Hər zaman olduğu kimi yenə də ailəsinin başını uca edib.

Son dəfə noyabrın 5-də saat 19:00-da valideynləri ilə danışıb. Şuşa ətrafında gedən döyüşlərdə olduğunu deyən Əhməd ondan sonra bir daha zəng etməyib.



Zəfər yolunu sona qədər gedən qəhrəman noyabrın 7-də ürəyini vətənə tuşlanan snayper atəşinə sipər edib.

Noyabrın 8-də Şuşanın azad olunduğu Zəfər günü gecə Əhmədin nəşi Şəkiyə gətirilir. Ertəsi gün sübh səhər qonşu öncə Əhmədin yaralı olduğunu deyir. "Əhmədi gətirirlər" elə həmin an bir göz qırpımında həyət-baca insan selinə qərq olur. Əhmədi bir tabutda gətirirlər. 9 noyabr Əhmədin əbədi vida günü kimi tarixə həkk olunur. Baş Göynük kənd məzarlığı şəhid Əhmədin əbədi ünvanına çevrilir.

Əsgər Hacıyusifov Əhməd Teymur oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Cəsur döyüşçü" medalı, "Füzulinin azad olunmasına görə" medalı, "Cəbrayılın azad olunmasına görə" medalı və "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilib.

Əhmədin bir zamanlar təhsil aldığı məktəbin önündə kənd camaatının və məktəb kollektivinin dəstəyi ilə bulaq inşa edilib.

## ŞƏHİD ƏHMƏD

"Vətən ağlar qalmasın"
Dedi səntək oğullar.
Gedib Şuşaya çatdı,
Qanla açılan yollar.

Qırıq-sökük ümidlər,
Cana gəldi bir anda.
Zəfər səsi duyuldu,
O gün Azərbaycanda.

Vətən boyda sevgidən,
Güc aldı vətən bağı.
Müqəddəs şəhid qanı,
Canlandırdı torpağı.

Bir payız elə bil ki,
Qarabağa yaz gəldi.
Əhməd, sənin qəlbini,
Düşmən gülləsi dəldi.

Son nəfəsdə seyr etdin,
Şuşanın uca dağın.
Tabutunda gətirdin,
Şanlı Vətən bayrağın.

Bircə oğul payıydın,
Sən ananın, atanın.
Daha cənnətindəsən,
Əhməd, sən Yaradanın.

*19.03.2023*





**SURXAYZADƏ ZƏFƏR ŞƏMSƏDDİN OĞLU**

ƏSGƏR

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## ZƏFƏR YOLUNUN YOLÇUSU ZƏFƏR

*Zəfər – ən gözəl duyğunu tərənnüm edən sözdür. Yaşadığımız həyatda bu adı daşımaq da böyük xoşbəxtlikdir. Mənası qələbə, qalibiyyət olan bu adı bir də bir qalib komandirin adı kimi sənə əmanət etdiklərində daşıdığın adın məsuliyyəti daha da artır. Ən böyük arzun isə elə həyatda zəfər qazanmaq olur. Zəfər yolunun yolçusu Zəfərin ən böyük arzusu elə adına layiq olmaq və zəfər qazanmaq idi. O arzusuna Azərbaycan xalqı ilə bərabər çatdı. Zəfər yolunu şəhid nuru ilə işıqlandırdı. Elə xalqın sabahına da işıq saçdı. Zəfər qazanan və zəfər yaşadan Zəfər.*

Surxayzadə Zəfər Şəmsəddin oğlu 5 avqust 2001-ci ildə Şəki rayonunun Baltalı kəndində anadan olmuşdur. Ailənin üç övladı Səbinə, Elgün, Dilarədən sonra dördüncü və sonbeşik övlad Zəfər dünyaya gəlmişdi. Sənədlərdə adı Zəfər olsa da, ailəsi onu "Turan" çağırırdı. Ona görə də bu qəhrəmanımız həm Zəfər, həm də Turan kimi tanınmışdı.

İnsan valideyn olana qədər təkcə özünü düşünür. Ancaq valideyn olduqdan sonra həyatın mərkəzində övlad durur. Şəmsəddin kişi və Nərgiz xanım da valideyn olmaq məsuliyyətini anladıqdan sonra həyatı övladları üçün yaşamağa başladılar. Övladları xoşbəxt yaşasınlar deyə hər vəchlə çalışdılar. Ailənin hüzuru ən böyük xoşbəxtlik idi.

Zəfər 2007-ci ildə Şəki rayonunun Baltalı kənd tam orta məktəbində təhsil almağa başlayıb. İdmana və hərbiyə böyük marağı olub. X–XI siniflərdə idmanın ağır

atletika növü ilə məşğul olub. 2018-ci ildə məktəbi bitirdikdən sonra hərbçi olmağa can atıb. Lakin səhhətindəki cüzi narahatlığı onun hərbçi olmasına əngəl olub. Ancaq o, zabit kimi olmasa da, əsgər kimi vətənə xidmət etmək arzusuna çata bilib.

Zəfər Surxayzadə 9 oktyabr 2019-cu ildə vətənə olan vətəndaşlıq borcunu yerinə yetirmək üçün müddətli həqiqi hərbi xidmətə gedib. Ağcabədi rayonunda yerləşən N saylı hərbi hissədə xidmətə başlayan Zəfər dekabr ayından Füzuli rayonunda yerləşən N saylı hərbi hissədə xidmət edib. Zəfər daha bir arzusuna çatıb. Hər zaman ***"Mən Füzuli rayonunda xidmət edəcəyəm. Hərbi xidmətə gedəndə Qarabağı özümüz azad edəcəyik"*** deyən Zəfər həm Füzuli rayonunda xidmət edib, həm də Qarabağı azad edib. Yəqin ki, dilinə gətirmədiyi daha bir arzusu da şəhid olmaq olub. Çünki azadlıq arzusunda olanların ən böyük arzusu şəhid olmaq olur.

2020-ci il "Koronavirus" adlı bir bəlanın dünyanı ağuşuna alması demək olar ki, heç kəsə təsirsiz ötüşmədi. Elə müharibədə şəhid olanların bir çoxlarının vidasız döyüşə getməklərinin səbəbi də həmin xəstəlik səbəbindən qoyulan məhdudiyyətlər oldu. O səbəbdən Zəfər məzuniyyətə gedə bilmədi.

Zəfər 27 sentyabr 2020-ci ildə müharibə başlayan zaman Füzuli rayonu istiqamətindən döyüşə qatılıb. Lakin ailəsi onun döyüşdə olduğundan xəbərsiz olub. Füzuli, Cəbrayıl, Xocavənd uğrunda mübarizə aparan qəhrəman bir çox döyüşlərdə iştirak edib. Döyüşlərin 20-ci günündə ailəsi ilə danışanda ailə həqiqəti bilib. Son dəfə noyabrın 6-da valideynləri ilə danışanda ona görə narahat olmamaqlarını deyib.

Müharibə zamanı ən çətin vəziyyət çiskinli yağış yağan zaman yaranır. Həm görmə məsafəsinin azalması, həm də dağlarda sürüşkənliyin artması həyati təhlükəni artırır. Payızın çiskinli yağışı noyabrın 7-dən 8-nə keçən gecə daha da şiddətlənir. Həmin vaxt Zəfər düşmən atəşindən yayına bilmir. Düşmənin açdığı atəş alnına dəyən qəhrəman elə həmin an da Xocavənd torpağına son nəfəsini qondurur.

Noyabrın 9-da ailəsi sonbeşik övladlarının vətən qurbanı olduğunu öyrənir. Həmin gecə şəhid Zəfərin nəşi Şəkiyə gətirilsə də, ailəsinə ertəsi gün təhvil verilir. Noyabrın 10-da Zəfər Baltalı kənd məzarlığında torpağa tapşırılır.

Əsgər Surxayzadə Zəfər Şəmsəddin oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda" medalı, "Füzulinin azad olunmasına görə" medalı, "Cəbrayılın azad olunmasına görə" medalı, "Xocavəndin azad olunmasına görə" medalı, "Cəsur döyüşçü" medalı və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

Bir zamanlar Zəfərin yaşadığı kənddə ailəsi onun adına bulaq inşa etdirib.

Şəhid Zəfər hərbi xidmətə getməzdən iki gün öncə ata ocağından gəlin köçən Dilarə şəhid qardaşının adını övladına əmanət edib. O və doğmaları balaca Zəfərlə ovunaraq yaşayırlar. Buna yaşamaq demək olarsa.



## ŞƏHİD ZƏFƏR

Zəfərin memarı olan şəhidim,
Ən böyük əsərdi bu qəhrəmanlıq.
Hər kəstək sənin də amalın idi,
Vətəndə hey olsun əmin-amanlıq.

Düşməni erməni olan bu xalqın,
Qəlbi dağlı olub illər uzunu.
Vətən torpağına axan qanınla,
Əritdin vətənin həsrət buzunu.

Sənin arzun idi vətən uğrunda,
Edəsən köksünü gülləyə sipər.
Zəfər, sənin kimi qəhrəmanlarla,
Yenilməz ordumuz oldu müzəffər.

Xəyalda sevdiyin Qarabağıma,
Azadlıq müjdəsin yetirən oldun.
Vətən torpağında ümid bitirib,
Ömrünün gənc çağı əbədi soldun.

Hər bahar, hər payız gəldiyi zaman,
Torpaqdan qanının qoxusu gəlir.
Zəfər, o alnına tuş gələn mərmi,
Səni sevənlərin qəlbini dəlir.

*22.03.2023*



**HÜSEYNOV FƏRİD ETİBAR OĞLU**

ƏSGƏR
(*Çağırışçı*)

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## ANASI QƏDƏR VƏTƏNİ, VƏTƏNİ QƏDƏR ANASINI SEVƏN OĞUL

*Bəzi insanlar həyatı anladıqları ilk andan acı, kədər, həsrət duyğusu ilə birlikdə yaşa dolurlar. O duyğular hər gün bir il keçmiş kimi böyüdür insanı. Gənc görünən insanın daxilən 100 yaşı olduğu gözlərinin dərinliyindəki nisgilindən bəlli olur. İtirmək həyat sınağı olan insanlar heç vaxt ölümdən qorxmurlar. Anasını itirənlər isə torpağı daha çox sevirlər. Çünki ana vətən torpağını bir də ana kimi sevirlər, oxşayırlar.*

*"Ana" deyəndə Fəridin qəlbi min yerə bölünürdü. Çünki iki qardaş ananın zəhməti ilə böyümüşdülər. Onların əlini tutan əl idi ana əlləri. Ancaq zamansız ayrıldı əlləri ana əllərindən. Zalım xəstəliyə düçar olan Yeganə ana 2017-ci ildə dünyasını dəyişdi. Bəlkə də, Allah ona bala dərdi yaşatmamaq üçün ömrünü qısa yazdı. Axı onun döyünən ürəyi, görən gözləri idi Fərrux və Fərid.*

Yeganə ana ikinci övlad sevincini Fəridlə yaşamışdı. 11 iyun 1994-cü ildə Mingəçevir şəhərində dünyaya göz açmışdı Fərid. Sonra anası və qardaşı ilə birlikdə Şəki rayonunun Qayabaşı kəndinə köçmüşdülər. Dayıları onun və qardaşının qayğısına öz övladları kimi qalırdılar.

Fərid 2001-ci ildə Qayabaşı kənd tam orta məktəbində təhsil almağa başlayıb. Anasının səhhətində olan problemə görə IX il oxumaq məcburiyyətində qalıb.



Sonra anasına və qardaşına kömək olmaq üçün o da çalışmağa başlayıb. Körpə yaşlarından böyük-böyük acılar sayəsində böyüyüb Fərid.

Anası qədər vətəni, vətəni qədər anasını sevib Fərid. 2012-ci ildə vətənə olan xidmət borcunu yerinə yetirmək üçün müddətli həqiqi hərbi xidmətə gedib. Quru Qoşunların Ağdam rayonunda yerləşən N saylı hərbi hissəsində xidmət edib. 2014-cü ilin yanvar ayında xidmətini bitirib.

2014-cü ildə Yeganə xanım ilk oğul payı Fərruxun toyunu edir. Ana ömrünün qısa olduğunu bildiyi üçün övladlarının sevincli gününə şahid olmaq istəyir. Fərruxun toy məclisində qismət elə gətirir ki, Ülviyyə xanım da iştirak edir. Fərid Ülviyyə xanımı gördüyü ilk anda ***"Qismətim budur"*** deyir. Toyda Fəridin anasına göstərdiyi nəvaziş, ilk rəqsini anası ilə etməsi Ülviyyə xanımın da diqqətini çəkir və bu addımla Fərid onun qəlbini fəth edir. Daha sonra iki gəncin sevgi mücadiləsi başlayır. Ailənin tək qızı olan Ülviyyə xanım hər çətinliyə rəğmən Fəridə yar olmağa razı olur. Beləliklə, sevənlər 16 avqust 2016-cı ildə ailə həyatı qururlar.

Fəridə inanıb onunla ömür yolunu birlikdə addımlayan Ülviyyə xanımın ümidləri heç zaman daşa dəymir. Ailənin ilk övladı 23 iyul 2015-ci ildə dünyaya gəlir. Damla adlandırdıqları qızları onların sevinci olur.

2017-ci ildə Fərid heç bir varlıqla yeri dola bilməyəcək ana itkisi ilə sarsılır. Onun üçün anasızlıq vətənsizlik qədər ağır olur. Bəlkə də, elə ona görə də vətənə ümid olmağa tələsənlərdən biri olur.

2018-ci ildə Fəridin üzü Nəzrinin dünyaya gəlməsi ilə, qismən də olsa, gülüb. Hər zaman övladlarının, sevdiyinin sevinci, xoşbəxtliyi üçün çalışıb. Ancaq əbədi gedişi ilə o sevinci çöhrələrdə əbədi soldurub.

Vətən müharibəsi başlayan zaman Fərid ailəsi ilə birlikdə Bakı şəhərində yaşayırmış. Həmin vaxt ilk olaraq döyüşlərə qaynı Əhmədli Qorxmaz qatılır. Daha sonra Fərid çağırışçı kimi çağırılır. Qapıdan çıxanda Ülviyyə xanıma ***"Gedib dönməmək var, nə olur olsun güclü ol"*** deyir. Son dəfə sevdiyinin əlindən tutub ***"Bir gün mən olmasam, nə edərsən?"*** sualını verəndə Ülviyyə xanım acizanə baxışlarla gözlərindən yanaqlarına iki damla yaş süzüb. Sanki sevdiyinin yollarına gözləri su çiləyib ki, yolu aydınlıq olsun. O yol aydınlıq oldu. Vətən üçün, xalq üçün aydınlıq oldu. Ancaq sevdiyinin geri dönmədiyi bir yol oldu. Əbədi ayrılığın başlanğıcı o iki damla göz yaşı oldu.

Fərid 30 sentyabrda ilk olaraq Gəncəyə gedib. Oradan Murovdağ istiqamətində döyüşlərə başlayıb. Neçə-neçə şəhidin son nəfəsinə şahid olub. Artıq ömür yolunun şəhadət yoluna çatacağını hiss edən Fərid sevdiyindən halallıq istəyib. Sonra Füzuli, Cəbrayıl, Xocavənd uğrunda mübarizə aparıb. Oktyabrın 28-də Ülviyyə xanımla 47 saniyə danışıb. Ancaq qızlarından danışıb və onları Ülviyyəyə tapşırıb.

O 47 saniyə bir ömrə bədəl və bir ömür boyu unudulmayacaq xatirəyə çevrilib. İçində "kaşkilər, bəlkələr" olan xatirələrə. Oktyabrın 29-da Xocavənd istiqamətində Fəridin ürəyi snayperdən açılan atəşə tuş gəlib. Həmin an torpağın üzərinə çökən Fərid son nəfəsində xırıltılı səslə "Kəlmeyi-şəhadət" deyib və gözlərini yumub.

Ülviyyə xanım bilirdi ki, Fərid onu intizarda saxlamaz. Elə ona görə də Fəridin gəlməyən zəngləri onu qorxudurdu. Artıq ürəyinə o qorxunc yoxluq hissi dolmuşdu. Noyabrın 10-da qardaşı Qorxmaz Əhmədli zəng edib "Qələbə qazandıq" deyəndə Ülviyyə xanım "Bircə Fərid də zəng etsəydi, dərdim olmazdı" deyib. Körpə Damla və Nəzrin atasının və dayısının dönüşü üçün analarından tort bişirməsini xahiş edib. Ancaq o sevinc heç zaman yaşanmayıb.

– Ata, Fərid necədir?

– Qızım, Fəridi ürəyindən vurublar.

O an ucalan naləni təsəvvür etmək insanı ürküdür. Təsəvvür etməkdə aciz qaldığımız o anları yaşayan insanlar var. Ülviyyə xanım da onlardan biridir.

Noyabrın 11-də Füzuli rayonunda şəhid nəşləri arasından Fəridin nəşi götürülür və Şəkiyə yola salınır. Fəridin tabutunu analar övlad tabutu kimi qarşılayırlar. Hər kəs anasız şəhidə ana kimi yanır. Noyabrın 12-də Fərid anasının uyuduğu məzarlıqda əbədiyyətə uğurlanır.

Əsgər Hüseynov Fərid Etibar oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, " Hərbi xidmətdə fərqlənməyə görə" medalı, "Füzulinin azad olunmasına görə" medalı, "Cəbrayılın azad olunmasına görə" medalı və "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilib.

Damlanın təhsil aldığı sinif otağı Fəridin adını daşıyır. Hər dəfə o sinif otağına qədəm qoyan Damlanın duyğularını izah etmək mümkünsüzdür. Bircə onu yaza bilərəm ki, atasını itirdikdən sonra Damla gülüşünü də itirib. Atalı uşaq görəndə üzünü çevirib göz yaşlarını gizlətməsi onun ömür boyu oynamaq rolunda qalacağı bir roldur.

"Ana, ata cənnətdən gələ bilmirsə, biz atamızın yanına gedək" deyən Nəzrinin sözlərinin mənası isə həsrəti kimi hər gün daha da dərinləşir. Atasının göylərdə olduğu düşüncəsi ilə yerdən çox göyləri sevir Nəzrin.

**Fərid Hüseynovun həyat yoldaşı Ülviyyə xanım:**

– Fərid, ***"şəkillərimdən təsəlli al"*** deyib göndərdiyin son şəklin səni əvəz eləmir. Yoxluğun hər gün daha sərt şəkildə çırpılır üzümə. Mən sənsizlikdə boğuluram...



## ŞƏHİD FƏRİD

Sənin ömür yoluna kədər izini saldı,
Ananın ayrılığı dözülməz həsrət oldu.
Sən də köçdün dünyadan, adın dillərdə qaldı,
Vətənə ümid olan bir qəhrəman şəhidtək,
Fərid, səndən yarına qaldı bir qanlı köynək.

Görmədiyin torpaqlar qanın ilə pakландı,
Sən pozmadın şəhidim, içdiyin vətən andın.
Vətənin keşiyində oğul kimi dayandın,
Xocavənddə ürəyin bir atəşə tuş gəldi,
O atəş arzuları, ümidləri də dəldi.

Atasızlıq yazıldı qızlarının bəxtinə,
Əbədi həsrət qaldı onlar sənin sevginə.
Həsrət izin salacaq sənsiz ötən hər günə,
Adının iftixarı dərdin kimi dərindir,
Vətənin azadlığı, Fərid, son əsərindir.

***09.04.2023***



**İBRAHİMOV ELSEVƏR ETİBAR OĞLU**

ƏSGƏR
*(Çağırışçı)*

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## PAYIZDA ÜMİD OLAN, PAYIZDA ƏBƏDİ SOLAN ŞƏHİD

*Bəzi ömürlər qısa olur. Sanki o qısa ömür on illərdən deyil, yüz illərdən ibarət olur. Çünki qısa olsa da, o ömürdən unudulmaz və təkrarolunmaz xatirələr boylanır. Bir payız vətən torpağında ümid kimi cücərən Elsevərin ömrü iyirmi birinci yaş günündən altı gün sonra elə vətən torpağının azadlığı uğrunda da dərilir. Payızda gəlişi ilə ailəsinə ümid olan vətən oğlu elə payızda da vətənə ümid olur. Adında el sevgisi cəm olan Elsevər elin sevgisinə qərq olur. Şəhid kimi, şahid kimi, azadlıq əsərinin yazıçısı kimi. Biz o əsəri oxumaqdan heç doymuruq. Elsevərin yaşamaqdan doymadığı kimi. Elsevər sevərlərin ondan doymadıqları kimi.*

Tükəzban ananın ürəyinin övlad dərdinə sərdabə olması silinməz qismət yazısı idi. Dörd övlad (Xatirə, Aytac, Elsevər və Alişan) anası olan Tükəzban ana hələ illər öncə qızı Aytacla bərabər yol keçən zaman bir qəzaya tuş gəlir. Həmin zaman ananın gözləri önündə 12 yaşlı Aytacı can verir. O gün bala dağı ilə dağlanan ana ürəyi illər sonra şəhid oğul dərdi ilə təkrar dağlanır. Bu dərd başqa dərdlərdən çox fərqli olur.

İbrahimov Elsevər Etibar oğlu 6 noyabr 1999-cu ildə Şəki rayonunun Layısqı kəndində dünyaya göz açıb. Etibar kişiyə, Tükəzban xanıma üçüncü dəfə valideyn



olmaq sevincini yaşadıb. Böyüdükcə ailəsinə hərtərəfli kömək olmağa çalışıb. Sahiblənmə duyğusu güclü olan Elsevər hər zaman sevgisi ilə ürəkləri isidib.

Elsevərin məktəbli həyatı 2005-ci ildə Aşağı Göynük kənd tam orta məktəbində başlayıb. IX sinfə qədər oxuyub. Qismətində ali məktəbə qəbul olmaq olmasa da, ali məqama ucalmaq olub.

2018-ci ildə Elsevər də vətən keşiyində durmaq yaşına çatmışdı. Həmin ilin ilk günlərində müddətli həqiqi hərbi xidmətə gedən qəhrəman xidmətə Goranboy rayonunda yerləşən N saylı hərbi hissədən başlasa da, üç ay sonra Ağdam rayonunda yerləşən N saylı hərbi hissədə davam etdirmişdi. Xidməti zamanı iki dəfə məzuniyyətə getmişdi. 2019-cu ildə xidmətini uğurla başa vurmuş və evinə dönmüşdü. Həmin vaxtdan müharibəyə gedənə qədər öz alın təri ilə halal çörək qazanaraq ailəsinə kömək olmuşdu.

***– Ana, biz getməsək, kim gedib torpaqlarımızın müdafiəsində duracaq? Kim vətənimizi azad edəcək?***

O suallara oğlunun döyüşə getməsindən qorxan Tükəzban ana cavab verə bilmir. Axı onun ən böyük arzusu oğlunun vətənə layiq oğul olması idi. Gün o gün idi. Vətənə layiq oğullar vətənə sahib çıxır, vətən torpaqlarının azadlığına yetişirdi. Hələ illər öncə 1990–1994-cü illərdə Elsevərin əmisi İxtiyar da vətənə sipər olan oğullardan biri olmuşdu. Həmin zaman Füzuli, Qubadlı rayonlarının müdafiəsi uğrunda vuruşsa da, işğal qaçılmaz olmuşdur. İllər sonra sentyabrın 29-da çağırışçı kimi vətənin azadlıq savaşına qatılan Elsevər elə həmin torpaqları azad etdikdən sonra əmisinə zəng edib azadlıq müjdəsini vermişdi.

Döyüşdə olduğunu anasından gizləyərək Füzuli rayonundan qanlı vuruşlara başlayan qəhrəman Cəbrayıl, Tuğ kəndi, Xocavənd uğrunda gedən döyüşlərdə mücadilə aparıb. Şuşanın azadlıq yollarında addımlayıb. Şuşanın azadlıq sevincinin səbəbkarlarından və yaşayanlardan biri olub. Yeni yaşına Qarabağ torpağında qədəm qoyan Elsevər yeni yaşının cəmi üç gününü yaşaya bilib. 9 noyabrda zəfər sədasının duyulmasına cəmi 2 saat qalmış atəşkəs imzalansa da, düşmən yenidən azğınlaşır və hücuma keçib. Həmin zaman atılan minamyotun qəlpəsi Elsevərin sevgi ilə döyünən ürəyinə dəyib. Elə həmin an Elsevərin ürəyi dayanıb.

Cəmi iki gün öncə noyabrın yeddisində danışmışdı anası ilə. Hər şeyin yaxşı olduğunu, çox az vaxtda dönəcəyini demişdi. Ancaq onun dönüşü əbədi gedişin başlanğıcı oldu. Bir neçə gün Elsevərdən zəng gəlməyəndə ailəsi onun başına bir hadisə gəldiyini düşünmüşdü.

Noyabrın 14-də ailəsi Elsevərin şəhid olduğu xəbərini alır. İxtiyar kişi bir zamanlar hər daşına, qayasına canını sipər etdiyi Füzuli torpağına gedir. Onun

gedişinin səbəbi isə Füzulidəki morqdan Elsevərin nəşini götürmək olur. Noyabrın 14-də gecə nəşi Şəkiyə gətirilən Elsevər ertəsi gün bayrağa bürünmüş tabutda evinə gətirilir. Ana-atası ikinci dəfə övlad tabutuna sarılırlar. İkinci dəfə Layısqı kənd məzarlığına övlad cənazəsi aparan valideynlərin göz dağına, qəlb yarasına çevrilir qoşa övlad məzarı.

Vətən uğrunda can verən əsgər İbrahimov Elsevər Etibar oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin əmrinə əsasən şəhadətindən sonra "Vətən uğrunda" medalı "Cəsur döyüşçü" medalı və "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Şəhidini hər zaman ehtiramla xatırlayan Layısqı kənd camaatı Elsevərin adına bulaq inşa etdirib.



## ŞƏHİD ELSEVƏR

Yaşam ümidlərin bir başlanğıcı,
Nəfəs ümidlərin qol-qanadıdır.
Nəfəsi bitənlər o ümidlərin,
Susmayan naləsi və fəryadıdır.

Bitən nəfəsinlə vətən köksünə,
Min ümid əkildi, mini dərildi.
Elsevər, sevgini səni sevənlər,
Dünyaya çilənən bir nur bilirdi.

Hər iki dünyanın nuruna döndün,
El üçün, vətənçün can verən, oğul.
Səni Qarabağa çatdırdı amma,
Dünyadan ayırdı çıxdığın o yol.

Azadlıq sevincin yaşayan qəlbin,
Bir anda tuş oldu bir kor qəlpəyə.
Görəsən sonuncu nəfəsin çatdı,
Vətən torpağını son kəz öpməyə?!

*09.04.2023*



**ABIŞOV ÜLVİ**
**BAYRAM OĞLU**

**ƏSGƏR**
***(Çağırışçı)***

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## ŞƏKİDƏ BAŞLAYAN, ŞUŞADA BİTƏN ÖMÜR YOLU

*Ömür insana Allahın bəxş etdiyi əvəzsiz bir nemətdir. Hər insanın ömrü fərqli olur. Kimisi uzun ömür yaşayıb bir iz qoymadan köçür bu həyatdan, kimisi də qısa ömür yaşayaraq hər kəsin ömründə iz qoymağı bacarır.*

*Hər kəsin gəldiyi dünya eynidir. Ancaq hər kəsin getdiyi dünya fərqlidir. Hər insan cənnəti qazana bilməz. Ancaq şəhidlər cənnəti qazanırlar. Öz qanları ilə həm cisimləri, həm də torpaq qüsl alır. Beləcə cənnət öz müqəddəslərinə qucaq açır. Həmin o müqəddəslərdən biri də Ülvi Abışovdur.*

23 aprel 1997-ci ildə Şəki rayonunun Turan qəsəbəsində dünyaya göz açan Abışov Ülvi Bayram oğlu ailəsinin ilk övladı olub. Tünzalə ana oxuduğu əsərin qəhrəmanının adını öz oğluna qoyanda bilməzdi ki, zaman gələcək Ülvi özü Azadlıq əsərinin qəhrəmanı olacaq. Ancaq ötən zaman Ülvini bir qəhrəman olaraq böyütdü. İllər öncə əmisi Abışov Vüqar Eyvaz oğlunun Ağdam, Füzuli uğrunda mübarizə apardığı kimi Ülvi də vətən torpaqlarının azadlığı uğrunda son nəfəsinə qədər vuruşdu.

Ülvi ailəsinin iki oğul övladından ilki idi. Qardaşı Elmi ilə birlikdə uşaq arzularını gerçək edə-edə böyüyürdülər. Böyüdülər o arzular da böyüdü. İlk dəfə məktəbə getdilər. Ülvi 2003-cü ildə Şəki rayon Turan qəsəbə tam orta məktəbinə qədəm qoydu. Musiqiyə də böyük marağı olduğu üçün 2005-ci ildə musiqi məktəbində tar ixtisası üzrə təhsil aldı. Tarda həzin ifaları ilə ürəklərə toxunan Ülvi bir zaman şəhid adı ilə ürəklərə toxunacağını bilmirdi. 7 illik musiqi təhsilini 2012-ci ildə, 11 illik təhsilini isə 2014-cü ildə başa vurdu.



Ülvi 18 yaşını tamam etdikdən sonra müddətli həqiqi hərbi xidmətə gedib. Xidmətə Gəncə şəhərində yerləşən N saylı hərbi hissədə başlayıb. Sonra Tovuz rayonunun Əlibəyli kəndində yerləşən N saylı hərbi hissədə xidmətini davam etdirib. 2017-ci ilin oktyabrında xidmətini başa vurub.

Ülvi mehriban, xoşrəftar, canayaxın insan olub. Hər zaman ailəsinə dəstək olub. Əlindən gələn köməyi kənd camaatından əsirgəməyib. Ona görə də bu gün də kənddə hər kəsin gözləri Ülvini axtarır. O, vətən üçün, xalq üçün doğuldu, vətən üçün, el üçün də canından keçdi.

27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başlayanda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qismən səfərbərlik elan edən zaman Ülviyə də döyüşə getmək barəsində xəbərdarlıq gəldi. 29 sentyabrda sevinərək müharibəyə yola düşdü. Doğmaları Ülvinin bu sevincinin, gülüşünün səbəbini o zaman anlamasalar da, sonradan onun şəhadətə çatacağı yola qədəm qoyduğu üçün sevincli olduğu bəlli oldu.

Ülvi ilk olaraq Gəncə şəhərində yerləşən N saylı hərbi hissəyə gedib. Bir müddət Gəncədə təlim keçdikdən sonra döyüşlərə qatılıb. Noyabrın 1-də zəng etdiyində Cəbrayılda olduğunu bildirib. Füzulidə, Zəngilanda döyüşüb. Noyabrın 6-da son dəfə valideynlərinə zəng edib. O gündən sonra Ülvinin zəngləri kəsilib.

Azərbaycan Ordusunun Şuşanı necə azad etdiyi bütün dünyaya bəyandır. Hərbi texnika olmadan əlbəyaxa döyüşlərə qatılan qəhrəmanlar düşmənin və ölümün gözlərinə dik baxaraq irəli addımladılar. Həmin o qəhrəmanlardan biri də Ülvi idi. 8 noyabrda Şuşanın azadlığının səbəbkarlarından biri olan Ülvi elə həmin gün düşmənlə üz-üzə vuruşaraq beş güllə yarası alır. İllərlə görmək arzusunda olduğu Şuşa Ülvinin son gördüyü vətən torpağı olur.

Hər kəs kimi Ülvinin valideynləri də Şuşanın azad olunduğuna sevinirdilər. Ancaq ürəklərində qəribə bir nisgil də var idi. Noyabrın 9-dan ailə Ülvini axtarmağa başlayır və bu axtarış noyabrın 16-na qədər davam edir. Həmin günlər ərzində Ülvinin bir çox silahdaşlarının yaralı olduğu məlum olur. 16 noyabrda Şəki Rayon İcra Hakimiyyətinin nümayəndələri atasına Ülvinin Füzuli rayonundakı hospitalda yaralı olduğunu deyirlər. Daha dəqiq məlumat üçün ailənin təcili Füzuliyə getməli olduğu bildirilir. Lakin ailə Ülvinin deyildiyi kimi yaralı yox, şəhid olduğuna şahid olur. Bu ən ağır, ən kədərli görüntü olur.

Ülvinin nəşi Şəkiyə gətirilir və 17 noyabrda doğulduğu, ilk qədəm qoyduğu, ilk məktəbə getdiyi, ilkləri yaşadığı Turan qəsəbəsindəki məzarlıqda dəfn olunur. Hər kəsin müvəqqəti qonaq olduğu dünyada Ülvi çox qısa müddətlik qonaq olur və əbədiyyətə köçür.

Əsgər Abışov Ülvi Bayram oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Cəsur döyüşçü" medalı və "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Turan qəsəbəsində şəhidlərimizin adlarını əbədi olaraq yaşatmaq üçün Ülvinin də adı həkk olunmuş bulaq inşa edilib.



## ŞƏHİD ÜLVİ

Adını duyduğun Şuşa torpağı,
Sonuncu anının şahidi oldu.
Torpağın üstündə qalan cisminə,
Ucalan o dağlar keşikdə durdu.

Şəkidən Şuşaya çatdı yolların,
Sonuncu səfərin oldu o səfər.
Sənintək qəhrəman oğullar ilə,
Yenilməz ordumuz oldu müzəffər.

Qaməti əyilən xarıbülbülə,
Elə bil yenidən nəfəs verdiniz.
Düşmən tapdağında qalan çiçəyin,
Ləçəklərindəki qanı sildiniz.

Çox qısa olsa da ömür yolların,
Min il bəs eləməz səndən yazmağa.
Ömrü qısa olan qəhrəman Ülvi,
Bənzədin vətəndə yanan çırağa.

*10.04.2023*



MƏMMƏDOV PƏNAH
İSLAM OĞLU

ƏSGƏR
(*Çağırışçı*)

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## ADI ZİRVƏLƏRİ FƏTH EDƏN PƏNAH

*Arzular müxtəlif olur. Hər insanın həyatında arzuları önəmli rol oynayır. Çünki insan arzularına çatmaq üçün hər zaman mücadilə edir. O arzuların sırasında bir arzu var ki, hər insan o arzunu sığdıra biləcək qədər böyük ürək daşımır. Şəhadət arzusu! Vətənə nə qədər sevdalı olasan ki, sən öz canından keçməyi arzulayasan. Bu arzunu dilə gətirən qəhrəmanlardan biri idi Pənah Məmmədov. Hələ hərbi xidmətə gedən gün Orta Zəyzid kəndindəki yüksəkliyə çıxıb əlində bayraq dalğalandıraraq bu sözləri dilə gətirmişdi:*

***– Mən şəhid olacağam. Bir gün bu zirvə "Şəhid Pənah" zirvəsi kimi tanınacaq. Hər kəs bu zirvəyə şəhid izinin qaldığı yer kimi baxacaq.***

*Elə də oldu. Pənahın dediyi kimi bu gün hər kəs o zirvəni "Şəhidlər Zirvəsi" kimi tanıyır və ziyarət edir.*

Məmmədov Pənah İslam oğlu 26 avqust 2000-ci ildə Şəki rayonunun Orta Zəyzid kəndində dünyaya göz açıb. O, ailəsin ilk övladı olub. Atası oğluna Pənah adını qoyub. Pənah ilk ailəsinə pənah olub, sonra isə Qarabağa. Özündən sonra dünyaya gələn bacısına Bahar adını da elə Pənah qoyub.

Könül ana heç zaman təsəvvür etməzdi ki, 39 yaşında bir şəhid anası kimi Azərbaycan xalqının anasına çevriləcək. Oğlunun vətən sevgisi bəzən ananın



ürəyini titrədəcək qədər dərin olduğu üçün ana bəzən bu sevginin hansı yerə varacağından qorxurmuş. Axı ***"Ana, mən şəhid olacam"*** sözlərini övladından duymaq heç də asan qəbul edilə biləcək sözlər deyil. Hər dəfə ana ürəyinə xəncər kimi saplanan o sözlər 20 il sonra ürəyində sağalmaz bir yaraya döndü.

Pənah Məmmədov 2006-cı ildə Şəki rayon Ə. Məmmədov adına Orta Zəyzid kənd 2 nömrəli tam orta məktəbində təhsil almağa başlayıb. Elə həmin məktəbdən də məzun olub. 2017-ci ildə Şəki Dövlət Texniki Kollecinə qəbul olub və "Turizm və idarəetmə" ixtisası üzrə təhsil alıb. 2018-ci ildə təhsilini dondurub və oktyabrın 5-də müddətli həqiqi hərbi xidmətə yollanıb. İlk olaraq xidmətə Ağcabədi rayonunda yerləşən N saylı hərbi hissədə başlayıb. Daha sonra Beyləqan rayonunda düşmənlə üz-üzə olan səngərlərdə vətənin keşiyində dayanıb. Həmin səngərlə düşmən arasında olan məsafə cəmi 200 metr olub. Bəzən düşmənin danışığını belə duyduğu halda düşməni məhv etməmək Pənahın çətinliklə cilovladığı qisas duyğusu olub. O bir kəşfiyyatçı olduğu üçün düşmənin hər addımını dəqiqliklə izləyib və yeri gəldiyində düşmənə həddini bildirib. Pənah 2020-ci il aprelin 20-də xidmətini bitirib evinə dönüb. Ancaq çox qısa müddətdə düşməndən qisasını almaq üçün dönəcəyi hər halından bəlli olub. O qisas günü 27 sentyabr 2020-ci ildə çatıb.

Pənah müharibəyə səfərbərliyin çağırışı ilə gedən qəhrəmanlardan biridir. Sentyabrın 28-də səfərbərlikdən gələn çağırış vərəqini görən Pənah ən böyük arzusunun yollarına qədəm atacağı üçün sevincinin həddi-hüdudu olmur. Könül xanım isə oğlunun şəhid olmaq arzusunu bildiyi üçün oğlunun getdiyi kimi dönməyəcəyini sanki hiss edir. Elə onun üçün də oğlundan ayrılmaq istəmir. Ancaq Pənah ***"Nə olur olsun, mən müharibəyə gedəcəyəm. Dönüşüm necə olur olsun. Əsas odur vətənə pənah olum"*** deyir.

Pənah ilk olaraq Gəncə şəhərində yerləşən N saylı hərbi hissəyə gedir. 1 həftə ərzində Şəmkir rayonunda və digər istiqamətlərdə güclü təlimlərə qatılır. Sonra müharibəyə yollanır. Lakin son nəfəsinə qədər döyüşlərdə olduğunu ailəsindən gizlədir və elə Gəncədə olduğunu deyir.

Füzuli rayonu uğrunda döyüşlərə qatılan Pənah Şuşaya qədər gedib çıxır. Noyabrın 4-dən 6-na qədər bir neçə dəfə valideynləri ilə danışır. Hər dəfə daha zəng edə bilməyəcəyini deyir. Son danışığı noyabrın 6-da olur. Dediyi kimi ondan sonra daha zəng etmir. Dostuna ***"Bəlkə də, 1 saat ömrüm qalıb"*** deyən Pənah sanki ömrünün sonu olduğunu hiss edir.

Noyabrın 8-də Könül ana bir yuxu görür. Yuxuda Pənahı başı qopmuş, ayağı qatlanmış halda uca bir dağın zirvəsində görür. Yuxudan ayılan ana oğlunun şəhid olduğunu hiss edir. Ana ürəyi hiss edər. Sən demə, elə həmin gün ananın yuxuda

gördüyü kimi Pənah başından və ayağından aldığı qəlpə yarası nəticəsində şəhid olur.

Qarabağın sinəsindən keçən yollara igidlər canlarını körpü edə-edə noyabrın 8-də Şuşaya azadlıq nurunu saçdılar. Neçə oğulun canı, qanı bahasına Şuşa azad olundu. Həmin döyüşlərdə Pənah öz komandiri olan Naxçıvanın Culfa rayonunda doğulub Şuşaya ümid olan Nəcəfov Yaqub Məhəmməd oğlu ilə birlikdə böyük şücaətlər göstəriblər. Əlbəyaxa döyüşlərdə düşmənin xeyli sayda canlı qüvvəsini məhv ediblər. Şuşadan Xankəndinə gedən yolda qəhrəmancasına vuruşaraq hər iki qəhrəman şəhid olub. O döyüşdə Amil Musayev düşmən tərəfindən əsir götürülüb. Düşmənin gözünə dik baxan Amil yaralı olsa da, qəhrəman Azərbaycan oğlu kimi düşmənə həddini bildirib. Bax budur vətən sevgisi. Düşməninin nə qədər əzazil olduğunu bilsən də, yenə də mübariz olursan. Çünki düşmən Mübarizələrin cansız cisimlərinin qolunu qandallayacaq qədər qorxaqdır.

Artıq iki gün idi Azərbaycan Ordusu zəfər qazanmasına baxmayaraq Pənahdan bir zəng gəlmirdi. Ailə hər yerdə Pənahı axtarırdı. Hərə bir söz deyirdi. Günlərlə baş tutan axtarışların bir nəticəsi yox idi. İslam müəllim oğlunu haralarda axtarmamışdı ki? Neçə-neçə şəhid nəşinin arasında oğlunu axtaran ata bütün şəhidlərə bir valideyn kimi yanmışdı. Ancaq Pənahın izinə rast gəlməmişdi. Noyabrın 16-da Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəki Rayon İdarəsindən gələn zənglə Pənahın nəşinin Füzulidə olduğu xəbəri deyilən zaman ailənin bütün ümidləri sona çatdı.

Noyabrın 17-də Şəkiyə üç şəhid gəlib. Namaz Allahverdiyev, Ülvi Abışov və Pənah Məmmədov. Pənahın nəşi saat 16:00-da evinə gətirilib. Oğlunun üzünü son dəfə görmək üçün ana bütün fəryadını ürəyində boğub. Sakit-sakit Pənahının çöhrəsini oxşayan Könül ana son dəfə oğlunun qoxusunu içinə çəkib. *(İlahi, yazarkən ürəyim bu qədər dağlanır. Bəs o anı yaşayan ana ürəyi necə tab edib?)* Ananın qollarından balası əbədi ayrılıb. 17 noyabrda Orta Zəyzid kənd məzarlığında Pənah adlı bir qəhrəmanın əbədi məqbərəsi ucalıb.

Əsgər Məmmədov Pənah İslam oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Cəsur döyüşçü" medalı və "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Bir zamanlar Pənahın arzuladığı kimi Zəyzid kəndindəki yüksəklik "Şəhidlər Zirvəsi" adlandırılıb. Bundan başqa kənddə bir zamanlar yaşadığı evin yanında ailəsi şəhidin adına bulaq inşa etdirib. Qırxbulaq kəndində isə Məhəbbət müəllim Pənahın adına ikinci bulağı inşa etdirib.



## ŞƏHİD PƏNAH

Sən elə bir zirvə fəth eləmisən,
Dağlar vüqarına qibtə eləyir.
Əzmini eşidən hər bir vətəndaş,
Adını fəxarət ilə söyləyir.

Ən böyük arzundu bir şəhid kimi,
Qəlblərdə, vətəndə sən iz qoyasan.
Qarabağ adlanan dilbər guşəyə,
Zirvələr fəth edən bayraq sancasan.

O arzu yoluna qanın çiləndi,
Qanından bir damla düşdü bayrağa.
Azadlıq yoluna qədəmin qoyub,
Pənah, pənah oldun sən Qarabağa.

Gözündən oxunan vətən sevgisi,
Daha daş məzarda əbədi donub.
Sənin son nəfəsin şəhid qanıyla,
Paklanan Şuşaya əbədi qonub.

***11.04.2023***



**SOLTANLI ŞAHMAR QİNYAZ OĞLU**

ƏSGƏR
*(Çağırışçı)*

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## SUQOVUŞANA QANI QARIŞAN ŞAHMAR

*Hər dəfə bir şəhid ömrünün izinə düşdüyümdən sanki illərdi tanıdığım bir insanın həyat hekayəsini dinlədiyimi sanıram. Hər şəhidin həyat hekayəsində mütləq ki, başqa bir şəhidin həyat hekayəsinin izi olur. Heç zaman görmədiyim bir insanın bu qədər tanış gəlməsinin səbəblərindən biri budur. Digər səbəbləri isə sadalamaqla bitməyəcək. Bircə onu deyə bilərəm ki, şəhid Şahmar da mənə digər şəhid qardaşlarım kimi vətən qədər doğma, vətən qədər əzizdir. Çünki cismi vətən, adı isə vətənə təndir. Vətənə tən oğulların məzarları and yerimiz, əmanətləri isə vətənimizdir. Çünki hələ sevgi bağından yar adlı qönçəni dərmədən, övlad qoxusunu duymadan şəhid olan Şahmar və onun kimi qəhrəmanların vətəndən başqa bir əmanətləri qalmayıb.*

Soltanlı Şahmar Qinyaz oğlu 20 fevral 1996-cı ildə Şəki şəhərində anadan olub. Özündən böyük Elgün adında bir qardaşı olan Şahmar heç bilməzdi ki, o qardaş gün gələcək həm ata olacaq, həm qardaş. Həyatın ən çətin yükünü həm ata tabutunu, həm qardaş tabutunu daşıyacaq. Anası Gülxar xanımın bu dünyada tək dayağı olacaq.

Şahmar 2002-ci ildə Şəki şəhər 5 nömrəli tam orta məktəbdə təhsil almağa başlayıb. İdmana çox marağı olub. Eyni zamanda musiqi duyumu çox gözəl olduğu üçün musiqi məktəbində tar ixtisası üzrə təhsil alıb. O, demək olar ki, bir



çox alətlərdə gözəl ifa edib. Pianonu dilləndirəndə isə ürəkləri riqqətə gətirib. Sanki musiqi ilə duyğularını dilə gətirən Şahmarın ruhunun sədasını duyanlar çox olub.

Şahmar 2011-ci ildə IX sinfi bitirdikdən sonra sənədlərini Şəki Musiqi Kollecinə verir. Anası Gülxar xanım eyni zamanda Bakı Humanitar Kollecini də yazır. Qismət elə gətirir ki, Şahmar Bakı Humanitar Kollecinə qəbul olur. Ailəsinə yük olmamaq üçün həm oxuyur, həm də işləyir. 2015-ci ildə kolleci bitirir. Lakin diplomunu almaq ona qismət olmur.

Şahmar ***"Ana tellərindəki bəyazlar mənim ucbatımdan düşüb"*** deyərək hər zaman Gülxar ananın tellərini oxşayardı. Ancaq o bilməzdi ki, anasının başı zamansız qarlı dağları utandıracaq. Əvvəlcə yar itkisi ilə, sonra oğul itkisi ilə.

2016-cı il noyabrın 17-də Şahmar atasını itirir. Həyat o gündən sonra daha da çətinləşir. Elə həmin səbəbdən də hərbi xidmətə bir qədər gec gedir. Şahmar 2018-ci ilin oktyabr ayında vətənə xidmət etmək üçün müddətli həqiqi hərbi xidmətə gedir. Goranboy rayonunun Ballıqaya kəndində yerləşən N saylı hərbi hissədə xidmətə başlayır. Sonra Tərtər rayonunda xidmətini davam etdirir. Şahmarın xidmət etdiyi hərbi hissə düşmənin bir addımlığında olur. Anasıgil yanına gedən zaman oğlunun hansı şəraitdə xidmət etdiyini görür. O gündən sonra ananın ürəyindəki narahatlığı artır. Çünki Şahmarla düşmənin arasında cəmi bir daş hasar olur. Qumbaraatan vəzifəsini icra edən Şahmar 2020-ci ildə xidmətini başa vurur.

Şahmar müharibəyə çağırışçı kimi gedən qəhrəmanlarımızdan biridir. Oktyabrın 3-də çağırışçı kimi müharibəyə çağırılan qəhrəman oktyabrın 5-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəki Rayon İdarəsinə gedir. Bərdə rayonuna gedən Şahmar komandirin "Kim qaynar döyüşə qatılmaq istəyirsə, önə çıxsın" deməsi ilə önə ilk çıxanlardan biri olur. Beləliklə, Şahmarın döyüş yolu başlayır. Hadrut, Suqovuşan uğrunda mübarizə aparanlardan biri olur. Döyüşdə yaralanır. Komandiri onu geri göndərmək istəsə də, o israrla döyüşə davam etmək istədiyini deyir. Yaralı halda döyüşə davam edir. 17 oktyabrda Suqovuşan istiqamətində yaralı silahdaşlarını atəş nöqtəsindən çıxararaq onların həyatda qalmaqlarının səbəbkarı olsa da, özü minaya düşür və şəhid olur. Həmin ərazi neytral olduğu üçün bir müddət Şahmarın nəşini götürmək mümkün olmur. Həmin zaman qardaşı Elgün, əmisi, dayısı Şahmarı xəstəxanalarda, morqlarda axtarmağa başlayırlar. Ancaq bir izə rast gəlmək mümkün olmur. Oğluna həyatda olmamağı qondurmayan Gülxar anadan koronavirus xəstəliyini bəhanə gətirərək analiz götürülür. Noyabrın 24-də Şahmarın şəhid olduğu təsdiqlənir. Anaya keyidici iynə vurulur ki, oğul acısına tab gətirə bilsin. Noyabrın 24-ü Gülxar ananın yaddaşına oğul tabutu aldığı gün kimi həkk olunur.

Qardaşının öndə vuruşduğunu anasından gizlədən Elgün "Ana, məni bağışla sənə yalan demək məcburiyyətində qaldım. Sən Şahmarın döyüşdə olduğunu bilsəydin, çox acı çəkərdin. Bilirəm, indi daha çox acı çəkirsən və mən bu acının önündə acizəm" deyib. 24 noyabrda Gülxar ana oğlunun tabutuna son dəfə sarılır. Elgün yeganə dayağı ilə əbədi vidalaşır. Şəki şəhər II Şəhidlər xiyabanında torpağa tapşırılan Şahmar nə bu torpağın son şəhidi olur, nə də bu ailənin son itkisi. Gülxar ananın yar, oğul dağı çəkilən ürəyinə bir də qardaşı Həbibin zamansız ölümü iz salır.

Əsgər Soltanlı Şahmar Qinyaz oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Cəsur döyüşçü" medalı və "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Şahmarın ata ocağı olan küçədə onun adına abidə tikdirilib.



## ŞƏHİD ŞAHMAR

Ayrılıq rüzgarı elə əsdi ki,
Qəlbini sızlatdı sənin, ay Şahmar.
Ata ölümünə tuş gələn qəlbdə,
Başladı əlacı olmaz ağrılar.

Ananın ümidi iki oğuldu,
Sizə sığınmışdı o bu həyatda.
Bilməzdi yarası sağalmaz qəlbdə,
Bir də oğul adlı həsrət boy ata.

Vətən yarasını sağaltmaq üçün,
Yaralı döyüşdün Suqovuşanda.
Sən can xilas edən, can fəda edən,
Şəhidtək tanındın Azərbaycanda.

Bayrağın bərq vuran hilalı kimi,
Cənnətdə nurunla işıq saçırsan.
Mənbəyi ürəklər olan gözlərdə,
Daim çağlayırsan, heç qurumursan.

*15.04.2023*



**ALLAHVERDİYEV VİLAYƏT VALEH OĞLU**

ƏSGƏR
*(Çağırışçı)*

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## BİTMƏYƏN ÜMİDLƏR

*Bəzən ümidlər arzular kimi sonsuz olur. O ümidlərin varacağı bir nöqtə olmasa da, ürək yenə də ümidə köklənir. Bəlkələr kaşkiləri, kaşkilər bəlkələri əvəzləyir. Günlər aylara, aylar illərə dönsə də, yenə də bir ümidlə gözləyirsən. Gəlməyəcəyini bilə-bilə...*

*Mən bu günə qədər şəhid ailələri ilə həmsöhbət olduğum zaman çox çarəsiz qalmışdım. Ancaq Ruhəngiz ana ilə danışdığım zaman bu çarəsizliyin ən böyüyünü yaşadım. Balasını dəfn edən ana hələ də balasının gələcəyini ümidlə gözləyir. Deyə bilmədim ki, ah ana, artıq illər keçib, Vilayətin vətənin övladı olub. Ana həssasiyyətini nəzərə alıb, ana ürəyinin ən kövrək duyğularını dinlədim. Mən də ananın dilə gətirdiklərinə "kaş ki" dedim. Kaş ki Vilayət ananın xəyallarındakı, yuxularındakı kimi sağ olaydı.*

Allahverdiyev Vilayət Valeh oğlu 19 avqust 2000-ci ildə Şəki rayonunun Birinci Biləcik kəndində dünyaya göz açıb. Vilayətdən öncə ailədə üç oğlan uşağı doğulub ölüb. Ailədə qız uşaqları qalsa da, körpə vaxtlarında tələf olurdular oğlan övladları. İlk həyatda qalan Vilayət olub.

Körpəlikdən həyatın min bir sınağı ilə mücadilə edib Vilayət. Hələ 2 yaşı olanda yıxılaraq güclü travma alıb. Elə o səbəbdən də 4 yaşına qədər danışmayıb. İkinci dəfə isə VII sinifdə oxuyarkən atdan yıxılıb. Həmin zaman onun öldüyü düşünülsə də, Vilayət həyata dönüb. Əcəlin əl çəkmədiyi Vilayət sanki vətən üçün candan keçmək üçün yaşayıb.



Vilayət 2006-cı ildə Şəki rayon Birinci Biləcik kənd tam orta məktəbində təhsil almağa başlayıb. Anası Ruhəngiz xanım kimi Vilayətin də şahmata böyük marağı olub. Demək olar ki, elə anası onun şahmat müəllimi olub. 2017-ci ildə məktəbi bitirib.

Vilayət Allahverdiyev 3 oktyabr 2018-ci ildə müddətli həqiqi hərbi xidmətə yollanıb. Ağcabədi rayonunda yerləşən N saylı hərbi hissədə xidmət edib. Düşmənin hər zaman atəşə tutduğu Qiyaməddinli kəndində düşmənlə üzbəüz dayanaraq vətən keşiyini çəkib. Ancaq düşmənin bir addımlığında olduğunu ailəsindən gizlədib. Xidməti dövründə nizam-intizam qaydalarına riayət etdiyi və nümunəvi əsgər olduğu üçün Tərifnamə ilə təltif edilib. 20 aprel 2020-ci ildə xidmətini başa vurub evinə dönüb. 5 ay sonra geri dönəcəyini bilməyib...

Vətən müharibəsi başlayan anda Səfərbərlik idarəsindən çağırış gələnlərdən biri də Vilayət olur. Sentyabrın 28-də çağırışçı olduğu bəlli olan Vilayət 29 sentyabrda sübh səhər ilk olaraq ziyarətgaha sonra isə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəki Rayon İdarəsinə gedir. Elə həmin gün də Şəki torpağından Qarabağ torpağına çatmaq ümidi ilə ayrılır. Gəncə şəhərində yerləşən N saylı hərbi hissədə bir müddət təlim keçdikdən sonra oktyabrın 13-də Ağcəbədi rayonuna gedir. Döyüş yolu Füzuli rayonundan başlayır. Cəbrayıl, Qubadlı, Zəngilan rayonları uğrunda gedən döyüşlərdə iştirak edir. Düşmənin hər üzvünün başına pul qoyduğu Yaşmanın tərkibində olur. Bunun səbəbi Yaşmanın düşmənə divan tutması idi. Bayrağımızı zirvələrə ucaldan dəstə düşmənə göz dağı verir. Noyabrın 6-da Vilayətin sorağı Daşaltıdan gəlir. Ondan sonra bir kimsə onu görmür.

Son dəfə 25 oktyabrda anası ilə danışan Vilayət yaxşı olduğunu deyir. Sonra isə nə Zəfər gününə qədər, nə də Zəfər günündən sonra Vilayətdən bir xəbər gəlir. Dekabrın 6-na qədər. Həmin müddətdə ailəsi Vilayəti demək olar ki, hər yerdə axtarır, hər kəsdən soraqlayır. Bir deyilən ikinci ilə üst-üstə düşmür. Ailənin narahatlığı gün keçdikcə daha da artır. Ailə ən böyük çarəsizliklə üz-üzə qalır. Gah itkin düşüb deyirlər, gah əsir düşüb deyirlər, gah da şəhid olub deyirlər. Yazıq ailə hansı məlumata inansın bilmir. Uzun müddət var-gəl edən ailəyə dekabrın 6-da Vilayətin şəhid olduğu deyilir. Həmin gün Ruhəngiz ananın üstə bir tabut gəlir. Dörd tərəfi bağlı bir tabut. "İlahi, mənim balam bu qutuya necə sığıb?" deyə fəryad edən ana heç balasını tabutda da görə bilmir. Elə hələ də Vilayətin yollarını gözləməsinin səbəbi də budur. Bir də cavabsız suallar və yuxular.

Vilayət 6 dekabrda Birinci Biləcik kənd məzarlığında dəfn edilib. Bu gəncin adı ürəklərin qaysaq tutmayan yarasıdı.

Əsgər Allahverdiyev Vilayət Valeh oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Cəsur döyüşçü" medalı, "Cəbrayılın azad olunmasına görə" medalı, "Qubadlının azad olunmasına görə" medalı və "Laçının azad olunmasına görə" medalı ilə təltif edilib.

Bəzən düşüncələr sanki qaranlıqda işıq ucu olmayan bir yolda azmış birinə bənzəyir. Ən böyük çarəsizlikdir düşüncələrinin işığa çıxmayacağı.



## ŞƏHİD VİLAYƏT

Hər gün xəyalların qonağı kimi
Gəldiyin dünyadan köçüb getmisən.
Vilayət, dərdinin ünvanı olan,
Qəlblərin bitməyən bir həsrətisən.

Elə qısa oldu ömür yolların,
O yollar çatmadı bir xoşbəxtliyə.
Vətəndə bir ümid doğulan zaman,
Bir an düşünmədən getdin cəbhəyə.

Olmadı gözündə zərrəcə qorxu,
Amalın gözünün önündə durdu.
Sən vətən yoluna qədəm qoyanda,
Bilirdin getdiyin dönülməz yoldu.

Azadlıq arzusu çin olan yurdun,
Hər bir qarışında ömür izin var.
Vətənin yarası sağaldı amma,
Sağalmaz sənsizlik adlı yaralar.

*12.04.2023*



## DAŞDƏMİROV TALEH FƏRHAD OĞLU

ƏSGƏR
*(Çağırışçı)*

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## BAYRAQ SEVDALISI

*Heç bir söz səbəbsiz deyilmir və heç bir addım səbəbsiz atılmır. Bəzən dilə gələn sözün adi bir söz olduğu və yaxud atılan addımın sıradan bir addım olduğu kimi düşünülsə də, zaman gəlir hər şey aydın olur. Elə bir zamanlar Qurban bayramı günü böyük bir bayraqla evinə gələrək Xalidə ananı göz yaşına qərq edən Talehin də etdiyinin böyüklüyü şəhid olduqdan sonra bəlli oldu. Anasına əmanət verdiyi bayrağı döyüşə getdiyi zaman istəyən Taleh o döyüşdən də bayrağa bürünüb döndü. Bayraq sevdalısının məzarı üstə əbədi olaraq bayraq dalğalanacaq.*

Daşdəmirov Taleh Fərhad oğlunun həyat yolu ilk dəfə 5 fevral 1998-ci ildə Şəki rayonunun Qoxmuq kəndində başlayıb. Bacısı Ülviyyədən sonra ailəsi onu bağrına basıb. Taleh 1 yaşında olan zaman ailəsi ilə birgə Bakı şəhərinə köçüb. Bakı şəhərində bağçaya gedən Taleh Bakı şəhər 103 nömrəli tam orta məktəbdə təhsil almağa başlayıb. Ən çox riyaziyyat və fizika fənlərinə marağı olub. Sinif yoldaşlarını öz bacısı, qardaşı qədər əziz bilib. Qorumaq, sahiblənmək duyğusu çox yüksək olan Taleh elə o zamanlardan qeyrətli olub. Məktəbdə oxuyan zaman iki il idmanın karate növü ilə məşğul olub. Vətənpərvər olması onun hər addımından sezilib. Bayraq vazkeçilməzi olub. Azərbaycan Respublikasının Dövlət Himnini telefonunun zəng səsinə qoyan Taleh etdikləri ilə sanki **"Vətən"** deyə haray qoparıb. 2015-ci ildə məktəbi bitirəndən sonra unversitetə qəbul ola bilmədiyi üçün çox üzülüb. Anasına dediyi bu sözlərlə gedəcəyi ünvanı bəlli edib:

***–Ana, mən unversitet oxumasam da, səni dünyaya tanıdacam. Hər kəs səni mənim anam kimi tanıyacaq.***

O zamanlar Xalidə ana övladının nə demək istədiyini anlamayıb. Ancaq zaman keçib Talehin dediyi sözlər gerçək olub.

Taleh Daşdəmirov 2016-cı ilin Aprel döyüşləri ərəfəsində müddətli həqiqi hərbi xidmətə yollanıb. Aprelin 4-də Goranboy rayonunun Ballıqaya kəndində yerləşən N saylı hərbi hissədə xidmətə başlayıb. Üç ay sonra xidmətini Bərdə rayonundakı N saylı hərbi hissədə davam etdirib. Yevlax, Mingəçevir, Ağdam rayonları da Talehin xidmət etdiyi yerlər sırasında olub.

Taleh hərbi xidmətdə olan zaman iki dəfə ölümlə üz-üzə qalıb. Birinci dəfə əlindən ilan sancıb və bir müddət hospitalda yatıb. Ailəsindən bu hadisəni gizlədib. Digər hadisə isə daha təhlükəli olub. O, bataqlığa düşüb. Çox çətinliklə bataqlıqdan çıxarılsa da, üç gün komadan çıxa bilməyib. Hər kəsin ümidinin üzüldüyü vaxtda Taleh barmağını tərpədib həyata dönüşünü işarə edib. O zaman xilas olsa da, gənc yaşında həyata vida etmək qismətinə yazılıb.

Hər gənc kimi Talehin də qəlbini fəth edən bir xanım var idi. 8 il sevənlər sevgilərinə sadiq qalır. Sonra sevdiyinin ailəsindən "Hə" cavabını alır. Nişan tarixləri bəlli olan sevənlər müharibənin sərt sazağına düşürlər. Sevdiyi bilməzdi ki, ad günündə qəlbinə şəhid dağı çəkiləcək. Oğlu döyüşə gedən Xalidə ana niyyət edir ki, Taleh döyüşdən sağ-salamat gələn kimi elə döyüş paltarında da nişanını edəcək. Heç zaman itirmədən də evinə vağzalı ilə gəlin gətirəcək. Ancaq ananın bütün bu arzuları ürəyində qalır. Oğulunun toy mağarı deyil yas mağarı qurulur.

Hər kəs yaxşı bilirdi ki, bir gün müharibə başlasa, Taleh ən öndə gedəcək. Baxmayaraq ki, o evin tək oğlu, bir bacının qardaşı, ata-anasının tək dayağı idi heç bir gerçək onun vətəni azad etmək istəyi gerçəyinin qarşısına keçə bilmədi. Hər gün evə zəng edib hələ də çağırış xəbərinin gəlmədiyinə üzülər, bacısına ***"Könüllü müraciət edib döyüşlərə gedəcəyəm"*** deyərdi. Çox keçmədən sentyabrın 28-də Talehin səbirsizliklə gözlədiyi o xəbər gəlir. Sentyabrın 29-da sübh səhər Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəki Rayon İdarəsinə birinci gedənlərdən olur. Gəncə şəhərindəki N saylı hərbi hissədə bir neçə gün təlim keçir. Füzuli rayonu istiqamətindən döyüşlərə başlayır. Cəbrayıl uğrunda mübarizə aparan Taleh Şuşaya qədər vuruşa-vuruşa gedir. Noyabrın 5-də doğmaları ilə danışır, 6-da isə sevdiyinə Şuşaya gedəcəyini deyir. Lakin anasının bunu bilməsini istəmir. Çünki o, anasının narahat olmağını istəmir.

Talehgilin dəstəsi Şuşa istiqamətində irəliləyən zaman silah və ərzaq olan maşınları düşmən tərəfindən vurulur. İki gün piyada dayanmadan ac-susuz yol gedirlər. Yolda tapdıqları itburnu və yarpaqların üzərindəki şeh ilə qidalanırlar. Ancaq nə aclıq, nə yorğunluq onlara əngəl ola bilir. Noyabrın 7-də qızğın döyüşlərdə yaralanmış hərbçini öz dostu ilə birlikdə çıxarır. Bir canı xilas edən dostlar noyabrın 8-də düşmən atəşinə tuş gəlirlər və şəhid olurlar. 47 gün Talehdən xəbər almaq mümkün olmur. İtkin olduğu bildirilir. Ailəsi onu yaralıların, şəhidlərin içində axtarır ancaq tapılmır. DNT analizi verən ailəyə dekabrın 25-də zəng edib analizə uyğun şəhid olduğu bildirilir. Həmin gün ailəsi övladının nəşini Şəkiyə gətirir. Qısa müddət sonra şəhidin nəşi çiyinlər üstə Qoxmuq kənd məzarlığına doğru yol alır. Taleh məzarlıqdakı Şəhidlər xiyabanında vətən qurbanlarının sırasında torpağa tapşırılır.

Əsgər Daşdəmirov Taleh Fərhad oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı və "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Ailəsi Bakı şəhərində şəhidin adına bulaq tikdirib. Şəki rayonunda da dörd şəhidlə birlikdə Talehin adına bulaq inşa edilib.



## ŞƏHİD TALEH

Bayrağı hünəri ilə,
Zirvəyə ucaldan, Taleh.
Susuz yanan ürəyini,
Sərinlətdi Şuşada şeh.

Atəş sənin ömrünü yox,
Sən yara gül dərəcəkdin.
Sevdiyini gəlinlikdə,
Evinə gətirəcəkdin.

Sənə kəfən oldu, şəhid,
Geyindiyin hərbi forma.
Oğul tabutu oxşadı,
Dərdə düşən ata-ana.

Sən gedəndən gözün yaşı,
Buludları utandırır.
Şəhid adın qürur verir,
Dərdin ürəyi yandırır.

Şuşanın al laləsinin,
Yanağında qan izin var.
Ah şəhidim, bəy otağın,
Oldu buza dönmüş məzar.

*13.04.2023*



**NURULLAYEV ELNUR**
**FƏRHAD OĞLU**

ƏSGƏR
*(Çağırışçı)*

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## YERİ BOŞ QALAN OĞUL

*Bu xalqın şəhid adlı yarası tarix boyu qanayıb. Qonşusu Ermənistan kimi bir dövlət olan xalq illər boyu amansız qonşu və amansız düşmənlə mübarizə aparıb. Düşmənin xisləti dəyişməz qaldığı üçün tarixin hər səhifəsinə qanla nöqtələnən ömürlərin izi düşüb. Bəzi ömürlər beşikdə, bəzi ömürlər səngərdə, bəzi ömürlər ahıl yaşlarında düşmən atəşi ilə kəsilib. Hər biri vətənin şəhidləri olaraq xalqın yaddaşında iz salıb. Axı şəhidlər unudulmazdırlar. Həmin unudulmazlardan biri də Elnur Nurullayevdir. Vətən müharibəsində əvvəlcə itkin düşdüyünün xəbəri ilə sarsıldığımız, sonra isə cisminin parçaları torpağa qovuşan Elnur. Elə ilk itkin xəbərini aldıqları üçün ailəsi hələ də Elnurun bir gün dönəcəyini ümidlə gözləyir. O ümid gerçəyi əks etdirməsə də, "Ümid ən sonda ölür" deyimi tam bu ailənin güman yeridir.*

Ataların dərdini dinləmək bir ayrı iztirabdır. Şəhid atası göz yaşlarını gizlətməyə çalışsa da, ürəyinə daman göz yaşlarını könül gözlərimlə gördüm. Ah Şəhid atası, bu kədəri gizlətmək nə mümkün...

**Elnurun atası Fərhad Nurullayev:**

– Ah qızım, mən Elnurun varlığına doymadım ki, yoxluğu ilə də barışım. Cəmi 20 yaş yaşadı. 20 yaş nədir ki? Mən oğlumun şəhid olduğuna yanmıram, onun bu həyatın gözəlliklərindən doymadan getməyinə yanıram. Min bir zəhmətlə



iki övladım Elnuru və İsanı böyütmüşdüm. Halal zəhmət bizim baş ucalığımız idi. Elə Elnur da döyüşlərə əlləri qabarlı getdi. Başımızı ucadan-uca elədi. Həm Qarabağın azadlığı uğrunda can verdi, həm də adı ilə adımıza şan verdi. Ancaq dərdi də böyükdür. Mən Elnursuzluqla barışa bilmirəm. Bir gün gələcəyi ümidini ürəyimdə öldürmürəm. O ümid ölsə, ölərəm.

Nurullayev Elnur Fərhad oğlu 8 oktyabr 2000-ci ildə Şəki rayonunun Kiş kəndində dünyaya göz açmışdır. O, Fərhad kişi ilə, Sevinc xanımın ilk övlad sevincinə yelkən açmışdı. Xoşbəxtliyin izahı elə Elnur özü olmuşdu. Zaman ötmüş, Elnur böyümüşdü. 2006-cı ildə Şəki rayon A.Məmmədov adına 2 nömrəli tam orta məktəbə qədəm qoymuşdu. Məktəbdə oxuyan zaman musiqi məktəbində də tar ixtisası üzrə musiqi təhsili almışdı. 2017-ci ildə məktəbi bitirmişdi.

Elnur 18 yaşı tamam olan gün müddətli həqiqi hərbi xidmətə gedib. Hətta ailəsinin onun ad gününü qeyd etmək üçün gördüyü tədarük də qalıb. Gəncə şəhərindəki N saylı hərbi hissəyə gedən Elnur andiçmədən sonra Gədəbəy rayonundakı N saylı hərbi hissədə xidmətini davam etdirib. Snayperçi olan Elnur manqa komandiri kimi xidmət edib. 2020-ci ildə xidmətini layiqincə başa vurub.

Allahını, dinini, dilini, vətənini, bayrağını, torpağını, xalqını sevirdi Elnur. Mənəvi dəyərlərə xüsusi önəm verirdi. Qəlbindəki imanı çöhrəsinə yansıyırdı. Elə ilk doğuluşdan Allah onu seçibmiş. Lakin heç kim bunun fərqində olmayıb.

2020-ci il sentyabrın sonu vida mövsümü kimi yaddaşlarda həkk olunub. O vidanın biri də Elnurun və doğmalarının payına düşüb. Sentyabrın 28-də Səfərbərlik İdarəsi tərəfindən çağırışçı olduğu məlumatını alan Elnur ertəsi gün erkəndən döyüşə gedənlər arasında yer tutub. Gəncə şəhərinə gedən Elnur orada təlimlər keçdikdən sonra 13 oktyabrda anasına zəng edib döyüşə girəcəyini və onun üçün dua etməsini istəyib. Elə həmin gün Füzuli rayonunun müdafiəsinə qatılıb. Könüllü olaraq önə çıxıb və 5 nəfərlə birlikdə lazımi tapşırığı yerinə yetirməyə yollanıb. Bütün önəmli tapşırıqların öhdəsindən məharətlə gələn qəhrəman Xocavənd, Cəbrayıl, Qubadlı, Laçın istiqamətində vuruşub. Son dəfə oktyabrın 13-də ailəsi ilə danışan Elnurdan sonra ailəsi heç bir xəbər ala bilməyib. Döyüş yoldaşlarını tapan ailəyə son dəfə Elnuru Şuşa istiqamətində gördükləri deyilib. Lakin uzun müddət Elnurun izinə rast gəlmək mümkün olmayıb.

Şəhid nəşlərinin içindən balanı, hətta balanın bircə parçasını axtarmaq qədər tükürpədici, dəhşətli, ağrılı nə ola bilər? Kim bilir Fərhad müəllimin o an nələr çəkdiyini? O duyğuları yaşayan biri qədər dərindən duymaq mümkünsüzdür. Biz sadəcə o acının kölgəsini duya bilərik. Dərdin ağırlığı altında isə şəhid dərdi daşıyanlar hər gün daha çox məhv olur. Ağdam, Füzuli, Bakı və neçə-neçə yerlərdə oğul axtarışına çıxan Şəhid atası naəlac qalıb dekabrın 5-də analiz verir. Artıq

övladının adı itkinlər siyahısına düşən ailəyə 25 dekabrda Elnurun nəşinin Füzuli hospitalında olduğu deyilir. Yenə ən ağır yük Şəhid atasının üzərinə düşür. Tabutdakı cənazəyə yana-yana toxunan ata cənazə ilə birlikdə evinin yolunu tutur. 25 dekabrda Şəhid Kiş kənd məzarlığında torpağa tapşırılır.

Masa ətrafında boş qalan stul Fərhad kişinin və Sevinc xanımın bu dünyadakı imtahanıdır. Bir ana üçün oğlu yeməyəcini bilə-bilə oğluna pay çəkmək ağır dərddir. Artıq illərdir ki, bu ailə göz yaşı olmadan süfrədə oturmur. Bu həsrət gün keçdikcə daha da böyüyür. Kaş ki övladlar ölümsüz olardı.

Əsgər Nurullayev Elnur Fərhad oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Füzulinin azad olunmasına görə" medalı, "Cəbrayılın azad olunmasına görə" medalı və "Qubadlının azad olunmasına görə medalı" ilə təltif edilib.



## ŞƏHİD ELNUR

Hələ də masada yerin var sənin,
Hər dəfə sənin də payın çəkilir.
Loğması boğazdan keçməyənlərin,
Göz yaşı yediyi qaba tökülür.

Cəmi iyirmi il ömür yaşayan,
Bir oğul dərdini çəkmək çətindir.
Atanın, ananın və qardaşının,
Bitməyən qəlb yükü dərd, həsrətindir.

"Vətən" oxuyurdun, vətən qoxudun,
Nəğmən də, qoxun da ürəyə yatdı.
Qanınla torpağa yazdığın əsər,
Xalqın ürəyində eşqi ucaltdı.

Sənin mənliyindən, sədaqətindən,
Xalqın xəyalına çiləndi bir nur.
Səni nəfəs-nəfəs yaşadacağıq,
Nə qədər vətən var, qəhrəman Elnur.

***13.04.2023***



## ƏHMƏDOV RƏŞAD ƏLƏKBƏR OĞLU

ƏSGƏR

*(2020-ci ildə II Qarabağ müharibəsində şəhid olmuşdur.)*

## 90 İLƏ BƏRABƏR 90 GÜN

*Bəzən insanı yaşı yox, yaşadıqları böyüdür. Həyatın ağır sınaqları, yoxluq bir insanın mənəvi cəhətdən böyüməsinə səbəb olur. Kənardan baxarkən bir körpə kimi gördüyün insanın mənəvi dünyasına nəzər saldıqda əslində o insanın sanki böyüyüb sonradan kiçildiyini düşünürsən. Rəşad da elə gənclərdən biri idi. O, sanki 70 il ömür sürüb sonradan kiçilmişdi. Rəşadı körpəlikdən çəkdiyi böyük həsrəti böyütmüşdü. Yarsız qalan anasına hər zaman dayaq olmağın vacibliyini bildiyi üçün həyatını yaşıdlarından fərqli yaşamışdı. Atasızlığın acısını çəksə də, anasının xoşbəxtliyi üçün qardaşı Rəcəblə birlikdə hər vəchlə çalışmışdı. Bir sözlə, Əhmədov qardaşları yaşlarından tez böyümüşdülər. Vətən dərdi çəkəcək qədər böyümüşdülər. Qardaş tabutu daşıyacaq qədər böyümüşdülər...*

Əhmədov Rəşad Ələkbər oğlu 17 iyun 2002-ci ildə Şəki şəhərində dünyaya göz açmışdı. 2008-ci ildə Şəki şəhər N.Gəncəvi adına 7 nömrəli tam orta məktəbə qədəm qoymuşdu. 2-ci sinifdə oxuyanda atası onu idmanın karate növünə yazdırmış və 4 il bu idman növü ilə məşğul olmuşdu. Atanın övladları ilə bağlı çox arzuları olsa da qəfil düçar olduğu amansız xəstəliyə yenik düşmüş və 30 dekabr 2013-cü ildə dünyasını dəyişmişdi. O gündən sonra Şərafət xanımın həyat yükü daha da artmış, övladlarına ana olmaqla yanaşı, ata olmaq məcburiyyətində də qalmışdır. Şərafət xanım yeddi il sonra eyni gün oğlu Rəşadı da torpağa tapşıracağından xəbərsiz övladları üçün həyata bağlanmışdı.



Rəşad 2019-cu ildə məktəbi bitirdikdən sonra unversitetə qəbul olmaq istəsə də o, bu arzusuna çata bilmir. 2020-ci ilin iyul ayında müddətli həqiqi hərbi xidmətə yollanan Rəşad Goranboy rayonunda yerləşən N saylı hərbi hissədə xidmət edir. Rəşadın xidmətinin üç ayında Azərbaycan Ordusu düşmənin pozduğu atəşkəs nəticəsində "Hücum" əmri alır. Bu qərarı çoxdan gözləyən mərd oğullar düşünmədən hücuma keçirlər. Həmin gün Tapqaraqoyunlu istiqamətində döyüşə qatılanlardan biri də Rəşad olur. Müharibənin başlamasından xəbərsiz olan Şərafət ana həmin gün oğlunu görməyə gəlir. Lakin hərbi hissədə görüşün mümkün olmadığı deyilir. Ana göz yaşı tökə-tökə geri qayıdır. Rəşad ilk döyüşdən geri qayıdır. Sentyabrın 30-da təkrar döyüş tapşırığını yerinə yetirmək üçün Talış kəndi istiqamətinə gedir. Həmin gün qardaşı Rəcəblə danışarkən anasına onun öndə olduğunu bildirməməsini tapşırır. Son dəfə 30 sentyabrda Talış kəndi istiqamətində döyüş əməliyyatını yerinə yetirən Rəşadın izinə uzun müddət rast gəlmək mümkün olmur. Günlər aylarla əvəzlənir. Düz 90 gün qardaşı Rəcəb Rəşadı ağıla gələ bilməyəcək qədər çətin şəraitdə axtarır. Qardaşının bir parçasını tapmaq ümidi ilə neçə-neçə şəhid nəşlərinə baxır. Həmin müddətdə Şərafət ana oğul dərdinə yenik düşür. Günbəgün taqətdən düşən ana xəstəliyə düçar olur. Rəcəb isə bir qardaşın daşıya biləcəyindən daha ağır yükü qaldırmağa çalışır. Həm ata, həm qardaş olmaq onun üçün çox ağır olur.

Dekabrın sonlarında azad olunmuş ərazilərdə mina təmizləmə işləri apararkən minaaxtaranlar yaxınlıqdakı kolun içində bir şəhid nəşi olduğunu görürlər. Yaxınlaşıb çıxardıqlarında həmin şəhidin sadəcə böyründən aldığı yaralar nəticəsində şəhid olduğu məlum olur. Həmin ərazi neytral zona olduğu üçün yardım gəlməyib. Rəşad düşmən əlinə keçməmək üçün kolun içinə girib və ömrünün son saniyələrini saya-saya əbədi gözlərini yumub. *(O an Rəşadın nələr çəkdiyini düşündükcə sanki nəfəsim kəsilir.)* Şəhidin nəşi aidiyyəti yerlərə təhvil verilir. Rəşadın nəşi möcüzə nəticəsində uzun müddət keçdiyi üçün olduğu kimi qalsa da, prosedur gərəyi anası və qardaşından DNT analizi götürülür. Analizin cavabı 30 dekabrda çıxır. İllər öncə 30 dekabrda yarını torpağa tapşıran Şərafət ana oğlunu, atasını torpağa tapşıran Rəcəb qardaşını eyni gündə Şəki şəhər II Şəhidlər xiyabanında torpağa tapşırır. Qardaşının məzarı önündə qardaşının uğrunda can verdiyi bayrağı təhvil alan Rəcəb daxilindən çöksə də, məğrur görünməyə çalışır.

Ən pak, təmiz sevgidir 18 yaşında bir gəncin sevgisi. Rəşadın o sevgisi qəlbində məzara getdi. İndi o sevgidən Rəşadın məzarı üstə xəlvət qoyulan çiçəklər yadigar qalır. Rəşadın ömrü kimi tər vaxtında quruyan çiçəklər.

Əsgər Əhmədov Rəşad Ələkbər oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı,

"Suqovuşanın azad olunmasına görə" medalı və "Cəsur döyüşçü" medalı ilə təltif edilib.

Rəşad dünyaya gələndə həkimlər həm onun, həm də anasının həyatda qalmaq ehtimalının az olduğunu deyiblər. Ancaq Allah hər ikisini yaşadıb. Rəşad 18 il yaşayıb vətən üçün şəhid olub. Anası isə şəhid oğul dərdi ilə yaşaya-yaşaya hər aldığı nəfəsdə ölmək məcburiyyətində qalıb.

Vətən uğrunda şəhid olanları əsl vətəndaşlar qəlblərində, əməllərində yaşatmağa çalışırlar. Şəhidlərin şahidlər olan qazilərin, şəhidin anasının və qardaşının təşəbbüsü ilə Rəşadın böyüdüyü evin yaxınlığında bulaq inşa edilib.



## ŞƏHİD RƏŞAD

Bəzən min illərə bərabər olur,
İntizar içində keçən hər bir an.
Doxsan gün möcüzə olsun istədi,
Yolunu gözləyən qardaşın, anan.

Hər zaman duyduğun o Qarabağı,
Düşməndən almağa çatmışdı vədə.
Üç ayın əsgəri olsan da, Rəşad,
Ən öndə vuruşdun müharibədə.

Şəhidlik alnına yazılan yazı,
Şəhadət əbədi məskənin oldu.
Keşiyin çəkdiyin vətən torpağı,
Doxsan gün cisminə keşikdə durdu.

Atanın dünyadan köçdüyü o gün,
Son dəfə yol aldın əbədiyyətə.
Əli əllərindən üzülən hər kəs,
Sənsiz düçar oldu qəmə-həsrətə.

*16.04.2023*



SALAMOV QORXMAZ
BAYRAM OĞLU

ƏSGƏR
*(Çağırışçı)*

*(2020-ci ildə II Qarabağ müharibəsində itkin düşmüşdür.)*

## DÖNÜŞÜNÜN İZİ OLMAYAN İTKİN

*Bütün xoşbəxtlikləri yaşayaraq yaşayan insandır. Bütün çarəsizlikləri yaşayaraq yaşayan da insandır. Həyat təzadlarla doludur. Bəzən sevinc ürəyi fəth edir, bəzən isə kədər ürəyi zəbt edir. Yumruq boyda bir ürəyin dəyanətinə təəccüblənməmək əldə deyil. O ürək ki bəzən məhşər yerini xatırladacaq kimi gur alova qərq olur. Çarəsizliyə yenik düşsə də, döyünmək məcburiyyətində qalır. O məcburiyyətin sonunda dayanan "Bəlkə" kəlməsinə doğru uçunur. Ancaq...*

*Mən bu duyğuların təzadına Bayram Salamovun könül qapısını döydüyüm an şahid oldum. Hər zaman dediyim "Şəhid dərdi çox ağırdı, itkin dərdi isə dözülməzdir" sözlərini təkrar dilə gətirdim. Mən həsrətin ən böyüyünü, çarəsizliyin sonsuzluğunu duydum atanın sözlərində. "Kaş ki balamın, heç olmasa, bircə məzarı olardı. Onsuzda heç bir nişanəsi qalmadı. Heç olmazsa, məzarını bağrımıza basardıq" deyən atanın sözləri uzun müddət düşüncəmdə var-gəl etdi. "İlahi, bu necə çarəsizlikdir ki, ata oğlunun bircə məzarı olmasını arzu edir?" sualı mənim cavabsız suallarımın ən önündə dayandı. İnanmıram son nəfəsimə qədər bu suala cavab tapa biləm. Çünki o sualın cavabını yaşayan hiss edə bilər, ancaq dilə gətirə bilməz.*

Bu kitabı yazmağa başlayandan Qorxmazın ailəsindən necə məlumat alacağımı düşünürdüm. Axı onlar üçün nə izinə, nə özünə rast gəlinən övladları haqqında danışmaq asan deyil. Nə yalan deyim heç mənim üçün də asan olmadı. Qorxusuz qəhrəmanımız Qorxmaz haqqında məlumatı atası verdi.



Salamov Qorxmaz Bayram oğlu 22 aprel 1996-cı ildə Şəki rayonunun Baş Göynük kəndində dünyaya gəlir. Valideynləri ilk övlad, tək oğul paylarına Qorxmaz adını qoyur. Adını hər zaman doğruldan Qorxmaz sözün əsl mənasında qorxmaz, iradəli, qətiyyətli bir oğul olur. Bacıları Ayselin və Günelin dayağı, dəstəyi olan qardaş onları hər zaman qoruyur. Elə böyüdüyü zaman vətəni də qoruyur. Təkcə özünü düşməndən qorumur. Çünki özündən daha dəyərli olan bir varlıq – Vətən var idi.

Qorxmazın məktəb həyatı 2002-ci ildə Şəki rayon Baş Göynük kənd 2 nömrəli tam orta məktəbdə başlayıb. 2013-cü ildə məktəbi bitirib. 2014-cü il aprelin 25-də müddətli həqiqi hərbi xidmətə yollanıb. Gəncə şəhərində yerləşən N saylı hərbi hissədə xidmətə başlayan Qorxmaz daha sonra Goranboy rayonunun Ballıqaya kəndində yerləşən N saylı hərbi hissədə xidmətini davam etdirib. Xidməti zamanı komandirləri tərəfindən bir neçə dəfə təltif edilib. 2016-cı ildə Aprel döyüşlərində o da döyüşə getməyə hazır olub. Lakin döyüş dayandığı üçün iştirak edə bilməyib. Qismətində Vətən müharibəsində iştirak etmək olub.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayan zaman vətənə könüldən sevdalı olan hər kəs vətənin xilaskarı olmağa tələsdi. Qismən səfərbərlik elan olunan zaman Qorxmaz da döyüşə hazırlaşanlardan biri oldu. Sentyabrın 28-də çağırışçı olduğu məlum olan qəhrəman oktyabrın 5-də dönüşünün izi olmayan yola addım atdı. O yolu qürurla addımlayan Qorxmaz Bərdəyə getdi. Sonra demək olar ki, bir çox döyüş bölgələrində iştirak etdi. Suqovuşan uğrunda gedən döyüşlərdə mübarizə aparan vətən oğlu Xocavənd uğrunda da şücaət göstərdi. Daha sonra Ağdərə uğrunda mübarizəyə başladı. Elə son döyüşü də həmin döyüşlər oldu.

Son dəfə oktyabrın 14-də atası ilə danışanda ***"Yaxşıyam"*** desə də, daha sonra dostuna zəng edərək irəli getdiklərini deyir Qorxmaz. Qorxmadan irəliləyən qəhrəman oktyabrın 16-da şiddətli döyüşə qatılır. Həmin zaman iki yaralını atəş nöqtəsindən çıxarır. Üçüncü yaralını çıxarmaq üçün önə gedən zaman həmin dəstəyə geriyə dönmək göstərişi verildiyindən xəbərsiz olur. Elə o andan sonra da Qorxmazdan bir xəbər çıxmır. Onun heç bir izinə rast gələn olmur. Ailəyə övladlarının itkin düşdüyü xəbəri verilir. Bayram kişi oğlunu hər yerdə axtarmağa başlayır. Səfurə ana əl açıb Allahdan övladını diləyir. Ancaq illər keçməsinə baxmayaraq Qorxmazdan hələ də nə bir iz var, nə də bir xəbər. Vətən müharibəsində itkin düşən 6 itkindən biri də Qorxmazdır. Altı ailə demək olar ki, işğaldan azad olunan torpaqların hər qarışını axtarıb. Bəlkə, övladlarından

bir nişanə, bir iz olar ümidi ilə. Ancaq hələ də bir xəbər yoxdur. 2001-ci il təvəllüdlü əsgər Mehdiyev Asim Yaqub oğlu, 1998-ci il təvəllüdlü leytenant Vəlizadə İbrahim Səməd oğlu, 1997-ci il təvəllüdlü əsgər Qədirli Elnur Rəcəb oğlu, 1996-cı il təvəllüdlü əsgər Salamov Qorxmaz Bayram oğlu, 1995-ci il təvəllüdlü əsgər Feyzullayev Aydın Zakir oğlu və 1991-ci il təvəllüdlü əsgər Səfərli Xəqani İlqar oğlu 2020-ci ildə 44 günlük Vətən müharibəsində itkin düşüblər. Bütün Azərbaycan xalqı möcüzə gözləyir. Bəlkə, bir gün dönərlər. Və yaxud, bəlkə, bir gün onların ailələri də övladlarından gələn bir nişanəni torpağa tapşırıb oğul məzarı bildikdən sonra gözləri yollardan yığılar. Bəlkələr və kaşkilər ən böyük çarəsizlikdir.

Əsgər Salamov Qorxmaz Bayram oğluna şəhidlik statusu verilmiş və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25 iyun 2023-cü il tarixli sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.



## İTKİN QORXMAZ

Sən dönməyən yollara gözlər yağış çilədi,
Dərd atanın, ananın başına qar ələdi.
Arzuya bax İlahi, ata tabut dilədi,
Oğlunun məzar yeri evinə dönsün deyə,
Bir şəhid məzarını o da gəlsin görməyə.

Bu dünyada ən böyük sınaqdır itkin dərdi,
İtkini olan bilməz sağdı, yoxsa əsirdi.
Bilmək olmur ki, Qorxmaz canını necə verdi?
Bu canlarla ucalan yurdum Azərbaycana,
Onun yolu bəllidi tək olan Yaradana.

Naməlum şəhid görcək ürəkdə qəm ucalır,
Qorxmaz dərdi çəkənlər dərin xəyala dalır.
O şəhid məzarından bala qoxusun alır,
Bala həsrəti ilə yanıb külə dönənlər,
Vətənin hər daşını şəhid bala bilənlər.

*16.04.2023*

## AZƏRBAYCAN–ERMƏNİSTAN SƏRHƏD TOQQUŞMASI

Ermənistanın hakimiyyəti və ordusu hər zaman vədlərinə xilaf çıxıblar. 30 il boyunca yalnız kağız üzərində imza olaraq bilinən atəşkəsin pozulması bunun sübutudur. Bundan başqa II Qarabağ savaşında Azərbaycan Ordusunun düşmən ordusunu qısa zamanda diz çökdürməsi elə hakimiyyətin də diz çökməsinə səbəb olmuşdur. Noyabrın 9-dan 10-na keçən gecə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xalqa müraciəti ilə qalib ordunun qələbəsini qalib xalq olaraq yaşadıq.

**– Əziz həmvətənlər bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır. Bu bəyanatı Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri imzalamışlar.**

Hər zaman regionda sülhün yox, müharibənin tərəfdarı olan Ermənistan yenə də əməlindən çəkinmədi. Hər zaman olduğu kimi imzaladığı bəyanata zidd hərəkət etdi. 2022-ci il sentyabrın 12-dən 14-nə qədər Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan–Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində genişmiqyaslı təxribatlar törədildi. Ermənistan ordusunun məğlub olacağını bilə-bilə atdığı bu addım cavabsız qalmadı. Hətta deyərdim ki, Ermənistanın gözləmədiyi qədər əleyhlərinə oldu. Azərbaycan Ordusu Zəngəzur dəhlizinə daha da yaxınlaşdı. İllərlə azərbaycanlı addımına həsrət qalan torpaqlar igid oğulların qədəmləri ilə sevindi. Zəngəzura ümid doğdu. Heç bir qalibiyyət itkisiz olmur. Elə həmin döyüşlərdə də Azərbaycan Ordusunun zabit və əsgərləri şəhid oldu. Azərbaycan Respublikası Müdafiyə Nazirliyi 14 sentyabr açıqlamasında 50 nəfər hərbi qulluqçunun şəhid olduğunu bəyan etdi. Genişmiqyaslı təxribatın qarşısı alınarkən Azərbaycan Ordusundan 42, Dövlət Sərhəd Xidmətindən isə 8 hərbi qulluqçusunun şəhid olduğu deyildi. 15 sentyabr açıqlamasında isə daha 21 nəfər hərbi qulluqçunun şəhid olduğu bəyan edildi. Daha sonra şəhidlərimizin sayı artaraq 79-a çatdı. Həmin o qəhrəmanların 2-si Şəki torpağına şəhid kimi döndülər. Yetirdiyi qəhrəmanlar hər döyüşdə iz qoyan bu müqəddəs torpaq yenə də şəhid oğulları ilə ucaldı.



## HAQQ YOLUNDAN DÖNMƏYƏNLƏR

Əcəl sizi qorxurtmadı,
Haqq yolundan dönməyənlər.
Şəhidliklə müjdələnib,
Əbədi ölməyənlər.

Ölən isə ümidlərdi,
Arzulardı, amaldı.
Müharibə amansızca,
Neçə-neçə can aldı.

Canınızla cana gəlib,
Vətənim Azərbaycan.
Dünənlərdən bu günədək,
Uğrunda verilib can.

Həsrət ilə yırğalanır,
Körpələrin beşiyi,
Övlad çəkir atasının,
Məzarının keşiyin.

Bir gün mütləq alınacaq,
Hər atanın qisası.
Düşmən bilsin qaysaq tutmaz,
Qəlbin şəhid yarası.

Biz qoymarıq qan tökülən,
Yurdu tapdaq altında.
Qəhrəmanlıq bərqərardır,
Bu gəncliyin zatında.

*13.09.2022*



**QASIMOV NİHAT MEHMAN OĞLU**

ƏSGƏR

*(2022-ci il 12-14 sentyabrda Azərbaycan–Ermənistan sərhəd toqquşması zamanı şəhid olmuşdur.)*

## ZƏNGƏZURA DÜŞƏN ŞƏHİD NURU

*II Qarabağ müharibəsində I Qarabağ müharibəsi zamanı vətənə fəda olan bütün qəhrəmanlarımızın qisası alındı. Ordu düzənsizliyi səbəbindən işğal altına düşən vətən torpaqları azadlığına qovuşdu. Qanlar axan torpaqlara yenə şəhid qanları çiləndi. Ancaq azadlıq nuru da çiləndi. Həmin döyüşlər zamanı hər kəs vətən üçün nələrsə etməyə can atırdı. Həmin vətəndaşlardan biri də Nihat idi. **"Kaş ki yaşım çatardı mən də döyüşə gedərdim"** deyən gənc II Qarabağ müharibəsində canlar, qanlar bahasına azad olunan, şəhidlərimizin əmanətləri olan torpaqların uğrunda şəhid olacağını bilmirdi.*

Qasımov Nihat Mehman oğlu 3 fevral 2003-cü ildə Şəki rayonunun Kiçik Dəhnə kəndində dünyaya göz açıb. Ailənin iki oğul övladından biri olub. 2009-cu ildə Şəki rayon Kiçik Dəhnə kənd 2 nömrəli tam orta məktəbdə təhsil almağa başlayıb. 2020-ci ildə məktəbi bitirib.

Nihatın qismətində işğaldan azad olunan torpaqlara keşik çəkmək var imiş. 2021-ci il aprel ayının 7-də müddətli həqiqi hərbi xidmətə yollanıb. İlk olaraq Gəncə şəhərində yerləşən N saylı hərbi hissədə xidmətə başlayıb. Daha sonra Kəlbəcər rayonunun İstisu adlanan əsrarəngiz gözəlliyinin keşiyini çəkib. Düşmənin hər zaman göz dikdiyi bu gözəllik uğrunda neçə-neçə qəhrəman can verib. Daha sonra Alagölü düşməndən müdafiə edib. Düşmənlə üz-üzə dayanan Nihat o yerlərin gözəlliyini ailəsi ilə görüntülü zəng ilə danışan zaman göstərib və o torpaqların uğrunda candan keçiləcək torpaqlar olduğunu deyib. Dəniz səviyyəsindən 3400 m yüksəklikdə vətən keşiyi çəkmək çətin olsa da, Nihat o çətinliyi heç vaxt dilə gətirməyib. İkinci və son dəfə aprelin 21-də məzuniyyətə gəlib. Mayın 2-də son dəfə sevdiklərindən, evindən ayrılıb.



Son dəfə sentyabrın 12-də axşam ailəsi ilə danışan Nihat qısa müddət sonra təkrar zəng edib, bir neçə gün ona zəng çatmayacağını deyib. 11 nəfərlik heyətin olduğu postda həmin gecə 9 nəfər olub. Düşmən sentyabrın 12-dən 13-nə keçən gecə onların olduqları posta minamyot atıb. Həmin vaxt 8 əsgər şəhid olub, 1 nəfər yaralanıb. Əliyev Üzeyir, Qasımov Rəşad, Əzizli Sadiq, Muradov Bəxtiyar, Fətullayev Rəfail, Elmin, Tərlan və Qasımov Nihat birlikdə şəhid olublar.

Sentyabrın 13-də Nicatın atası Ermənistan ordusunun törətdiyi təxribatı xəbərlərdən öyrənir. Həmin an Nihata zəng edir. Lakin zəngi cavabsız qalır. Çarəsiz ata kimə zəng edirsə, zəng çatsa da, açan olmur. Günorta əvvəllər Nihatın komandiri olan, sonradan başqa hərbi hissəyə keçən Nemətə zəng edir. Lakin komandir ataya oğlunun şəhid olduğunu deyə bilmir. Ancaq həmin gün axşama doğru o xəbər gəlir. O xəbər sevincə nöqtə qoyur. O xəbər Arifə ananın sabaha olan ümidlərinə nöqtə qoyur. O xəbər Qadirin qardaşlı arzularına nöqtə qoyur. O xəbər Mehman atanın oğul adlı sarayını viran qoyur.

Sentyabrın 13-də axşam saatlarında doğmaları Nihatın nəşini Gəncə şəhərindəki morqdan götürüb gecə Şəki rayonuna gətirirlər. 14 sentyabr 2022-ci ildə şəhidin nəşi ata ocağına gətirilir. Həmin gün Kiçik Dəhnə kənd məzarlığındakı Şəhidlər xiyabanında torpağa tapşırılır. Bu kənd hər zaman qəhrəmanları ilə tanınıb. Hələ I Qarabağ müharibəsi zamanı kənd camaatı 8 şəhid tabutu qarşılasa da, 6 qəhrəmandan hələ də bir xəbər çıxmayıb. Onlar vətənin itkin oğulları sırasındadır.

Əsgər Qasımov Nihat Mehman oğlu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin əmrinə əsasən şəhadətindən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

Kiçik Dəhnə kənd sakinləri Nazarov Oktay və Nazarov Bəhruz qardaşları kənddə Nihatın adına bulaq inşa etdiriblər.

2022-ci il 12–14 sentyabr tarixlərində Azərbaycan–Ermənistan sərhədində baş verən toqquşma zamanı vətənə canını fəda edən oğullardan biri kimi Nihat da qanı ilə tarix yazdı. Biz gözəl bilirik ki, Ermənistan kimi qonşumuz olduğu üçün hər zaman Nihatlarımız Vətən Fədailəri olacaqdır.

## ŞƏHİD NİHAT

"Kaş vətən keşiyində,
Dayanaydım əsgərtək.
Vətənin bu günündə,
Vətənçün yanır ürək".

Bu sözləri demişdin,
Müharibə zamanı.
Gözləyirdin xidmətə,
Gedəcəyin o anı.

Azad olan yerlərin,
Keşiyində dayandın,
Sən də pozmadın, Nihat,
Şəhidlərin son andın.

Mənfur düşmən dağladı,
Kəlbəcərin sinəsin.
Ancaq yenə eşitdi,
İgidlərin nərəsin.

Sonuncu on yeddi gün,
Uzandıqca uzandı...
Tabutda gəlişinlə,
Qəlblər alışdı, yandı.

Neçə şəhid oğlunu,
Bağrına basan torpaq,
Səni də qarşıladı,
Qəhrəman, şəhid Nihat.

*17.04.2023*



## AZADLIQ YOLÇULARI

"Ana, hardan başlayır,
Duyduğumuz Qarabağ?
Niyə adın çəkəndə,
Hey çəkirsən nalə, ah?

Gözlərinə baxanda,
Hiss olunur kədərin.
Bəxti də qara idi,
Görmədiyim o yerin?"

"Oğul, bir gün böyüyüb,
Həsrətimi duyarsan.
Qarabağı düşmənin,
Əlindən qurtararsan".

Ötdü neçə həsrəti,
Gününə sığmaz illər.
Xocalı sazağıtək,
Soyuq oldu fəsillər.

Bir bahar elə bil ki,
Surun səsi duyuldu.
İgidlər qılıncını,
Öz qınından sıyırdı.

Nəfəs-nəfəs cücərdi,
Azadlıq toxumları.
Sipər oldu vətənə,
Vətənin oğulları.

"İrəli" sözü oldu,
Ərənlərin son sözü.
Şəhid verən ananın,
Zəfərlə güldü gözü.

Anaların öyüdü,
Dağa, daşa dəymədi.
Ərənlər şux qamətin,
Bir an belə əymədi.

Lalətəpə boylanıb,
Salam verdi mərdlərə.
Qan ilə məlhəm oldu,
Şəhidlərim dərdlərə.

Seysulan, Talış kəndə,
Hopdu şəhidlər qanı.
Zəfər səsi bürüdü,
Bütün Azərbaycanı.

Aprel döyüşlərində,
Xalqın başı ucaldı.
Qarabağ yollarına,
Qəhrəmanlar yol saldı.

İllər sonra o yolun,
Yolçuları çox oldu.
Ərənlər azad etdi,
Qarabağ adlı yurdu.



## HEYKƏL QOYUN ANALARA

Heykəl qoyun bu vətənə oğul verən analara,
Loğman tapın anaların qəlbindəki yaralara,
Allah açıb göyün üzün ovuc-ovuc dualara,
Bu dünyadan o dünyaya şəhid oğullar yol açıb,
Anaların oğulların daha ana torpaq qucub.

Viran olan torpaqlara bənzəyir ana ürəyi,
Qəhrəmanlar qoymadılar yerə çırpılsın kürəyi,
Anaların oğulları oldular vətən köməyi,
Parça-parça ümidlərdən azadlığı toxudular,
İllər sonra Qarabağda "Vətən marşı" oxudular.

Əsgəri də, zabiti də düzüldülər düzüm-düzüm,
Gah sevincdən, gah kədərdən bulud kimi doldu gözüm,
Hər şəhidin, hər qazinin anasına budur sözüm,
Sizi qəhrəman bilirik, qəhrəmanların anası,
Şəhadətlə müjdələnməz hər bir ananın balası.

## BOYNUBÜKÜK QƏRƏNFİL

Ləçəkləri qəm qoxur,
Dərd əlində vurnuxur,
Ürəyə kədər toxur,
Boynubükük qərənfil.

Əllərdə dəstə-dəstə,
Gedir xiyaban üstə,
Qəm oyadır hər kəsdə,
Boynubükük qərənfil.

Dili yoxdur danışa,
Dərdini sala başa,
Yoldaşdır mərmər daşa,
Boynubükük qərənfil.

Neçə cavan gənc solur,
Analar telin yolur,
Onlara yoldaş olur,
Boynubükük qərənfil.

Adı şəhid çiçəyi,
Qan rəngidir ləçəyi,
Dağlayır hər ürəyi,
Boynubükük qərənfil.



## AYRILMADI KÖNÜL CANDAN

"Ayrılarmı könül candan?!"
"Yox" deyərək atıldınız savaşlara,
Canınızı qalxan edib,
İz saldınız yaddaşlara.

Vətənləşən cisminizə,
Əsən yellər layla dedi.
Ana-ata fəryadını,
Duyub kainat kiridi.

Kiminizdən süd qoxusu,
Hopub qaldı bu torpağa.
Hamınızın cansız cismi,
Büründü şanlı bayrağa.

Qarış-qarış vətən oldu,
Yurd oğullar hünərindən.
Zəngəzura ümid doğdu,
Qarabağın zəfərindən.

Gün o gündür bütün dünya,
Eşidəcək haqqın səsin.
Zəngəzurda duyacağıq,
Qarabağın şikəstəsin.

Bilirik ki, bunun üçün,
Neçə candan keçiləcək.
Azadlığa töhfə verən,
Qəhrəmanlar seçiləcək.

Aydın olan səmalardan,
Şəhid ruhu boylanacaq.
Şəhidlərim, bu xalq daim,
Sizə minnətdar olacaq.

*15.09.2022*

## TORPAĞIN KÖKSÜNƏ KÖÇÜR OĞULLAR

Yenə anaların köksündən qopub,
Torpağın köksünə köçür oğullar.
Həyatdan doymayan neçə şəhidi,
Geriyə gətirməz daha bu yollar.

Göyləri bürüyüb ucalan dua,
Cənnəti bürüyən şəhid ətritək.
Oğullar vətənin qurbanı oldu,
"Vətən, ömrüm sənə fəda!" deyərək.

Ah Vətən, nə qədər qurbanın oldu,
Nə qədər ucaldın ürəklərdə sən?!
Həyatdan doymayan neçə şəhidin,
Nakam arzususan, nakam ömrüsən.

Barı təsəlli ol şəhid oğulun,
Şəhid arzusuna məskən ürəyə.
Ay Vətən, təkcə sən dayaq olarsan,
Dayağın itirən yüklü kürəyə.

*13.09.2022*



## O AN...

*(Qumbara Tərlan)*

Bəzən bir son nöqtədən başlayır ümidin başlanğıcı. Elə o gün də son deyilərək atılan addımdan başladı neçə-neçə başlanğıclar. Bir qəhrəmanlıq dastanının ilk səhifəsi o gün yazıldı. Bir fədakarlıq nümunəsi o gün göründü. Bir xilaskar o gün tanındı. Bir sədaqət mücəssəməsi o gün qəlblərə yol tapdı. Həmin o gün...

– ***İrəli.***

– ***Nəhayət ki, gözlədiyimiz o gün çatdı.***

– ***Bu yolu yarıda qoyub yaşatmağı deyil, yaşamağı üstün tutan bizdən deyil.***

– ***Bu qollar vətənə, vətən azadlığa qucaq açacaq.***

– ***Biz bu bayrağı Qarabağın düşmən tapdağında inləyən hər qarışına sancacağıq.***

Şüarlar, vədlər, andlar, vəsiyyətlər biri-birini əvəzləyirdi. Çünki hər kəs çıxdığı yolun, atacağı addımın fərqində idi. ***"Can Vətən"*** deyən qəhrəmanlar Azərbaycan adının son hecasındakı **"Can"** kəlməsi olmaq üçün can verməyə hazır idilər. Bu o demək deyildi ki, o oğullar yaşamaq istəmirdilər. Bu o demək idi ki, o oğullar vətənin azadlığını öz yaşamlarından üstün bilirdilər. Vətəni qeyrət bilənlər üçün vətənin düşmən tapdağında qalması qədər vahiməli, qəbuledilməz nə ola bilər ki?

Ümidlər o gün qanla, alın təri ilə, göz yaşları ilə suvarılırdı. Uca-uca dağlar qoca-qoca dərdli gənc-gənc oğulların qədəmləri ilə sevinirdi. Sanki Murov Laçın, Laçın Kəlbəcər, Kəlbəcər Şuşa, Şuşa Zəngəzur dağlarına müjdə verirdi. Ana-ataların, bacı-qardaşların, yarların, övladların ümidləri şəhid məzarlarında dəfn olunsa da, vətənin azadlıq ümidləri hər gün daha dərinə kök atırdı. Günü-gündən azadlıq vətəni ağuşuna alırdı. Qəhrəman oğulların atdıqları hər addım düşmənin köksünə basılan bir nizəyə çevrilirdi. Artıq düşmən qan gölündə boğulurdu.

Vətənə ümid olan oğullar illərlə azərbaycanlıların addım izinə həsrət qalan torpaqlara addım atdıqca həm sevinir, həm kədərlənirdilər. Hər qarışı uğrunda ömür bitən o torpaqlarda bitən ömürlər gözlər önündə canlanırdı. Elə o torpaqların azadlığı uğrunda yenə də ömürlər nöqtələnirdi. Ancaq bu dəfə bir fərq var idi. O bitən ömürlər azadlıq müjdəçiləri idilər. Artıq o addımlar Murovdağdan, Talışkənddən keçmişdi. Yurd-yuvalarından didərgin düşmüş köçkünlərin, şəhid




verən insanların ürəkləri kimi yara-bərə içində idi atılan qumbaralara, minamyotlara, güllələrə sinəsini sipər edən dağlar, qayalar. O dağların ətəyində mirvari kimi cərgələnən oğullar vətən sinəsinə mirvari olan şəhid məzarları kimi düzülməyə bir an da tərəddüd etmirdilər. O qəhrəmanlar gözlərinin önündə parça-parça ümidlərə dönən ömürlərin öcünü də vətən intiqamının ardına yazırdılar. Hər gün bir az daha artırdı o intiqam duyğusu.

Müharibədə iştirak edən əsl qəhrəmanlar nəinki vətəni, hətta silahdaşlarının canını da candan üstün tuturlar. Bu günə qədər çox eşitmişik özlərini fəda edib silahdaşlarının həyatını qurtaran qəhrəmanların adlarını. Həyatın ən çətin qərarını verən həmin qəhrəmanların həmin qərarı verdikləri an nələr yaşadıqları hər zaman sirr qalırdı. Çünki o anı izah edə biləcək insan həmin qəhrəmanın özü olur və o qəhrəman da həmin o qərarla şəhadətə ucalırdı. Ancaq bir qəhrəmanı Allah seçdi. Seçdi ki, o qərarı verməyin necə bir hiss olduğunu dilə gətirsin.

O an...

***– İlahi, bu qumbara partladığı an neçə həyatın nöqtəsi qoyulacaq. Neçə ocağın işığı sönəcək. O ömürlərlə bərabər saysız-hesabsız arzular qanına qəltan olacaq. Yox, icazə verə bilmərəm. Mən bu qədər evə şəhid tabutunun getməyinə razı ola bilmərəm. Şəhid tabutu gedəcək ev tək mənim evim olsun...***

Əslində oxumağı uzun müddət alan bu fikirlər sadəcə bir neçə saniyədə Tərlanın düşüncəsindən keçdi. Həmin an o qərarı verdi və qumbaranın üzərinə atladı. Elə bütün başlanğıclar da o an başladı. Allah yaşatmaq istədiyi o qəhrəmanı əynindəki zirehli gödəkcə və rabitə aparatı sayəsində xilas etdi. Allahın ən böyük sınağından Tərlan bir qəhrəman kimi, xilaskar kimi çıxdı. O anın şahidləri artıq Tərlanın şəhid olduğunu düşünsələr də, qumbaranın partladığı an Tərlanın başındakı dəbilqəni çəkərək onun ağzının açılmasının səbəbkarı olan kapitan Elçin Tağıyev (Şəhid olub) ilk olaraq Tərlanın həmin ərazidən çıxarılmasını istəyir. ***"Tərlan sizin xilaskarınızdır. İlk Tərlanı çıxarın. Onun fədakarlığının sayəsində həyatdayıq"*** deyir. Elə Tərlanın həyata yenidən gəlişi də o an olur. Neçə-neçə can xilaskarını Allah xilas edir. Xilas edir ki, bir insanın ən çətin qərarları verdiyi anda nə hisslər yaşadığını bilək.



## QAZİ

Bir qazidən soruşun,
Ölüm adlı duyğunu.
Onun qəlbi yaralı,
Ruhu həsrət yorğunu...

Soruşun necə olur,
Can dostunu itirmək?
Soruşun necə olur,
Öz canından can vermək?

Bircə anda verirlər,
Dönüşsüz qərarları.
Unutmaq haram olsun,
Canlı qəhrəmanları.

Qolu vətən olanın,
Dayağıdır bu vətən.
Gözlərinə nur bilir,
Gözünün nuru itən.

Vətən yetim uşaqdır,
Döyüşdən sağ dönənə.
Son nəfəsdə şəhidin,
Gözünə görünənə.

Qazilərin yuxusu,
Çilik ayna kimidir.
Qazilər ruhən ölür,
Sanmayın ki, diridir.

Döyüş imtahanından,
Yaşam adlı sınaqdan
Çıxan qazi yenidən,
Cana gələr torpaqdan.

*29.05.2023*

## ŞƏHİDLƏRİN ŞAHİDİ

Çarəsizliyin nə demək olduğunu bilmək istəyirsinizsə, can dostu gözlərinin önündə şəhid olandan soruşun. Sevincin nə demək olduğunu bilmək istəyirsinizsə, illərlə işğal altında qalan torpaqlara vətən bayrağını sancandan soruşun. Duyğuların ən dərini, ən kədərlisi və ən gözəli.

Vətən sevgisini izah et desələr cismini vətənə tuşlanan mərmilərə, güllələrə sipər edən, illərdi cismində müharibənin izini daşıyan, könüllü olaraq canı ilə, malı ilə, ana duası ilə döyüşlərdə ən öndə gedən Calalov Rahim Baba oğlunu göstərərdim. Bilirsiniz niyə? Ona görə ki, bu insanın nə yaşı, nə yarası döyüşlərə atılmağına mane olmayıb. Hələ XI sinifdə oxuyan zaman evdə demədən üz tutub cəbhəyə sarı. Çünki o zamanlar vətənin dilsiz daşı da, qayası da yağı düşmən əlindən dilə gəlib qan ağlayırdı. O zamanlar Rahim Calalov yaşının azlığı səbəbindən geri göndərilir. Ancaq vətən eşqi düşən ürək bir dəfə alışar və son nəfəsə qədər o sevginin alovuna qərq olar. Elə o eşqlə də Rahim Calalov Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinə (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəb) qəbul olur və vətənə əsl vətəndaş, yeri gəldiyində isə vətəndə daş olmaq üçün çalışır. Yaşadığı ömrü özü üçün deyil, vətən üçün yaşayan ərənlərdən biri də Rahim Calalov olur. Zaman ona nələri göstərmir ki?

1998-ci il Rahim Calalovun ilk dəfə şəhadətdən döndüyü il kimi yaddaşlara həkk olunub. Həmin vaxt Tərtərdə xidmət edən vətən oğlu düşmənin basdırdığı minaya düşüb və yaralanıb. Aldığı yaralara baxmayaraq xidmətini davam etdirib. Lakin 2000-ci ildə səhhətində artan narahatlıq səbəbindən ordudan tərxis olunub. O, ordudan cismən uzaqlaşıb. Qəlbi, ruhu, düşüncəsi vətən səngərinə keşik çəkib. Bir gün mütləq cismən o səngərə dönəcəyinə and içib. Bir gün mütləq Qarabağa bayraq sancacağına and içib. ***"Bir gün müharibə başlayarsa cismimin yarısı olmasa da, yarımcan da olsam, mən vətənim üçün vuruşacağam"*** deyə and içib. Bu and pozularmı? Biz bu andın yolunda candan keçən çox şəhidlər tanıyırıq. Rahim isə o andını pozmayan neçə-neçə şəhidin şahididir. Andı şəhidlərin intiqamını almaq, vətəni azad etmək olan bu qəhrəmanın arzusu da şəhadətə çatmaq idi. Və daha bir addım.



Rahim Calalov erməni xislətini yaxşı bilirdi. Sözün əsl mənasında düşmənini tanıyan biri idi. Elə ona görə də 2016-cı ildə Azərbaycan Ordusunun düşmən üzərində qazandığı ilk böyük qalibiyyətin yaşanıldığı Aprel döyüşləri zamanı könüllü olaraq ön cəbhəyə yollanır. Axı o həmin yerlərə yaxşı bələd idi. Talış kəndi istiqamətində tökülən qanlar bahasına doğan azadlıq günəşinin şəfəqlərindən biri də Rahim olur. Dördgünlük müharibədə Rahim cismən yara almasa da, ruhən dərin yaralanır. Polkovnik-leytenant Raquf Orucovla çiyin-çiyinə vuruşan Rahim üçün Raquf Orucovu itirmək qəbuledilməz bir itki olur. Hər şəhid məzarında ürəyindən bir parça dəfn olunan qəhrəman azad olunan torpaqları müdafiə edənlərdən olur.

Düşmən məğlubiyyətlə razılaşa bilmədiyi üçün yenə də adəti üzrə atəşkəsi pozur. Aprelin 30-da düşmən tərəf yenidən Polad postuna hücuma keçir. Həmin zaman bir neçə hərbçimiz yaralanır. Rahim həmin yaralılara kömək etmək istəyən zaman özü də düşmən atəşinə tuş gəlir. Beş yerdən güllə və qəlpə yarası alan qəhrəman silahdaşları tərəfindən ərazidən uzaqlaşdırılır və həyat mücadiləsi başlayır. Qalibiyyətə vərdişkar olan qəhrəman həyat mücadiləsində də qalib olur. Ancaq ən böyük qalibiyyət hələ qabaqda idi.

Böyük zəfəri hünərli oğullar qazandı. Döyüşdən qorxan biri ön cəbhədə yer ala bilməzdi. Rahim kimi dəfələrlə döyüşlərdə iştirak edən oğullar da arxa



cəbhədə yer ala bilməzdi. Döyüş başladığını duyan Rahim 4 günlük müharibədə müəyyən səbəblərdən sona qədər gedə bilmədiyi yola 27 sentyabrda təkrar qədəm qoydu. Bu dəfə o yol sona qədər gediləcəkdi. Şəhadət və azadlıq arzusuna işıq düşən Rahim zəfər yolunda qürurla addımlayaraq zəfərin memarlarından biri oldu. Yenə də Talış kəndi uğrunda mübarizə aparmaq qismətinə yazıldı. İllərlə xəyalında canlanan zəfər anını yaşadı və yaşatdı. Şəhid qanları hopan Talış kəndinə bayraq sancmaq onun ən gözəl alın yazısı oldu. Qəlbi vətənə sevdalı olan bir insan üçün həsrətli vətən torpağına şanlı bayraq sancmaqdan gözəl nə ola bilər ki?

Vətən müharibəsində bir çox qəhrəmanların igidliklərini eşitdik. Həmin o anların şahidlərindən biri isə Rahim Calalov oldu. Adını Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazdıran Babək Səmidli və Əfqan Abdurəhmanov kimi qəhrəmanlarla bərabər döyüşüb Rahim Calalov. Düşmənin bir addımlığında olan qorxusuzları düşmən Azərbaycan dilində danışaraq aldatmağa çalışsa da, onlar düşmənin hiyləsini anlayıb və düşməni məhv ediblər. Hər birimizin televiziya vasitəsilə izlədiyimiz daha bir kadr var ki, Azərbaycan Ordusunun düşməni necə əzdiyinin, məhv etdiyinin bir sübutudur. Həmin o döyüşün iştirakçılarından biri də Rahim Calalovdur. O döyüşdə göstərilən şücaətlərdən hələ tarix çox yazacaq.

Sentyabrın 29-da günortaya yaxın düşmən qəfildən 1 tank, 1 PDM-2 və təxminən 30 nəfərdən artıq canlı qüvvə ilə Talış kəndi istiqamətində hücuma keçir. 1353 adlanan yüksəklik Talış yaşayış məntəqəsinin əldə saxlanılması üçün ən strateji əhəmiyyətə malik yüksəlik idi. Ona görə də düşmən həmin yüksəkliyi ələ keçirmək niyyətində idi. Yüksəkliyi müdafiə etmək ən vacib şərt idi. Polkovnik-leytenant Əfqan Abdurahmanovun tabeliyində olan əsgərlər müdafiə mövqeyi quraraq həmin yüksəkliyi müdafiə edibdilər. Düşmənin 29 sentyabrda həmin yüksəkliyə hücum etməsi yüksəkliyin əhəmiyyətini bir daha gözlər önünə sərirdi. Ancaq Azərbaycan Ordusu azad etdiyi torpaqların müdafiəsi üçün sözün əsl mənasında canlarını sipər ediblər. Həmin vaxt Kəhrilər (Kəhillər) yaxınlığında döyüş başlayıb. Ordumuzun gücü, hərbçilərimizin dəyanəti, qorxmazlığı və gücü o döyüşlərdə öz sözünü deyib. İlk hədəf düşmənin zirehli texnikaları olub. Əsgər Oruc İbişli yaxın məsafədən qumbaraatanla erməni tankını vuraraq sıradan çıxarsa da, düşmən PDM-2 ilə hücuma davam edib. O an gizir Nəriman Atakişiyev ani bir qərar verib. PDM-2-nin məhv edilmədiyi təqdirdə çoxsaylı itkilər verəcəyimizi nəzərə alan qəhrəman gizir BTR-ə minərək düşmənin üzərinə sürüb. Bir anda düşmən nəyə uğradığını şaşırıb. BTR-i düşmənin PDM-2 zirehli texnikasının üstünə sürərək onu əzib və hərəkətini məhdudlaşdırıb. Hərbçilərimiz düşmən texnikasına doğru hər tərəfdən əl qumbaraları ataraq düşmənin çaşqınlığına və məhvinə nail olub. PDM-2-də ermənilərin 6 desantı, 1 sürücüsü, 1 tuşlayıcısı





zərərsizləşdirilib. Nəriman Atakişiyev çoxsaylı silahdaşının xilaskarına çevrilib. Hər iki zirehli texnika partlayıb və yaranan görüntü qalibiyyətin daha bir simvoluna çevrilib. Həmin yüksəklik uğrunda gedən döyüşlərdə ordumuzun 39 yaralısı, 13 şəhidi olub.

44 günlük Vətən müharibəsinin hər anı bir ömrün bitişi, bir zəfərin başlanğıcı idi. O anları yaşayan Rahim Calalov özü şəhadət arzusu ilə döyüşə getsə də, onun dostları o arzuya çatır. Oktyabrın 10-da polkovnik-leytenant Əfqan Abdurahmanovun şəhid olması ilə sarsılan Rahim Calalov döyüşə polkovnik Babək Səmidli ilə davam edir. Neçə qanlı yollardan birlikdə keçirlər iki dost, iki qəhrəman. Hətta bir dəfə təhlükəli vəziyyətdə qalan jurnalistləri çıxarmağa gedərkən düşmənin valına girirlər. Həmin vaxt oradan sağ çıxa bilməyəcəkləri ehtimalının böyük olduğunu görən Babək Səmidli ***"Rahim, son güllələri özümüz üçün saxla"*** deyir. Ancaq həmin vaxt onlar sağ-salamat ərazidən uzaqlaşırlar.

Babək Səmidli və Rahim Calalov hər zaman biri-birinə ***"Hansımız öncə şəhid olsaq hərbi formada dəfn olunaq"*** deyirmişlər. Hər ikisinin ən böyük arzusu şəhid olmaq idi. Rahim hər namazda özünə şəhid olmağı arzu edən biri kimi bir dəfə can dostu, silahdaşı Babək Səmidlinin də namazda ***"Allahım, bu əsgərlərin hər birinin ev-eşiklərinə salamat döndüklərinə şahid olduqdan sonra məni şəhadət arzuma çatdır"*** deməsini eşidib. Müharibə bitdikdən sonra noyabrın 23-də Babək Səmidli düşmənin Suqovuşanda basdırdığı minaya düşərək şəhid

olub. Rahimin gözləri önündə dostu can verib. O an şəhadət və vətən sevdalısının əbədi vidası dost ürəyinə dağ çəkib. Neçə-neçə dost dərdinə tuş gələn ürək Babək Səmidlinin gedişi ilə də yaralanıb. Rahim döyüşün stresini və qələbənin sevincini birlikdə yaşadığı dostunu cismən torpağa əmanət etsə də hər zaman onun bu dünyada var olduğunu hiss edir. Axı şəhidlər ölmür.

Hələ Aprel döyüşlərində olarkən Rahim müəllim anası narahat olmasın deyə öndə olduğu halda ***"Ana, narahat olma biz arxadayıq"*** deyərək anasını arxayın salmaq istəmişdi. Ancaq anasının verdiyi "Oğul, sən geri çəkiləndə düşmən görmədi? Düşmənin önündə durmalısan, arxada yox" cavabını alan zaman qorxmazlığının haradan qaynaqlandığına bir daha əmin olmuşdu. Elə Vətən müharibəsi zamanı da anasına zəng edəndə anasından "Oğul, mən möhkəməm, sən də möhkəm ol. Qələbə arzulayan canına bu qoca anan qurban. Qələbə ilə alnıaçıq dönün" sözlərini eşitmək onun gücünə güc qatmışdı. Anasının sözləri Rahimin şəhid olacağı təqdirdə geridə qalanlarının məğrur duracağının izahı idi.

Qəhrəman oğulları qəhrəman analar dünyaya gətirir. Bu gün Fatma ananın dünyaya gətirdiyi övladları vətən üçün yeri gəldiyində malından, yeri gəldiyində canından keçirlər. Müharibə dövründə ordumuzdan dəstəyini əsirgəməyən, hər zaman şəhid ailələrinin yanında olan qardaşlar kimi tanıdığımız Elçin və Rahim Calalov qardaşlarını çoxları tanıyır. Elçin Calalov "VƏTƏN FƏDAİLƏRİ:ŞƏKİ ŞƏHİDLƏRİ" kitabının maliyyə xərclərini öz öhdəsinə götürməklə şəhid adının əbədiləşdirilməsi üçün daha bir təqdirəlayiq addım atdı. Daha öncə isə Calalov qardaşları Şəki rayonunun Kiçik Dəhnə kəndinin sakinləri ilə birlikdə kənddəki Şəhidlər xiyabanının bərpası üçün önəmli addımlar atıblar. Budur vətəni sevmək, budur şəhidinə ehtiramın bariz nümunəsi.

Vətən vətəni sevənlərin qəlbində sönməyən əbədi məşəldir. Rahim müəllimin vətən sevgisi kimi.

***– Mənim borcum idi ki, xalqımın, ordumun, prezidentimin yanında olum. Vətənin dar günündə vətənə dayaq olmaq hər vətəndaşın borcudur. Bizim prezidentimiz İlham Əliyev də, ordumuz da, xalqımız da öz gücünü sübut etdi və edəcək. Bir gün Zəngəzura, İrəvana, Təbrizə Azərbaycan bayrağı sancılacaq. Bəlkə o torpaqlarda şəhadət arzuma çataram...***



## ŞƏHİDLƏRİN ŞAHİDİ

Qəlbi vətən sevdalı, ruhu vətən əsiri,
Qalmayıb vətən adlı sevgisindən kəsiri.
Vətənin azadlığı Rahimin də əsəri,
Canını sipər edib mərmiyə, güllələrə,
Qanıyla imza atıb vətən oğlu zəfərə.

Adına söyləyirik "Şəhidlərin şahidi"
Qəlbi neçə şəhidin sanki məzar yeridi.
Neçə-neçə döyüşdən geri dönən biridi,
O, cismində daşıyır müharibənin izin,
Hər döyüşdə söyləyib Rahim əzmiylə sözün.

Belə olur vətənə könül verən oğullar,
Oğullar Qarabağa açdı cığırlar, yollar.
Bu vətənin boynuna dolanan güclü qollar,
Vətənin azadlığı qucaqlayan qoludur,
İgidlərin yolları dönülməz haqq yoludur.

*07.06.2023*

## ODLAR YURDU AZƏRBAYCAN

Azadlığı torpağıma qan ilə yazılan vətən,
Varlığından bir pay umdu hər bir qonşun, hər yol ötən.
Soyqırımdan, faciədən çıxıb bu günlərə yetən,
Körpələrdən, ahıllardan düşmənlərin aldığı can,
Məğrurluğun, dəyanətin simvolusan, Azərbaycan.

Azadlığı beşiyində boğulan bir körpə oldun,
Varlığını həzm etmədi düşmənlərin, gözəl yurdum.
Böyümədən əsarəti qollarına qandal vurdu,
Səni məcbur ayırdılar Zəngəzurdan, İrəvandan,
Neçə-neçə övladından ayrı düşdün, Azərbaycan.

Arazın dür sularını iki yerə ayırdılar,
Ananı öz balasından illərdi ayrı saldılar.
Ulu xalqın ürəyinə sağalmaz yara vurdular,
İllərdi ki, Təbrizimin ürəyi ağlayır hey qan,
Könül dağın sağalmazdır, odlar yurdu Azərbaycan.

Qarış-qarış hər oylağın azadlığa qucaq açır,
Günəş azad Qarabağa öz şəfəqlərini saçır.
Şəhidlərim ruhlarıyla dağını, qayanı qucur,
Dosta sevinc, düşmənə dərd verəcək azadlıq sədan,
Azadlığın daim olsun, daim olsun, Azərbaycan.

*28.05.2023*



## MÜNDƏRİCAT

Azərbaycanın tarixinə baxış (*Ön söz əvəzi*) ............ 5
Qədim Şəkinin qəhrəman oğulları ............ 11
Müqəddəs Şəki torpağı ............ 14
Zəfərin 44 anı ............ 15
Qalib Ordum ............ 19
Abdullayev Aqşin İsmayıl oğlu ............ 20
Məmmədov Xəyal Ağabəy oğlu ............ 28
Əhmədov Süleyman Məmməd oğlu ............ 39
İsrafilov Kənan Faiq oğlu ............ 44
Cəbrayılov Mikayıl Əhmədiyyə oğlu ............ 50
Yəhyayev Elşad Məmmədhənifə oğlu ............ 55
İsgəndərov Elnur İsgəndər oğlu ............ 62
Xasıyev Röyal Abuzər oğlu ............ 68
İzzətli Fərid Aydın oğlu ............ 73
İsmayılov Rüstəm Soltan oğlu ............ 78
İsrafilov Çərkəz Cəmaləddin oğlu ............ 81
Qənimətov Ətraf Oktay oğlu ............ 84
Allahverdiyev Namaz Baxış oğlu ............ 89
Mehdizadə Mərdan Əhməd oğlu ............ 93
Qurbanəliyev Tapdıq Dövlətxan oğlu ............ 98
Səlimli Bakıxan Alim oğlu ............ 103
Hümmətov Orxan Kazım oğlu ............ 108
Tağıyev Rahim Qara oğlu ............ 114
Cabbarzadə Məmmədiyə Məhəmməd oğlu ............ 119
Məmmədov İbrahim Nakam oğlu ............ 123
Kamallı Kamal Vilayət oğlu ............ 128
Salamov Zaman Oruc oğlu ............ 133
Nadirov Elçin Nadir oğlu ............ 137
Məmmədov Saleh Mustafa oğlu ............ 141
Sadıqov Ruslan Amiraslan oğlu ............ 145
Rəhimov Asif Həsrət oğlu ............ 149
Mahmudov Murad Mahir oğlu ............ 154
Məmmədsalahov Kazım Sahib oğlu ............ 158
İsmayılov Sakit İsmayıl oğlu ............ 162
Əsgərzadə Xəyal İsrafil oğlu ............ 166
Ələsgərzadə Sənan Muxtar oğlu ............ 169
Məmmədov Elməddin Mikayıl oğlu ............ 174
İsmayılov Hüseyn Fərman oğlu ............ 178
Lətifov Fərid Qiyas oğlu ............ 183
Kərimov Eltun Zaur oğlu ............ 187

Vəlicanov Süleyman Mabud oğlu....................191
Rəsulov Namaz Müsəbbət oğlu....................195
Məmmədov Vüqar İsmayıl oğlu....................198
Nəzirov Azər Oruc oğlu....................201
Qurbanov Afiq Bəhlul oğlu....................204
Şirinov Araz Şahid oğlu....................207
Məmmədhüseynov İlqar Yavər oğlu....................210
Yunusov Zaman Telman oğlu....................213
Qədirov Natiq Əlfidayə oğlu....................216
Qafarov Şahin Nəsir oğlu....................219
Cəlilov Rövşən Əliehsan oğlu....................222
Cabbarov Faiq Məmmədəli oğlu....................225
Baloğlanov Əsədullah Şahid oğlu....................228
Məmmədov Rəfail İsmət oğlu....................231
Abbasov Teymur Rauf oğlu....................234
Məmmədov Natiq Əhməd oğlu....................237
Həbilov Muxtar İsgəndər oğlu....................240
Yusifov Elman Cahangir oğlu....................243
Sadıqov Asim Nazim oğlu....................246
Məmmədov Adil Aydın oğlu....................249
Rüstəmov Tərlan Tapdıq oğlu....................252
Rəfiyev Asim Rəcəb oğlu....................255
Seyidov Eldar Bidon oğlu....................258
Kərimov Kərim Əvvəl oğlu....................261
Hüseynov Elşən Baxış oğlu....................264
Namazov Əyyub Şükür oğlu....................267
Hacəliyev Qalib Salam oğlu....................272
Mikayılov Sadıx (Sadıq) Cavan oğlu....................275
İsrafilov Səxavət Çingiz oğlu....................278
Məmmədov Sahil Novruz oğlu....................281
Süleymanov Vüqar Natiq oğlu....................285
İbrahimov Elşən Cahangir oğlu....................289
Babazadə Yolçu Bəhruz oğlu....................293
Əhmədli Aydın Mustafa oğlu....................297
Məmmədov Əlihüseyn Elşad oğlu....................301
Nağıyev Toğrul Həsənbala oğlu....................305
Əliyev Zaur Eldar oğlu....................309
İmamverdiyev Nicat Məhərrəm oğlu....................313
Musayev Rüfət Ülfət oğlu....................317
Məmmədov Ramin Aydın oğlu....................320
Hacı-İsmayılov Rahib Məmmədemin oğlu....................324
Əhmədov Qalib Rəşid oğlu....................328



İsmayılov Elnur Arif oğlu....................331
Məmmədov Rövşən Müşfiq oğlu....................335
İbrahimli Məhərrəm Şərif oğlu....................339
Əhmədov Asif Vasif oğlu....................342
Musayev Rəşadət Vüqar oğlu....................345
Həmidov Vasif Natiq oğlu....................349
İsgəndərli Səbuhi Yaşar oğlu....................353
Umudlu Elmir Pərviz oğlu....................358
Həmidzadə Hüseyn Akif oğlu....................363
Əzizov Əziz Məmmədvəli oğlu....................366
Hacıyusifov Əhməd Teymur oğlu....................369
Surxayzadə Zəfər Şəmsəddin oğlu....................373
Hüseynov Fərid Etibar oğlu....................376
İbrahimov Elsevər Etibar oğlu....................380
Abışov Ülvi Bayram oğlu....................384
Məmmədov Pənah İslam oğlu....................388
Soltanlı Şahmar Qinyaz oğlu....................392
Allahverdiyev Vilayət Valeh oğlu....................396
Daşdəmirov Taleh Fərhad oğlu....................400
Nurullayev Elnur Fərhad oğlu....................404
Əhmədov Rəşad Ələkbər oğlu....................408
Salamov Qorxmaz Bayram oğlu....................412
Azərbaycan–Ermənistan sərhəd toqquşması....................416
Haqq yolunu dönməyənlər....................417
Qasımov Nihat Mehman oğlu....................418
Azadlıq yolçuları....................421
Heykəl qoyun analara....................423
Boynubükük qərənfil....................424
Ayrılmadı könül candan....................425
Torpağın köksünə köçür oğullar....................426
O an....................427
Qazi....................429
Şəhidlərin şahidi....................430
Odlar Yurdu Azərbaycan....................436

**Manya Səxavətqızı**

VƏTƏN FƏDAİLƏRİ:
ŞƏKİ ŞƏHİDLƏRİ

Bakı, "Apostrof–A", 2023.

Kompüterçi-dizayner ***Səbinə Məmmədova***
Üz qabığı ***Təhmasib Mehdiyev***
Korrektoru ***Mətanət Kərimova***

Çapa imzalanmışdır 03.07.2023. Kağız formatı 70x100 1/16.
Fiziki çap vərəqi 27,5. Sifariş 45. Tiraj 500.

"Apostrof–A" Nəşriyyat Poliqrafiya
müəssisəsinin mətbəəsində çap olunmuşdur.



Xəzər
dənizi
BÖYÜK
Qafqaz
Baş
sıra
Yan silsilə
QAFQAZ
dağları
KİÇİK
Şahdağ silsiləsi
QAFQAZ
ZAQATALA
Salavat aşr.
2895
Katexçay
Cəndargöl
890
Çobandağ
Ceyrançöl
QAZAX
Kür
TOVUZ
Şəmkir su anbarı
Qabırrı
Mingəçevir su anbarı
Acınohur düzü
Acınohur g.
Əyriçay
Qanıx
ŞƏKİ
Bozdağ c-d
Zəyəmçay
ŞƏMKİR
Şəmkirçay
GƏNCƏ
GÖYGÖL
Gəncəçay
MİNGƏÇEVİR
YEVLAX
Samur
Qusar düzü
XAÇMAZ
QUBA
4243
Şahdağ
Bazardüzü d.
4466
4191
Tufan d.
Qudyalçay
Qaraçay
Vəlvələçay
ŞABRAN
Samur-Abşeron kanalı
QƏBƏLƏ
Əlicançay
Türyançay
2205
Dübrar dağı
İSMAYILLI
ŞAMAXI
SUMQAYIT
Abşeron y-a
Masazırgöl
Böyük Şor g.
BAKI
Qum a.
Daş Zirə a.
Böyük Zirə a.
Çilov a.
Şah dili
Qobustan
Ləngəbiz s-d
Pirsaat
Ələt tirəsi
GÖYÇAY
Yuxarı Şirvan kanalı
Baş
Kür
Şirvan
KÜRDƏMİR
Şirvan düzü
kollektoru
İncəçay
BƏRDƏ
Kəpəz d. 3066
Murovdağ c-d
3724
Gamış d.
Tərtər
Sərsəng su anbarı
KƏLBƏCƏR
Xaçınçay
Yuxarı Qarabağ kanalı
Qarabağ düzü
AĞCABƏDİ
AĞDAM
Araz
Mil düzü
Sarısugöl
SABİRABAD
İMİŞLİ
3616
Dəlidağ
XANKƏNDİ
Qarabağ yaylası
ŞUŞA
Qarabağ s-d
BEYLƏQAN
Muğan düzü
ovalığı
Zənbil a.
Xərə Zirə a.
Köndələnçay
FÜZULİ
Həkəri
Gəyən düzü
QUBADLI
Araz
Biçənək aşr.
2346
ŞAHBUZ
Araz su anbarı
NAXÇIVAN
İlandağ
2415
Qapıcıq d.
3904
Gilançay
CULFA
ORDUBAD
BİLƏSUVAR
Bolqarçay
Salyan düzü
NEFTÇALA
Kür
MASALLI
Qızılağac körfəzi
Viləşçay
LƏNKƏRAN
Talış dağları
Kömürköy dağı
2493
ASTARA



Manya Səxavətqızı 1 sentyabr 1988-ci ildə İmişli rayonunda anadan olub. "YAZILMAYAN SƏTİRLƏR DARIXIR", "ON ÜÇ YARPAQ", "FƏDAİLƏR" kitablarının müəllifi kimi tanınır. Eyni zamanda "VƏTƏN MÜCAHİDLƏRİ" layihəsinin həmrəhbəri, "VƏTƏN FƏDAİLƏRİ" layihəsinin rəhbəri, "VƏTƏN FƏDAİLƏRİ: NAXÇIVAN ŞƏHİDLƏRİ", "VƏTƏN FƏDAİLƏRİ: İMİŞLİ ŞƏHİDLƏRİ", "ŞAHMARIN EŞQ ƏSƏRİ", "QEYRƏT TƏCƏSSÜMÜ" kitablarının müəllifidir. "VƏTƏN FƏDAİLƏRİ: ŞƏKİ ŞƏHİDLƏRİ" onun növbəti kitabıdır.

AYB-nin və AJB-nin üzvüdür. "Qızıl Qələm", "Simurq-2021", "Dünya Qadın" və 2023-cü ildə "Altın Palmiye-Yılın Şairi" mükafatlarına layiq görülüb.

Şeirləri müntəzəm olaraq dövrü mətbuatda dərc edilir. Yaradıcılığında, əsasən, vətənpərvərliyin təbliğatına, şəhidlərimizin tanıdılmasına geniş yer verir.

Ailəlidir, 2 övladı var.

